Abbas Məmmədtağı oğlu Musa

ELM İNSANLARIN YEGANƏ ÜMİD YERİDİR

Bakı – Mütərcim – 2009

Rəyçi: *fizika-riyaziyyat elmləri namizədi*
Qəhrəman Hüseyn oğlu Hüseynov

4 21
A 13
262276

Abbas Məmmədtağı oğlu Musa.
Elm insanların yeganə ümid yeridir. – Bakı: Mütərcim, 2009. – 316 səh.

Bu kitab əsasən müəllifin Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili və idarə olunması yolları ilə bağlı mətbuatda çap olunmuş məqalələri əsasında yazılmışdır.

Kitabda «Yenidənqurma»dan əvvəlki dövrlərdə ölkəmizdə elmi fəaliyyətin təşkilinin vəziyyətinə diqqət yetirilir; dünyanın inkişaf etmiş ölkələrinin elmə münasibətləri araşdırılır. Elm və iqtisadiyyat arasındakı əlaqənin zəruriliyini və qarşılıqlı olmasını nəzərə alaraq, Azərbaycan Respublikasında elmi fəaliyyətin yenidən qurulması – ölkə iqtisadiyyatını uğurlu yönəltmək məqsədilə elmi fəaliyyətin təşkili və idarə olunması yolları haqqında fikirlər söylənilir.

$M\frac{4702020000}{026}36-09$

© Abbas Musa, 2009

BAŞLIQLAR

Müəllifdən 6
Ön söz əvəzi 10

I BÖLÜM
UĞURLU ELMİ FƏALİYYƏT BAZAR İQTİSADİYYATININ ƏSASIDIR
1.1. Azərbaycanın elm tarixindən 16
1.2. Yenidənqurma siyasəti və Azərbaycan Respublikasında elmi fəaliyyətin yeri 19
1.3. Azərbaycan Respublikasında elmin bugünkü vəziyyəti haqqında 24
1.4. Dünya təcrübəsində elmi fəaliyyətin təşkili və idarə olunması 27
1.5. Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili və idarə olunması təcrübəsi 40
1.6. Azərbaycan Respublikasında elmi fəaliyyətin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması 43
1.7. Tarixin dərsləri və ya sabahımızı düşünürüksə 57
1.8. Elmlər Akademiyasının institutları ilə universitetlərin inteqrasiyası haqqında 63
1.9. Bazar iqtisadiyyatı, elmi fəaliyyət və istehsal arası qarşılıqlı əlaqə 65
1.10. Azərbaycan Respublikasında elmlə istehsalın əlaqəsinin gücləndirilməsinin zəruriliyi və yolları haqqında 67
1.11. Özəl sektorda elmi fəaliyyət, onun xüsusiyyətləri 74

II BÖLÜM
İNTELLEKTUAL MÜLKİYYƏT VƏ SAHİBKARLIQ
2.1. Milli iqtisadiyyatın inkişafında intellektual mülkiyyətin rolu 78
2.2. Azərbaycan Respublikasında intellektual mülkiyyət hüququnun qiymətləndirilməsi haqqında 80
2.3. Yenidənqurma və sahibkarlıq 89
2.4. İxtiraların sənayedə tətbiqində xırda tədqiqat biznesinin rolu 105
2.5. Azərbaycan Respublikasında intellektual sahibkarlığın qarışıq (dövlət-özəl) strukturlarının yaradılması yolları haqqında 116
2.6. Sənaye mülkiyyətinin kommersiyalaşdırılmasının elmi fəaliyyətə təsiri 120

İnsanlıq və həyatın davamlığı şərtləri

Ulu Tanrı!
Gözəl Tanrı!
Gök Tanrı!
Türkə milli qüvvət ver!
Türkü hər millətdən cəsur yarat!
Düşmən şərindən saxla! Türkü igidlikdə daim et!
Türkü ərlik /qəhrəmanlıq/ davasıyla yaşat! Türkü gerçəkçi yap! Türkün könlünə hər şeydən öncə, hətta qursağına əppək /yemək/ qoymaqdan əvvəl türklük sevgisini qoy! Türkü ideal ilə Yaşat və idealı həqiqət etməyə çalışsınlar! Törələrini /dəblərini/ canları kimi saxlat! Türkə zövq və rahat vermə! Tərsinə, Zəhmətə alışdır! Zəhmətlə ürəkləri, bədənləri dəmir olsun! Bu sayədə onlara yüksək çalışma qüdrəti verirsən! Türkü çalışqan, cevval edərsən! Türkə dəyişməz bir xarakter ver. Zamanla xarakteri dəyişməsin, sadə yetginləşməklə dəyişiklik görsün!

Oğuz Xaqanın Türklük Duası

2.7. Ölkə iqtisadiyyatının strateji planlaşdırılmasında texnika və texnologiyalar üzrə lisenziyaların satın alınmasının planlaşdırılması............129
2.8. İntellektual mülkiyyət hüquqlarından istifadənin inkişafı 134

III BÖLÜM
XXI ƏSR ELMİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI
3.1. "XXI əsr elmi: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransı və onun tələbləri..139
3.2. Azərbaycan elmi XXI əsrdə: yeni öhdəliklər və vəzifələr....................151
3.3. İqtisadi yüksəlişimizin soraqlarında..189
3.4. Bazar iqtisadiyyatı dövlətin çevik elm-texnika siyasətinə söykənməlidir.. 219
3.5. Azərbaycan Respublikasında elmi-texniki fəaliyyətin təşkili və yerinə yetirilməsinin Konsepsiyası 230
3.6. Beynəlxalq elmi əməkdaşlıqda özəl sektorun yeri...............................232
3.7. Avropa Şurası və elmi-texniki siyasətimiz 234
3.8. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının maraqları..246
3.9. Azərbaycan Respublikası Elmin Müdafiə Fondunun yaradılması haqqında 251
3.10. Təhsil sisteminin humanistləşdirilməsi və demokratikləşdirilməsi...254

IV BÖLÜM
ELMLƏ BAĞLI DÜŞÜNCƏLƏR VƏ DEYİMLƏR
4.1. Elm haqqında 260
4.2. Elmi fəaliyyətin təşkili haqqında..261
4.3. Elmi fəaliyyətin maliyyələşməsi haqqında 273
4.4. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası haqqında 279
4.5. Elm və sahibkarlıq haqqında 282
4.6. Elmlə bağlı ümumi deyimlər 294

Son söz əvəzi 309
Ədəbiyyat siyahısı...310

MÜƏLLİFDƏN

Dünya ölkələrinin çoxillik təcrübəsi təsdiq edir ki, iqtisadiyyatın inkişafı və onun dinamikası tarixən uyğun iqtisadi mexanizmin formalaşmasından–sistemləşdirilməsindən asılı olmuşlar. Bu mexanizmi düzgün formalaşdıran ölkələr inkişaf etmiş – güclənmiş, düzgün formalaşdıra bilməyənlər isə daim daha da zəifləmişlər. Bu baxımdan ölkə iqtisadiyyatının inkişafı yolunda iqtisadi mexanizmin ən əsas elementlərindən biri olan elmi-tədqiqat sferasının vəziyyəti və bundan irəli gələn funksiyası müəyyənləşdirilməli və tələb olunanların öhdəsindən necə gələcəyinin yolları daim dəyişən dünyanın tələblərinə uyğunlaşdırılmalıdır.

Bazar iqtisadiyyatı şəraitində elmi fəaliyyətə ehtiyac əvvəlki dövrlərə nəzərən xeyli artaraq, günün–bazarın tələbinə çevrilmişdir. Bazar iqtisadiyyatının əsaslarından olan rəqabət elmi fəaliyyətin nəticələrinin istehsalda özünü tapması ilə yaradılır, kim bazara daha keyfiyyətli və daha ucuz mal çıxarırsa, o rəqabət meydanında qalibdir. Bu isə o deməkdir ki, kim rəqibləri qabaqlayaraq, elmi fəaliyyəti düzgün istiqamətləndirib, tez bir zamanda başa çatdıraraq elmi nəticələrini də istehsalda reallaşdırarsa, öz varlığını qoruyub saxlaya biləcək və inkişaf edəcəkdir, yoxsa yox.

Bu gün Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçilsə də bazarda rəqabət tələb olunan səviyyədən çox aşağıdır. Bu əskiklik, öz-özlüyündə elmi fəaliyyətə sahibkarların diqqətini (ehtiyaclarını) xeyli azaldır ki, bu da öz növbəsində, elmin inkişaf etdirilməsi zərurətini belə, nə qədər acı olsa da, aradan qaldırır, bu isə ölkə iqtisadiyyatının ətalət inkişafı mərhələsində olması deməkdir. Əvvəlki dövrlərdə, başqa iqtisadi şəraitlərdə (məs., qapalı sovet dövlətində) bazarın açıq olmadığı halda elmin nəticələrinin müntəzəm olaraq tətbiq olunmaması iqtisadiyyatda inkişafın zəifləməsində bir o qədər də hiss olunmurdu. Lakin rəqabəti ortaya qoyan bazarın açıq olduğu halda bunu hiss etməmək mümkün deyildir.

Azərbaycan Respublikasında (AR) "əgər 90-cı illərdə nisbi elmtutumlu məhsullardan kondensioner istehsalı – 309 min ədəddən 2,3 minə qədər, soyuducu istehsalı 330 mindən 0,6 minə qədər azalıbsa, keçmiş "sovet nəhənglərinin" elmi-texniki tərəqqiyə yardımlarından danışmaq belə yersizdir".[1] Digər istehsal sahələrinin də belə bir vəziyyəti yaşadıqlarını nəzərə alıb, deyə bilərik ki, onlar elə əvvəllərdə də elmi-texniki yeniləşmələrə can atmadıqlarından bu halın ortaya çıxmasına özləri səbəb olmuşlar.

Bazar rəqabəti otaya qoyur, deyiriksə, unutmamalıyıq ki, rəqabət, əsasən, elm sahəsində, başqa sözlə, elmin nəticələrindən bəhrələnən istehsal məhsulları arasında gedir. Elm rəqabəti, rəqabət bazar iqtisadiyyatını ortaya qoyur. Elmin nəticələri ortada yoxsa, rəqabət də, bazar iqtisadiyyatı da yoxdur – yəni inkişaf yoxdur deyə bilərik. Bu səbəbdəndir ki, deyirlər "elm inkişafın mərkəzində durur". Doğrudan da elmi olmayan inkişaf etmiş heç bir dövlət yoxdur və heç bir zamanda olmamışdır. Davam edərək onu da demək lazımdır ki, yer altı sərvətlərindən əldə olunan maliyyə vəsaitləri banklarda yatıb qalan dövlətlər heç də inkişaf etmiş sayılmırlar. Əsasən bu "üçlüyün" birgə fəaliyyətinin təmin olunması elmi-texniki tərəqqinin iqtisadi mexanizminin formalaşmasında əsas olub, "...ölkə iqtisadiyyatında texniki-texnoloji yeniləşmə prosesini, elmi tədqiqat sferasının problemlərini bazarın ixtiyarına buraxmaq gərəkdir" [1] tələbini ortaya qoyur. Bütün iqtisadi sahələrdə olduğu kimi elm–tədqiqat sferasında da dövlət inkişaf mexanizminin əsas elementlərindən biri olaraq qalmaqdadır. Dövlət bu funksiyasını iqtisadi proqramlarını ortaya qoymaqla– özəl sektorda elmi fəaliyyəti istiqamətləndirmək, maliyyə yardımları etmək və dünya bazarında rəqabətdə onlara yardımçı olmaqla yerinə yetirir.

Müasir elm elə bir hala çatmışdır ki, "kiçik ölkələr təkbaşına böyük, ən müasir istiqamətlər üzrə tədqiqatlar aparmaq gücünə malik olmurlar. ... Avropanın inkişaf etmiş kiçik ölkələrinin timsalında elmi fəaliyyətə investisiyanın cəlb olunması məsələsi dövlət–özəl sektor münasibətləri ilə də həllini tapmalıdır. Yaponiyada 70-ci illərdə özəl sektora investisiya qoyuluşlarının ancaq 20-25 faizi dövlət büdcəsi tə-

rəfindən maliyyələşdirilmişdi. Bununla yanaşı, elmin ən öncül istiqamətlərində tədqiqat aparmağın mümkünlüyünü bu ölkələr üçün beynəlxalq elmi əməkdaşlıqdan keçdiyini" [1] deyə bilərik.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının, ilk öncə, görünən öncül sahələrinin inkişaf proqramlarını dünya və milli elmi tədqiqatların nəticələri əsasında işləyib hərəkətə gətirməklə yanaşı, gələcək ön görülən (proqnozlaşdırılan) iqtisadi məsələləri gündəliyə gətirə bilmək üçün ölkənin elmi-tədqiqat sferası yenidən qurulmaqla, mütləq sistemli, ölkənin aparıcı iqtisadi sahələrini içinə alan əhatəli təşkil olunmalıdır. Ancaq bu yolla əldə olunan tətbiq xarakterli elmi-texniki nəticələrə söykənən iqtisadi proqramlarla ölkə iqtisadiyyatının davamlı inkişafı təmin oluna bilər. Bununla yanaşı, indiki iqtisadi imkanların (əsasən, faydalı qazıntıların) tədricən də olsa sıradan çıxacağını nəzərə alaraq, bunlara paralel müasir elm sahələrinin də əhatə olunduğu proqramların işlənib hazırlanması və icrası daim və inamla təmin olunmalıdır ki, ölkənin gələcək inkişafının əsası qoyulmuş olsun.

Sovet dövründə elmi fəaliyyətin nəticələrinin tətbiqi məsələləri nə qədər zəif idisə, bu nəticələrin reallaşdırılmasının başqa mühüm bir yolu olan kommersiyalaşdırma nəzərə çarpmayacaq qədər aşağı səviyyədə olmuşdur. Bu səbəbdən bu istiqamətdə kadrların hazırlanması da günümüzün ən vacib məsələlərindən biridir.

Respublikamızda elmi fəaliyyəti deyilən tələbləri ödəyə biləcək səviyyəyə çatdıra bilmək üçün bütün vasitələrdən isifadə edib, "Elm fondu" yaratmaqla onun maliyyələşməsinin səviyyəsini tələbə uyğun olmasına nail olmalıyıq. Unutmamalıyıq ki, elm yarımçıqlığı sevmir, bütövlüyü sevir. Elmə çəkilən yarımçıq xərc izafi xərcdir.

Sonda demək istəyirəm ki, elmi fəaliyyətlə bağlı düşüncələrimin bir qismini mətbuatda davamlı olaraq çap etdirdiyim məqalələrim vasitəsilə oxucularla bölüşsəm də, nə vaxtsa bu istiqamətdə hər hansı bir kitab yazacağım haqda heç bir istəyim olmamışdır. Bunu mütəxəssislərin işi olaraq düşünmüşəm və bu gün də bu düşüncədəyəm. Lakin nə etməli ki, elmimizin bu günki vəziyyətindən və ona mütəxəssislərimizin biganə münasibətlərindən irəli gələn narahatlığım məni bu yola yönəltdi.

Təbii ki, elmi fəaliyyətin təşkili kimi çox vacib və çətin bir məsələnin həll yollarını görmək bir o qədər də asan məsələ deyildir. Bu səbəbdən arzu edirəm ki, kitabda deyilən fikirlərin bu və ya digər qismi ilə razılaşmayan mütəxəssislər özlərinin ortaya qoyacaqları əsərlərində (bu isə son dərəcədə vacibdir) düşüncələrini söyləmiş olsunlar. Mən buna ancaq sevinərəm. Təki elmimiz qazansın!

Əsərin yazılmasında mənə təmənnasız məsləhətləri ilə kömək etmiş insanlara səmimi qəlbdən, sağ olun, deyirəm.

Qardaşım Qurbanın əziz xatirəsinə həsr edirəm!

ÖN SÖZ ƏVƏZİ

Davamlı elm Davamlı İqtisadi İnkişafın təminatçısıdır

Müasir insan, gələcək nəsillərin qarşılaşa biləcəyi iqtisadi çətinlikləri hiss etməkdədir. Bu gün dünyanın bir çox ölkələrində əhali bu və ya digər səbəblərdən, maddi çətinliklərlə üz-üzə dayanmışdır. Bu çətinliklərin ortaya çıxmasında insanların (dövlətlərin) öz aralarında aramsız olaraq apardıqları xırda və iri müharibələrin rolu olduqca böyük olmuşdur. Bu səbəbdən bir çox insanlar tarix boyu müharibələrə son qoyulması yollarını, onlardan xilas olmağın üsullarını, bəşər övladının ədalətli, xoşbəxt yaşayışının təmin olunması məsələlərinin həllini arayıb tapmağa çalışmışlar. Bunların sırasında Azərbaycanın filosof-şairlərinin də fikirləri böyük maraq doğurmaqdadır. Belə ki, müharibələrin insanlara yaxşı heç nə gətirmədiyi H.Cavidin "Topal Teymur" əsərində tam açıqlığı ilə qələmə alınmışdır. Əmir Teymur qılıncın gücü ilə dünyanı fəth etsə də, o, insanlar arasında haqq və ədaləti qərarlaşdırmaq istəyinə nail ola bilməmişdir. Tarixi faktlara əsaslanan filosof-şair bəşəriyyətin xilas yollarını qanlar tökülməsində deyil, qan izlərinin kəsilməsində görürdü:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur Yer üzünü.

Bəs qan izlərini kəsmək ümumiyyətlə mümkündürmü?

H.Cavid bu müqəddəs işin yerinə yetirilməsinə qadir olan yeganə qüvvə olaraq, insanlar arası "bəşəri məhəbbəti" qəbul etmişdir.

Dünyanın mahiyyətini və insanların xoş günlərini bəşəri eşqdə görən dahi Nizami Gəncəvi isə demişdir:

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin.

Bununla o, insanları birliyə, bir-birini sevməklə yaşamağa çağırırdı. İnsanların bir-birini sevmədən yaşaya biləcəklərinii qəbul etmirdi.

Tətbiqini tapan elmin və təhsilin də bəşəriyyəti aclıq və düşmənçiliklərə aparan müharibələrdən xilas edə biləcək ilahi qüvvə olduğunu qədim zamanlardan hiss etmiş əcdadlarımız "əməlsiz elm bir heçdir" (N.Tusi, XIII əsr), "Hər kimin elmi var, o insandır" (S.Ə.Şirvani, XIX əsr) söyləmişlər.

Göründüyü kimi, bəşər övladları Yer üzündə qan tökülməsinin qarşısını almağın yolları haqda fərdi olaraq daim düşünmüşlər, lakin bu fərdilik müharibələrə son qoyulmasına apara bilməmiş, xəbis, pis niyyətli insanlar vaxtaşırı müharibələr törətməyə nail olmuşlar.

XX əsrin ortalarında bəşəriyyət bu istiqamətdə daha böyük fəlakətlərlə üzləşdi, ikinci dünya müharibəsi 40 milyondan çox insan ölümünə səbəb oldu. Bu azmış kimi, müharibənin sonuna yaxın ortaya çıxan yeni kütləvi qırğın silahları imkanlarına görə bu müharibənin törətdiyi dəhşətləri, demək olar ki, unutdurdu. İnsanlar gələcək haqda ciddi düşünməyə məcbur oldular. Gələcəkdə müharibələrin baş verməsi səbəblərinin aradan qaldırılması məqsədilə tədbirlər görülməsi zərurət olaraq qarşıda durdu. Bu tədbirlərdən ən önəmlisi, müharibə qurtaran kimi yaradılan Birləşmiş Millətlər Təşkilatı və onun təsis etdiyi müxtəlif təşkilatlar oldu. Bu təşkilatlardan biri də 1945-ci il 16 noyabrda Londonda təsis edilmiş və nizamnaməsi qəbul olunmuş BMT-nin Elm, Təhsil və Mədəniyyət Məsələləri üzrə Baş Konfransıdır (YUNESKO–dur). YUNESKO-ya üzv olan dünya xalqlarının birgə fikrinə görə, insan cəmiyyətinin xoş yaşayışına, dünyada sülhə, əsasən, insan mənəviyyatının dayaqlarını təşkil edən təhsilə, elmə və mədəniyyətə insanların birgə sahib olmaları nəticəsində nail olmaq olar. Elə bu səbəbdəndir ki, YUNESKO əlli ildən çoxdur ki, bu

istiqamətdə fəaliyyət göstərir və elmin bütün dünya xalqları tərəfindən mənimsənilməsinə çalışır. Bu müddətdə qlobal müharibələrin baş verməməsində, şübhə yoxdur ki, YUNESKO-nun bu istiqamətlərdəki fəaliyyətlərinin çox böyük köməyi olmuşdur. Başqa sözlə, H.Cavidin axtardığı bəşəriyyətin xilaskarı bir daha aşkarlanmışdır. Bu səbəbdən xalqların birlikdə elmə yiyələnmələri və ondan bəhrələnmələri ilə bəşəriyyətin qan tökülməsindən azad ola biləcəyini nəzərə alaraq, bu gün inamla deyə bilərik ki,

Hər kim ki, edə hakim elm işini,
Qurtaran dahi odur Yer üzünü.
/Siləcək Yer üzündən qan izini/

Elmin ilahi gücə malik olmasına misal olaraq, bazar iqtisadiyyatını göstərmək olar. Azərbaycanın da keçmək istədiyi bu iqtisadiyyat çox incə, sərt və mürəkkəb bir sistemdir. Bununla belə, o, bu gün cəmiyyətin inkişafının ən optimal yoludur. Bazar iqtisadiyyatını bu səviyyəyə qaldıran, ən əvvəl, onun elmə söykənməsi və hətta elmin özünü durmadan inkişafa məcbur etməsidir. Elm kənara qoyulsa, bazar iqtisadiyyatı mənasını itirər. Bunu bazar iqtisadiyyatının digər əlamətləri haqda demək olmaz. Beləliklə, iqtisadiyyat bilavasitə elmin nəticələrinə söykənib, inkişaf tapır. Əgər elmə dirəniş yoxdursa və ya zəifdirsə, o ölkədə iqtisadiyyatın pozulması labüddür. Bu mənada, respublikamızda iqtisadiyyatın arzu olunan səviyyədə olmamasının əsas səbəblərindən biri kimi, elmi potensialının kifayət qədər olmasına baxmayaraq, elmi fəaliyyətə lazımı diqqətin olmamasında – mövcud elmi potensialdan səmərəli istifadə olunmamasında görmək lazımdır.

Elm ona laqeyd olanları bağışlamır.

Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı haqqında yeni Konsepsiyasında deyilir ki, İnsan cəmiyyətinin istər ərazi, istərsə də ehtiyac təhlükələri ilə qarşılaşmaması üçün hər bir ölkə elmi-texniki nailiyyətlərə sahib olmalıdır. Başqa sözlə, elmə sahib olan hər kəs (alimlər) insanları hər cüə qorxu və təhlükələrdən qoruya biləcək xilaskar olacaqdır. Elmin bu qüdrətini biz Azərbaycan elm tarixinin yaxın keçmişinə nəzər salmaqla yəqinləşdirə bilərik.

Bəşəriyyət tarixində baş vermiş müharibələr içərisində öz dəhşətləri ilə seçilən İkinci Dünya müharibəsinin başa çatmasından çox illər arxada qalmışdır. Dünya xalqları belə müharibələrdən gələ biləcək bəlaları duyaraq, əl-ələ verib, faşizmə qarşı birgə mübarizəyə qalxmış və bütün güclərini müharibənin tələbləri istiqamətində səfərbərliyə almışdılar. Bunların arasında elmi fəaliyyət birinci yerdə durmuşdu. Elə buna görə də deyirlər ki, hansı dövlətdə elmi fəaliyyət düzgün qurula bilmişdirsə, o da müharibədən qalib çıxmışdır. Görünür, bu həqiqətin nəticəsidir ki, texniki tərəqqi II Dünya müharibəsinin bəhrəsi kimi səciyyələndirilir.

Müharibə sovet dövlətində, ilk növbədə, hərbi aviasiyanın inkişafına təkan vermişdir. Sovet aviatorlarının yaratdıqları yeni hərbi təyyarənin tələblərinə cavab verən mühərriki yaratdıqdan sonra, gündəlikdə bu mühərriki (deməli, təyyarəni bütövlükdə) hərəkətə gətirə biləcək yeni keyfiyyətli mühərrik yanacağının alınması və onun sənaye miqyasında istehsal texnologiyasının işlənib hazırlanması dururdu.

«Köhnə texnologiya ilə alınan aviabenzin yeni yaradılmış mühərrikin tələblərinə cavab verə bilmirdi. Beləliklə, cəbhədən gələn sifariş təyyarə konstruktorundan mühərrik konstruktoruna və oradan da neftçi alim Yusif Məmmədəliyevin Bakıda elmi laboratoriyasına uzanan uzun bir zənciri ortaya qoymuş oldu. Vaxt gözləmirdi. Faşistlər artıq Qafqaza belə daxil olmuşdular. Y.Məmmədəliyevin çox qısa bir zamanda bu məsələni olduqca çox uğurlu həllini tapa bilməsi ilə sovet təyyarəçisi hamıdan hündürə, hamıdan uzağa uçmağa və manevr qabiliyyətini yüksəltməyə imkan əldə etmiş oldu» (bax, Б.А.Платонов, Мамедалиев, Изд.-во АН Азерб. ССР). Nəticədə, sovet aviasiyası bütün cəbhə boyu hökmranlığı ələ alıb, Yerdə və sularda gedən döyüş meydanlarında da sovet ordularının qələbəsini təmin etməklə, müharibənin **taleyini** həll edə bildi. Görünür, elə bu səbəbdəndir ki, hər il II Dünya müharibəsi başlandığı və başa çatdığı günlər yad edilərkən, istər-istəməz, Böyük İnsan, Vətənpərvər, Vətəndaş, ensiklopedik biliyə malik alim Y.Məmmədəliyev və əməkdaşları xatırlanır.

Yusif Məmmədəliyev Yer üzündən qan izlərini silən dahilər cərgəsinə daxil ola bilmişdir.

Xatırlama: 1999-cu ildə alimin anadan olduğu günün yad edilməsi münasibəti ilə yazdığım bir məqalənin sonunda göstərmişdim ki, «Y.Məmmədəliyev kimi dahilərin adları zaman keçdikcə nəinki unudulmur, əksinə, onlara olan ehtiyac zamanına və məkanına görə daha çox duyulur. Y. Məmmədəliyev təkcə Azərbaycanın və ya keçmiş Sovet İttifaqının deyil, başa vurduğumuz əsrin yaddaşında qalacaq bəşəriyyət övladıdır. İstər müharibə dövründə faşizm üzərində qələbənin əldə olunmasındakı xidmətlərini, istərsə ölkə iqtisadiyyatının dirçəldilməsi və inkişaf etdirilməsi üçün elmin layiq olduğu mövqeyini qazanması sahəsində gördüyü təşkilati işlərini, respublikada elmi fəaliyyətin istiqamətlənməsi və uyğun kadrların hazırlanması siyasətinin həyata keçirilməsi üzrə planlarını, nəhayət, dünya elminə töhfələrini nəzərə alaraq, 2000-ci ilin Y.Məmmədəliyev ili elan olunması ədalətli olardı». Nə yaxşı ki, alimin 100 yaşının tamam olduğu 2005-ci il YUNESKO tərəfindən "Y.Məmmədəliyev ili" elan olunmuşdur.

Bu gün artıq Y.Məmmədəliyev aramızda yoxdur. Yaradıcılığının yetkin çağında, əlli altı yaşında onun qəflətən müəmmalı ölümü bütün Azərbaycan xalqını, dünya elm qədrini bilənləri, dünyada qanlar axıdılmasına qarşı olanların hamısını sarsıtdı. Nə yaxşı ki, o öz məktəbini yarada bilmişdir.

Nə və necə etməli? Kitabda bu sualın cavablandırılmasına çalışmışır.

Bu sualın cavablarından biri, qismən təhsil, Elm və Mədəniyyət üzrə İslam Təşkilatının /İSESKO-nun/ məqsəd və fəaliyyətində öz əksini tapmışdır. İSESKO-nun məqsədləri arasında tətbiqi elmləri inkişaf etdirmək, yüksək texnologiyalardan istifadə etməklə iqtisadiyyatı inkişafına nail olmaq xüsusi əhəmiyyət kəsb edir.

İSESKO-nun məqsədlərini reallaşdırmaq yolundakı fəaliyyətinə gəldikdə, onun əhatə dairəsi çox genişdir, o cümlədən:

1. Elmi-texniki təhsil;
2. Elm və texnika sahəsində elmi-tədqiqatlar və dərc;
3. Elm və texnika sahələrində tədqiqatlar üzrə əməkdaşlıq və koordinasiya;
4. Elmi-tədqiqat mərkəzləri, universitetlər və istehsal sahələri;

5. Elm, texnika və cəmiyyət XX1 əsr çağırışları qarşısında və s. istiqamətlərdə fəaliyyət göstərir.

Sevindirici haldır ki, 20 il öncə yaradılmış bu mötəbər təşkilata müasir elmi fəaliyyət sahəsində müəyyən təcrübəyə malik olan və müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası /AR/ da qatılmışdır. Yeni əsrdə, yeni minilliyin başlanğıcında Azərbaycan xalqı müsəlman qardaşları ilə birgə qarşılıqlı maraq kəsb edən bəşəri elmi-texniki işlərin yerinə yetirilməsinə öncül olaraq başlamalı və yubanmadan digər ölkələrlə birgə vaxtı ilə yaratmış olduqları təbiət elmlərinə yenidən sahib olmalıdırlar.

I BÖLÜM

UĞURLU ELMİ FƏALİYYƏT BAZAR İQTİSADİYYATININ ƏSASIDIR

1.1. Azərbaycanın elm tarixindən

Qüvvət elmdədir, elmsiz heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
N.Gəncəvi

Azərbaycanda keçmiş dövr elm tarixindən danışarkən, onu Yaxın Şərq ölkələrinin tarixindən ayırmaq düz olmaz. Bununla belə, Azərbaycanda keçmişdə olmuş elmin səviyyəsi haqda təsəvvür yaratmaq məqsədilə Azərbaycanın, bütövlükdə Şərqin elm ulduzlarından biri Nəsrəddin Tusi və onun əməkdaşlarını (məktəbini) xatırlatmaq istəyirəm. XIII əsrdə yaşamış N. Tusi elmin əsl mahiyyətini qiymətləndirərək, demişdir: «Əməlsiz (tətbiqsiz – A.M.) elm bir heçdir!». Bu gün dahi İsaak Nyutonun adı ilə tanıdığımız binomun 12-ci dərəcəyə qədər açılışı N.Tusiyə məxsusdur. Onun adı ilə bağlı olan Marağa rəsədxanasında görülmüş işlərin böyük bir qismi indi də öz əhəmiyyətini itirməmişdir. Dövlət tərəfindən elmə göstərilmiş diqqətin nəticəsidir ki, o dövrdə Azərbaycan dövlətinin iqtisadiyyatı və hərbi qüdrəti çox yüksək olmuşdur. N.Tusi dövrü Azərbaycanın qızıl dövrlərindən biri kimi yaddaşlarda qalmışdır...

Əgər ən yaxın keçmişə nəzər salsaq, II Dünya müharibəsi dövründə neft kimyası sahəsində çalışan alimlərimizin əldə etdikləri elmi və praktiki nəticələr hesabına, sovet hərbi aviasiyasının bütün cəbhə boyu hökmranlığı ələ almasını, deməli, nəticə etibarı ilə müharibənin taleyinin həllini təmin etmiş dahi alim Y.Məmmədəliyevi və onun məktəbini görə bilərik.

Bugünkü Azərbaycan elminə nəzər salsaq, müasir elm sahələrinin böyük əksəriyyətində parlaq uğurlar qazanmış onlarla alimin adını çəkmək olar.

Bununla yanaşı, sovet dövründə kifayət qədər elm potensialına (kadrlarına) malik olmasına baxmayaraq, Azərbaycanda elmi fəaliyyətin keçirdiyi maliyyə böhranının son illər ərzində daha da dərinləşdiyini görməmək mümkün deyildir. Məlumdur ki, keçmiş Sovet Respublikaları arasında təkcə Ukrayna və Azərbaycan iqtisadi cəhətdən özünü təmin etmək iqtidarında olub. Bu səbəbdən, yenidənqurmadan və dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycanın sürətlə inkişaf edəcəyinə böyük ümidlər bəslənilirdi. Lakin Dağlıq Qarabağ bölgəsində Azərbaycanın, növbəti dəfə, ermənilər və havadarları tərəfindən zorla müharibəyə cəlb olunması və bundan irəli gələn səbəblər üzündən yenidənqurma prosesinin bütövlükdə nəzarətdən çıxması bəslənilən ümidlərin özünü doğrultmamasının əsas səbəblərindən biri oldu. Nəticədə Azərbaycan iqtisadiyyatı və elmi, əksinə, ağır bir vəziyyətə düşmüş oldu. Biz əminik ki, müharibənin ədalətlə başa çatdırılması nəticəsində Azərbaycan iqtisadiyyatı və elmi mövqelərini arzu olunan səviyyələrə çatdırmaqla, qarşılıqlı əlaqədə gələcək inkişaflarını təmin edə biləcəklər.

Azərbaycan elminin bu günkü vəziyyəti haqda danışarkən, istər-istəməz, Azərbaycanın, ümumiyyətlə Yaxın Şərqin keçmiş dövrlərini xatırlamalı olursan. Belə ki, yuxarıda da deyildiyi kimi, (Azərbaycanın qızıl dövrü adlanan) orta əsrlər Azərbaycanda elmin imkanları yüksək səviyyədə dərk olunmuş, müxtəlif istiqamətlərdə inkişaf etdirilmişdir. Əfsuslar olsun ki, sonralar ona göstərilən biganəliklər və s. səbəblər üzündən elmi fəaliyyət davamlı və sistemli təşkil oluna bilməmişdir. Nəticədə elmin ardıcıl inkişafı olmamış, elm, dövlətin iqtisadi və hərbi qüdrətinin inkişafında öhdəsinə düşən rolu oynaya bilməmiş, elmi fəaliyyət aradan qalxmışdır.

Təbii olaraq belə bir sual qoyula bilər ki, niyə elm yarandığı qədim Asiyada, əsasən Yaxın Şərqdə, o cümlədən, müsəlman ölkələrində deyil, ancaq son əsrlərdə Avropada iqtisadiyyatın yüksəlişini və davamlı inkişafını təmin edən faktor olaraq ortaya çıxmışdır. Bunun bir çox obyektiv və subyektiv səbəbləri qeyd oluna bilər.

Bizcə, əsas obyektiv səbəb olaraq, deyə bilərik: bu ona görə belə olmuşdur ki, iqtisadiyyatda tətbiq oluna biləcək hər hansı əsaslı elmi

nəticələrin əldə olunması üçün bir qayda olaraq bir neçə elm sahəsinin inkişaf edib müəyyən səviyyəyə çatmaları tələb olunur. Başqa sözlə, baxılan məsələ üzrə bir-biri ilə bağlı elm sahələrindən hər hansı biri tələb olunan suallara cavab verə bilməzsə, yeni elmi (əməli) nəticə də əldə oluna bilməz (çətinləşər). Bu obyektiv səbəbdən elmin bu dövrünü yaşayan Şərq dünyası, «əməlsiz elm bir heçdir!» desə də (bunu görsə də), həyatda onu davamlı olaraq lazımi səviyyədə reallaşdıra bilməzdi və belə də oldu: Azərbaycan Respublikasında (Şərqdə) elmin inkişafı elə bir mərhələdə idi ki, onun istehsala tətbiqi özünü geniş mənada tapa bilmədi. Bu, elmin inkişafının spiralvarı xarakterdə olması, elmlərin zəncirvarı bağlılığı ilə müəyyənləşir (şərtlənir). Bunun üçün hər hansı bir sahədə elm, digərini tamamlayan kompleks inkişafını tapmalıdır, buna isə zaman lazım idi. Bu zaman XVII - XVIII əsrlərdə gəlib çatdı. Elm bu halını Qərbi Avropaya keçdiyi müddətdə tapdı. Başqa sözlə, elm iqtisadiyyatı idarə edə biləcək inkişaf mərhələsində Avropaya keçmişdir. Bu dövrdə elm, (Qərbi Avropada) əsasən mövcud olan elmi məlumatların ümumiləşdirilməsi və surətlə inkişafı ilə yadda qalır. Nəzərə almaq lazımdır ki, elmin inkişafı həndəsi silsilə təşkil edir, zəncirvarı xarakterlidir. Hər hansı fundamental bir elmi nəticə bir-çox yeni elmi sahələrin yaranmasına səbəb olur.

Subyektiv səbəb olaraq onu göstərə bilərik ki, Şərqdə mövcud olmuş elm müəssisələrinin fəaliyyəti qısa müddətli olurdu. Hakimiyyətlərin və onların elmi fəaliyyətə münasibətlərinin dəyişməsindən güclü surətdə asılı olmuşdur. Odur ki, elm ayrı-ayrı dövrlərdə müxtəlif yerlərdə olmuş, lakin davamlı olmamışdır. Nəticədə onun istehsalla bağlı inkişafı da özünə yer tapa bilməmişdir, diqqətdən kənarda qalmışdır. Qərbi Avropada isə elmin inkişafı onun istehsala açıq təsiri imkanları aşkarlanan vaxtda ortaya çıxmışdır. Nizami Gəncəvinin XII əsrdə söyləmiş olduğu "Qüvvət elmdədir" uzaqgörənliyi çox əsrlər sonra Qərbi Avropa filosofu Bekonun dilində «elm gücdür!» formasında bir daha təkrarlanmışdır və tezliklə Nyutonların işi ilə həyatda özünü təsdiqlətmişdir. Ancaq bundan sonra elmi fəaliyyət davamlı olaraq dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Qərb bu uğurlarında dünya elminə söykəndiyi halda, digər ölkələr Qərbin bu nailiyyətlərindən, bu və ya digər səbəblərdən istifadə edib, Qərbə uyğun inkişaflarını tapa bilmədilər və bu gün də tapa bilmirlər-Qərbdən çox geri qalırlar.

Məlumdur ki, müasir dövrdə elmin vəzifəsi davamlı iqtisadi inkişafı təmin etməkdir. Bu da hər bir ölkədə elmi nəticələrin durmadan tətbiqindən keçir. Elm və texnika sahəsində yeniliklərin yaradılması üzrə çəkilmiş zəhmətin – elmi fəaliyyətin iqtisadi baxımdan ilkin bəhrəsi müttəfiqlik hüququ (İntellektual Mülkiyyət (İM)) adı altında tanınır. Elmin və texnologiyanın özünün, onlarla sıx bağlı olan iqtisadiyyatın uyğun istiqamətdə yeni mərhələyə çıxmasında İM-in rolu, digər arqumentlərdən müqayisə olunmayacaq dərəcədə böyükdür. Bu səbəbdən bazar iqtisadiyyatı elmi nəticələr üzrə müəlliflik hüququnun qorunmasını – kommersiyalaşdırılmasını zəruri etmişdir. Bu isə inkişaf etməkdə olan ölkələrin elmi nəticələri – İM hüquqlarını əldə etmələrini xeyli çətinləşdirmişdir.

1.2. Yenidənqurma siyasəti və Azərbaycan Respublikasında elmi fəaliyyətin yeri

Sovet dövlətinin yenidən qurulması üzrə ABŞ başda olmaqla Qərb dövlətlərinin keçən əsrin 60-cı illərindən başlayaraq gələn, ancaq 1985-ci ildə açıqlanmış planlarından aşağıdakıları göstərmək olar: yenidənqurmada məqsəd sovet dövlətinin hərbi gücünü azaltmaq, iqtisadiyyatını zəiflətmək, sosialist lagerini aradan qaldırmaq və onu regionda bir polis dövləti olaraq saxlamaqla öz təsirləri altına salmaq olmuşdur. Bu isə, ilk öncə, onun iqtisadiyyatını və onunla sıx bağlı olan (onu yönəldən) elm potensialını (ilk öncə hərbi sahədə) sıradan çıxarmaqla mümkün ola bilərdi. Bu səbəbdən ABŞ başda olmaqla Qərb dövlətlərinin bütün səyləri bu istiqamətə yönəlmişdi. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, onlar öz istəklərinə əsasən çata bilməmişlər. Dünya sosialist cəbhəsi ilə birlikdə sovet dövləti də dağılmış, yəni sovet dövlətinin yenidən qurulması nəzərdə tutulduğu halda olmamışdır, onun parçalanması və nəhayət, ümumiyyətlə aradan qal-

dırılması baş vermişdir. Nəticədə, sovet dövlətinin tabeliyində olan müttəfiq respublikalar ayrılaraq özlərini müstəqil dövlət elan etmiş və bununla da bu dövlətlər arasında mövcud olmuş iqtisadi, mədəni, təhlükəsizlik və s. bütün əlaqələr kəsilmiş oldu. İqtisadiyyatları yarımçıq texnologiyalar əsasında qurulmuş bu dövlətlərdə istehsal, demək olar ki, əsasən, durğunluq halına çatmış oldu. Bu səbəbdən insanlar əvvəlki peşələrindən əl çəkib, başqa işlərlə (məs., alverlə) məşğul olmağa üstünlük verdilər. Beləliklə, insanların (millətin, dövlətin) sabahlarının necəliyini müəyyənləşdirən fəaliyyət sahələrinin gələcəyi təhlükələr altına düşmüş oldu. Tarixi təcrübəni nəzərə alaraq deyə bilərik ki, bu təhlükələri aradan qaldırmadan digər fəaliyyət sahələrimizin nəinki inkişafına nail ola bilməyimiz qeyri mümkündür, hətta onların gələcəkdə daha da böyük təhlükələrlə üz-üzə qalacaqları şübhəsizdir. Elə bu səbəbdəndir ki, bir qisim insanlar sovet dövründəki həyatlarından vaxtı ilə razı qalmadıqları halda, indi o günlərin həsrəti ilə yaşayırlar. Yeni müstəqil dövlətlərin hər biri ayrı-ayrılıqda bu böhran halını yaşamalı oldu. Bu yeni dövlətlər arasında Azərbaycan Respublikasının vəziyyəti yenidənqurmadan cəmi üç il – Dağlıq Qarabağda etnik ermənilərin əvvəlcədən planlaşdırılmış təxribatları aşkarlanandan sonra daha da ağırlaşdı. Bu da Azərbaycan Respublikasının ümumi iqtisadiyyatında öz dərin izlərini qoya bilmiş oldu. Bunun təhsildə, səhiyyədə, xüsusilə elmi fəaliyyətdəki təsirləri ən güclü ola bilmişdir – onsuz da bunların hər biri özlərinə məxsus əsaslı çatışmazlıqları üzündən son mərhələdə qarşılarına qoyulmuş vəzifələrini dünyanın tələbləri səviyyəsində, əsasən, həll edə bilmirdilər. Yeni dövr isə bu fəaliyyətləri yeni çətinliklərlə üz-üzə qoyan halları gündəmə gətirmiş ki, bunlar da xalqın iqtisadi vəziyyətini daha da pisləşdirmişdir. İqtisadi vəziyyətin pisləşməsi bu sahələrdə çalışanların mənəviyyatlarının zorən əvvəlki dövrlərə nəzərən daha da pozulması ilə nəticələnmişdir. Bununla heç cürə razılaşa bilməyənlər müqəddəs sayılan milli dövlətçiliyə laqeyd münasibət göstərir, milli əsarətdə yaşamağa üstünlük verirlər. Bu isə bu insanların mənəviyyatsızlaşmalarının son həddə yaxınlaşması deməkdir.

Elmin cəmiyyətin inkişafında aparıcı qüvvə olduğunu hamı bilir.

Əgər bu tarixən özünü əvvəllərdə çətin sübuta çatdırırdısa, indiki dövrdə yaşadığımız aləmin reallığıdır, onun tərkib hissəsidir. Elmi nəticələrin praktikada tətbiqini tapdığı ölkələrin inkişaf tarixinə və eləcə də bu gün inkişaf etmiş ölkələrdə bu məsələnin vəziyyətinə nəzər yetirməklə, biz bir daha bunu yəqin edə bilərik. Bu baxımdan belə bir fakta diqqət yetirmək lazımdır. Əgər Qərb ölkələri orta əsrlərdə müstəmləkələrdən gəlir mənbəyi kimi istifadə edirdilərsə, sonuncu yüz illiyin ortalarından başlayaraq, onlar açıq müstəmləkəçilik siyasətindən əl çəkməyə məcbur olurlar. Çünki bu ölkələrdə gedən azadlıq mübarizələrinin nəticəsində əmək məhsuldarlığı xeyli aşağı düşmüşdü və nəticədə gəlir də azalmışdı. Elə bu vaxtı elmi-texniki nailiyyətlərin istehsalata tətbiqi məhsuldarlığın dəfələrlə artmasını, yeni istehsal sahələrinin yaranmasını və s. imkanları ortaya qoydu ki, bunlar da əlavə gəlir mənbələrinin ortaya çıxmasına səbəb olurdular. Bu səbəbdən də, müstəmləkə saxlamaq artıq əlverişli deyildi. Ona görə də sözdə siyasi azadlıq verilmiş həmin ölkələrin özündəcə elmi nəticələrin istehsalata tətbiqini həyata keçirməyə başladılar və nəticədə əvvəlki dövrlərdən çox gəlir götürməyə nail oldular.

Məlumdur ki, elmin nəticələri praktikada öz tətbiqini tapmayanda onun özünün də inkişafı ləngiyir, fəaliyyət dairəsi genişlənə bilmir. Əksinə, əgər elmin nəticələri praktikada tətbiq olunarsa, o, təbii olaraq, tədqiqatın düzgünlüyünü təsdiqləməklə yanaşı, yeni üfüqlər kəsb edir, yeni problemlərlə ortaya çıxır. Buna görə də elmin sonu yoxdur deyirlər. Son bir-neçə on illər ərzində dünyanın bir sıra ölkələrinin (böyüklü-xırdalı) böyük sürətlə inkişaf tapması, ilk öncə, bu ölkələrdə elmi nəticələrin praktikada tətbiq tapmasına geniş yer verilməsi ilə əlaqədardır.

Yenidənqurma siyasətinin ortaya çıxmasının özü məcbur edir ki, Respublikamızda bu məsələnin – elmi texniki nəticələrin praktikada tətbiq tapmasının vəziyyətini araşdıraq və onun həyatda reallaşması yollarını axtarıb tapaq. Müəyyən mənada təkrar olsa da demək lazımdır ki, əvvəlki yenidənqurmalarda olduğu kimi bu yenidənqurmanın da ölkədə iqtisadiyyatın pozulması nəticəsində ortaya çıxdığı (səbəblərdən biri olduğu) şübhəsizdir. Bu pozulmanın əsas səbəblərindən biri də ondan ibarət olmuşdur ki, sovet dövlətində elm praktikadan ayrı

salınmışdı. Texnika və texnologiyanın daima yeniləşməsinə əsaslanmaqla öz inkişafını tapmalı olan elm zamanın tələbindən geri qalırdı – zavod və fabriklərin əksəriyyəti, bir-sıra istehsal sahələri, əsasən, yarandıqları gündə malik olduqları texnologiya əsasında öz işlərini davam etdirirdilər. İş o yerə çatmışdı ki, bu müəssisələrdə elmə etinasızlıq, çox vaxtı isə inamsızlıq əsas meyar kimi özünü göstərirdi. Hər il müəssisələrin büdcəsində istehsalın yeniləşməsinə yönəldilən vəsait istifadə olunmayıb sonda dövlətin hesabına köçürülür, bir sıra hallarda isə həllini qəlp müqavilələrdə tapırdı. Heç kim də bunun üçün cəzalanmırdı.

Ali məktəblərə rüşvətlə daxil olmaq "hüquqi" bir hal aldığından, savadlı elmi kadrların xüsusi çəkisi ildən-ilə azalırdı. Elmi idarələrdə kök salmış belə bir hal mövcud sistemin xarakterik cəhəti olub, həm onun dayağı və həm də onun məhvini yetişdirən səbəblərin ən əsaslarından olmuşdur.

Respublikamızda dövləti idarə etmə sistemində olan ziddiyyətlər elmin, texnikanın inkişafına, onların qarşılıqlı irəliləməsinə də öz mənfi təsirini göstərə bilmiş, onu iflic vəziyyətinə gətirib çıxarmışdır. Nəticədə respublikamızda (və eləcə də digər respublikalarda) istər elmin inkişaf səviyyəsi, istərsə də onun praktikaya tətbiqi dünyanın bir çox ölkələrindən geri qalan ümumittifaq səviyyəsinin özündən belə çox geri qalırdı. Bu geri qalmanın bir sıra başqa səbəbləri də vardı. Geri qalmanın bu və digər səbəblərini aradan qaldırmaq – elm-istehsal arası əlaqələrin sistemləşməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini lazım bilirik:

1.Respublikanın bütün təsərrüfat sahələrinin problemləri üzrə, respublika ərazisinin ekologiyası üzrə, əhalinin sosial və mədəni tələblərini ödəmək istiqamətində və digər vacib sahələrdə olan elmi və texniki problemlər, bütün əlaqədar nazirlikləri, idarələri və elmi müəssisələri cəlb etməklə, dünya standartlarının tələblərinə uyğun tərtib olunur və həll olunması üçün uyğun elm müəssisələri arasında yayılır, təkliflər toplanır, komissiya tərəfindən müsabiqə əsasında hər biri üzrə iş icraçısı müəyyənləşir və maliyyələşdirilir.

2.Təşəbbüslə yerinə yetirilmiş və praktik həllini tapmış elmi texniki layihələrin siyahısı tərtib olunub, uyğun təsərrüfat sahələri arasında yayılır.

3.Konkurs əsasında müəyyənləşdirilmiş fundamental elmi mövzular işlənməsi üçün qalib elm-tədqiqat müəssisələrinə verilir.

4.Tədris müəssisələrində toplanmış elm kadrlarının elm-tədqiqat işlərinə daha çox cəlb olunması üçün şərait yaradılmalıdır.

5.Tədris müəssisələrində və eləcə də elm-tədqiqat müəssisələrində mövcud olan kadr qəbulu və hazırlığı məsələlərində əsaslı dəyişikliklər aparılmalıdır.

6.Elm və texnikanın yeniləşdirilməsi ilə məşğul olanlara verilən zəhmət haqqı dəfələrlə artırılmalıdır. Əks təqdirdə yeni şəraitdə onlar respublikanı tərk edə bilərlər və onsuz da elmi potensialı bir o qədər də güclü olmayan respublikamız daha da ağır vəziyyətə düşə bilər.

7.Açıq bazarın ortaya çıxması ilə əlaqədar olaraq, xarici ölkələrin təcrübəsindən geniş istifadə olunmalıdır.

Elm və istehsal müəssisələrinin rəhbərlərinin texniki tərəqqiyə marağı olmadıqda, əlbəttə ki, bu deyilənləri və digərlərini yerinə yetirmək mümkün deyildir. Ona görə də bu müəssisələrin təşkilində elə etmək lazımdır ki, nəinki müəssisənin rəhbərliyi və həm də bütün işçilər bunda maraqlı olsunlar. Ancaq şəxsi marağını güdən adamlar müəssisə rəhbərliyində vəzifəyə təyin olunurlarsa, onlar, bazar rəqabəti olan şəraitdə olduqlarını unudaraq, texnologiyanın pozulmasına yol verməyən avtomat xətlərinin yaradılmasına və ya qurulmasına maneçilik törədəcəkdir, yəni bazar iqtisadiyyatı şəraitində işlərinin öhdəsindən gələ bilməyəcəklər.

Bir daha qeyd edirik ki, elm adamlarının əməyi layiqincə və çox yüksək qiymətləndirilməlidir. Əgər belə olarsa, yüksək səviyyəli elm adamlarının bu müəssisələrin nisbətən aşağı əmək haqqı ilə qiymətləndirilən rəhbərliyi (direktor) vəzifəsinə irəli çəkilməsinə məhdudiyyət qoyulmalıdır – onların vaxtı lazımınca qiymətləndirilməlidir. Bu insanlar elmi fəaliyyətin təşkili ilə bağlı işlərini elm şuralarında aşkarlıq şəraitində qurarlar. Direktor sadəcə olaraq, müəssisə kollektivi tərəfindən seçilir və xidməti işlərə rəhbərlik edir, elm şurasının qərarlarını icra edir. Onun özünü EA-nın üzvlüyünə, eləcə də elm üzrə mükafatlara təqdim etmək hüququ olmamalıdır.

1.3. Azərbaycan Respublikasında elmin bugünkü vəziyyəti haqqında

Azərbaycan Respublikasında elmi fəaliyyətin–elmi tədqiqatların və elm-istehsalat əlaqələrinin bugünkü vəziyyətinə diqqət yetirdikdə, ilk nəzərə çarpan budur ki, sovet dövlətinin dağılması ilə yaranan yeni müstəqil dövlətlərin hamısında və iqtisadiyyatın bütün sahələrində olduğu kimi, elm sahəsində də sərt böhran başlamışdır. Bu böhranın yaranma səbəblərindən biri də aparılan dəyişikliklərdə və cəmiyyətin inkişafında (hakimiyyətin və özəl sektorun bütün üzvləri tərəfindən) elmin rolunun lazım olan səviyyədə qiymətləndirilməməsi olmuşdur. Elm milli dövlətdə və dövlətlər arası münasibətlərdə strateji prioritetlər siyahısından çıxarılmış, onun maliyyələşməsi azaldılmışdır və bu da elm aləmində bir sıra mənfi halların yaranmasına səbəb olmuşdur. Keçmiş Sovet məkanında olan mərkəzləşdirilmiş idarəetmə sistemi aradan qalxmış, yeni bazar mexanizminin avtomatik fəaliyyətə başlayacağı ümidləri özünü doğrultmamışdır. Surətli iqtisadi dəyişikliklərin tə'siri nəticəsində elm faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə dayanmışdır. İş o yerə çatmışdır ki, bu gün əsas məsələ–elm-texnika potensialının qorunub saxlanması haqda düşünməli olmuşuq. 1990-2000-ci illər üzrə elm-texnika sahəsində inkişafın dinamikasına nəzər salsaq, elm-texnika potensialının bütün göstəricilərinin aşağı düşdüyünü görərik.

Məsələn, bu müddətdə yerinə yetirilmiş Elm-Tədqiqat Təcrübi Konstruktor işlənmələrinin həcmi Ümumi Daxili Məhsulun (ÜDM) 1%-dən azalaraq 0,4%-ə düşmüşdür. Vəziyyətin necə acınacaqlı olduğunu daha aydın təsəvvür etmək üçün, nəzərə almaq lazımdır ki, ÜDM özü bu dövrdə xeyli aşağı düşmüşdür. Elmi fəaliyyətə ayrılan vəsaitin kəskin azalmasının nəticəsində elm-texnika sahəsində kadr problemi-mütəxəssislərin xarici ölkələrə axını yaranmışdır [2].

Keçid dövründə ortaya çıxmış çətinliklərin öhdəsindən gəlmək üçün sosial iqtisadi inkişafın strategiyası müəyyənləşdirilməli və həyata keçirilməlidir. Dünya təcrübəsi bu inkişafı innovasiya yolunda görməkdədir. Ölkə elmi-texniki potensialı üçün olduqca ağrılı keçmiş

90-cı illərin islahatları nəticəsində (çox da yaxşı halda olmayan bu işin) daha da çətinləşdiyini /dövlətlər arası əmtəə mübadiləsinə keçildiyini/ nəzərə almalıyıq. Bu illər ərzində «iqtisadiyyatın tərsinə yenidən qurulması» baş vermişdir: enerji xammal sektoru (ilk növbədə yanacaq sənayesi) həlledici sahəyə çevrilmişdir, yüksək texnoloji məhsul istehsalı demək olar ki, yox olmaq həddinə çatmışdır. Başqa sözlə, ölkə neft sahəsi nəzərə alınmazsa, ətalət inkişafı mərhələsinə yaxınlaşmaqdadır.

İnnovasiya siyasətinin məqsədi son elmi-texniki nailiyyətlərə əsaslanaraq, çox sektorlu sosial istiqamətli iqtisadiyyat yaratmaqdır. Elə isə bunun üçün hansı yollar seçilməlidir, sualı qarşıda durur.

Hələ ki, Azərbaycan Respublikasının yaxın gələcəkdə yüksək inkişaf etmiş ölkəyə çevrilməsi imkanları tam itirilməmişdir: biz bunun üçün ən zəruri olan elm potensialına – xüsusən onun əsasını təşkil edən insan faktoruna və institutlara malikik. Odur ki, Azərbaycanın gələcəyini elm tutumlu və yüksək texnoloji istehsalda görmək ən düzgün yol hesab olunur. Bu məqsədə çatmaq üçün qarşıda duran məsələ, keçid dövrünün tələb və imkanları daxilində Azərbaycan Respublikasının yaxın keçmişdəki təcrübəsini analiz etmək və dünya təcrübəsini öyrənməklə elmi fəaliyyətin təşkili və idarə olunması üzrə təşkilat məsələlərini formalaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikası prezidentinin 27 dekabr 2001-ci il tarixli fərmanı ilə 1993-cü ilin fevral ayında yaradılmış Dövlət Elm Texnika Komitəsi /DETK/, sanki dövlətin lazımsız orqanı olaraq ləğv olundu, əsas funksiyaları kimlərəsə həvalə olunmadı. O gündən bu günə kimi, Azərbaycan Respublikası dövlətinin Elm və Texnika Siyasətini həyata keçirməli olan mərkəzi dövlət orqanı yoxdur.

Əgər fikir verdinizsə «dövlətin elm və texnika siyasətini həyata keçirən deyil, keçirməli olan dövlət orqanı» dedik. Bunun əsas səbəbləri vardır: Ən əvvəl, Komitənin mövcud olduğu doqquz ilə yaxın müddətdə onun bu istiqamətdəki fəaliyyətsizliyi belə deməyə əsas verir. Vaxtilə qəzetlərdə də deyildiyi kimi «fəaliyyətsiz bir orqanın saxlanmasına ehtiyac varmı?». Bu səbəbdən deyilə bilər ki, fərman nəinki vaxtında verilmiş, hətta gecikmişdir. Əslində isə heç də belə hesab

edilməməlidir. Səbəbi, «elm siyasəti olmayan dövlətin ümumiyyətlə siyasəti yoxdur» deyimini əsas tutmağımızdır. Hesab edirik ki, DETK nəinki ləğv olunmamalı, əksinə, onun bu fəaliyyətsizliklərinin səbəbləri araşdırılıb, aradan qaldırılmalı, Komitənin əsasnaməsindən irəli gələn funksiyalarını yerinə yetirməsi üçün tədbirlər hazırlanıb həyata keçirilməli idi. DETK hər bir dövlətin zəruri atributudur. Unutmamalıyıq ki, müasir dövrdə istehsalla bağlı elmi fəaliyyətə Maliyyə, Hərbi Müdafiə, Təhlükəsizlik, Daxili İşlər, İqtisadi İnkişaf Nazirlikləri qədər birinci dərəcəli əhəmiyyət verməyən inkişaf etmiş ölkə yoxdur.

Komitənin fəaliyyətsizliyinin əsas səbəbləri sırasında, təbii olaraq, ən əvvəl, kadr məsələsinə diqqət yetirilməli idi. Özü də bu məsələ təkcə Komitə üzrə deyil, elmlə bağlı bütün dövlət aparatında, o cümlədən, Prezident aparatında, Milli Məclisdə və Nazirlər Kabinetində araşdırılmalı idi. Ancaq sonuncuları saxlayıb, təkcə Komitədə dəyişikliklər aparmaqla da əsaslı bir uğura nail olmağın ehtimalı çox aşağıdır. Elmi fəaliyyətin xüsusiyyətlərini, o cümlədən, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, çevikliyini, iqtisadiyyatın inkişafında yönəldici və aparıcı qüvvə olduğunu, onun uğurla nəticələnməsində dövlətin təşkilatçılığının və nəzarətinin mühüm əhəmiyyət kəsb etdiyini və bu istiqamətdə dünya təcrübəsini nəzərə alaraq, 1993-cü ildə Komitə ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin yanında bilavasitə elm məsələləri üzrə müşavir xidməti vəzifəsi təsis olunmuşdu. Çox əfsuslar olsun ki, bu xidmət də heç bir fəaliyyət göstərməmişdir.

İkincisi, Komitənin fəaliyyətsizliyinin səbəblərini araşdırarkən, dövlətin bugünkü elm və texnika siyasəti və onun həyata keçirilməsinin formasına diqqət yetirilməlidir. Onda görərik ki, bu forma ilə DETK ona həvalə olunmuş elmin koordinasiyası işlərindən süni surətdə kənarlaşdırılmışdır və nəticədə fəaliyyətsizliyinin əsası qoyulmuşdur.

Üçüncüsü, bütün dövlət və eləcə də özəl /xarici şirkətlər də daxil/ iqtisadi strukturların elm sektoru ilə bağlılığı mütləqləşdirilməlidir, «texniki elmlərin nəticələrinin müntəzəm olaraq tətbiqi iqtisadiyyatın davamlı inkişafının əsasıdır» prinsipi daim rəhbər tutulmalıdır.

Daha sonra respublikaya gətirilən və ya respublikadan aparılan

texnologiyalar da dövlət nəzarətində olmalıdır. Elmi fəaliyyət respublikada tətbiq olunan yeniliklərin inkişaf etdirilməsinə yönəldilməlidir. Misal olaraq, respublikamızda vaxtilə xarici texnologiyalar əsasında yaradılmış fabrik və zavodları göstərmək olar, məsələn Bakı Kondensioner zavodunu. Əgər bu müəssisələr quraşdırılanda elm-tədqiqat müəssisələri qarşılarında onlara məxsus texnologiyaları inkişaf etdirmək məsələləri qoyulmuş olsaydı onda onlar (həm elm, həm də istehsal müəssisələri) bu gün də öz fəaliyyətlərini uğurla davam etdirmiş olardılar. Hesab edirik ki, respublikada fəaliyyət göstərən xarici şirkət və firmaların elm qurumlarının da respublika elm idarələri ilə birgə işi təmin olunmalıdır və s.

Elm sahəsindəki fəaliyyəti işdə qiymətləndirməyi bacarmalıyıq. İkinci dünya müharibəsinin taleyində öz sözünü demiş Azərbaycan elmi artıq bu gün öz müharibəmizin qələbə ilə başa çatdırılmasında və dövlətimizin iqtisadi inkişafında sözünü deməlidir.

Bir də DETK-nın ləğv olunmasına – respublikada elm sahəsindəki fəaliyyətin başsızlaşdırılmasına respublika elm adamlarının biganəliyi heç də DETK-nın ləğvindən az narahatlıq yaratmadı.

1.4. Dünya təcrübəsində elmi fəaliyyətin təşkili və idarə olunması

Amerika Birləşmiş Ştatlarında elmi fəaliyyətin təşkili. Ən əvvəl, ABŞ-da ənənə şəklini almış elmi nailiyyətlərin istehsalatda tətbiqinin inkişafının əsas istiqamətlərinə baxaq. 1953–1968-ci illər Amerika elmi-texniki potensialının artımı ilə xarakterizə olunur. Düzdür, müharibədən sonrakı illərdə ABŞ stabil yüksək iqtisadi artıma nail ola bilmədi; kapitalist dünyasında sənaye istehsalında ABŞ-ın payı 55,8 %-dən (1948-ci ildə) 45,2%-ə düşmüşdü. Bununla yanaşı, ABŞ bu müddətdə özünün elmi-texniki hegemonluğunu təmin edə və gələcəkdə də elmi-texniki liderliyi əlində saxlaya bilməsinin əsasını qoya bilmişdi. ABŞ-da elmi-texniki potensialın yüksəlməsinin bir sıra səbəbləri olmuşdur. Onlardan ən əsası elmi tədqiqatlara və işlənmələrə sərf olunan maliyyə vəsaitlərinin sürətlə artması olmuşdur. Belə ki, İkinci

Dünya müharibəsinə qədər elmi tədqiqat işlərinə buraxılan maliyyə vəsaiti hər il ABŞ-da və Qərbi Avropada təxminən eyni olmuşdur. 1953–1968-ci illər arasında bu vəsait ABŞ-da artaraq, 5,2 milyard dollardan 25 milyard dollara çatmışdı. Qərbi Avropanın kapitalist ölkələrinin hamısı üzrə bu vəsait 1968-ci ildə cəmi 6 milyarda bərabər olmuşdu. Bu illər ərzində ABŞ-da elmə çəkilən xərc 230 milyard dollar olduğu halda, bütövlükdə Qərbi Avropa ölkələrində ancaq 60 milyard dollar olmuşdu.

Elm və texnikanın nailiyyətlərinin istehsalata tətbiqinin nəticəsində istehsalın effektivliyi üçün əsas yaranır. Elmi nəticənin istehsalata tətbiqi isə onun özünün əldə olunmasından çox mürəkkəb məsələdir. Bu səbəbdəndir ki, hər bir ölkədə elmin inkişaf səviyyəsi ilə onun təsərrüfatlarının texniki səviyyəsi arasında birqiymətli əlaqə yoxdur, başqa sözlə, elmin yüksək səviyyəsi öz-özlüyündə yüksək texniki səviyyəni təmin edə bilmir.

Amerika sənayesinin yüksək texniki səviyyəsi və onun istehsal etdiyi məhsulun yüksək keyfiyyəti Amerika elminin səviyyəsinin yüksək olmasından başqa, elm və texnika sahələrində kəşf və ixtiraların istehsalata tətbiqinin effektiv fəaliyyət göstərən mexanizminin mövcudluğu və onların təsərrüfatlarda sürətlə yayılması ilə həll olunur.

ABŞ-da elmi-texniki nəticələrin reallaşdırılması probleminə elmi-texniki tərəqqinin bir saylı məsələsi kimi baxılır. ABŞ-da elmi-texniki tərəqqinin yüksək inkişafını araşdıran Qərbi Avropa mütəxəssisləri belə qərara gəlmişlər ki, ABŞ və Qərbi Avropada elmin nəzəri və texniki fikir sahələrində böyük fərq hiss olunmur. Əsas fərq yeni texnikanın yaradılması və istehsalat aparatlarının kamilləşdirilməsində özünü göstərir. Elmin və texniki fikrin bəzi sahələrində Avropa Amerikanı qabaqlaya da bilir. Lakin Avropada edilən bu kəşflər ABŞ-da daha tez və effektiv tətbiqini tapa bilir.

Şübhəsiz ki, bu deyilənlərdə ABŞ-ın iqtisadi gücü böyük əhəmiyyət kəsb edir. Ehtiyatlar problemi hər bir ölkədə birinci dərəcəli məsələ kimi ortaya çıxır. Maliyyə və insan ehtiyatları (məhdudiyyətləri) elmi tədqiqatların genişləndirilməsində əsas çətinlikləri törədir. Ona görə də görüləcək işlərin seçilməsi ən vacib bir məsələ səviy-

yəsinə qalxır. Qərb ölkələri bu məhdudiyyətin öhdəsindən ABŞ-a nəzərən zəif gələ bilmişlər.

ABŞ-da elmi-texniki potensialın artması bundan başqa bir də onunla bağlıdır ki, amerikalılar elmin və istehsalın təşkili və idarə olunması sahəsində də digərlərindən çox irəli gedə bilmişdilər. Onlar 50–60-cı illərdə prinsipcə tamam yeni planlaşdırma və idarə etmə metodlarını tətbiq edə bilmişlər: ayrı-ayrı layihələr üzrə işlərin planlaşdırılmasını yaxşılaşdırmağa imkan verən üsullar, dünyada vəziyyətin sürətlə dəyişməsini, elmi-texniki tərəqqini, sosial, texniki və iqtisadi faktorların mürəkkəb qarşılıqlı əlaqəsini nəzərə almağa imkan verən metodlar yaratmışlar.

ABŞ-da elmin idarə olunmasının yeni formaları və daha kamil təşkilat quruluşlarının tapılması istiqamətində indi də intensiv işlər aparılır.

Müharibədən sonrakı dövrlərdə ABŞ-da elmi fəaliyyəti idarə edən «Milli Fond» /1950/, «Elm məsələləri üzrə Konsultativ Komitet» /1957/, «Elm və Texnika üzrə Federal Sovet» /1962/ kimi qurumlar və 1964-cü ildə «Milli Mühəndislər Akademiyası» yaradılmışdır. İri nazirliklərdə və idarələrdə də elmi tədqiqatların və işləmələrin idarə olunması onların əsas funksiyasına çevrilir. ABŞ-da yeni tip təşkilatlar «gəlirsiz korporasiyalar» yaradılıb; bunlara çox vaxt «düşünən korporasiyalar» da deyirlər. Bu korporasiyalar təşkilat forması kimi ortaya çıxıb, imkan verir ki, dövlət ən vacib məsələlərin həllinə ölkənin ən yaxşı kadrlarını cəlb etsin. Bu korporasiyaların idarə maraqları olmadığından, ABŞ hökumətini ən əsas iqtisadi, siyasi və hərbi problemlər üzrə yüksək səviyyəli təklifləri ilə təmin edirlər. Onların siyasəti dövlətin siyasətinə təsir edir, Müdafiə Nazirliyinin strateji konsepsiyasının və ABŞ-ın xarici siyasət doktrinasının formalaşmasına yardım göstərir. Bu dövrdə ABŞ-da yaranan və elmin istehsalatla sıx əlaqəsini təmin edən tədqiqat – sənaye kompleksləri də yeni təşkilat formalarındandır. İri universitetlər və ali tədris müəssisələri yeni sənaye sahələri müəssisələrinin işlərini istiqamətləndirən orqan kimi fəaliyyət göstərməyə başlamışlar. Bunun nəticəsində ali məktəblərin laboratoriyalarında edilən kəşflər çox sürətlə sənaye sahələrində tətbiq oluna bilir.

Müxtəlif növ fəaliyyətlərin bir-birindən (alimin mühəndisdən, sənayeçinin professordan və siyasətçidən və s.) kəskin ayrıldığı Avropadan fərqli olaraq, (SSRİ-də bu fərq daha güclü idi, respublikamızda isə daha da artıqdır) ABŞ-da mütəxəssislərin bir-birini yüksək dərəcədə əvəz etməsi imkanları mövcud olmuşdur. Bu özünü, əsasən, dövlət aparatında, sənayedə və universitetlərdə əsas vəzifələrdə çalışanlar arasında büruzə verir. ABŞ-da alimin istehsalata və dövlət təşkilatlarına işləməyə dəvət almaları adi haldır. Güclü mütəxəssislər çox vaxtı dövlət kompaniyalarında, dövlət idarələrində əvəz etmə yolu ilə işləyirlər.

Adamların çevikliyi elmi ideyaların çevikliyini təmin edir ki, bu da onların qısa bir vaxtda praktikada özünə yer tapmasına səbəb olur. Elmi-texniki nəticələrin istehsalata tətbiqində ABŞ dövlətinin çox maraqlı olmasını belə bir faktla görə bilərik ki, bir sıra təşkilatlar hərbi və kosmik proqramların yerinə yetirilməsində əldə olunan texnika və texnologiyaların xalq təsərrüfatının qeyri hərbi sahələrində tətbiq etmək məqsədilə dövlət proqramlarının həyata keçirilməsi ilə məşğuldurlar. Bu proqramların yerinə yetirilməsində ali tədris müəssisələri aktiv iştirak etməkdədirlər. Universitet və kolleclər dövlət idarələri və sənaye arasında vasitəçi rolunu oynayırlar.

Hazırda ABŞ-da və dünyanın nəhəng kapitalist ölkələrində bir çox dövlət və şəxsi sənaye müəssisələrində elmin idarə olunmasının daha yeni formalarının axtarılıb tapılması istiqamətində intensiv işlər aparılır. Məqsəd konsepsiyanın yaranması anından başlayaraq, yeni sistem və texnologiyaların yaradılmasına qədər bütün mərhələlərin təşkili və idarə olunması şəraitini aşkar etməkdən ibarətdir. ABŞ timsalında deyə bilərik ki, elmin perspektivliyinin təyin olunmasına düzgün münasibət və onun gələcək inkişafının ən əsas istiqamətlərinin aşkar edilməsi ölkənin gələcəyi üçün xüsusilə əhəmiyyətlidir. Bu, ABŞ-ın iqtisadi və beynəlxalq nüfuzunun yüksəlişinə güclü təsir edir.

Yaponiyada elmi fəaliyyətin təşkili. Azərbaycanda elmin yenidən qurulması /təşkili/ yollarını müəyyənləşdirməkdə xarici ölkələrdən Yaponiyanın keçmiş olduğu yolu /təcrübəni/ öyrənmək bizə daha çox kömək edə bilər. Ən əvvəl, ona görə ki, 1949-cu ilə kimi elmin

təşkili və planlaşdırılması keçmiş SSRİ-də olduğu kimi administrativ – mərkəzləşdirilmiş üsulla aparılmışdı. Bu gün Yaponiyada sosial-iqtisadi inkişaf planları bizim adət etdiyimizin əksinə olaraq, qanun dərəcəsinə qaldırılmır; bu planlar dövlət proqramlarının yığımından ibarətdir ki, bunlar da ümummilli məqsədlərə çatmaq yolunda iqtisadiyyatı təşkil edən halqaları səfərbərliyə alıb, istiqamətləndirməyə xidmət edirlər. Planlar dövlətin tapşırıqları əsasında hazırlanır. Bu tapşırıqlarda ən vacib strateji məqsədlər göstərilir. Ümumdövlət planlarının işlənib hazırlanmasında dövlətin tərkibində yaradılan İqtisadi Şura, həmçinin iqtisadi planlaşdırma idarəsi, Xarici Ticarət və Sənaye Nazirliyi /XTSN/, elm və texnologiya üzrə idarə əsas rol oynayırlar. Bazar iqtisadiyyatına keçid şəxsi firmaları da məcbur etdi ki, onlar, dövlətin maliyyə-kredit (borc) və vergi güzəştlərini və ümummilli məsələləri nəzərə ala bilən və onların kommersiya və istehsal fəaliyyətlərini müəyyənləşdirən hərtərəfli planlar tərtib etsinlər. Firmalar bazarda öz mövqelərini bilirlər və öz qərarlarının düzgünlüyünə cavabdehdirlər. Firmalar bilirlər ki, hansı istiqamətdə inkişaf etməlidirlər, hansı elmi tədqiqatları və texnologiyaları işləyib hazırlamalıdırlar. Belə bir şəraitdə dövlət öz maliyyə ehtiyatlarını, əsasən, prinsipcə yeni biliklərin əldə olunmasına /fundamental tədqiqatlara/ yönəldir və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını təşkil edir.

Yaponiyada ümumdövlət planlaşdırmasının ikinci xüsusiyyəti ondan ibarətdir ki, orada sosial-iqtisadi məqsədlərə çatmağın əsas yolu dünya bazarında rəqabətə girə bilmək qabiliyyətində olan çevik və sənayenin sahələr arası quruluşlarına xas olan texnoloji inkişafa yönəlmişdir.

Yaponiyanın texnoloji inkişafı bir-birindən kəskin fərqlənən etaplardan keçmişdir. 50-ci illərdə dünya texnologiyasının nailiyyətlərinin ən yaxşılarından yaxşısını kütləvi şəkildə istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələr üzrə təşkili təşəkkül tapa bilmişdir. 60-cı illər Yaponiyanın özünə məxsus texnologiyanın təşəkkül tapması və onun əsasında yüksək keyfiyyətli istehsalla xarakterizə olunur. Elə bu dövrdə dövlət elm və texnologiyalar üzrə proqram və layihələrin qəbul olunmasına /XTSN vasitəsilə bir başa maliyyələşdirməyə/ başlayır ki,

ba da Yaponiyaya hesablama texnikası, mikroelektronika və sənaye elektronikası sahələrində dünya bazarına çıxmasına imkan verir. 70-ci illərdə keyfiyyətcə tamamilə fərqli olan iqtisadi quruluşların inkişafı üçün əsas ola biləcək yeni yüksək texnoloji sahələrə üstünlük verilir. Əsas fikir xammal və enerji ehtiyatına verilir, eyni zamanda ətraf mühitin müdafiəsinə yönəlmiş texnologiyaların, adamların təhlükəsizliyini təmin edən işlərin hazırlanması ön plana keçir. 80-cı illərdə ən yeni texnologiyalar əhalinin işlə təmin olunmasına, həyat səviyyəsinin yüksəlməsinə, xarici ticarət ekspansiyasının genişlənməsinə imkanları artırdı, ölkənin iqtisadi cəhətdən təhlükəsizliyinin əsas faktoru oldu.

Bazar iqtisadiyyatında belə bir prinsip əsas tutulur: dövlətin varlı olması təkcə onun xəzinəsində olanlarla deyil, həm də xalqın əlində olan əmlakla da müəyyənləşir. Dövlətin xəzinəsi nə qədər varlı olursa, xalqın bir şeyi yoxdursa, o güclü dövlət sayıla bilməz /məs., keçmiş SSRİ, müasir monarxiya üsul-idarəsinə söykənən dünya dövlətləri/, o mütləq məhvə məhkumdur. Son dövrlərdə planlaşdırmaya sosial infrastruktura da daxil edilmişdir ki, bu da adamların intellektual qabiliyyətlərinin inkişaf etdirilməsinə xidmət edir.

Yaponiyada dövlət planlaşdırmasının üçüncü xüsusiyyəti ondan ibarətdir ki, dövlət rəqabətin ardıcıl inkişaf etməsini nəzərdə tutur və dünya bazarında uğurlar qazanan şəxsi firmalara hərtərəfli yardımlar edir. Ölkənin müharibədən sonrakı dövrlərdə inkişafının ideoloqları, sənaye potensialının təcili texnoloji yeniləşməsini başlıca cəhət sayırdılar, daha geniş planda-milli məhsulun artımının maksimal tempini təmin etməyin, əhalinin həyat səviyyəsini yüksəltməyin əsası sayırdılar.

Planlaşdırmanın administrativ-mərkəzləşdirilmiş üsulu yapon mütəxəssislərin fikrincə özünü doğrultmamışdı.

1949-cu ildə Amerika işğal ordusunun nəzarəti altında Dodika planının həyata keçirilməsi ölkədə vəziyyəti kəskin dəyişdi. Belə münasibət və eləcə də müdafiəyə aid olan elmi tədqiqat və konstruktor işlərinin aparılmaması /qadağan olunması/ minimum xərclə texnoloji inkişaf məsələlərini həll etməyə imkan vermiş oldu. 60-70-ci illərdə ümumi daxili məhsulun 1%-dən də azı elmə ayrılmışdı. Ancaq son illərdə, hökumət və xüsusi sektor elm və texnologiyaya çəkilən xərci

kəskin artırmağa başlamışdı və bunun nəticəsində yapon sənayesi ABŞ və Avropa İqtisadi Birliyi ölkələrinin firmaları ilə yüksək texnoloji məhsulların bazarı uğrunda açıq mübarizəyə çıxa bilmişdir. 1989-cu ildə bu xərc ümumi milli məhsulun 8%-nə çatmışdı. Bu isə istənilən başqa kapitalist ölkələrindəkindən çox olmuşdur. Bundan başqa pul, ən əvvəl, fundamental (əsaslı) tədqiqatlara verilirdi. Nəticədə dövlətin məqsədyönlü siyasəti nəticəsində ümumi xərclərdə özəl sektorun payı ABŞ-dakından çox olmuşdur.

1962-ci ildən başlayaraq, milli inkişafın uzun müddətli kompleks planları işlənilir. Bu planlar ölkənin ərazisinin kompleks inkişaf etdirilməsi haqda 1950-ci ildə qəbul olunmuş qanunla təsdiqlənmişdir, ona görə də qanunverici hüquqa malikdir. Onların əsas məqsədi ölkənin uzunmüddətli tarazlaşdırılmış inkişafının əsasını qoymaqdan ibarət olmuşdur.

İstehsal sahələrində texnologiyaların yenidən qurulması üzrə XTSN-də tərtib olunan uzunmüddətli proqramlar tarazlaşdırılmış və stabil iqtisadi yüksəlişə nail olmağın əsas yolu olmuşdur. Bu proqramlarda ümumi növbəti yüksəliş göstərilməklə, təşkilatçılıq cəhətdən dəyişiklikləri və xammalın toplanmasını tələb edən zəif halqalar müəyyənləşdirilmişdir. Quruluş siyasəti sahəsində olan dövlət sənədləri özəl sektorda olanlar üçün mütləq gücə malik deyildir. Bu onlar üçün, ən əvvəl, proqnoz xarakteri daşıyır. Yaponiyanın administrativ sistemi özəl firmalarla bir başa deyil, vasitəçi aparat–məsləhət verən sovetlər /onlar cəmi 200-ə yaxındır/ vasitəsilə əlaqə saxlayır. Bunlar nazirliklərdə yaradılır. Sovetin tərkibinə işgüzar dairədən nümayəndələr, həmkarlar birliklərinin liderləri, böyük alimlər və digər nümayəndələr daxil edilirlər.

Sahələrə münasibətdə nazirliyin funksiyası ondan ibarətdir ki, onların problemlərinin xarakterini, texnoloji inkişafın strategiyasını işləyib hazırlasın, güzəştlərə olan hüquqlarını reallaşdırsın, hüquqi qaydada sahə daxilində rəqabət rejiminin saxlanılmasına, lazım olanda isə elm tutumlu layihələrə maliyyə yardımı göstərilməsinə nəzarət etsin.

Yapon statistikasının məlumatına görə iki milyon firmanın an-

caq 17,6 minində və ya 1%-dən azında elmi-tədqiqat və konstruktor işləri apara bilirlər. Bununla belə elm-tədqiqat və konstruktor işlərinə özəl sektorda qoyulan xərclərin 2/3 hissəsi onların payına düşür. Ancaq 20 iri korporasiya /bunlara xərclərin 36%-i, tədqiqatların 27%-i düşür/ çox güclü rəqabət şəraitində yüksək texnologiyaları sərbəst yaratmağa qabildirlər.

Belə bir şəraitdə nazirliklər tərəfindən iri sahələr arası elmi-tədqiqat birliklərinin yaradılması və dövlət himayəsi /dövlət–özəl korporasiyası/ yüksək texnologiyaların yaradılmasında böyük əhəmiyyətə malik olur. Korporasiyanın əsas məqsədi ondan ibarətdir ki, iri, rəqabətə davamlı elmi işlər dövlət tədqiqat institutlarında, universitetlərdə büdcə maliyyələşdirilməsi yolu ilə başlanğıc mərhələsində sürətləndirilsin. Korporasiya kontrakt əsasında /birgə dövlət-özəl/ elmi tədqiqat layihələrini reallaşdırır, bazarı elm tutumlu yeni məhsullarla /dövlət müəssisələri və nazirliklərin sifarişləri əsasında/ doldurur. Kiçik və orta firmaları inkişaf etdirmək, büdcədən maliyyələşdirməklə işlənmiş texnologiyaların çoxaldılması və yayılması üçün əlverişli şəraitin yaradılması və s. dövlətin məqsədidir.

Ölkədə elmi və texnoloji tədqiqatlara rəhbərliyi dövlətin nəzdində olan elm və texnologiya üzrə Sovet yerinə yetirir. Elm və Texnologiya İdarəsi ona tabedir və praktik məsələləri həll edir. Təhsil nazirliyi universitetlərdə aparılan tədqiqat işlərinə rəhbərlik edir və maliyyələşdirir /tədqiqatların 1/4-i buralarda aparılır/. XTSN sənaye sahəsində elmi və texnoloji proqramlara rəhbərlik edir; üstün yüksək texnologiyaların inkişafına aktiv təsir göstərir və bunun əsasında yaradılmış məhsulun dünya bazarına çıxmasına çalışır.

Almaniya Federativ Respublikasında elm sahəsində fəaliyyət və Sosial Bazar İqtisadiyyatı. «Sosial bazar iqtisadiyyatının /SBİ/ həyata keçirilməsi ilə almanların həyat tərzi xeyli dəyişmişdir. Özlərinin dediklərinə görə onlar heç bir vaxt indiki kimi yaxşı yaşamamışlar. İndi bu model bir çox ölkələrə, o cümlədən, sosialist planlaşdırma iqtisadiyyatının on illərlə hökm etdiyi ölkələrə təklif olunur». SBİ nədir və necə yaranmışdır?

Müharibə qurtarandan 1948-ci il pul reformasına qədər olan

müddətdə Almaniyada elə bir yoxsulluq hökm sürürdü ki, bu gün onu təsəvvür etmək mümkün deyildir. Dörd yüz milyon kubmetr tikinti xarabalıqları tökülüb qalmışdı, ölkə qaçqınlarla dolu idi. 12 milyona yaxın əsgər və əhali əsir düşmüşdü. Ölkədə aclıq, soyuq, epidemiya, kütləvi evsizlik təhlükəsi reallaşırdı. O dövrün qayda-qanunlarına əsaslanaraq, aparılan hesablamalara görə dağıntıları ancaq 50 ilə yığıb qurtarmaq olardı, bərpa etmək işlərinə isə 500 il tələb olunurdu. Göründüyü kimi bu nəhəng işləri kapitalist üsulları ilə təşkil etməklə başa çatdırmaq olmazdı, çünki kapitalizmdə hər kəs özü üçün planlaşdırır və işlərini öz imkanı və marağı çərçivəsində aparır. Belə bir dəhşətli vəziyyətdə əhali və hərbçilər hesab edirdilər ki, ölkədə iqtisadiyyatın idarə olunmasını güclü dövlət öz üzərinə götürməlidir, bərpa proqramı isə mərkəzləşdirilmiş qaydada, perspektiv planlar şəklində hazırlanmalıdır. Yeni yaranan partiyalarda əvvəllərdə sosialist /və ya antikapitalist/ ideyalar üstünlük təşkil edirdi. Bu, ən əvvəl, müharibədən böyük qələbə ilə çıxmış sovet dövlətində mövcud olan iqtisadi münasibətlərin təsiri altında ortaya çıxmışdı: ölkənin düşmüş olduğu böhran vəziyyəti diktə edirdi ki, sərt plan iqtisadiyyatının elementləri həyata keçirilsin. Bu dövrdə «İqtisadi siyasətin əsasları» kitabını yazan Valter Oyken alman iqtisadiyyatını inkişaf etdirmək üçün zəruri olan bazar şərtlərini açıb göstərir. «Ukladların bir-birindən qarşılıqlı asılılığını əsas tutaraq,» o, belə bir fikrə gəlib çıxır ki, gələcək alman dövlətinin qanunçuluğa və azadlıq prinsipinə əsaslanan siyasi təşkilatının ilkin şərti bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatı ancaq azadlıq olan yerdə fəaliyyət göstərə bilir. İstehlak seçmədə, sənət seçmədə və iş yerinin seçilməsində azadlıq, azad sahibkarlıq, istehsal vasitələri də daxil olmaqla şəxsi mülkiyyətin idarə olunmasında, müqavilələr bağlanmasında da sərbəstlik olmalıdır. Demokratiyaya əsaslanan siyasi quruluş və iqtisadiyyatda /fəaliyyətdə/ dirijorluq od və su kimi bir araya sığmayan işlərdirlər. Yeri gəlmişkən, elə buna görədir ki, AFR-in əsas qanununda xüsusi iqtisadi uklad nəzərdə tutulmayıb, SBİ-nin özünü də əsas iqtisadi uklad kimi göstərilməsindən imtina edilmişdir, çünki konstitusiya tərəfindən qorunan əsas qanunlar imkan verməzdi ki, məsələn, dövlət tərəfindən idarə olunan «planlı iqtisadiyyat» mövcud olsun.

Almaniyada hansı idarə etmə üsulunun seçilməsi barədə ideyalar arasında qızğın mübarizə getdiyi bir zamanda C.Marşalın təşəbbüsü ilə Avropaya Amerika dövlətinin dollarla yardımını nəzərdə tutan proqramın həyata keçirilməsinə başlanılır. Bununla da Almaniyanın mərkəzləşdirmə planları və onun aqrar ölkəsinə çevrilməsi həmişəlik unudulur. II Dünya müharibəsindən sonra ABŞ, İngiltərə və Fransanın işğalı altında olan alman torpaqları bir iqtisadi zonada birləşdirilir. Bazar təsərrüfatına istiqamətlənən alman siyasətçilərinin başçılığı ilə «İqtisadi Şura» yaradılır və ona tapşırılır ki, iqtisadi proseslərin idarə olunmasına rəhbərlik etsin. Bu sovetin rəhbərlərindən biri də sonralar kansler Adenauerdən sonra Almaniyada «ikinci adam» sayılan Lyudviq Erxard idi. Onun iqtisadiyyat sahəsindəki fikirləri sosial bazar iqtisadiyyatının mənəvi atası sayılan Valter Oykenin fikirlərinə uyğun gəlirdi.

Şuranın üzvləri üçün insan azadlığı ən öndə duran məsələ idi. Ancaq bu insan, ilk öncə, öz məsuliyyətini dərk etməlidir. Lakin məsuliyyəti o adam hiss edə bilər ki, o seçmək imkanına malik olsun, yəni məsuliyyətin ilkin şərti seçmək azadlığının olmasıdır ki, bu eyni dərəcədə siyasi və iqtisadi dairələrə də aid edilməlidir. İnsanın istehsal və istehlak səviyyələrində qərarlar qəbul etmək imkanları nəzərdə tutulmalıdır. Bu isə göstərir ki, bazar iqtisadiyyatının etik konsepsiyası çox həyatidir. İnsan əməyinin nəticəsindən razı qaldıqca o daha yaxşı işləyir. Bu bazar iqtisadiyyatında alimlərin söykəndikləri əsas fikirdir. Bu, ilk növbədə, cəmiyyətin xeyrini düşünməyi təbliğ eyləyən, insanın tezliklə nailiyyət əldə etməsini nalayiq bir hərəkət kimi qiymətləndirən marksist ideologiyasının tam əksinədir. SBİ-də «sağlam eqoizm» - azad sahibkarlıq, sosial mülkiyyət hüququ ilə çulğalaşdıqda ictimai xoşbəxtliyin əsl mühərrikinə çevrilir. Beləliklə, ayrı-ayrı adamlar, ayrı-ayrı təsərrüfatlar və müəssisələr azad və məsuliyyətləri ilə planlar tərtib edir və həll edirlər: Nə istehsal və istehlak etmək istədiklərini, tələb və təkliflərini müəyyənləşdirirlər. Beləliklə, onlar hər hansı mərkəzi planlaşdırma idarəsinə nəzərən öz şəxsi arzularında daha çox məlumatlıdırlar. İrəlidə də deyildiyi kimi dövlətin iqtisadi

qüdrəti təkcə onun xəzinəsində olan var-dövlətlə müəyyənləşmir, xalqın iqtisadi imkanları da onun əsas təşkil edicisi sayılmalıdır. Bunu bazar iqtisadiyyatına əsaslanan dövlət yerinə yetirir.

Bəs nə üçün bu milyonlarla planlar xaosa gətirib çıxarmır? Çünki, bu çoxlu sayda planların koordinasiyasını bir həssas mexanizm – qiymət aparır. Qiymət iqtisadiyyatda baş plan rolunu oynamaqla, mal istehsalçısına dərhal bildirir ki, o hansı malları və nə qədər istehsal etməlidir. Əgər kimsə bu göstəricilərə fikir verməzsə, digər istehsalçılar onu bazardan vurub çıxaracaqlar. Beləliklə, rəqiblər tərəfindən təzyiq göstərilir ki, sahibkar alıcının istədiyi malları ən aşağı qiymətlərdə istehsal etsin. Rəqabətin bu təsirini azaltmaq məqsədilə sahibkarlar öz aralarında razılaşmağa cəhd göstərirlər, sərbəst qiymət qoymanın qarşısını almağa çalışırlar. Bütün bunları daima nəzarətdə saxlayan dövlət, belə hallarda iqtisadiyyat sahələrində də fəaliyyətə girişir. Onun birinci dərəcəli məsələsi Bİ-nın özəyini təşkil edən rəqabətin bərpasını təmin etməkdən ibarətdir. Bu məsələnin yerinə yetirilməsi o deməkdir ki, ümum xalq marağı ilə çıxış edən dövlətin iqtisadi quruluşunun imkanları yaranır: xalq sərbəst sahibkar olmaqla, yaxşı sazlaşdırılmış mallarla optimal təchiz olunan bazarın yaradılmasında iştirak edir ki, nəticədə sosiallıq özünə yer tapır. Belə bir iqtisadiyyatda çoxlu sayda müxtəlif sənətlər, deməli, seçmək imkanları yaranır, sərbəst sahibkar olmaq, yaxşı sazlaşdırılmış mallarla optimal təchiz olunan, aşağı qiymətlərlə təmin olunan istehsal ortaya çıxır. Vətəndaşlara iş və çörək verilir. Sosial bazar iqtisadiyyatı ona görə sosial adlanır ki, dövlət öz vətəndaşları haqda qayğı göstərir. Təbii ki, heç də hər bir vətəndaş bazarın tələblərinə uyğun işləyə bilmir. Belə halda dövlət köməyə gəlir. O, bütün vətəndaşlar üçün eyni olan start vəziyyəti yaradır, ədalətsizliyin baş verməsinin qabağını alır, müflisləşənləri, müdafiəsiz işsizləri, qocaları, xəstə və uşaqları müdafiə edir. Sosial ədalət və həmrəylik ictimai konsensusun ilkin şərtini təşkil edir ki, bu da öz növbəsində təsərrüfatçılığın müvəffəqiyyət şərtidir. Cəmiyyət öz qüvvəsini sinfi mübarizəyə deyil, müzakirə və kompromislər yolu ilə yüksək harmoniya yaratmağa sərf edir. Qarşı durma əvəzində qarşılıqlı mübadilə, istehsal qüvvələrini istənilən iqtisadi məsələlərin həllinə

yönəltməyə imkan verir /yəni yaşayış səviyyəsi yüksəlir/. Bununla yanaşı belə bir paradoksal vəziyyət yaranır: dövlət sosial qarantiya çox verdikcə vətəndaşların tələbi də bir o qədər yüksək olur, bu da iqtisadi potensialı aşağı salır – inflyasiya başlayır. Bu isə dövləti məcbur edir ki, daima sosial tədbirlərin həyata keçirilməsini və maliyyələşdirilməsini aparsın. Bu səbəbdən dövlət iqtisadi iflasa həmişə hazır olmalıdır; ondan nə sahibkarlar və nə də muzdla tutulmuş fəhlələr mühafizə olunmurlar. İqtisadi iflasa uğramaq təhlükəsi «Demoklav qılıncı» tək istər istehsalçını, istərsə də sahibkarı həmişə qorxu altında saxlayıb, məcbur edir ki, daima zəhmət çəksinlər. Bu, eyni zamanda məhsul bolluğu yaratmağın hərəkət etdirici qüvvəsidir ki, bu da hamının xeyirinədir. Təbii olaraq, hər kəsin bacarığına görə prinsipi həyatda özünə yer tapır.

Sosial bazar iqtisadiyyatının Almaniyada həyata keçirilməsi üçün hər şeyi edən Edxard qeyd edirdi ki, bu keçid dövrü /o iki ilə qədər müəyyənləşdirilmişdi/ xalqın ümum vəziyyəti pis olacaqdır, sonra isə yaxşılaşma prosesi başlayacaqdır. Doğrudan da ərzaq məhsullarının talonla paylanmasının ləğvindən sonra, tez bir zamanda, tarixdə görünməmiş iqtisadi yüksəliş – «alman iqtisadi möcüzəsi» baş verməyə başladı. 1948-ci ilin əvvəlində sənaye istehsalı 1936-cı ilə nəzərən 53% təşkil edirdisə, həmin ilin ortalarında 73%-ə çatmışdı; 1949-cu ilin noyabrında 100% idi. 1950-ci ilin noyabrında isə əvvəlki ilə nəzərən məhsul istehsalı 30%-dən çox artmışdı. Müharibənin yaratmış olduğu dağıntılar nəinki yığışdırılmış, hətta bərpa da olunmuşdu. AFR-in son 40 ildə gəlib çatmış olduğu vəziyyəti əsas verir deyək ki, əməyin stimullaşdırılması ilə sosial qarantiyanın harmonik kombinasiyası tarixdə iqtisadi nəzəriyyələrin bilmiş olduğu modellərin ən optimalıdır. Bu model eyni dərəcədə iqtisadi yüksəlişi və sosial konsensusu təmin edir. Bu iki kateqoriyanın bir-birindən qarşılıqlı asılılığı AFR-i belə bir rifah səviyyəsinə qaldıra bilmişdir.

Göründüyü kimi Alman iqtisadiyyatında dirçəlişin əsasını iqtisadiyyat üzrə alimlər qoymuşlar – onu yüksəlişə apara bilən hərəkət mexanizmini əsaslandırmış və həyata keçirilməsində inamla mübarizə aparmışlar.

Uzun müddətli iqtisadi yüksəliş o ölkələrə qismət olur ki, bazar mexanizminə malikdirlər və bütün məsələləri iqtisadi maraqlara tabe etdirmişlər.

SBİ əsas olsa da, o iqtisadi yüksəlişi təklikdə müəyyənləşdirici faktor deyildir. Nailiyyət həm də ölçüyə gəlməyən milli xarakterlə, din, tarix, əmək etikası, sosial həmrəylik kimi kəmiyyətlərlə də müəyyənləşir. Sosial həmrəyliyə misal olaraq, müharibədən sonra Almaniyada qalmış bir soydaşımızın şahidi olmuş olduğu bir söhbəti xatırlamaq yerinə düşər. O deyirdi: Müharibə qurtarmışdı, yaşayış çox pis vəziyyətdə idi. Üçüncü Reyxdən miras qalan talonla paylama sistemi fəaliyyətdə idi. Əsas qida məhsullarını verilən kartoçkalarla əldə etmək olardı. Bununla belə bir amerika siqaretinə istədiyin şeyi ala bilərdin. Dövriyyədən hələ çıxarılmayan «reyxs marka» lap qiymətdən düşmüşdü. Almanlar təbii mübadiləyə keçmişdilər. Belə bir şəraitdə almanların özlərinin istehsal etdikləri məhsulların qiyməti kənardan gətirilənlərdən 5-6 dəfə baha olmasına baxmayaraq, almanlar, demək olar ki, ancaq özlərinin istehsal etdikləri malları alırdılar. Nəhayət mən bu marağımı onlara bildirdim və nə üçün qat-qat ucuz xarici malları deyil, baha alman mallarını alırlar, deyə soruşdum. Onlar məndən çox narazı qaldılar və onları bir alman kimi təhqir etdiyimi bildirəndən sonra belə izah etdilər ki, əgər bu gün onlar, baha da olsa, öz alman mallarını deyil, ucuz da olsa, xarici malları alarlarsa, onda onlar öz milli firmalarını iflasa uğratmış olarlar. Budan sonra xarici firmalar mallarının qiymətini 10 qat artırarlar. Yox əgər onlar bu gün yeni-yeni yaranan milli firmalarını qoruyarlarsa, firma da ətə-qana gəldikcə, mallarının qiymətini daha da aşağı salacaq və nəhayət, xarici firmalar da qiymətlərini daha da aşağı salmağa məcbur olacaqlar.

Buna bənzər hadisələri digər inkişaf etmiş ölkələrdə də müşahidə etmək mümkündür. 70-ci illərdə xarici neft firmalarının təzyiqi altında /qiymətini kəskin azaltmaqla/ Türkiyədə yeni yaradılan milli neft şirkəti çətin vəziyyətə düşmüşdü. Milli Hərəkat Partiyasının başqanı Türkəşin müraciətindən sonra xalqın firma ilə həmrəyliyi firmanı iflasdan qorumuşdur: xalq bir nəfər kimi benzini ancaq öz milli şirkətlərindən almışdır.

Göründüyü kimi xalqın şüurlu surətdə qarşıya çıxan çətinliklərə dözməsi, sahibkarların isə daima öz xalqı qarşısında məsuliyyətini hiss etməsi, ölkə iqtisadiyyatının yüksəlməsinə səbəb olan faktorlardandır. Bazar iqtisadiyyatı iqtisadi sahələrdə aramsız aparılan müharibəni ortaya qoyur. Özü də bu müharibədə çox dövlətlər iştirak edir. Ona görə də deyirlər ki, Bİ şəraitində dinc dövrdə sahibkarların müharibəsi başlayır, sahibkar millətin döyüşən əsgərinə çevrilir.

Beləliklə, bu və digər inkişaf etmiş ölkələrin elmə münasibətlərinə diqqət yetirdikdə onların elmi fəaliyyətin təşkilinə yanaşmalarında fərqliliklərin olduğunu, lakin bütün yanaşmaların elmi nəticələrin praktikada tətbiqinə və bunun da iqtisadiyyatın təhlükəsiz və davamlı inkişafına apardığını görürük.

1.5. Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili və idarə olunması təcrübəsi

Azərbaycanda elmi fəaliyyətin təşkili və idarə olunması, vəziyyəti məsələlərini öyrənmək istədikdə, ilk öncə, onu nəzərə almaq lazımdır ki, o, yaxın keçmişdə SSRİ-də elmi fəaliyyətin təşkili və idarə olunmasının tərkib hissəsi olmuşdur. SSRİ-də elmi fəaliyyətin təşkili və idarə olunması – elm siyasəti aparılan ümumi dövlət siyasətinə tabe etdirildiyindən, Azərbaycanda həyata keçirilmiş elm siyasətinə sovet dövlətinin yeritmiş olduğu ümumi siyasətin tərkib hissəsi kimi baxılmalıdır. Bu səbəbdən bəzi detalları da nəzərə almaqla, SSRİ-də elmi fəaliyyətin təşkili və idarə olunması məsələlərini araşdırmaqla, Azərbaycanda da elmin keçdiyi yolu və müasir vəziyyətini öyrənə və sonra isə inkişaf etmiş ölkələrin təcrübəsini nəzərə alıb, respublikamızda elmin inkişafı yollarını müəyyənləşdirə və sürətləndirə bilərik.

1969-cu ildə SSRİ-də elmlə məşğul olan adamların sayı 20 milyona çatırdı. Göründüyü kimi SSRİ-də elmi zəhmətlə bağlı olan adamların sayı çox böyük olmuşdur. Bu o deməkdir ki, bu işçilərin hazırlanması və işlərinin dövlət tərəfindən təşkili öz-özlüyündə dövlətin vacib /əsas/ məsələlərindən birinə çevrilə bilmişdir. SSRİ-də hər 5-6

ildən bir /ABŞ-da hər on ildən bir/ alimlərin sayı iki dəfə artırdı. Bu, SSRİ-də digər sahələrdə çalışanların artım sürətindən çox idi. Məsələn, 1928–1969-cu illərdə elm sahəsində çalışanların sayı 40 dəfə, sənaye sahələrində çalışanların sayı 7,3 dəfə artmışdı.

Elmi-texniki tərəqqinin inkişafını artıran başqa əsas faktor elmi tədqiqat işlərinin aparılmasına ayrılan vəsaitin xeyli artması olmuşdur. 1950–1970-ci illər ərzində bu 11 dəfə artıb və 1970-ci ildə 10,2 milyard manata çatmışdı. SSRİ-də 1965-ci ildə 4724 elmi idarə, 41559 layihə, axtarış və konstruktor təşkilatları, 726 ali və 3820 orta ixtisas tədris müəssisələri, elmi informasiyaların axtarışı, analizi və praktiki istifadəsi ilə məşğul olan on minlərlə irili-xırdalı kollektivlər mövcud idi.

Elmi fəaliyyət makro və mikro səviyyələrdə təşkil olunmuşdu. Mikrosəviyyə dedikdə elmi-tədqiqat institutları və digər elmi işlə məşğul olan elm müəssisələri nəzərdə tutulur. Makrosəviyyə dedikdə isə elmi tədqiqatların dövlət səviyyəsində təşkil olunması nəzərdə tutulur. Lakin bu səviyyə anlayışları /ayırma/, bir-biri ilə əlaqədə olduqlarından çox geniş və şərtidir.

SSRİ-də elmin idarə olunması sistemi ilə tanış olduqda görürük ki, SSRİ-də elmi tədqiqatlara ümumi rəhbərlik SSRİ Nazirlər Soveti tərəfindən həyata keçirilirdi. Nazirlər Soveti aşağıdakı məsələlərə baxır və təsdiq edirdi:

- elmin inkişafının əsas istiqamətləri;
- elmin inkişaf planı;
- elmi tədqiqatların maliyyələşdirilməsi;
- elmin inkişafının sürətləndirilməsinə yönəlmiş tədbirlərin hazırlanması.

Nazirlər Soveti elm siyasətinin həyata keçirilməsi və elmin inkişafı üzrə direktivlərin işlənib hazırlanmasında Nazirlər Sovetinin Dövlət Elm və Texnika Komitəsinə istinad edirdi. Dövlət Komitəsi SSRİ-nin nazirlik və idarələri, müttəfiq respublikaların Nazirlər Sovetləri ilə birgə irəli /perspektiv/ dövr üçün elmin inkişafının əsas istiqamətlərini işləyib hazırlayır, xalq təsərrüfatının əsas problemləri üzrə elmi-texniki proqnozlar verir, elmi tədqiqat işlərinin və texnoloji-konstruktor işlənmələrinin planlarının layihələrinin hazırlanmasını təşkil edir

və SSRİ hökumətinə təqdim edirdi. Komitet hər növ elmi-tədqiqat işlərinin koordinasiya planını və ümumdövlət əhəmiyyətli elmi problemlərin işlənmələrini təsdiq edirdi.

Dövlət Komitəsi SSRİ Maliyyə Nazirliyi və SSRİ Dövlət Plan Komitəsi ilə birgə elmi-tədqiqat işlərinin formalaşdırılması planlarının layihələrini təklif edir. Elmin maddi bazasını inkişaf etdirmək üçün kapital qoyuluşunun həcmi haqda SSRİ EA-nın, nazirlik və idarələrinin təkliflərinə baxılmasında iştirak edirdi.

Dövlət Komitəsində kompleks və sahələrarası elmi-texniki problemlər üzrə elmi Şuralar fəaliyyət göstərir və uyğun problemlər üzrə bütün işləri koordinasiya edirdi.

SSRİ-də ali elm müəssisəsi SSRİ Elmlər Akademiyası olmuşdur və o, sovet elminin ən böyük təmsilçilərini özündə üzvləri kimi birləşdirirdi. EA-nın əsas məsələsi – fundamental və tətbiqi tədqiqatların inkişafına hərtərəfli nail olmaqdan ibarət idi. SSRİ EA-nın təşkilat quruluşu kollektivlik prinsipinə əsaslanırdı. O respublika EA-larının və institutların xalq təsərrüfat sahələri ilə əlaqələrinin yaranmasını təşkil edirdi. Dövlət Komitəsi ilə birgə kəşflərin, ixtiraların və tədqiqatların əsas nəticələrini aşkar edirdi.

Göründüyü kimi SSRİ-də elmin idarə sistemi mürəkkəb və çox məqsədli olub, çoxlu sayda qarşılıqlı əlaqələrlə xarakterizə olunub.

SSRİ-də olan elm potensialının müəyyən bir hissəsi müttəfiq respublikalarda, müttəfiq respublikalarda olan elm potensialının böyük bir hissəsi hər respublikanın EA-da toplanmışdı. Burada ictimai və təbiət elmlərinin SSRİ DETK-da təsdiqlənən əsas problemləri üzrə işlərə ümumi rəhbərlik edilirdi. Respublikanın digər nazirlik və təşkilatlarının tərkibində fəaliyyət göstərən elm müəssisələri də mövcud idi. Bundan başqa kadrlarının potensial gücü heç də yuxarıda göstərilənlərdən az olmayan İttifaq tabeli elm müəssisələri, elm-istehsalat birlikləri fəaliyyət göstərirdi. Bunlar adətən İttifaq tabeli iri müəssisələrin tabeliyində yaradılırdı.

Bütün SSRİ-də olduğu kimi Azərbaycan SSR-də də bu elm müəssisələri arasında heç bir əlaqə, demək olar ki, yox idi. Elmə rəhbərlik vahid dövlət siyasətinə tabe etdirilsə də, elmin istehsalatla əla-

qəsi olduqca zəif olmuşdur. Bu EA-sına xüsusilə aid olunmalıdır. SSRİ-də elm, orta əsrlərdə mövcud olan «elm elm üçündür» ənənəsi ilə inkişafa daha çox meylli olmuşdur. Azərbaycanın böyük alimi Nəsirəddin Tusinin yüz illər bundan qabaq «əməlsiz elm heçdir» çağırışına baxmayaraq, Azərbaycanda elmin istehsalatla əlaqələri günün tələbindən çox uzaq olmuşdur. Bu vəziyyət heç də ayrı-ayrı elm və istehsalat müəssisələrinin, alim və mühəndislərin səhvindən irəli gəlmirdi. Ən əvvəl, elmi fəaliyyətin təşkili və idarə olunmasındakı naqisliklərdən, istehsalın və elmin administrativ komanda ilə qəti planlaşdırılmasından irəli gəlirdi. SSRİ dağılandan sonra (əslində elə 1985-ci ildən başlayaraq) iqtisadiyyatda (bütün SSRİ ərazisində) baş verən böhranlar istehsalın təşkilində bir-sıra səhvin aşkarlanmasına imkan verdi. Bunlardan biri də iqtisadiyyatın bütün sahələrində texnologiyaların yarımçıq olmaları idi. Belə vəziyyət hətta kənd təsərrüfatı və elmi fəaliyyət sahələrində də özünü göstərmişdir. Bu, «Yenidənqurma siyasəti»nin həyata yol tapmasından – elmi nəticələrin istehsalata tətbiq imkanlarının artmasından sonra da elmi nəticələrin istehsalata gedib çıxa bilməməklərinin səbəblərindən biri olmuşdur. İşlənən mövzular bir-çox hallarda respublika iqtisadiyyatı ilə əlaqədə olmurdu. Mövzuların SSRİ DETK-sı tərəfindən təsdiqlənməsi və bəzən də maliyyələşdirilməsi onunla nəticələnirdi ki, respublikaya fayda verə biləcək işlər bu və ya digər yollarla planlardan çıxarılırdı. Nəhayət, Respublika elminin istiqamətləri, əsasən, Moskvada müəyyənləşirdi.

1.6. Azərbaycan Respublikasında elmi fəaliyyətin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ümumi iqtisadi yüksəliş uğurlu Bİ ilə təmin olunur. Bİ-nın uğurlu olması isə, ilk növbədə, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi səviyyəsi ilə müəyyənləşir. Bu isə elmi fəaliyyətin Bİ tələblərinə uyğun təşkil olunmasını tələb edir, yəni elmi fəaliyyətin böyük bir hissəsi özəl sektorda özünü tapmalıdır. Elmi-texniki tərəqqinin özü uğurlu Bİ-nın məhsulu kimi ortaya çıxmışdır. Bİ ilə elmi fəaliyyət arasında olan bu qarşılıqlı əla-

qənin daima uğurlu olması, əsasən, ölkədə elmi fəaliyyətin bütövlükdə düzgün təşkil olunmasından bir başa asılıdır və iqtisadi yüksəlişin əsasını təşkil edir.

Məlumdur ki, elmi fəaliyyət, əsasən:

- elmi tədqiqatların müəyyənləşdirilməsi və aparılması;
- elmi nəticələrin dəqiqləşdirilməsi və onların əsasında təcrübi nümunələrin hazırlanması, sınaqdan çıxarılması;
- elmi nəticələrin əsasında yaradılmış təcrübə nümunələrinin istehsalda tətbiqi kimi üç böyük mərhələdən keçir.

Təcrübə göstərir ki, əgər bunlardan biri reallaşmazsa, nə elmi fəaliyyətin və nə də bazar iqtisadiyyatının uğurlarından danışmaq olar. Keçmiş Sovet dövlətində birinci mərhələ çox /hətta ifrat/ inkişaf tapdığı halda, ikinci mərhələ qismən, üçüncü isə əsasən, diqqətdən kənarda qalırdı, Qərb ölkələrində isə hər üç mərhələnin inkişafına fikir verilirdi. Hər ikisinin nəticəsi göz qabağındadır. Məlumdur ki, elmi fəaliyyətin istiqamətləri dövlətin iqtisadi siyasətindən kəskin şəkildə asılıdır. İlk baxışda, elmi fəaliyyətin müstəqillik ideyasını əsas tutmaqla, birinci mərhələdə bu fikrə etiraz edilə bilər. Bu haqda onu demək kifayət edər ki, ABŞ-dan başqa heç bir inkişaf etmiş ölkə belə bütün istiqamətlərdə elmi-tədqiqat işlərini aparmaq iqtidarında deyildir. Odur ki, hər bir dövlət, ilk öncə, iqtisadiyyatları ilə bağlı sahələrdə elmi-tədqiqat işlərinin aparılmasına diqqət yetirir. Keçid dövründə isə bu daha kəskin qoyulur.

Bazar iqtisadiyyatının əlamətləri. Son dövrlərdə keçmiş SSRİ dövlətinin dağılması nəticəsində yaranmış yeni müstəqil dövlətlərdə yeni iqtisadi münasibətlərə – bazar iqtisadiyyatına /Bİ/ keçid yolları və onun mexanizmi haqda müxtəlif fikirlər söylənilsə də qəti söz demək hələ ki, çox çətindir. Belə ki, Bİ-na hər bir ölkədə keçmək olarmı və ya bunun üçün hansısa şərtlər lazımdır? Məsələn, Qərbi Avropanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində və Afrikanın aqrar ölkələrində bazar iqtisadiyyatına keçid haqda və eləcə də keçmişdə sosialist iqtisadiyyatına söykənmiş ölkələrin Bİ-na keçmələri haqda nə demək olar və keçid mexanizmi necə olmalıdır, indiki meyl nəyə gətirib çıxara bilər kimi əsaslı məsələlər öz elmi həllini tapa bilməmişdir.

Bununla belə Bİ, istəsələr də, istəməsələr də, qloballaşma ilə bağlı bu ölkələrin gündəlik həyatının tərkib hissəsinə çevrilməkdədir.

Güman edirik ki, aşağıda söylənənlər bu suallara müəyyən aydınlıqlar gətirməyə xidmət edə biləcəkdir.

Əvvəlcə hər bir ölkənin normal inkişaf edə bilməsi üçün Bİ-nın zəruri olan bəzi tələblərinə diqqət yetirək:

1.Hər bir ölkənin iqtisadiyyatının tənzimlənməsi və yüksəldilməsində həll edici rol oynayan Bİ, təşəbbüskarlıq və məsuliyyətdən ibarətdir. Demokratiyanı və insanların fəaliyyət müstəqilliyini özündə əks elətdirən təşəbbüskarlıq, vətən, xalq, müəssisə kollektivi, vətəndaş, ailə, konstitusiya, məktəb və s. qarşısında hər təşəbbüskarın qanun, əxlaq və ağıl normaları ilə müəyyən cavabdehliyini, hərəkətini davranışını əks elətdirən məsuliyyətlə müəyyən mənada məhdudlaşdırılır, nizamlanır, istiqamətləndirilir və hərəkətə gətirilir.

2.Dünyada Bİ-na keçməyin bir çox modelləri vardır. Əlbəttə, bu modelləri olduğu kimi tətbiq etmək yox, onlardan istifadə etmək lazımdır. Başqa sözlə, yeni dövlətlər, özlərinə məxsus unikal cəhətləri nəzərə almaqla, öz modellərini yaratmalıdırlar. Təkcə onu qeyd etmək istərdik ki, Bİ üzrə dövlət siyasəti düzgün olduqda böyük sosial-iqtisadi nəticələrə çatdırır. Əks halda, böhran hadisələri baş alıb gedər. Sonuncuya misal olaraq, Afrika və Latın Amerikası ölkələrini, birinciyə misal olaraq, Qərbi Avropa ölkələrinin təcrübəsini və müasir dövrdə Türkiyə və Meksikanın uğurlarını göstərmək olar.

3.Kapitalizm özünün Bİ-na əsaslanan mərhələsinə, əsasən, II Dünya müharibəsindən sonra daxil olmuşdur. Ancaq maliyyə imkanı olan insanların istehsalla məşğul olması mümkün olan kapitalizmin birinci mərhələsindən fərqli olaraq, bu mərhələdə dövlətin bilavasitə maliyyə və hüquqi yardımı nəticəsində, təşəbbüskarlıq ön plana çəkilir, təşəbbüskar mütəxəssislərin sahibkarlara çevrilmələri imkanları xeyli çoxalır. Belə bir cəmiyyətdə insanların istismarçı və istismar olunanlara deyil, bacaran və bacarmayanlara ayrılması prosesi baş verir, yəni cəmiyyətin antaqonist ziddiyyətli siniflərə ayrılması prosesi aradan çıxır. İstehsalın inkişafı sahibkarlarla işçilər arasında kompromislə (qarşılıqlı razılaşma ilə) davam etdirilir.

4.İqtisadi yüksəlişin əsasını təşkil edən Bİ-na keçid dövlətin tam müstəqilliyini tələb edir. Ancaq müstəqil dövlət (öz qanunlarının aliliyinin gözlənilməsini təmin etməyə qadir olan, yəni güclü olan dövlət) iqtisadiyyatın yüksəlişini təmin edə bilər. Əks təqdirdə ölkə iqtisadiyyatında anarxiya baş alıb gedər.

5.İqtisadiyyatın yüksəlişi, ən əvvəl, ölkədə istehsalın təşkil olunması, onun məhsullarının istər ölkə daxilində, istər ölkə xaricində dünya bazar rəqabətinə davamlı olması ilə müəyyənləşir. Toplanmış tarixi təcrübələr göstərir ki, belə bir iqtisadi yüksəlişə ancaq elmi-texniki nəticələri dayanmadan istehsalata tətbiq etməklə nail olmaq olar. Deməli, istehsalla elmi fəaliyyətin sistemliyi təmin olunmalıdır. Bu isə o deməkdir ki, biri o birisinin səbəb və nəticəsi olmalı, istehsalın bütün sahələrində inkişafın istiqamətlənməsi və tənzimlənməsi üçün zəruri olan qarşılıqlı əks əlaqə fəaliyyət göstərməlidir, yəni elmi-texniki tərəqqi özünə yer eləməlidir. Keçmiş SSRİ-də iqtisadiyyatın pozulmasının əsas səbəblərindən biri bu əlaqənin zəif olmasından irəli gəlmişdir.

Bazar iqtisadiyyatına keçid dövründə elmi fəaliyyətin təşkili və idarə olunması haqqında. Dövlətin vəzifələri. İlk baxışda Azərbaycan Respublikasında Dağlıq Qarabağla əlaqədar olaraq yaranmış ağır günlərimizdə diqqəti belə bir məsələnin həllinə yönəltmək vaxtsız görünə bilər. Lakin unutmaq da olmaz ki, iqtisadiyyatın zəif olması müstəqillik yoluna qədəm qoymuş hər bir ölkənin qarşısında daha böyük çətinliklər yarada bilər. Digər tərəfdən, biz xalqımızın bu günü ilə yanaşı sabahını da fikirləşiriksə, bu işlər sonraya saxlanıla bilməz, elə bu gün, özü də dövlət səviyyəsində görülməlidir.

Yenidənqurmadan az sonra respublikamızda olan istehsal müəssisələri bütövlükdə fəaliyyətlərini dayandırmaq məcburiyyəti ilə üzləşmişdilər. Elm müəssisələrinin /adamlarının/ vəziyyəti isə daha da ağırlaşmışdı. Dövlətin maliyyə imkanlarının az olması, dövlət qanunlarının gözlənilməməsi səbəbindən heç olmasa əvvəlki qaydada dövlət tərəfindən maliyyələşdirilməyən bu müəssisələr də, elm-istehsalat əlaqələrinin yoxluğundan (onsuz da istehsal müəssisələrinin maliyyə imkanları tükənmişdi) fəaliyyətlərini dayandırmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdılar və əmtəə mübadiləsinə keçmişdilər. Sovet dövlə-

tindən respublikamıza qalan elm kadrları və elm müəssisələrinin malik olduqları texniki avadanlıqlar da mənəvi köhnəlmək, məhv olmaq və tükənmək təhlükəsi ilə üzləşmişdi. On illərlə əldə olunmuş bu maddi və mənəvi sərvətlərin məhv olması ehtimalı müstəqillik əldə etmiş xalqımızın heç də xoş gələcəyindən xəbər vermirdi. İqtisadi yüksəlişə nail olmuş bütün müstəqil dövlətlərin bu yüksəlişlərinə elmi texniki tərəqqi yolu ilə çatdıqlarını heç bir zaman unutmaq olmaz. Buna görə də istər dövlət, istərsə də elm ictimaiyyəti, öz vəzifələrini yerinə yetirərək, elmi fəaliyyətin bərpası və dünya iqtisadi aləminin tələbləri səviyyəsində inkişaf etdirilməsi üçün, bütün iqtisadi çətinliklərə baxmayaraq, lazım olan tədbirləri görməli, istehsalın elmlə qarşılıqlı əlaqədə inkişaf etdirilməsinin yollarını axtarıb tapmalıdırlar. Respublikamızın müharibə apardığını da unutmaq olmaz. Eyni zamanda unutmaq olmaz ki, elmi texniki tərəqqi özü də, nə qədər qəribə olsa da, II Dünya müharibəsinin bəhrəsidir, müharibənin məqsədlərini ödəmək məqsədilə elmi potensialın bütövlükdə səfərbərliyə alınmasının nəticəsidir. Bizim keçən illər ərzində (və bu günümüzdə) bu yoldan kənar durmağımız anlaşılmaz acı bir həqiqətdir.

Respublikamızda uzun illərdən bəri elmi fəaliyyət sahəsində formalaşmış idarə etmə sistemini birdən-birə dəyişməyin çətin olduğunu nəzərə alaraq, bazar iqtisadiyyatına keçid şəraitində elmi fəaliyyətin bərpası və inkişaf etdirilməsi üçün dövlətin vəzifəsi olaraq, qismən aşağıdakı yollar təklif olunur:

1.Elm ictimaiyyəti uyğun dövlət qurumlarının /məsələn, Dövlət Elm və Texnika Komitəsi (DETK)/ xətti ilə, dünyada və respublikamızda əldə olunmuş elmi-texniki nəticələrə əsaslanaraq, dövlətin təşkil etdiyi iqtisadi inkişaf proqramlarının tərtibinə cəlb olunurlar.

2.Respublikada dövlətin uzaq və yaxın gələcək üçün planlaşdırılan iqtisadi inkişaf proqramlarında nəzərdə tutulan üstün istiqamətlərə uyğun olaraq tərtib olunan, elm və texnologiya üzrə tədqiqatlara ümumi rəhbərliyi dövlətin nəzdində /DETK-da, lakin prezident və ya baş nazir tərəfindən təsdiq olunan əsasnamə və siyahı üzrə/ yaradılan Milli /Dövlət/ Elm Şurası yerinə yetirir. Bu Şura üzvləri respublikamızda demokratik yolla yaradılan və DETK sədri tərəfindən təsdiq olunan

Problem Şuraların sədrləri olurlar. Belə ki, Komitə əsasən, təşkilati və praktik məsələləri həll edir.

Bunlarla yanaşı elmi nəticələrin tətbiqi ilə bağlı məsələlər üzrə istehsalla əlaqəli nazirliklərin və baş idarələrin rəhbərlərindən, elm, ali tədris müəssisələrinin Elmi Şuralarının nümayəndələrindən ibarət Elm-İstehsal Problem Şurası yaradılır və Şuranın səlahiyyətləri dövlət tərəfindən təsdiq olunur;

3.Bu sovetlərdə əsasən aşağıdakı məsələlərə baxılır:

- hər hansı bir dövlət elmi-texniki proqramlarını tərtib etməzdən əvvəl, planlaşdırılmış işlərin nə səviyyədə yerinə yetirildiyi öyrənilməli və analiz olunmalıdır – respublikanın bugünkü elminin, elm-istehsalat arası əlaqələrin vəziyyəti haqda düzgün təsəvvür yaranmalıdır.

- elmi tədqiqat işlərinin nəticələrinin istehsalata tətbiqi üzrə kompleks plan müntəzəm olaraq, xarici ölkə patentlərinin lisenziyaları nəzərə alınmaqla, işlənib hazırlanmalı və elmi hesabat, texniki – iqtisadi əsaslandırma, tətbiq olunması nəzərdə tutulan müəssisənin (baş idarənin) əsaslandırılmış razılığı və digər tələblər də göstərilməlidir;

- dövlət əhəmiyyətli ümumrespublika, sahə (sahələrarası), rayon və ərazi istehsalat komplekslərinin elmi-texniki proqramlarının işlənib hazırlanması, maliyyələşdirilməsi, koordinasiyası haqda təkliflər və yerinə yetirilmələrinə nəzarət;

- ümumrespublika, ayrı-ayrı sahələr, sahələr arası idarəetmənin, o cümlədən, elmi fəaliyyətin, elm-istehsalat əlaqələrinin elmi əsaslarının dövrün tələbinə uyğun olaraq işlənib hazırlanması; kadr ehtiyaclarının perspektiv dövlət proqramlarının tələblərinə uyğun olaraq, müəyyənləşdirilməsi və uyğun kadrların hazırlanması;

- xarici ölkələrlə, o cümlədən, yaxın qonşu ölkələrlə elmi-texniki əməkdaşlığın yaradılması yollarının aşkarlanması və həyata keçirilməsində iştirak etmək;

- respublikanın ən vacib təsərrüfat problemləri üzrə elmi-texniki proqnozların hazırlanması;

- elmi-texniki və informasiya fəaliyyətinin hüquqi əsaslarını tənzimləyən qanunların və normativ aktların işlənib hazırlanması.

4.Dövlət, tətbiq xarakterli işlərin yerinə yetirilməsi və tətbiq

olunması üçün elm-tədqiqat institutlarına /və ya təşəbbüskar müəlliflərə/ güzəştlə kredit və mükafatlar verir. Elm-tədqiqat işlərinin nəticələrini istehsalata tətbiq edən elm və istehsalat müəssisəsinin əlaqədar xərcləri dövlət tərəfindən bu müəssisələrdən tutulan dövlət gəlir vergisindən çıxılmalıdır.

5.Elmi-tədqiqat işlərində texnoloji proseslərin və ləvazimatların, cihaz və hissələrin standartlaşdırılmasına və unifikasiya olunmasına nail olmaq lazımdır.

6.Respublika elminin dünya elm səviyyəsi ilə müqayisə oluna bilməsi üçün fundamental elmi-tədqiqat işlərinə diqqət daima artırılmalıdır.

7.Dövlətin elm, investisiya və innovasiya siyasətləri elə formalaşmalıdır ki, özəl sektor da elmi fəaliyyətin maliyyələşdirilməsində iştirak etsin, intellektual sahibkarlıq yeni-yeni formalaşan iqtisadi quruluşun əsasında durmuş olsun.

8.Azərbaycanda bazar iqtisadiyyatına keçid /o cümlədən, özəlləşdirmə və qiymətlərin sərbəstləşdirilməsi/ dövlət qanunçuluğu və onun həyata keçirilməsinə nəzarət edə biləcək güclü dövlət qurumları yaradılandan sonra, özü də əvvəlcə intellektual sahibkarlığın inkişaf etdirilməsi ilə başlanmalıdır.

Elm və istehsal müəssisələrinin vəzifələri. Yarandığı gündən demokratik prinsiplərdən işdə uzaq durmuş totalitar rejim sayəsində son illərdə SSRİ-də iqtisadiyyatın inkişafında güclü böhran vəziyyəti yaranmışdı. Ölkədə iqtisadi və siyasi kursun əsaslı şəkildə yenidən qurulması əsas bir zərurət olaraq, ortaya çıxmışdı. İqtisadiyyatın yenidən qurulmasını nəzərdə tutan yenidənqurma prosesi «idarə oluna bilmədiyindən», təbii olaraq, SSRİ-nin dağılması xalqların müstəqilləşməsi ilə bərabər baş verməkdə idi. Müstəqilliyini bərpa etmək yoluna qədəm qoymuş Azərbaycan Respublikasında yenidənqurma prosesi həm təbii, həm də süni yaradılan çox böyük çətinliklərlə müşayiət olunurdu ki, bunlar da iqtisadiyyatımızın respublikanın imkanları daxilində inkişaf tapmasına ciddi maneələr törədirdi. Bütün bunlara baxmayaraq xalqımız hər bir ağırlığa dözərək, tam və qəti müstəqilliyə nail olmaq yolunda inamla irəlilədi. Keçmiş rejimdən bizə miras qalmış, bərbad hala salınmış iqtisadiyyatımızı dirçəltmək, torpaqlarımızı erməni və

ermәni tipli xarici yağılardan indi vә hәmişәlik qoruya bilәcәk güclü müdafiә qüvvәlәrimizi yaratmaq, qarşımızda duran әn vacib mәsәlәlәrdәn idi. Bu yolda respublikamızda elm, texnika vә texnologiya sahәlәrindә fәaliyyәt göstәrәn insanlarımıza xüsusi ehtiyac duyulmaqda idi, belә ki, xalqımız, әn әvvәl, onların yorulmaq bilmәdәn bu istiqamәtdә mәqsәdli vә uğurlu zәhmәtlәri hesabına öz torpaqlarında azad vә xoşbәxt hәyatını qura bilәcәkdi. Bunu Qәrb ölkәlәrinin, ABŞ, Yaponiya, Kanadanın vә s. böyük ölkәlәrin timsalında açıq-aydın görmәk olar. İqtisadiyyatın inkişafında elm-texniki tәrәqqinin rolunun çox böyük olması heç kimdә şübhә doğura bilmәz.

Bugünkü iqtisadiyyatımızın acınacaqlı vәziyyәtini analiz etdikdә müәyyәn olunur ki, bunun әsas sәbәblәrindәn biri, bir o qәdәr dә çox olmayan elm müәssisәlәrimizlә istehsal müәssisәlәrimiz arasında işgüzar әlaqәlәrin çox zәif olmasıdır. Keçmiş tәcrübәnin öyrәnilmәsi göstәrir ki, istehsal müәssisәlәrindә, elәcә dә yuxarı idarәedici tәşkilatlarda elm müәssisәlәrinin inkişafı üçün nәzәrdә tutulan fond vә daxili ayırmaların mәqsәdyönlü istifadә olunmasında heç vaxt lazım olan sәviyyәdә maraq göstәrilmәmişdir, elm, texnika vә texnologiyaların davamlı olaraq yenilәşdirilmәsinә göstәrilәn cәhdlәr çox az olmuşdur. Digәr sәbәblәrlә yanaşı bu ona gәtirib çıxarmışdır ki, bu gün istәr elm müәssisәlәri /әsasәn/, istәrsә dә istehsal müәssisәlәri böyük böhranlarla üzlәşmәkdәdirlәr – fәhlәlәrlә yanaşı vәziyyәti onsuz da ağır olan elm adamlarını işsizliklәr gözlәyir, elm müәssisәlәri bağlanmaq tәhlükәsi qarşısındadır. Elm sahәsindәki kadrlar yaşayışlarını tәmin etmәk mәqsәdilә öz peşәlәrindәn әl çәkib, başqa işlәrә /hәtta fәhlәliyә/ getmәk mәcburiyyәti qarşısında qalmaqdadırlar. Bir çox nәsillәrin zәhmәti nәticәsindә formalaşmış elm vә texnika mütәxәssislәrini öz talelәrinә buraxmaq millәt vә vәtәn qarşısında әn azı mәsuliyyәtsizlikdir. /Elm müәssisәlәrindәn bu vә ya digәr sәbәblәrdәn ayrılmayanlar – onlara verilәn az miqdarda әmәk haqqı ilә kifayәtlәnәnlәr, lazım olan tәchizatları olmadığından onlara verilәn әmәk haqqı da dövlәt üçün mәnasız xәrcә çevrilir. İşçilәr isә elmin dünya sәviyyәsindәn çox geri qalırlar. Bütün bunlar azәrbaycan elminin /elmi kadrların/ sıradan çıxarılması ilә nәticәlәnmәkdәdir.

Bizim istehsalat müəssisələrində əmək məhsuldarlığı aşağı səviyyədədir və onların məhsulları, əsasən, dünya bazarlarında rəqabətə girə bilmirlər. Bunlarsız isə qurmaq istədiyimiz cəmiyyətdə – bazar iqtisadiyyatına əsaslanan iqtisadi şəraitdə biz nailiyyət qazana bilmərik, əksinə, olanlarımızı da itirə bilərik – xammal ixrac edən ölkə olaraq qalarıq. Qloballaşma dövründə yaşadığımızı nəzərə alsaq müstəqilliyimiz söz olaraq qalar. Erməni kimilərlə qonşuluqda yaşadığımızı nəzərə alsaq, onda bu qısıldığımız (nə qədər də ağır olsa) bu torpaqlarımızda belə yaşamağımızı da təhlükə qarşısında qoymuş olarıq. Bu zərurətdən, xarici ölkələrin də təcrübəsini öyrənməklə, elm-istehsal münasibətlərini inkişaf etdirmək məqsədilə əməli təxirə salınmaz tədbirlər işləyib hazırlamaq lazımdır. Bu tədbirlər, şübhəsiz ki, elmi idarələrin təkcə büdcədən deyil, başqa mənbələrdən də maliyyələşməsi ilə nəticələnməlidir. Elm-istehsal müəssisələri arasında təsərrüfat hesablı müqavilələrin bağlanması dövlət qanunu səviyyəsinə qaldırılmalı /dövlət müdaxilə etməli/ və elmi tədqiqatların effektivliyini artırmaq məqsədilə bağlanan müqavilələrin vaxtında və keyfiyyətli /dünya elminin tələbləri səviyyəsində/ yerinə yetirilməsi üçün tələb olunan təchizat məsələlərini dövlət öz öhdəsinə götürməlidir. Bundan başqa, hər iki tərəf müəssisələrin /həm də işçilərin/ marağını müqavilələrin bağlanmasına yönəldən qərarları ortaya qoymalıdır.

Bu məqsədlə hesab edirik ki, ən əvvəl, dövlətin təsərrüfat müəssisələri haqda qanunlarında müəyyənləşdirilməlidir ki, hər bir müəssisə /xaricilər də daxil/ mülkiyyətindən asılı olmadan daima artan gəlirlə işləməlidir /borcludur/. Məhsuldarlığı artırmaqla /keyfiyyəti yüksəltmək şərtilə/ dünya bazarına çıxmağın həyati zərurət olması, sahibkarın (istehsalçının) daima maraq dairəsində olmalıdır. Bunun üçün dövlət tərəfindən müxtəlif yardım və güzəştlər də müəyyənləşdirilməlidir. Bütün tədbirlər sahibkarları /istehsalçıları/ elm və texnika və texnologiyalar sahəsində elm ictimaiyyətinin əldə etdiyi nailiyyətlərdən könüllü surətdə müntəzəm olaraq, istifadə etməyə yönəldəcəkdir.

Xarici ölkələrin də təcrübəsini nəzərə almaqla, yuxarıda qeyd olunan işlərin həyata yol tapması üçün belə bir mexanizm işlənib hazırlanmalıdır:

1.Azərbaycan Respublikasında elm müəssisələrinin respublikanın iqtisadi sahələri üzrə formalaşmaları istiqamətində islahatlar aparılmalıdır.

2.DETK dövlət istehsal müəssisələri ilə birlikdə, əlaqəli elm müəssisələrini də cəlb etməklə, onlardan hər birinin /bəzən bütünlükdə sahələrin/ qarşısında duran problem və məsələlərin müəyyənləşdirilməsini təşkil etməli; onlar elmin istiqamətləri nəzərə alınmaqla, ayrı-ayrı toplularda maliyyə məbləği və müddəti və s. göstərilməklə istehsal və elm müəssisələri arasında paylanılmalıdır. Sonuncular da, öz növbəsində, bu problem və məsələlərin həlli yollarını qismən göstərməklə təkliflərini Komitəyə bildirməlidirlər.

3.Komitədə uyğun mütəxəssislərdən ibarət müxtəlif elmi-texniki şuralar /Komitələr/ yaradılmalıdır ki, bunlar da verilən təklifləri konkurs əsasında müzakirə etsinlər. Bu müzakirədə uyğun istehsal müəssisəsinin nümayəndəsi də iştirak etməlidir.

Komissiyanın qərarına əsasən problemi həll edəcək elm müəssisəsi ilə uyğun istehsal müəssisəsi arasında müqavilə bağlanılmalıdır. /Bundan əvvəl, nəzərdə tutulan işin xarici ölkələrdən patentin lisenziyasının alınmasının məqsədə uyğun olub-olmamağı müəyyənləşdirilir/.

4.Müqavilədə nəzərdə tutulan işlərin yerinə yetirilməsinə Komissiya tərəfindən nəzarət olunur. Müqavilələrin son təhvil-təslimi də Komissiyanın nəzarəti altında həyata keçirilir, belə ki, müqavilənin nəticələrinin istehsalata tətbiq olunduğuna əmin olandan sonra, o, bu haqda vergi nazirliyini məlumatlandırmalıdır.

Qeyd: Komitənin iştirakı olmadan da bir başa təsərrüfat müqavilələri bağlana bilər /onsuz da ölkədə bazar iqtisadiyyatına keçid tam başa çatandan sonra Komitənin vasitəçiliyinə ehtiyac, demək olar ki, qalmayacaqdır/, lakin müqavilənin bağlanılması /eləcə də lisenziyaların alınması/ haqda məlumat verilməlidir ki, həm mənəvi köhnəlmiş avadanlıqların və texnologiyaların respublikamıza gətirilməsinin qarşısı alınsın, həm də müqavilənin yerinə yetirilməsinə nəzarət edə bilsin, gələcəkdə təkrarlanmalara yol verilməsin.

5.Layihələrin istehsalata tətbiq olunmasından sonra müəssisə əldə etdiyi gəlirin müəyyən hissəsini Komitənin nəzdində olan Elm

Fondunun hesabına köçürməlidir.

Respublika daxilində patentlərin verilməsindən və qeydiyyatından əldə olunan gəlir də daxil olmaqla Elm Fonduna toplanan maliyyə vəsaitləri Komitədə baxılan layihələrin maliyyələşdirilməsində istifadə olunmalıdır.

6.Böyük elm, istehsal, müdafiə əhəmiyyəti olan fundamental tədqiqatlar konkurs yolu ilə uyğun nazirliklər tərəfindən, dövlət büdcəsindən ayrılan məbləğdən, həm də Elm Fondunda toplanan məbləğdən maliyyələşdirilir.

7.Elm müəssisələri /elm adamları/ öz ideyalarını və onun həll yollarını qismən göstərməklə, Komitənin dərc elədiyi topluda çıxış edib, özü üçün sifarişçi müəssisə tapa bilər. Əgər Komissiya işin icrasını başqa icraçılara həvalə edərsə, ideyanı /layihəni/ verən şəxsin müəlliflik hüququ müəyyən olunmuş qaydada mühafizə olunmalıdır.

8.Xarici ölkələrin patentlərinin aşkarlanması və lisenziyalarının alınması işində Komitə müəssisələrə köməkliklər göstərməlidir.

9.Komitə Respublikada yaradılmış yeni texnika və texnologiyaların xarici dövlətlərə satılmasını, elm müəssisələrinin xarici ölkələrlə müqavilələr əsasında işləmələrini, BMT-nin elm proqramlarının yerinə yetirilməsində iştiraklarını təşkil edir. Komitənin xidmətindən kooperativ və şəxsi təsərrüfatlar da istifadə edə bilərlər.

10.Komitə istər ölkə daxilində, istərsə də xarici ölkələrdə sifarişçi və icraçılar olaraq, elm və istehsal müəssisələri arasında əlaqələndirici kimi çıxış edir. Bu əlaqələrin tezləşməsinə və etibarlığının yüksəlməsinə müsabiqə yolu ilə çoxlu sayda mütəxəssisləri cəlb etməklə, məsələlərin ən optimal həllini tapmağa xidmət edir. Bütün bunlar sifarişçi və icraçının məsuliyyət hissinin artmasına gətirib çıxarmalıdır. Komitə fəaliyyətində təzyiq göstərməyə arxalanmır.

11.Komitə respublika alimlərinin elmi nəticələrinin mühafizəsi sahəsində onlara yardım olunması işini təşkil edir.

Bazar iqtisadiyyatı şəraitində elm-texnika sahəsində fəaliyyətin təşkili və idarə olunması. Dövrümüzü xarakterizə edən cəhətlərdən biri budur ki, elmi-texniki nailiyyətlərin istehsalata tətbiqi sahəsində buraxılan məhsulların mənəvi köhnəlməsi müddəti çox böyük

sürətlə azalmaqdadır. Əgər II Dünya müharibəsindən əvvəl hər hansı məhsul 20-30 il müddətinə texnologiyada heç bir dəyişiklik etmədən buraxılırdısa, indiki dövrdə bu müddət bir-neçə illə, bəzən daha az müddətlə ölçülür. Əgər idarə rəhbərinin işi əvvəllərdə ancaq xammal əldə olunması və istehsaldan ibarət idisə, indi bu üsul müəssisənin stabil fəaliyyət göstərməsi üçün yaramır, bazarın tələbini ödəməyən müəssisə isə iflasa uğramağa məhkumdur. Bu səbəbdən hər bir müəssisə elmi tədqiqatların aparılmasında və elmi nəticələrin istehsalata qısa müddətdə və ardıcıl olaraq tətbiq etməkdə maraqlıdırlar və hətta buna məcburdurlar. Elə buna görə də elmi fəaliyyət də bazarın tələbinə uyğun olaraq, daim çevikliyini artırmalıdır. Elm bazarın gələcək tələbini qabaqcadan görüb, işini müəyyənləşdirməlidir. Bu, elmi fəaliyyətin təşkilini həyati zərurət olaraq ortaya çıxarmış və bu da elm müəssisələrinin fəaliyyətlərini yeni qaydalarda formalaşdırmaqdadır. Təcrübə göstərir ki, elmin təşkili forması istehsal müəssisələrində işin təşkilinə uyğunlaşmalıdır, daha doğrusu, bu qarşılıqlı olmalıdır. Bu isə o deməkdir ki, istehsalatın dəyişməsinə uyğun elmin idarə olunması da dəyişməlidir, hətta daima onu qabaqlamalıdır. Bu cür əlaqə, həm də, istər elm, istərsə istehsal sahələrində kadr ehtiyaclarının ödənməsini dövlət səviyyəsində ortaya qoymağı tələb edir.

Dediklərimizə yekun olaraq, deyə bilərik ki, ümumiyyətlə idarəetmənin tədqiqini təxminən aşağıdakı istiqamətlərdə aparmaq lazımdır:

- uyğun istehsal müəssisələrinin idarə olunması;
- ölkə iqtisadiyyatına uyğun elmi fəaliyyətin idarə olunması;
- ümumiyyətlə ölkə iqtisadiyyatının idarə olunması istiqamətlə- rində.

Elm və istehsalın müxtəlif sahələrində işlərin təşkili və idarə olunması dövlət proqramları ilə sıx bağlı aparılır. Bu proqramlar aşağıdakılardan ibarət olur:

- ümumdövlət iqtisadi problemlərin işlənib hazırlanması;
- ölkə təsərrüfatının və onun ayrı-ayrı sahələrinin inkişafının makro-iqtisadi problemlərinin işlənməsi;
- ayrıca müəssisələrin /firmaların/ çərçivəsində təşkilati-iqtisadi məsələlərin işlənməsi;

- ərazilərin inkişaf proqramlarının işlənməsi.

ABŞ-da II Dünya müharibəsindən sonra perspektiv planlaşdırmanın müxtəlif üsullarının işlənib hazırlanmasına başlanılmışdır. Bunlardan bəziləri elmi tədqiqatların və işlənmələrin ümumdövlət səviyyəsində təşkilinə həsr olunmuşdur. Bu üsullar bütün işlərin başa çatdırılmasının optimal müddətlərini müəyyən etməyə imkan verir. İşin rəhbəri işlərin yerinə yetirilməsində hər hansı bir çətinlik müşahidə edərsə o, ehtiyatları bu məsələlərə yönəltməklə bütövlükdə tapşırığın vaxtında yerinə yetirilməsini təmin edə bilir.

II Dünya müharibəsindən sonra elmi-texniki tərəqqinin daha da qətiləşməsi ilə əlaqədar olaraq, istehsalın genişlənməsi və intensivləşməsi idarəetmənin elmi əsaslarının işlənib hazırlanmasını bütün dünyada vacib bir məsələ kimi qarşıya qoymuşdur. Aydındır ki, rəhbər öz işini o halda daha effektiv yerinə yetirə bilər ki, o, idarəetmənin mövcud olan elmi üsullarını dərindən bilmiş olsun. Bu üsulların böyük əksəriyyətini işləyib hazırlamaq üçün isə idarəetmə prosesinin praktikada rast gəlinən hallara uyğun olan və onu izah edən nəzəri konsepsiyası olmalıdır. Belə bir konsepsiya isə elmi əsaslandırılmış baza əsasında qurula bilər. Nəzəriyyə o halda faydalı ola bilər ki, o, insana malik olduğundan çox əldə etməyə və ətraf mühitin tənzimlənməsinə təsirini artırmağa imkan vermiş olsun. Hər bir müəssisənin müvəffəqiyyəti onun idarə olunmasının keyfiyyəti ilə müəyyən olunur. İdarəetmənin elmi əsaslarının müəyyənləşdirilməsi və təşkili sahəsində dünyada əldə olunan nailiyyətlər, son olaraq, əmək məhsuldarlığının artırılmasında özünü göstərməkdədir. Məlumdur ki, idarəetmənin ilk elementləri hələ insan fəaliyyətinin sənət və incəsənətin inkişaf tapdığı mərhələsində yaranmağa başlamışdır. Bu mərhələdə ustanın toplamış olduğu bacarığın şagirdlərə verilməsi təcrübələrinin toplanması və müqayisə olunması və sistemləşdirilməsi yolu ilə fəaliyyət göstərən «qanunları» müəyyən etməyə çalışırdılar. Bir müddətdən sonra bu yığım təsəvvürlərin sistemləşdirilməsi ilə yeni hadisələri izah etmək, bu və ya digər hərəkət və qərarların nəticələrini əvvəlcədən əsaslandırmaq mümkün olmuşdur. Son iki yüz ildə texniki elmlər bu empirik mərhələdən keçmişlər.

İndiki dövrdə idarəçilik texniki, riyazi, ictimai və təbiət elmlərinin sintezindən istifadə etməklə, elmi istiqamət kimi formalaşmış, müasir elmi təfəkkürdə əvvəllər istifadə olunan empirizmi əvəz etməyə yönəlmişdir. XX əsrin əvvəllərində əsası qoyulmuş idarəetməni ancaq II Dünya müharibəsindən sonra nəzəri sistem kimi qəbul etmək mümkün olmuşdur. Bu, ən əvvəl, müharibənin ehtiyaclarından irəli gələn məsələlərin həllini axtararkən ortaya çıxan yeni elmi nəticələrin sayəsində mümkün olmuşdur. Belə ki, bu nəticələr təsərrüfat fəaliyyətində idarəçiliyə dinamik xarakter verən çoxlu sayda qarşılıqlı təsirləri və hərəkətləri izah etməyə imkan verirdi. Bu, əsasən 1948-ci ildə Norbert Vinnerin «Kibernetika» kitabını çap etdikdən sonra mümkün olmuşdur. Onun «qarşılıqlı əks əlaqəni» maşınlar, heyvanlar və insanlar üçün ümumi olan əlaqə və tənzimlənmənin prinsipi kimi izah etməsi ilə idarə etmək fəaliyyətinin öyrənilməsinin növbəti mərhələsinin əsası qoyuldu. Bir çox hallarda ancaq təsviri xarakteristikaların verildiyi idarəetmə fəaliyyəti bundan sonra səviyyəsindən, funksiyasından asılı olaraq tətbiq oluna biləcək terminlərdə analitik üsullarla öyrənilməyə başlanıldı. İdarəetməni öyrənən elmlər onun dinamik xarakterdə olduğuna xüsusi diqqət yetirirdilər və təklif olunan sənaye fəaliyyətinin dinamik modeli konkret faktlara əsaslanırdı. Bu faktlar arasında istehsal, ehtiyatların paylanması və anbarda saxlanılması, işçi qüvvəsinin tutulması qaydası və nəhayət, bazarın dinamikliyi əsas rol oynayır. Bundan sonra yeni məhsulun keyfiyyətini yüksəltməyə yönələn faktorlar əsas götürülür. Göründüyü kimi dinamik modeldə müəssisənin əsas funksiyaları toplandığından, idarəetmənin son forması ancaq idarənin yuxarı səviyyələrində hazırlanan qərarlarla müəyyən olunur.

Respublikamızda son illərə kimi mövcud olmuş idarəetmə sistemi, SSRİ-də yenidənqurma siyasətinin həyata keçirilməsi ilə əlaqədar olaraq, əsaslı şəkildə dəyişiklik zərurəti qarşısında qalmışdır. Bu köhnə idarəetmə üsullarının aradan qaldırılması, yeni üsulların yaradılmasını və tətbiqini tələb edir. Dövlət müstəqilliyimizə nail olandan sonra bu məsələ daha kəskin şəkildə qarşımızda durur. Bu üsullar isə ümumi şəkildə, yuxarıda deyildiyi kimi, əsasən Qərb dövlətlərində formalaşmış və mükəmməlləşdirilmişdir. Odur ki, biz bu dövlətlərin təcrübələ-

rini öyrənməklə, mövcud sistemimizdə uyğun dəyişikliklər etməklə idarəetmə sistemimizi yaratmalıyıq. Bir də bunu nəzərə almalıyıq ki, Sovet dövlətində idarəetmənin elmi əsasları və qaydası əsasən mərkəzdən müəyyənləşdirilirdi, yerlərdə bunlar icra olunurdu. Başqa sözlə, o dövrdə bu işlər respublikamızda müstəqil təşkilini tapa bilməzdi. Bu isə o deməkdir ki, bu istiqamətdə çalışan elm kadrlarımızın yetişdirilməsi məsələsi də həll olunmalıdır – elmin bu sahəsi də təşəkkülünü tapmalıdır. Biz belə hesab edirik ki, dünya təcrübəsi öyrənilərkən inkişaf etmiş Qərb ölkələri, Yaponiya, Çin, Cənubi Koreya kimi ölkələrlə yanaşı inkişaf yolunda olan qonşu dövlətlərin keçdiyi yola, xüsusilə MDB ölkələrinə də diqqət yetirilməlidir. Bu ölkələrdə müasir idarəetmənin necə inkişaf etdiyini və yenidən qurulduğunu öyrənməklə respublikamızda da idarəetmənin yenidən təşkilinin effektivliyini artırmış olarıq.

1.7. Tarixin dərsləri və ya sabahımızı düşünürüksə

Respublikamızda elm potensialından səmərəli istifadə etmək məsələsinə bir daha qayıtmağa hələki ehtiyac duyulmaqdadır.

İqtisadiyyatımızda qismən, elm sahəsində əsasən yaranmış ağır vəziyyəti, müharibədəki məğlubiyyətləri və onların nəticələrinin aradan qaldırılmamasını gördükcə, insanlar bir-birindən soruşurlar ki, doğrudanmı bizim əlaqədar dövlət idarələri respublikanın iqtisadi və siyasi inkişafını təmin etməkdə bu qədər çətinliklər çəkirlər. Faktların elə ilk analizi göstərir ki, bunun üçün heç uzağa da getməyə ehtiyac yoxdur. İnkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirib öyrənmək, sonra isə xalqımızın milli, torpaqlarımızın təbii xüsusiyyətlərini nəzərə almaqla dövlətimizin iqtisadi siyasətini müəyyənləşdirib, bunları respublikamızda tətbiq etmək lazımdır. Bu vaxtı çox asanlıqla görərik ki, bütün inkişaf etmiş ölkələrdə iqtisadiyyatın yüksəlməsi, bilavasitə elmi nəticələri istehsalata durmadan tətbiq etməklə əldə olunub. Müharibə aparan ölkələrdə isə elmi fəaliyyət, o cümlədən, elm-istehsalat əlaqələri qat-qat güclənib, müharibənin tələbatlarını ödəməyə cəlb

olunub. Bizdə isə... Əvvəlcə deyilənlərin real həqiqət olduğunu təsdiq edə biləcək aşağıdakı faktlara diqqət yetirək.

1.İkinci Dünya müharibəsindən sonra dünyanın siyasi xəritəsində çox böyük dəyişikliklər baş verdi. Bir çox dünya ölkələri müstəqillik yolunda inamla irəlilədikləri halda, bir sıra Avropa dövlətləri belə öz azadlıqlarını itirməli oldular. Dünya əsasən iki qarşı-qarşıya duran cəbhələrə bölündü: sovet sosialist cəbhəsinə və kapitalist cəbhəsinə. Bunlar arasında soyuq müharibə, bir gün də ara vermədən aparılırdı. Bu soyuq müharibənin gedişində, xalqların azadlıq uğrunda apardıqları mübarizələrə tərəflərin kəskin fərqlənən münasibətləri nəzəri cəlb edən ən mühüm məsələlərdən idi. Müharibədən böyük siyasi qələbə ilə çıxmış Sovet dövlətinin nüfuzu, ilk illərdə, yeni yaranan dövlətlər arasında və bu yolda mübarizə aparan ölkələrdə getdikcə artırdı. Hər iki cəbhədə silahlanma ən vacib məsələ kimi qarşıda dururdu. Sovet dövləti nüvə silahlarının yaradılmasında bir qədər geri qalırdısa da, tez bir zamanda bütün Qərbi Avropa ölkələrini geridə buraxa bildi və ABŞ ilə müqayisə oluna biləcək səviyyəyə çatdı. Nəhayət 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində kosmik fəzanın fəth olunması sahəsində xeyli qabağa çıxa bildi. Bundan sonra, ABŞ başda olmaqla Qərb ölkələri Sovet təhlükəsinin qarşısında bütün qüvvələrini səfərbərliyə alıb, qəti tədbirlər görməyə başladılar. Bu tədbirlər əsasən SSRİ-nin iqtisadiyyatının pozulmasına yönəlmişdi. Bunlardan iki istiqaməti xüsusi olaraq göstərmək olar:

- silahlanmanın daha da intensivləşdirilməsi – ulduzlar müharibəsinin qızışdırılması;
- Sovet sisteminin daxildən dağıdılmasının təşkili.

Qərbin bu siyasəti nəticəsində Sovet dövlətində, əvvəlcə, «kim-kimi» şüarı həyata keçirilməyə başlandı. Nəticədə, Sovet dövlətinin iqtisadi imkanları xeyli məhdudlaşdırıldı, bununla birinci mərhələ başa çatdırıldı. Daha sonra «yenidənqurma siyasəti» ilə Sovet dövlətinin iqtisadiyyatı iflic vəziyyətinə düşdü (ikinci mərhələ). Artıq biz bu gün bu planların üçüncü mərhələsinin həyata keçdiyinin şahidləriyik: təkcə sovet sosialist sistemi deyil, Sovet dövlətinin özü dağılmış və hətta, çox cəhdlər göstərilsə də, Rusiya federasiyasının bugünkü

formada saxlanıla biləcəyi şübhə doğurur (dördüncü mərhələ).

2.Məlumdur ki, İkinci Dünya müharibəsində Almaniya və Yaponiya çox ağır məğlubiyyətə uğradılar: Yaponiya xalqı, dünyada birinci olaraq, nüvə silahlarının gətirdiyi dəhşət və əzab-əziyyətləri hiss etdi, iki böyük şəhəri yerlə yeksan edildi; Almaniya bütövlükdə xarabalıqlara çevrildi, xalq məhv olmaq təhlükəsi ilə üz-üzə dayandı. Hər iki dövlət heç bir şərt qoyulmadan tam tərksilah edildi. Bütün bunlara baxmayaraq, bu millətlər sarsılmadılar, əyilmədilər. Yaranmış vəziyyətin reallıqları ilə razılaşıb, inamla qarşıda duran məsələlərinin həllinə girişdilər. Nəticədə, hər iki dövlət, nəinki müharibənin vurmuş olduğu dağıntıları tez bir zamanda bərpa edə bildilər, həm də ağlı heyran edəcək bir suratlə iqtisadiyyatlarını bərpa edib, özlərini dünyanın ən qüdrətli ölkələri sırasına çatdıra bildilər. Hətta Almaniya müharibə nəticəsində itirdiyi torpaqlarını çox ibrətamiz formada birləşdirə bildi. Bu cür misalların sayını artırmaq olar. Məlum olan bu faktları sadalamaqda məqsədimiz budur ki, bunlarla əlaqədar olan, başqa bir faktı bir daha yada salaq: Bütün bunlar, İkinci Dünya müharibəsinin bəhrəsi olan elmi-texniki tərəqqinin-elmi nəticələrin istehsalatın bütün sahələrində suratlə tətbiq olunması-sayəsində mümkün olmuşdur.

/Çıxarış: Bu təkzib oluna bilməyəcək faktdır ki, AFR və Yaponiya (eləcə də digər inkişaf etmiş ölkələr) bugünkü iqtisadi qüdrətlərinə heç də hansısa digər xalqları əsarət altına almaq hesabına onların azadlıqlarını məhdudlaşdırmaq hesabına əldə etməmişlər. İlk öncə İkinci Dünya müharibəsindən sonra daxili intellektual qüvvələrin fəaliyyətini bir nömrəli məsələ olaraq, düzgün təşkil etməklə, onlara söykənməklə çatmışlar. Bu fakt, bu millətlərin, ancaq dövrümüzə xas olan elmi-texniki tərəqqidən maksimum istifadə etməsi nəticəsində yüksəlmələri, digər inkişaf etməkdə olan və eləcə də keçmiş SSRİ-nin yerində yaranmış yeni müstəqil dövlətlərin, o cümlədən Rusiya Federasiyası xalqlarının da diqqətindən kənarda qalmamalıdır. Yeri gəlmişkən, belə həyatı faktlardan sonra, Rusiyanın da çox böyük intellektual potensiala malik olmasına baxmayaraq, orada olan siyasi qüvvələrin bu gün də xalqlar arası münasibətlərdə hərbi gücün tətbiqinə üstünlük vermələri çox təəccüb və təəssüf doğurur. Elmi-texniki tərəqqi

dövründə imperiyanın faydalı olmadığını dərk etməməkləri, əlbəttə, eyni zamanda narahatlıq doğurur. Axı, nüvə silahı ilə silahlanmış insanlardan hər şey gözləmək olar.

Bunu da unutmaq olmaz ki, Rusiya imperiya dalınca qaçması ilə, nəinki bizim, eləcə də öz iqtisadiyyatlarını çox geri atır, açıq bazar iqtisadiyyatına keçməklə xarici sahibkarların bu ölkələrə soxulmasına imkanları artırırlar. Əgər Rusiya iddiasından əl çəkib iqtisadiyyatın bərpasına indi başlayarsa, buna vəsaiti də çatar. Sonra bu vəsait də olmayacaq. Yeni dövlətlər öz iqtisadiyyatlarının bərpasına nail ola bilsələr, onda bir-birilərinə yardımları da ola bilər. Rusiyanın bu ölkələrdə qanunla müəyyən olunan payı da ola bilər. Təbii ki, sonra olmaya da bilər. Əlbəttə biz bununla Rusiyanın işlərinə qarışmaq fikrində deyilik. Özümüzü düşünərəkdən bu nəticəyə gəlirik ki, azad Rusiyada iqtisadiyyat nə qədər yüksək olarsa, bu, ancaq azad Azərbaycanla (eləcə də digər yeni müstəqil dövlətlərlə) bərabər hüquqlu və sərbəst iqtisadi əlaqələrin güclənməsinə gətirib çıxarar. Bu da həm bizə, həm də Rusiyaya uzaq dövlətlərlə əlaqələr yaratmaqdan daha faydalı olar/.

Elmi-texniki tərəqqinin qadir olduğu bu ilahi qüvvələri sadalamaqda əsas məqsəd öz dövlətimizin, eləcə də elmi ictimaiyyətimizin nəzərini bir daha bunlara yönəltməkdir. Bu səbəbdən İqtisadi İnkişaf Nazirliyi tərəfindən gələcək illər üçün "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri"nin layihəsi hazırlanırkən, layihədə elmi fəaliyyətlə bağlı məsələlərə üstünlük veriləcəyinə ümid bəslənilir. Həmişə deyirik ki, Sovet dövlətindən Azərbaycana miras olaraq qalanlardan elm ictimaiyyəti (potensialı) onların arasında ən qiymətlisidir. Elə isə gəlin görək, biz bu qiymətli mirasın qeydinə necə qalırıq, daha doğrusu onun imkanlarından necə istifadə edirik.

Uzağa getmədən onu deməyi zəruri bilirəm ki, iqtisadiyyatımızın bu ağır vaxtında əhalinin acınacaqlı vəziyyətdə olan təbəqəsi, ən əvvəl, elm işçiləridir. Düzdür, onlar Sovet dövründə də əsasən (heç dünya elm adamları ilə müqayisə etmirəm) digər təbəqələrə nəzərən də yaxşı yaşamamışlar. Lakin indi onların, ən yaxşı halda, elmi fəaliyyətdən kənarlaşmaları təhlükəsi bütövlükdə özünə yer etmişdir. Unut-

mayaq ki, nəsillərin zəhməti hesabına xalqımızın əldə etdiyi bu qüvvələri itirməklə xalqın gələcək azadlığı da şübhə altına düşür.

Bəli, azadlığını çox çətinliklə əldə etmiş Azərbaycanın iqtisadiyyatı bir-neçə səbəbdən dağılmış, maliyyə imkanları çox məhdudlaşmışdır. Bu azmış kimi ermənilər, növbəti dəfə, yaranmış vəziyyətdən istifadə edib, torpaqlarımızın böyük bir hissəsini zəbt etmiş, ölkəmiz müharibə vəziyyətindədir. Yenə də, yuxarıda deyilənlərə (faktlara) əsasən, dövlətimiz belə bir şəraitdə malik olduğumuz elmi potensialdan dövrün tələbinə uyğun olaraq, səmərəli istifadə etməyin yollarını axtarıb tapması, təbii bir hal olardı. Lakin respublikanın bəzi əlaqədar dövlət başçılarının elmi fəaliyyətə, dövlətçiliklə bir araya sığmayan fərdi münasibəti adamı ancaq təəccübləndirir. Nəticədə, bu gün, bizim elm adamlarımız özlərinə bir tikə çörək qazanmaq üçün xalqa ən çox lazım olan işlərini buraxıb, hər hansı bir işin ucundan yapışmağa məcburdurlar. Bu isə millətimizin gələcəkdə daha böyük təhlükələrlə üzləşə biləcəyindən xəbər verə bilir.

Müharibə aparan dövlətlər bütün fəaliyyətlərini müharibənin tələbləri istiqamətində səfərbərliyə alırlar. Bu qüvvələr arasında elmi ictimaiyyət həmişə birinci yerdə durmuşdur. Elə buna görədir ki, deyirlər: elmi-texniki tərəqqi ikinci dünya müharibəsinin bəhrəsidir. Hansı dövlət bunları düzgün təşkil edə bilibsə, o da müharibədən qalib çıxmışdır.

Ölkəmizin də iqtisadi və hərbi qüdrətinin yüksəldilməsində elmin bu cür yüksək rol oynaya biləcəyini nəzərə alaraq, Azərbaycan Respublikası DETK yaradılmışdı. SSRİ dağılandan sonra müstəqil respublikamızda elmi fəaliyyətin, yuxarıda göstərilən istiqamətlərdə təşkil və koordinasiya olunmasına rəhbərlik etmək Komitə qarşısında qoyulmuş ən vacib məsələ idi. Əfsuslar olsun ki, Komitə qarşısında duran bu vacib məsələlərin öhdəsindən bu və digər səbəbdən gələ bilməmişdir.

Bu səbəblərdən birincisi ondan ibarətdir ki, Komitə əvvəllərdə də deyildiyi kimi var olduğu müddət ərzində öz işini qura bilməmiş və nəticədə nəinki istehsalla bilavasitə məşğul olan nazirlik və şirkətlərlə lazımi əlaqələri möhkəmlətməmiş, hətta elm müəssisələri ilə əlaqələri olduqca zəif olmuşdur. Belə ki, bu müəssisələrin əksəriyyəti DETK-

nın mövcud olduğundan da xəbərsiz olmuşlar. DETK-nın fəaliyyətini istiqamətləndirməli olan ayrı-ayrı elm şuralarının təşkilindən tutmuş, onların fəaliyyət mexanizminə qədər işlər fərdi münasibətlər əsasında qurulmuşdur. Bu sovetlərin təsdiq etdikləri mövzuların böyük əksəriyyəti sırf elmi-tədqiqat işləri olub, istehsalat ilə demək olar ki, heç bir əlaqəsi olmamışdır.

Komitənin təşkilati məsələləri də öz həllini tapa bilməmişdir.

Bununla belə biz hesab edirik ki, respublikamızda elmi fəaliyyətin bu cür yarıtmaz təşkilində digər dövlət orqanlarının da günahı az deyildi. Böyük qisim səbəblər Komitəyə kənardan göstərilən laqeydliklərdən irəli gəlirdi. Əgər Komitənin işi lazımi səviyyədə getmirdisə, onda soruşmaq olar ki, ondan yuxarıda duran aidiyyəti dövlət qurumları nə işlə məşğuldurlar. Əgər DETK respublika üzrə elmi-tədqiqat və tətbiqi xarakterli işləri koordinasiya və onların maliyyələşdirilməsinə rəhbərlik və nəzarət etmirsə, onda bu komitənin işini nədə görürdülər.

Biz hesab edirik ki, elmi fəaliyyəti maliyyələşdirməkdən imtina etmək deyil, elmi fəaliyyətin yeni tələbatlara uyğun düzgün təşkili və elmi-tədqiqat və tətbiqi xarakterli işlərin seçilməsi üsullarına olan tələbatı gücləndirmək lazımdır. Elm ictimaiyyəti dövlətin iqtisadi proqramlarının demokratik əsaslarda tərtib olunmasına cəlb olunmalı, elmi fəaliyyətin dövlətin iqtisadi proqramları ilə qarşılıqlı əlaqələnməsinə nail olmalıyıq.

Respublikamızda yaranmış olan hərbi və iqtisadi böhranlar vəziyyətində mövcud olan elm potensialımızın nəyin bahasına olursa-olsun qorunub saxlanılması, keçid dövrünün tələblərinə uyğun olaraq, onlardan effektiv istifadə etməyin yolları axtarılıb tapılmalıdır, o cümlədən, aşağıdakılar təxirə salınmadan həyata keçirilməlidir:

- bu qüvvələrin, ən əvvəl, müharibənin tələblərini ödəyə biləcək fəaliyyətdə olmaları mütləq təmin olunmalıdır;
- bu qüvvələrə söykənmədən respublikamızda iqtisadi vəziyyətin sağlamlaşdırılmasının mümkün olmadığını birqiymətli nəzərə alaraq, elm potensialımızın digər böyük bir hissəsi istehsal müəssisələrimizin dayanmasının əsas səbəblərini suratlə aradan qaldırmağa yönəldilməlidir. Məsələn, bu gün üçün birinci növbədə Respublikanın

və istehsal müəssisələrinin idxal ehtiyaclarının azaldılması məsələsi həll olunmalıdır. İdxal olunan sənaye ehtiyaclarının özümüzdə hazırlanması texnologiyasının elmi əsaslarını işləyib hazırlamaqla, sənaye müəssisələrinin xarici ölkələrdən asılılığını azaltmış olarıq;

- Müəssisələrin mütərəqqi üsullarla idarə oluna bilməsi bu müəssisələrin özəlləşdirilməsi tempindən deyil, özəlləşdirmənin keyfiyyətindən, onun müasir əsaslarla yenidən qurulmasına qabil effektiv sahibkarların imkan və real işlərindən asılıdır.

- elmi kadrlarımızın işlə təmin olunması və onların gücündən səmərəli istifadə etmək üçün onların başqa bir qismi xarici ölkələrin ehtiyaclarının həllinə yönəldilməlidir (istiqamətləndirmək mümkündür). Bu sonuncunu iki yolla etmək olar: birinci yol, kadrlarımızın fərdi qaydada xarici ölkələrdə işləməyə özbaşına getmələrinin qarşısı alınır və bu iş dövlət səviyyəsində, dövlətlər arası müqavilələr əsasında həll olunur. Onların əldə etdikləri gəlirin müəyyən hissəsi dövlət tərəfindən respublikada elmi fəaliyyətin dirçəldilməsinə sərf olunur. Təklif olunan halda kadr ixracından gələn gəlir (əmək haqqı), fərdi ixrac halındakından çox olacağı da nəzərə alınmalıdır. İkinci yol, xarici qonşu ölkələrin elmi-texniki problemlərinin (məsələn, geoloji axtarış) dövlətlər arası və ya müəssisələr arası birbaşa bağlanan müqavilələr əsasında yerinə yetirilir; xarici ölkələrdə işləyən alimlərimizin bu əlaqələrin yaradılmasında böyük imkanları ola bilər.

- dövlət qurumlarında (səviyyəsində) texniki elmi fəaliyyətə rəhbərlik mədəniyyət və təhsildən ayrı təşkil olunmalıdır və s...

1.8. Elmlər Akademiyasının institutları ilə universitetlərinin inteqrasiyası haqqında

Azərbaycan Respublikasında elmin yüksəliş səviyyəsini ölkə iqtisadiyyatının tələbləri səviyyəsinə qaldırmaq məqsədilə ali məktəblərin elm potensialının gücündən tam istifadə etmək yolları axtarılıb tapılmalıdır. Dövlət universitetlərinin müəllimlərinin demək olar ki, əksəriyyəti elmi dərəcəsi olanlardırlar. Əlbəttə, bu çox böyük elmi qüvvədir və bu qüvvənin, ən əvvəl, texniki fənlər üzrə dərs deyən müəllimlərin, ancaq pedaqoji fəaliyyətdə və ya qismən elmi fəaliyyət-

də olmasına yol vermək olmaz.

1. Ən əvvəl elmi işlə ciddi məşğul olmayan müəllimin özünün və eləcə də dərs dediyi tələbələrə verdiyi biliyin səviyyəsi günün artan tələbinə uyğun olmayacaqdır.

2. Əsasən elmi-tədqiqat müəssisələrində çalışıb elmi dərəcə alanların sonradan tədris müəssisələrinə işləməyə keçmələri ilə uyğun elmi tədqiqat işlərini davam etdirmək imkanları olmadığından respublikada planlaşdırılmış elmi-tədqiqat işlərinin aparılması çətinliklərlə üzləşir. Eləcə də onların bir alim kimi hazırlanmasına sərf olunmuş vaxtın və maliyyə vəsaitlərinin effektsiz olması ilə nəticələnir. Elmi fəaliyyəti davam etdirməyən alimlə elmi dərəcəsi olmayan və eləcə də elmi fəaliyyətdə olmayan sıravi müəllim arasında fərq bir o qədər də böyük olmur, əksinə, bəzi statistik rəqəmlərin şişirdilməsinə və nəticədə elmi kadr planının düzgün tərtib olunmamağına gətirib çıxarır. Elmi fəaliyyətdə olmayan alimlər gənc nəslin irəliyə doğru hərəkətində də təbii bir maneəyə çevrilirlər. Bütün bunlar sanki azmış, ali məktəblərimizdə dərs deyən bir müəllimə orta hesabla, 15-16 tələbə düşür ki, bu da elmi pedaqoji normativlərdən 2 dəfə çoxdur. Belə bir şəraitdə onların elmi fəaliyyətə ayıracaqları vaxt çox az olur.

Bu potensial qüvvəni elmi fəaliyyətə qaytarmaq üçün biz belə hesab edirik ki, ali məktəblərdə elmi işlərin aparılmasına və onların səviyyəsinə olan tələb gücləndirilməlidir. Bunun üçün, ən əvvəl, ali tədris müəssisələrində dərs deyən müəllimlərin dərs saatlarını azaltmaq lazımdır, çünki bununla onların elmi fəaliyyətə ayıracaqları vaxtı artırmaq mümkün olacaqdır. Ancaq bundan sonra ali məktəblərdə dərs deyən elmi dərəcəli müəllimlərin ümumi sayını artırmaq zərurətə çevrilir. Bu sonuncunu isə, hesab edirik ki, elmi tədqiqat institutları ilə ali məktəblərin uyğun kafedraları arasında elmi əməkdaşlıq yaratmaqla həll etmək olar. Əvəzində elm-tədqiqat institutlarının əməkdaşlarına ali tədris məktəblərində dərs demək /ixtisasları üzrə/, müəllimlərə isə institutlarda elmi-tədqiqatlar aparmaq imkanları yaradılır. Bu tədbirlərin sayəsində respublikada elmi işlərin koordinasiyasında tədris müəssisələrinə geniş yer verilməsi, onların elmi qüvvəsindən tam istifadə etmək mümkün olacaqdır. Bu yaxınlaşma Milli Elmlər Akademiyasının, isteh-

sal sahələrinin institutlarının nadir avadanlıqlarından daha səmərəli istifadə etməklə yanaşı, təhsil alan tələbələrin də bu avadanlıqlarla vaxtında tanış olmalarına imkan verəcəkdir. Çox yaxşı olar ki, tələbələr bu və ya digər formada tədqiqat işlərinə cəlb olunsunlar və uyğun istehsal müəssisələri ilə də əlaqəli işlərdə iştirak etsinlər. Bu onlara gələcəkdə çalışacaqları istehsal sahələrini dərindən öyrənməyə imkan verər.

Yeri gəlmişkən, təkcə elm sahəsində deyil, bütün sahələrdə kadrlardan səmərəli istifadə etmək əhalisi az saylı olan dövlətlərdə xüsusilə vacibdir.

Respublikada elmin daha da inkişaf etdirilməsində tədris institutlarının böyük rolu birdə perspektivli kafedraların təşkil olunmasında öz əksini tapmalıdır.

Əgər elm-tədqiqat institutları istehsal müəssisələrində laboratoriyalarının nümayəndəliklərini təşkil edərlərsə, /Tibb universitetinin xəstəxanalarda yaratmış olduğu kafedraları kimi/ bu, elmi-tədqiqat institutlarının uyğun istehsal sahələri ilə əlaqələr yaratmasına və güclənməsinə böyük yardım edər.

1.9. Bazar iqtisadiyyatı, elmi fəaliyyət və istehsal arası qarşılıqlı əlaqə

Tarixi təcrübələr göstərir ki, hər bir ölkədə sıçrayışlı iqtisadi yüksəlişə çatmaq, ən əvvəl, elm və texnika yeniliklərini istehsalata tətbiq etməyi tələb edir. Bu zaman yeni yaranan istehsal, öz növbəsində, elmi fəaliyyət qarşısında daha yüksək tələbləri ortaya qoyur. Nəticədə, iqtisadiyyatın aramsız yüksəlişinə xidmət edən istehsal və elmi fəaliyyətlərin sistemliyi təmin olunur. Bu isə o deməkdir ki, istehsal və elmi fəaliyyətlər biri digərinin səbəb və nəticəsi olur, bütün istehsal sahələrində inkişafın istiqamətlənməsi və tənzimlənməsi üçün onlar arasında zəruri olan əks əlaqə fəaliyyət göstərir. Yeri gəlmişkən, keçmiş SSRİ-də iqtisadiyyatın pozulmasının bir səbəbi bu əlaqənin zəif olmasından irəli gəlmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ümumi iqtisadi yüksəliş, həm də uğurlu bazar iqtisadi şəraitini tələb edir. Bu şərait, ilk növbədə, yuxarıda qeyd olunan elmi-texniki nəticələrin istehsalata tət-

biq olunmasına vermiş olduğu imkanlar ilə müəyyənləşir. Başqa sözlə, iqtisadi yüksəlişə elmi-texniki nailiyyətlərin tətbiqinə əsaslanan bazarın rəqabət tələbinə cavab verən istehsalı təşkil etməklə nail olmaq olur. Deməli elmi-texniki tərəqqi /sürətli iqtisadi yüksəliş/ uğurlu bazar iqtisadiyyatının məhsulu kimi ortaya çıxır.

Uğurlu bazar iqtisadiyyatı şəraitində istehsalla elmi fəaliyyətin qarşılıqlı təsirləri prosesində elmi fəaliyyətin və istehsalın hər birinin kəmiyyət və keyfiyyətcə yeniləşmələri ilə yanaşı, bazar özü də inkişaf tapır. Bu mənada bazarın özü elmi-texniki tərəqqiyə söykənir. Beləliklə, bu üçlük arası qarşılıqlı əlaqə iqtisadi yüksəlişin etibarlı dayağı kimi çıxış edir. Bu baxımdan, əgər elmin inkişafının sonsuz olduğunu qəbul ediriksə, elmi fəaliyyətlə sıx bağlı olan iqtisadiyyat da sonsuz /çox böyük/ inkişaf imkanlarına malikdir, deyə bilərik.

Elmi fəaliyyətlə istehsal və bazar iqtisadiyyatı arasında olan bu qarşılıqlı əlaqənin daimiliyi, bazar iqtisadiyyatı şəraitində bütün fəaliyyətləri nizama salan qanunlar toplusu ilə yanaşı, əsasən, ölkədə elmi fəaliyyətin düzgün təşkil olunmasından bir başa asılıdır[1]:

1.Elmi fəaliyyət, ən əvvəl, bazarın tələbatı ilə istiqamətlənməli və hərəkətə gətirilməlidir.

2.Elmi fəaliyyətin istiqamətləri həm də dövlətin iqtisadi siyasətinə söykənməlidir.

Dövlətin iqtisadi siyasəti təbii ki, mövcud ictimai-iqtisadi formasiyanın imkanları ilə əlaqəlidir. Bu isə formasiyaya uyğun texnologiyada /elmi fəaliyyətdə/ özünü tapır. Bundan başqa bu siyasət mülkiyyət formalarının tələblərindən irəli gəlir. Bu mənada, qeyd etmək lazımdır ki, inkişaf etmiş kapitalizmdə iqtisadi siyasət, onu böhranlardan qurtaran yeni iqtisadi münasibətlərin formalaşması kimi ortaya çıxan Bİ-na söykənir və bu münasibətin özü cəmiyyətdə iqtisadi münasibətlərin qanuna uyğun inkişaf mərhələsi olub, hər kəsə əməyinə görə, hər kəsdən bacarığına görə prinsipinin yerinə yetirilməsi yollarının axtarışı nəticəsində ortaya çıxmışdır desək səhv etmərik.

Bunlar, öz növbəsində, ölkə iqtisadiyyatının bütün istiqamətləri-

---

[1]Elmi fəaliyyətin düzgün təşkil olunması elmin müharibəyə xidmət etməsini əslində rədd edir. Lakin nə edə bilərik ki, dünya bu gün buna qarşı dura bilmir.

nin müəyyənləşməsini tələb edir. İqtisadi çətinliklərlə xarakterizə olunan keçid dövründə isə bu məsələ daha kəskin şəkildə qoyulur. Yeri gəlmişkən, iqtisadiyyatın üstün istiqamətlərinin müəyyənləşdirilməsi bir də ona görə faydalıdır ki, onda, yaradılan yeni elm müəssisələrinin istiqamətləri də uzun müddətli olmaqla, onların iş və maliyyə təminatı olur.

1.10. Azərbaycan Respublikasında elmlə istehsalın əlaqəsinin gücləndirilməsinin zəruriliyi və yolları haqqında

Sov.İKP XXVI qurultayında L.İ.Brejnevin məruzəsində tələb olunmuşdu ki, planlaşdırma, elmi-texniki siyasət və struktur siyasəti iqtisadiyyatın səmərəliliyinin daha da yüksəldilməsinə tabe edilməlidir.

Azərbaycan KP-nın birinci katibi H.Əliyevin Sov.İKP-nin 26-cı qurultayındakı çıxışında göstərilmişdir ki, son illər ərzində Azərbaycanın Sovet ölkəsinin vahid xalq təsərrüfatı kompleksinin zənginləşdirilməsindəki rolu artmışdır. Şübhə yoxdur ki, bu müvəffəqiyyətlərin əldə olunmasında respublikanın elm sahəsində çalışan adamlarının da zəhməti vardır.

Azərbaycan KP XXX qurultayında H.Əliyevin etdiyi məruzədə isə, respublikamızda xalq təsərrüfatının daha da intensiv inkişaf etdirilməsi məqsədilə, elm sahəsində çalışan, müəssisə rəhbərlərinin qarşısında duran məsələlərin təhlili verilmiş, respublikada elmin inkişafını ümumittifaq səviyyəsinə – günün tələblərinə uyğunlaşdırmaq məqsədilə, bir-sıra təşkilat məsələlərinin həyata keçirilməsi yollarının axtarılıb tapılmasının zəruriliyi ortaya qoyulmuşdur.

Bildirilmişdir ki, elmi-tədqiqat və layihə-konstruktor işlərini iqtisadi və təşkilat cəhətdən istehsalata daha sıx bağlamaq lazımdır. Hələ də, perspektivli tədqiqatların tətbiq edilməsində yolverilməz ləngliyə rast gəlirik.

Araşdırmaq lazımdır ki, hansı səbəblərə görə çox vaxt biz öz üstünlüyümüzü əldən verir, xaricdən elə texnika və texnologiya satın alınmasına çoxlu pul xərcləyirik ki, onları tamamilə, həm də çox vaxt, daha yüksək keyfiyyətlə özümüz istehsal edə bilərik. Məhsulun yeni növlərinin istehsalı və yeni qabaqcıl texnologiyaların tətbiq tapması

üçün baş idarələrin, müəssisələrin, institutların rəhbərlərinin şəxsi məsuliyyətini artırmaq lazımdır. Yeniliyin tətbiq edilməsi prosesini çətinləşdirən, ləngidən, ağırlaşdıran nə varsa hamısını aradan qaldırmaq lazımdır. İstehsalat, elmi fikrin - alimlərin və konstruktorların əməyinin bəhrəsindən daha tez və daha yaxşı istifadə edilməsinə daha çox maraq göstərilməlidir. Bu vəzifənin yerinə yetirilməsi, əlbəttə, sadə iş deyil, köhnəlmiş vərdişləri və göstəriciləri dağıtmağı tələb edən işdir.

Görünür, yaxşı olar ki, EA, nazirliklər müxtəlif sahələrin elm və konstruktor bazasını təhlil etmək sahəsində birgə iş aparsınlar, elm qüvvələrinin müəyyən dərəcədə yenidən qruplaşması barəsində təkliflər versinlər.

Azərbaycan SSR EA prezidenti H.B.Abdullayevin Azərbaycan SSR KP XXX qurultayına hesabat məruzəsində göstərilmişdir ki, respublikada elm-istehsalat əlaqələrinin möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür ki, bunların nəticəsində son on ildə 450-yə yaxın əsər sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil olmuşdur. Akademiyanın son illərdə yaradılmış təsərrüfat hesablı elm-istehsalat müəssisələri elmin nəticələrindən istifadə olunmasının səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Bu müəssisələrin işinin illik səmərəsi 25 milyon manata çatmışdır. Elmi işlərin tətbiqi xalq təsərrüfatına 600 milyon manata qədər iqtisadi səmərə vermişdir. Lakin qeyd etmək lazımdır ki, keçən illərə nəzərən əldə olunan nailiyyətlərin xeyli çox olmasına baxmayaraq, respublikada elmin ümumi inkişafı və onun nəticələrinin istehsalata tətbiqi sahəsində digər müttəfiq respublikalara nəzərən gerilik mövcuddur /məsələn, Ukraynada elmi işlərin istehsalata tətbiqi sayəsində, uyğun müddət ərzində 25 milyard manata qədər mənfəət əldə olunmuşdur/.

Qurultayda elm-istehsalat əlaqələrinin gücləndirilməsi ilə bağlı qoyulmuş həyati vacib məsələlərdən bəziləri haqda fikir söyləməyə keçməzdən əvvəl, qeyd etmək istəyirəm ki, iqtisadiyyatın səmərəliliyi, xalq təsərrüfatı sahələrinin inkişaf tapmasını müəyyənləşdirir və elmin istehsalatla əlaqəsinin nə dərəcədə olmasından bilavasitə asılıdır. Belə ki, xalq təsərrüfatını inkişaf etdirmək sahəsində elmin tarixən malik olduğu imkanlara və uğurlara heç kəsin şübhəsi ola bilməz. Başqa

sözlə desək, elmin nəticələrinə əsaslanmadan xalq təsərrüfatında əsaslı dəyişikliklərə nail olmaq olmaz və beləliklə də, yeni cəmiyyətin qurulması mümkün olmaz. Bütün bunları əsas tutan KP, elmin hər tərəfli inkişaf etdirilməsini və onun istehsalatla əlaqəsinin gücləndirilməsi yollarının axtarılıb tapılmasını tələb edir və layihədə irəli sürülən vəzifələrin inamla yerinə yetirilməsi üçün əsas sayır. Partiyanın, XXVI qurultayda qoyduğu bu məsələlərin vaxtlı-vaxtında və lazım olan səviyyədə yerinə yetirilməsi üçün, elmi fəaliyyəti istehsalın ən vacib sahələrinə yönəltmək, onun istehsalla əlaqəsini gücləndirmək günün ən vacib məsələsi kimi Sovet dövlətinin qarşısında qoyulub və ondan bu işlərin həyata keçirilməsi üçün konkret yollar müəyyənləşdirilməsi tələb olunub. Hesab edirik ki, bu məsələlərin həlli, ən əvvəl, indiyə kimi kök salmış idarəetmə üsullarının və nailiyyət göstəricilərinin əsaslı dəyişdirilməsini, elm sahəsində çalışan qüvvələrin tam səfərbərliyə alınması və zəruri istiqamətlərə yönəldilməsi yollarının aşkarlanmasını tələb edir. Əlaqəsiz, təcrid olunmuş mövzuların yerinə yetirilməsini məhdudlaşdırmaq, akademiya, nazirlik və təşkilatlarda fəaliyyət göstərən elm müəssisələrinin istər quruluşu və istərsə də, yerinə yetirilən mövzularının istiqamətlərində əsaslı dəyişikliklər aparmaq lazımdır. Bütün bunlar elm müəssisələrinin çevikliyini artırmalıdır ki, bu da, öz növbəsində, mühüm mövzular üzərində əsas qüvvələrin qısa bir vaxtda cəmlənməsi üçün imkan yaratmalıdır.

1.Yuxarıda deyildiyi kimi, elm və istehsal müəssisələri arasında mövcud olan əlaqədə, ən çox, kor-təbilik, pərakəndəlik vardır, çox vaxtı bu müəssisələrin rastlaşması, müəyyən məsələlərin həllində razılığa gəlmələri, olduqca çox vaxt aparır, ən nəhayət, elmin istehsalatla əlaqəsində ardıcıllıq gözlənilə bilmir. Elə bu səbəbdən respublikada elmi tədqiqatların nəticələrinin istehsalata tətbiq olunmasında mövcud olan çox böyük ətalətin varlığını, ilk növbədə, elm və istehsal müəssisələrinin bir-birindən ayrılıqda-izolə olunmuş halda fəaliyyət göstərmələrində axtarmaq lazımdır. Lakin belə bir vəziyyətin yaranmasında, əlbəttə ki, ancaq elm və istehsal müəssisələrinin rəhbərlərini təqsirləndirmək olmaz, çünki belə halın ortaya çıxması, istehsal müəssisələrinin, mövcud olan və Sovet sisteminin iqtisadi əsasını təşkil edən, sərt

planlı təsərrüfat üsulu ilə işləməsi baxımından təbiidir. Doğrudan da əgər hər hansı bir istehsalçı müəssisə bu gün işində keyfiyyət və kəmiyyət dəyişiklikləri aparmaq istəyərsə, o bunu əvvəlcədən müəyyənləşdirilmiş və hətta respublikadan kənarda olan alıcı müəssisə ilə də razılaşdırmaq zorundadır, bu isə o qədər də asan iş deyildir. Bu cür işlər müəssisə səviyyəsindən çıxıb, ittifaq dövləti səviyyəsində görülməli olan bir işə çevrilir.

İkincisi, sərt planlı təsərrüfat şəraitində hər bir müəssisə, ilk öncə, əvvəlcədən müəyyənləşdirilmiş miqdarda məhsul istehsal etməkdə məsuldur, onun texnika və texnologiyanı əsaslı yeniləşdirməyə vaxtı və hətta səlahiyyəti də yoxdur. Bunların nəticəsidir ki, hər müəssisə texnologiyasını yeniləşdirmədən uzun illər boyu eyni bir məhsulu istehsal edir. Qeyd etmək lazımdır ki, istehsalın bu halı elmi fəaliyyətə də öz mənfi təsirini göstərir və onun da yeniləşməsini ləngidir.

Göründüyü kimi qurultayda elm və istehsal müəssisələri qarşısında qoyulan bu zəruri həll olunmalı məsələlər, ilk növbədə, dövlətin iqtisadi siyasəti ilə sıx bağlı olan məsələlərdir və onun nəticəsidir. Odur ki, bu məsələlər, ən əvvəl, yüksək dövlət səviyyəsində təşkilati cəhətdən həllini tapmalıdır.

2.Məlumdur ki, orta hesabla, hər bir elmi nəticənin təcrübi nümunəsinin hazırlanması və istehsalata çatdırılması xərcləri, həmin məsələlərin elmi şəkildə həll olunması üçün sərf olunan xərcdən, uyğun olaraq, təxminən on və yüz dəfə çox olur. Təbii ki, bu da elmi nəticənin istehsalata tətbiqi məsələsinə çox ciddi yanaşmağı tələb edir. Bu məbləğin elm müəssisəsinin özü tərəfindən deyil /həm də imkanı xaricindədir/, yuxarı təşkilatlar tərəfindən ayrılması /elm müəssisəsinin asılı olması/ da yeniləşməyə öz təsirini göstərmişdir, onun çevikliyini azaltmışdır.

3.İstehsal müəssisəsində hər bir iş müəyyən olunmuş dövlət standartları əsasında tərtib olunmuş texniki sənədlər əsasında aparılırdı. Ona görə də, istehsalata təqdim olunan işlər mütləq texniki sənədlərlə tamamlanmalı idi. Mövcud elm müəssisələrində isə bu işlər, əksər hallarda, yerinə yetirilmirdi. Bunun bir səbəbi əgər tədqiqat üsullarının sərbəstliyindən irəli gəlirsə, digər səbəbi həmin müəssisələrin

zəif təchiz olunmalarından irəli gəlir, nəticədə elmi işlərin aparılmasında istiqamətlilik (ardıcıllıq) pozulur, pərakəndəlik ortaya çıxırdı. Belə olan halda, elmi işləri lazım olan qaydada (istiqamətdə) deyil, imkanların yol verdiyi istiqamətdə aparmaq zərurəti ortaya çıxır. Beləliklə, bir çox hallarda, elmi nəticə (nə qədər qiymətli olmuş olsa da) istehsalat üçün maraq kəsb edə bilmir və sonda elm-istehsalat əlaqəsi yaranmırdı.

Çox vaxt isə standartlar nəzərə alınmadan aparılan elmi işlərin nəticələri standartlar gözlənilməklə təkrar olunduqda əvvəlki nəticələr alınmır. Təbii ki, bunlar da, öz növbəsində, elm-istehsalat əlaqələrinin (zəncirinin) qırılmasına gətirib çıxarır.

Hesab edirik ki, bütün bu çatışmazlıqları aradan qaldırmaq üçün respublikada, elm müəssisələri ilə uyğun istehsal müəssisələri arasında əlaqələndirici olan, üçüncü bir təşkilatın yaradılması zərurəti ortaya çıxır. Beləliklə, elmi nəticələrin istehsalatda özünə yer tapa bilməsi üçün, elmi fəaliyyət üç mərhələdən keçməlidir: elmi tədqiqat – sənaye nümunələrinin hazırlanması-tam istehsalda iştirak.

Yeni yaradılmalı olan üçüncü (aralıq) müəssisənin öhdəsinə çox böyük işlər düşür: iqtisadi sahələrin yeniləşməyə tələbatını öyrənmək və elmi fəaliyyətin koordinasiya olunması işlərindən başqa, onun işi elmi tədqiqatların nəticələri əsasında təcrübi sənaye nümunələrinin yaradılması, sonra isə həmin məhsulun istehsalının təşkil olunması işlərində iştirak etməkdən ibarətdir. O, bütün mərhələlərdə işini, həm elmi-tədqiqat müəssisələri ilə, həm də istehsal müəssisələri ilə əlaqədə təşkil edir.

Digər respublikaların təcrübəsi göstərir ki, elmlə istehsalın əlaqələndirilməsi təcrübi istehsal gücü olan konstruktor büroları formasında uğurla həyata keçirilə bilər. Respublikamızda da bu sahədə ilk uğurlu addımlar atılmaqdadır. Buna "Kaspi" konstruktor bürosunu[1] /KB/ misal olaraq göstərə bilərik. Belə KB-ları respublikada mövcud olan bütün sənaye, kənd təsərrüfatı və digər xalq təsərrüfatı müəssisələrinin /birliklərinin/ tərkibində /olmalı/ olan elm müəssisələrinin hər

---

[1] 1975-ci ildə yaradılmış "Kaspi" konstruktor bürosu çox qısa zamanda inkişaf edərək Azərbaycan Milli Kosmik Agentliyinə çevrilmişdir.

birində (və ya müştərək olaraq) yaradılmalıdır və onların fəaliyyəti bilavasitə həmin müəssisələrin buraxdıqları məhsulların kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Bütün bu təcrübələrin ümumiləşdirilməsi göstərir ki, bu cür müəssisələr /ən əvvəl, birliklərin daxilində yaradılan KB-ları/ elmin nəticələrinin istehsalda özünü tapa bilməsi yolunda ən qısa və ən münasib yoldur. Bu KB-ları təsərrüfat hesablı olub, tabe olduğu müəssisə /və ya müəssisələr/ tərəfindən /sifarişçi olaraq/, əvvəlcədən büdcədə nəzərdə tutulan vəsaitlə, maliyyələşdirilir. Bu KB-ları buraxılacaq məhsulun lazımi səviyyədə olması üçün məsuliyyət daşımalıdır. Eyni zamanda elmi tədqiqatların nəticələrinin ilkin təsdiqləyiciləri olaraq ortaya çıxırlar. Bu sonuncu hal elmi tədqiqatçılarla konstruktorlar arasında sıx əməkdaşlığın /müəyyən mənada rəqabətin/ zəruriliyini ortaya qoyur.

Beləliklə, istehsal müəssisələri qarşısında duran gündəlik məsələlər öz həllini, ən əvvəl, təcrübi sənaye nümunələri şəklində elm müəssisəsi ilə KB-larında tapmalıdır. İstehsal müəssisələrinin fundamental problemləri isə Elmlər Akademiyasında və əlaqədar nazirliklərin tabeliyində olan institutlarda birgə müəyyənləşdirilməli, həllini isə onlarla birgə KB-larında tapmalıdır.

Elm müəssisələrinin və eləcə də onlarda əldə olunan elmi nəticələri istehsalata çatdırmalı olan KB-lərin işinin səmərəliliyini artırmaq üçün onların ehtiyatlarla, cihaz və avadanlıqlarla təmin olunması məsələsində də ciddi dönüşlər yaradılması zəruridir. Belə olan halda, elm müəssisələrinin bir başa özündə standartların gözlənilməsi tələb oluna bilər və beləliklə, KB-lərdə təcrübi sənaye nümunələrinin hazırlanması xərci azalar, vaxtı isə qısalar. Unutmaq olmaz ki, elmi fəaliyyət maliyyə təminatı cəhətdən yarımçıqlığı sevmir.

Deyilənləri belə yekunlaşdırmaq olar:

1.Elm, sənaye, kənd təsərrüfatı, səhiyyə və s. sahələrdəki müəssisələrdə aparılan elmi işlər və bu işlər üzrə elm və istehsal müəssisələri arası əməkdaşlıq müəyyənləşdirilməlidir – planlaşdırılmalı və nəzarətdə saxlanılmalıdır. Bu işlər ayrı-ayrı fərdlərin fəaliyyət çərçivəsindən çıxmalı və beləliklə, təsadüflüyə yol verilməməlidir. Bu məqsədlə, elmi işlərin müəyyənləşdirilməsi və koordinasiyası müstəqil

dövlət qurumu tərəfindən həyata keçirilməlidir və görülən işlərin hesabatı bu qurum tərəfindən qiymətləndirilməlidir.

2.Respublikada elmin inkişafını ümumdünya səviyyəsinə və günün tələbinə uyğunlaşdırmaq məqsədilə, bir-sıra təşkilat məsələlərinin yerinə yetirilməsi lazım gəlir. İstehsal və eləcə də alıcı müəssisələrin, birgə, elmi yenilikləri vaxtlı-vaxtında tətbiq etməkdə maraqlı olmaları təmin olunmalıdır.

3.EA müəssisələrində, əsasən, fundamental elmi tədqiqat işləri aparılmalıdır və bu işlər, ilk növbədə, respublikada olan təsərrüfat sahələrinin inkişaf etdirilməsinə xidmət etməlidir, digər qismi isə respublikada təsərrüfatın gələcək /perspektivdə olan/ inkişafına yönəldilməlidir.

4.Sənaye və kənd təsərrüfatı müəssisələrinin tərkibində /və ya müştərək/ bilavasitə sahə müəssisələrinin özlərinin istehsal etdikləri məhsulların kəmiyyət və keyfiyyətinə məsul, lazım olan səviyyədə təminatlı elm-istehsal müəssisələri yaradılmalıdır.

Sonda, elmi fəaliyyətlə məşğul olanlara, sanki bir müraciət olaraq, xatırlatmaq istəyirəm ki, praktika, elmi nəticələrin düzgünlüyünü təsdiqləyən fəaliyyətdir. Bu isə o deməkdir ki, elmi nəticələr, səbəbindən asılı olmayaraq, praktikada özünü təsdiqləmirsə, onda onun nəticələrinin düzgünlüyü və faydalılığı haqda danışmaq yerinə düşmür /belə halda onu hələlik ovlanmamış ova bənzətmək olar/. Odur ki, elmi fəaliyyətlə məşğul olanlar, bu cəhəti də mütləq nəzərə almalıdırlar.

Qeyd: Bu gün bu məsələlərə bir daha qayıtmaq zorundayıq. Yenidənqurma ortaya atıldığı gündən istehsal sahələrinin böyük sürətlə sıradan çıxmaları ilə yanaşı, elmi fəaliyyəti də iflic vəziyyətinə çatdırmış, demək olar ki, çox böyük təhlükələrlə üz-üzə qoymuşdur. Eyni zamanda yenidənqurmanın ortaya atdığı bazar iqtisadiyyatı isə elmi fəaliyyəti və onun istehsalla sıx əlaqədə davamlı olaraq inkişaf etdirilməsini bir zərurət olaraq ortaya qoymuşdur.

Sözdən işə keçmək vacibdir!

1.11. Özəl sektorda elmi fəaliyyət və onun xüsusiyyətləri

Bazar iqtisadiyyatının mahiyyətinə əsaslanaraq, çəkinmədən deyə bilərik ki, dövlətin fəaliyyəti hökumətin fəaliyyəti ilə özəl sektorda göstərilən fəaliyyətlərin cəmindən ibarətdir. Başqa sözlə, özəl sektorda da fəaliyyət milli məsələdir, yəni dövlət özəl sektorda da işlərin təşkil olunmasında bu və ya digər yollarla iştirak edir. Belə ki, bu işdə dövlət maliyyə imkanları ilə qismən, əksini qərarlarında tapan təşkilati səyləri ilə daha çox çıxış edir. Bu o deməkdir ki, özəl müəssisələri necə işlətmək təkcə sahibkarların şəxsi arzusu ilə /məs., istehsalı, gəliri məhdudlaşdıra biləcək/ müəyyənləşmir. Hesab edirik ki, bazar iqtisadiyyatının ilkin mərhələsində buna xüsusi diqqət yetirilməlidir. Çünki, rəqabətin çox zəif olduğu, qanunların işləmədiyi dövrdə, azad rəqabətin keyfiyyətli məhsul bolluğuna yönəldici təsiri hiss olunmur. Odur ki, dövlət öz qanunları ilə sahibkarları buna həvəsləndirməklə yanaşı, həm də müəyyən mənada «məcbur» etməlidir. Rəqabət və iflas öz işini daima görməlidir. Bu isə özəl sektorda da elmi fəaliyyətin məqsədyönlü və aramsız inkişaf etdirilməsini tələb edir.

Dövlətin özəl sektorun işlərinə qarışmasında diqqəti çəkən məsələlərdən biri də budur ki, dövlətin varı təkcə onu təmsil edən hökumətin xəzinəsində olan ümumi var-dövlətlə müəyyənləşmir. Bu və ya digər şəkildə xalqın əlində olan var-dövlət də dövlətin dövlətli olub-olmamağına işarə edir. Daha irəli gedərək, onu da demək lazımdır ki, xalqı yoxsul olan dövlətin hökumətinin xəzinəsi nə qədər varlı olursa-olsun, o dövlət varlı adlana bilməz. Eləcə də əhalisi bütövlükdə /özəl sektor daxil/ varlı, hökumətinin xəzinəsi boş olan dövlət də varlı ola bilməz. Bunun üçün hər ikisinin bir-birinə mütənasib olaraq, varlanması gərəkdir. Buna aparan şəraitin yaradılması dövlətin bir başa vəzifəsidir. Bununla dövlət iqtisadiyyatın təhlükəsizliyinin təminatçısı kimi ortaya çıxır.

Dünya təcrübəsindən məlumdur ki, özəl sektorda elmi fəaliyyət ölkə iqtisadiyyatının yüksəldilməsi işində xüsusi ilə əhəmiyyətlidir və bu da qismən aşağıdakılarla bağlıdır:

1.Uğurlu bazar iqtisadiyyatı şəraitində istehsalla, o cümlədən,

elmi fəaliyyətlə məşğul olanların böyük /70 %/ hissəsi özəl sektorda çalışır.

2.Özəl sektorda elmi fəaliyyət daha çox çevikliyə malik olduğundan, bazarın tələbinə kəskin şəkildə uyğunlaşa bilir.

3.Özəl sektorda maliyyə imkanları daha genişdir – onlar həm dövlətin, həm də özəl sektorun imkanlarından istifadə edə bilərlər və s.

Qeyd olunmalıdır ki, təkcə istehsala investisiya qoymaqla /xarici ölkələrdən lisenziya almaqla/, iqtisadiyyatda sıçrayışlı /həm də davamlı/ inkişafa çatmaq mümkün olmaz. Bunun üçün milli elmi fəaliyyətin imkanları genişləndirilməlidir.

Məlumdur ki, inkişaf etmiş Qərb ölkələrində bazar iqtisadiyyatına keçid başlanana kimi mülkiyyət bir başa dövlətə və maliyyə imkanları olan adamlara məxsus olmuşdur, yəni dövlət sektoru ilə yanaşı, özəl sektor da əvvəlcədən fəaliyyətdə olmuşdur. Bu ölkələrdə dövlət sektorunun özəlləşməsi başlananda, özəl sektor artıq maliyyə imkanları ilə bu işdə iştirak edəcək subyekt kimi mövcud idi. Bundan başqa, bu ölkələrdə bazar iqtisadiyyatının ən əsas tələbinə uyğun olaraq, elmi-texniki layihəsi olan, lakin maddi imkanı olmayan təşəbbüskarların da özəlləşdirmə prosesinə qoşula bilmələri üçün dövlət kredit formasında maddi yadım etmək imkanında olmuşdur.

Keçmiş SSRİ dövlətinin dağılmasından sonra yaranmış yeni müstəqil dövlətlərdə isə bazar iqtisadiyyatına keçid prosesi Qərb ölkələrindəkindən fərqli xüsusiyyətləri il xarakterizə olunur. Bu fərq, yeni müstəqil dövlətlərdə mövcud olmuş mülkiyyət formasının və dövlət quruluşunun xarakterindən irəli gəlir. Məlumdur ki, bu dövlətlərdə mülkiyyət, əsasən, sovet sosialist ictimai-iqtisadi münasibətlərinə tabe idi. Özəl sektor bu ölkələrdə yox dərəcəsində olmuşdur. Bu da bazar iqtisadiyyatına keçidin mexanizmini /o cümlədən özəlləşdirmənin/ Qərb ölkələrinə nəzərən xeyli çətinləşdirir. Digər tərəfdən təşəbbüskarlara maddi yardım etməyə bu dövlətlərin maddi imkanları olmamışdır. Bundan başqa bu bir faktdır ki, indi də yeni müstəqil dövlətlərdə özəlləşmə prosesi anlaşılması çox çətin olan bir vəziyyətdədir. Bu təhriflərin şüurlu və ya şüursuz edilmələrinin üzərində dayanmadan demək lazımdır ki, Azərbaycan Respublikasında bu iş xüsusilə böyük

çətinliklərlə üzləşməkdədir və bu işin necə yoluna qoyulacağı qeyri-müəyyəndir. Ən ağırı da budur ki, köhnə mülkiyyət forması öz fəaliyyətini itirib, yeni forma isə fəaliyyətə demək olar ki, başlamayıb. Nəticədə təsərrüfatlar iflic vəziyyətinə düşmüş oldu. Hesab edirik ki, Azərbaycan Respublikasında belə bir halın yaranmasını ölkənin müharibə vəziyyətində olması ilə birqiymətli izah etmək düz olmaz. Bu ölkələrdə belə bir vəziyyətin yaranmasının subyektiv səbəbləri ilə yanaşı, ümumi olan səbəbləri də mövcuddur. Bunlardan, əhali arasında özəlləşdirməyə müxtəlif münasibətlərin olmasını göstərmək olar. Lakin, ən əsası, Sovet dövründən başlayaraq, insanların rüşvət /və ya oğurluq/ yolu ilə varlanmağı özlərinə həyat yolu seçmələrində – mənəviyyatsızlaşmalarında və bunun nəticəsi olaraq, korrupsiyanın geniş yayılmasında axtarmaq lazımdır. İkincisi, bu dövlətlər /xalqlar/ yenidənqurmaya özlərinin təşkiledici fəaliyyətlərinin nəticəsi kimi gəlməmişlər. Bu keçid, demək olar ki, bütün yeni müstəqil dövlətlərdə qəflətən ortaya atılmışdır. Məlumatsızlıq (hazırsızlıq) hər işdə olduğu kimi burada da özünü göstərmişdir.

Məlumdur ki, bazar iqtisadiyyatına keçid, ölkədə, müəyyən qanunlar sisteminin olmasını və bu qanunların fəaliyyətinə ciddi nəzarət edən güclü dövlət aparatının olmasını zəruri edir. Əks halda, dünya təcrübəsi göstərir ki, ölkədə başı pozuqluq, korrupsiya baş alıb gedir. Dövlətin /və eləcə də xalqın/ tamamilə müflisləşməsi adi hala çevrilir. Odur ki, bu gün, ilk növbədə, qanunlarla yanaşı, belə bir aparatın yaradılması ölkəni düşmüş olduğu fəlakətlərdən qurtarmaq yolunda zəruri bir addım sayılır. Belə bir aparatı olmayan bir dövlətin bazar iqtisadiyyatına keçməsi ancaq xalqın fəlakəti ilə nəticələnər.

Yeni müstəqil dövlətlərin bazar iqtisadiyyatına normal keçə bilməmələri bir də onunla bağlı olmuşdur ki, sovet dövründən var-dövlətə sahib olmuş bir qisim «çevik» insanlar yenidənqurmanın elan olunmasından dərhal sonra istər dövlət, istərsə də ictimai mülkiyyətləri özəlləşdirməyə – özününküləşdirməyə başlamışlar.

Bazar iqtisadiyyatına keçməyi planlaşdıran dövlət, elmi fəaliyyətin intensivləşdirilməsi, onun nəticələrinin istehsalata tətbiq olunmasını təklif edən təşəbbüskarlara maliyyə yardımı edilməsi imkanla-

rının olub-olmamasını əvvəlcədən nəzərə almalıdır və bunu özünün özəlləşdirmə prosesində əsas işi saymalıdır. Azərbaycan Respublikasında bunu nəzərə almadan bazar iqtisadiyyatına keçilməsi də iqtisadiyyatı iflic vəziyyətə salan səbəblərdən biridir. Bu gün bu deyilənlərin, qismən də olsa, qarşısını almaq – bazar iqtisadiyyatına keçidin ağrılarını azaltmaq məqsədilə, özəlləşdirmə prosesində elmi-texniki nailiyyətlərə söykənən layihələrə sahib təşəbbüskarlara üstünlük verilməsi vacib sayılır.

II BÖLÜM

İNTELLEKTUAL MÜLKİYYƏT VƏ SAHİBKARLIQ

2.1. Milli iqtisadiyyatın inkişafında intellektual mülkiyyətin rolu

İntellektual mülkiyyətin tarixi çox əski dövrlərə uzanır. Qobustanda çox-çox qədim zamanlarda bir gənc oğlanı qonşu qəbilədən daş qavalı (çalğı alətini) gətirmək üçün göndərirlər. O gedib qayıdır, ancaq qavalı gətirmir. Onu cəzalandırmaq istəyirlər. Gənc oğlan deyir:«Mən qavalı ona görə gətirmədim ki, bu, qəbilələrimiz arası düşmənçiliyə səbəb olardı (insan inkişafı), lakin mən onun sirrini gətirmişəm (intellektual mülkiyyət)».

Telereklamdan.

Müasir dövrdə istənilən ölkənin iqtisadi potensialı yeni biliklər əldə etmək və bu biliklərin tətbiqi yollarını müəyyənləşdirməklə yeni, daha keyfiyyətli və çox məhsullar istehsal etmək qabiliyyəti ilə müəyyən olunur. Praktika göstərir ki, ancaq bu yolla cəmiyyət yaşamaq qabiliyyətliyini yüksək səviyyədə saxlaya bilər. Əbəs deyildir ki, qabaqcıl texnologiyalara canatma kompaniyalar, milli iqtisadiyyatlar arası rəqabətin təzahürüdür.

Odur ki, hər bir iqtisadiyyatın ən əsas məsələlərindən biri intellektual fəaliyyətin nəticələrini düzgün qiymətləndirməkdən və onlardan səmərəli istifadə edə bilməkdən ibarətdir. Bu isə özünü iqtisadi sahələrin durmadan texniki yeniləşməsində, bu nəticələrin lisenziyalarının satılmasında, onların xarici ölkələrdə patentlənməsi ilə yanaşı, yerli istehsalda tətbiqinə nail olmaqda göstərir. Bütün bunlar dövlətin elmi-texniki siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Bu da məlumdur ki, elmi-texniki nailiyyətlərdən kommersiya məqsədilə istifadə milli təbii ehtiyatları sərf etmədən valyuta əldə etməyə imkan verir. Özüdə əldə olunan gəlir dövlət büdcəsi və ya

Beynəlxalq Valyuta Fondunun kreditləri ilə müqayisə oluna biləcək miqdarda ola bilir [3].

Vaxtilə Sovet dövləti xarici ölkələrdə ixtiraları patentləmək üçün hər il 4-5 milyon dollar ayırırdı. Bu məqsədlə ixtiraların seçilməsini kəşf və ixtira üzrə Dövlət Komitəsi həyata keçirirdi. Lisenziyaların satılması ilə dövlət hər il «royalti» formasında cəmi 300-dən 400 mln. dollara qədər qazana bilmişdir (məsələn, Kalaşnikov avtomatı xaricdə patentlənmədiyindən dövlət bu məbləğdən qat-qat çox itkiyə məruz qalmışdı) [4].

Xarici ölkədə ixtiraların patentlənməsi bu gün ölkədən asılı olaraq orta hesabla 4 mindən 7 min dollara başa gəlir. Qeyd edək ki, bu məbləğə patentin qorunması üçün tələb olunan rüsum daxil deyildir. Bu isə ildə müxtəlif ölkələrdə 50-dən 500 dollara qədər olur. Bundan başqa, patent sahibi ondan istifadə olunması üçün patentin lisenziyasını sata bilməlidir. Bizim patent sahibləri isə bu gün patenti qeydiyyatdan keçirmək üçün lazım olan pul vəsaitinə malik deyillər, eləcə də lisenziyanı əlverişli satmağı da bacarmırlar. Burada elə iqtisadi və psixoloji vəziyyət yaranmışdır ki, dövlətin köməyi olmadan ötüşmək mümkün deyildir. Azərbaycanda bu gün bu işlə məşğul olan dövlət orqanı da yoxdur.

Lisenziyaların satışını təşkil etmək üçün olan sadə yollardan biri Ümumdünya İxtiralar salonunda və ya digər Beynəlxalq salonlarda (məs., Parisdə) təşkil olunan sərgilərdə ixtiralar üzrə eksponatlarla çıxış etməkdən ibarətdir. Bundan əvvəl isə respublika daxilində belə sərgilər təşkil olunmalıdır.

Unutmaq lazım deyildir ki, müəllifin xarici ölkə patentini alması (xarici ölkədə patentləşdirməsi) hələ heç nə demək deyil (bu çox azdır), satılması məsələnin uğurlu həllidir. Yeri gəlmişkən, ən əvvəl, patenti satmazdan əvvəl fikir verilməlidir ki, bu patentin özü «güclü» olsun, yəni parametrlərdən hər hansı birində cüzi dəyişiklik aparmaqla onu ötmək mümkün olmasın. İstər respublika daxilində, istərsə də xarici ölkələrdə ixtiraların patentlənməsi və onun ardınca lisenziyalarının satılması (sayı) ölkədə elmi fəaliyyətin səmərəliliyinin göstəricisidir. Respublika daxilində milli patentlərin tətbiqinə nail olmadan ölkə

iqtisadiyyatının dirçələcəyinə ümid etmək düz deyildir. Patentlərin tətbiqi həm də iqtisadiyyatın inkişaf göstəricilərindəndir, elm-iqtisadiyyat arası qarşılıqlı /əks/ əlaqənin göstəricisidir.

Bu baxımdan, ixtiraların yaradılması, patentlənməsi, qiymətləndirilməsi və lisenziyaların satılması dövlətin marağı dairəsində olmalıdır. Bu o deməkdir ki, dövlət, ən əvvəl, elmi fəaliyyəti düzgün istiqamətləndirməli və təşkil etməlidir, qərəzsiz seçilmiş patentlərin qiymətləndirilməsi və xarici ölkələrdə patentlənməsi üçün müəlliflərə (müəyyən şərtlər daxilində) maliyyə yardımı göstərməli və lisenziyaların satılıb-satılmaması işinin təşkilində aktiv iştirak etməlidir. Bu məqsədlərə xidmət edən kadrların hazırlanması işini də dövlət öz üzərinə götürməlidir. Patent müəllifləri patent müvəkkillərinin (və ya başqalarının) çox da baha olmayan xidmətlərindən istifadə etmək imkanında olmalı, lazım gəldikdə onlar maliyyə yardımı ala bilməlidirlər.

2.2. Azərbaycan Respublikasında intellektual mülkiyyət hüququnun qiymətləndirilməsi haqqında

Azərbaycan Respublikasının intellektual (sənaye) mülkiyyət (İM) lisenziyalarının dünya ticarəti işində, respublika elm potensialının malik olduğu imkanlar daxilində iştirak etməsi üçün bir-sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Bu tədbirlər sırasında bu növ lisenziyaların qiymətləndirilməsi xüsusi yer tutur.

Məsələ bundadır ki, hər bir mülkiyyət növü qiymətləndirildiyi kimi, intellektual mülkiyyət də (İM) qiymətləndirilməlidir. İM-in qiymətləndirilməsinin, beynəlxalq aləmdə və ən əvvəl, respublikada hamı tərəfindən qəbul olunan vahid metodologiyası işlənməlidir. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, bazar iqtisadiyyatı şəraitində intellektual mülkiyyətin qiymətləndirilməsi o qədər də sadə iş deyildir və bizim sovet dövründə adət etdiyimiz qaydada – çəkilən xərclərə əsasən İM-in qiymətləndirilməsi üsulu özünü doğrultmur.

İM-in qiymətləndirilməsi işi Avropa ölkələrində artıq formalaşmış və (çox da böyük olmayan müxtəlifliklə) geniş tətbiq olunmaqdadır [5]. Rusiyada [6] və digər keçmiş post sovet məkanında

yaranmış yeni dövlətlərdə də [7] bu sahədə tədqiqatlar aparılır və ümumi metodun tətbiqi üzrə müəyyən işlər görülmüşdür. Azərbaycan Respublikasında bu iş yüksək dövlət səviyyəsində həllini tapsa da [8, 9], hələ ki, praktik olaraq, diqqətdən kənarda qalmaqdadır.

«Özəlləşdirilən müəssisə və obyektlərin qiymətləndirilməsinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 140 saylı 27 avqust 1999-cu il tarixli Qərarında göstərilir ki, müəssisə və obyektlərin start qiyməti aşağıdakı qayda ilə hesablanmalıdır:

$$Sq = Jq + Bd \times (Nə \times Zə - 1)$$

Burada Sq–müəssisənin start qiyməti; Jq=Av–Pv–start qiyməti müəyyənləşdirilən tarixə müəssisənin Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 mart tarixli 451 saylı Fərmanı ilə təsdiq edilmiş «Özəlləşdirilən dövlət mülkiyyətinin qiymətləndirilməsinə dair metodik göstərişlər»-ə uyğun olaraq hesablanmalı olan ilkin qiymətidir.

Av–start qiyməti müəyyənləşdirilən tarixə müəssisənin balansının aktiv hissəsinin yekunu;

Pv–start qiyməti müəyyənləşdirilən tarixə müəssisənin balansının passivi üzrə bank kreditləri, borcları və digər müvəqqəti cəlb edilmiş vəsaitlərin cəmi;

Bd – start qiyməti müəyyənləşdirilən tarixə müəssisənin əsas vəsaitinin qalıq dəyəri;

Nə – müəssisənin nəqliyyat kommunikasiyaları ilə təmin olunması əmsalı olub,

$$1 < Nə < 1,2$$

Zə – zona əmsalıdır və $0,7 < Zə < 2,8$ arasında dəyişir.

Metodik göstərişlərdə deyilir ki, əmlakın qiymətləndirilməsi, özəlləşdiriləcək müəssisə (özəlləşdirmə komissiyası) tərəfindən bu Metodik göstərişlərə uyğun olaraq, müəssisənin tam inventarlaşdırılması əsasında həyata keçirilməlidir. Bu metodik göstərişlərə riayət edilməsi Azərbaycan Respublikası ərazisində yerləşən bütün dövlət müəssisələri üçün məcburidir, əks halda müəssisənin qiymətləndirilməsi e'tibarsız hesab edilir. Müəssisəni qiymətləndirmək məqsədilə

inventarlaşdırmanın və əmlakın qiymətləndirilməsinin nəticələrini (müəssisənin ilkin (start) qiymətini) əks etdirən aktlar tərtib olunmalıdır. Müəssisənin qiymətləndirilməli əmlakının tərkibinə onun əsas vəsaitləri və sərmayə qoyuluşları, ehtiyatları, xərcləri, pul və sair maliyyə-maddi və qeyri-maddi aktivləri daxil edilməlidir.

Balansda əks olunan qeyri-maddi aktivlərə torpaq, su və digər təbii sərvətlərdən istifadə hüquqları və başqa əmlak hüquqları, o cümlədən, əqli mülkiyyətə aid olan hüquqlar (patent, lisenziya və sair), əmtəə nişanları və s. və i. daxildir.

Göründüyü kimi dövlət qərarında özəlləşdirilən dövlət obyektlərində intellektual mülkiyyətə aid hüquqların da (patent, lisenziya və s.) dəyərinin qiymətləndirilməsi tələb olunur. Lakin əmlak nazirliyindən rəsmi şəxslər tərəfindən verilən şifahi məlumata əsasən, demək olar ki, bu günə kimi özəlləşdirilmiş heç bir dövlət müəssisəsində bu tip işlər öz əksini tapa bilməmişdir. Söz yox ki, dövlət mülkiyyətinin özəlləşdirilməsində İM-in nəzərə alınmaması nəticəsində dövlətə böyük zərər dəymişdir. Bu tələb indi də olmasa, bir vaxtı öz yerini tapacaqdır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, elə hallar (obyektlər) ola bilər ki, intellektual mülkiyyətin qiyməti özəlləşdirilən dövlət mülkiyyətinin ümumi qiymətinin böyük bir hissəsini təşkil etsin. Bir də onu qeyd etmək lazımdır ki, bu iş təkcə dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesində deyil, ümumiyyətlə sahibkarlar arası alqı-satqıda da özünü göstərir. Respublikamızda, keçid dövrünü yaşadığımız bazar iqtisadiyyatının (durmadan intellektual mülkiyyətin tətbiqinə söykənən iqtisadiyyatın) tələblərinə uyğun olaraq, intellektual sahibkarlığın da inkişaf edəcəyi şübhə doğurmur. Bu halda intellektual mülkiyyətin qiymətləndirilməsinə ehtiyac (zərurət) daha da artacaqdır. Əks halda, intellektual mülkiyyətin qiymətləndirilə bilməməsi, bazar iqtisadiyyatının normal inkişafına mane olar, sahibkarlığın inkişafı şübhə altına düşər. Beləki, İM-in qiymətləndirilməsindəki vəziyyət ölkədə sahibkarlığın, özü də İM-i əhatə edən sahibkarlığın inkişaf səviyyəsinin göstəricisidir.

Deyilənləri nəzərə alaraq, hesab edirik ki, respublikada İM ob-

yektlərinin qiymətləndirilməsi yollarının araşdırılmasını Qərb ölkələrinin təcrübəsini öyrənməklə xeyli asanlaşdırmaq olar. İM-nin qiymətləndirilməsi dedikdə, ən əvvəl, İM-in hüququndan istifadə olunmasının (hüququn verilməsinin) səviyyəsi nəzərə alınmalıdır. Başqa sözlə:

1.İM gələcəkdə hansı səviyyədə istifadə olunmaq üçün alınır (satılır).

2.İM artıq alınmış və müəyyən istehsal sahəsində istifadə olunmaqdadır, halları fərqləndirilməlidir.

Birinci halda, yəni müstəqil (hələlik istifadə olunmayan, lakin istifadə etmək üçün alınan) İM-ə aid olan hüquqların hansı ölçüdə alıcıya verildiyi nəzərə alınmaqla qiymətləndirilməlidir. Bu ölçü isə çox variantlı olur. Eyni zamanda İM-lər formalarına görə də (patent, nou-hau, layihə sənədləri və s.) fərqləndirilməlidirlər.

İkinci halda isə, yəni müəyyən iqtisadi sahədə (məsələn, kimya və ya neft sənayesi müəssisəsində) tətbiq olunan İM-in qiymətləndirilməsi, əvvəlki haldan fərqli olaraq, daha konkretdir və bir variantlı olur.

Bunu da qeyd etmək lazımdır ki, satılacaq və ya alınacaq İM-ə aid lisenziyaların dəyərini düzgün qiymətləndirə bilməklə yanaşı biz, çox da asan olmayan, uyğun elmi fəaliyyətin dəyərini də qiymətləndirməyi bacarmalıyıq. Hətta iş bununla bitmir. Beləki, bu zaman, bizdə elmi-tədqiqat işlərinin aparılmasında keçmişdən miras qalan ətalətin davam etdiyini, elmi-texniki nəticələrin bazarın tələbinə uyğun şəkildə maddiləşdirilməsinə adətin olmadığını nəzərə almaq zəruridir. Eləcə də tədqiqatlar planlaşdırıldıqda riskin dərəcəsi – milli tədqiqatların uğurla başa çatıb-çatmayacağı da nəzərə alınmalıdır. Biz, bu yolla, daxili elmi potensialımızın gücünə söykənərək, analoji milli elmi-texniki nəticələri əldə etmək məqsədilə elmi-texniki tədqiqatlar aparmağın məqsədə uyğun olub-olmamasını müəyyənləşdirmiş olarıq. Başqa sözlə, bu yolla elmi-tədqiqat proqramlarına salınması təklif olunan problemlərin əvəzində lisenziyaların alınmasının səmərəliliyi öyrənilə bilər.

Bundan başqa, elmi fəaliyyətlə müstəqil məşğul olmaq həmin ölkələrdə alınan uyğun İM lisenziyalarının qiymətinin aşağı düşməsinə

səbəb olar, eləcə də onun yeniləşdirilmələrinin ehtimalı yüksək olar.

Bu bir faktdır ki, fəaliyyətdə olan hər bir istehsal sahəsi böyük və ya kiçikliyindən asılı olmayaraq, müəyyən əqli mülkiyyətin (hüququnun) hesabına fəaliyyət göstərir (kimə və nə vaxtdan mənsub olmasından asılı olmayaraq). Beləki, əgər müəssisənin hər bir istehsal sahəsində istifadə olunan maşın və mexanizmlərdə əqli mülkiyyət hüququ müəssisə tərəfindən qorunmursa da, bu maşın və mexanizmlərin qarşılıqlı təsirinin necəliyindən asılı olaraq məhsul istehsal olunursa, yəni maşın və mexanizmlərdən bir sistem əmələ gətirməklə istifadə olunmaları (texnologiyası) bilavasitə müəssisəyə məxsus əqli mülkiyyətin məhsuludur və qorunmalıdır. Başqa sözlə, bu mülkiyyətin qiymətləndirilməsi (dəyəri) müəssisənin balansında öz əksini tapmalıdır. Bu baxımdan, bir çox hallarda, müəssisənin digər əsas vəsaitlərinin dəyərindən heç də az olmayan intellektual mülkiyyətin dəyərinin müəssisələrin balansında göstərilməməsi yolverilməzdir. Bu süni şəkildə müəssisənin dəyərinin aşağı salınmasına gətirib çıxarır. Odur ki, respublikada dövlət mülkiyyətinin özəlləşdirilməsi işlərində bu mütləq nəzərə alınmalıdır. Hesab edirik ki, dövlət müəssisəsini özəlləşdirən tərəfin mövcud texnologiyadan istifadə edib-etməyəcəyindən asılı olmayaraq, onun (əqli mülkiyyətin) dəyəri müəssisənin ilkin qiymətində öz yerini tapmalıdır.

Bazar iqtisadiyyatı və İM-in qiymətləndirilməsinin yolları haqqında. Respublikada İM-in alınıb-satılması və qorunması siyasəti formalaşdırıldıqda nəzərə alınmalıdır ki, Qərb ölkələri tərəfindən, bazar şəraitində, elmi-texniki nəticələrin xaricdə (o cümlədən Azərbaycanda) qorunması (patentlənməsi) əsasən iki məqsəd güdür:

1.Kommersiya məqsədilə elmi-texniki nəticələrin hüququnun qorunması.

2.İM-in patentləndiyi ölkədə elmi-texniki siyasəti öz xeyrinə monopollaşdırması;

Bu məqsədlərə uyğun olaraq intellektual mülkiyyətin realizasiyası iki yolla baş verir;

1.Hüquqların həcmi nəzərə alınmaqla satılması yolu ilə;

2.İntellektual mülkiyyətin tətbiqindən əldə olunan məhsulun satılması yolu ilə.

İkinci məqsəddən göründüyü kimi lisenziyaların alınmasından sonra patentlərin əhatə etdiyi üstünlüklərin daha da yaxşılaşdırılması lisenziat tərəfindən davam etdirilməlidir. Əks halda ölkədə istehsal xarici ölkələrin tə'siri altına düşər. Xarici firmalar əgər 1993-cü ildə Rusiyada patentlərin 30%-nə nəzarət edirdilərsə, 1998-ci ildə bu nəzarət patentlərin 80% aid olmuşdur.

Bu da bir faktdır ki, digər Yeni Müstəqil Dövlətlər /YMD/ kimi Azərbaycan Respublikasında da bu günə kimi qəbul olunan normativ-hüquqi aktlar, normativ və hüquqi tənzimləmələri, İM Obyektlərinin (İMO) hesaba salınması və vergi tutulmasını təmin edə bilməmişdir. Özəlləşdirmə başlananda İMO «unudulmuş» öz taleyinə buraxılmışdır. Belə güman etmək olar ki, onda müəssisənin dəyərini aşağı salmaqla onu daha ucuz qiymətə satmaq (almaq) marağında olunmuşdur. Nəticədə İMO hesaba salınmamışdır. İM-in özəlləşmədə nəzərə alınmaması onu çox asanlıqla «axıcı» etmişdir [10].

Bütün bunların nəticəsidir ki, bəzi ETİ-da bu günə kimi yüzlərlə patent və işlənmələr balansa götürülməmişdir, baxmayaraq ki, onlardan istifadə etmədən bir çox zavodların işi sadəcə effektivliyini itirə bilər.

Hesab edirik ki, bu gün bu yola qədəm qoymuş Yeni Müstəqil Dövlətlərdə rast gəlinən çətinlikləri öyrənməklə sənədləri daha düzgün hazırlamaq imkanımız vardır.

Yeni yaranan ölkələrin təcrübəsinə əsasən, deyə bilərik ki, İMO-nun dəyərini xərclərə aid etməyə imkan verən mühasibat hesabatı üzrə normativ sənədlər ortaya çıxandan sonra vəziyyət bir qədər dəyişməklə bərabər, yeni problemləri ortaya çıxardı. Məsələn, müəyyən olundu ki, qeyri-maddi aktivlərin, xüsusilə, İM-in yaradılması və istifadə olunması ilə bağlı məsələlər qanunvericiliklə tam tənzimlənməmişdir. Hələlik onların hesaba alınmasının dəqiq standartı yoxdur. Bununla belə, onlar yüksək texnologiyaya malik müəssisələrin əmlakının böyük bir hissəsini təşkil edirlər. Bütün bunlar isə öz növbəsində vergi siyasətinə tə'sir edir.

Doğrudan da gəlir bazası, əsasən, mühasibat hesabında qeydiy-

yatda olan mə'lumatlardan asılıdır. Odur ki, hesaba almanın variantından asılı olaraq, vergi tutulmasının nəticələri ortaya çıxır. Bəzi ekspertlər təklif edirlər ki, İMO balansdan kənar hesablarda sıfır balans dəyəri ilə nəzərə alınsın, ancaq qiymətləndirilən obyektlər kommersiya dövriyyəsinə daxil ediləndən sonra onların istifadəsindən alınan real gəlirə görə daxil olan vəsaitlərin cəmi ilə aparılsın.

İMO-nun əvvəlcədən qiymətləndirilməsinin zəruriliyini belə bir sadə misallardan da görmək mümkündür:

1.İM-in tətbiqi nəticəsində istehsal olunan məhsulun qiymətləndirilməsində intellektual mülkiyyətə çəkilən xərclər nəzərə alınmalıdır.

Məsələnin bu cür mürəkkəbləşməsi müəyyən qədər stimullarla bağlıdır.

2.Özəlləşdirilən müəssisələrin milliləşdirilməsində və ya satılmasında İM nəzərə alınmaqla yanaşı, həm də qiymətləndirilməlidir.

Əsas problem ondan ibarətdir ki, yüksək texnologiyaya malik müəssisənin aktivləri də ümumi qaydada mala olan vergiyə məruz qalırlar. Lakin, İM əldə olunmasına, yaradılmasına sərf olunan məbləğdən gəlir vergisinə görə güzəştlər ona aid edilmir. Güzəşt olunmayan yüksək texnologiyaların bir neçə ildən sonra istehsalın dəfələrlə artımına səbəb olacağı və beləliklə gəlir bazasını artıracağı maliyyə orqanlarını maraqlandırmır. Hər halda, hələlik perspektiv texnologiyalara aid gəlir və hesabat siyasətinin aparılmasında ortaya çıxan məsələlərin həll olunmasını sözdə deyirlər.

Patent və lisenziyaların qeyri-maddi aktiv olaraq balansa götürülməsi və onların yaradılmasına və alınmasına çəkilən xərcə görə qiymətləndirilməsi haqda təkliflər verilir. Bu təkliflərlə bağlı, ən əvvəl, onu demək lazımdır ki, lisenziyanın birbaşa alınması və tətbiqi zamanı tələb olunan qiymətləndirmə üsulu, uyğun patentin (lisenziyanın) yaradılması zamanı tələb olunandan fərqləndirilməlidir. Belə ki, sonuncu halda sərf olunacaq əlavə müddət (yubanma), bu müddətdə çəkilən xərclər və bu xərclərin başqa sahələrdə istifadəsi halında gələ biləcək gəlir, tədqiqatların uğurla başa çatıb-çatmayacağı ehtimalı və keyfiyyəti nəzərə alınmalıdır.

Bütün çətinliklərinə baxmayaraq, qiymətləndirməyi təkcə ən

yüksək kommersiya uğuru baxımından, gələcək gəlirlərə görə aparmaq üsulu özünü doğruldur və əksəriyyət tərəfindən qəbul olunur.

Qeyd etmək lazımdır ki, qiymətləndirmə üsulunun seçilməsindən qeyri-maddi aktivlərin hüquqi sahiblərinin maliyyə vəziyyəti əsaslı sürətdə asılıdır. Qeyri-maddi aktivlərin (müxtəlif üsullarla hesablanan) dəyərinin qiyməti maliyyə nəticələrinin balansına da güclü təsir edir.

Deyilənləri yekunlaşdıraraq, deyə bilərik ki, bu gün qiymətləndirmədə üç klassik yanaşmadan istifadə olunur: xərcə, bazara və gəlirə görə. Üsullar hər şeydən əvvəl hesabların məqsədlərindən, həmçinin qeyri-maddi aktivlərin növündən asılıdır. Məsələn, İM müəssisənin öz daxili təşkilati işlərini mükəmməlləşdirməyə xidmət etmək üçün yaradılırsa, əlbəttə burada bilavasitə (satış üçün deyil) qiymətləndirmənin xərcə görə aparılması məqsədə uyğundur (Sovet dövrü üsulu və menecerin proqram təminatı).

Lisenziya satılmaq üçün qiymətləndirilərkən, onun hansı hüquqlarla verildiyi nəzərə alınmalıdır – hüququn qismən və ya bütövlükdə verilməsindən asılı olaraq, satış qiyməti müəyyən olunmalıdır.

Bundan başqa, alan və ya satan üçün qiymətləndirmə üsulu fərqlənməlidir.

Bu və digər qeyri-maddi aktivlərdə yanaşmalardan hansının səmərəli olduğunu müəyyən etmək üçün amerika qiymətləndirənlərinin təcrübəsinə müraciət etmək faydalı ola bilər. İntellektual Mülkiyyət obyektlərinin qiymətləndirilməsində xərc yanaşmasına, bazar yanaşmasına, gəlir yanaşmasına üstünlük verilməsi təklif olunur.

Son olaraq, ilk öncə, DETK-də İM-in qiymətləndirilməsi və kommersiyalaşdırılması ilə məşğul olan aşağıdakı qurumlar yaradılmalı və onlar haqda dövlət qanunları və qaydaları işlənib hazırlanmalıdır.

1.Azərbaycanda İM lisenziyasının ticarəti ilə məşğul olan dövlət və qeyri-dövlət qurumları.

2.İM lisenziyasını verən qurum.

3.İM lisenziyasını qiymətləndirmək səlahiyyətini verən qurum.

4.İM lisenziyasını qiymətləndirən qurum.

Bundan sonra aşağıdakı işlər yerinə yetirilməlidir:

5.İM-in qiymət göstəriciləri və qiymətləndirilməsi üsulu müəyyənləşdirilməli və bu seçimlər əsaslandırılmalıdırlar.

6.İM qiymətləndirilməsi metodu müəyyən olunmalıdır.

7.Sərbəst İM-lərin (məsələn, patentlərin) və müəyyən iqtisadi sahədə istifadə olunan İM-lərin aid olduqları sahələrindən asılı olaraq qiymətləndirilməsinin metodologiyası işlənməlidir.

Özəlləşdirilmədə intellektual mülkiyyətin qiymətləndirilməməsinin nəticələri. Bütün dövrlərdə istənilən ölkənin iqtisadi (siyasi, hərbi) potensialı yeni biliklər əldə etmək və bu biliklərin həyatda tətbiqi yollarını müəyyənləşdirməklə yeni məhsullar istehsal etmək qabiliyyəti ilə formalaşdırılmışdır. Praktika göstərir ki, ancaq bu yolla cəmiyyət yaşamaq qabiliyyətini yüksək səviyyədə qoruyub saxlaya bilər. Əbəs deyildir ki, bu gün qabaqcıl texnologiyalar kompaniyalar və milli iqtisadiyyatlar arası rəqabətin obyektidir. Odur ki, elmi fəaliyyətin düzgün təşkili, nəticələrinin etibarlı qiymətləndirilməsi və onlardan səmərəli istifadə edə bilmək hər bir iqtisadiyyatın ən əsas məsələlərindən sayılır. Bu isə özünü ölkə daxilində istehsal sahələrinin vaxtlı-vaxtında yeniləşməsində, bu nəticələrin lisenziyalarının satılmasında göstərir. Respublika daxilində milli patentlərin tətbiqinə nail olmadan ölkə iqtisadiyyatının dirçələcəyinə ümid etmək düz deyildir. Milli patentlərin tətbiqi həm elmin, həm də iqtisadiyyatın inkişaf göstəricisidir, eləcə də elmlə iqtisadiyyat arası əks əlaqənin göstəricisidir. Azərbaycan Respublikası İntellektual Mülkiyyət /İM/ lisenziyalarının dünya ticarətində iştirak edə bilməsi də onu xarakterizə edən göstəricilərdəndir. Respublika elm potensialının bu tələbləri gələcək bütün dövrlərdə ödəyə bilməsi üçün onun malik olduğu imkanların müntəzəm olaraq artırılması vacibdir. Bunun üçün bir sıra tələblər daima gündəlikdə durmalı və yeri gəldikcə həyata keçirilməlidirlər. Bu tədbirlər sırasında bu növ lisenziyaların qiymətləndirilməsi xüsusi yer tutur. İM-in dəyərinin müəssisələrin balansında göstərilməməsi yolverilməzdir.

Metodik göstərişlərə əməl edilməsi Azərbaycan Respublikası ərazisində yerləşən bütün dövlət müəssisələri üçün məcburidir, əks halda, müəssisənin qiymətləndirilməsi etibarsız hesab edilmişdir.

2.3. Yenidənqurma və sahibkarlıq

Yenidənqurmanı xarakterizə edən cəhətlərdən biri budur ki, y/q-nın ilk vaxtlarında SSRİ, sonralar isə onun yerində yaranmış yeni müstəqil dövlətlər qapalı sovet sistemindən /özü-özünü təminatdan/ açıq sistemə çevrilirlər, yəni bu ölkələrin təminatı məsələlərinə xarici ölkələr də qoşulurlar və əksinə. Bu isə o deməkdir ki, bu təminat işində ölkələr arası rəqabət ortaya çıxır. Ölkə əhalisinin təminatında daxili bazarda kim nə səviyyədə iştirak edir məsələsi ortaya qoyulur. Təbii ki, daxili bazarını əlində saxlaya bilməyən dövlətlər, daha da kasıblaşacaq, xalqlar dövlətlərini və milli müstəqilliklərini itirməklə üzləşəcəklər. Daxili bazarında uğur qazanan ölkələr xarici bazarlara da daxil olmaqla daha da inkişaf edə biləcəklər.

Yenidənqurmanı xarakterizə edən cəhətlərdən biri də bu oldu ki, bu ölkələrin iqtisadiyyatında mülkiyyətin dövlət və ictimai formalarından imtina olundu, sovetlərdən əvvəl mövcud olmuş xüsusi mülkiyyətçiliyə qayıdıldı. Lakin bu, xaraktercə əvvəlki sistemə tam qayıdış olmayıb, onun yüksək mərhələsi olan və bazar iqtisadiyyatı adlanan mərhələsinə keçidi nəzərdə tuturdu. Dövlətin iqtisadi məsələlərlə bilavasitə məşğul olmaq hüquqlarından imtina edib, ancaq iqtisadiyyatın inkişafına qanunları və maliyyə yardımları ilə istiqamətləndirici təsir göstərmək səlahiyyətlərini özündə saxlaması yolu müəyyənləşdirilir. Ölkədə iqtisadiyyatın sahələri ilə ayrı-ayrı adamlar /sahibkarlar/ məşğul olmağa başlayırlar.

Sahibkarlıq fəaliyyəti iqtisadi islahatların həyata keçirilməsində mühüm amil sayılır. Lakin Azərbaycanda sahibkarlığın yaranması birtərəfli xarakterdə olmuşdur. O, ticarətdə, bank işlərində, vasitəçi xidmətində daha çox, maddi istehsal sahələrində daha az inkişaf tapmışdır ki, bu da xarici malların artan idxalına, respublikada olan istehsal sahələrinin sıradan çıxmasına gətirib çıxarmışdır. Bu hal sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin olmaması, yeni iqtisadi siyasətin düzgün qurulmaması və ya düzgün həyata keçirilməməsi ilə əlaqədar yaranmışdı. İqtisadi siyasətin yönəldiyi istiqamətlərin birtərəfliyi ölkədə

iqtisadiyyatın davamlı inkişafına təkan verəcəyi əvvəlcədən şübhə doğururdu. Odur ki, iqtisadiyyatımızın yönəlmiş olduğu xammalın və tükənməkdə olan enerji ehtiyatlarının ixracı istiqamətlərindən, əsasən, imtina edib, ilk növbədə, bu xammallardan yüksək keyfiyyətli məhsul istehsalı mənbələri kimi istifadə olunması istiqamətinə keçmək lazım idi. Sahibkarlığın mahiyyəti, əsasən, maddi istehsalla bağlı olmalıdır. Bu sahənin inkişaf etdirilməsinin strateji əhəmiyyətli məsələ olduğunu nəzərə alaraq, bu tip sahibkarlıq strukturlarının inkişaf sürətinin artımını təmin edən təşkilati-hüquqi və iqtisadi şərait yaradılması bu gün də vacib məsələ olaraq qalır.

İstehsal yönümlü sahibkarlığın inkişafı üçün bazar münasibətlərinin necəliyinin öyrənilməsi - əlverişli və ya əksinə olması, tələb olunan qanunların var-yoxluğu və icrasının gözlənilməsi və ya gözlənilməməsi, alıcı tələbatının aşağı düşməsi və daxili istehlak bazarının məhdudlaşması, maddi istehsal sahəsində sahibkarlığı stimullaşdıran vergi sisteminin təkmilliyi, iqtisadiyyatın ümumi kriminallaşması və s. mühüm əhəmiyyətə malikdirlər. İnzibati baryerlərin çoxluğu, sahibkarlıq haqqında informasiyaların olmaması, tərəfdaşlar arasında etibarlı münasibətləri təmin edən əxlaqi etik norma və qaydaların tələb olunandan aşağı olması sahibkarlığa qarşı yönələn əngəllərdirlər.

Sahibkarlar üçün innovasiya fəaliyyəti əsas məqsəd olmalıdır. Bu məqsədlərinə onlar maddi istehsalda çatırlar. Buna görə də iqtisadiyyatın bütövlükdə inkişaf etməsi üçün dövlət bu tip sahibkarlara yardımlar etməlidir. Bu yardımların olmaması və ya səmərəsizliyi – vaxtında olmaması və ya az olması təhlükəlidir, çünki sahibkarlığın bu tipi təklikdə genişlənə bilməz, dəyişən və ya gizli iqtisadiyyata keçər.

Bazar subyekti kimi sahibkarlığın yaranmasında olan çətinliklərdən biri də bu olmuşdur ki, bu işdə siyasətin formalaşması, hər şeydən əvvəl, azərbaycan xalqının ümumi əxlaq və vərdişlərini, sovet dövründə onlarda bu və ya digər səviyyədə formalaşmış ictimai və xüsusi mülkiyyətə münasibətləri nəzərə alınmadan, sırf xarici praktikaya əsaslanmışdı. Keçmiş sahibkarlara qarşı mənfi münasibətlərin formalaşmasına həm də onların /keçmiş sahibkarların/ bir çoxunun davranışları – həyat tərzləri səbəb olurdu. Belə sosial mühit çox əfsuslar

olsun ki, müasir günümüzdə də özünü göstərməkdədir. Bir qisim sahibkarlar Azərbaycan Respublikasının düşmüş olduğu ağır iqtisadi, siyasi və hərbi vəziyyəti saya salmayıb, qənaət tələbini qulaq ardına vuraraq, israfçılığa yol verirlər. İstehsala kapital qoyuluşu həm də lazım olan şəraitin olmaması üzündən çox zəifdir. Bundan başqa bir sıra "biznesmenlər" istehsala vəsait qoymur, gəlirlərindən bütövlükdə şəxsi yaşamaları üçün istifadə edirlər. Ümumi həyat şəraitinin aşağı düşməsi fonunda və hətta əhalinin çoxunun dilənçi vəziyyətində yaşadığı şəraitdə bu hal bir çoxlarını narahat etmədiyi kimi, bir çoxlarını qıcıqlandırırdı. Əsasən özlərini kommunist adlandıranların sovetin ictimai mülkiyyət köynəyindən çıxandan dərhal sonra şəxsi varlanmağa yüksək səviyyədə meyilli olmaları onların əxlaq məsələlərini sual altına salırdı. Bunun nəticəsi olaraq, ölkədə xüsusi sosial mühit formalaşır ki, bunu da sahibkarlıq fəaliyyəti üçün əlverişli adlandırmaq olmaz.

Yeri gəlmişkən, sosial titullar /tacir, bəy, mülkədar və s./ əvvəllərdə bu insanların cəmiyyətdəki yerlərini əks etdirirdi. İndiki dövrdə də sahibkarın ictimai vəziyyətini müəyyən edən dəqiq dövlət sisteminin yaradılması məqsədə uyğun sayıla bilər.

Müasir dövrdə, dövlət məmurlarının sahibkarlıq fəaliyyətinə meyilli olmaları olduqca güclüdür və bu da qazanc məqsədilə xidməti vəzifədən sui-istifadəyə gətirir. "İşgüzar məmur" sosial tipinin meydana çıxması müasir həyatımızda yol verilməzdir. Onların işgüzarlığa maraqları sırf maddi marağa söykənir. Bu insanlar, normal sahibkarlığın inkişafına yönəltdikləri maneələr ilə yanaşı, dövlət büdcəsinə vurduqları zərərlə də xarakterizə olunmalıdırlar.

Milli Məclis deputatlarının dövlət məmurluğunda çalışmaları da, sahibkarlıqla məşğul olmaları da yol verilməzdir. Bu, əks qütblərin bir insanda toplanması olub, demokratiyanın təhrif olunması ilə nəticələnir.

Bütün bunlar müasir Azərbaycan mühitində sahibkarlığa olan ehtiyatlı münasibəti müəyyənləşdirirlər. Sahibkarlığın formalaşması, əsasən, yuxarıların iştirakı ilə həyata keçirildiyindən, öz şəxsi maraqlarına uyğun olaraq, hakimiyyət strukturları onun inkişafına şərait yaratmaq əvəzinə, bu prosesi ya tələsdirir, ya ləngidirlər, əhalinin əksə-

riyyətinin və dövlətin imkanlarını nəzərə almadan özəlləşdirməni süni surətdə gücləndirirlər. Bu, özəlləşmə prosesindəki qanun pozuntuları faktlar ilə təsdiq olunur. Belə ki, bir çox nəsillərin əməyi ilə yaradılmış müəssisələr heç bir səbəb olmadan dayandırılmış və çox aşağı qiymətlə satılmışlar. Bu da, öz növbəsində, sahibkarlığın normal inkişaf tapacağına şübhə yaradır.

Sahibkarlığın praktikada yerini tələb olunan səviyyədə tapa bilməsi üçün onun qarşısında duran bir-çox həlli vacib vəzifələr müəyyənləşdirilməlidir. Onlardan başlıcası, sahibkarlığa qarşı ictimai münasibət dəyişdirilməli, onun cəmiyyət üçün vacibliyi və perspektivliyi sübuta yetirilməlidir.

Bunlardan başqa sahibkarların özləri də ümumi məsələlərin həllində çalışmalıdırlar-ictimai qüvvə kimi özlərini təsdiqləməlidirlər, yaxşı məhsul istehsal etməklə yanaşı, onların uğurları geniş xalq təbəqəsini də əhatə edə bilməlidir. Bu gün etiraf etməmək olmaz ki, müasir işgüzar adamlar sahibkarlığın sosial statusunun təsdiqi üçün kifayət qədər iş görmürlər və ya görə bilmirlər. Sahibkarlıq o halda səmərəli olacaq ki, şəxsi qazanc ictimai mənfəəti arxada saxlamasın.

Hər işdə sahibkarları günahlandırmaq düz olmadığı kimi, onlara bütövlükdə bəraət qazandırmaq da olmaz. Şübhəsiz ki, insanı sahibkar kimi formalaşdıran onun şəxsi keyfiyyətləridir. Lakin onun öz bacarığını, intellektual potensialını həyata keçirə bilməsi üçün tələb olunan mühiti formalaşdıran dövlətin mövqeyindən də çox şey asılıdır.

Dövlət əsas sahələrdə, hər şeydən əvvəl maddi istehsalda sahibkarlığın stimullaşdırılmasının işlək mexanizmini yaratmaqla, sahibkarlığın sosial vəziyyətini möhkəmləndirəcək, ona hörmət edilən münasibəti formalaşdırmış olacaqdır.

İnkişaf etmiş ölkələrdə sahibkar istər dinc vaxt, istərsə də müharibə dövründə xalqın döyüşən əsgəridir. Bu bizdə də belə olmalıdır.

Sahibkarların məsuliyyəti. Yenidənqurma siyasətindən sonra, xüsusilə son dövrlərdə, müxtəlif səbəblər üzündən sahibkarlıqla məşğul olmaq istəyənlərin sayı sürətlə artmaqdadır. İlk baxışda təbii və asan görünən bu iş, əslində, onu hər an yox edə bilən iflasla üzləşmək təhlükəsinin altındadır. Bu təhlükədən qorunmaq sahibkarlardan çox

böyük məsuliyyət hissi tələb edir. Bu tələb, ən əvvəl, bazar iqtisadiyyatının mahiyyətindən irəli gəlir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, sahibkarlıq kapitalizmdəkinə nəzərən, çox böyük kəmiyyət və keyfiyyət dəyişikliklərinə uğrayır. Fərdlərin təşəbbüskarlığını dövlətin və qeyri-dövlət qurumlarının maliyyə cəhətdən himayə etməsi nəticəsində sahibkarlıq yeni xüsusiyyətləri ilə formalaşır və əsasən, iki yolla ortaya çıxır:

1.Dövlət mülkiyyətini özəlləşdirməklə;

2.Müstəqil olaraq yeni müəssisələr yaratmaqla.

Məlumdur ki, hər bir /bütün/ təşəbbüskarın dövlət və ya qeyri-dövlət qurumları tərəfindən kreditlər verməklə himayə olunması mümkün deyil, hətta bu məqbul sayılmır. Belə ki, təşəbbüs göstərənlərə yardım edilməsi üçün bir-sıra sərt şərtlər mövcuddur. Məsələn, təşəbbüskar marketinqə əsaslanan konkret layihəyə malik olmalıdır. Sahibkar olmaq istəyən adam bilməlidir ki, o, mütləq daha çox və keyfiyyətli məhsul istehsal etməklə, daha çox gəlir əldə olunmasına daim çalışmalıdır. Bu tələb, məcburiyyət olub, əksini dövlət qanunlarında tapmaqla yanaşı, sahibkarlığın məsuliyyəti ilə eynilik təşkil edir. Deməli sahibkar bütün fəaliyyətini bu məsuliyyətin tələblərinə uyğun təşkil etməlidir. Yeri gəlmişkən, bu məsuliyyət təşəbbüskarlığın istiqamətlərini /sahəsini/ və həcmini müəyyənləşdirib, onu müəyyən çərçivəyə salır. Məsələn, Türkiyədə dövlət torpaqlarının özəlləşdirilməsinə başlananda min hektarlarla, əsasən, boş /istifadəsiz/ və ya səmərəli istifadə olunmayan torpaq sahələrinin sahibləri olan feodallara bildirildi ki, kapitalist üsulu ilə əkib-becərmək şərtilə, istədiyi qədər /50-100 ha/ sahəni özəlləşdirə bilərlər. Əhaliyə isə özəlləşdiriləcək torpaq sahəsinin miqdarı ailənin fiziki gücü və maddi imkanları nəzərə alınmaqla müəyyənləşdirilirdi. Özəlləşdiriləcək torpaq sahəsinin aşağı sərhədi 10 ha müəyyənləşdirilmişdi. Buna baxmayaraq, bizdə təşəbbüskarlığın həcmi məsələsində, dünya təcrübəsində rast gəlinməyən hallar müşahidə olunmaqdadır. Belə ki, istər torpağın, istər istehsal sahələrinin özəlləşdirilməsində elə "qoçular" tapılmışdır ki, onlar çox böyük torpaq sahələrini özəlləşdirib, istifadəsiz saxlamışlar, sanki feodal olmaq istəyirlər /bu gün isə o torpaqları satmaqla məşğuldurlar/.

Bu isə o deməkdir ki, məsuliyyət, istər dövlət, istərsə də təşəbbüskar tərəfindən tamamilə unudulub. Bu məsuliyyət, əslində, vətəndaşlıq qürurunu ortaya qoyur və sahibkarları dinc şəraitdə ölkə iqtisadiyyatını xarici təcavüzlərdən qoruyan millətin əsgərinə çevirir. Bu məsuliyyətin tələbinə uyğun olaraq, hər bir sahibkar işinin uğurlu olması üçün qismən aşağıdakıları yerinə yetirməlidir.

1.Dövlətin qanun və tələblərinə əməl etməklə, /məsələn, vergiləri gizlətməməklə/ yanaşı, bu qanun və tələblərin məhsul istehsalını artıra biləcək şəkildə mükəmməlləşdirilməsinə kömək etməlidir. Bunun üçün digər sahibkarlarla birgə səy göstərməlidir.

2.Sahibkar daxili və xarici bazarlarda rəqabət qabiliyyətli olacaq milli məhsulların istehsalına hər yolla çalışmalıdır. Bunun üçün o, dünya elmi-texniki nəticələrinin, ilkin olaraq, istehsalata tətbiq olunmasına üstünlük verməlidir. Bilməlidir ki, bazar iqtisadiyyatı şəraitində istehsalın bu və ya digər formada yeniləşməməsi, müəssisənin geriləməsi deməkdir. Bu isə kapitalizm dövründəkindən çox-çox təsirlidir, iflasın əsas səbəblərindəndir. Bazar iqtisadiyyatı şəraitində rəqabət kapitalizmə nəzərən çox güclənir. Bazar iqtisadiyyatının söykənmiş olduğu bu rəqabətdən irəli gələn "eqoizm" müsbət eqoizm olub, məsuliyyəti nəzərə alan və yeniliyə aparmağa göstərilən cəhd kimi ortaya çıxır.

3.Sahibkar vaxtı qiymətləndirməyi bacarmalıdır. Hər bir iş – qanunların qəbul olunmasından tutmuş, mal istehsalı və onun bazarda satılmasına qədər – bütün mərhələlərdə çevik görülməlidir. Bu mənada qeyd etməyi lazım bilirik ki, bazar iqtisadiyyatına keçməklə, AFR istehsalı iki ilin /1948-1949 illərdə/ ərzində 1939-cu ilin səviyyəsinə çatdıra bilmişdir.

4.Beynəlxalq iqtisadi aləmdə ölkəni təmsil etməklə, onun təəssübünü şəxsi xeyrindən üstün tutmalıdır.

5.Sahibkarlıqla məşğul olmaq istəyənlər müasir inkişaf etmiş ölkələrdə mülkiyyətin formalarını öyrənməlidirlər. Eləcə də, keçmiş sovet dövlətində varlıların torpaqlarının paylaması və sonradan yoxsullaşmış bu təsərrüfatların əsasında kollektiv təsərrüfatların yaradılması kimi uğursuz təcrübələr də nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlığın qanunve-

riciliyi və icrası ilə məşğul olanlar həm də onun Qərbi Avropa ölkələrindəki ənənəvi yoldan fərqləndiyini nəzərə almalıdırlar. Belə ki, Azərbaycanda bazar iqtisadiyyatına keçid, kapitalist iqtisadi münasibətlərindən deyil, sovet sosialist iqtisadi münasibətlərindən keçib gəlir. Bu da təbii olaraq, fərqin xüsusiyyətlərini ortaya qoyur. Məsələn, bunu vergilərin ödənilməsində görmək olar. Bu fərqdən irəli gələn xüsusiyyətlər Azərbaycanda /eləcə də MDB ölkələrində/ intellektual sahibkarlığın ilk növbədə inkişaf etdirilməsini ortaya qoyur. Bu eyni zamanda sosial ədalətin yeni cəmiyyətdə özünü tapmış olduğu ilk əlamət, ədalətli milli sahibkarlar təbəqəsinin formalaşması yolunda yeni mərhələ olardı.

Azərbaycan Respublikasında elmi fəaliyyət sahəsində sahibkarlıq. Yenidən qurma siyasətinin ortaya çıxması ilə keçmiş Sovet sosialist sistemində olan ölkə xalqlarının həyat tərzində böyük dəyişikliklər başlanmışdır. Azərbaycan xalqı da bu siyasətin nəticəsində öz həyatını yeni yolun tələblərinə uyğun sərbəst qurmaq imkanlarını əldə etmişdir. Lakin, bir çox başqa səbəblərlə yanaşı, ancaq icra işlərinə adət etmiş Azərbaycanın o dövr partiya (dövlət) rəhbərləri ölkəni müstəqil idarə etməkdən çox uzaq düşdüklərindən və nəticədə baş verən hadisələr qarşısında çaşqınlıq içində olduqlarından, bu imkanlardan tam istifadə etmək mümkün olmamışdır. Nəticədə, Azərbaycanın siyasi-iqtisadi durumu çox mürəkkəb və ziddiyyətli formalaşmaqdadır. Bir tərəfdən, Quzey Azərbaycan xalqı öz milli müstəqilliyi yolunda çox böyük addımlar ata bilmişdir. Bunun da nəticəsidir ki, bu gün azərbaycan xalqı demokratiya, dövlət quruculuğu istiqamətində, çətinliklərlə də olsa, inamla irəliləməkdədir. Digər tərəfdən, xalqımız yeni çox böyük çətinliklərlə üz-üzə dayanmalı olmuşdur. Bunlardan ilk nəzərə çarpanı budur ki, növbəti dəfə torpaqlarımızın daha böyük bir hissəsi özlərini türkün düşməni elan etmiş və əsasən, Azərbaycan torpaqlarında "böyük Ermənistan" dövləti yaratmağı arzulayan, erməni daşnakları və havadarları tərəfindən işğal olunmuş, əhalimiz bu torpaqlardan da qovulmuş, xalqımızın iqtisadi vəziyyəti xeyli pisləşmişdir.

Bütün bunlara baxmayaraq, günümüzün ibrətamiz cəhəti ondan

ibarətdir ki, əvvəlki dövrlərdən fərqli olaraq, xalqın böyük bir hissəsi öz işıqlı gələcəyini müstəqillikdə görür, onun yolunda hər çətinliyə dözür və mürəkkəb bir şəraitdə yorulmadan bu və ya digər formada mübarizə aparır. Bu mübarizə çox böyük çətinliklərlə əldə olunmuş demokratiyanın inkişaf etdirilməsinə, dövlət müstəqilliyimizin qorunub saxlanmasına, torpaqlarımızın bütövlüyünün bərpa olunmasına, pozulmuş təsərrüfatın dirçəldilməsinə yönəlmişdir.

Dünya xalqlarının istər tarixi və istərsə də bugünkü təcrübəsi göstərir ki, bütün bunların uğurlu həllinin əsas bir yolu vardır ki, bu da xalqın bütövlükdə elmə sahib olmasından, başqa sözlə, elmi və texniki nailiyyətlərin yubadılmadan, ardıcıl olaraq, istehsalata tətbiq olunmasından keçir. Respublikamız malik olmuş olduğu böyük elm üzrə potensial imkanlarını reallaşdırandan sonra, biz, iqtisadiyyatımızın, eyni zamanda hərbi müdafiə qüdrətimizin yüksələcəyinə və xalqımızın gələcəkdə də əmin-amanlıqda yaşayacağına əmin ola bilərik. Bu deyilənlərə, əyani misal olaraq, bir daha Qərbi Almaniyanın və Yaponiyanın təcrübəsini göstərmək yerinə düşər.

Dövrümüz bir də onunla xarakterizə olunur ki, bütün MDB ölkələrində olduğu kimi, Azərbaycanda da ictimai-iqtisadi münasibətlərdə köklü dəyişikliklər başlanmışdır. Bu gün Sovet sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçid reallaşmaq üzrədir. Dünya təcrübəsindən məlumdur ki, bazar iqtisadiyyatına keçidlə bütün fəaliyyət sahələrində, istər dövlət, istərsə də özəl sektorlar kəskin deformasiyalara uğrayırlar. Nəticədə yeni tipli vəzifələrinin böyük bir hissəsini özəl sektora vermiş dövlət sektoru ilə yanaşı, müxtəlif mülkiyyət formalı - təşəbbüskarlıq və məsuliyyətə əsaslanan yeni tipli özəl sektor da ortaya çıxır və bu elmi fəaliyyət sahəsində özünü daha qabarıq şəkildə göstərir. Dövlət, əsasən, strateji əhəmiyyətli elmi-texniki işlərin aparılmasına bilavasitə rəhbərlik edir. İqtisadiyyatın qalan sahələrində isə dövlət, özünün maliyyə vəsaitləri ilə sifarişçi kimi çıxış etməklə, özəl sektorda elmi fəaliyyətin yaranmasına təkan verir və onu istiqamətləndirir. Eyni zamanda özəl sektorun maliyyə vəsaitlərinin bu elmi istiqamətlərə yönəlməsinə imkan yaradır. Odur ki, bu gün Azərbaycanda özəl sektorda elmi fəaliyyətin təşkili, istiqamətləndirilməsi, əla-

qələndirilməsi, onların hüquqlarının müdafiə olunması, bu sahədə də sahibkarlığın formalaşması və inkişafı kimi vacib işlərin yerinə yetirilməsinə xüsusi diqqət yetirilməlidir. Burada, əsasən, iki məsələyə nəzər salmaq lazım gəlir. Biri, özəl sektorda təşkilatlanma məsələsi olaraq ortaya çıxır. Bu barədə, dünya təcrübəsinə əsaslanaraq, çəkinmədən deyə bilərik ki, yuxarıda sadalanan özəl sektorda elmi fəaliyyət sahəsindəki problemlərin vaxtında yerinə yetirilməsinə xidmət və yardım edən, dövlətin kredit imkanlarından istifadə etmək səlahiyyəti və imkanı olan qeyri-dövlət qurumları Azərbaycanda da yaradılmalıdır. Bu qurumların iş birliyi, məsələnin daha da uğurlu həllinə kömək olar.

İkinci məsələ isə elmi fəaliyyət sahəsində sahibkarlığın formalaşmasına aiddir, yəni bu sahədə hansı müəssisələrin və necə yaradılması məsələsi həllini tapmalıdır.

Məlumdur ki, elmi fəaliyyət başqa sahələrə nəzərən fərqli xüsusiyyətləri ilə xarakterizə olunur. Təbii ki, bu xüsusiyyətlər sahibkarlıq fəaliyyətində də özünü büruzə verəcəkdir. Bu xüsusiyyətlər bazar iqtisadiyyatına keçidin ilk mərhələlərində elmi fəaliyyətin maliyyələşməsində çətinliklər yaradır - riski artırır.

Bunlardan aşağıdakıları xüsusi qeyd etmək lazım gəlir.

1.Elmi fəaliyyət, əsasən, böyük miqdarda vəsait tələb edir. Buna çox vaxt bir maliyyəçinin gücü çatmır. Odur ki, onların iş birliyinə girmələri lazım gəlir.

2.Elmi fəaliyyətin təkrar istehsal müddəti, başqa sahələrə nəzərən (ümumiyyətlə) çox böyükdür. Bunun azaldılması yolları öyrənilməlidir.

Azərbaycanda isə bu riskə (çətinliklərə) aşağıdakı səbəblər üzündən yeni elementlər əlavə olunur. Belə ki, inkişaf etmiş Qərb ölkələrində bazar iqtisadiyyatına keçid kapitalizmin təbii inkişafı nəticəsində, MDB ölkələrində (o cümlədən Azərbaycanda) isə cəmiyyətin "sosializm" istiqamətində inkişafından geriyə dönməklə ortaya çıxmışdır. Bu səbəbdən Azərbaycanda bazar iqtisadiyyatına keçid, təbii olaraq, öz fərqli əlamətləri və tələbləri ilə xarakterizə olunmalıdır. Biz hesab edirik ki, bu fərqli əlamətlər əsaslı tədqiq olunmalı, tələblər aşkarlanmalı, Azərbaycanda sahibkarlığın inkişaf yolları öyrənilməlidir.

Azərbaycanda elmi fəaliyyət sahəsində sahibkarlığı inkişaf etdirdikdə, əsasən aşağıdakı xüsusiyyətləri də nəzərə almaq lazımdır:

1.Elmi fəaliyyətin ilk mərhələsi belə Azərbaycanda böyük ətalətə malikdir-bazar iqtisadiyyatı tələbinə uyğun çevikliyi yox dərəcəsindədir. Bu da ona olan diqqəti zəifladir.

2.Maliyyə imkanı olan insanların bir çoxu vəsaitlərini, əsasən, keçmiş sovet dövründə qanun və əxlaqdan kənar, çox asan və müxtəlif yollarla əldə etdiklərindən, onların əksəriyyəti, vəsaitlərindən bazar iqtisadiyyatının tələblərinə uyğun tərzdə istifadə etmək təcrübə və vərdişlərinə malik olmadıqlarından, maliyyə vəsaitlərini sərbəst olaraq, elmi fəaliyyətin inkişafına yönəltməyə meylli deyillər. Bunun üçün dövlətin cəlbedici qərar və qanunları olmalıdır.

3.Keçmiş sovet dövründə elmi fəaliyyətin faydalılığı (hərbi sahədən başqa) Qərb ölkələrinə nəzərən, çox aşağı olmuşdur. Bu səbəbdən bu gün ona olan inamın zəif olması, bütün MDB ölkələri kimi, Azərbaycanda da özünü daha qabarıq şəkildə büruzə verir. Elmi fəaliyyət dünya elmi-texniki informasiyasına söykənməlidir.

4.Dövlət, bazar iqtisadiyyatının mahiyyət və tələblərinə uyğun olaraq, istehsalı artırmaq, onun məhsullarını bazar rəqabətinə davamlı etməkdən ötrü istehsalla və elmi fəaliyyətlə məşğul olmaq istəyən təşəbbüskarlara elmi layihələr, investisiyalar, kreditlər ayrılması işini yerinə yetirmək gücündə deyildir.

Yeri gəlmişkən, bu sonuncu məsələyə xüsusi diqqət yetirilməlidir. Belə ki, dünya ölkələri təcrübəsi göstərir ki, bu son işi görə bilməyən dövlətin bazar iqtisadiyyatına keçməsi ölkə iqtisadiyyatını çox acınacaqlı hala gətirib çıxarır. Bunu bir sıra Afrika, Asiya, Latın Amerikası ölkələrinin timsallarında görmüşük. Odur ki, təkcə Azərbaycanda deyil, bütün MDB ölkələrində bazar iqtisadiyyatına keçidin Qərbdə gedilmiş ənənəvi yoldan (kapitalizmdən-maliyyə imkanına malik fərdi insanları olan cəmiyyətdən) fərqləndiyini nəzərə alaraq, hesab edirik ki, istər dövlət və istərsə də qeyri-dövlət qurumları işlərini, əsasən, elmi fəaliyyətin inkişaf etdirilməsi istiqamətində qurmalıdırlar. Daxildən imkanlar tapılmaqla yanaşı, xarici investorlar da cəlb olunmalıdırlar. Bunun üçün, əsas səylər, ilk öncə, intellektual sahibkarlığın inki-

şaf etdirilməsinə yönəldilməlidir. Qeyd edək ki, intellektual sahibkar dedikdə, elmi-texniki, incəsənət və digər yaradıcılıq nəticələrinin istehsalata tətbiqi və bununla bağlı işlərlə, məsələn, elmi fəaliyyətin marketinqini, vauçer fəaliyyəti, dünya elmi-texniki məlumatların respublikamıza gətirilməsi və yayılması ilə məşğul olan, istehsal vasitələrinə və onun nəticələrinə sahib olan hüquqi və fiziki şəxslər nəzərdə tutulur. İntellektual mülkiyyətçilərin istehsalçı sahibkarlara çevrilməsi, Azərbaycanda (eləcə də başqa yerlərdə) sosial ədalətin qələbəsi olmaqla bərabər, elmi fəaliyyətin durmadan inkişaf etdirilməsi, real şəraitin yaradılması deməkdir. Bu, Azərbaycanda elmi-texniki tərəqqiyə doğru böyük bir addımın atılmasının təntənəsi olardı. Çünki, elmdən gələn bu istehsalçı sahibkarlar elmi fəaliyyəti mütləq layiqincə qiymətləndirə biləcəklər və onun maliyyələşdirilməsində aktiv iştirak etmək onlar üçün həm də mənəvi tələbat olacaqdır. Bu isə elmi fəaliyyətin gələcək inkişafına böyük təkan verəcəkdir.

İntellektual sahibkarlıq haqqında. 1.Respublikamızın ağır vəziyyətinə baxmayaraq, bu gün sahibkarlıqla bağlı hər-hansı elmi-praktik konfransın keçirilməsi elm ictimaiyyətinin həyatında əlamətdar bir hadisə kimi qəbul olunur. Bu konfranslar digərlərindən, /əsasən, əvvəlki dövrlərdə keçirilənlərdən/ onunla fərqlənirlər ki, bu konfranslarda alim və mütəxəssislərlə yanaşı, dövrün tələbinə uyğun olaraq formalaşan, yeni cəmiyyətin əsas aparıcı qüvvələrindən olan istehsalçı sahibkarlar da iştirak edirlər. Dünya təcrübəsinə əsaslanaraq əmin ola bilərik ki, bu alim və istehsalçılarımızın birliyi mütləq uğurla nəticələnəcəkdir, çünki onların hər birinin digərində marağı vardır. Doğrudan da gəlin diqqət yetirək, görək dünyada hansı ölkələr inkişaf etmiş sayılırlar. Bu suala cavab olaraq, ən əvvəl, ABŞ, Qərbi Avropa ölkələrini, Yaponiyanı, İsrail kimi ölkələri göstərmək olar. Bu ölkələrin hamısında ümumi olan cəhətlərdən biri budur ki, onlarda iqtisadi münasibətlər, təhrif olunmadan, bazar iqtisadiyyatına əsaslanır. Təbii ki, iqtisadi münasibətlərin bazar iqtisadiyyatına əsaslanan digər ölkələr də vardır. Ancaq bu ölkələri fərqləndirən ən əsas cəhət budur ki, birincilərdə bazar iqtisadiyyatının tələbləri, o cümlədən, azad /açıq/ rəqabət tamamilə özünə yer tapa bilir. Azad rəqabətdə isə elmi-texniki

tərəqqiyə nail olanlar qalib gəlirlər, çünki bu yolla onlar istehsalın çevikliyini təmin etmək, bazarın daima dəyişən tələb və təkliflərini ödəmək imkanı əldə edirlər. Deməli, bazar iqtisadiyyatına keçid ancaq bütün sahələrdə elmi-texniki nəticələri müntəzəm olaraq, istehsalata tətbiq etməyə qadir olan ölkələrdə uğurlu olur /məsələn, iqtisadi böhranlardan nisbətən azad olur/. Bazar iqtisadiyyatı elmi-texniki tərəqqi ilə birlikdə vəhdətdə inkişaf edir. Əgər bazar iqtisadiyyatına keçid elmi-texniki tərəqqiyə söykənmirsə, həmin ölkənin iqtisadiyyatı iflasa məhkumdur. Buna görə də respublikamızda ümumi islahatlar arasında elmi fəaliyyət sahəsindəki islahatlara xüsusi diqqət yetirilməlidir, o cümlədən, intellektual sahibkarlığın inkişaf etdirilməsinə üstünlüklər verilməlidir. Əsas tədbirlərdən biri kimi dövlətin kredit siyasətini elm müəssisələrinin /təşəbbüskar layihə müəlliflərinin/ elmi nəticələrini özlərinin tətbiq etməsinə imkan verə biləcək istiqamətlərə yönəltmək lazımdır. Bizim şəraitdə bazar iqtisadiyyatının bu yolla inkişaf etdirilməsinə üstünlük verilməsi zərurəti, başqa sözlə, bizdə bazar iqtisadiyyatına keçidin standart modellərdən fərqlənməsinin səbəbi, əsasən, bizim sosialist istehsal münasibətlərindən geriyə dönməyimizlə, eyni zamanda, müəyyən gücü olan hazır elm potensialının olması ilə əlaqədardır. Bütün bunlar bizə bazar iqtisadiyyatına keçidə inam, dünya bazarında layiqli yer tutmağa imkan verər.

2.İntellektual sahibkarlığın inkişaf etdirilməsi, eləcə də istehsalın çevikliyinin təmin olunması üçün dövlətin elm siyasətinin əsasında patent-lisenziya siyasəti durmalıdır ki, texnika və texnologiyaların daima yeniləşməsi ilə yanaşı, elmi-texniki tədqiqatların start vəziyyəti həmişə dünya üzrə son patentlərin nəticələri ilə müqayisə edilsin. Belə ki, hər bir tədqiqatçı əvvəlcədən bilməlidir ki, uyğun beynəlxalq Konvensiyalara dövlət səviyyəsində qoşulduğumuzdan, əgər onun əldə etmək istədiyi elmi nəticələr xarici müəlliflər tərəfindən respublikamızda patentlənmişsə, onda onun bu nəticələri respublikamızın özündə belə qanuni yolla tətbiq etmək hüququ olmayacaqdır, o bu imkandan məhrumdur, alınan nəticələrin praktik əhəmiyyəti olmayacaq, vaxtı və zəhməti hədər gedəcək, faydasız olacaq. Bu isə bazar iqtisadiyyatının tələblərinə cavab vermir.

3.Bazar iqtisadiyyatına xas olan cəhətlərdən biri sahibkarların bir qisminin–işini bazar iqtisadiyyatının tələblərinə uyğun qura bilməyənlərin mütləq iflasa uğramasının ehtimalının yüksək olmasıdır. Sahibkarların başının üstündə daim fırlanan bu qorxu istehsalçı sahibkarı elm adamlarına yaxınlaşmağa, onlarla iş birliyi yaratmağa məcbur edir. Bu isə nəticədə ölkədə istehsalın daima yeniləşməsinə, keyfiyyətli məhsul istehsalının artmasına, cəmiyyətin ümum rifah halının yaxşılaşmasına səbəb olur.

4.Müzakirə olunan məsələ ilə əlaqədar olaraq, onu da demək lazım gəlir ki, Azərbaycanda həllini gözləyən ən vacib məsələlərdən biri, yeni iqtisadi münasibətlər və onların necə formalaşmasından ibarətdir, o cümlədən:

–Mülkiyyət formalarına münasibət bildirilməlidir;

–Hansı sahələrdə ictimai mülkiyyət forması dərhal və ya müəyyən müddətdə aradan qaldırılmalıdır; bunların fəaliyyət mexanizmi necə olmalıdır;

–Özəl mülkiyyət forması hansı sahələrdə və necə yaradılır;

–Dövlət mülkiyyət formaları hansı sahələri əhatə edir və fəaliyyət mexanizmi necə olacaqdır;

–Hansı yeni mülkiyyət formalarına icazə verilir.

Göründüyü kimi, bazar iqtisadi münasibətlərinə keçidlə mülkiyyət formaları məhdudlaşmamalı, o cümlədən, ictimai mülkiyyət forması da rədd edilməməlidir. Elə bu səbəbdən, bazar iqtisadiyyatının məsuliyyətini hiss edən azad təşəbbüskarlıq tələbini /prinsipini/ nəzərə alaraq, AFR-in dövlət qanununda mülkiyyətin forması göstərilməmişdir.

Mülkiyyət formalarından hansına üstünlük verilməsi, həmin dövrdə, hər bir mülkiyyət obyektinin effektivliyindən asılı olmalıdır. Nəzərə alınmalıdır ki, hər bir fəaliyyət sahəsində müasir texnoloji təminat, uyğun təşkilat və kadr təminatı imkanları daxil, istehsal və kapitalın bir yerə toplanmasının optimal qiymələri mövcuddur ki, bundan kənara çıxanda iqtisadi səmərəliliyin aşağı düşməsi baş verir. Odur ki, həm mərkəzləşdirmədə /kollektivləşdirmədə, birləşdirmədə/, həm də mülkiyyətin xırdalanmasında səylərin çoxluğu, effektivliyin

aşağı düşməsinə səbəb olur. İstər sovet dövlətinin ilk illərində – varlı insanlarımızın təsərrüfatlarının yoxsul insanlara paylandığı dövrdə, istərsə də sonradan xırdalaşmış və bərbad hala düşmüş kəndli təsərrüfatlarının əsasında kollektivləşmə siyasətini həyata keçirərkən, buna fikir verilmədi. İndi isə, əfsuslar olsun ki, kollektiv təsərrüfatlar ləğv olunarkən, buna /bolşevikcəsinə/ fikir verilmədi.

5.Xüsusi /və ya başqa/ mülkiyyət formalarını yaradarkən ədalətin öz yerini tapması üçün, özəl sektorun /eləcə də dövlət sektorunun/ tez bir zamanda formalaşması və inkişafı naminə elə mexanizmlər tapılmalıdır ki, sovet dövründə adamlarımızın maddi imkanlarına görə süni yolla /rüşvət və oğurluqla/ təbəqələşməsi nəzərə alınsın, maddi imkanlıdan əvvəl, bacarıqlı insanlarımızın sahibkar olmalarına real imkan və şərait yaradılsın. Odur ki, intellektual sahibkarlığın inkişaf tapması önə çəkilməli, hətta, intellektual sahibkarlığın inkişafına hərtərəfli yardımlar edilməlidir, başqa sözlə bazar iqtisadiyyatı intellektual sahibkarlıqla paralel inkişaf etdirilməlidir. Onlar ayrı-ayrı mövcud ola bilməzlər.

Qeyd etməliyik ki, dünya ölkələrində intellektual mülkiyyət müxtəlif formalarda yaradılır. Məsələn, ABŞ-da, Yaponiyada, və s. ölkələrdə biznes xarakterli müxtəlif kiçik tədqiqat müəssisələri fəaliyyət göstərirlər. Bunların bir qismi ixtiradan başlamış yeni məhsulların kommersiya satışını da əhatə edən bütün mərhələlərdə iştirak edirlər. Başqa bir qismi sırf elmi-tədqiqat işləri ilə və ya elmi-texniki nəticələri istehsalata tətbiq etməklə məşğul olurlar. Bunlar marketinqlər, injinerinqlər, "Nou-Hau"lar, vençur müəssisələri adı altında fəaliyyət göstərirlər.

6.Dünya təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçən ölkələrdə iqtisadiyyatın bütün sahələrində yaranan qeyri-dövlət strukturları arasında bazar uğrunda kəskin rəqabətin getməsi ilə yanaşı, onlar, özlərini iflasdan qorumaq məqsədilə, müxtəlif formalarda birləşməyə məcbur olurlar. Bu elmi-tədqiqat işlərini aparan müəssisələrə daha çox xasdır. Bu əlaqələrə bazar iqtisadiyyatına keçid dövründə daha çox ehtiyac duyulur. Ona görə də biz belə hesab edirik ki, respublikamızda intellektual sahibkarlığın, elm-istehsal əlaqələrinin və eləcə də onunla bağlı bir-sıra başqa işlərin yerinə yetirilməsinə xidmət etməyi qarşısına məqsəd qoyan

qeyri-dövlət qurumlarının yaradılmasına böyük ehtiyac vardır.

Sonda, açıq bazar iqtisadiyyatı şəraitində elmi fəaliyyətin çox mühüm olduğunu bir daha vurğulamaq üçün, qeyd etmək istəyirik ki, bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olan azad rəqabət, başqa sahələrə nəzərən elmi fəaliyyət sahəsində özünü daha qabarıq şəkildə göstərir /əslində bu rəqabət, demək olar ki, elə elmi fəaliyyət sahəsindəki rəqabətdir/.

Nəhayət, bazar iqtisadiyyatı alqı-satqı prosesini, başqa sözlə, pul qazanmağı və xərcləməyi də öz qanunlarına tabe etdirdiyindən bu işlərin özləri də elmi xarakter almalıdır. Ona görə də elmi mövzuların maliyyələşdirilməsinə elmi yanaşma olmalıdır. Bu da elmi fəaliyyətin marketinqində və vauçer müəssisələrinin yaradılmasında özünü tapır.

Bazar iqtisadiyyatında intellektual sahibkarların yeri. Dünya təcrübəsi göstərir ki, hər bir ölkənin iqtisadi yüksəlişi onun bazar iqtisadiyyatına keçidinin uğur dərəcəsi ilə təmin olunur. Bu uğurda intellektual sahibkarların xüsusi yeri vardır. Belə ki, bazar iqtisadiyyatı elmi-texniki tərəqqi ilə qarşılıqlı əlaqədə - vəhdətdə inkişaf edir: əgər bazar iqtisadiyyatına keçid elmi-texniki tərəqqiyə söykənmirsə, həmin ölkənin iqtisadiyyatı tam iflasa məhkumdur. Eləcə də elmi-texniki tərəqqinin özü bazar iqtisadi münasibətləri olmadan lazım olan sürət və səviyyədə inkişaf edə bilmir.

Bazar iqtisadiyyatına keçidlə bağlı, mövcud fəaliyyət sahələrinin bir çoxunda həm dövlət, həm də özəl sektorlar kəskin deformasiyalara uğrayırlar. Nəticədə bir çox vəzifələrindən imtina edən yeni tipli dövlət sektoru ilə yanaşı, bu vəzifələri öz üzərinə götürən müxtəlif mülkiyyət formalı – təşəbbüskarlıq və məsuliyyətə söykənən yeni tipli özəl sektor ortaya çıxır və bu özünü elmi fəaliyyət sahəsində daha qabarıq şəkildə göstərir. Dövlət, əsasən, strateji əhəmiyyətli elmi-texniki işlərin aparılmasına rəhbərlik edir. İqtisadiyyatın digər sahələrində isə dövlət, özünün maliyyə vəsaitləri ilə sifarişçi kimi çıxış etməklə, özəl sektorda elmi fəaliyyətin - intellektual sahibkarlığın yaranmasına təkan verir, onu formalaşdırır və istiqamətləndirir. Eyni zamanda, özəl sektorun özünün maliyyə vəsaitlərinin elmi istiqamətlərə yönəlməsinə imkan yaradır.

Bu səbəbdən bazar iqtisadiyyatı şəraitində elmi fəaliyyətlə bağlı işlərin böyük bir hissəsi özəl sektorda yerinə yetirilir. Məsələn, 1970-ci il məlumatına əsasən Yaponiyada özəl sektorda 12 mindən yuxarı firma elm sahəsində fəaliyyət göstərmişdir və bu firmalar bir çox sahələrdə dövlət elm müəssisələrindən artıq həcmdə işlərə sahib olmuşlar. Bu hal Qərbi Avropanın inkişaf etmiş ölkələrində də özünə yer edə bilmişdir. Nəticədə bu ölkələrdə bazar iqtisadiyyatının əsas və sərt tələblərindən olan açıq rəqabətin maneəsiz fəaliyyət göstərməsi təmin olunmuşdur. Məlumdur ki, açıq rəqabətdə elmi-texniki tərəqqiyə nail olan sahibkarlar qalib gəlirlər. İşini bazarın tələblərinə uyğun qura bilməyənlər mütləq iflasa uğrayırlar.

Sahibkarların başının üstündə daima fırlanan bu qorxu istehsalçı sahibkarları elm adamlarına yaxınlaşmağa, onlarla iş birliyi qurmağa məcbur edir, nəticədə istehsal durmadan artır.

Odur ki, bu gün bazar iqtisadiyyatına keçməyi qərarlaşdırmış Azərbaycanda özəl sektorda elmi fəaliyyətin təşkili, istiqamətləndirilməsi, əlaqələndirilməsi, bu sahədə də sahibkarlığın formalaşması onların hüquqlarının müdafiə olunması və inkişafı kimi vacib işlər öz həllini tapmalıdır.

Bunun üçün, ən əvvəl, özəl sektorda təşkilatlanma məsələsi olaraq, aşağıdakı işlərin yerinə yetirilməsi böyük əhəmiyyət kəsb edir:

1.Respublikada ümumi islahatlar arasında elmi fəaliyyət sahəsində islahatlara xüsusi diqqət yetirilməlidir. Özəl elmi fəaliyyətin əhatə dairəsi müəyyənləşdirilməlidir.

2.Özəl sektorda elmi fəaliyyət sahəsindəki problemlərin vaxtında yerinə yetirilməsinə xidmət və yardım edən, dövlətin kredit imkanlarından istifadə etmək səlahiyyət və imkanı olan qeyri-dövlət qurumları Azərbaycanda da yaradılmalıdır və onlara fəaliyyət göstərmələri üçün kömək olunmalıdır.

3.Elmi fəaliyyət sahəsində sahibkarlığın formalaşması yolları, yəni bu sahədə hansı özəl müəssisələrin və necə yaradılması həllini tapmalıdır.

2.4. İxtiraların sənayedə tətbiqində xırda tədqiqat biznesinin rolu

Dünya xalqlarının qida menyusuna diqqət yetirsək görərik ki, menyuların müxtəliflikləri çoxluğunda ümumi olan – hamısında rast gəlinən bir qida məhsulu var, bu da çörəkdir.

İnkişaf etmiş ölkələrin iqtisadiyyatına fikir versək görərik ki, hər ölkənin özünə məxsus iqtisadi sahələr çoxluğu vardır və bu çoxluqda bütün sahələr üçün çörək funksiyasını yerinə yetirən elmi fəaliyyət sahəsi mövcuddur.

Elmi fəaliyyət sahəsinin təsirinə məruz qalmayan iqtisadi sahənin inkişaf etməsi qeyri-mümkündür. Bu qaçılmaz həqiqətdir. Respublikada iqtisadiyyatın geri qalmasında bu faktorun rolu lazımınca qiymətləndirilməlidir. İstər dövlət, istərsə də sahibkarlar tərəfindən elmə münasibətin qənaətbəxş olmaması bu gün hər addımda hiss olunur.

Elmi fəaliyyəti bazarın tələbinə uyğunlaşdırmadan indiki üsul və sürətlə bazar iqtisadiyyatına keçən yeni müstəqil dövlətləri batan gəmidən özünü, xilasedici döşlüyü geyinmədən dənizə atan sərnişinə bənzəri var.

Qərbi Avropada elm-istehsal arası əlaqələrin vəziyyəti haqqında. Qərbdə, xüsusilə ABŞ-da, yuxarıda deyilənlərin tam əksinə olaraq, elmi fəaliyyət hərtərəfli istehsalata bağlanılır, misal olaraq, İntellektual Mülkiyyət (İM) ABŞ-ın nisbi üstünlüyü ideyasının-konsepsiyasının mühüm elementinə çevrilmişdir. Bu konsepsiyaya görə ölkə mallar və xidmətlər arasında ən az xərclə istehsal edə bildiklərinin istehsalında və ixracında ixtisaslaşmalıdır. Bu səbəbdəndir ki, bu gün İM kateqoriyasına daxil olan xidmət etmə və məhsul istehsalı ilə məşğul olan Amerika qurumları dünya bazarında ən çox rəqabət qabiliyyətindədirlər. Fəaliyyətində müəlliflik hüququndan istifadə edən biznes dairələri iqtisadiyyatın digər sahələrinə nəzərən iki dəfə sürətlə inkişaf edirlər. Elə bunun nəticəsidir ki, 1982-ci ildə ABŞ-da təkcə əczaçılıq məhsullarının eksportu 10 milyarddan 28 milyard dollara qədər yüksəlmişdir [11].

İndiki dövrdə istehsal qüvvələri aramsız fəaliyyət göstərə bilmə-

ləri üçün yeniliyi qəbul etməklə öz texniki və texnoloji quruluşlarını ayaq üstü dəyişmək zorundadırlar. Lakin iri sənaye istehsal sahələrində əsas kapitalın yeniləşməsi çox ağır prosesdir. Bununla belə elmi-texniki tərəqqi (e.t.t.) sürətləndikcə, sənaye istehsalının ölçüsü genişləndikcə və onun e.t.t. səviyyəsi yüksəldikcə, yeni texnika və texnologiya nailiyyətlərinin yaradılması və tətbiqi zərurətə çevrilir.

Sənaye istehsal sahələrində yeniliklərin tətbiqinin həcminin artırılması, hətta onun öz fəaliyyətini yeni səviyyədə davam etdirə bilməsi cəhətdən də vacibdir. Odur ki, hər bir ölkədə elmi-texniki inqilabın sürətlə dəyişən tələblərinə cavab verən yeni tədbirlər işlənib hazırlanmalı və təxirə salınmadan, aramsız həyata keçirilməlidir.

Son onilliklərdə ABŞ və bir çox kapitalist ölkələrinin iri korporasiyalarında elm resurslarının yüksək konsentrasiyası yaranmışdır. Elmi tədqiqatların hesabına gəlirini artırmağa çalışan kompaniyalarda yaranan bu hal, elmi-texniki yeniliklərin istehsalata nisbi tətbiqini azaltmaqla yanaşı, elmin özünün inkişafına da mənfi təsir göstərirdi. Məsələn, 1978-ci ildə «General-motors» kampaniyası 865 patent qeydiyyatdan keçirmişdir, fəaliyyəti müddətində 50.000-ə yaxın patentin sahibi olmuşdur ki, bunların üçdən biri öz təsir müddətini həmişə saxlayır. Bu patentlərin çox böyük hissəsi kampaniyanın müəssisələrində bu və ya digər səbəblər üzündən tətbiqini tapmadığından, kampaniyaya fayda gətirmədən təsir müddətini başa vurmağı gözləməli olmuşdur.

Ümumiyyətlə, ABŞ patent və ticarət markaları idarəsində 1981-ci ildə 100,9 min, 1982-ci ildə isə 124,8 min patent ərizəsi qeydiyyata götürülüb. Bu patentlərin böyük bir hissəsi istehsalata gedib çatmadan təsir ömrünü başa vurub.

Elmi-texniki yeniliklərin tətbiqində sanki «böhran» baş verir. Bu «böhran»ın bolluqdan irəli gəldiyini nəzərə almaq, onu, tətbiqin arzu olunan sürətə uyğun olmadığı mənasında başa düşməyimiz düzgün olar. Bu «tətbiq böhranın»dan çıxmaq yolunu ABŞ və digər kapitalist ölkələri yeni tipli «kiçik müəssisələr» və «xırda tədqiqat biznesi» yaratmaqda tapmışlar. /Bu tip müəssisələrin yaradılması həm də yuxarıda deyildiyi kimi yığımın sonsuz artırılmasının səmərəsiz olmasından irəli gəlir/. Belə ki, bu yolla sənaye monopoliyası və dövlət idarələri

istehsal və elm fəaliyyətlərinin strukturunu dəyişmək imkanı əldə etmiş, əməyin kooperasiyası və bölgüsünün yeni formalarını yaratmışlar, elmin istehsalatla daha sıx birləşməsinə səbəb ola biləcək maliyyə stimullarını və təşkilatı işlərini genişləndirmişlər. Nəticədə, kooperasiyalarda əldə olunan elmi-texniki nəticələr, korporasiyaların qapalı sistemlərini aşaraq, daha geniş sahələri əhatə etməyə başlamışdır.

70-ci illərin sonu — 80-cı illərin əvvəlləri ABŞ-da elmi-tədqiqat sahəsində sahibkarlığın sürətlə artması ilə qeyd olunub. Özü də bu elmi-texniki tərəqqinin ən həlledici istiqamətlərində baş verirdi. Bu dəyişikliklərin mərkəzində yüksək texnikaya malik kiçik müəssisələr və ya elmi-tədqiqat firmaları dururdular.

Kapitalist ölkələrində elm-istehsalat münasibətləri müxtəlif formalarda baş verdiyindən elmin istehsalatla əlaqələri də bir qədər müxtəlif ola bilir. Xırda tədqiqat biznesini (XTB) əmələ gətirən elementlərin müxtəlifliyi şəraitində, onun aşağıdakı beş qrupu ən əhəmiyyətlisi sayılır [10]:

1.Elmi-texniki yeniliklərin sənayedə mənimsənilməsi və kommersiya realizasiyası üçün vençur kapitalı adlanan (yəni risklə bağlı) vəsaitin ixtiraçılar tərəfindən xırda tətbiq firmaları;

2.Dövlət idarələrinin universitetlərlə, sənaye korporasiyaları, gəlirsiz tədqiqat institutları ilə bağladıqları müqavilələrin yerinə yetirilməsi zamanı ortaya çıxacaq kənar elmi-texniki nəticələri reallaşdıran xırda firmalar - spinof firmaları;

3.Proqram-məqsədli Elmi Tədqiqat Texnoloji Konstruktor İşlənmələrinə /ETTKİ/ xidmət sahəsi üzrə kiçik firmalar;

4.Xırda yaradıcı qruplar və ya layihə briqadaları;

5.İdeyalarla (ixtiralarla) çıxış edən fərdi mütəxəssislər.

Xırda tədqiqat biznesin ayrı-ayrı qrupları bir-birindən əsaslı fərqlənirlər. Onlar ETTKİ sahəsində müxtəlif rolları yerinə yetirir və e.t.t-yə özlərinin spesifik töhfələrini verirlər.

Bütün XTB-lər üçün ümumi olan, onların hamısının ETTKİ ilə bağlı olmaları, elmi-texniki yenilikləri sənaye və kommersiya baxımından mənimsəmələri, eləcə də elm-istehsalat proseslərinin müxtəlif mərhələlərində xidmət göstərmələridir. Bu firmaları ETTKİ-nə aidatı olmayan başqa xırda

biznesdən fərqləndirə bilmək üçün onlar XTB ilə işarə olunurlar.

Elm-istehsalat proseslərində XTB-lərin rolunun artması heç də iri sənaye korporasiyalarının ikinci plana keçirilməsi demək deyildir. Əksinə, onlar nəinki öz mövqelərini saxlayırlar, eyni zamanda XTB-nin elm-potensialından istifadə etməklə özlərini daha da gücləndirirlər. Bütün bunlar, dövlət idarələrinin, korporasiyaların, universitet və müstəqil tədqiqat institutlarının, qeyri-formal yaradıcı qrupların və sadəcə olaraq, ayrı-ayrı adamların ETTKİ sahəsində səylərini birləşdirməyə imkan verən təşkilati yolla və iqtisadi mexanizmlərin köməkliyi ilə əldə olunur. Nəzərə almaq lazımdır ki, ancaq elm-istehsalat proseslərinin müxtəlif iştirakçıları arasında funksional qarşılıqlı əlaqə olduqda, XTB fəaliyyət göstərə bilir. XTB fəaliyyətini öyrənməklə e.t.t-nin evolyusiya mexanizmini öyrənmək olur.

Yeniliklərin yaradılmasında, yeni elm tutumlu məhsulun sənayedə mənimsənilməsi və kommersiyalaşdırılmasında XTB rolunun artması ABŞ-dan başqa digər kapitalist ölkələri üçün də xarakterikdir.

Azərbaycanda elm-istehsalat əlaqələrinin vəziyyəti haqqında. Bazar iqtisadiyyatı (b/i) elmi fəaliyyəti mütləq mənada ön plana çəkir. Özü də elmi fəaliyyətin tədqiqat, təcrübə üçün nümunələrin hazırlanması və elmi nəticələrin tətbiqi olmaqla, bütün mərhələlərinə eyni əhəmiyyət verilməsini tələb edir. Elmin sonuncu, tətbiqlə bağlı mərhələsini həlledici yekun mərhələ sayır, əks halda, elmi fəaliyyət əsl mənasını itirmiş olur. Eləcə də elmi fəaliyyət ancaq sonuncu mərhələsinə çatmaqla, yeni inkişaf səviyyəsinə qalxmaq imkanı əldə edir.

Bu deyilənlər qapalı Sovet (sosialist) sistemindən çıxıb, yeni yaranmış müstəqil dövlətlərə xüsusilə aiddir.

Məlumdur ki, elmi-texniki tərəqqiyə təsir edən faktorlar sırasına, əsasən, maliyyə vəsaitlərinin ümumi miqdarını, onun paylanmasını, onlardan səmərəli istifadə olunmasını, işləyən istehsal vasitələrinin texniki-iqtisadi səviyyəsini və planların təşkilini aid edirlər.

Bəs Azərbaycanda bu məsələyə münasibət necə formalaşmışdır?

1.Sovet dövründə Azərbaycanda elmin vəziyyəti, ən əvvəl, elmə buraxılan vəsaitin azlığı ilə xarakterizə olunurdu. Həm büdcədən, həm də bütövlükdə elmə ayrılan vəsaitin miqdarına görə Azərbaycan ittifaq

respublikaları arasında son yerlərdən birini tuturdu və ittifaq səviyyəsindən, demək olar ki, altı dəfə geri qalırdı [12].

Bununla belə, hər il bu və ya digər şəkildə elmə ayrılan vəsaitin böyük bir hissəsi istifadə olunmadan ilin sonuna yaxın büdcəyə qaytarılırdı və bu məbləği (qəribə də görünsə, dövlət büdcəsinin digər maddələri üzrə xərclənməyən məbləğlə birlikdə) Moskva tərəfindən dərhal digər müttəfiq respublikalar /əsasən, Gürcüstan və Ermənistan SSR/ arasında bölüşdürülürdü [13].



Elmi fəaliyyətin mərhələləri

Şəkil 1. Elmi fəaliyyətin mərhələləri üzrə maliyyə vəsaitinin bölüşdürülməsi

2.Azərbaycanda elmin inkişafı, əsasən elm müəssisələrinin və bu müəssisələrdə çalışan elmi dərəcəli adamların sayı, çap olunan elmi əsərlərin miqdarı ilə ifadə olunurdu. Elmi dərəcəlilərin sayına görə Azərbaycan dünyada ön sırada olsa da [14], İttifaqda olduğu kimi, onunla «elmdə işçi elita» arasında böyük fərq yaranmışdı.

3.Azərbaycanda elmin vəziyyəti ona ayrılan vəsaitin elmi fəaliyyətin mərhələləri üzrə düzgün paylanmamasının nəticəsi olaraq formalaşırdı və eləcə də onlardan səmərəli istifadə olunmamasından irəli gəlirdi.

Şəkil 1-də elmi fəaliyyətə ayrılan vəsaitin onun mərhələləri üzrə bölüşdürül-məsi nəzəri olaraq müxtəlif hallar üçün göstərilmişdir.

Şəkildəki 1-ci əyri nəzəri əyri olub, başlanmış bütün elmi-tədqiqatların uğurlu olması - maliyyələşdirilməsi səviyyəsinə uyğun olaraq hamısının istehsalata çatması ideal halını əks elətdirir. Ondan aşağıda, lakin ona paralel xətlər (1^1, 1^2, 1^3 və s.) ayrı-ayrı sahələrdə aparılan tədqiqat işlərini təmsil edirlər.

Şəkildəki 2-ci əyri (absis oxuna paralel), təxminən on tədqiqat işindən birinin təcrübi nümunələr ilə başa çatması, yüzündən birinin (təcrübi nümunələrin onundan birinin) istehsalata çatması üçün tələb olunan maliyyələşmə halına uyğundur.

Şəkildə göstərilən 3-cü əyri isə maliyələşmənin kəskin azalması nəticəsində başlanan tədqiqat işlərinin yüzdə birindən də azının istehsalata çatdığını göstərir.

Göründüyü kimi elmi fəaliyyətin effektivliyi ayrılan (ilkin) vəsaitin miqdarı ilə yanaşı, onun mərhələlər üzrə necə paylanmasından çox asılıdır. 2-ci əyridən yuxarıya uyğun hallar daha effektiv sayılır. Deməli elmi fəaliyyətin effektivliyi onun yeni istehsal sahələri yaratması-elmi fəaliyyətin düzgün istiqamətlənməsi ilə əldə olunur.

Məlumdur ki, keçmiş Sovet dövlətində elmi fəaliyyət, əsasən, fundamental və tətbiqi tədqiqatlar və texnoloji-konstruktor işlənmələrindən ibarət olmaqla, bütövlükdə dövlət sektorunda toplanmışdı və bu məqsəd üçün dövlətin maliyyə vəsaiti elmin inkişaf etdirilməsinin əsasını təşkil etmişdir. Bu vəsaitin çox böyük hissəsi fundamental və tətbiqi tədqiqat işlərinin maliyyələşdirilməsinə sərf olunmuşdur.

Şəkil 2-də elmə sərf olunan vəsaitin e.f-tin sovet dövründə qəbul olunmuş mərhələləri üzrə bölüşdürülməsi göstərilmişdir. Göründüyü kimi, istər İttifaqda (əyri 1), istərsə Azərbaycanda (əyri 2) elmi yeniliklərin təcrübi nümunələrinin hazırlanması mərhələsinə ayrılan vəsait tələb olunandan (qırıq xətt) xeyli aşağı olmuşdur. Bu o deməkdir ki, İttifaqda (hərbi sahəni çıxmaqla), xüsusilə Azərbaycanda ancaq akademik elm olub, elmi-texniki yeniliklərin istehsalatda tətbiqinə diqqət çox aşağı səviyyədə olub. Bu isə o deməkdir ki, Sovetlər dövründə elmi fəaliyyət praktikaya deyil, əsasən fundamental elmə xidmət etməklə inkişaf etmişdir. Başqa sözlə, bu elm-istehsalat asılılığı (əlaqəsi) praktiki olaraq, hiss olunmayacaq qədər zəif olmuşdur. Özü də bu zəifliyin əsası hələ elmi

fəaliyyəti mərhələlərə bölməyə başlayanda qoyulmuşdur, yəni elmi-texniki nəticələrin təcrübi-konstruktor sənədlərini hazırlayandan sonra onun istehsalata tətbiqi mərhələsi elmi fəaliyyətə aid edilməmişdir (Sovet dövründə elmi-texniki yeniliklərin istehsalata tətbiqinə ayrılan vəsait haqda məlumat belə yoxdur). Bu səbəbdən, göründüyü kimi bu mərhələ şəkil 2-də öz əksini tapmamışdır. Bütün bunlar, təbii ki, elm-istehsalat halqasının qapanmasına apara bilməzdi, bu isə onu bir-sıra çətinliklərlə üz-üzə qoyurdu. Əks halda, yəni elmi-texniki yeniliklərin istehsalata tətbiqinə lazımi diqqət yetirilirdisə, onda belə qənaətə gəlmək olar ki, elmi fəaliyyət ilk mərhələdəcə keyfiyyətsiz olmuşdur. Əslində isə çox faktlar göstərmək olar ki, bu belə deyildir. Bunu nəzərə alaraq, hesab edirik ki, elmi fəaliyyət, fundamental və tətbiqi olmaqla elmi-tədqiqat, bu tədqiqatlar əsasında təcrübi nümunələrin hazırlanması üzrə işlənmələr və bu təcrübi nümunələrdən bazarın tələbinə cavab verənlərin istehsalının təşkili mərhələlərinə bölünməlidir və bu elmi fəaliyyətə ayrılan maliyyə vəsaitinin (yığımın) bölgüsündə də öz əksini tapmalıdır.



Şəkil 2. Elmi fəaliyyətin mərhələləri üzrə maliyyələşdirilməsinin vəziyyəti

Təcrübə göstərir ki, istehsal sahələrində maliyyə vəsaitlərinin yığımının effektivliyi elmi-texniki yeniliklərdən necə istifadə olunmasından asılıdır və yığımın sonsuz artırılması heç cürə özünü doğrultmur (şəkil 3).



Şəkil 3. İstehsalın yığımdan asılılığı
(Şəkildə hər bir əyri ayrı-ayrı texnologiyaları xarakterizə edir).

İstehsalın (dəyərinin) miqdarının yığıma olan nisbəti texnologiyanın effektiv liyinin miqdar göstəricisidir. Bu nisbətin yığımdan asılılığı əyrisində (şəkil 4) bu hal daha açıq görünür-istehsal elə texnologiyaya söykənməlidir ki, əldə olunan məhsulun dəyəri bu məqsədlə sərf olunmuş vəsaitdən (yığımdan) mümkün qədər çox olsun (təbii ki, bunun üçün ilk növbədə məhsul bazarda rəqabət qabiliyyətli olmalıdır).



Şəkil 4.İstehsalın effektivliyinin yığımdan asılılığı

Unutmayaq ki, istehsalla yığımın bu münasibəti uyğun lisenziyaların alınıb-satılmasına da təsir edir. Odur ki, Respublikamızda da elmi fəaliyyətin bazar iqtisadiyyatının tələbinə uyğunlaşdırılması və kommersiyalaşdırılmasının yolları müəyyənləşdirilməlidir. Şəkildəki BC baxılan texnologiya üzrə yığımın effektivlik oblastıdır.

Azərbaycanda elm ilə istehsalat arası əlaqələrin bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılması. Azərbaycan Respublikasında elmi fəaliyyəti bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq üçün görülməli olan tədbirləri müəyyənləşdirməkdən ötrü biz, digər fəaliyyət sahələrində olduğu kimi, başlanğıc və növbəti addım olaraq, keçib gəldiyimiz sovet dövründə bu məsələnin necə həll olunduğuna və eləcə də inkişaf etmiş ölkələrdə, yəni keçmək istədiyimiz formasiyada bu məsələnin necə və hansı səviyyədə həll olunduğuna diqqət yetirməliyik. Yuxarıda deyildiyi kimi elmi fəaliyyət sovet sosialist iqtisadi sisteminin tərkib hissəsi olaraq, bütövlükdə dövlət inhisarında idi və ancaq son dövrlərdə təsərrüfat hesablı elmi fəaliyyətə də icazə verilmişdi. İqtisadiyyatın sərt planlaşdırılması elmin inkişafında da öz güclü mənfi təsirini göstərirdi. Elə mühit formalaşmışdır ki, cəmiyyətin idarə olunmasının optimal yollarını müəyyənləşdirməyə borclu olan elmin özünün fəaliyyəti məhdud çərçivəyə salınmışdı. Elmin istehsalata çıxışı lazımınca qiymətləndirilmirdi və stimullaşdırılmırdı. Elm, yuxarıda da deyildiyi kimi, davamlı olaraq akademik çərçivədə qapanıb qalmışdı. Son dövrlərdə elmi fəaliyyəti istehsala yaxınlaşdırmaq məqsədilə aparılmış elmi tədqiqatlar əsasında əldə olunmuş elmi-texniki yeniliklərin təcrübi nümunələrinin hazırlanması üçün tələb olunan işçi konstruktor sənədləri Elm-İstehsalat Komplekslərində həyata keçirilirdi və bu iş, elmi-texniki nəticələrin istehsalata hazırlanmasında əsas baza sayılırdı. Bununla belə, son məhsul yenə də elmi-tədqiqat institutunun ixtiyarında qalmaqla, istehsala gedib çatması ehtimalı aşağı olaraq qalırdı. Belə ki, bu sistemdə konstruktor sənədlərini və təcrübə üçün nümunələri hazırlayan konstruktor bürolarının (KB) tədqiqat institutlarına bağlılıqları onu, istehsalat müəssisələrindən ayrı salırdı – məhsullarını institutun sifarişləri əsasında yerinə yetirdiklərindən onu instituta da təhvil verirdilər və hazır məhsul orada da qalırdı. KB və

təcrübə zavodları ancaq institutun sifarişini yerinə yetirməkdə maraqlı və səlahiyyətli olublar. Beləliklə, elmi-tədqiqat nəticələrinin sənaye istehsalına gedib çıxmamaları səbəbləri, onların keyfiyyəti (rəqabət qabiliyyəti) haqda qəti söz deməyə imkan vermirdi.

Bu deyilənləri belə yekunlaşdırmaq olar:

1.Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, elmi fəaliyyətin yenidən qurulmasında, elə etmək lazımdır ki, hesabatları nadir hallarda təcrübi nümunələrlə yekunlaşan elm-tədqiqat işləri ilə yox, əsasən, maddi istehsalla nəticələnən elmi faliyyət öz inkişafını tapa bilsin. Bazar iqtisadiyyatının əsas tələblərindən olan – "dayanan məhv olur" prinsipi bu sahədə də beyinlərə hakim olmalıdır. Elmə diqqətsizliyə bir misal olaraq, 60-cı illərin əvvəllərində ABŞ-ın kosmik texnologiya sahəsində Sovet İttifaqından geri qalmasını göstərə bilərik. Onu da qeyd edək ki, ancaq ABŞ iqtisadi potensialı bu mübarizədən qalib çıxmaq iqtidarında idi. Başqa ölkələr bunun öhdəsindən çox çətin gələ bilərdi.

2.Akademik və tətbiq xarakterli elm müəssisələri ilə sənaye və kənd təsərrüfatı müəssisələri arasında işgüzar əlaqələri genişləndirəcək və ETTKİ-nin hazırlanması ilə məşğul olan özəl XTB müəssisələri yaradılmalıdır. Bu müəssisələri, ilkin olaraq dövlət sektorunda olan Xüsusi Konstruktor Büroları (və ya onlara uyğun büroların) bazasında, özəlləşdirmə yolu ilə həll etmək məqsədə uyğun hesab olunur. Belə olduqda, elmin mərhələlərinə aid müəssisələr arasında yaranacaq münasibətlər mövcud münasibətlərdən kəskin fərqlənər. Burada elm-tədqiqat institutlarının elmi-texniki yenilikləri əks olunan hesabatlarını XTB-nin müqavilə əsasında haqqını ödəməklə əldə etmələri nəzərdə tutulur.

Yuxarıda da qeyd olunduğu kimi mövcud qaydaya əsasən, elmi-texniki nəticələrin istehsalata çatması sonu olmayan bir işə çevrilib. Təklif olunan halda elm müəssisələri elmi fəaliyyətin mərhələlərinə uyğun olaraq bölünür və müstəqilləşirlər. Bütün mərhələlərdə elmi fəaliyyətlər istehsalata yönəlib (aparır) və bu fəaliyyətlərin nəticələrinin əvvəldən axıracan kommersiyalaşdırılmasına əsaslanır. XTB-lər elmi tədqiqat institutlarından /ETİ/ əldə olunmuş və istehsalatın (bazarın) gündəlik və perspektivdə olan tələblərinə uyğun gələn elmi-texniki nəticələrin əks

olunduğu hesabatları razılaşma - haqqını ödəmək yolu ilə alıb, öz məqsədləri üçün istifadə edirlər. Bu halda XTB (eləcə də ETİ) gördüyü işin istehsalatda tətbiq tapmasında bir başa maraqlıdır (yaşaması üçün məhsulunu istehsal müəssisəsinə və ya kiməsə satmağa çalışacaq).

3.Elmi-texniki nəticələrin son hədəfə çatmasına kömək üçün elmi fəaliyyətin hər mərhələsinə aid işlərə ayrılan dövlət vəsaiti, investisiya şəklində dövlətin iqtisadi proqramları nəzərə alınmaqla, ayrı-ayrılıqda, proqramlar üzrə müəyyənləşdirilməlidir.

4.Elmi-texniki yeniliklərin uyğun yerlərdə vaxtında və ardıcıl olaraq, tətbiqini tapa bilməsi şərtlərindən aşağıdakıları göstərmək olar:

4.1.Elmi-texniki nəticələrin öz istehsal sahələrində tətbiq olunmasında maraqlı olan istehsal müəssisələrinin varlığı;

4.2.Elm müəssisələrində və istehsal sahələrinin hər birində tətbiq xarakterli təkliflər paketinin - biznes planların varlığını xüsusilə qeyd etmək lazımdır.

Bunların hamısı Qərb ölkələrində ödənilir;

5.XTB-lər hazırladıqları işçi nümunələri:

1.İstehsal müəssisələri ilə birgə tətbiq edirlər;

2.Təcrübi nümunələrin işçi sənədlərini (istehsal müəssisəsinin daxili elm qurumları və ya texniki şö'bə xətti ilə) istehsal müəssisələrinə satırlar. İstehsal müəssisəsi bu işi ya müstəqil tətbiq edir, ya da kənara satmağı qərarlaşdırır (dünya bazarında bu sahənin vəziyyətini daha yaxşı bildiyindən, bazarı da asanlıqla müəyyənləşdirə bilər).

6.Elm-istehsalat əlaqələri öz inkişafını tapandan sonra dövlət aparatı sanki yeni mahiyyət kəsb etmiş olacaqdır – dövlət elm və istehsalat müəssisələri arasında əlaqəçiyə çevriləcəkdir. Elm-istehsalat zəncirvari prosesi reallaşdıqca istehsalata rəhbərlik bu və ya digər formada elm mütəxəssislərinin nəzarətinə keçəcəkdir. Bu isə dövlətin idarə olunmasında istehsalla bağlı elm adamlarının (alimlərin) xüsusi çəkisinin xeyli artmasına səbəb olacaqdır. Beləliklə dövlət, əsasən, yaradıcı alimlərin iradəsini həyata keçirən işçi orqana çevriləcəkdir.

2.5. Azərbaycan Respublikasında intellektual sahibkarlığın qarışıq (dövlət-özəl) strukturlarının yaradılması yolları haqqında

Məlumdur ki, xüsusilə istehsalla bağlı hər hansı bir məsələ qoyulanda da və həlli üçün təkliflər irəli sürüləndə də, ən əvvəl, maliyyə imkanları nəzərə alınmalıdır. Bu gün respublikamızda elmi fəaliyyətə ayrılan maliyyə vəsaitinin azlığı göz qabağındadır. Bununla belə yuxarıda deyildiyi kimi, əgər bazar iqtisadiyyatına keçiriksə, nəyin bahasına olursa-olsun, elmi fəaliyyətin bütöv şəkildə inkişaf tapmasına nail olmalıyıq. Əks halda, bazar iqtisadiyyatına keçid ölkə iqtisadiyyatını faciələrlə üz-üzə qoyar. Deməli, heç olmasa, respublikanın digər iqtisadi sahələri hesabına olmuş olsa da, daxili imkanlarını səfərbərliyə almaq yolu ilə intellektual sahibkarlığın sürətlə inkişaf etdirilməsi yolları axtarılıb tapılmalıdır.

Belə hesab edirik ki, bunun üçün biz, "sadədən mürəkkəbə" prinsipinə əsaslanaraq, işimizi qurmalıyıq. Başqa sözlə, məsələnin həllinə ardıcıl olaraq, mövcud imkan daxilində mərhələlərlə gedilməlidir. Hesab edirik ki, bunlardan, ilkin olaraq, özəl sektorda hər hansı bir fəaliyyət sahəsində sahibkarlığın formalaşdırılması, istiqamətləndirilməsi və işinin uğurlu təşkili yollarını müəyyən etmək üçün, əvvəlcə, dövlət sektorunun bu fəaliyyət növündə bir sıra dəyişikliklər aparılmalıdır. Məsələn:

1.Dövlətin texniki (texnoloji) elm müəssisələri (institutları) tədricən təsərrüfat hesablı müəssisələrə çevrilməlidir. Onların indiki maliyyələşmə sistemi əsaslı dəyişdirilməlidir.

2.Dövlətin növbəti və perspektiv iqtisadi proqramlarından irəli gələn uyğun dövlət elm proqramları hazırlanmalıdır. Bu elm proqramları, maliyyə cəhətdən dövlət tərəfindən təmin olunmaqla (bəzən kredit formasında) dünya tələblərinə cavab verən fundamental və tətbiqi elmi-tədqiqat, təcrübi-konstruktor sənədlərinin hazırlanması və onların istehsalata tətbiqinə aid işlər əsasında tərtib olunurlar.

3.İstehsalatın yeniləşməsinə xidmət edən proqramlar dövlət, sahələrarası, sahələr, region üzrə və yerli xarakterdə olmaları ilə fərqlənməlidirlər. Dövlət, əsasən, birinci iki proqramın maliyyələşdirilməsində bilavasitə iştirak edir. Digərləri özəl sektor tərəfindən həyata keçirilir.

4.Dövlət, sektordan asılı olmayaraq, fəaliyyətdə olan bütün istehsalat müəssisələrindən, gəlirlərinin müəyyən hissəsini elmi-texniki yeniləşməyə ayırmalarını öz qərarı ilə tələb etməlidir.

5.Dövlət iqtisadi böhranla əlaqədar elm ictimaiyyətinin qorunub saxlanması və inkişafının təmin olunmasına xidmət edən tədbirlər həyata keçirməlidir. O cümlədən, onların xarici ölkələrdə işləməyə getmələri dövlətlərarası elmi əməkdaşlıq müqavilələri ilə həllini tapmalıdır (nizamlamalıdır).

6.Kreditorun (istər bank olsun, istərsə firma, fərd) kreditin xərclənməsinə nəzarət edə bilməsi təmin olunmalıdır. Bu halda krediti verənin özü də məsuliyyət daşıyır. Keçən təcrübələrdən məlumdur ki, əks halda, kreditdən istifadə olunmasında məsuliyyətsizlik artır, onun kənar məqsədlərə istifadə olunmasına imkan yaranır, bu isə sahibkarlığın inkişafına mane olur. Keçmiş bu səhv təcrübə bu günkü riski artırır. Bu gün bunları nəzərə alaraq, riski azaltmaq məqsədilə, kreditorla krediti alan arasında girov müqaviləsi bağlanması nəzərdə tutulmuşdur. Lakin bu müqavilə, innovasiya yönlü layihədən başqa heç nəyi olmayan intellektualların sahibkarlıqla məşğul olmasının qarşısını elə ilk mərhələdə alır. Odur ki, sonuncu halda girov məsələsi dövlət qarantiyası ilə əvəz olunmalıdır.

7.İşgüzar və elm adamları arasında bu günə kimi formalaşmış biganəliyi nəzərə alaraq, bu sahədə dövlətin sərt qanunlarına ehtiyac duyulur. Dövlətin bu müdaxiləsi qeyd olunan biganəliyi aradan qaldırmaqla, məsuliyyət hissini artırmalı, elmi-texniki nəticələrin istehsalata ardıcıl olaraq tətbiq olunmasında hər ikisini maraqlı etməlidir. İşgüzar adamlarımızın maliyyə imkanlarının məhdud olduğunu nəzərə alaraq, ilk əvvəl, onların yerli və region əhəmiyyətli proqramlara yönəlmələri effekt verə bilər. Əlbəttə, dövlətin kredit siyasəti (məsələn, dövlət büdcəsindən başqa, maliyyə imkanlı işgüzar adamların təsis etdikləri fondlar, özəl banklar və s.) bu işin həllinə təkan olar. Xarici investisiyalar regionlar üzrə, sahələr üzrə və sahələr arası və eləcə də bəzi dövlət proqramlarının maliyyələşdirilməsində istifadə oluna bilər.

8. İntellektual sahibkarlığın inkişaf tapa bilməsi üçün dövlətin elm siyasətinin əsasında patent-lisenziya siyasəti durmalıdır. Bu,

texnika və texnologiyaların daima yeniləşməsi ilə yanaşı, elmi-texniki tədqiqatların start vəziyyətini həmişə dünya üzrə son patentlərin nəticələri ilə müqayisə etməyə imkan verir.

Ancaq bu kimi şərtlər ödənəndən sonra elm sahəsində özəl strukturların və intellektual sahibkarlığın uğurlu fəaliyyətlərinin təşkili yolları haqda söhbət gedə bilər.

İnkişaf etmiş ölkələrdə intellektual sahibkarlığın müxtəlif formaları mövcuddur. Məsələn, ABŞ-da, Yaponiyada və s. ölkələrdə biznes xarakterli müxtəlif kiçik tədqiqat müəssisələri fəaliyyət göstərir. Bunların bir qismi ixtiradan başlamış yeni məhsulların kommersiya satışını da əhatə edən bütün mərhələlərdə iştirak edirlər. Başqa bir qismi sırf elmi-tədqiqat işləri ilə və ya elmi-texniki nəticələri istehsalata tətbiq etməklə məşğul olurlar. Bunlar marketinqlər, injineriqlər, "Nou-Hau"lar, vençur müəssisələri adı altında fəaliyyət göstərirlər.

Azərbaycanda bu tip müəssisələrin yaradılmasına gəldikdə, nəzərə almaq lazımdır ki, yuxarıda deyildiyi kimi, dövlət müəyyən elm potensialına malikdir, lakin onu hərəkətə gətirmək üçün tələb olunan maliyyə imkanında deyildir. Özəl sektorun isə müəyyən maliyyə imkanı olsa da, onun da bütövlükdə elm müəssisəsi yaratmağa gücü yoxdur. Odur ki, Azərbaycanda bu gün intellektual sahibkarlığı inkişaf etdirmək üçün:

1.Sırf özəl deyil, qarışıq (dövlət-özəl) strukturların yaradılması məqsədə uyğundur. Hesab edirik ki, bu tip müəssisələr mövcud dövlət elmi müəssisələrinin bazasında yaradılmalıdır. Bu qarışıq strukturlar, əsasən tətbiq xarakterli elmi-tədqiqat işləri, sınaq nümunələrinin və işçi sənədlərinin hazırlanması, onların istehsalata tətbiqi işlərinin təşkili sahələrində ixtisaslaşa bilərlər.

2.Özəl sektordan gələn maliyyə vəsaitləri elm proqramlarının maliyyələşdirilməsinə, bu müəssisələrin laboratoriya və istehsal sahələrinin dünya tələblərinə cavab verən avadanlıq və cihazlarla təmin olunmasına istiqamətləndirilməlidir. Unutmaq olmaz ki, texniki təchizatı zəif olan laboratoriyalarda əldə olunacaq elmi-texniki nəticələrin rəqabət qabiliyyəti də zəif olacaqdır. Eləcə də, elmi-texniki nəticə rəqabət qabiliyyətli olsa da, əgər texniki park zəifdirsə, son məh-

sul rəqabət qabiliyyətli olmayacaqdır. Qeyd etmək lazımdır ki, texnoparkın güclü olması lisenziyalar əsasında yeni texnikanın yaradılması və mükəmməlləşdirilməsi üçün də əsasdır, intellektual sahibkarlığın inkişaf etdirilməsi yollarından biridir.

3.Bu isə öz növbəsində, elmi-texniki informasiyaların vaxtında əldə olunması və araşdırılıb, istifadə olunması üçün analitik mərkəzlərin yaradılmasını ön plana çəkir.

4.Bundan başqa xarici ölkələrdə özünü doğrultmuş vençur tipli müəssisələrin yaradılması da məqsədə uyğundur. Bu cür kiçik müəssisələr, eyni fəaliyyətin maliyyələşdirilməsində - elmi-texniki layihələrin hazırlanması və tətbiqində və ondan gələcək gəlirin faizində maraqlı olan maliyyə sahiblərinin vəsaitlərini toplamaqla iqtisadiyyatın elm tutumlu sahələrində fəaliyyət göstərirlər. Elmi-tədqiqat sahəsində, mühəndis işləmələrinin və yeniliklərinin yaradılması və tətbiqi ilə bilavasitə məşğul olurlar.

5.Elmi fəaliyyətin günün tələbinə uyğun istiqamətlənməsi, onun çevikliyini və rəqabət qabiliyyətini artırmaq məqsədilə, bu sahədə araşdırmalar aparan marketinq tipli müəssisələr (iqtisadiyyatın sahələri üzrə) yaratmaq lazım gəlir.

6.Azərbaycanda intellektual sahibkarlığın inkişaf etdirilməsi tədbirlərindən biri kimi dövlətin kredit siyasətini elm müəssisələrinin, təşəbbüskar layihə sahiblərinin elmi-texniki nəticələrini özlərinin tətbiq etməsinə imkan verə biləcək, başqa sözlə, elm adamlarının (kollektivin) özlərini istehsalçı sahibkara çevirə biləcək istiqamətlərə yönəltməkdə görürük. İntellektual mülkiyyətçilərin istehsalçı sahibkarlara çevrilməsi, Azərbaycanda sosial ədalətin qələbəsi olmaqla bərabər, elmi fəaliyyətin durmadan inkişaf etdirilməsinə real şəraitin yaradılması deməkdir. Bu, Azərbaycanda elmi-texniki tərəqqiyə doğru böyük bir addımın atılmasının əlaməti olardı. Çünki, elmdən gələn bu istehsalçı sahibkarlar elmi fəaliyyəti mütləq layiqincə qiymətləndirə biləcəklər və onun maliyyələşdirilməsində aktiv iştirak etmək onlar üçün həm də mənəvi tələbat olacaqdır. Bu isə elmi fəaliyyətin gələcək inkişafına böyük təkan deməkdir.

2.6. Sənaye mülkiyyətinin kommersiyalaşdırılmasının elmi fəaliyyətə təsiri

Əvvəlcə dünya ölkələrinin sənaye mülkiyyətinin kommersiyalaşdırılması münasibətlərinə diqqət yetirək. Məlumdur ki, elmi-texniki potensialı zəif olan hər bir ölkə özünün texniki tərəqqiyə çatması, iqtisadiyyatın inkişafı ilə bağlı məsələlərini vaxtında və keyfiyyətli həll edə bilməsi üçün müntəzəm olaraq, xarici ölkələrdən sənaye mülkiyyətinə aid patentlərin lisenziyalarını satın alıb, yeni məhsul istehsalını təşkil etməyə cəhd edir. Təbii ki, maliyyə imkanı zəif olan ölkələr bu yolda böyük çətinliklərlə üzləşirlər. Elm potensialına malik olan ölkələrdə bu məsələ bir qədər başqa xarakter alır. Bunlardan bir qisim ölkələr (məsələn, keçmiş Sovet dövləti), xaricdən sənaye mülkiyyəti üzrə lisenziyaları, demək olar ki, almadan, öz daxili imkanları hesabına, elmi-texniki nəticələrin istehsalata tətbiqi ilə iqtisadiyyatlarını irəli aparmağa çalışırlar. Sovet dövlətinin timsalında tarixi təcrübələr göstərdi ki, dünya elmindən öz-özünü təcrid etmək – aktiv elmi-texniki mübadilədən kənarda qalmaq, həmin ölkədə elmin ümumiyyətlə inkişafına pis təsir edir. Elm, istehsalatla bağlı qarşısında duran məsələləri lazım olan səviyyədə həll edə bilmir.

Elm potensialına malik ölkələrin başqa bir qismində isə bəzi lisenziyaların satın alınması ilə yanaşı, ölkədə mövcud olan elm potensialının gücündən asılı olaraq, bu və ya digər elmi-texniki tədqiqatların müstəqil aparılması qərarlaşdırılır. Bu qərarlar, əsasən, lisenziyaların satış qiyməti və uyğun elmi-texniki tədqiqatlara çəkiləcək xərcin nisbi məbləği və istehsal siyasəti ilə müəyyən olunur. Bu imkana malik ölkələrdə iqtisadiyyatın dayanaqlı inkişafının və bu inkişafın etibarlığının əsası olan – elmi-texniki tərəqqinin reallaşması ehtimalı böyük olur. Lisenziyalara olan bu münasibət son on illiklərdə inkişaf etmiş ölkələrdə formalaşmış və intensiv surətdə inkişafını davam etdirməkdədir.

Buna əyani misal olaraq onu göstərə bilərik ki, müharibədən sonra, 1945-ci ildən başlayaraq, Yapon dövləti iqtisadiyyatın müxtəlif

sahələri üzrə böyük miqdarda lisenziyalar əldə edərək, iqtisadiyyatın bir-sıra sahələrində inkişafa nail oldular. Lakin bu mərhələdə elmə vəsaitin az buraxılması nəticəsində onların alimləri və yüksək səviyyəli mühəndisləri Amerikaya və Qərbi Avropaya köçüb getməyə başladılar. Yaponiya hökuməti, vəziyyəti belə gördükdə, təcili surətdə elmin inkişafında yaranmış maliyyə problemlərini həll etməyə, öz imkanlarını istiqamətləndirdi. Axırıncı on illikdə yapon alimlərinin nəticələri göz qabağındadır.

Beləliklə, intellektual mülkiyyətin, onun bir hissəsi olan sənaye mülkiyyətinin kommersiyalaşdırılması, əsasən, satan-mülkiyyətçi tərəfin maliyyə vəsaiti əldə etməsi, alan tərəfin isə yeni istehsal sahəsini yaratması ilə nəticələnir. Eləcə də lisenziyaların alğı-satqısı, həm satan və həm də alan ölkədə onun yaranmasına səbəb olmuş elmi fəaliyyətin özünün yeni mərhələdə inkişafına istiqamətləndirici təsir göstərir. Unutmayaq ki, bu günə kimi heç bir ölkə inkişafına bu yollardan təkcə birinə əsaslanmaqla yüksəlməyib. İnkişaf etmiş ölkələr, bu və ya digərinin üstünlüyü olmaqla, bu yolların hər ikisindən istifadə etmişlər. Onu da qeyd edək ki, hər bir dövlət, ən əvvəl, strateji əhəmiyyətli saydığı elmi istiqamətləri, daxili potensialı hesabına yerinə yetirməyə məcbur olurlar, çünki bu istiqamətlərdə lisenziyalar çox nadir hallarda bazara çıxarılır.

Göründüyü kimi, hər ölkə iqtisadiyyatı qarşısında duran problemləri həll etmək, elmi-texniki tərəqqiyə çatmaq üçün, ən əvvəl, hansı hallarda uyğun sənaye mülkiyyətinə aid patentlərin lisenziyalarını almağın və hansı hallarda elmi-tədqiqat işlərini müstəqil aparmağın məqsədə uyğun olduğunu, vaxtda uduş məsələsini də nəzərə almaqla müəyyənləşdirməlidir.

Məsələnin belə qoyuluşunu – müstəqil elmi-tədqiqat işlərinin aparılmasını və lisenziyaların alınmasını bir-birinə qarşı qoymaq kimi başa düşmək düz olmaz. Əslində belə yanaşmaya onların bir-birini tamamlaması kimi baxılmalıdır, yəni onlar arasında səbəb və nəticə bağlılığı olduğunu, birlikdə spiralvarı inkişaf etdiklərini görməliyik. Bu cür yanaşma bazar iqtisadiyyatının qəti tələbidir – çevik elmi fəaliyyətə söykənmədən bazar iqtisadiyyatına keçən açıq ölkələrin iqtisadiyyatı fəlakətlə üzləşməyə məhkumdur.

Deməli, intellektual mülkiyyətin kommersiyalaşdırılması və lisenziyalaşdırılması yollarının öyrənilməsinin danılmaz böyük əhəmiyyəti vardır.

Bu baxımdan, hesab edirik ki, «Sənaye mülkiyyətinin kommersiyalaşdırılması və lisenziyalaşdırılması» məsələlərinin öyrənilməsinə və tətbiq olunmasına Respublikamızda böyük ehtiyac vardır [15].

Azərbaycan Respublikasında sənaye mülkiyyətinin kommersiyalaşdırılmasının vəziyyəti və perspektivləri. Azərbaycan Respublikasında sənaye mülkiyyətinin yaradılması, lisenziyalaşdırılması və kommersiyalaşdırılması işlərinin vəziyyəti və perspektivliyini öyrənmək üçün, ən əvvəl, keçmiş Sovet dövlətində bu məsələlərə münasibətin necəliyinə daha geniş diqqət yetirmək lazım gəlir.

1.Məlumdur ki, qapalı Sovet (sosialist) iqtisadi sistemində, əsasən, daxili elm potensialının gücünə söykənərək, elmi-texniki nəticələri əldə etmək və onların əsasında iqtisadiyyatın inkişafını planlaşdırmaq siyasəti yeridilirdi. Lakin, inkişafın əsası olan rəqabət özünə yer tapa bilmədiyindən və istehsal müəssisələri sərt planlar əsasında fəaliyyət göstərdiyindən, elmi-texniki nəticələrin yeniləşməsi ləng gedir, onların istehsalata tətbiqi – maddiləşməsi sahəsində ətalət hər yerdə özünü göstərirdi. Bunu, ancaq, müəyyən mənada, hərbi texnikaya aid etmək olmazdı.

2.Diqqəti cəlb edən bir də budur ki, Sovet dövlətində sənaye mülkiyyəti lisenziyalarının alınıb satılmasına nadir hallarda rast gəlmək olardı. Eləcə də xarici ölkələrdən bu və ya digər tərzdə əldə olunan sənaye mülkiyyəti patentlərindəki (eləcə də «nou-hau») elmi-texniki yeniliklərin milli elm potensialına əsaslanaraq, inkişaf etdirilməsi hallarına, yuxarıda qeyd olunan səbəblər üzündən, çox az hallarda rast gəlinirdi. Bunu, əyani olaraq, az da olsa, xarici ölkə lisenziyaları əsasında tikilmiş istehsal müəssisələrinin fəaliyyətini izləməklə görə bilərik – yerli alimlərin iştirakı yox dərəcəsində olmuşdur. Elə bu səbəbdəndir ki, tikilən istehsalat müəssisəsində texnologiyanın yeniləşməsinə uzun illər rast gəlmək olmurdu. Bu gün, açıq bazar iqtisadiyyatına keçməklə ölkədə istehsal müəssisələrinin əksəriyyəti öz fəaliyyətini dayandırmağa məcbur olmuşdu, çünki məhsulun dəyəri çox, keyfiyyə-

tinə görə isə rəqabət aparmaq iqtidarında deyildi. Bütün bunlar, Sovet dövründə və eləcə də indiki dövrdə elm adamlarının istehsalatdan ayrı salınmalarının nəticələrindən hesab olunmalıdır.

3.Sovet dövlətində elmi fəaliyyəti xarakterizə edən cəhətlərdən biri də bundan ibarət olmuşdur ki, elmi fəaliyyətin akademik (fundamental elmi tədqiqatlar) mərhələsinə ayrılan diqqət (vəsait) onun digər tətbiqi tədqiqatlar və texnoloji işləmələr mərhələlərinə nəzərən çox yüksək olmuşdur. Elə bunun nəticəsidir ki, elmi-texniki nəticələr istehsalata çox çətinliklə gedib çata bilirdi. «Praktikasız elm bir heçdir» (N.Tusi) – demişlər. Praktika elmi fəaliyyətin düzgünlüyünün güzgüsüdür. Görünür elə bu səbəbdəndir ki, Sovet dövründə reallıqdan uzaq olan çoxlu sayda saxta ixtira sənədləri alınmışdır. Belə ki, toplanmış yüz minlərlə ixtira sənədləri arasında tətbiqini tapan ixtira çox az olurdu.

Əgər İttifaq üzrə dövlət tərəfindən elmə ayrılan ümumi vəsaitin elmi fəaliyyətin fundamental və tətbiq xarakterli elmi-tədqiqat işləri, təcrübi nümunələrin hazırlanması və onlar əsasında istehsalın təşkili kimi mərhələləri arasında bölünməsinə diqqət yetirsək, görərik ki, paylanma tələb olunan 1:10:100 nisbətində deyil, 1:6:3 nisbətində formalaşmışdır [16]. Bu isə o deməkdir ki, təcrübi nümunələrin hazırlanmasına ayrılan diqqət, dünya standartlarına yaxınlaşırdısa da, onların istehsalatda reallaşması sürəti bu tələblərdən çox geri qalırdı.

Elmi fəaliyyətin mərhələləri arasında akademik (fundamental) elmə ayrılan vəsaitin nisbi çoxluğu, daha doğrusu, mövcud nisbətin anormallığı, Azərbaycan Respublikasında daha qabarıq şəkildə özünü göstərirdi. Azərbaycanda bu nisbət 1:0,9:0,6 olmuşdur. Bu o deməkdir ki, dövlətin yeritdiyi siyasətin nəticəsi olaraq, Azərbaycanda elmi-texniki nəticələrin istehsalata gedib çatması daima böyük maliyyə çətinlikləri ilə üzləşmişdir.

Yuxarıda da qeyd olunduğu kimi, keçmiş Sovet dövlətində xalq təsərrüfatının planlaşdırılmasının ümumi sistemində lisenziyaların əldə olunmasının planlaşdırılması ilə elmi fəaliyyətin təşkili arasında əlaqə çox zəif olmuşdur [16]. Hətta elmi-tədqiqat işləri əvəzində, bazar iqtisadiyyatının tələbinə uyğun olaraq, lisenziyaların qiymətləndirilməsi və alınmasının planlaşdırılması, onların iqtisadi səmərəli-

liyinin müəyyən olunmuş metodikası olmamışdır. Bu sahədə əsaslı elmi-tədqiqat işləri də aparılmamışdır.

Nəticədə, özünü doğrultmayan, dünya bazarının tələblərinə uyğun gəlməyən, texniki, iqtisadi və kommersiya nöqteyi-nəzərindən perspektivsiz lisenziyalar əldə olunmuş, ayrı-ayrı hallarda isə ölkənin xalq təsərrüfatı sahələrində disproporsiyaların ortaya çıxmasına səbəb olmuşdur. Dövlət bir-sıra iqtisadi problemlərlə üz-üzə qalmışdı.

Bu gün Azərbaycan Respublikası müstəqil dövlət olaraq, bazar iqtisadiyyatına keçid ərəfəsindədir. Bu o deməkdir ki, iqtisadiyyatda dövlət sektoru ilə yanaşı özəl sektor da formalaşmaqdadır. Bir çox istehsal sahələrinin özəlləşdirilməsi həyata keçirilir. Lakin, iqtisadi islahatlar sahəsində, o cümlədən, sənaye mülkiyyətinə aid lisenziyaların qiymətləndirilməsi və ticarəti məsələsində əsaslı dəyişiklik olmadığından, hər iki sektor bir sıra çətinliklərlə üzləşməkdədir. Məlumdur ki, bazar islahatlarının son məqsədi istehsalı sürətlə inkişaf etdirmək yolu ilə iqtisadiyyatı dirçəltməkdir. İstehsalın inkişafına isə əsasən yeni texnologiyaları mənimsəmək hesabına nail olmaq mümkündür. Belə ki:

1.lisenziyaların alınması, sektorundan asılı olmayaraq, bilavasitə yeni texnikanın planlaşdırılması və realizasiyası problemindən ayrılmazdır, faktiki olaraq, onun tərkib hissəsi olmalıdır, çünki lisenziyaların əldə olunması vaxta və vəsaitə qənaət etməklə dünya elm və praktikasında son nailiyyətlərin tələblərinə cavab verən maşın, cihaz, avadanlıq və texnoloji proseslərin tətbiqini təmin edir;

2.lisenziyaların alınması investisiya (kapital qoyuluşu) ilə sıx əlaqədardır və iqtisadiyyatı yeni texnika və texnologiya ilə təmin etmək nöqteyi-nəzərindən sənaye istehsalının gündəlik və perspektiv planlaşdırılmasına bilavasitə aiddir;

3. lisenziyaların alınması xarici ticarətlə də əlaqəlidir, çünki lisenziyaların alınması bir qayda olaraq daxili bazarı təmin etməklə yanaşı, ixracın (eksportun) artmasına səbəb olur;

4.lisenziyaların alınmasının planlaşdırılması və məqsədə uyğun olmasının müəyyənləşməsi elm müəssisələrinin işlərinin səmərəliliyinin artırılması – elm və texnika nailiyyətlərinin istehsalata tətbiqinin sürətləndirilməsi probleminin tərkib hissəsidir: belə ki, lisenziyaların

alınması elmi tədqiqatların və layihələrin lisenziyalar üzrə əldə olunan elm və texnologiyanın son nailiyyətləri səviyyəsindən aparmağa imkan verməklə onların effektivliyinin qaldırılmasına təsir göstərəcəkdir;

5.lisenziyaların alınması və onların təkmilləşdirilməsinə xidmət edən milli elmi tədqiqatların aparılması – hər ikisi zəruridir, biri o birini tamamlayır. Bunlar ayrı fəaliyyət göstərməməlidirlər. Unutmayaq ki, hər bir ölkə bütün istiqamətlərdə sırf birincini və ya sırf ikincini görə bilməz və bu yolla bütün istiqamətlərdə nailiyyətlərə çata bilməz. Bu cür cəhdlər praktiki özünü doğrultmaz.

Lisenziyaların alınması iqtisadiyyatın bütövlükdə və eləcə də onun ayrı-ayrı sahələrinin iqtisadi effektivliyinin yüksəldilməsinin bir hissəsi olduğundan dövlətin iqtisadi proqramları nəzərə alınmaqla bu məsələlər həll olunmalıdır.

Lisenziyaların dünya bazarında Azərbaycan Respublikasının layiqli yerini tuta bilməsi üçün lisenziya ticarətini təşkil etməklə, onların keyfiyyətini yaxşılaşdırmaq zəruridir. Bunu zaman-zaman lisenziyaların alınmasının /xərcin/ gələcək artımı da tələb edir. Odur ki, planlaşdıran orqanlar qarşısında göstərilən problemlərdən başqa, lisenziyaların alınmasından sonra ortaya çıxan üstünlüklərdən nə dərəcədə istifadə olunduğu və bu vacib işin gələcək kamilləşdirilməsi yollarının müəyyənləşdirilməsi durur.

Hesab edirik ki, ilkin mənbələri tədqiq etməklə, dünya ölkələrindən lisenziyaların əldə olunması və istifadə olunması, ölkənin iqtisadi sahələrini yeni texnika və texnologiya obyektləri ilə təmin etmək təcrübəsindən istifadə etməklə, öz patent sistemimizi yaratmalıyıq. Əlbəttə, bu vaxt biz olanları dəyişikliksiz qəbul etməyimiz düz olmaz, ən əvvəl, ona görə ki, bizdə iqtisadi quruluş hələlik tam və qəti olaraq, bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşmayıb.

Onu da qeyd etmək lazımdır ki, bu və ya digər qanunsuz yolla – quldurluqla lisenziyaların sirlərini (bir başa və ya dolayı yolla) əldə etmək lisenziyaların satışını zəiflədir, açıqlanmasına təsir edir, nəticədə elmin inkişafını ləngidir. Odur ki, elmi – tədqiqat və təcrübi konstruktor – texnoloji işlənmələr təklif olunanda onun nəticələrinin patent təmizliyinə əvvəlcədən əmin olmaq gərəkdir.

Müstəqil dövlət quruculuğuna başladığımızı nəzərə alaraq və respublikamızın sənaye mülkiyyətinə aid lisenziya dünya bazarında layiqli yer tutmasını təmin etmək məqsədilə uyğun lisenziya ticarətini təşkil etmək zəruridir. Bunu bazar iqtisadiyyatının tələbinə uyğun olaraq, lisenziyaların alınmasının gələcək artımı da tələb edir. Odur ki, dövlət və ya özəl sektorda olmasından asılı olmayaraq, lisenziya almaq işini planlaşdıran istehsal müəssisələri (təşkilatlar), respublikada elmi fəaliyyəti koordinasiya edən Dövlət Elm və Texnika Komitəsi ilə birgə milli elmi-texniki kadrlarımızı lisenziyaların malik olduqları elmi-texniki üstünlüklərin daha da kamilləşdirilməsi işinə cəlb etməlidirlər. Bunu qismən özəl sektora da aid etmək məqsədə uyğun sayılır.

Qapalı Sovet iqtisadi sistemindən açıq bazar iqtisadiyyatına keçdiyimiz indiki dövrdə bunları nəzərə almadan və elmi fəaliyyət sahəsində köklü islahatlar aparılmasına nail olmadan iqtisadiyyatın (elmi fəaliyyətin) bazarın tələbinə uyğun inkişaf edəcəyinə ümid etmək böyük səhv olardı. Bununla bağlı qeyd etmək lazımdır ki, ancaq Sovet iqtisadi sisteminin qapalılığı onun daxili bazarını xarici təsirlərdən qoruyub, sistemin yaşama müddətini uzadırdı. Bununla belə, iqtisadiyyatın inkişafını ləngidirdi, bu isə sistemin öz fəaliyyətini gec-tez dayandıracağından xəbər verirdi.

Yaradıcı elmi fəaliyyəti özündən ayrı qəbul etməyən bazar iqtisadiyyatına keçdiyimiz bir zamanda heç bir zaman unutmamalıyıq ki, elmi fəaliyyət intellektual (sənaye) mülkiyyəti, ona aid olan lisenziyaları, bu lisenziyalar isə istehsalı, istehsal isə elmi fəaliyyəti yeni mərhələdə doğurur.

Görməliyik ki, yaradıcı elmə sahib olan insan həm iqtisadi, həm də mənəvi yoxsulluqdan etibarlı halda canını qurtarır. Yaradıcı elmə sahib olub, inkişaf etməyən ölkə yoxdur.

Bir çox hallarda lisenziyaların alınması «elmi fəaliyyətin başlanğıc nöqtəsini müəyyənləşdirir», prinsipi həyata keçirilməlidir.

Sənaye mülkiyyəti lisenziyalarının ticarəti işində respublikamızın elm potensialının mövcud imkanları daxilində iştirak etməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi lazımdır. Bu işdə, bu növ lisenziyaların qiymətləndirilməsinin xüsusi yeri vardır.

Məsələ belədir ki, hər bir mülkiyyət növü qiymətləndirildiyi kimi, intellektual mülkiyyət də qiymətləndirilməlidir. İntellektual mülkiyyət digər mülkiyyətlərdən, istər yaranması və istərsə də istifadəsi cəhətdən, özünə məxsus xüsusiyyətləri ilə fərqlənir. İntellektual mülkiyyətin qiymətləndirilməsinin beynəlxalq aləmdə və respublikamızda hamı tərəfindən qəbul olunan vahid metodologiyası işlənməlidir.

Yuxarıda da qeyd olduğu kimi, bazar iqtisadiyyatı şəraitində intellektual mülkiyyətin qiymətləndirilməsi o qədər də sadə iş deyildir və Sovet dövründən adət etdiyimiz qaydada, çəkilən xərclərə əsasən onun qiymətləndirilməsi üsulu bazar şəraitində özünü doğrultmur.

Satılacaq və ya alınacaq lisenziyaları düzgün qiymətləndirə bilməklə yanaşı biz, çox da asan olmayan, uyğun elmi fəaliyyəti də qiymətləndirmək (proqnozlaşdırmaq) üsulunu bilməliyik. Hətta iş bununla bitmir. Belə ki, bu zaman biz, elmi-tədqiqat işlərinin aparılmasında, keçmişdən miras qalan ətalətin davam etdiyini, elmi – texniki nəticələrin bazarın tələbinə uyğun şəkildə maddiləşdirilməsinə adətin olmadığını nəzərə almağımız zəruridir. Eləcə də tədqiqatlar planlaşdırılanda riskin dərəcəsi – milli tədqiqatın uğurla başa çatıb-çatmayacağı da nəzərə alınmalıdır.

Bu yolla biz daxili elm potensialımızın gücünə söykənərək, analoji milli elmi texniki tədqiqatlar aparmağın məqsədə uyğun olub olmamasını müəyyənləşdirmiş olarıq. Başqa sözlə, bu yolla elmi tədqiqat proqramlarına salınması təklif olunan problemlərin əvəzinə lisenziyaların alınmasının səmərəliliyi öyrənilər.

Deyilənləri yekunlaşdıraraq Azərbaycan Respublikasında elmi fəaliyyətin məhsullarının kommersiyalaşdırılması üzrə aşağıdakı yenidən qurma işləri təklif olunur:

1.Azərbaycan Respublikasının dünya intellektual mülkiyyəti lisenziyalarının ticarətinə qoşula bilməsi üçün bazar iqtisadiyyatının tələblərinə cavab verən sənaye mülkiyyətinin hüquqlarının qiymətləndirilməsinin respublika üzrə vahid metodologiyası hazırlanmalı və həyata keçirilməlidir.

2.Sektorundan asılı olmayaraq, satın alınan sənaye mülkiyyətinə aid lisenziyalarda əks olunan elmi və texnoloji yeniliklərin milli elmi

potensialımızın gücü ilə inkişaf etdirilməsi işi qanunvericilik səviyyəsində öz əksini tapmalıdır.

3.Milli sənaye mülkiyyəti sahəsində patentlərimizin dünya bazarında rəqabət qabiliyyətini artırmaq məqsədilə, elmi fəaliyyət sahəsində bazar iqtisadiyyatının tələblərinə uyğun islahatlar aparılmalıdır. Bu islahatlar elmi fəaliyyət sahəsində keçmişdən miras qalan ətaləti doğuran səbəblərin aradan qaldırılmasına yönəlməlidir – elmi-tədqiqat işlərinin keyfiyyətcə yüksəlməsini nəticələrinin maddiləşdirilməsini, rəqabət qabiliyyətli məhsul istehsalının sürətləndirilməsini və nəticədə elmi fəaliyyətin akademik çərçivədən çıxıb, daha geniş yaradıcılıq qabiliyyətində olmasını təmin etməlidir.

4.İntellektual mülkiyyətin yaradılması onun qorunması məsələsini ortaya qoymuşdur və bu gün bununla Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı məşğul olur. İntellektual Mülkiyyət aid olduğu sahədə tətbiqini tapmayacaqsa, onda onun yaradılmasına və eləcə də qorunmasına ehtiyac olmazdı. Əks təqdirdə elmi fəaliyyətin həlledici mərhələsi kənarda qalır, sikl tamamlanmır, elmi fəaliyyət əsl mənasını itirmiş olur.

Mülkiyyət və onun qorunması işində maraqlı olan ÜİMT–nın səlahiyyətləri genişləndirilməli, ixtiraların tətbiqini sürətləndirmək üzrə onun yeni funksiyaları müəyyənləşdirilməlidir. Bizim bu təklifimiz bir də onunla özünü doğruldur ki, son vaxtlar, İnsan İnkişafı Proqramı tərəfindən BMT–nin İnsan İnkişafı ilə bağlı hüquqlarının genişləndirilməsi təklif olunmuş və müzakirə olunmaqdadır. Odur ki, İnsan İnkişafı problemi ilə bağlı olan ÜİMT BMT–nin qurumlarından biri olduğundan bizim təklifimiz bu mənada da anlaşıla bilər.

5.Respublikada yaradılan Sənaye Mülkiyyətləri hüquqları üzrə verilən patentlərin lisenziyalaşdırma və satılma ehtimalını artırmaq məqsədilə kompleks tədbirlər həyata keçirilməlidir, o cümlədən:

- süni şəkildə formalaşdırılan iddia ərazilərinə patentlərin verilməsinin qarşısı alınmalıdır; bunun üçün müəlliflərin məsuliyyəti artırılmalıdır;
- iddia ərazilərinin dərin ekspertizası təşkil olunmalıdır; aşınma faktına xüsusi diqqət yetirmək lazımdır. Məlumdur ki, daşınan və da-

şınmaz əmlak növləri, əsasən, fiziki aşınmaya məruz qalırlar və bu əvvəlcədən müəyyən olunmuş zaman ərzində baş verir. İM obyektlərinə (texnologiyalara) isə mənəvi aşınma xasdır və bu aşınma zamanla deyil, bazardakı rəqabətlə ölçülür (müəyyən olunur). Bu səbəbdən İM-in aşınma müddəti çox geniş zaman intervalında (sıfırdan başlayan) dəyişə bilər. Son dövrlərdə elm tutumlu məhsulların mənəvi aşınma müddəti sürətlə azalmaqdadır və bəzi hallarda aylarla qiymətləndirilir. İM–in xüsusiyyəti açıq bazarda rəqabəti kəskinləşdirən əsas səbəblərdən biridir. Onun bu xüsusiyyəti ona gətirib çıxarır ki, İM hüququ bazara çıxmadan belə mənəvi aşınmaya məruz qala bilər. Başqa sözlə, İM hüququnun bu xüsusiyyəti məcbur edir ki, onun alınıb-satılmasında "vaxt puldur" deyimi əsas tutulsun. Vaxtında satılmayan İM hüququ bir müddətdən sonra gərəksiz bir şeyə çevrilir. Odur ki, bu haqda elmi fəaliyyətə (İM hüququnu yaratmağa) başlayan zamandan düşünmək lazımdır.

2.7. Ölkə iqtisadiyyatının strateji planlaşdırılmasında texnika və texnologiyalar üzrə lisenziyaların satın alınmasının planlaşdırılması

Texniki tərəqqinin həyata keçirilməsi ixtiradan və onun tətbiqindən ayrı mümkün deyildir. Texniki tərəqqinin əsasında elmi kəşvlər və ixtiraların sənaye nümunələrinin sənaye müəssisələri tərəfindən mənimsənilməsi–Ümum Milli Məhsulun yaradılmasında elmin rolunun sürətlə artması durur. Odur ki, qoyulan məsələlərin həll olunması üçün dünya elm və praktikasında əldə olunan son nailiyyətlərin istehsalatda tətbiqinin ümumdövlət planlaşdırması, o cümlədən, elmi əsaslandırılmış və iqtisadi cəhətdən səmərəli olan xarici firmaların elmi-texniki nailiyyətlərinin lisenziyalarının alınması və sənayedə mənimsənilməsi böyük əhəmmiyyət kəsb edir.

Unutmamalıyıq ki, elmi-tədqiqatlar nəticəsində yaradılan ixtiraların əsasında yeni texnikanın layihələşdirilməsi onu mövcud olan ixtiralar əsasında yaratmağa nəzərən uzun, mürəkkəb, ağır zəhmətli

prosesdir. Buna baxmayaraq, Elmi Texniki İşlənmələrə /ETİ/ qoyulan xərc inkişaf etmiş dünya ölkələrində daima sürətlə artmaqdadır, bu dövlətlər milli gəlirin daha çox hissəsini bu istiqamətə ayırırlar. Aparılan elmi-tədqiqat işlərinə çox böyük əhəmiyyət verilir, çünki belə hesab olunur ki, o firma (deməli dövlət) gələcəkdə inkişafını davam etdirə biləcək ki, o, indi geniş masştabda məqsədli tədqiqatlar aparır.

Keçmiş SSRİ-də, ölkə iqtisadiyyatının /onun sahələrinin/ dövlət tərəfindən gələcək (perspektiv) planlaşdırılmasının ümumi sistemində, lisenziyaların əldə olunmasının planlaşdırılması arasında əlaqə çox zəif olmuşdur. /Bu o deməkdir ki, Azərbaycan SSR-də daha zəif olmuşdur/. Hətta elmi-tədqiqat işləri əvəzində lisenziyaların alınmasının planlaşdırılması və onların iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi metodikası olmamışdır. Bu sahədə, demək olar ki, heç elmi işlər də aparılmayıb. Bu isə, texniki, iqtisadi və kommersiya nöqteyi-nəzərindən özünü doğrultmayan perspektivsiz lisenziyaların alınmasına dövlət vəsaitlərinin səmərəsiz sərf olunmasına, ayrı-ayrı hallarda isə istər sahələrdə, istərsə də yerlərdə ölkə təsərrüfatının inkişafında disproporsiyaların ortaya çıxmasına səbəb olurdu. Bütün bunlar, bir-sıra təsərrüfat sahələrində müşahidə olunurdu. Belə ki, bu işlər, yuxarıda da deyildiyi kimi bilavasitə yeni texnikanın planlaşdırılması və tətbiqi problemindən ayrılmazdır, faktiki olaraq, onun tərkib hissəsi olmalıdır.

Məlumdur ki, elmi-texniki tərəqqinin həyata keçirilməsinin aşağıdakı yolları mövcuddur:

1.Xarici patentlərin lisenziyalarının alınması və istehsalata tətbiq olunması;

2.Milli elmi tədqiqatların aparılması və əldə olunan nəticələrin /patentlərin/ istehsalata tətbiqi /Milli patentlərin yaradılması və tətbiqi/.

Bunların hər ikisi zəruridir, biri o birini tamamlayır. Bunlar ayrılıqda fəaliyyət göstərməməlidirlər. Belə ki, hər bir ölkə bütün istiqamətlərdə elmi tədqiqat işlərini apara bilməz-imkanları məhduddur. Bu, həm də praktiki olaraq özünü doğrultmaz. Digər tərəfdən hər patent dünya bazarına-satışa çıxarılmır.

Bazar şəraitində milli patentlərin xarici ölkələrdə patentlənməsində aşağıdakı məqsədlər güdülür:

1.Patentlənən ölkədə elmi-texniki siyasətin monopoliyalaşdırılması /bu ölkələrdə aparılan elm-tədqiqat işlərini öz təsiri altına alması/.

2.Kommersiya məqsədilə elm-texnika nəticələrinin hüquqi müdafiəsi, kommersiyalaşdırılması.

Elmi-texniki tərəqqiyə /texniki tərəqqiyə/ ilkin olaraq, bir-sıra faktorlarla yanaşı, elmi şəkildə /qaydada/ əsaslandırıldıqdan sonra, lisenziyaları əldə etməklə /satın almaqla/ çatmaq mümkündür. Bu isə özümüzdə hansı istiqamətlərdə elm-tədqiqat işlərinin aparılması məsələlərini həll etməyimizi tələb edir. Bu da, öz növbəsində, iqtisadi əsaslandırılmış patent – lisenziya siyasətinin həyata keçirilməsinə xidmət edəcəkdir.

İndi isə lisenziyaların alınmasının planlaşdırılmasının yeni texnika yaradılması prosesinin keyfiyyətinə və sürətləndirilməsinə /başqa sözlə, məhsulun keyfiyyət və kəmiyyətinin yüksəldilməsi və dünya bazarına çıxmaq /satılmaq/ imkanlarının artırılmasına/ təsirini analiz edək.

Yeni texnikanın elmi işlənilməsi, yaradılması /maddiləşdirilməsi/ və tətbiq olunması mərhələləri. Qoyulan hər hansı məsələ üzrə iqtisadi problemlərin həlli elmi tədqiqat və təcrübi konstruktor işlərinin aparılması prosesini hərtərəfli tədqiq etmədən, nəticələri eksperiment və sənaye səviyyəsində yoxlamadan, həmçinin yeni texnikanı icra edicinin özü tərəfindən tətbiq etmədən və sifarişçi istehlakçı tərəfindən istismar olunmadan mümkün deyildir.

Yeni texnikanın elmi işlənməsi, yaradılması və istehsalata tətbiqi kimi vacib bir prosesi bir-birindən məsələləri və həll üsulları ilə fərqlənən aşağıdakı altı mərhələyə /şərti olaraq/ bölmək lazım gəlir.

1.Problem xarakterli elm-tədqiqat işlərinin yerinə yetirilməsi.

2.Tətbiq xarakterli elm-tədqiqat işlərinin yerinə yetirilməsi.

3.1 və 2 bəndlərinin nəticələri əsasında nümunə hazırlanması (təcrübə) - layihə işlərinin aparılması.

4.Sənaye nümunəsinin hazırlanması, sınaqdan çıxarılması və texniki sənədlərin yekun işlənməsi.

5.Yeni texnikanın sənayedə hazırlanmasının öyrənilməsi.

6.Yeni texnikanın sənayedə istifadə olunması.

Problem xarakterli elm-tədqiqat işləri. 1964-cü ildə keçmiş SSRİ-də 100 mindən çox elm-tədqiqat işləri və təcrübi-konstruktor mövzuları yerinə yetirilmişdir ki, bunların da böyük əksəriyyəti problem tədqiqatlardan ibarət olmuşdur. Bu, Azərb.SSR-də daha kəskin hal almışdı.

Problem elm-tədqiqat işlərinin aparılmasının planlaşdırılmasında – texnikanın yaradılmasının birinci mərhələsində - əmək sərfi ilə elm-tədqiqat işlərinin aparılmasına lazım olan vəsait və onların nəticələri arasında əlaqənin yaradılması çox çətindir. Praktik olaraq, heç də həmişə problem işlər arzu olunan nəticələri vermir. Bu periodda planlaşdırılan tərəqqi sonrakı mərhələlərə nəzərən ən az müəyyənləşə bilir. Bu mərhələdə məsələnin düzgün qoyuluşu /məs., dünya informasiyalarını öyrənməklə/ çox böyük əhəmiyyət kəsb edir – təkrarlığın qarşısı alınar. Əlbəttə ki, mövzunun aparılmasından inkar olunması elmi əsaslandırılmalıdır, çünki ola bilər ki, məsələn, xarici tədqiqatçılar düzgün yol tuta bilməmişlər.

Qeyd etmək lazımdır ki, problem elm tədqiqat işlərinin iqtisadi effektivliyinin əvvəlcədən müəyyən olunması, praktik olaraq, mümkün deyildir, lakin bu o demək deyildir ki, bu işlər iqtisadi effekt vermirlər. Bu işlərə başlamazdan əvvəl onlara çəkiləcək xərclər, son məhsulun satılacağı qiymət və eləcə də əlavə maliyyə mənbələrinin tapılması yolları müəyyənləşdirilməlidir. Bundan başqa lisenziyalar üzrə xarici ticarət əməliyyatlarının bu işlərə necə təsir edə biləcəyi müəyyən olunmalıdır. Unutmayaq ki, uğurlu problem tədqiqatlar və ya kəşflər əsasında onlarca tətbiqi tədqiqatlar qoyula bilir, yüzlərlə maşın, mexanizmlər, texnologiyalar yaradılır. Bunlar lisenziyalarda öz əksini tapır.

Tətbiq xarakterli elm-tədqiqat işləri. Yeni texnikanın yaradılmasına, adətən gələcək konstruksiya və ya texnologiyanın elmi əsaslarının işlənməsini təmin edən tədqiqatlarla başlanılır. Bu tədqiqatlar özünə məxsus cəhətləri ilə xarakterizə olunurlar və problem elm-tədqiqat işlərindən onu fərqləndirirlər. Elmi tədqiqatlar bu mərhələdə də birinci mərhələdə olduğu kimi arzu olunan nəticələrə gətirməyə bilər, lakin bunun ehtimalı azalır. Bu onunla izah olunur ki, tətbiqi tədqi-

qatlar yeni texnika obyektlərinin konstruksiya olunmasının elmi əsaslarının yaradılmasına yönəldilir. Yeni texnikanın nə obyekt olacağı, hansı məqsədə xidmət edəcəyi, hansı nəticə əldə olunacağı, hansı konkret şəraitdə işləyəcəyi, hansı xammal və materiallarla işləyəcəyi məlum olur. Tətbiqi elm-tədqiqat işlərinə misal olaraq, baş institutların çoxlu sayda işlərini göstərmək olar. Bu da I və II mərhələlərin sərhədlənməsi kriteriyası kimi çıxış edir. II mərhələdə I –də əldə olunmayan nəticələr əldə olunur və həm də konkretləşir. Tətbiq xarakterli elm-texniki işlənmələr /ETİ/, bir qayda olaraq, maketlə, maket üzərində laboratoriya işləri ilə və hesabatla başa çatır. Bu işlər növbəti plan dövrü üçün olur. Yuxarıda qeyd olunduğu kimi problem ETİ isə daha sonrakı /gələcək/ dövrün planlarına uyğun aparılır, daha çox qeyri müəyyənliyə malikdir.

Xarici təcrübələrdən və dünya elminin və texnikasının son nailiyyətlərindən istifadə etmək üçün tətbiqi ETİ-lər üzrə mövzuların planı tərtib olunmazdan əvvəl, bu işlərin hər biri üzrə lisenziyaların alınmasının özümüzdə uyğun tədqiqatlar aparmağa nəzərən, məqsədə uyğun olub-olmamasını müəyyən etmək lazımdır. /Bu iş tədqiqatın aparılması müddətində də nəzarətdə saxlanılmalıdır/. Mövzuların təsdiqi ancaq bu şərtlər daxilində elmi əsaslandırılmış rəylər olandan sonra edilə bilər. Bu işləri görmək üçün, əvvəlcədən, texniki-iqtisadi hesabatlar aparılmalı, daxili və beynəlxalq bazarlarda yaranan konyukturanı, onun perspektivliyini və s. öyrənmək üçün, ETİ-lər, qismən qarşıdakı dövr üçün, yeni texnika və texnologiya yaradılmasının əsas istiqamətlərinin proqnozlaşdırılması sahəsində görüləcək işlər qiymətləndirilməlidir. Bundan başqa, planlaşdırılan obyektlər haqda daxildə və xaricdə tələbatın səviyyəsi müəyyənləşdirilməlidir və s. Bu dövrdə hazırlanan məhsulların patent qabiliyyətliyi /təmizliyi/ təmin olunmalıdır ki, maneəsiz daxildə tətbiq olunsun və xarici ölkələrə satıla bilsin. /Yeri gəlmişkən, sovet dövründə belə bir fikir var idi ki, Qərbi Avropa ölkələrində əldə olunmuş nəticələrin təkrarlanması yeni elmi nəticə kimi qəbul olunmalıdır, hətta müdafiə etmək səlahiyyəti də verilirdi. Sovet dövləti bunu ona görə edə bilirdi ki, uyğun beynəlxalq Konvensiyalara qoşulmamışdı və onun böyüklüyü /daxili tələbatın

çoxluğu/ bunu ört-basdır edirdi. Azərbaycan Respublikası isə bu Konvensiyalara qoşulduğundan işlərin bu cür qurulması izafi zəhmət və xərclərdən başqa bir iş ola bilməz.

Patent ən mühüm məsələdir. Patent informasiyasının öyrənilməsi yeni texnika /texnologiya/ yaradılmasının ilkin mərhələsi olmalıdır. /Əks halda yuxarıda deyildiyi kimi xeyir yox, zərər gətirər/.

Təcrübə-konstruktor xarakterli elm-tədqiqat işləri. Bu mərhələdə təcrübə nümunələrinin düzəldilməsi, hazırlanması, layihələrin düzəlişi işləri yerinə yetirilir.

Bu mərhələnin əvvəlkilərdən ayrılması çətinlik törətmir. Əsas iş gələcək cihazın bənzərinin konstruksiya olunmasından, onun təcrübə nümunələrinin sınaqdan çıxarılmasından ibarət olur. Bu mərhələdə elm ikinci plana keçir – konstruksiya işləri, çertyojların, sənədlərin hazırlanması əsas iş olur. Konstruktor aparıcı olur. I və II mərhələlərə nəzərən qeyri-müəyyənlik azalır. Əlbəttə bu mərhələdə də arzu olunan nəticələr əldə olunmaya bilər.

2.8. İntellektual mülkiyyət hüquqlarından istifadənin inkişafı

İntellektual mülkiyyət (İM) ilə bağlı hüquq və onun mühafizəsi, istifadəsi və perspektivi kimi məsələlər ardıcıl, olduqca dolğun, günün tələbinə uyğun səviyyədə kiçik və orta sahibkarlıq (KOS) məsələləri ilə bağlı öyrənilməlidir. Ümumiyyətlə, İM və KOS-ların bir-biri ilə bağlılığı məsələlərinin bugünkü vəziyyətinin öyrənilməsinin – bu məsələlərin araşdırılmasının bizim respublikamız və bazar iqtisadiyyatına qədəm qoymuş digər yeni müstəqil dövlətlər üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini təbliğ etməyə ehtiyac görmürəm.

Əvvəlcədən deyə bilərik ki, KOS və İM arası bağlılıq, hələ KOS-ların yaranması tarixində öz əksini tapmışdır. Məlumdur ki, inkişaf etmiş ölkələrdə iri korporasiyalar, öz problemlərini həll etmək məqsədilə aparmış olduqları elmi tədqiqatların gedişində əldə etdikləri on minlərlə ikinci dərəcəli İM hüquqları, korporasiyanın onlara ehtiyacı olmadığından, uzun müddət korporasiya daxilində öz tətbiqini tapmadan təsir müddətini başa vurmuşlar. Lakin cəmiyyət üçün vacib

və ehtiyac olan bu İM hüquqlarının reallaşması məqsədilə korporasiyalar son zamanlarda öz himayələri altında və bu İM hüquqları əsasında istehsalla məşğul olan kiçik və orta sahibkarlıq müəssisələri yaratmağa başlamışlar. Elmi nəticələrin aramsız olaraq istehsalata tətbiqi ilə məşğul olan və öz çevikliyi nəticəsində, iri müəssisələri yaxalayan iqtisadi böhranlardan özünü qorumaq iqtidarında olan bu KOS-ların bu gün ölkə iqtisadiyyatında tutduqları həlledici mövqe ümumiyyətlə məlumdur.

KOS-ların bu qısa tarixçəsinə, onların tələbatını ödəyəcək İM-in yaradılmasında, yayılması və tətbiqində aktiv iştirak edən, elmi fəaliyyətlə bağlı olan KOS-ları, xırda tədqiqat biznesini (XTB) əlavə etmək lazımdır.

Qeyd etmək yerinə düşərdi ki, son illərin məlumatına görə ABŞ-da, Yaponiyada, Almaniyada hər birində on mindən yuxarı bu cür özəl elm müəssisələri yaranmış və onun müxtəlif mərhələlərində fəaliyyət göstərməkdədirlər. Onlar bu gün ümumi elmi işlərin çox böyük hissəsini, özü də elmi-texniki tərəqqinin ən həlledici istiqamətlərində yerinə yetirməkdədirlər.

Beləliklə, bu gün KOS-larla İM arası bağlılıq birtərəfli əlaqə ilə deyil, qarşılıqlı-əks əlaqə ilə xarakterizə olunur: İM əsasında təşkil olunan, formalaşan və inkişaf edən KOS-lar, sonradan yeni İM-in yaradılmasından tutmuş, onun praktikada reallaşdırılmasına və yeni səviyyədə spiralvarı inkişaf etdirilməsinə qədər bütün mərhələlərdə iştirak edirlər.

Bütün bu deyilənlər, əsasən, inkişaf etmiş ölkələrə aiddir. Belə olan halda, yəni dünya əhalisinin dörddə üçünün yaşadığı ölkələrin iqtisadi vəziyyətində yaxşılaşma baş vermədiyi halda, təbii ki, «XXI əsrdə elm: yeni öhdəliklər» Elm üzrə Ümumdünya Konfransının sənədlərində deyildiyi kimi, «biz dünya elmi», başqa sözlə «dünya firavanlığı» haqda danışa bilmərik. Yeri gəlmişkən, qeyd olunan Konfransda, YUNESKO-nun yarandığı gündən bu günlərə kimi həyatın bütün sahələrində baş vermiş qlobal dəyişikliklərə, elm sahəsində yaranmış vəziyyətə və bugünkü YUNESKO çərçivəsində – mövcud razılaşmalarla dünya xalqlarının əməkdaşlıqlarının idarə oluna bilməməsinə diqqət

yetirilmiş və elm üzrə yeni «ictimai müqavilə» işlənib hazırlanmışdır. Bu yeni «ictimai müqavilə»də müasir elm sahəsində dünya xalqlarının qarşısında duran vəzifə və öhdəlikləri əhatə edən suallar cavablandırılmışdır. Bu sual və cavablar çoxluğunda İM və sahibkarlıqla bağlı vəzifə və öhdəliklər də öz əksini tapmışdır.

Hesab edirik ki, Sənaye Mülkiyyətindən istifadənin vəziyyəti və perspektivlərindən danışarkən, BMT baş Katibi Kofi Annanın "Minillik məruzə"sinin və yuxarıda qeyd etdiyimiz «XXI əsrdə elm: vəzifələr və öhdəliklər» Elm üzrə Ümumdünya Konfransının tələb və təklifləri mütləq nəzərə alınmalıdır.

BMT Baş Katibi Kofi Annanın dünyanın XXI əsrdə üzləşə biləcəyi çətinliklərə həsr olunmuş «Biz, Birləşmiş Millətlər: XXI əsrdə BMT-nin rolu» məruzəsində dünya ölkələri rəhbərlərinin müzakirə etməsi üçün bir-sıra məqsəd və təşəbbüslər irəli sürülmüşdür. Məruzədə dünyanın üzləşdiyi çətinliklər üç başlıq altında toplanmışdır: istəkdən azadlıq, qorxudan azadlıq və gələcək nəsillərin bu planetdə öz yaşayışını təmin etmək azadlığı.

Məruzənin, BMT-nin yeniləşməsi» hissəsində deyilir ki, BMT-nin, bu gün bu çətinliklərlə bağlı qarşıya qoyulan vəzifə və öhdəliklərin heç birini müstəqil yerinə yetirmək imkanı yoxdur.

Bu problemləri həll etmək üçün BMT daha güclü və effektiv təşkilata çevrilməlidir və bu da üzv dövlətlərin səlahiyyətindədir. BMT-nin möhkəmləndirilməsinə yaradıcı yanaşmaq lazımdır. Bu gün qlobal məsələlər dövlətlərin XİN-nin xüsusi səlahiyyətləri çərçivəsindən çıxmış, dövlətlər isə çox saylı qlobal problemlərin həllinin yeganə təşəbbüskarları ola bilmirlər. Odur ki. qlobal idarəetmənin yeni formaları işlənib hazırlanmalıdır. Bu iş BMT-nin qurumlarında, o cümlədən, ÜİMT-da yerinə yetirilməlidir. Elə isə bu çağırışa cavab olaraq biz, İM-lə, ümumiyyətlə ÜİMT ilə bağlı hansı yeni vəzifə və öhdəlikləri təklif edə bilərik?

Hesab edirik ki, çıxış olaraq, yuxarıdakı Məruzə və Konfransın tələblərini bir daha nəzərə almaqla, «İM-ni tətbiq etmək imkanları hər bir ölkənin iqtisadi inkişafını müəyyənləşdirir» prinsipinə əsaslanmaq lazımdır.

Məlumdur ki, İM-in sahibkarlar tərəfindən əldə olunması, reallaşdırılması və inkişaf etdirilməsinin hər birinin özünə məxsus çətinlikləri vardır. Məsələn, inkişaf etməkdə olan ölkələrin bir-çoxunda sahibkarlar İM-in yaradılmasında nisbətən zəif iştirak etdiklərindən, onlar, bazar rəqabətinə davam gətirə bilmək üçün mütləq və müntəzəm olaraq, xarici firmaların İM hüququnu bu və ya digər səviyyədə əldə etməyə məcburdurlar. Bu isə öz-özlüyündə çox ağır və gərgin proses olmaqdan başqa, hər bir ölkənin (firmanın) iqtisadi vəziyyəti ilə müəyyənləşir. Nəticədə, bu ölkələr çox böyük çətinliklə rastlaşır, istehsalda günün tələbinə uyğun dəyişikliklər yaratmaqdan uzaq düşürlər, real iqtisadi yüksəlişə nail ola bilmirlər. Əgər «İM-in tətbiqi böhranı» inkişaf etmiş ölkələrdə İM-nin bolluğundan baş verirsə, inkişaf etməkdə olan ölkələrdə, tətbiq böhranı, əksinə, iqtisadi imkansızlıq üzündən baş verir. Belə olan halda, dünya əhalisinin dörddə üçünün yaşadığı bu ölkələrin iqtisadi vəziyyətində yaxşılaşmanın baş verməsi imkan və ehtimalının çox az olduğunu nəzərə alaraq, bunun öz-özünə nə vaxtsa baş verəcəyinə ümid etmək olmaz. Yeganə yol, BMT-nın uyğun qurumları xətti ilə, uyğun İM-in bu ölkələrdə davamlı tətbiqini həyata keçirilməsinə və gələcəkdə isə yaradılmalarına kömək etməkdən ibarət ola bilər. Bu köməyin göstərilməsi və yollarının müəyyənləşdirilməsi işinin ÜİMT-na həvalə olunması məqsədə uyğun və mümkün sayılır. Bunun üçün ÜİMT-nın möhkəmləndirilməsi, hüquqlarının artırılması lazımdır. Bu, qeyd olunan sənədlərin Ruhuna da uyğundur.

Deyilənləri nəzərə alaraq, təklif olunur ki, (inkişaf etməkdə olan ölkələrə yardımın gücləndirilməsi məqsədilə) İM hüququnun uyğun sənaye sahələrində tətbiqi ilə bağlı praktik problemlərin həll olunmasında ÜİMT-na əlavə səlahiyyətlər verilməsi BMT Baş Assambleyasına təklif olunması məsələsinə baxılsın.

Qeyd: İnkişaf etməkdə olan ölkələr, zərurət qarşısında, iqtisadiyyatlarını inkişaf etdirməkdən ötrü, ekoloji nəticələrinə fikir vermədən qarşılarına çıxan texnologiyaları tətbiq edəcəklər. Bu gün də olmasa, sabah, dünya bunun ağrısını hiss edəcək. Ona görə də bu ölkələrə ekoloji cəhətdən yararsız texnologiyaların verilməsi BMT xətti ilə qadağan olunmalıdır (satan nə satdığını bilir). İnkişaf edən ölkələrə

təhlükəsiz texnologiyaların ötürülməsinə YUNESKO və ÜİMT səviyyəsində nəzarət və yardım olunmalıdır.

Sonda: elmsiz bazar iqtisadiyyatına gedən ölkələri, müharibəyə silahsız gedən orduya bənzətmək olar. Bu aforizm bir başa sahibkarlığa da aiddir. Odur ki, sənaye mülkiyyəti ilə bağlı sahibkarlıq bu ölkələrdə sürətlə inkişaf etdirilməlidir.

III BÖLÜM

XXI ƏSR ELMİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI

3.1. "XXI əsr elmi: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransı və onun tələbləri

Əməlsiz elm, elmsiz əməl qədər bir heçdir
Nəsrəddin Tusi

Konfransın keçirilməsinin səbəbləri. 26 iyun – 1 iyul 1999-cu il tarixində Macarıstanın Budapeşt şəhərində BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatının və Elm üzrə Beynəlxalq Şuranın (EBŞ) birgə himayəsi və səyi sayəsində "XXI əsrdə elm: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransı keçirilmişdir. 155 ölkənin, 28 dövlətlərarası təşkilatın, 60-dan çox beynəlxalq qeyri-dövlət elmi təşkilatlarının təmsil olunduğu, təxminən 1800 nümayəndənin, o cümlədən, elm və texnika, elmi tədqiqatlar və təhsil məsələləri üzrə 80 nazirin və onlar səviyyəli rəhbər işçilərin iştirak etdiyi Konfrans iştirakçıları, "inkişaf etməkdə olan ölkələr üçün ən aktual olan nədir?" sualını cavablandırmağa çalışmışlar. Bu konfransın Baş Katibi Maurisio Yakkarionun dili ilə desək, Konfrans təbiət elmlərinin indiki vəziyyətini, onların inkişaf istiqamətlərini, onların cəmiyyətə təsirini və cəmiyyətin elmə bağladıqları ümidləri analiz etmək üçün nadir bir imkan vermişdir. Konfrans belə bir nəticəyə gəlmişdir ki, elmi tərəqqinin cəmiyyətin ümidləri ilə yanaşı, həm də insan və cəmiyyətin inkişafı ilə bağlı problemlərin həlli məsələlərinə də cavab verə bilməsi üçün birgə səylərin həyata keçirilməsi vacibdir. Başqa sözlə, XXI əsr ərəfəsində Konfrans "dünya firavanlığı"na, "dünya elmi"nə nail olmağa imkan verəcək elm üçün yeni "ictimai müqavilə" işləyib ortaya qoymağa imkan vermişdir.

YUNESKO-nun yeni inkişaf mərhələsinə daxil olması, sanki ikinci doğuluşu kimi qiymətləndirilən bu konfransdan çox illər keçməsinə baxmayaraq, konfransın tələblərinin yerinə yetirilməsi Azərbaycan elmi ictimaiyyətinin diqqətindən kənarda qalmışdır.

Ən əvvəl, belə bir mötəbər konfransın keçirilməsi hansı ehtiyacdan doğmuşdur sualını cavablandıraq. Sonra isə konfransda qəbul olunmuş sənədlərdə irəli sürülmüş ən mühüm məsələlər və Azərbaycan Respublikasının bunlardan irəli gələn öhdəlikləri haqda danışmağa çalışacağıq.

Konfrans materiallarında deyilir ki, 1945-ci ilin 16 noyabr tarixində Londonda BMT-nin təhsil, elm və mədəniyyət üzrə Nizamnaməsi qəbul olunduğu vaxt dünyada baş vermiş müharibələrin ən dəhşətlisi İkinci Dünya müharibəsi başa çatmışdı və bütün tərəqqipərvər insanlar bu müharibənin baş verme səbəblərini və bir daha baş verməməsi üçün onların aradan qaldırılması yollarını axtarmaqda idilər. Dünya xalqları müharibənin baş verməsi səbəblərini araşdırarkən, onun, əsasən, insanlar arasında inamsızlığın olması, insan şəxsiyyətinin ləyaqətinə hörmət etməyin demokratik prinsiplərindən imtina olunması, eləcə də insanların və irqlərin bərabərsizliyini elan edən cəhalət və mövhumata əsaslanan doktrinanın tətbiqi nəticəsində baş verə bildiyi qərarına gəlmişlər. İnsan ləyaqətinin saxlanılması üçün bütün insanlar arasında ədalətə, azadlığa və sülhə əsaslanan mədəniyyətin və təhsilin geniş yayılmasının zərurət olduğunu yəqin etmiş və belə bir fikrə gəlmişlər ki, əgər sülh təkcə dövlətlərin iqtisadi və siyasi razılaşmalarına əsaslanarsa, xalqların həmrəyliyini, möhkəm və səmimi köməyini qazana bilməz. Gərəkdir ki, sülh, bəşəriyyətin intellektual və mənəvi həmrəyliyinə söykənsin, xalqlar bir-birini qarşılıqlı başa düşsünlər və həyatları haqqında daha dəqiq və aydın təsəvvürləri olsun. Bu mənada bütün xalqların boynuna müqəddəs vəzifə düşürdü ki, bunu da qarşılıqlı əməkdaşlıq ruhunda yerinə yetirmək lazım gəlirdi.

Bunları nəzərə alaraq, yuxarıda qeyd olunan Nizamnaməni imzalayan dövlətlər, bütün dünya xalqlarının təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq etməsini xalqlararası sülhə və bəşəriyyətin ümumi firavanlığına tədricən nail olmağın yeganə yolu hesab etdiklərini təsdiqləmək məqsədilə təhsil, elm və mədəniyyət üzrə BMT-nin ixtisaslaşmış təşkilatını yaratmışlar.

YUNESKO adlanan bu ixtisaslaşmış təşkilat yarandığı gündən keçən illər ərzində özünün məqsəd və vəzifələrinin yerinə yetirilməsi

istiqamətində, BMT-nin digər qurumları ilə birlikdə çox böyük işlər görmüşdür. Bu müddət ərzində dünyada qlobal müharibələrin olmaması özü buna əyani sübutdur. Bundan başqa elm (və onunla birgə təhsil və mədəniyyət) bu müddət ərzində xeyli inkişaf edib, iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilə bilməklə yanaşı, onun mühüm tərkib hissəsi olmuşdur. Biz bunları, mütləq mənada, elmi-texniki nəticələrin istehsalata tətbiqi nəticəsində iqtisadiyyatın sıçrayışla inkişaf etməsində - nəticədə buna nail olan ölkələrin inkişaf etmiş ölkələrə çevrilməsində, elmi-texniki nəticələrə olan hüquqların lisenziyalarının kommersiyalaşdırılması yolu ilə əldə olunan gəlirin bir sıra ölkələrdə ümumi gəlirin böyük hissəsini təşkil etməsində görə bilərik.

Kəşf və ixtiralar, əvvəllərdə heç vaxt indiki kimi bu qədər böyük maddi tərəqqiyə çatmağa imkan verməmişdi. Bu gün təbiət elmləri müxtəlif sahələrdəki kəşf və nailiyyətlər nəticəsində çiçəklənmə dövrünü yaşayır, informasiya və rabitə texnologiyalarının bütün sahələrdə yaratdıqları dəyişikliklər, öz dərinliklərinə görə çap maşınının yaranmasından sonra baş verən dəyişikliklərə uyğunlaşdırılır.

Keçən yüzilliyin ikinci yarısından başlayaraq, elm və cəmiyyət inkişaf etdikcə, ortaya çıxan bir sıra vacib faktorlar, obyektiv olaraq, onlar arasındakı münasibətləri dəyişdirmiş və bundan sonra da təsirlərini göstərəcəyi şübhəsizdir. Məsələn, elmi-texniki sahədə əldə olunan uğurlar bütün sahələrdə proseslərin qloballaşdırılmasına səbəb olmuş və bundan sonra da qloballaşmanın güclənməsi gözlənilir.

Dünya elm adamları artıq anlamışlar ki, insanlar qarşılıqlı asılılığın artması ilə xarakterizə olunan şəraitdə yaşayırlar və gələcək həyat təminatlarının qlobal sistemlərinin qorunub saxlanması ilə qırılmaz əlaqəlidir. Buna görə də elmlə bağlı olanlar elmin bütün sahələrində olan biliklərdən, heç bir sui-istifadəyə yol vermədən, insanların tələbat və istəklərini təmin etmək üçün məsuliyyətlə istifadə etməyin israrlı zəruriliyini başa düşməyə borcludurlar. Alimlərlə yanaşı bütün söz sahiblərinin də bu istiqamətdə borclarını hiss edib, ödəmələri az əhəmiyyət kəsb etmir.

Bütün bunlarla yanaşı, dövrümüzün xüsusiyyətlərindən biri də bundan ibarətdir ki, insanların yaratdıqları elm və istehsal potensialı

çox sayda yeni problemləri yaratmış və onları həll olunmamış, hətta dağıdıcı vəziyyətdə ortaya qoymuşdur.

İnsan cəmiyyəti ərzaq təminatı, beynəlxalq sülh və s. kimi problemlərini tam həll edə bilmədiyi – iqtisadi təhlükəsizlik qorxusu qaldığı halda, əlavə olaraq:

- ekoloji təhlükə;
- kütləvi qırğın təhlükəsi;
- bərabərsizliyin daha da güclənməsi və s. kimiləri də ortaya çıxmışdır. Sanki elm, qaş qoymaq istədiyi halda, gözü çıxartmaq həddinə çatıb. İnsan cəmiyyəti əsrin sonunda yenidən onu məhv edə biləcək daha qlobal təhlükələrlə üz-üzə dayanmışdır.

Göründüyü kimi, kəşflər və yeni elmi biliklərin tətbiq sahələri çox böyük ümidlər və imkanlar doğurmaqla yanaşı, eyni zamanda ən müxtəlif etik problemlər də yaradır. Odur ki, konfransda, ən əvvəl alimlərdən elmi fəaliyyətlərin etik nəticələrini mütləq nəzərə almaları; etikanın daima seçim variantlarının və öhdəliklərin predmetinə çevrilməsi tələb olunmuşdur. Bu etik məsələlər hüquqi təlimlər çərçivəsindən kənara çıxmaqla, müxtəlif dəyişən situasiyalardan asılı olaraq, yeni mənada səslənməlidirlər. Bu diləklər xalqların XXI əsrə ünvanlanmış əsas çağırışlarında öz əksini tapmış və hökumətlərin müdriklikdən aralı durmamaları, elmi nəticələrin tətbiqindən əldə olunacaqdan əvvəl, itirilə biləcəklərin qiymətləndirilməsi istənilir.

İş o yerə çatmışdır ki, son 50 illik müddət ərzində elmi fəaliyyət sahəsində əldə olunmuş bu və ya digər səpgili inqilabi dəyişikliklər, o cümlədən, qloballaşma artıq bu sahədə olan köhnə razılaşmalarla beynəlxalq əməkdaşlığı idarə etməyə imkan vermir, o, öz effektliliyini itirməkdədir. Bu, dünya ictimaiyyətini, onun ən mötəbər təşkilatı – BMT-ni, o cümlədən, YUNESKO-nu məcbur etmişdir ki, bu çətinlikləri aradan qaldırmaq üçün yollar axtarıb tapsın. Bu məqsədlə son 30 ildə bir çox elmi yığıncaqlarda bu məsələlər gündəliyə çıxarılmış və müzakirələr aparılmışdır. Bunların yekunu olaraq, yuxarıda qeyd olunan konfransın keçirilməsi qərarlaşdırılmışdır.

Konfransın əsas sənədlərinin tələbləri. Konfransda elm sahəsində əsas (cəmi 26) fəaliyyətlər üzrə hökumətlərin, universitetlərin və

elmi-tədqiqat müəssisələrinin, alimlərin və elm ictimaiyyətinin, özəl sektorun və maliyyə təşkilatlarının, qeyri-dövlət təşkilatlarının və bütövlükdə cəmiyyətin himayə və yardım etmələri tələbilə öhdəliklər müəyyənləşdirilmişdir. Onlardan aşağıdakı fəaliyyət sahələrini xüsusi olaraq qeyd etmək olar:

- elmi tədqiqatlar və maliyyələşdirilmələrinin yeni yolları;
- ekoloji problemlərin həllinə yönəlmiş tədqiqatlar;
- texnologiyanın cəmiyyətin təsirinə yönəlmiş tədqiqatlar;
- ekoloji təsir və etika;
- təbii fəlakətlərin nəticələrinin azaldılması sahəsində potensialın yaradılması;
- universitetlərlə sənaye sahələri arasında həmkarlıq əlaqələri;
- elmi etika;
- elm sülh məqsədləri üçün;
- elm inkişaf məqsədində;
- elm və texnologiya sahəsində siyasət;
- siyasi rəhbərlərin və özəl sektorun elmi məsləhətləşmələri;
- inkişaf edən ölkələrdə elmi tədqiqatın milliləşdirilməsi;
- beynəlxalq əməkdaşlıq;
- inkişaf edən ölkələrdə elmi əməkdaşlıq;
- biliklərin birgə istifadəsi, elmi informasiyaya çatmaq;
- intellektual mülkiyyətin hüquqlarının mühafizəsi və s.

Budapeşt konfransında keçirilmiş müzakirələrin nəticələri Konfransın qəbul etmiş olduğu iki əsas sənəddə öz əksini tapmışdır:

Elm və elmi biliklərin istifadə olunması haqda Deklarasiya;

Elm sahələrində gündəlik məsələlər – Fəaliyyət çərçivəsi.

Hər iki sənəd YUNESKO və EBŞ-in rəhbər orqanları tərəfindən bəyənilmişdir. Bu sənədlər elmlə bağlı olan qurumların hamısı üçün fəaliyyət istiqamətlərini müəyyən edir və hər biri, öz sahəsində, gələcək nəsillərə layiqli həyat şəraiti təhvil vermək istiqamətində lazımi səylərini sərf etməyə dəvət olunurlar. Bunlar elə sənədlərdir ki, bütün hökumətlər və beynəlxalq təşkilatlar onları öyrənməli və onlara öz münasibətlərini bildirməlidirlər. Adlarından göründüyü kimi, Konfransda qəbul olunmuş Deklarasiya sənədində elmi fəaliyyət sahəsində

elan olunmuş məqsədlər, "Fəaliyyət Çərçivəsi" sənədində isə bu məqsədlərin əldə olunması üçün göstərilməli olan fəaliyyətlərin rəhbər prinsipləri və həyata keçirilməsi vasitələri öz əksini tapmışdır.

"Fəaliyyətin" rəhbər prinsipləri, elm və texnologiya sahəsində məqsədlərin həlli və imkanlardan istifadənin çərçivəsini müəyyən edir. Eləcə də elmi fəaliyyətin bütün iştirakçıları arasında, istər milli, istərsə də beynəlxalq səviyyələrdə mövcud olan həmkarlıq əlaqələrinin inkişafı və yenilərinin yaradılmasını müəyyənləşdirir. Göstərilir ki, bu səylər və həmkarlıq əlaqələri elm və texnologiya sahələrindəki insanların ehtiyaclarına, çalışmalarına və dəyərlərinə uyğun olmalıdır, onlar möhkəm sülh və ədalətin təminatı və dayanıqlı inkişaf naminə təbiətə və gələcək nəsillərə hörmət ruhunda olmalıdır.

Konfransda elmi fəaliyyətlə bağlı beynəlxalq və regional təşkilatlar qarşısında duran gündəlik məsələlər və öhdəliklərə geniş yer verilmişdir. Məlumdur ki, hər bir regional təşkilatın normal fəaliyyət göstərməsi üçün heç olmasa regionda sülhə nail olunmalıdır. Möhkəm sülh isə inkişafla bağlı əsas problemləri adekvat həll etmədən mümkün deyildir; nə qədər ki, sülh mədəniyyəti və praktikası hamı tərəfindən qəbul olunmamışdır, adekvat inkişaf mümkün olmaz. Sülh və inkişaf qarşılıqlı əks əlaqədədirlər və bu əlaqə əsasən, elmi fəaliyyətin vasitəçiliyi – nəticələrinin tətbiqi ilə yaranır. Bunu nəzərə alaraq, hələ Baş Assambleyanın 1997-ci ildə qəbul etdiyi XXI əsrin gündəlik məsələlərinin gələcək reallaşması üzrə fəaliyyət Proqramının əsas prinsipləri belə müəyyənləşdirilmişdir: dayanıqlı inkişafın maraqlarında elmi potensialın möhkəmlənməsi və imkanlarının artması; elmdə qeyri-müəyyənliyin azaldılması və inkişaf proseslərinin ölçülüb-biçilmiş idarəçiliyi və onların ətraf mühitə təsiri ilə bağlı olan uzunmüddətli proqnozlaşdırmaq imkanlarının genişləndirilməsi; beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi, elmi biliklərin verilməsi və birgə istifadəsi; elmin istehsalatdan, qərarlar qəbul olunan sferadan və eləcə də elmlə bağlı olan həmkarların bir-birindən ayrı düşməsini azaltmaq.

Göründüyü kimi, ali sənədlərdə elm sahəsində beynəlxalq təşkilatların (5) hər birinin qarşısında da yeni vəzifə və öhdəliklər və bunlardan irəli gələn fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Ümumbəşəri əhəmiyyətli çağırışları əhatə edən bu sənədlərdə deyilir ki, Elmi tədqiqatların və elmi biliklərdən istifadənin məqsədi həmişə insanlığın firavanlığı olmalıdır. Bunlar bizim gələcək nəsil qarşısındakı məsuliyyətimizi bütövlükdə nəzərə almalıdır. Hökumətlər, beynəlxalq təşkilatlar və elmi-texniki idarələr hər bir ölkənin prioritet məsələlərinə uyğun olan insan və cəmiyyətin həyati problemlərini aşkarlamağa, öyrənməyə və həll etməyə yönəlmiş tədqiqatlara kömək etməlidirlər. Texnologiyaların alınıb-verilməsindən əvvəl, əhali və cəmiyyətə onun necə təsir edəcəyinin sosial analizi aparılmalıdır.

İnkişaf edən və keçid dövrünü yaşayan ölkələrin hökumətləri, beynəlxalq təşkilatlar təhsil işçilərinin və texnika kadrlarının statusunun möhkəmləndirilməsinə, elm və texnika sahələrində yeni professiyaların kütləviləşdirilməsinə kömək etməklə, hazırlanmış alim kadrların qorunub saxlanıla bilməsi imkanlarını möhkəmləndirməlidirlər. Eləcə də ölkədən inkişaf etmiş ölkələrə getmiş alim, mühəndis və texniklərlə əməkdaşlıq proqramları tərtib edib genişləndirmək lazımdır.

Konfransın əsas sənədlərində tələb olunur ki, tədris müəssisələrinin quruluşu və onların tədris proqramlarının tərtibi açıq və çevik xarakterdə olmalıdır ki, onları cəmiyyətin yaranan tələbatına uyğunlaşdırmaq mümkün olsun. Müasir dövrün tələbi – elmin etikası və məsuliyyəti, təhsilin və bütün alimlərin hazırlanmasının ayrılmaz tərkib hissəsi olmalıdır. Elmi biliklərin və texnologiyaların etikası üzrə YUNESKO-nun Ümumdünya Konfransı (KOMEST) elm sahəsində məsuliyyət və etika məsələləri üzrə MSNS-nin Daimi Komitəsi ilə birgə bu məsələlərlə bağlı xüsusi məsuliyyət daşıyırlar.

Konfrans tələb edir ki, Elmi-tədqiqat müəssisələri elmi işlərin etik cəhətlərinin öyrənilməsinə kömək etsinlər. Elmi fəaliyyətin etik nəticələrinin və tənzimləmə vasitələrinin analizi və monitorinqi üçün xüsusi elmi-tədqiqat proqramları tərtib olunsun.

Beynəlxalq elm ictimaiyyətinə, digər iştirakçılarla birgə, ekoloji davranış kodekslərinin formalaşmasına kömək etmiş olacaq müzakirələrin nəticələrini təbliğ etmək vacib sayılmışdır. Eləcə deyilmişdir ki, alimlərin elmi-texniki nailiyyətlərindən düzgün istifadə olunmamasını daima mühakimə etməlidirlər.

Bütün bu deyilənlərə əsaslanaraq, belə bir fikir irəli sürülmüşdür ki, YUNESKO beynəlxalq təşkilat olaraq, hökumətlərlə birgə, üzv ölkələrdə iqtisadi və texnoloji yenidənqurma proseslərinə aid siyasətin işlənib hazırlanmasına, elmi biliklərdən sistemli olaraq istifadə olunmasına daha çox səy göstərməlidir.

Ümumdünya İntellektual Mülkiyyət Təşkilatına (ÜİMT) üzv ölkələr, məlumat və informasiyaların elmi tərəqqi üçün çox böyük əhəmiyyət kəsb etdiyini yəqin edərək, onun İntellektual Mülkiyyət hüququnun qorunmasını təmin edə biləcək sistemini yaratmalıdırlar. ÜİMT isə Beynəlxalq təşkilatlarla əməkdaşlıq üçün lazım olan beynəlxalq hüquq sənədlərini hazırlamalıdır.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) İM hüququnun ticarəti ilə bağlı Müqavilə (TRİP) üzrə danışıqların yeni mərhələsinin başlanması ilə əlaqədar olaraq, elm ictimaiyyətinin hərtərəfli iştirakı şərtilə, Cənub ölkələrində elmi tərəqqinin maliyyələşməsini təmin etməyə xidmət edən yeni mexanizmlər nəzərdə tutmalıdır. Bununla əlaqədar olaraq EBŞ-in beynəlxalq proqramları və YUNESKO-nun dövlətlərarası elmi proqramları katalizator rolu oynamalı, xüsusi halda məlumatların toplanması, işlənməsi üsullarının müqayisə oluna bilməsini yaxşılaşdırmağa kömək etməklə və elmi biliklərə çatmağı asanlaşdırmalıdır.

Konfrans sənədlərinin "Elm və Texnika" bölməsində deyilir ki, elm və texnologiya sənaye və iqtisadi inkişafın hərəkətverici qüvvəsidir. Ölkələrin elm və texnikanın ən müasir nailiyyətlərindən istifadə edə bilmək imkanları arasında yaranan fərq, iqtisadi effektivlik səviyyələri arasında fərqin gələcəkdə artmasına aparır, sənaye cəhətdən inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrin gəlirləri arasındakı fərqin daha da artmasına səbəb olur.

Bütün sahələrdə yeniliklərin tətbiqi və fundamental tədqiqatlar və texniki işlənmələr arasında ikitərəfli əks əlaqə və onların yayılması ilə daha yüksək dərəcədə xarakterizə olunur. Bu, texnologiyaların verilməsi ilə bağlı olan tələbatın xarakterini dəyişir, daxili siyasətə və beynəlxalq əməkdaşlığa təsir etməklə, yeniliklərin tətbiqində özünü yaxşı göstərən inkişaf etməkdə olan ölkələrin imkanlarını genişləndirir. İndi əsas prioritetlərdən biri milli elmi-texniki instrukturların və

uyğun insan resurslarının yaradılmasına və inkişafına kömək etmək olmalıdır.

Məlumdur ki, adı çəkilən və çəkilməyən mövcud və gözlənilən problemlərin bir çoxunu ancaq bir elmlə həll etmək mümkün deyildir. Vacibdir ki, elmi bilikləri yaradan və istifadə edənlər arasında, onlara kömək edənlər və onları maliyyələşdirənlər, onların tətbiqi məsələləri ilə məşğul olanlar və onlara bu və ya digər şəkildə təsir göstərmək imkanında olanlar arasında yeni münasibətlər yaransın. Konfransda qəbul olunmuş yeni öhdəliklərin əsas mahiyyəti və ruhu da bundan ibarətdir.

Unutmaq olmaz ki, əgər elm sahəsində və onun tətbiq sahələrində ancaq əhalinin bir təbəqəsi və ya bir qrup ölkələr aktiv rol oynasalar, onda təbii ki, tarazlığın pozulması güclənər və uyğunsuzluq yaranar və hətta sülh qorxu altına düşər. BU səbəbdən elm qarşısında çoxtərəfli öhdəliklərin müəyyənləşdirilməsi və yerinə yetirilməsində hər bir ölkə, beynəlxalq təşkilat özünün payını verməlidir.

Konfrans iştirakçıları belə bir nəticəyə gəlmişlər ki, daxili imkanlar hesabına inkişaf üçün potensial yaratmaq ən böyük əhəmiyyətə malikdir və hər bir ölkə o sahələrdə elmi bilikləri inkişaf etdirməlidir ki, onlar onun prioritet məsələlərinin həllinə cavab vermiş olsunlar.

Məlumdur ki, bu gün, yeni kommunikasiya informasiya texnologiyaları, informasiyanın işlənməsinin, qiymətləndirilməsinin və istifadə olunmasının yeni üsulları da daxil olmaqla, elmi iş sahəsində yeni istiqamətlər, metodlar və sahələr yaradan dəyişikliklərin vacib faktorlarından birinə çevrilmişdir. Bununla əlaqədar olaraq, vacibdir ki, işlənmə və istifadə, əsl beynəlxalq elmi dialoqa kömək göstərmək də daxil olmaqla, informasiyanın geniş yayılmasına və onun əldə olunmasına kömək etməklə, dünyanın müxtəlif regionlarında alimlər üçün bərabər imkanlar təmin etməklə həyata keçirilsinlər.

Daha geniş yayıma və istifadəyə xidmət edən əsas vasitə, tədqiqat və kadrların hazırlanması üçün regional və beynəlxalq şəbəkələr yaradılmasıdır, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin elmi cəmiyyətləri arasında həmkarlıq əlaqələri, elmi biliklərin və təcrübənin verilməsinin və onlarla mübadilənin konkret proqramı yaradılmalıdır.

Elm sülhün və inkişafın xidmətində ən real vasitədir və o, bunu, ən əvvəl, insanların əsas tələblərinin ödənilməsi işində yerinə yetirir. Bir sıra ölkələrin rastlaşdığı yoxsulluq və asılılıqdan, digər tədbirlərlə yanaşı, elm və texnikanın lazımi səviyyədə inkişafı və istifadəsi ilə xilas olmaq mümkündür. Mahiyyətcə bundan ancaq bütün dünya udar, belə ki, dünyada 120-dən yuxarı inkişaf etməkdə olan ölkə vardır və bunlarda ümumdünya əhalisinin dörddən üçü yaşayır. Odur ki, bu ölkələr elmi fəaliyyətdə aktiv iştirak etməzlərsə, «biz dünya elmi», "dünya firavanlığı" haqda da danışa bilmərik.

Elm ətraf mühit və dayanıqlı inkişaf kimi sahələrin tənzimlənməsi işində əvəzsiz imkanlara malikdir. Bunun üçün onun özünün davamlı inkişafı təmin olunmalıdır, yəni ölkənin tələbatına cavab verən elmi bazanın yaradılması və balanslaşdırılmış inkişafı tələb olunur. Əlbəttə buna nail olmaq çox asan iş olmamaqla yanaşı, həm də uzun vaxt tələb edir. Hesab edirik ki, bu işdə regional və beynəlxalq səviyyələrdə əməkdaşlıq yardım edə bilər. Məsələn, müvəqqəti olaraq təsis olunan, region üzrə mərkəzləşdirilmiş və ixtisaslaşdırılmış tədris və elm müəssisələrinin köməkliyi ilə əməkdaşlıq formalaşa bilər. Bu yolla inkişaf edən ölkələrin intellektual potensialından maksimum istifadə etmək, insan və cəmiyyətin firavanlığını optimal təmin etmək olar.

Qeyri-maddi dəyərlərin daha yaxşı təyin olunması, başa düşülməsi və onların əhəmiyyətlərinin qəbul olunması, intellektual mülkiyyət hüququ kimi sahələrdə qeyri-maddi investisiyaların nəticələrinin qorunması məqsədilə müxtəlif beynəlxalq təşkilatlar arasında əməkdaşlığı inkişaf etdirmək lazımdır.

Beynəlxalq səviyyədə qəbul olunan hüquqi əsas İM hüququnun mühafizəsini təmin etməlidir və müxtəlif yanaşmalara imkan verən mövcud çərçivə sənədlərində əks olunmuş qaydaları tanımalıdır.

Bütün dünya ölkələri Birləşmiş Millətlər Təşkilatının uyğun göstərişlərini birqiymətli və sözsüz yerinə yetirəcəklərini öhdələrinə götürdüklərini nəzərə alaraq, BMT Baş katibi Kofi Annanın «Minilliklə» bağlı məruzəsindən və elm üzrə Ümumdünya Konfransının sənədlərindən irəli gələn tələblərə əsaslanaraq, bazar iqtisadiyyatının çevik elmi fəaliyyətə söykəndiyini əsas tutaraq və nəhayət, İM-in iqti-

sadiyyatda rolunu nəzərə alaraq, YUNESKO-ya üzv ölkələrin inkişaf surətini artırmaq məqsədilə aşağıdakı təkliflər irəli sürülür:

1.Elm, təhsil və mədəniyyət sahəsində ÜİMT-na üzv ölkələr arası inteqrasiya məqsədilə İntellektual Mülkiyyət Hüququ ilə bağlı bu ölkələrin iqtisadiyyatları üzrə vahid tələb-təklif bazarının yaradılması işinin təşkili.

2.Elm üzrə Ümumdünya Konfransının «inkişaf etməkdə olan ölkələrin elm potensialının yaradılması və inkişaf etdirilməsi işi regional və beynəlxalq əməkdaşlığa söykənməlidir», tələbinə əsaslanaraq, YUNESKO, ÜİMT və region ölkələrinin iştirakı ilə bu ölkələrin beynəlxalq aləmdə tanınmış milli elmi-texniki tədris və tədqiqat bazalarının əsasında, İM hüququna aid məsələlər də daxil regiona aid ölkələrdə uyğun filialları olan tədqiqat və kadrların hazırlanmasını (tədris və elmi tədqiqatı) birləşdirən regional mərkəzlər sisteminin yaradılması və müasir rabitə və informasiyaların ötürülməsi texnologiyası əsasında bu sistemlərin gün ərzində aramsız fəaliyyətinin təşkili.

3.İnkişaf etməkdə olan və yeni müstəqil dövlətlərdə, İM hüququnu inkişaf etdirməklə yanaşı onu yaradanların qorunması məsələsi həll olunmalıdır. Keçid dövrünü çox ağır keçirən Yeni müstəqil dövlətlərdə, ən əvvəl, bu günə formalaşmış İM-i yaradanlar ordusunun fəaliyyətsizləşməsinin qarşısı alınmalıdır. Bunun üçün YUNESKO-ya üzv inkişaf etməkdə olan ölkələrin iqtisadi və elmi problemlərini əhatə edən proqramların investisiyalaşdırılması genişləndirilməlidir. (Azərbaycan elm potensialı da bu proqramların yerinə yetirilməsinə yönəldilməlidir–A.M.).

4.BMT Baş Assambleyasının 2001-ci ili BMT-nin himayəsi altında mədəniyyətlər arası müzakirələr, möhkəm sülh (dialoq) ili elan etməsini və bu məsələdə elmin aparıcı qüvvə olduğunu, İM hüququnun verilməsinin və sonda tətbiqinin elmi fəaliyyətdə həlledici mərhələ olduğunu, nəhayət, İM hüququnu təkcə almaqla ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etməyin mümkün olmadığını nəzərə alaraq, ÜİMT, üzv ölkələrin öz İM-ni yaratmalarına kömək etməlidir.

5.YUNESKO, üzv ölkələrə, qlobal problemlərinin həllində başqa regional təşkilatlarla əməkdaşlıq etməyə yardımçı olmalıdır.

6.İM hüququnun (elmi fəaliyyətin nəticələrinin bütövlükdə) yaradılması və verilməsi (eləcə də alınması) zamanı etik məsələlərə xüsusi diqqət yetirilməlidir, köhnəlmiş və zərərli texnologiyaların inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə köçürülməsinin qarşısı alınmalı, təmiz və təhlükəsiz texnologiyalara istiqamət götürülməlidir. Bu, inkişaf etmiş ölkələrin də etik borcudur, YUNESKO-nun nəzarəti vacibdir. Bu baxımdan, beynəlxalq təşkilatlarda bu ölkələrin alimlərinin dünyada (və regionda) nüvə, bakterioloji və s. kütləvi qırğın silahlarının yaradılmasına, sınaqdan çıxarılmasına, istehsalına və yayılmasına, ətraf mühitin qlobal çirklənməsinə, sülhün pozulmasına qarşı birgə mübarizələrinin təşkili öz həllini tapmalıdır.

7.BMT-nın Baş Katibi Kofi Annanın «Minilliklə» bağlı məruzəsində qlobal idarəetmə və İnsan İnkişafı ilə bağlı BMT-yə yeni əlavə hüquqların verilməsi haqda tələbini əsas tutaraq, Elm üzrə Ümumdünya Konfransının inkişaf edən ölkələrdə elmi kadrların hazırlanması və elmi tədqiqatların inkişaf etdirilməsi ilə bağlı YUNESKO-ya yeni əlavə hüquqların verilməsi haqda irəli sürdüyü təklif və çağırışlarını nəzərə alıb, bu işlərin sürətləndirilməsi məqsədilə, inkişaf edən ölkələrə İM Hüququnun güzəştli şərtlərlə verilməsi məqsədə uyğun sayılır. Bunun üçün ÜİMT-na yeni funksiyaların verilməsi haqda BMT Baş Assambleyası qarşısında məsələ qaldırmaq təklif olunur.

8.BMT Baş Katibi Kofi Annanın «Minillik» məruzəsində və «XXI əsrdə elm: yeni öhdəliklər» Elm üzrə Ümumdünya Konfransının yekun sənədlərində əksini tapmış çağırışlara uyğun, ölkələrin elm üzrə XXI əsr vəzifə və öhdəliklərini müəyyənləşdirmək məqsədilə YUNESKO-nun, MSNS-nin və ÜİMT-nin birgə himayəsi ilə üzv ölkələrdə, (deməli, o cümlədən, respublikamız – Azərbaycanda) «XXI əsrdə elm: öhdəliklər və vəzifələr» mövzusunda konfrans keçirilməsi də həllini tapmalıdır.

3.2. Azərbaycan elmi XXI əsrdə: yeni öhdəliklər və vəzifələr

"XXI əsr elmi: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransının yekun sənədlərinin tələbləri əsasında Azərbaycan Respublikasının elm üzrə öhdəlikləri müəyyənləşdirilməlidir.

XX əsrin sonuna yaxınlaşdıqca dünyada baş verən proseslərin qloballaşması ölkələri qorxu altında saxlayan təhlükələrin də qloballaşması ilə müşayiət olunduğu dünya elm ictimaiyyətinin daima diqqət mərkəzində olmuşdur. Onlar başa düşürdülər ki, iqtisadi inkişafın əsasını təşkil edən elm, həm də qloballaşmanın mənbəyidir.

Bütün bunlar o deməkdir ki, elmin müsbət cəhətləri ilə yanaşı, ortaya qoyduğu qloballaşmanın dünya ictimaiyyətini bütövlükdə narahat edən, kütləvi fəlakətlərlə də nəticələnmə ehtimalı yox deyildir. Məs., ətraf mühitin qlobal çirklənməsi kimi ekoloji məsələlər və s. Qloballaşmanın bu ziddiyyətli xüsusiyyətləri onun idarə olunması yollarını mütləq axtarıb tapmağı tələb edir. Bu isə, ilk növbədə, dünya elm ictimaiyyətinin ən vacib işidir.

"XXI əsr elmi: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransında qəbul olunmuş əsas sənədlərdən irəli gələn tələbləri və onların istiqamətlərini, xalqlar arasında münasibətlərdə formalaşmaları /onlara olan fərqli münasibətləri/ nəzərə alaraq, mütləq regional əməkdaşlıq mənasında daha sıx birləşmək yolları haqda düşünülməli və əməli fəaliyyətə keçilməlidir. Özü də bu əməkdaşlıq, ilk öncə, elmi fəaliyyətlərin əlaqələndirilməsi istiqamətində olmalıdır. Azərbaycanın qoşulmuş olduğu beynəlxalq təşkilatlarda bu işin səmərəli təşkili, xüsusilə Avropa Şurası Təşkilatında bu istiqamətdə fəaliyyət böyük ümidlər verir.

Müasir iqtisadiyyatın xüsusiyyətləri – çox istiqamətlilik və qloballıqdır. Eləcə də iqtisadiyyatın, inkişaf etmiş ölkələrin sıçrayışla inkişafını təmin etmiş elmi fəaliyyətlə sıx bağlılığı da bu xüsusiyyətlərdəndir. Daima artan elmi-texniki tərəqqi ölkələrin sosial-iqtisadi yüksəlişinin davamlı və öz təsir gücünü getdikcə artıran ümumi iqtisadi inkişaf amilinə çevrilmişdir. Azərbaycan iqtisadiyyatının əhatə etdiyi sahələrin genişliyi elmi fəaliyyətin də genişliyini tələb edir.

Azərbaycan iqtisadiyyatının böyük resurs imkanları vardır və bəziləri qonşu dövlətlərin imkanlarına görə ümumi oxşarlığa malikdirlər. Odur ki, onların inkişaf etmiş iqtisadiyyatlarının aparıcı istiqamətlərinin bir-çox hallarda eyniliyi onun bu həmsərhəd dövlətlərlə iqtisadi sahələrdə qarşılıqlı bağlılığını müəyyən dərəcədə azaldır. Belə sahələrdə bu ölkələrlə elmi fəaliyyət sahəsində əməkdaşlıq Azərbaycan üçün ön plana çıxır. Ümumiyyətlə elmi fəaliyyət sahəsində əməkdaşlıq universal təbiətlidir, yəni bütün ölkələrlə qurula bilər.

Reallıqlar nəzərə alınmaqla Azərbaycanın dünya təsərrüfat sisteminə qovuşmasının imkanları müəyyənləşdirilməlidir. Beynəlxalq əməkdaşlıq sadə bir iş olmayıb, daxili və xarici amillərin, şərait və imkanların fəal müdaxiləsinə məruz qalır. Qloballaşma ilə bağlı ölkələrin bir-birindən asılılığı mövcuddur və bu səbəbdən beynəlxalq əməkdaşlıq zərurət olaraq ortaya çıxır, lakin bu əməkdaşlıq qarşılıqlı maraqlar–güzəştlər əsasında qurulur.

Sovet dövlətinin dağılması nəticəsində soyuq müharibənin aradan qalxması və Azərbaycanın müstəqilləşməsi ilə onun qapalı sovet sistemindən kənara çıxmasına, onun bir–çox Avropa, Asiya ölkələri ilə müstəqil dövlət olaraq, əməkdaşlıq əlaqələri yaratmasına imkan yaranmışdır. Bununla belə Sovet dövləti dağılandan dərhal sonra keçmiş respublikalar arası iqtisadi və elmi əlaqələr böyük sürətlə pozulmuşdur. Bizcə, Azərbaycanın bu respublikalarla bəzi əlaqələrinin qalmasının əsas səbəbi bu olub ki, respublikalar əvəz edici istehsal sahələrini, məsələn, Sumqayıt kimya müəssisələrinin bəzi məhsullarını başqa yollarla əldə etmək imkanında olmamışlar.

Azərbaycanda yenidənqurmanın başlanması ilə planlı təsərrüfat dağıldı, yenisi isə hələ ki, yaranmamışdır. Bu işdə dövlət nəzarəti nəinki olmamış, əksinə, sanki əks istiqamətdə olmuşdur. Odur ki. bu gün də Azərbaycanda, sözün əsl mənasında, sərt planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçid və iqtisadi inkişaf modelləri haqda söhbət etmək özünü doğrultmaz. Bunun üçün mütləq Azərbaycanın bugünkü real vəziyyəti araşdırılmalı, olan səviyyədən bazar iqtisadiyyatına keçid və uyğun iqtisadi inkişaf modelləri öyrənilməlidir. Yeri gəlmişkən, oxşar keçid nəticəsində Çin Xalq Respublikasında iqtisadi möcüzə baş

vermişdir. Onun aşağıdakı səbəblərini xüsusi olaraq qeyd etməyi lazım bilirik:

–Çində bazar iqtisadiyyatına keçid bütün ölkədə deyil, əvvəlcə təkcə bir bölgədə /Şanxayda/ olmuşdur;

–bazar iqtisadiyyatına keçid dövlətin maraqlarına uyğun olaraq, onun tam nəzarəti və planları ilə həyata keçirilib, anarxiya və subyektivliklərə yol verilməyib;

–dövlətin yardım etmək imkanları ilə yanaşı dövlətin iqtisadi proqramları olub;

–sahibkarlığa güzəştlər nəzərdə tutan qanunvericilik olub;

–istər sovet dövründə, istərsə də sonra Çində, müstəqil dövlət olaraq rüşvət və korrupsiya olmayıb və s.

Bütün bunların nəticəsində Çində bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi inkişaf modeli yaradılıb həyata keçirilə bilmişdir.

Azərbaycan Respublikası iqtisadiyyatı ilə bağlı ortaya çıxan problemləri həll etmək iqtidarında olan yüksək elmi-texniki potensiala /əsasən, kadr cəhətdən/ malikdir. Bununla belə, elmi-texniki kooperasiyanı inkişaf etdirdikdə nəzərə alınmalıdır ki,

- Sosial-iqtisadi fəaliyyət sahəsində hər bir dövlətdə tarixi xüsusiyyətləri ilə şərtlənən milli adətlər mövcuddur.

- Azərbaycan Respublikasının iqtisadi /elmi/ əlaqələrinin vəziyyəti belədir ki, bir tərəfdən bu vaxta qədər formalaşmış əlaqələr getdikcə zəifləyir və aradan çıxmaq üzrədir, yeniləri isə yaransa da, hələlik sıx əməkdaşlıq səviyyəsinə çata bilməmişdir.

- Siyasi və iqtisadi cəhətdən güclü dövlətlərin /ABŞ, Rusiya/, qonşu dövlətlərin /Türkiyə, İran / və beynəlxalq ittifaqların /Avropa İttifaqının/ Azərbaycan Respublikasına təsirləri mövcuddur .

- Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasında iqtisadi və elmi-texniki siyasətin yenidən formalaşması başa çatmamışdır.

Qeyd olunan faktlar həm iqtisadi əməkdaşlıqda, həm də elmi-texniki əməkdaşlıqda başlanğıc mərhələnin xüsusi əhəmiyyət kəsb etdiyini müəyyən edir.

Konfransdan çox illər keçmişdir. Hesab edirik ki, bu gün Azərbaycan Respublikasında Konfransın tələblərinin necə yerinə yetiril-

məsinin açıqlanması və gələcək vəzifələrinin müəyyənləşdirilməsi olduqca vacibdir. Bu, həm də, Azərbaycanın artıq qədəm qoyduğu qloballaşmanın da tələbidir.

İM hüququnun təkcə kənardan alınması ilə ölkə iqtisadiyyatının davamlı inkişaf etməsini təmin etməyin mümkün olmadığını nəzərə alaraq, Konfransda dövlətin, universitetlərin və tədqiqat institutlarının, qeyri dövlət təşkilatlarının və bütövlükdə cəmiyyətin kömək etmək üzrə öhdəlikləri tələb olaraq, ortaya qoyulmuşdur.

Ümumbəşəri əhəmiyyətli çağırışları əhatə edən bu sənədlərdə deyilir ki, Elmi tədqiqatların və elmi biliklərdən istifadənin məqsədi həmişə insanlığın firavanlığı olmalıdır. Bunlar bizim gələcək nəsil qarşısındakı məsuliyyətimizi bütövlükdə nəzərə almalıdırlar. Hökumətlər, beynəlxalq təşkilatlar və elmi-texniki idarələr hər bir ölkənin prioritet məsələlərinə uyğun olan insan və cəmiyyətin həyati problemlərini aşkarlamağa, öyrənməyə və həll etməyə yönəlmiş tədqiqatlara kömək etməlidirlər.

Texnologiyaların verilməsindən əvvəl, əhali və cəmiyyətə onun necə təsir edəcəyinin sosial analizi aparılmalıdır.

İnkişaf edən və keçid dövrünü yaşayan ölkələrin hökumətləri, beynəlxalq təşkilatlar təhsil işçilərinin və texnika kadrlarının statusunun möhkəmləndirilməsinə, elm və texnika sahələrində yeni professiyaların kütləviləşdirilməsinə kömək etməklə, hazırlanmış alim kadrların qorunub saxlanıla bilməsi imkanlarını möhkəmləndirməlidirlər. Eləcə də ölkədən inkişaf etmiş ölkələrə getmiş alim, mühəndis və texniklərlə əməkdaşlıq proqramları tərtib edib genişləndirmək lazımdır.

Tədris müəssisələrinin quruluşu və onların tədris proqramlarının tərtibi açıq və çevik xarakterdə olmalıdır ki, onları cəmiyyətin yaranan tələbatına uyğunlaşdırmaq olsun. Müasir dövrün tələbi - elmin etikası və məsuliyyəti – təhsilin və bütün alimlərin hazırlanmasının ayrılmaz tərkib hissəsi olmasıdır. Elmi biliklərin və texnologiyaların etikası üzrə YUNESKO-nun Ümumdünya Komissiyası (KOMEST) elm sahəsində məsuliyyət və etika məsələləri üzrə MSNS-nin Daimi Komitəsi ilə əməkdaşlıq şəraitində bu məsələ ilə bağlı xüsusi məsuliyyət daşıyırlar.

Elmi-tədqiqat müəssisələri elmi işlərin etik cəhətlərinin öyrənilməsinə kömək etməlidirlər. Elmi fəaliyyətin etik nəticələrinin və tənzimləmə vasitələrinin analizi və monitorinqi üçün xüsusi elmi-tədqiqat proqramları olmalıdır.

Beynəlxalq elm ictimaiyyətinə digər iştirakçılarla birgə ekoloji davranış kodekslərinin formalaşmasına kömək etmiş olacaq müzakirələrin nəticələrini təbliğ etmək lazımdır.

Alimlər elmi-texniki nailiyyətlərdən düzgün istifadə olunmasını daima mühakimə etməlidirlər. Belə hesab olunmuşdur ki, bu işlər YUNESKO və MSNS çərçivəsində qapanıb qalmamalı, elmlə bağlı bütün beynəlxalq təşkilatların işi olmalıdır, o cümlədən, hökumətlərlə birgə İSESKO, beynəlxalq təşkilat olaraq, üzv ölkələrdə iqtisadi və texnoloji yenidənqurma proseslərinə aid siyasətin işlənib hazırlanmasında, sistemli olaraq, elmi biliklərdən istifadə olunmasına daha çox səy göstərilməlidir.

Bütün üzv ölkələr məlumat və informasiyaların elmi tərəqqi üçün çox böyük əhəmiyyət kəsb etdiyini yəqin edərək, onun intellektual Mülkiyyət Hüququnun qorunmasını təmin edə biləcək sistemini yaratmalıdırlar.

Uyğun beynəlxalq təşkilatlarla əməkdaşlıq zamanı ÜİMT beynəlxalq hüquq çərçivələrini işləyib hazırlamalıdır.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) İM hüququnun ticarəti ilə bağlı müqavilə üzrə (TRİPS) elm ictimaiyyətinin hər tərəfli iştirakı şərtilə, Cənub ölkələrində elmi-tərəqqinin maliyyələşməsini təmin etməyə xidmət edən yeni mexanizmlər nəzərdə tutmalıdır. Bununla əlaqədar olaraq MSNS-nin beynəlxalq proqramları və YUNESKO-nun dövlətlərarası elmi proqramları katalizator rolu oynamalı, xüsusi halda məlumatların toplanması və işlənməsi üsullarının müqayisə oluna bilməsini yaxşılaşdırmağa kömək etməklə və elmi biliklərə çatmağı asanlaşdırmalıdır.

İndi isə Azərbaycan Respublikasının "XXI əsr elmi: yeni öhdəliklər" Elm üzrə Ümumdünya Konfransının tələblərindən irəli gələn öhdəlik və vəzifələrinin nələrdən ibarət olduğuna diqqət yetirək.

Konfransda müəyyənləşdirilmiş elmi fəaliyyətlər üzrə öhdəliklər		*Azərbaycan Respublikasının vəzifə və öhdəlikləri*
Elmi fəaliyyətlər	*Öhdəliklər*	*Öhdəliklər*
1	2	3
1.Elmi-texniki tədqiqatlar və onların maliyyələşdirilməsinin yeni yolları	1.1. Hər bir ölkə konkret maraq doğuran sahələrdə elmi-tədqiqatlar aparılması və mütəxəssislər hazırlanması imkanlarına malik olan yüksək keyfiyyətli elm müəssisələrinə malik olmalıdır. Əgər ölkələr belə müəssisələr yaratmaq imkanında deyillərsə, onda beynəlxalq birliklər həmkarlıq və ya beynəlxalq əməkdaşlıq yolu ilə onlara lazımi kömək göstərməlidirlər.	1.1.Azərbaycan Respublikasının iqtisadiyyatı ilə bağlı elm müəssisələrinə malikdir və demək olar ki, bir çox hallarda digər inkişaf edən ölkələrə yardım etmək imkanı vardır-həm dəvət etməklə, həm də yerlərə kadr göndərməklə. Bununla belə Azərbaycan Respublikasının maraq dairəsində olan yeni elm müəssisələrinin yaradılmasına ehtiyacı vardır ki, bu ancaq b/x aləmdən kömək almaqla uğurla həll oluna bilər. Bu sahələr alim və elm ictimaiyyətini bütövlükdə dinləməklə müəyyən olunmalıdır.
	1.2. Dövlətlər, bütün uyğun sektorları və iştirakçıları da əhatə edən xüsusi mexanizmlərin köməyi ilə ölkənin tələbatını müəyyənləşdirməli və müxtəlif sahələrdə tərəqqiyə çatmaq üçün zəruri olan dövlət tədqiqatlarına üstünlük verməklə yanaşı, onların stabil maliyyələşməsini təmin etməlidirlər.	1.2.İqtisadi inkişafın əsasını təşkil edən bu fəaliyyət növü Azərbaycan Respublikası üçün ən ağrılıdır. Ona görə ki, əgər ölkənin tələbatını müəyyən etməklə uyğun elmi-tədqiqatların tərtibi tələbi bu və ya digər səviyyədə elm ictimaiyyətinin gücünə uyğundursa, tədqiqatların maliyyələşməsinin

		miqdarı daxil üsulu uyğun deyil. Bu tələbi bu gün, çox az da olsa, dövlətin elmə ayırdığı maliyyə səviyyəsində, qismən də olsa, yerinə yetirmək olar. Bunun üçün elmi tədqiqatların maliyyələşməsi üsulu b/x standartlara uyğunlaşdırılmalıdır.
	1.3. Dövlətlər və özəl sektor tərəfindən elmi tədqiqatların maliyyələşməsinin müxtəlif mexanizmləri arasında uyğun balanslaşdırılma təmin olunmalı və alınacaq nəticələrin şəffaflığına dövlətlər tərəfindən zəmanət verilməsi şərtilə dövlət və özəl sektorlar arasında çevik sxemlərin tətbiqi əsasında həmkarlıq əlaqələrindən istifadə etməklə, tənzimləmə və stimullaşdırmanın uyğun sistemlərinin köməyi ilə maliyyələşmə imkanlarını axtarıb tapmalı və ya genişləndirməlidirlər.	1.3. Bu fəaliyyət Azərbaycan Respublikası üçün mümkün olandır. Burada özəl sektorun da xarici investorları cəlb etmək imkanından istifadə etmək lazımdır. Bunun üçün ona dövlət qarantiyası verməklə yanaşı stimullaşdırmaq da lazımdır.
	1.4. Universitetlər elmin bütün sahələrindəki proqramlarını həm təhsilə, həm də elmi tədqiqatlara və eləcə də onlar arası əlaqəyə yönəltməlidirlər. Universitetlərdəki elmi tədqiqatlar təbiətşünaslıq üzrə təhsilin bir hissəsi olmalı, kammunikasiya vərdişlərinə və sosial elmlərin əsaslarına yiyələnmək alimlərin təhsilinin bir hissəsinə çevrilməlidir.	1.4.Universitetlərdən tələb olunan bu öhdəliklərin Azərbaycanda yerinə yetirilə bilməsi üçün bu təhsil müəssisələrimizdə əsaslı islahatların aparılması lazımdır. Bu islahatlar onlarda elmi-tədqiqat sektorunun əsaslı şəkildə gücləndirilməsini tələb edir. Bugünkü imkanlar daxilində EA institutları ilə universitetlərin uyğun kafedralarını

		yaxınlaşdırmaqla bunu həll etmək mümkündür. Bu yaxınlaşma elm kadrlarından bütövlükdə təhsil sahəsi də daxil olmaqla səmərəli istifadə etməyə imkan verər.
	1.5. Elm və texnika üçün nəzərdə tutulan maliyyə vəsaitlərinin donor və alanları arasında sıx dialoq olmalıdır. Universitetlər, elmi-tədqiqat müəssisələri və sənaye sahələri arasında daha sıx əməkdaşlıq inkişaf tapmalıdır; elmi-texniki layihələrin maliyyələşməsinə kömək etmək vacibdir; sənayenin möhkəmlənməsinə və biliklərin artmasına xidmət edən elmi-texniki nailiyyətlərə əsaslanan layihələrin maliyyələşməsinə kömək etmək vacibdir.	1.5. Bu öhdəliyin ünvanlandığı özəl sektor və maliyyələşdirən təşkilatlarımızın elmi fəaliyyətə meyl göstərmələri üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Qloballaşma şəraitində elmi nailiyyətlərə əsaslanan sənayeyə malik olmadan müstəqil yaşamaq mümkün deyil.
2.Ekoloji Problemlərin həllinə istiqamətlənmiş tədqiqatlar	2.1. BMT-nin uyğun müəssisələri ilə birgə qeyd olunan qurumlar ətraf mühit sahəsində elmi tədqiqatların qlobal, regional və milli proqramlarını möhkəmləndirməli və ya yenilərini işləyib hazırlamalıdırlar. Milli tədqiqatların belə proqramları potensialların yaradılması üzrə tədbirləri nəzərdə tutmalıdırlar. Xüsusi diqqət tələb edən sahələrə təmiz su ehtiyatları və hidroloji sikl, iqlimin dəyişməsi və rəqsi, okeanlar, dəniz sahili zonaları, polyar sahələr, bioloji	2.1.Bu öhdəlik üzrə Azərbaycan Respublikası qoşulmuş olduğu b/x təşkilatlarla birgə işlənməlidir.

	müxtəlifliklər, səhralaşma, meşəsizləşmə, bio-geokimyəvi sikllər və təbii fəlakətlər aid edilirlər. Qonşu ölkələrin və ya ekoloji şəraitləri oxşar olan ölkələrin əməkdaşlığı, ümumi ekoloji problemlərin həlli olduğundan, müdafiə olunmalıdırlar.	
	2.2. Yer sisteminin bütün komponentləri üzərində sistemli olaraq uzun müddətli müşahidələr aparmaq vacibdir; bunun üçün dövlət və özəl sektor qlobal müşahidələr sisteminin gələcək inkişafına güclü kömək göstərməlidirlər. Monitorinq proqramının effektivliyi həlledici dərəcədə müşahidə məlumatlarının şəffaflığından asılıdır.	2.2. Dövlət və özəl sektora ünvanlanmış bu öhdəlik ölkə və region daxili müşahidələr səviyyəsində, şəffaflıq gözlənilməklə yerinə yetirilməlidir.
	2.3. Dövlət və özəl sektor təmiz və dayanıqlı texnologiyalara, tullantıların təkrar emalına, bərpa oluna bilən enerji mənbələrinə və onlardan effektiv istifadə olunmasına aid olan elmi-texniki tədqiqatlara milli və beynəlxalq səviyyələrdə əsaslı kömək göstərməlidirlər. YUNESKO və BMT-nin sənaye inkişafı üzrə qurumu /YUNİDO/ da daxil olmaqla mötəbər beynəlxalq təşkilatlar hamı üçün açıq olan dayanıqlı texnologiyalar üzrə mümkün kitabxanaların yaradılmasına kömək etməlidirlər.	2.3. Bu öhdəliyin bütün elementləri Azərbaycanın maraq dairəsində olmaqla, elm potensialının imkanları daxilindədir. Göstərilən b/x təşkilatların göstərilən köməyindən istifadə etməklə, Respublikanın elm potensialından qonşu ölkələrin problemlərinin həllində istifadə etmək olar.

3.Texno.-ın cəm.-tə təsiri üzrə tədqiqatlar	3.1. Bax 8.5; 9.1	3.1. Bu öhdəlik Azərbaycan Respublikası üçün həyati əhəmiyyət kəsb edən məsələdir və tez bir zamanda həllini tapmalıdır.
	3.2. Bütün ölkələr sosial elmlər sahəsində tədqiqatları həvəsləndirməli və mükafatlandırmalıdırlar ki, bir tərəfdən elm və texnika sahəsindəki münasibətlərdə, digər tərəfdən – müxtəlif cəmiyyətlər və onların idarələri arasında yaranan problemləri daha yaxşı başa düşmək və bu problemlərin həllini idarə etmək mümkün olsun. Texnologiyaların verilməsi onun əhali və cəmiyyətə mümkün təsirinin sosial analizi ilə müşayiət olunmalıdır.	3.2. Dövlətə aid bu öhdəlik də Azərbaycan Respublikası üçün vacibdir və bunsuz iqtisadiyyatın bərpası və yüksəlişi pərdə arxasında qalır.
4.Universitetlərlə sənaye arasında həmkarlıq əlaqələri	4.1. Milli hökumətlər və özəl sektor universitetlərlə sənaye arasında, o cümlədən, elmi tədqiqat institutları ilə orta, kiçik və mikro müəssisələr arasında həmkarlığa kömək etməlidirlər ki, yeniliklərin tətbiqinə kömək etmək, elmə çəkilən xərci geri götürmək və bütün iştirakçıların faydalanması mümkün olsun.	4.1. Azərbaycan Respublikası üçün ən vacib məsələ kimi qiymətləndirilməlidir.

	4.2. Elm və texnika üzrə tədris proqramlarında problemlərin həllinə elmi yanaşmanı təşviq etmək /həvəsləndirmək/ lazımdır. Mühəndislik təhsilinə və fasiləsiz, peşə təhsilinə kömək etmək, sənayenin tələbatına daha operativ reaksiya vermək və eləcə də sənaye tərəfdən təhsil sahəsinə kömək göstərmək məqsədilə universitetlər və sənaye arasında əməkdaşlığı genişləndirmək vacibdir.	4.2. Azərbaycan Respublikası üçün ən vacib olmaqla yanaşı, həm də Respublikanın imkanları daxilindədir.
	4.3.Ölkələr tələbatlarına və ehtiyaclarına ən yaxşı tərzdə cavab verə bil məsi üçün qabaqcıl təcrübədən istifadə edib yeniliklərin tətbiqini artırmağa nail olmalıdırlar. Yeniliklərin tətbiqi artıq ayrı-ayrı elmi kəşflərlə bağlı xətti proses deyildir: indi yeniliklərin tətbiqində həmkarlıq əlaqələrini, biliklərin çoxsaylı sahələri arasında bağlılığı və çox saylı həmkarlar arasında daima əks əlaqəni nəzərə alan sistemli yanaşma olmalıdır. Mümkün olan təşəbbüslərə birgə tədqiqatlar mərkəzlərinin və elmi tədqiqat şəbəkələrinin, texnologiyaların «İnkubatorlarını» və elmi-tədqiqat parklarını, eləcə də texnologiyaların verilməsi və kiçik və orta müəssisələrə texnologiyaların verilməsi üçün məsləhət orqanlarının yaradılması aiddirlər. Elm və texnolo-	4.3. Azərbaycanda yerinə yetirilməsi üçün uyğun elmi fəaliyyətin dinamikliyini təmin edən kompleks tədbirlərin həyata keçirilməsi tələb olunur.

	giya arasında olan əlaqələrə aid məsələləri həll etmək üçün qlobal iqtisadi və texnoloji dəyişiklikləri nəzərə almaqla, yeniliklərin tətbiqinin milli sistemlərinə kömək etməyə yönəlmiş təşəbbüslər də daxil olmaqla, siyasətin konkret aləti işlənib hazırlanmalı.	
	4.4. Sənayenin, iqtisadiyyatın və sosial vəziyyətin inkişafına kömək məqsədilə, mütəxəssislərin səfərbərliyini təmin etməklə, bir tərəfdən universitetlərlə sənaye arasında, digər tərəfdən ölkələr arasında, o cümlədən, firmalar arasında həmkarlıq əlaqələri və tədqiqat şəbəkələrinin köməkliyi ilə texnologiyaların daha sürətlə verilməsinə kömək etmək vacibdir.	4.4. Elm və istehsal sahələrində çalışan alim və mütəxəssislərin səfərbərliyi – birgə /əlaqəli/ işləmələri qoyulan məsələlərin səmərəli nəticələnməsinə səbəb olar.
	4.5. Bax 1.5	4.5. Azərbaycan Respublikası elmi fəaliyyətin maliyyələşməsi üçün stabil mənbələr tapmalıdır.

	4.6. Dövlətlər iqtisadi və texnoloji dəyişikliklər prosesinə aid siyasəti işləyib hazırlayanda elmi biliklərdən daha sistemli əsaslarda istifadə etməyə səy göstərməlidirlər. Yeniliklərin mühafizəsi və eləcə də sənaye inkişafına və ya strukturun yenidən qurulmasına istiqamətlənmiş tədbirlərə yardımçı olaraq işlənib hazırlanan proqramlarda alimlərin payı onun ayrılmaz tərkib hissəsi olmalıdır.	4.6. Azərbaycan Respublikası buna xüsusi diqqət yetirməlidir.
5. Elmi etika.	5.1. Elmi tədqiqatların aparılması milli və beynəlxalq səviyyələrdə uyğun hüquq çərçivəsinə söykənməlidir. Bununla bağlı fikir ifadəsi azad lığı və intellektual hüquqların mühafizəsi xüsusi əhəmiyyət kəsb edir.	5.1. Azərbaycan Respublikasında bu hüquq qanunları işlənməlidir.
	5.6. Etika və elmin məsuliyyəti təhsilin və bütün biliklərin hazırlanmasının ayrılmaz tərkib hissəsi olmalıdır. Tələbələrdə peşəsilə rastlaşa biləcəyi dilemmaların analizinə müsbət münasibət inkişaf etdirmək, eləcə də bu dilemmaları qavramaq və başa düşmək vacibdir. Gənc alimlərə lazımdır ki, uyğun tərzdə əsas etik prinsiplərə yaxın dursunlar, onlara hörmət etsinlər və elmin cəmiyyət qarşısında məsuliyyət ruhunu rəhbər tutsunlar.	5.6. Etika və elmin məsuliyyəti Azərbaycanda, deyilənlərlə yanaşı, alimlərdən elm - elm üçün prinsipindən ayrılmanı, elm – insan üçün prinsipini əsas tutaraq, insanların yaşayışının yaxşılaşdırılmasını tələb edir. Kök salmış köhnə iş üsulundan əl çəkmək zəruridir.

	5.7. Elmi – tədqiqat idarələri elmi işlərin etik cəhətlərini öyrənməyə kömək etməlidirlər. Elmi fəaliyyətin etik nəticələrinin və tənzimləmə vəsaitlərinin analizi və monitorinqi üçün uyğun xüsusi fənlər arası elmi tədqiqat proqramları olmalıdır.	5.7. Nəzərə alınmalıdır.
	5.8. Elmi – tədqiqat idarələrinə təkidlə təklif olunur ki, etik normalara riayət olunsun və etik problemlər üzrə alimlərin öz düşüncələrini acıq bildirmələri hüquqlarına hörmət olunsun və elmi və texniki nailiyyətlərdən sui-istifadə olunması və ya onlardan düzgün istifadə olunmaması pislənilsin.	5.8. Bu Azərbaycanda demokratiyanın sürətlə inkişafına təsir göstərər.
	5.9. Alimlərin milli və beynəlxalq akademiyaları, elmi ittifaqlar və elmi cəmiyyətlər kimi professional təşkilatları elmi tədqiqatların inkişafına təsir göstərməkdə mühüm rol oynamalıdırlar. Bunun üçün onlar geniş ətrafda tanınmalı və dövlət köməyindən istifadə etməlidirlər. Qarşılıqlı maraq kəsb edən sahələrdə belə təşkilatların beynəlxalq əməkdaşlığını inkişaf etdirmək lazımdır. Çalışmaq lazımdır ki, onlar alimlərin öz fikirlərini azad ifadə etmələrində təkidli olsunlar.	5.9. Dövlət elmlə bağlı ictimai təşkilatların yerləşdirilməsi və nizamnaməsi üzrə işləmələrinə kömək və nəzarət etməlidir.

6. Elm sülh məqsədlərində.	6.1. Dövlətlər və özəl maliyyə təşkilatları sülh və elmin və texnikanın sülh məqsədlərində tətbiqi məsələləri ilə bağlı sahələrdə fənlər arası tədqiqatlar aparan elmi-tədqiqat institutlarını möhkəmləndirməli və inkişaf etdirməlidirlər. Hər bir ölkə bu işi ya milli səviyyədə və ya beynəlxalq fəaliyyətdə iştirak etməklə təmin etməlidir. Müharibələrin səbəblərinə və nəticələrinə, qarşıdurmaların xəbərdarlığına və tənzimlənməsinə həsr olunmuş elmi tədqiqatlara dövlətin və özəl sektorun köməyini artırmaq lazımdır.	6.1. Azərbaycan Respublikası b/x təşkilatların köməyindən istifadə etməklə, bu öhdəliklərin yerinə yetirilməsində aktiv iştirak etməlidir.
	6.2. Enerjidən istifadə, ehtiyatlara görə rəqabət və eləcə də havanın, torpaq və suyun çirklənməsi kimi potensial konfliktlərin əsasında duran məsələlərini həll etmək üçün dövlət və özəl sektor elm və texnikaya vəsait qoymalıdırlar.	6.2. Bu tip konfliktlərin mövcudluğunu aşkarlamaq üçün b/x təşkilatlarla ə/d etmək gərəkdir. Əks halda, qoyulan məsələləri sübuta yetirmək çətin olar.
	6.3. Hərbi və vətəndaş sektorları, alim və mühəndislər də daxil olmaqla silah və minaların ehtiyatlarının yığılması ilə bağlı problemlərin həllini axtarmaqda əməkdaşlıq etməlidirlər.	6.3. Azərbaycan üçün bu ə/d vacibdir.
	6.4. Hərbi xərcləri, elmin hərbi məqsədlərə yönəlməsini azaltmaq məqsədilə hökumətlərin nümayəndələri, vətəndaş cəmiyyəti və alimlər arası dialoqa kömək etmək lazımdır.	6.4. Azərbaycanın işğal olunmuş torpaqları azad olunandan sonra bu dialoqlar öz köməyini verə bilər.

7.Elm inkişaf məqsədində	7.1. Əhalinin əsas tələbatlarını ödəmək məqsədilə aparılan tədqiqatlar hər bir ölkənin inkişaf proqramının daimi elementi olmalıdır. Elmi tədqiqatlar sahəsində prioritetləri müəyyənləşdirərkən inkişaf etməkdə olan ölkələr və keçid dövrünü yaşa-yan ölkələr elm potensialı və informasiya planında tələbat və zəif tərəfləri ilə yanaşı, güclü tərəflərini də – yerli biliklər, nou-hau, insan və təbiət elmlərini də nəzərə almalıdırlar.	7.1. Bu öhdəlik hər bir ölkənin davamlı iqtisadi inkişafına aparır.
	7.2. Donor ölkələr, qeyri hökumət təşkilatları və hökumətlər arası təşkilatlar və BMT sisteminin idarələri yüksək keyfiyyətlərini saxlamaqla inkişafın təxirə salınmaz problemlərini həll etmək məqsədilə elm sahəsində olan proqramlarını möhkəmləndirməlidirlər.	7.2. Azərbaycan Respublikasının b/x donor ölkələrlə əlaqələrinin sistemləşdirilməsi vacibdir.
8. Elm və texnologiya sahəsində siyasət	8.1. bax 5.1	8.1. Azərbaycan hökuməti, ən əvvəl, elm və texnologiya sahəsində özünün siyasətini formalaşdırmalı və qəbul etməlidir.
	8.2. bax 4.2	8.2. bax 4.2.
	8.3. Elə bir milli siyasət qəbul olunmalıdır ki, elm və texnikaya ardıcıl və uzunmüddətli kömək göstərilməsini nəzərdə tutsun və nəticədə insan resursları bazası möhkəmlənsin, elm idarələri ya-	8.3. Azərbaycan Respublikası elm və texnologiya sahəsində elə bir milli siyasət yeritməlidir ki, bunlardan əlavə özəl sektorda da elmi fəaliyyət inkişaf tapsın, b/x

	ransın, elmi təhsil kamilləşsin və səviyyəsi qalxsın, elm milli mədəniyyətə inteqrasiya olunsun, infrastruktur inkişaf etsin, texnoloji və novatorluq potensialın möhkəmlənməsinə kömək olsun.	əlaqədə aktiv iştirak etsin, elm potensialı qorunub saxlanılsın və inkişaf etsin.
	8.4. Elə bir elmi texniki siyasət yeridilməlidir ki, bu siyasət uyğun fəaliyyətin sosial əhəmiyyətini, sülhü, mədəni müxtəliflik və gender fərqləri qəti olaraq nəzərə almış olsun. Elm sahəsində siyasətin mümkün variantlarını əhalinin də iştirakına əsaslanan demokratik müzakirəsinə kömək etmək üçün lazımi mexanizmlər işlənməlidir. Belə bir siyasətin müəyyənləşdirilməsində qadınlar da aktiv iştirak etməlidirlər.	8.4. Azərbaycanda da nəzərə alınmalıdır.
	8.5. Ağıllı və ədalətli sosial – iqtisadi inkişafa aparan qısa və uzun müddətli strategiyalar işləyib hazırlamaq məqsədilə cəmiyyətin bütün uyğun təbəqələrinin, o cümlədən, gənclərin fikirlərini diqqətə almaqla, bütün ölkələr sistemli olaraq, elm və texnika sahəsində siyasəti analiz edib öyrənməlidirlər. İndiki elm üzrə Ümumdünya məruzəsi ilə yanaşı, YUNESKO-nun texnologiya üzrə Ümumdünya məruzəsinin hazırlanması məsələsinə baxılmalıdır ki, texnologiyanın sosial sistemlərə və mədəniyyətə təsirini balanslaşdırılmış ümumdünya halı təmin oluna bilsin.	8.5. Elm və texnologiya siyasəti baş verən elmi, iqtisadi, sosial və müdafiə dəyişikliklərinə uyğunlaşdırılmalıdır.

	8.6. Hökumətlər elm və texnika sahəsində siyasət üzrə, eləcə də elmin sosial cəhətləri üzrə aspirant proqramlarını himayə etməlidirlər, hüquqi və etik problemlərin hazırlanmasında, eləcə də informasiya və kommunikasiya texnologiyaları, biomüxtəliflik və biotexnologiya kimi strateji sahələrdə b / x elmi tədqiqatların və işləmələrin tənzimlənməsi sahəsində həm bütün alimlər, həm də uyğun mütəxəssislər iştirak etməlidirlər. Elmin möhkəmlənməsi üzrə mütəxəssislərə və rəhbərlərə ixtisaslarının artırılmasına və hazırlığına daima imkan yaradılmalıdır ki, onlar müasir cəmiyyətin elm və texnika aləminə olan tələbatlarında baş verən dəyişiklikləri nəzərə ala bilsinlər.	8.6. Hökumət elmi fəaliyyətin maliyyələşdirilməsi yollarını axtarıb tapmalı və həyata keçirməlidir.
	8.7. Hökumətlər elm və texnika siyasətinin effektiv işlənməsini təmin etmək üçün zəruri olan elmi təhsil, elmi tədqiqatlar və işləmələr kimi məsələlər üzrə cins və ya uğursuz qruplara bölməklə, etibarlı məlumatlara olan tələbatı təmin etməyə qabil olan milli statistik xidmətlərin yaradılması və inkişaf etdirilməsinə kömək etməlidirlər.	8.7. Öhdəlik cəmiyyətdə ədalətin möhkəmlənməsinə xidmət edir.

9.Siyasi rəhbərlərə və ictimai sektora elmi məsləhətlərin verilməsi	9.1. İqtisadi və texnoloji dəyişikliklər prosesinə aid siyasəti işləyib hazırlayarkən, hökumətlər cəhd göstərməlidirlər ki, elmi biliklər daha sistemli əsaslarla istifadə olunsunlar. Sənaye inkişafı və ya quruluşun yenidən qurulmasına yönəlmiş tədbirlərin və yeniliklərin tətbiqini müdafiə etmək üçün işlənən proqramlarda alimlərin payı onların ayrılmaz tərkib hissəsi olmalıdır. Bütün səviyyələrdə hökumət orqanlarının borcudur ki, tanınmış alimlər tərəfindən ən yaxşı ekspert biliklərinin kifayət qədər geniş mənbələrinə söykənərək, son dərəcə ixtisaslaşdırılmış məsləhətləri vaxtında təmin edən institusional mexanizmlər yaratsınlar, eləcə də belə mexanizmlərin necə işlədiyini müntəzəm yoxlamalıdırlar. Bu mexanizmlər açıq, obyektiv və nəql oluna bilməlidir. Hökumətlər tərəfindən geniş ictimaiyyətin alimlərin informasiya vasitələrində dərc olunan fikirləri ilə tanış olmaları təmin olunmalıdır.	9.1. Bu öhdəlik Azərbaycan Respublikasında daxil, müəyyən elm potensialına malik olan bütün dövlətlərin bir nömrəli vəzifəsi kimi qiymətləndirilməlidir. Lakin bu günə kimi Azərbaycan Respublikasının elm, iqtisadi, elm-texnika siyasəti formalaşmamış, hətta «Elm Konsepsiyası» belə formalaşmamışdır. İqtisadi məsələlərin həllində alimlərimizin elmi nəticələrinin iştirakı hiss olunmur, elm müəssisələrinin fəaliyyəti, demək olar ki, iflic vəziyyətindədir. İnstitutlar, nəinki maddi təminatla, hətta informasiya vasitələri ilə də lazımi səviyyədə təmin olunmurlar.
	9.2. Hökumətlər, BMT idarələri və b/x elm təşkilatları ilə ə/d-da qlobal və regional səviyyələrdə dövlətlər arası siyasətdə vacib konsensusa çatmaq, eləcə də regional və b/x konvensiyaları yerinə yetirə bilmək üçün b/x elmi məsləhətləşmələri möhkəmlətmək tələb olunur.	9.2. Bu əlaqələr ayrı-ayrı alimlərin və ya elmi təşkilatların şəxsi təşəbbüsləri ilə deyil, dövlət səviyyəsində sistemli olaraq, yaradılmalıdır.

	9.3. Müasir dünyanın mürəkkəb şəraitində əsaslandırılmış siyasi qərarların qəbul olunmasında alimlərin fikrinin nəzərə alınması zəruri faktora çevrilməkdədir. Bu səbəbdən alimlər və onların təşkilatları malik olduqları biliklərə əsaslanaraq, müstəqil məsləhət vermələrini özlərinin vacib öhdəliyi hesab etməlidirlər.	9.3. İstər Prezident aparatının, Milli Məclisin, İstərsə də NK-nin qəbul edəcəyi rəsmi sənədlərin də alimlərimizin müstəqil məsləhətləri ilə iştirakı təmin olunmalıdır və əks əlaqə xarakterli olmalıdır. Alimlər öz məsuliyyətlərini dərk edib, biganəlikdən uzaq olmalıdırlar.
10.İnkişaf edən ölkələrdə elmi tədqiqatın milli sistemləri.	10.1. Donor ölkələrinə və BMT idarələrinə müraciət olunmuşdur ki, onların inkişaf edən ölkələrdə elmi tədqiqatlara göstərdikləri köməyin keyfiyyət və effektivliyini artırmaq məqsədilə əməkdaşlıqlarını artırsınlar.	10.1. Azərbaycan Respublikası bu müraciətdən istifadə edə bilməyib.
	10.2. İnkişaf edən və keçid dövrünü yaşayan ölkələrin hökumətlərindən alimlərin, təhsil işçilərinin və texniki kadrların statuslarının möhkəmlənməsinə kömək etmək tələb olunub, eləcə də əmək şəraitinin yaxşılaşdırılması məqsədilə həll edici səylər göstərsinlər, elm və texnika sahəsində yeni peşələrin kütləviləşdirilməsi yolu ilə hazırlanmış alim kadrlarının qorunub saxlanılmasında öz imkanlarını artırsınlar.	10.2. Azərbaycan Respublikasına bir başa aid olan məsələdir, lakin bu istiqamətdə nəzərə çarpacaq heç bir iş görülməmişdir.
11.Beynəlxalq əməkdaşlıq.	11.1. Bax 1.1.	11.1. Bu işdə BMT-nin idarələri, o cümlədən, YUNESKO və elmi fəaliyyətlə bağlı olan b/x təşkilatlarla əlaqə yaratmaq vacibdir. XİN-nin köməyi, özü də müntəzəm və sistemli olmalıdır.

	11.2. Bütün ölkələr elmi biliklərlə öz aralarında mübadilə etməlidirlər və əməkdaşlıq etməklə aradan qaldırılması mümkün olan xəstəliklərlə birlikdə bütün dünyada mübarizə aparmalıdırlar. Hər bir ölkə qiymətləndirmə aparmalı və onun əsasında ölkə üçün prioritet olan xəstəliklər sahəsində məsələlərini müəyyən etməlidir. Məsələn, epidemioloji və digər statistik məlumatların toplanması əsasında, eləcə də onlardan istifadə edə bilən insanların qabaqcıl təcrübəsi əsasında sağlamlığın qorunması planında qəbilələr arası bərabərsizliyi aradan qaldırmağa yönəlmiş milli və regional elmi-tədqiqat proqramları olmalıdır.	11.2. Əsasən, Səhiyyə /və Kənd Təsərrüfatı/ nazirliyinə aid öhdəçilikdir. Biliklərlə mübadilədən başqa, region ölkələrlə toplanan bəzi zəruri məlumatların da mübadiləsi edilməlidir.
	11.3. Elmin maliyyələşməsinin yenilikçi /novator/ və rentabelli mexanizmlərinin yaradılması üsullarını öyrənmək və regional və b/x səviyyələrdə uyğun müəssisələrin istifadə edə biləcəyi elmi texniki sferada müxtəlif ölkələrin ehtiyatlarını və səylərini birləşdirmək vacibdir. Lazımdır ki, insan resurs-ları ilə Şimal – Cənub, eləcə də Cənub – Cənub xətti üzrə qarşılıqlı mübadilə aparıla bilməsi üçün şəbəkələr yaradılsın. Bu şəbəkələr elə yaradılmalıdır ki, alimlər öz bilik və təcrübələrini ölkələrinin xeyrinə istifadə edə bilmələrinə kömək olsun.	11.3. Bugünkü Azərbaycan Respublikası üçün ən mühüm /ən ağrılı/ məsələdir. Azərbaycan Respublikasında elmin olduqca çox zəif də olsa maliyyələşməsi mexanizminin bazar iqtisadiyyatı ilə heç bir əlaqəsi yoxdur. Azərbaycan Respublikası qonşu ölkələrin maliyyə yardımı ilə, onların öz müəssisələrinin istifadə edə biləcəyi elmi-texniki layihələri yerinə yetirə bilər.

	11.4. Bax 2.1.	11.4. Bax 2.1.
	11.5. Hökumətlər ali təhsilin regional və b/x proqramlarına, Ş-C, C-C xətti ilə ə/d-a xüsusi diqqət yetirməklə, ali və universitetdən sonrakı təhsil şəbəkələrinin yaradılmasına güclü kömək göstərməlidirlər. Ş-C, C-C xətti bütün ölkələrə kömək göstərməkdə onların elmi-texniki bazalarının möhkəmləndirilməsində əsas vasitədir.	11.5. Azərbaycan Respublikası bu sahədə həm kömək alan, həm də kömək edən qismində çıxış edə bilər.
	11.6. Elmi – tədqiqat qrupları və institutlar, eləcə də uyğun q/ hökumət təşkilatları regional və b/x ə/d çərçivəsində elmi kadrların hazırlanmasına kömək etmək, baha qiymətli strukturları birgə istifadə etmək üçün: elmi informasiyanın daha geniş yayılması üçün; elmi biliklərlə və məlumatlarla, xüsusilə inkişaf etmiş və edən ölkələr arasında mübadiləsinə; qlobal əhəmiyyətli problemlərin birgə həllinə kömək etmək məqsədilə öz fəaliyyətlərini möhkəmləndirməlidirlər.	11.6. Azərbaycan Respublikası öz mövqeyinə görə bu öhdəlik üzrə də inkişaf edən və inkişaf etmiş ölkələr arasında əlaqələndirici ola bilər, xüsusilə neftlə bağlı institutların xətti ilə.

	11.7. Artan qloballaşma və b/x şəbəkələrin yaranması şəraitində universitetlər yeni imkanlar əldə etməklə yanaşı, həm də yeni məsələlərlə qarşılaşırlar. Məsələn, universitetlər innovasiya sistemlərində daha böyük rol oynayırlar. Universitetlər gələcəyin yüksək ixtisaslı mütəxəssislərinin hazırlanmasında məsuliyyət daşıyırlar onlar qlobal problemləri həll etmək qabiliyyətini tələbələrə öyrətməyə borcludurlar. Universitetlər eyni zamanda çeviklik göstərib, müntəzəm olaraq bilikləri yeniləşdirməlidirlər. İnkişaf etmiş və edən ölkələrdə universitetlər bir-biri ilə ə/d –ı intensivləşdirməlidirlər, məs., yaxınlaşmaq yolu ilə YUNESKO bu mənada informasiya mübadiləsi mənbəyi ola bilər.	11.7. Universitetlərimizin bu öhdəçilikləri uğurla yerinə yetirə bilmələri üçün kadr hazırlığı işində əsaslı islahatlar aparılmalıdır. Bu mənada inkişaf etmiş ölkələrin universitetləri ilə işgüzar əlaqələr yaratmağa məcburdurlar. Digər öhdəçiliklərdə olduğu kimi bu halda da YUNESKO ilə əlaqələr sıx olmalıdır.
	11.8. Alimlər, tədqiqat idarələri, elmi və akademik cəmiyyətlər, eləcə də digər uyğun q/hökumət təşkilatları biliklər və təcrübə də daxil olmaqla, b/x ə/d–ğı genişləndirməkdə öhdəliklər götürməlidirlər. İnkişaf edən ölkələrdə alimlərin və idarələrin elmi informasiya mənbələrinə çatmalarına kömək etməyə yönəlmiş təşəbbüsləri xüsusi həvəsləndirmək və mükafatlandırmaq lazımdır. Həm Cənub, həm də Şimal ölkələrində elm şəbəkələrində qadın alimlərin və	11.8. Elmə bağlı təşkilatların və adamların aktivləşməsini tələb edən öhdəlikdir, sovet dövrünün təcridxanasından çıxmış elm adamlarımıza yeni dünyada yaşadıqlarını xatırladır və müstəqilliyə dəvət edir.

	uğursuz vəziyyətdə olan digər nümayəndələrin tam gücü ilə qoşulmaq təşəbbüsləri həyata keçirilməlidir. Bu kontekstdə maliyyələşməsi ictimai fondlar hesabına həyata keçirilən elmi–tədqiqatların nəticələri-nə onların çatmasının təmin olunmasına səylər göstərilməlidir.	
	11.9. bax 5.9	11.9. Bax 5.9.
12.[1]	12.1. bax 10.1.	12.1. Bax 10.1.
	12.2. Zəruri elm və təcrübəyə malik olan ölkələr biliklərin verilməsinə və birgə istifadə olunmasına kömək etməlidirlər. Xüsusi ilə bu elmi kadrların hazırlanması üçün bütün dünyada yaradılan konkret proqramların müdafiə olunması ilə həyata keçirilir.	12.2. Azərbaycan Respublikası zəruri elm və təcrübəyə malik olan ölkə kimi bu öhdəlikdə də geniş iştirak edə bilər. Digər öhdəliklər kimi bu halda da işlər b/x təşkilatlarla əlaqəli qurulmalıdır. B/x aləmə çıxmaq işində yubanmamaq üçün XİN dünyada yaradılan proqramları əldə edib, hökumətə çatdırmalıdır.
	12.3. Bütün dünyada elmi dairələrin tələbatını daha effektiv ödəyən kadrlar hazırlanması yolu ilə, informasiya mübadiləsi və biblioqrafik xidmətlərin və informasiya sistemlərinin yaradılması ilə, inkişaf etmiş ölkələrin köməkliyi ilə inkişaf edən ölkələrdə aparılan elmi tədqiqatların nəticələrinin dərcinə və daha geniş yayılmasına nail olmaq.	12.3. Bu öhdəliyin region ölkələri tərəfindən birgə yerinə yetirilməsi effektivliyi artıra bilər.

[1] İnkişaf edən ölkələrlə elmi ə/d

	12.4. Sənayecə inkişaf etmiş ölkələr inkişaf edən ölkələrlə, bu ölkələrin əhalisinin böyük əksəriyyətinin əsas problemlərinin həllinə yönəlmiş elmi – texniki layihələrin yerinə yetirilməsində ə/d etməlidirlər. İnkişaf istiqamətində layihələrin daha effektiv planlaşdırılması və həyata keçirilməsini təmin etmək məqsədilə onların təsirini diqqətlə /ciddi/ öyrənmək lazımdır. Belə layihələrin həyata keçirilməsində iştirak edən şəxslər işlərinə uyğun hazırlıq keçməlidirlər.	12.4. Bu tip ə/d Azərbaycan Respublikası üçün çox əhəmiyyətlidir: 1) Hazır layihələri almaqdan xeyirli olar; 2) Layihələrin elmin son nəticələri səviyyəsində yerinə yetirildiyinin şahidi olarıq və gələcək işlərin bu səviyyədən davam etdirilməsi imkanı əldə olunar. Bu ə/d-dan istifadə edib, inkişaf edən ölkələrdə onlarla birgə başqa layihələrin də yerinə yetirilməsində iştirak edə bilərik
13.[1]	13.1. Bax 1.3; 11.6; 11.8; 12.2	13.1. Bax 1.3.; 11.6.; 11.8.; 12.2
14.[2]	14.1. Bax 12.3	14.1. Bax 12.3
	14.2. Elektron informasiya sistemlərinin inkişafı ilə bağlı elmi ədəbiyyatın etibarlığını və bütövlüyünü itirməməsi məqsədilə elmi-tədqiqat dairələrini, nəşriyyat və kitabxana işlərində, eləcə də informasiya texnologiyaları sahəsində mütəxəssislərlə müntəzəm diskussiyalara cəlb etmək vacibdir. Elmi biliklərin yayılması və birgə istifadə olunması elmi prosesin mühüm	14.2. Dünyanın inkişafını nəzərə alaraq, Azərbaycan Respublikasında bu işlərin də yerinə yetirilməsi vacibdir.

[1] Biliklərdən birgə istifadə;
[2] Elmi dərc, elektron dərc

	tərkib hissəsidir, odur ki, hökumət və maliyyə təşkilatları, uyğun infrastrukturlara çəkilən xərclərin və digər maliyyə vəsaitlərinin adekvat şəkildə elmi tədqiqatların büdcəsində nəzərdə tutulmasını təmin etməlidirlər. Eləcə də lazımdır ki, uyğun hüquqi qanunlar qəbul edilsin.	
	14.3. Tədqiqat və təhsil idarələri yeni informasiya və kommunikasiya texnologiyalarını nəzərə almaqla, onların təsirini öyrənməli və onlardan istifadə etməyə kömək göstərməlidirlər, məsələn, elmi tədqiqatlar və dərs demək üçün və ya rəqəmli kitabxanalar üçün elektron publikasiyalarını inkişaf etdirməklə. Tədris proqramlarını /elmi fənlər üzrə/ bu yeni texnologiyaların elmi fəaliyyətə təsirini nəzərə almaqla adaptasiya etdirmək lazımdır. Təhsil infrastrukturu ilə bağlı məhdudiyyətləri aradan qaldırmaq məqsədilə və yüksək keyfiyyətli elmi təhsili uzaq rayonlarda da almaq mümkün olsun deyə beynəlxalq elm və peşə təhsili proqramlarının yaradılması və adi təhsil sistemi ilə birgə işləyən İnternet bazasında hazırlanması məsələsinə baxılmalıdır.	14.3. Əsasən Təhsil nazirliyinə aid məsələ olub, həyatın inkişafının tələbindən irəli gəlir. Bu və ya digər öhdəlikləri yerinə yetirmək gələcəyə inamla addımlamaq deməkdir.

15.İM-in qorunması	15.1. Bax 5.1	15.1. Bax 5.1
	15.2. Bütün ölkələr intellektual mülkiyyətin mühafizəsini təmin etməlidirlər və etiraf etməlidirlər ki, məlumatlara və informasiyalara çatmaq elmi tərəqqi üçün böyük əhəmiyyət kəsb edir. ÜDİMT-nın uyğun b/x təşkilatlarla ə/d-ğı üçün b/x hüquq çərçivələrini işlədikdə biliyə monopoliya məsələləri ilə müntəzəm olaraq məşğul olunmalıdır. İM hüququnun alınıb-satılması ilə bağlı Müqavilə üzrə /TRİPS/ yeni danışıqların başlanması ilə əlaqədar olaraq, Ümumdünya Ticarət Təşkilatı /VTO/ cənub ölkələrində elmin maliyyələşdirilməsi üzrə mexanizmlər nəzərə almalıdır. Bununla bağlı EİBŞ /MSNS/-nın b/x proqramları və YUNESKO-nun beş hökumətlər arası elmi proqramları katalizator rolu oynamalıdır, xüsusi halda məlumatların toplanması və işlənməsi və elmi bilikləri əldə etmək asanlaşmalıdır.	15.2. «İnformasiya hər şeyi həll edir» müasir deyimə əsaslanaraq, bu öhdəliyi qiymətləndirmək lazımdır. İntellektual mülkiyyətin kommersiyalaşdırılmasında Azərbaycan Respublikası öz yerini tutmalıdır.
16. [1]	16.1. Bax 7.1; 11.2; 6.2	16.1. Bax 7.1; 11.2.; 6.2

[1] İctimai tələbata uyğunlaşdırılmış elmi tədqiqatlar.

	16.2. Hökumətlər, b/x təşkilatlar və elmi tədqiqat idarələri hər bir ölkənin prioritet məsələlərinə uyğun olaraq, insan və cəmiyyətin həyati problemlərinin aşkarlanmasına, başa düşülməsinə və həllinə qəti olaraq yönəlmiş fənlər arası tədqiqatlara kömək etməlidirlər.	16.2. Azərbaycan Respublikasında da həllini gözləyən öhdəlikdir.
	16.3. Təhsil müəssisələrinin quruluşu və onların tədris proqramlarının tərtibi acıq və çevik xarakterdə olmalıdır ki, cəmiyyətin yaranan ehtiyaclarına uyğunlaşdırmaq olsun. Gənc mütəxəssislər sosial problemləri bilmələri və başa düşmələri vacibdir, peşə sahələrindən kənara çıxmağı bacarmalıdırlar.	16.3. Yeni dünyanın sual və tələbləri daim nəzərə alınmalıdır.
	16.4. Elmi fənləri öyrənən tələbələr üçün universitetlərin tədris proqramları onların təhsilini sosial tələbatlar və həyat reallıqları ilə əlaqələndirən yerlərdə praktika keçmələrini nəzərə almalıdırlar.	16.4.Yeni insan – üfiqi deyil, şaquli istiqamətdə biliklərin verilməsinə üstünlük verən tədris proqramlarının işlənməsini tələb edən öhdəlikdir.
17.[1]	17.1. Bax 16,4; 1,4	17.1. Bax 16.4; 1.4

[1]Fənnlər arası tədqiqatlar və təhsil.

	17.2. Özəl sektorda daxil olmaqla, bütün əsas maraqlı iştirakçılar, istər təbiət, istərsə də sosial elmləri əhatə edən fənlər arası tədqiqatları xeyli aktivləşdirməlidirlər ki, qlobal ekoloji dəyişikliklərin, onun insanların sağlamlığına təsirini və təbii sistemlərlə şərtlənən dayanıqlı faktorları daha yaxşı başa düşmək də daxil olmaqla insan aspektlərini öyrənmək mümkün olsun. Davamlı tələbatın konsepsiyasının öyrənilməsi, həmçinin dəqiq və təbii elmlər sahəsindəki mütəxəssislərin sosial və humanitar elmlər sahəsində ekonomistlər və demoqraflar arasında mübadiləni tələb edir.	17.2. Müxtəlif sahələrə aid mütəxəssislərin arasında müstəqil və eyni zamanda əlaqəli işlərin ortaya qoyulması /mübadiləsi/, Azərbaycan Respublikası üçün yeni məsələ olmaqla bərabər, həm də yaşadığımız həyatın tələbidir.
18. Elmi təhsil.	18.1. Elmi – texniki təhsil strateji cəhətdən əhalinin əsas tələbatının ödənməsini tələb edən ölkə potensialını yaratmaq üçün zəruridir. Belə bir təhsil çərçivəsində tələbələr konkret problemləri həll etməyi və cəmiyyətin elmi texnoloji bilik və vərdişlərdən istifadə etməklə tələblərini ödəməyi öyrənməlidirlər.	18.1. Azərbaycan Respublikasında elmi-texniki təhsil şəbəkəsi mövcuddur, lakin o bir-sıra neqativ xüsusiyyətləri ilə fərqlənir və bu xüsusiyyətlər onun b/x səviyyəyə qalxmasına mane olur. Bu da ona gətirib çıxarır ki, Azərbaycan Respublikasının müstəqilləşməsindən sonra yaxın xarici ölkələrdən Azərbaycan Respublikasına təhsil almağa gələnlərin sayı azalmağa başlamışdır.

	18.2. Hökumətlər, kişilər və qadınlar arasında bərabərsizliyin aradan qaldırılması, eləcə də uğursuz qrupların qeyri bərabərliyinə xüsusi diqqət yetirməklə elmi təhsilin bütün mərhələlərdə kamilləşməsinə ən yüksək prioritet verməlidirlər. Müəllimlərin və pedaqoqların peşə hazırlığını artırmağa yönəlmiş, baş verən dəyişiklikləri nəzərə almaqla, tədbirlər qəbul etmək lazımdır.	18.2. Çox yaxşı haldır ki, öhdəliklər içərisində, heç olmazsa elmi təhsil sahəsində «Kişilər və qadınlar arasında bərabərsizliyin aradan qaldırıl ması» öhdəliyi Azərbaycan Respublikasında həllini tapmışdır deyə bilərik. Bununla belə, son dövrlərdə qadınların bu və ya digər formada /dinlə bağlı/ elmi təhsildən kənarlaşması halları qeyd olunmalıdır.
	18.3. Elmi təhsil məsələləri ilə məşğul olan, o cümlədən, inkişaf edən ölkələrdə elmi fənlər üzrə hazırlıqlı müəllimlərin və mütəxəssislərin çatışmazlıqları problemlərini aradan qaldırmaq üçün xüsusi səylər lazımdır.	18.3. Azərbaycan Respublikası, elmi fənlər üzrə hazırlıqlı müəllimlərin çatışmadığı ölkələrin problemlərinin aradan qaldırılmasında iştirak edə bilər, eyni zamanda müəyyən fənlər üzrə özünün də bu tip köməyə ehtiyacı vardır. Gələcəkdə Azərbaycan Respublikasının bu istiqamətdə edə biləcəyi köməyini artıra bilməsi üçün xarici dillərin öyrənilməsinin lazımi səviyyədə olmasına xüsusi diqqət yetirilməlidir.
	18.4. Elmi fənlərin müəllimləri bütün mərhələlərdə və qeyri-formal elmi təhsillə bağlı mütəxəssislər öz biliklərini müntəzəm olaraq, yeniləşdirmək imkanına malik olmalıdırlar ki, öz pedaqoji məsələlərini uğurla yerinə yetirə bilsinlər.	18.4. Elm öyrənmək – daim yeniləşmək vacibdir.

	18.5. Cəmiyyətin dəyişən təhsil tələbatı səbəbindən milli təhsil sistemləri gender və çox – müxtəlifliyi nəzərə alan yeni tədris proqramları, metodlar və təhsil vəsaitləri işləyib hazırlamalıdırlar. YUNESKO və başqa uyğun b/x təşkilatlarla ə/d-da bütün dünya üzrə ixtisaslaşmış mərkəzlər şəbəkəsi yaratmaq yolu ilə milli və b/x səviyyələrdə elmi və texniki təhsil sahələrində tədqiqatlara kömək etmək vacibdir.	18.5. Tədris proqramları durmadan daim yeniləşən elmi biliklərə uyğunlaşmalıdır; Azərbaycan Respublikası elm və texniki təhsilin bir çox sahələrində kadr baxımından ixtisaslaşmış mərkəzlər şəbəkəsinə daxil olmaq imkanındadır.
	18.6. bax 11.5; 11.6; 1.4; 11.7; 14.3	18.6. bax 11.5; 11.6; 1.4; 11.7; 14.3
	18.7. Tədris idarələri təhsil və elmi tədqiqata aid qərarların qəbul olunmasında tələbələrin iştirakını həvəsləndirməlidirlər.	18.7. Öhdəlik Azərbaycan Respublikasında tədricən həyata yol tapmaqdadır. Demokratiyaya aparan yol mənasındadır.
	18.8. Təhsil idarələri baza elm təhsilini təkcə təbiət elmlərini öyrənən tələbələrə öyrətməli deyillər. Onlar gərək elmləri bütün ömür boyu öyrənmək üçün imkan yaratsınlar.	18.8. Atalar misalıdır: Qəbir evinə kimi öyrənmək.
	18.9. Qeyri-hökumət təşkilatları elmi fənlərin və elmi təhsilin tədrisi məsələləri üzrə mübadilədə mühüm rol oynamalıdırlar.	18.9. Qeyri hökumət təşkilatlarımız tədricən bu işlərə qoşula bilərlər, ancaq sistemli olmalıdır.
19.Mühəndis təhsili.	19.1. bax 18,1	19.1. Bax 18.1..

	19.2. Hökumətlərin, ali təhsil məktəblərinin və eləcə də b/x ə/d çərçivəsində mühəndis, texniki, peşə təhsilinin, o cümlədən, bütün ömrü boyu, inkişafına üstünlük verilməlidir.	19.2. Bu öhdəlik dövlətin gələcək iqtisadi proqramlarının uğurla həyata keçirilməsinə xidmət edir.
	20.1. Hökumətlər, b/x təşkilatlar və uyğun professional idarələr elm mövzusunda yazan jurnalistlərin, elmi kütləviləşdirənlər və bütövlükdə, elm ilə bağlı məsələlərdə cəmiyyətin məlumatlanmasını artırmağa yönələn fəaliyyətlə məşğul olanların hazırlanması proqramını möhkəmləndirmələri və işləmələri lazımdır. Elmi savadlılığın və mədəniyyətin hamıya çata bilməsi üçün b/x proqram tərtib olunmalıdır. Bu proqram yerli qəbilələrin inkişafına təsir göstərə biləcək texnoloji və elmi materialların asanlıqla başa düşülməsinə istiqamətlənməlidir.	20.1. Elmin kütləviləşdirilməsi - elmə olan inamı artırmaq, insanları elmə - real həyata yönəltmək deməkdir.
20. Elm sah-də kommunikasiyalar və onun kütləviləşməsi	20.2. Milli hakimiyyət və maliyyələşdirici idarələr cəmiyyətin elmi maarifləndirilməsinin mühüm elementi olaraq elmi muzey və mərkəzlərin rolunun artırılmasına təsir göstərməlidirlər. İnkişaf edən ölkələr məhdud resursa malik fiqurlarından formal və q/formal təhsilə əlavə olaraq, distansiyadan idarə olunan təhsili geniş istifadə etməlidirlər.	20.2. Elmi muzey və mərkəzlər - elmin əyaniləşdirilməsidir; distansiyadan idarə olunan təhsilin özü həm də elmin kütləviləşməsinə xidmət edir.

	20.3. Bax.1.4	20.3. Bax 1.4..
	21.1 Bax.18.2, 21.2. Bax 18.4.	21.1. Bax 18.2 ; 21.2 Bax 18.4
21.Qadınların elmi fəaliyyətdə iştirakı	21.3. Hökumət idarələri, b/x təşkilatlar, universitetlər və elmi-tədqiqat idarələri elmi-tədqiqat fəaliyyətinin planlaşdırılmasında, istiqamətin müəyyən olunmasında, aparılması və qiymətləndirilməsində qadınların hərtərəfli iştirakını təmin etməlidirlər. Vacibdir ki, qadınlar elmi-tədqiqatların təyin olunmasında aktiv iştirak etsinlər.	21.3. Azərbaycan Respublikasının bu öhdəlik üzrə problemi yoxdur.
	21.4. Bütün ölkələr, YUNESKO və digər uyğun b/x təşkilatlarla ə/d etməklə, elm və texnika haqqında cinslərə görə bölməklə, b/x standart formalara uyğun etibarlı məlumatlar toplanmasına kömək etməlidirlər.	21.4. Azərbaycan Respublikasının bu məlumatların saxtalaşdırılmasına ehtiyacı yoxdur.
	21.5. Hökumətlər və təhsil idarələri təhsilin ilkin mərhələlərində diskriminasiya təsiri göstərən təhsil praktikasını aşkar etməli və kənarlaşdırmalıdırlar ki, uğursuz qrup da daxil olmaqla, cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinin elmi fəaliyyətlə uğurlu iştirakı genişlənsin.	21.5. Azərbaycan Respublikasında bu öhdəlik üzrə də narahatlıq yoxdur.

	21.6. YUNESKO tərəfindən «Qadınlar və elm» problemi üzrə təşkil olunmuş altı region forumlarının nəticələrini nəzərə almaqla, Konfrans qeyd edir ki, dövlətlər, tədris idarələri, elm cəmiyyətləri, q/hökumət təşkilatları və vətəndaş cəmiyyəti iki tərəfli və b/x idarələr tərəfindənköməklik göstərilməsi ilə qadın və qızların elm və texnikanın bütün sahələrində aktiv iştirakının təmin olunması istiqamətində xüsusi səylərini göstərməlidirlər və bu məqsədlə: - təhsil sistemi çərçivəsində qız və qadınların bütün pillələrdə elmi təhsilə çatmalarına kömək göstərmək; - elmi tədqiqatların bütün sahələrində onların toplanması, paylanması və irəliləməsi şərtlərini yaxşılaşdırmaq; -YUNESKO və qadınların inkişafı üçün BMT fondu /YUNİFEM / ilə ə/d etməklə, regional və qlobal kompaniyalara başlamaqla, ictimaiyyətin diqqətini elm və texnika sahəsində qadınların töhfələrinə cəlb etməkdir ki, hazırda alimlər, rəhbər işçilər arasında və cəmiyyətdə mövcud olan gender stereotipləri dəf etmək mümkün olsun.	21.6. Eləcə də bu öhdəlik üzrə Azərbaycan Respublikasında narahatlıq yoxdur.

22.[1]	22.1. Tədris müəssisələri təhsil və elmi tədqiqatlara aid qərarlar qəbul olunmasında tələbələri iştiraka həvəsləndirməlidirlər.	22.1. Bu öhdəlik Azərbaycan Respublikasında sovet dövründən mövcud olub, indiki dövrdə ola bilsin ki. Elmi fəaliyyətin ümumi zəifləməsi ilə əlaqədar olaraq, bu da mövqeyini itirməkdədir.
23.Ekoloji təhsil və etika	23.1. Hökumətlər universitetlər və ali təhsil müəssisələri ilə ə/d etməklə və BMT-nin uyğun təşkilatlarının köməkliyi ilə, uyğun hallarda ənənəvi və yerli biliklərdən də istifadə etməklə, ətraf mühitlə bağlı elm sahəsində təhsili, kadr hazırlığını insan resurslarını inkişaf etdirmək üçün imkanları genişləndirməli və yaxşılaşdırmalıdırlar. Bununla əlaqədar olaraq, b/x cəmiyyətlərlə ə/d etməklə inkişaf edən ölkələr də xüsusi səylər göstərməlidirlər.	23.1. Azərbaycan Respublikasında bu öhdəliyin inkişaf etdirilməsinə ehtiyac var.
	23.2. B/x elm cəmiyyəti digər iştirakçılarla birgə ekoloji etikanın və ekoloji davranış kodekslərinin formalaşmasına təsir göstərən diskussiyaları, o cümlədən, kütləvi diskussiyaları geniş yaymalıdırlar.	23.2. Eləcə də bu öhdəlik üzrə.

[1] Oxuyanların qərarların qəbul olunmasına cəlb olunmaları.

24.Təbii fəlakətlərin nəticələrinin azaldılması sahəsində potensialın yaradılması	24.1. Bütün ölkələr ətraf mühitin dəyişməsi nəticəsində ortaya çıxan həm qısa müddətli təbii fəlakətlər, həm də uzun müddətli xoşa gəlməz hadisələr haqqında əvvəlcədən xəbərdarlıq etməyin çətinlikləri və risklərinin qiymətləndirilməsi, eləcə də fövqəladə vəziyyətdə fəaliyyət planlarının milli inkişaf planına inteqrasiyası ilə yanaşı, təbii fəlakətlərin baş verməsi halına hazırlığın yüksəldilməsi, ona adaptasiya olunması və onların nəticələrini azaldılması sahəsində potensial yaratmağa təkid etməlidirlər. Lakin vacibdir ki, bizim uzun müddətli ənənələrin qeyri-müəyyənliyinin xarakter olduğu mürəkkəb dünyada yaşamağımız nəzərə alınsın. Gərək rəhbərlər bunu nəzərə alsınlar və proqnozlaşdırmaq və monitorinq sahəsində yeni strategiyaların işlənməsinə kömək etsinlər.	24.1. Regional, daha geniş b/x mərkəzlərin yaradılması və fövqəladə hallar üzrə təlimlərin keçirilməsi məqsədə uyğun hesab olunur.
25.[1]	25.1. bax 23,1	25.1. Bax 23.1..

[1] Ənənəvi biliklərin öyrənilməsi

	25.2. Hökumətlər təhsil və biliklərin ənənəvi formalarını geniş tətbiq etməyə imkan verən və eyni zamanda uyğun mükafatlandırmaqla onların kommersiyalaşdırılmasını təmin edən milli siyasət yeritməyə çağırılırlar.	25.2. Ənənəvi təhsil və biliklər uzun illər boyu həyatın sınaqlarından çıxmaqları ilə fərqlənirlər. /Təbii ki, onların sırasından təhrif olunanları ayırmağı bacarmalıyıq/. Bu biliklərin elmi əsaslarını işləyib hazırlamaqla, onlara olan laqeydliyi aradan qaldırmaq olar və hətta kommersiya obyektinə çevrilə bilərlər.
	25.3. Ənənəvi və yerli biliklərin sistemləri ilə bağlı olan fəaliyyətlərin milli və b/x səviyyələrdə güclü müdafiə olunması məsələsi diqqətdə saxlanılmalıdır.	25.3. 25.2-dəki şərt daxilində bu öhdəlik həllini tapa bilər.
	25.4. Ölkələr ənənəvi biliklər sistemini daha yaxşı başa düşməyə və istifadə etməyə çalışmalıdırlar. Ancaq elmi-texniki sistemlər üçün faydalı sayılan elementləri onlardan ayırmaqla kifayətlənməməlidirlər. Bilik axını eyni zamanda iki istiqamətdə olmalıdır - kənd icmalarına və əksinə.	25.4. Kənddən gələn bilik axını 25.2.-dəki şərtdən sonra qəbul oluna bilər.
	25.5. Hökumət və q/hökumət təşkilatları ənənəvi bilik sistemlərinin davamlığını təmin etməlidirlər. Bu iş bu bilikləri, öz həyat tərzini, öz dillərini, özlərinin sosial təşkilatlarını və yaşadıqları mühiti qoruyub saxlayan cəmiyyətlərə aktiv kömək göstərməklə yerinə yetirməlidirlər	25.5. Ənənəvi bilik sistemlərinin davamlılığına təminat onun elmi bilik formasına salınmasından sonra verilə bilər.

	və qadınları ənənəvi biliklərin böyük hissəsini qoruyub saxlayan qoruyucular kimi tanımaq lazımdır.	
	25.6. Hökumətlər elə etməlidirlər ki, ənənəvi biliklərə malik olanlarla alimlər arasında qarşılıqlı əlaqə öyrənilsin, eləcə də qarşılıqlı faydalı əlaqələr möhkəmlənsin.	25.6. 25.2 öhdəliyi ilə həllini tapır.
26.[1]	26.1. bax 18.2, 21.5	26.1. Bax 18.2.; 21.5.
	26.2. Elmi tədqiqatlar sisteminin çərçivəsindəki maneələr aradan qaldırılmalıdır. Uğursuz qrupların elm və texnikanın inkişafında hərtərəfli iştirakını təmin etmək məqsədilə xüsusi səylər göstərmək lazımdır və onlar aşağıdakıları əhatə etməlidirlər: - təhsil sistemlərinin çərçivəsindəki maneələr aradan qaldırılmalıdır; - bu qrupların elm və texnikanı zənginləşdirmələrini ictimaiyyətin diqqətinə çatdırmaq, mövcud stereotipləri aradan qaldırmaq üçün zəruridir; - məlumatları toplamaqla mövcud maneələrin sənədləşdirilməsinə həsr olunmuş elmi tədqiqatların aparılması; - rəhbər orqanlarda və forumlarda təmsilçiliyin təmin olunması; bax 21,7; 21.4.; 21,8.	26.2. Hər bir kəs bu qrupun nümayəndəsinə çevrilə bilər. Odur ki, onların elm və texnikanın inkişafında hərtərəfli iştirakının təmin olunmamasına biganə olmaq olmaz. Əks halda cəmiyyət özünü mədəni saya bilməz. Öhdəliklərdəki tədbirlər öz yerini tapmalıdır.

[1] Uğursuz qruplar

3.3. İqtisadi yüksəlişimizin soraqlarında

Elm siyasəti olmayan dövlətin ümumiyyətlə siyasəti yoxdur

Azərbaycan Respublikasının elm-texnika siyasəti haqqında. Dünya sirlərlə dolu bir aləmdir. Ansaq elm sonsuz imkanlara malik olub, bu dünyanın sirlərini insanlara açandır. Elm, açarını əldə edənlərin əlində sehrli bir çubuqdur, onunla insanlar öz həyatlarını daha da yaxşılaşdıra bilər, daha da pisləşdirə, hətta məhv edə bilərlər. Baxır kimlər ondan necə istifadə edirlər.

Bu gün vətənimizin azadlığının dönməzliyinə və dövlət müstəqilliyinin möhkəmlənməsinə, torpaqlarımızın bütövləşməsinə aparan yollar müəyyən olunmalıdır. Dövlətçilik sahəsindəki dünya təcrübəsi göstərir ki, bunun üçün, ilk növbədə, ölkənin demokratik prinsiplərə söykənən qanun və qaydalar əsasında idarə olunması mütləq təmin olunmalıdır. Demokratiyanın inkişaf etdirilməsinin ilk əlaməti cəmiyyətdə çox partiyalılığın özünə yer tapmasıdır. Çoxpartiyalılıq dövlətin effektiv idarə olunması üçün zəruri olan, partiyalararası ideya rəqabətinə - mübarizəsinə gətirib çıxarır. Bu mübarizədə cəmiyyətin digər problemləri ilə yanaşı iqtisadi inkişafın müntəzəm təmin olunması yolları daim araşdırılıb müəyyənləşdirilir. Bu da partiyaların irəli sürmüş olduqları iqtisadi proqramlarda öz əksini tapır. Qarşıya qoyulan siyasi proqramlardan fərqli olaraq, iqtisadi proqramlarda uyğun fikirlərin daha çox olması təbiidir, o cümlədən, hər bir iqtisadi proqramın elmi-texniki tərəqqiyə söykənməsi zəruridir. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın günün tələbinə uyğun səviyyədə inkişaf edə bilməsi ancaq elmi-texniki tərəqqi vasitəsilə əldə olunur. İqtisadiyyatın yenidən qurulması elmin yenidən qurulmasından ayrı aparıla bilməz.

İndiki dövrdə elm elə bir inkişaf səviyyəsinə gəlib çatmışdır ki, hər bir ölkənin iqtisadiyyatının uğurlu təşkili, planlaşdırılması və idarə olunması elmin uğurlu planlaşdırılması, təşkili və idarə

olunmasından ayrı təşkil oluna bilməz. Elmi fəaliyyət iqtisadiyyatın müstəqil bir sahəsinə çevrilmişdir və iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, spesifik xüsusiyyətlərə malikdir – iqtisadiyyatın bütün sahələrinin inkişafına sıçrayış verir. İqtisadiyyatın müxtəlif sahələrində əldə olunan bu sıçrayışlar da öz növbəsində, elmin yeni zirvələrə qalxmasına imkanlar yaratmaqla bərabər, həm də onu buna məcbur edir. İqtisadiyyat və elmin bu qaydada bir-birinə söykənməsi onların hər ikisinin vintvarı yüksəlişinə səbəb olur.

Məlumdur ki, hər bir ölkənin xarici siyasəti (məsələn, ticarəti) və iqtisadiyyatının səviyyəsi bir-birindən asılı olub, bir-birini tamamlayır və istiqamətləndirir. Elmin səviyyəsi və nəticələrinin praktikada tətbiqini tapması imkanları – iqtisadiyyatı, elm-texnika tərəqqisinin səviyyəsi isə bunların hər ikisini müəyyənləşdirir. Bu səbəbdən elm-texnika tərəqqisinin sürətləndirilməsinə təkcə bir təsərrüfat məsələsi kimi yox, həm də siyasi bir məsələ kimi baxılmalıdır. Buna görə də dövlət, ümumi siyasətinin tərkib hissəsi kimi, bütün ölkə üzrə özünün vahid elm siyasətini formalaşdırmalı və həyata keçirməlidir.

Elm sahəsində vahid dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi dövlətin yeni (XX əsrdən gələn) lakin tam müəyyənləşmiş funksiyasıdır, cəmiyyətin tarixi inkişafının nəticəsidir. Təbii ki, ölkənin dövlət quruculuğunun xarakteri, cəmiyyətin sosial-iqtisadi quruluşu elm siyasətinin aparılmasında öz izlərini qoyur. Odur ki, elmin inkişafını məhdudlaşdıran xüsusiyyətlər aşkarlanmalı və mümkün qədər tez bir zamanda aradan qaldırılmasına nail olunmalıdır, çünki istənilən ölkənin iqtisadi və texniki potensialı, onun gücü və müdafiə qabiliyyəti elm və texnikanın inkişafı və vəziyyəti ilə bağlıdır. Bu səbəbdən elm-texnika tərəqqisinə nail ola bilməyən xalqın azad və yaxşı yaşaması mümkün deyil.

Elmin təsiri maddi istehsalla bitmir, o, insanın fəaliyyət göstərdiyi ictimai həyatın bütün sahələrinə öz təsirini göstərir. Odur ki, ictimai həyatın bütün sahələrinin elmi şəkildə idarə olunması zərurəti ortaya çıxmışdır.

Azərbaycan Respublikasında elm-texnika tərəqqisinə tezliklə

nail olmaq üçün, yuxarıda deyildiyi kimi, ən əvvəl respublikamızın bu istiqamətdə keçdiyi yol, mövcud vəziyyəti və imkanları istər intellektual, istərsə də elm bazalarının səviyyəsinə əsasən araşdırılmalı və qiymətləndirilməlidir. Yaxın keçmişdə Azərbaycanda elm sahəsində fəaliyyətin təşkili və idarə olunmasını, vəziyyəti məsələlərini öyrənmək istədikdə, nəzərə almaq lazımdır ki, o, keçmiş SSRİ-də elmi fəaliyyətin təşkili və idarə olunmasının tərkib hissəsi olmuşdur. SSRİ-də elm siyasətinə isə aparılan ümumi siyasətin tərkib hissəsi kimi baxılmalıdır. Bu səbəbdən bəzi detalları da nəzərə almaq və SSRİ-də elmi fəaliyyətin təşkili və idarə olunması məsələlərini araşdırmaqla, Azərbaycanda da elmin keçdiyi yolu və müasir vəziyyətini öyrənə bilərik. İnkişaf etmiş ölkələrin təcrübəsini nəzərə alıb, respublikamızda elmin inkişafı və yenidənqurulması yollarını müəyyənəşdirə və sürətləndirə bilərik. Unutmayaq ki, keçmiş SSRİ-də elmə verilmiş yanlış (yarımçıq) hökmün nəticəsi göz qabağındadır – SSRİ-ni bürümüş, əsasən, iqtisadi böhran siyasi böhranla tamamlanmışdır.

Elmi fəaliyyətin təşkili və idarə olunması öz-özlüyündə çox mürəkkəb sistemdir və çoxlu miqdarda bir-biri ilə əlaqədə olan faktorlardan asılıdır. Keçmiş SSRİ-də elmi tədqiqatların təşkili yolları kapitalist ölkələrindən əsaslı şəkildə fərqlənmişdir. Bu, ən əvvəl, ölkələrin ictimai-iqtisadi quruluşlarındakı real köklü fərqlərlə əlaqədar olmuşdur. Həm də digər məsələlərdə olduğu kimi burada da siyasətə (ideologiyaya) üstünlük verilərək, qəti şəkildə elan olunurdu ki, kapitalist ölkələrindəki təşkilat metodları sosialist ölkələrində tətbiq oluna bilməz. Əlbəttə, bu fikrin düzgün olmadığını qeyd etməklə bərabər, respublikamızda iqtisadi quruluşda baş verən çevrilişi nəzərə alaraq, biz, xarici ölkələrin, o cümlədən, ABŞ-ın, Yaponiya və Almaniyanın praktikasından geniş istifadə etməliyik.

Unutmaq olmaz ki, nəinki elmi-texniki tərəqqiyə əsaslanan istehsalatda, eləcə də elmin özünün təşkilində böyük çevikliyə nail olmaq lazımdır. Yubanmış nəticə çox vaxt çətinliklərə gətirib çıxara bilər və ya elmi nəticə müsbət olsa da faydası xeyli azalmış olar.

Respublikamızda, ən əvvəl, iqtisadi siyasət özünün bütün

atributları ilə müəyyənləşdirilməli və həyata keçirilməsinin maddi və hüquqi təminatı barədə tədbirlər planı işlənib hazırlanmalıdır.

Respublikamızda iqtisadi və siyasi vəziyyət öyrənilib analiz olunmalıdır.

Bundan sonra, ilk öncə, indiki dövrdə iqtisadiyyatımızın hansı sahələrinin inkişaf etdirilməsinin zəruri və mümkün olduğunu aşkar etmək lazımdır. Söz yox ki, bu, ən əvvəl, daxili xammal mənbələrindən istifadəyə söykənməlidir. İqtisadi inkişafın mərhələlərlə aparılmasını nəzərdə tutan planlar müxtəsər olaraq, işlənib hazırlanmalıdır. Ən əvvəl, yaxın gələcək üçün müxtəlif sahələri əhatə edən iqtisadi inkişaf planları dövlət tərəfindən tərtib olunmalıdır. Bu planlar, təbii ki, dünya və respublikada əldə olunmuş ən yeni texnika və texnologiyaların istehsalata tətbiqini nəzərdə tutmaqla tərtib olunmalıdır. Bu planlar elə tərtib olunmalıdır ki, respublika iqtisadiyyatında yaranmış geriləməni dayandırmaqla yanaşı, onun stabil inkişafına nail olmağa imkan verə bilsin.

Sonrakı yaxın dövrlərdə iqtisadiyyatda stabil əsaslı irəliləmələrə nail olmaq üçün tədbirlər planı işlənib hazırlanmalı, uzaq gələcək üçün iqtisadi inkişaf planları tərtib olunmalıdır. Bu mərhələdə də respublika elm potensialının öhdəsinə çox böyük işlər düşür. Buna görə də respublikamızda elmi fəaliyyətin təşkili, onun nəticələrinin işdə reallaşdırılması sahəsində çox böyük dəyişikliklər həyata keçirilməlidir. Bu dəyişikliklər ona gətirib çıxarmalıdır ki:

- respublikanın sosial-iqtisadi inkişafına xidmət edə biləcək elmi-texniki tərəqqiyə nail olmağa imkan verən, yeni demokratik prinsiplərə əsaslanan dövlət sistemi yaradılsın; mərkəzləşdirilmiş planlaşdırmadan dövlət-ictimai tənzimləməyə keçid həyata keçirilsin;
- respublika elmi çox qısa zaman ərzində, milli istehsalatla bağlı olan sahələrdə dünyanın ən son nailiyyətləri səviyyəsinə qalxa bilsin;
- elmi müəssisələrlə istehsalat müəssisələri arasında köhnə sistemin çatışmazlıqlarından irəli gələn və bu gün də mövcud olan soyuqluq aradan götürülsün, onların bir-birinə maraqlı olmaları hər ikisi tərəfindən mütləq olaraq qəbul olunsun və həyata keçirilsin. Onlar arasında təbii əməkdaşlıq mexanizmi formalaşsın;

- elmi nəticələrin əldə olunmasında və onların istehsalatda tətbiq olunmasında iştirak edənlərin maraqlı olmaları üçün, məsuliyyətlərinin artması şərtilə, maddi cəhətdən təmin olunsunlar;

- hər bir intellektin (fərdin, qrupun, kollektivin, müəssisənin) əmək azadlığı məsuliyyətini də hiss edən təşəbbüskarlığı təmin olunsun;

- Azərbaycan elminin respublikadan kənarlarda öz tətbiqini tapmasına apara bilsin;

- Azərbaycandan kənarda yaşayan soydaşlarımızın və xalqımızı sevənlərin respublika iqtisadiyyatının dirçəldilməsində bilavasitə iştirak etmələrinə imkan versin;

- Maliyyə imkanına malik şəxsi firmaların ayrıca və ya dövlətlə birgə elmi-texniki problemlərin həll olunmasına cəlb olunması məsələsi öz həllini tapa bilsin.

Bütün bu tədbirlərin həyata keçirilməsi nəticəsində uzun illər ərzində texniki elmlər sahəsində əldə olunan nəticələrin istehsalatda tətbiq olunmasına qarşı adamlarda formalaşmış laqeydliyin aradan götürülə biləcəyi, elmi kadrlar arasında kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verəcəyi şübhəsizdir. Bu isə, öz növbəsində, respublikanın keyfiyyətcə yeni, daha yüksək inkişaf səviyyəsinə qaldırmağa imkan verəcəkdir. Elm, cəmiyyətimizin fəaliyyətinin bütün formalarında yeniləşdirici qüvvə ola biləcəkdir. Respublikanın elm potensialının güclənməsi, onun daha inamla dünya bazarına çıxmasına imkan verəcəkdir.

Hökumət bütün ölkə üzrə vahid ümumdövlət elm-texnika siyasətini formalaşdırır və həyata keçirir. Vahid elm-texnika siyasəti özünü ümumdövlət elm-texnika proqramlarında tapır. Bu proqramlar müsabiqə yolu ilə müəyyən olunan mövzu və problemlərə söykənir və əsasən yerinə yetirilməsinə dövlət tərəfindən sifariş verilir. Dövlətin elm-texnika siyasəti ali hakimiyyət orqanları tərəfindən təsdiq olunur və qanunvericilik aktı ilə möhkəmləndirilir.

Elm-texnika siyasəti aşağıdakılara əsaslanmalıdır:

- elm-texnika üzrə nəticələrin dünya səviyyəsinə çatmasının strategiyasını işləyib hazırlamaq;

- dövlətin və özəl sektorun aktiv əməkdaşlığını, universitetlərin, istehsal müəssisələrinin, müstəqil tədqiqatçıların elm-tədqiqat işlərini aparmaq üçün imkanlarını artırmaq yolu ilə, həm də investisiyada qarşıya çıxan maneələri aradan qaldırmaqla ölkənin möhkəm elm-texnika bazasını yaratmaq;

- elm-texnika siyasətinin hüquqi əsaslarını daima təkmilləşdirmək.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi ilə əlaqədar olaraq, ölkənin sərhədlərinin xarici təcavüzlərdən qorunması milli dövlətimizin öhdəsinə düşür. Bu müqəddəs və vacib məsələnin inamla həll olunması üçün respublikanın Hərbi Sənaye Kompleksi, təxirə salınmadan, işlərinin təşkilində respublika elm potensialının imkanlarından yüksək səviyyədə istifadə olunması və eləcə də elm potensialının imkanlarını kompleksin tələblərinə uyğunlaşdırılması istiqamətində qurmalıdır. Azərbaycan Respublikasının növbəti dəfə erməni təcavüzünə məruz qalmasından artıq çox illər keçir. Əgər belə davam edərsə, bunun sonu olmayacağını da unutmamalıyıq. Odur ki, ilkin olaraq erməni təcavüzünü layiq olduğu səviyyədə cavablandırmaq zərurəti bu işlərin təxirə salınmadan yerinə yetirilməsini tələb edir.

Azərbaycan Respublikasında texniki tərəqqiyə çatmağın yolları. Texniki tərəqqidən olan uzaqlıq dövlətin müstəqillikdən olan uzaqlığı təhlükəsi ilə mütənasibdir.

Hər bir dövlət özünün müstəqilliyini, iqtisadi cəhətdən qüdrətliliyini və xalqının yaxşı yaşamasını təmin etmək məqsədilə daima milli gəlirin artırılmasına yönəldilən siyasət yeritməlidir. Məlumdur ki, işçilərin sayı hesabına milli gəlirin artırılması məhdudiyyətə malikdir. Odur ki, milli gəlirin və əmək məhsuldarlığının artırılması - texniki tərəqqiyə söykənməlidir.

Texnika tərəqqisinə sahib olan dövlətin iqtisadiyyatının yüksək dərəcədə inkişaf etmiş olduğunu ABŞ, Yaponiya, Qərbi Avropa dövlətlərinin timsalında görmək olar. Bu ölkələrdə iqtisadiyyat və texniki tərəqqi bir-birinə söykənməklə daim özlərinin inkişafını tapmışlar. Texnika tərəqqisi dedikdə-yeni maşın, mexanizm, cihaz-

ların istehsalı, yeni texnologiyalar əsasında xammal və materialların istehsalı, yeni enerji növlərindən istifadə etmək kimi işlərin birgə reallaşması və s. nəzərdə tutulur. Texnika tərəqqisi, elm və elm-texnika tərəqqisi anlayışları ilə sıx bağlı olub, onların nəticələri kimi ortaya çıxır. Texnika tərəqqisinə elm-texnika nailiyyətlərinin istehsalata kütləvi şəkildə tətbiqi nəticəsində nail olunur. Bu texnika tərəqqisinə sahib olmağın birbaşa müstəqil yoludur. Lakin dünya ölkələrinin bu günkü təcrübəsi göstərir ki, heç də bütün dövlətlər (demək olar ki, ABŞ-dan savayı) elmin bütün sahələri ilə məşğul olmaq iqtidarında deyillər, çünki bu, ən əvvəl, çox böyük xərc tələb edir. Bununla belə, zəmanət verilə bilməz ki, bütün dövlətlərdə tədqiqatçılar növbəti kəşflərə eyni vaxtda sahib olacaqlar. Bu, dünya təcrübəsində çox az rast gəlinən haldır (bu hal hətta ABŞ-ı məcbur edir ki, onu qabaqlayan işlərin patentlərinin lisenziyalarını alsın). Buna görə də dövlətlər maliyyə imkanlarını ortaya qoymaqla, bir-biri ilə əməkdaşlıq etməyin yollarını axtarıb tapmalıdırlar.

Müxtəlif əməkdaşlıq yolları mövcuddur. Bunlardan ən çox yayılanı hər bir ölkədə elmi-texniki nailiyyətlərin öz əksini tapmış olduğu, patentlərin lisenziyalarının alğı-satqısı yolu ilə həyata keçirilir. Bununla yanaşı nəzərə alınmalıdır ki, ölkələrin lisenziyalara münasibəti bu və ya digər səbəbdən eyni deyildir. Baş verən hallara diqqət yetirək:

1.Dövlət, demək olar ki, xammal satmaqla, xaricdən özünün istehlak tələbatını ödəyə biləcək mal alır. Bu, hər bir dövlət üçün fəlakətdir. Bu gün biz, demək olar ki, buna yaxın vəziyyətdəyik (vəziyyətə düşmüşük).

2.Dövlət lisenziya alır, özündə mal istehsalını təşkil edir, daxili tələbatını ödəyəndən sonra xarici ölkələrə də mal ixracını qismən həyata keçirir. İnkişaf yolunda olan ölkələr bu yoldadırlar. Onlar dünya bazarındakı rəqabətə davam gətirmək üçün müntəzəm olaraq lisenziyalar almalıdırlar. Bu isə o qədər də asan (mümkün) iş deyil. Böhran təhlükəsi hər an ölkəni yaxalaya bilər.

3.Dövlət özündə edilən elmi kəşf və ixtiralarla yanaşı kənardan da lisenziyalar alıb, istehsalı daim təkmilləşdirməklə dünya ba-

zarında rəqabət gücünü saxlayır, yeni elm-texnika tərəqqisinin ön sıralarında olur. ABŞ, AFR, Yaponiya, İngiltərə və s. ölkələr belə edirlər.

4.Dövlət əsasən özündə edilən elmi kəşf və ixtiraların əsasında istehsalını qurur. SSRİ-də belə idi. Nəticədə SSRİ-də texniki tərəqqi xalq təsərrüfatında bütövlükdə deyil, əsasən, onun hərbi istiqamətlərlə bağlı sahələrində baş vermişdir. SSRİ dövləti lisenziyaların alğı-satqısı prosesində zəif iştirak edirdi. SSRİ-nin xarici ölkələrin üzünə bağlı olması – qapalılığı onu bu dövlətlərin açıq rəqabətindən qoruya bilmişdir.

Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə hərbi sənayeyə aid müəssisələr birbaşa Moskvaya tabe olduğundan, təbii ki, 4-cü bənd daha ağır formada müttəfiq respublikamıza da aid idi. Bunu istehsal sahələrindəki texnologiyaların "yaşının" çox böyük olması bir daha sübut edir. Qərb ölkələrində texnologiyaların yeniləşməsi tezliyi illərlə ölçüldüyü halda, bizdə on illərlə ölçülürdü, daha doğrusu bir dəfə tikilən istehsal sahəsi, demək olar ki, daimilik olurdu. Yeri gəlmişkən, bu gün respublikamızda istehsalın azalmasının, bir çox hallarda isə dayanmasının əsas səbəblərindən biri də budur. Bu gün fiziki və mənəvi köhnəlmiş bu istehsal sahələri (dağıdılmamışlar) günün tələbinə cavab verə bilmir, müstəqilliyini əldə etmiş respublikamızın imkanlarını olduqca məhdudlaşdırır, xalqın maddi vəziyyətinin kəskin şəkildə pisləşməsinə səbəb olur, erməni təcavüzünə qarşı olan qüvvələri toplamağa lazım olan qədər kömək göstərə bilmirlər. Ermənilərin havadarlarına söykənərək, xalqımıza qarşı başlamış olduqları son müharibə, daxili və xarici düşmənlərimizin respublikamızın müstəqilliyinə qarşı yönəlmiş bir sıra iyrənc siyasət oyunları, 1985-ci ildən başlayaraq bazar iqtisadiyyatına keçiddən istifadə edərək, adamlarımızın bir qisminin varlanmaq hərisliyi, xalqın müstəqil dövlətini yaratmaq uğrunda apardığı mübarizəyə Moskvanın şovinist və ermənipərəst qüvvələrinin hərtərəfli müqavimət göstərməsi onsuz da gücdən düşmüş mövcud istehsalımızı daha da zəiflətmişdir. İqtisadi sistemimizin də kökündən dəyişdiyini – bazar iqtisadiyyatına keçdiyimizi nəzərə alaraq, daxili və xarici

dünya bazarlarında rəqabətə davamlı mallar istehsal etməkdən ötrü taqətdən salınmış istehsal sahələrimizin dirçəldilməsi və gələcəklərinin təmin edilməsi məqsədilə onların yenidən qurulması, respublikanın müstəqilliyi yolunu tutan Azərbaycan dövlətinin qarşısında bir zərurət kimi durmaqdadır. Bu vəzifələrin yerinə yetirilməsi isə yuxarıda (3-cü bənddə) göstərildiyi kimi, tələb edir ki, xarici lisenziyaların alınması və tətbiqi məsələləri ilə özümüzdə aparılan elmi-tədqiqat və konstruktor işləmələri arasındakı əks-əlaqə nəzərə alınsın. Belə ki, bu əlaqə onların bir-birinə söykənməsi ilə vintvarı inkişafını təmin edər. Deyilənlərin bir zərurət olduğunu dünyanın Yaponiya kimi böyük sürətlə inkişaf etmiş ölkəsinin timsalında yəqin edə bilərik. Yaponiyanın bugünkü uğurları bu işlərin vaxtında (İkinci Dünya müharibəsindən dərhal sonra) inamla və ardıcıl həyata keçirilməsi ilə sıx bağlıdır. Bu əlaqə, ilk növbədə, onda özünü göstərir ki, xarici lisenziyaların alınması və ya alınmaması özümüzdə hansı elmi-tədqiqat və konstruktor işlərinin aparılıb-aparılmamasını müəyyənləşdirir. Belə ki, mütəxəssislərin olub-olmaması və işin başa çatdırılması müddəti elmi tədqiqat işlərinin aparılıb-aparılmamasını müəyyənləşdirən kriteriya kimi çıxış edirlər. Odur ki, proqnozlaşdırılan elmi-tədqiqat işlərinin aparılmasının əsaslandırılması üçün, dünyada bu sahədəki vəziyyət mütləq araşdırılmalı, patentlərin varlığı öyrənilməlidir. Sadəcə olaraq hər bir tədqiqatçı bilməlidir ki, əgər onun əldə etmək istədiyi elmi-texniki nəticə respublikamızda xarici firmalar (dövlətlər) tərəfindən patentləşmişsə, onun nəticəsinin əhəmiyyəti olmayacaq, çünki patent təmizliyi olmayacaq, zəhməti və çəkilən xərc izafi olacaq. Bu o deməkdir ki, bu nəticələr hətta respublikamızın özündə belə qanunla (Azərbaycan Respublikasının da qoşulmuş olduğu beynəlxalq Konvensiyaların tələbləri ilə) müdafiə olunan tətbiqini tapa bilməyəcəkdir. Bu baxımdan patentlərin alınması elm müəssisələrinin səviyyəsinin və iqtisadi effektivliyinin yüksəldilməsi probleminin tərkib hissəsidir.

İqtisadiyyatımızın müstəqilliyini maksimum təmin etmək məqsədilə lisenziyaların alınmasında onlarla bağlı xaricdən avadanlıqların və hətta xammalın alınmasında zərurətin olub-olmamasını,

tətbiqinin texniki cəhətdən öz gücümüzlə həll olunma imkanlarını da nəzərə almalıyıq.

Lisenziyaların alınması kapital qoyuluşu ilə sıx əlaqədardır və xalq təsərrüfatını yeni texnika ilə tez təmin etmək nöqteyi-nəzərindən istehsalın növbəti və perspektiv planlaşdırılmasına bilavasitə aiddir.

Lisenziyaların alınması xarici ticarətlə də bağlıdır, çünki lisenziyaların alınması ixracatın artmasına, idxalın isə ixraca nəzərən nisbi azalmasına səbəb olmalıdır.

Qeyd etmək lazımdır ki, respublikamız patentlərin dövlət səviyyəsində qeydiyyatı, alınması və satışının təşkili üzrə təcrübəyə malik deyildi, ancaq DETK 1993-cü ildə yaradılandan sonra bu istiqamətdə işlərin təşkil olunmasına başlanılmışdı. Bu işlərin yüksək səviyyədə yerinə yetirilməsinə nail olmaq üçün dünyada patent lisenziya siyasətinin kapitalist dövlətləri (firmaları) tərəfindən həyata keçirilməsinin yolları, dünya ölkələrində kəşf və ixtiraların patentləşməsinin quruluşu və dinamikası öyrənilib analiz olunmalıdır. Aparılan patent lisenziya siyasətinin çevikliyini və mükəmməlliyini təmin etmək məqsədilə elmi axtarışların (tədqiqatların) aparılması vacibdir.

Elm (patent-lisenziya) siyasətinin təşkilində nəzərə almaq lazımdır ki, bizdə özəl firmalar yeni-yeni yaranmaq üzrədirlər. Onların şəxsi vəsaitləri lisenziyaların alınmasına, demək olar ki, kifayət etməz və ya onlar vəsaitlərini daha tez gəlir gətirən ticarətə qoymağı üstün tuturlar – dünya təcrübəsi də bunu göstərir. İlk illər bu işlər dövlətin himayəsində olmalı və istiqamətləndirilməlidir. Dövlət siyasətini elə qurmalıdır ki, özəl sektorda çalışanlar könüllü olaraq üzlərini istehsala çevirməklə, öz vəsaitlərini də bu istiqamətdə, o cümlədən, elm-texnika siyasətinin həyata keçirilməsinə sərf etsinlər. Yaponiyanın və AFR-in keçmiş olduğu təcrübədən bəhrələnə biləriksə, elmi-texniki nəticələrin tətbiqi müddətini (İkinci Dünya müharibəsindən sonrakı dövrə nəzərən) xeyli azaltmış olarıq. Belə ki, bu müddət bu gün bir çox sahələrdə illərlə yox, lazım gələrsə aylarla ölçülür. Bu isə o deməkdir ki, dövlətin ilk işlərindən biri, qısa müddətdə özünün elmi-texniki siyasətini qurması və həyata keçirməsi olmalıdır.

Yuxarıda qeyd olunmuşdur ki, hər bir dövlət bütün sahə və istiqamətlərdə elmi-tədqiqat işlərini aparmaq iqtidarında deyildir. Bu səbəbdən hər bir ölkə öncə özünün mövcud istehsal sahələrini əhatə edən elmi-texniki tədqiqatlar üzrə ixtisaslaşmağa məcburdur. Bu səbəbdən biz belə hesab edirik ki, respublikamızda elm müəssisələrinin təşkilində böyük dəyişikliklər aparılmalıdır. Məsələn, öz ətrafında zəif kollektivləri toplamış, respublika iqtisadiyyatı ilə heç bir əlaqəsi olmayan elm müəssisələrini (layihələri) günün tələbinə cavab verən və perspektivli məsələlərə istiqamətləndirmək siyasəti formalaşdırılmalıdır. Hər bir ölkənin müstəqilliyinin, iqtisadi yüksəlişinin əsasını, ilk öncə, kənd təsərrüfatındakı nailiyyətlərin təşkil etdiyini nəzərə alsaq, elmi tədqiqatların, ən əvvəl, bu sahələrdə aparılmasına üstünlük verilməlidir – elə etmək lazımdır ki, bütün inkişaf etmiş dövlətlərdə olduğu kimi kənd təsərrüfatı məhsullarının istehsalı, tullantısız emalı və satışı kimi bütün sikllləri əhatə etməklə respublikamız nəinki zəruri və ənənəvi kənd təsərrüfatı məhsulları ilə özünü təmin etsin, həm də bu məhsulların bir qismi dövlətin daim artan ixracatında mühüm yer tutsun.

Elm respublikamızda sənaye əhəmiyyətli xammal mənbələrinin öyrənilməsinə istiqamətlənməli, onların istehsalı və tullantısız emalına xidmət etməlidir, sənayenin xammala olan ehtiyaclarının aradan qaldırılmasına məsul olmalıdır.

Elmin qarşısında duran ilkin məsələlərdən biri də bundan ibarətdir ki, respublikaya daxil olan ilkin məhsulların (istər xalq istehlak malları, istərsə də istehsalatın tələbatına görə) çeşidi və miqdarı mümkün qədər azaldılsın, ixracatın idxal üzərində üstünlüyü təmin olunsun.

Respublikada mövcud olan istehsal sahələrinin texnika və texnologiyalarının müasirləşdirilməsi, texnoloji nöqteyi-nəzərdən çevik müəssisələrin yaradılması yaxın illərin işi olmalıdır.

Bunlarla yanaşı, elm, bütün sahələr üzrə ümumi ola biləcək istiqamətlərin, məsələn, mikroelektronikanın, informatikanın və s. intensiv inkişaf etdirilməsinə xidmət etməlidir.

Bütün bunların yerinə yetirilməsi tələb edir ki, respublika

iqtisadiyyatının ayrı-ayrı sahələrinin vəziyyəti öyrənilib, analiz olunsun, dünyada olan uyğun istiqamətlərin vəziyyəti ilə müqayisə olunsun və bundan sonra dövlətin elm siyasətinin əsasını təşkil edəcək yeni texnika və texnologiyalar üzrə planlar tərtib olunub, dövlətə təsdiqə verilsin. Bu planda xaricdən alınması nəzərdə tutulan patentlər, özümüzdə yaradılacaq texnika və texnologiyalar effektivlikləri göstərilməklə öz əksini tapmalıdır.

Bütün bu deyilənlərdən sonra qeyd etmək yerinə düşər ki, elmi tədqiqatlar nəticəsində yeni texnikanın layihələndirilməsi və işə buraxılması mövcud ixtiralara (patentlərə) nəzərən uzun, mürəkkəb və ağır zəhmətli proses olmasına, indiki dövrdə elmi-texniki tədqiqatlara qoyulan xərcin sürətlə çoxalmasına baxmayaraq, inkişaf etmiş dünya ölkələrində elmi-tədqiqatların sayı daima artmaqdadır – milli gəlirin daha çox hissəsini bu istiqamətə ayırırlar. Digər tərəfdən nəzərə almaq lazımdır ki, xarici dövlətlər (firmalar) hər patenti həm də hər kəsə satmırlar. Müasir dövrdə xaricdə (ABŞ-da) belə hesab olunur ki, o dövlət (firma) gələcəkdə inkişafını davam etdirə biləcək ki, o, indi geniş miqyasda tədqiqat işlərini düzgün proqnozlaşdırmış və planlaşdırmışdır.

Bizdə (sovet dövründə) ölkə təsərrüfatlarının planlaşdırılmasının ümumi sistemində xarici lisenziyaların alınmasının planlaşdırılması çox zəif olmuşdur. İndi isə tamamilə yox dərəcəsindədir. Bu hal indiki dövrdə texniki, iqtisadi və kommersiya nöqteyi-nəzərdən perspektivsiz lisenziyalara şəxsi və dövlət vəsaitlərinin sərf olunmasına, nəticədə (ən əsası) texnikanın günün tələbinə uyğun müəyyənləşməməsinə, bir sıra hallarda isə ölkə təsərrüfatında disproporsiyaların ortaya çıxmasına səbəb olar. Bundan başqa, planlaşdıran orqanlar alınan lisenziyaların üstünlüklərindən nə dərəcədə istifadə olunduğuna nəzarət etməklə gələcəkdə bu çox vacib işin kamilləşdirilməsi yollarını müəyyənləşdirməlidirlər. Əgər yeni nəsil patentlərin yaradılmasına nail olarıqsa, dünya bazarında öz patentlərimizi satmaq sahəsində layiqli yerimizi tutarıq və bundan sonra elmi-texniki tərəqqisinə çatmış olduğumuzu inamla deyə bilərik.

Kadr siyasəti - intellektuallarımızın səfərbərliyi. Torpaqlarının qətrə-qətrə parçalanmasına, övladlarının bütün dünyaya zorla bir-birindən xəbərsiz səpələnməsinə qarşı uzun illər açıq və gizli yollarla mübarizə aparan Azərbaycan xalqı 1989-cu ildə hər ilin 31 dekabr gününü dünya azərbaycanlılarının həmrəylik günü elan etdi. 1990-cı ilin (3-6) noyabr günlərində isə Azərbaycanın demokratik qüvvələrinin rəhbərliyi altında dünya azərbaycan türklərinin nümayəndələri İstanbulda Dünya Azərbaycan Türklərinin Dərnəklərinin Birinci qurultayına toplandılar. Bu qurultaydan keçən dövr ərzində Azərbaycanın azadlığı uğrunda çox mühüm addımlar atılmışdır. Azərbaycanın müstəqilliyini qəti olaraq elan etməsində, digər hadisələrlə yanaşı, bu qurultayın da çox böyük köməyi olmuşdur. Bu illər ərzində qurultayda müəyyənləşdirilmiş bir çox məsələlər həllini tapa bilmişdirsə də, bu və ya digər səviyyədə nəzərdə tutulmuş bir sıra məsələlər, o cümlədən, dünya azərbaycanlı mühacirlərin, ən əvvəl, alim və mütəxəssislərin birliyi kimi məsələlər hələlik öz həllini gözləməkdədir. Bundan başqa keçən dövr ərzində baş verən hadisələr ziddiyyətləri ilə xarakterizə olunan yeni problemlər (məsələn, iqtisadi böhranların güclənməsini) ortaya qoymuşdur. Respublikamızın müstəqilliyini əldə etməsi ilə Azərbaycanda Xalq Azadlıq Hərəkatı özünün I mərhələsini başa çatdırmış və yeni mərhələyə-dövlət quruculuğu mərhələsinə daxil olmuşdur. Dövlətin əsas vəzifəsi əldə olunan müstəqilliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək yolunda bütün qüvvələri səfərbərliyə almağı nəzərdə tutur. Azadlığın möhkəmlənməsi, ən əvvəl, iqtisadiyyatın güclü olmasını bir zərurət kimi ortaya qoyur. Belə ki, iqtisadiyyatı zəif olan hər bir ölkə bir çox əsaslı çətinliklərlə rastlaşır. Müstəqilliyini yenicə əldə etmiş ölkədə isə belə problemlərin daha dərin və çox olması şübhəsizdir. Bu səbəbdən demokratikləşmə və müstəqillik yolunda Azərbaycan Respublikasının atdığı addımların daha inamlı olması məqsədilə, iqtisadiyyatımızın möhkəmləndirilməsi yollarının müəyyənləşdirilməsi və həyata keçirilməsi lazım gəlir.

Ən əvvəl, onu qeyd etmək lazımdır ki, iqtisadi inkişafın əsasını ölkədə demokratiyanın reallığı təşkil edir. Demokratiya ilə

müstəmləkəçilik (eləcə də köləlik) bir araya gələ bilməz. Odur ki, müstəmləkələrdə (siyasi azadlığı olmayan ölkələrdə) iqtisadiyyatın inkişafı mümkün olmamışdır. Bütün inkişaf etmiş ölkələr, ən əvvəl, müstəqil olmuşlar. Bu, inkişafın ilkin şərtidir. Əlbəttə ki, iqtisadiyyatın durmadan inkişafını təmin edə bilməyən ölkələr bu və ya digər formada yenidən müstəqilliklərini itirmək zoru qarşısında qala bilərlər. Müstəqil ölkələrdə müstəqillik, demokratiya və iqtisadi inkişaf birlikdə xalqın azadlığının əsas əlamətləri olub, müstəqillik – demokratiya – iqtisadi inkişaf – yeni səviyyədə müstəqillik – yeni səviyyədə demokratiya – yeni səviyyədə iqtisadi inkişaf – və beləcə bir-birini şərtləndirə biləcək daimi əlaqədədirlər. Bu o deməkdir ki, azad ölkədə bu əlamətlərin hər biri zaman keçdikcə yeni yüksəlişə çatırlar.

Artıq bu faktdır ki, SSRİ-nin dağılması ilə Azərbaycan da daxil olmaqla, onun yerində yaranmış müstəqil dövlətlər daha dərin iqtisadi və siyasi böhranlarla üz-üzə dayanmışlar. Belə ki, iqtisadiyyatın sahələrinin inteqrasiyasına əsaslanmış keçmiş quruluşdan bu dövlətlərin hamısına miras olaraq, yarımçıq texnologiyalara əsaslanan istehsal sahələri qalmışdır. Bu azmış, respublikaya rəhbərlik edənlərin düşüncəli və ya səriştəsiz əməllərinin nəticəsində, eləcə də SSRİ dövründə çoxlu var-dövlət toplamış bir qism adamların fərdi və birgə, heç bir sivil qanunlara sığmayan fəaliyyətləri hesabına və s. səbəblər üzündən bu istehsal sahələri, demək olar ki, hər yerdə iflic vəziyyətinə düşmüşdür. Dövlətlərin iqtisadiyyatlarını bu ağır vəziyyətdən qurtarmaq üçün gördükləri xırda tədbirlər də vəziyyətin əsaslı şəkildə dəyişməsinə kifayət etməmişdir. Bunun səbəblərindən biri də bu işin dövlət tərəfindən sistem halında aparılmaması olmuşdur.

Məlumdur ki, ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən cəhətlərdən biri ölkə intellektuallarının əmək məhsullarının (patentlərin) bir başa və dolayı yolla (istehsal məhsullarının) satışı imkanları sayılır. Ona görə də ölkə iqtisadiyyatının yüksəldilməsinə yönələn tədbirlər, hər bir ölkənin daxili iqtisadi imkanlarından başqa, intellektual imkanlarına da söykənməlidir. Respublikamızda SSRİ-dən miras kimi qalan elm kadr potensialından səmərəli istifadə

etmək üçün, ən əvvəl, onun imkanları müəyyən olunmalıdır. Bu isə onun daxili və xarici bazarlarda rəqabətə davamlı ola biləcək strukturlarının aşkarlanması deməkdir. Respublikamızda istehsalın bərpası və iqtisadiyyatın dirçəldilməsi tədbirləri, ilk öncə, bu strukturların fəaliyyətinə əsaslanmalıdır.

Bütün bunlarla yanaşı unutmaq olmaz ki, bu gənc dövlətlərin hər birində bu miras, mövcud istehsal texnologiyaları kimi yarımçıqlıqları ilə xarakterizə olunurlar. Bu yarımçıqlığı aradan qaldırmaq üçün görüləcək tədbirlərdən biri keçmişdə SSRİ-nin ayrı-ayrı regionlarında olan müəssisələrarası əlaqələrin yeni formada bərpasına yönəldilməlidir. Bunlardan ən vacibi elmi müəssisələr arası əlaqələrin bərpasıdır. İqtisadiyyatın digər sahələrindən fərqli olaraq, bu istiqamətdə fəaliyyətin bərpasına lazım olacaq vaxtın çox böyük olduğunu və iqtisadiyyatın ümumi inkişafının əsasını təşkil etdiyini nəzərə alaraq, onsuz da zəif olan bu əlaqələrin pozulmasına və ya yubadılmasına heç bir şərtlə yol verilməməlidir.

Məlumdur ki, SSRİ-də elmi fəaliyyətin istehsalatla (hərbi sənaye kompleksinin işi nəzərə alınmazsa) sıx əlaqəsi olmamışdır. Buna baxmayaraq, gənc dövlətlərin elm müəssisələrinə lazımi maddi yardım göstərməklə, potensial qüvvələrimizi birləşdirməklə, onları ölkələrimizin qarşısında duran bu məsələlərin dünya səviyyəsində həllinə yönəltmək olar. Alimlərimizin səylərinin birləşdirilməsi onların əməyinin səmərəliliyini artırmaq yolunda xüsusi əhəmiyyətli olacağı şübhə doğurmamalıdır. Bu əlaqələr, iqtisadi sahələrdəki əlaqələrdə olduğu kimi, bir də ona görə əhəmiyyət kəsb edir ki, elmi fəaliyyət sahəsində əməkdaşlığın dünya miqyasına çıxması yolunda bu ölkələr üçün keçid mərhələsi rolunu oynaya biləcəkdir. Bu əlaqələr əsasən, dövlətlər səviyyəsində bağlanan müqavilələrdə, EA-ları və eləcə də ayrı-ayrı elm müəssisələri arasında bağlanan müqavilələrdə öz əksini tapa bilər.

Respublikamızın elm potensialının gücündən səmərəli istifadə etməyin başqa bir yolu qonşu ölkələrin iqtisadi proqramlarının yerinə yetirilməsində alim və mütəxəssislərimizin iştirak etməsi olmalıdır. Bu da SSRİ-nin ərazisində yeni yaranan dövlətlərlə, deyildiyi kimi

bizim və qonşu ölkələrin elm potensialının birgə əməkdaşlığına əsaslanmalıdır. Bu əməkdaşlıq Respublikamızın iqtisadi proqramlarının yerinə yetirilməsində də istifadə oluna bilər. Ümumiyyətlə, dövlətimizin iqtisadi əlaqələrinin inkişaf etdirilməsi istiqamətində xarici dövlətlərlə bağlanan müqavilələrdə əlaqələrimizin elmi-texniki fəaliyyət əsaslarında qurulmasına xüsusi diqqət yetirilməlidir. Bu baxımdan qabaqcadan hər bir dövlətlə elmi-texniki sahələrdə birgə işlərin istiqamətləri və təşkili mexanizmi işlənib hazırlanmalıdır.

Respublikamızın iqtisadi məsələlərinin həllində ABŞ, Yaponiya və Qərb dövlətlərinin təcrübəsindən istifadə etmək bizim ən vacib işimiz olmalıdır. Bunun ən effektiv yolu inkişaf etmiş ölkələrin elm ictimaiyyətinin bu problemlərin həllində bizimlə birgə iştirakını təşkil etməkdən keçir. Bu cür əlaqələrin elm potensialımızın gücünün artmasına səbəb olacağı şübhəsizdir. Ən əvvəl, elmimizin əhatə etdiyi sahələrin daha da dərinləşməsi, sonra isə yeni elm sahələrinə yiyə durmağımız mümkün olacaqdır.

Bütün bu deyilənlərin daha inamla və etibarlı yerinə yetirilmələri üçün respublikamızdan kənarda, əsasən, Qərb dövlətlərində yaşamağa məcbur olmuş soydaşlarımızın respublikamızda istehsalın dirçəldilməsinə cəlb olunmaları yolları açıqlanmalı və dövlət səviyyəsində həllini tapmalıdır. Bu işdə elm və texnika sahəsində çalışan mühacir alim və mütəxəssislərə xüsusi diqqət yetirilməlidir. Onların deyilən problemlərin həllinə bu və ya digər dərəcədə cəlb olunmaları respublikamızda elmin və eləcə də istehsal sahələrinin dünya standartları səviyyəsinə qalxa bilmələri imkanlarını xeyli artırmış olar. Onlar həm də yaşadıqları ölkələrin iqtisadi (eləcə də elmi-texniki) proqramlarının yerinə yetirilməsində bizim alim və mütəxəssislərimizin cəlb olunmasını təşkil etməlidirlər. Biz dövlətlərarası bağladığımız müqavilələrdə bu soydaşlarımızın iştirakı yollarını axtarıb tapmalıyıq, hətta bağlanan müqavilələrin elmi-texniki tərəqqi ilə bağlı sahələrində buna xüsusi diqqət yetirilməli və mümkün olduqca onların iştirak etdikləri müqavilələrə üstünlük verməliyik. Biz bu yollarla xaricdə respublikamızı (xalqımızı), onun müstəqilliyini (azadlığını), inamla qoruya biləcək, bu gün açıq ehtiyac duyduğumuz lobbimizi

(imkanlı soydaşlarımızı) formalaşdırmış olarıq. Bu işlərin səmərəliliyini artırmaq məqsədilə dünyada Azərbaycan mühacirlərinin (dərnəklərinin) digər türk (eləcə də bizlərə yanan başqa millətlərin) mühacirləri (dərnəkləri) ilə iş birliyi qurmaları və onların da Azərbaycanın iqtisadi və siyasi yüksəlişinə bilavasitə yardım etmələrinin yolları axtarılıb tapılmalıdır. Hətta biz belə hesab edirik ki, bu mühacirlər çıxdıqları ölkələrin, xüsusən elm və iş adamları ilə əlaqələrimizin yaradılmasında da yardımçı ola bilərlər.

Uzun illər çar Rusiyasının, sonra isə Sovet dövlətinin tərkibində (tabeliyində) olmağımızın nəticəsidir ki, indiyə kimi mühacirlərimiz deyəndə ancaq bu imperiyalara daxil olan ölkələrdən kənarda yaşayan vətəndaşlarımızı başa düşmüşük. Biz bu gün, bir müstəqil dövlət olaraq, bu ənənəni pozmaq zoru qarşısındayıq. Mühacirlərimiz sırasında ancaq Azərbaycan Respublikasından kənarda (indiki Gürcüstanda, Ermənistanda, Dərbənddə və eləcə, də şərti olaraq bura daxil etmək şərtilə, Güney Azərbaycanda) yaşayan bütün soydaşlarımızı qəbul etməliyik. Odur ki, keçmiş SSRİ ərazisində yeni yaranan müstəqil dövlətlərdə yaşayan qardaşlarımızla – yaxın mühacirlərimizlə sıx əlaqələrin yaradılması günün tələbidir. Sovet dövründən fərqli olaraq, indiki dövrdə mühacirlərimizə düşmən sifəti ilə yox, qardaş və vətəndaş gözü ilə baxmaq gərəkdir; onları özümüzə arxa bilməklə, onlara özümüz də arxa olmalıyıq. Belə olduqda iqtisadi əlaqələrimizin genişliyi yaranar, elmi fəaliyyətimizin effektivliyi artar, dünya xalqları ilə əlaqələrimizin öz təbii axarına düşməsi üçün lazım olan çox böyük addımlar atılmış olar. Söz yox ki, bu ölkələrin elmi fəaliyyət sahəsindəki əlaqələri texniki sahələrlə yanaşı, hər birinin ümummaraq dairəsinin çox geniş olduğu humanitar elm sahələrində də öz yerini tapmalıdır. Yuxarıda deyilənləri yekunlaşdıraraq deyə bilərik ki, dövlətlərarası elmi, elmi-texniki əməkdaşlıq respublikamızda elmin inkişafına təkan verməklə istehsal sahələrinin daima yeniləşməsinə səbəb olacaqdır. Bu əməkdaşlıqlar nəticəsində:

1. Hər bir xalqın aparıcı qüvvəsi olan alimləri arasında yaranan ünsiyyət daima inkişaf etməklə xalqlarımız arası ünsiyyətə çevrilə biləcəkdir.

2. Hər bir xalqın digər dövlətlərdə bu əlaqələrin istiqamətlənməsində və həyata keçirilməsində mühüm rol oynaya biləcək böyük xüsusi çəkiyə malik lobbisi yaranar və mühacirlərin vətəndaşlığı problemi öz həllini tapar.

3. Heç bir vaxt öz aktuallığını itirməyən və bu gün də xalqımız üçün ən vacib sayılan belə bir məsələ də öz həllini tapa biləcəkdir – xalqımız haqda dünya ictimaiyyətinə düzgün məlumatlar çatdırılacaqdır.

Hesab edirik ki, Respublikamız elm, elm-texnika sahəsində YUNESKO ilə də əməkdaşlıq edə bilər və bu əməkdaşlıq iki istiqamətdə olmalıdır:

1. YUNESKO-nun maliyyə yardımı ilə yerinə yetirilən inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf proqramlarının elmi-texniki məsələlərinin həllində respublikamızın alim və mütəxəssisləri iştirak edə bilərlər. Bu əlaqələr gələcəkdə bu dövlətlərlə sərbəst münasibətlərimizin formalaşmasına, əlaqələrimizin dərinləşməsinə aparıb çıxaracaq.

2. Azərbaycan Respublikası da inkişaf etməkdə olan bir ölkə kimi YUNESKO-nun bu ölkələr üçün nəzərdə tutulmuş yardım proqramından bilavasitə yararlana bilər.

İstehsalatda elm və texnika siyasəti. Məlumdur ki, ETS-də məqsəd, əsasən elmin üstün istiqamətlərini müəyyənləşdirməkdən, elm sahəsində fəaliyyətin təşkili və idarə olunmasından və kadr məsələlərinin həll olunmasından ibarətdir. Siyasətin bu tərkib hissələri bir-birilə sıx əks əlaqədədirlər, yəni biri o birinin səbəb və nəticəsidir. Buna görə də elmin üstün istiqamətlərini müəyyən etmədən effektiv elmi fəaliyyətə başlamaq və eləcə də kadr siyasətini formalaşdırmaq mümkün deyildir. Ancaq elmin üstün istiqamətləri müəyyən olunandan sonra elmi fəaliyyətin təşkili - uyğun elm müəssisələrinin yaradılması və idarə olunması, kadr məsələsi öz həllini tapa bilər. Sonuncular isə, öz növbəsində, yeni səviyyədə elmin üstün istiqamətlərini müəyyənləşdirər. Dövlətin vahid elm siyasəti öz əksini, sonda, əsasən, ayrı-ayrı istehsalat sahələrində tapır, başqa

sözlə, dövlətin vahid elm siyasətinə ölkə iqtisadiyyatını təmsil edən müəssisə və təşkilatlarda aparılan ETS-in yekunu kimi baxmaq lazım gəlir. İstehsalat sahələrində yeridilən ETS-in uyğun və fərqli tərəfləri vardır. Fərqli tərəflər, əsasən, siyasətin əsası olan, elmin üstün istiqamətlərinin müəyyən olunması hissəsilə bağlıdır və hər istehsal sahəsinə xas olan texnologiyalarla müəyyən olunur.

Respublikamızda hələlik vahid dövlət ETS-in formalaşdırılmadığı bir zamanda ayrı-ayrı istehsal sahələrində ETS-i formalaşdırıb həyata keçirmək, əlbəttə ki, çox çətindir. Digər tərəfdən ayrı-ayrı istehsal sahələrində işlərin bu cür müstəqil yerinə yetirilməsinin müsbət cəhətləri də vardır: bu üsulun, vahid dövlət siyasətinin formalaşdırılmasında müəyyən təcrübəyə malik olmayan dövlətə köməklik göstərə biləcəyi şübhəsizdir.

Bu baxımdan, istehsal müəssisələri ilə bağlı Nazirlik və Komitələrdə istehsalçılarla alimlərin birgə elmi konfransların keçirilməsi imkan verər ki, onlar da elm üzrə dövlət siyasətimizin formalaşmasına təkan vermiş olsunlar. Bu gün respublika elm potensialının istehsala cəlb olunması dövlətin elm siyasətinin ən ağrılı yeridir, ona görə də bu məsələnin həll yollarının axtarılması olduqca vacibdir. Bu məsələlərin dövlət ETS-in formalaşdırılmasından ayrı öyrənilə bilməyəcəyini nəzərə alaraq, onlar yanaşı araşdırılmalıdır.

Məlumdur ki, Azərbaycanda istehsalın, eləcə də elmin taleyi keçmiş SSRİ dövlətinin yeritmiş olduğu ümumi siyasətdən asılı qalmışdır. Azərbaycanda yeridilən elm siyasəti SSRİ dövlətinin elm siyasətinin tərkib hissəsi olmuşdur. SSRİ-nin hər yerində olduğu kimi, bizdə də elmi nəticələrin istehsalata tətbiqi sahəsində, inkişaf etmiş ölkələrə nəzərən çox geri qalmalar olmuşdur. Bu gün, (əsasən keçmiş SSRİ respublikalarında) elm və istehsalatın, demək olar ki, bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərməsi qaçılmaz bir həqiqət olmuşdur. SSRİ-də həyata keçirilmiş siyasətin nəticəsində böyük alimlər ordusu yaransa da, onların istehsaldan ayrı qalmalarını belə bir faktla göstərmək olar ki, respublikadakı iri müəssisələrin yaradılmasında, qismən neftlə əlaqədar olan sahələri nəzərə almasaq, elm ictimaiyyətimizin rolu son dərəcə aşağı olmuşdur. Bu

halın özü də aparılan siyasətin nəticəsi olaraq, elm müəssisələrinin bazasının zəif olması və maliyyə imkanlarının məhdud olması ilə əlaqədar olmuşdur. Nəticədə tədqiqat işlərinin keyfiyyəti aşağı olmuş, istehsal müəssisələrinə çata bilməmiş və ya praktikada özünü doğrulda bilməmişdir. Bu da bir faktdır ki, İkinci Dünya müharibəsi elmi nəticələrin praktikaya tətbiqinə biganə qalmayan dövlətlərin qələbəsilə başa çatmışdır. (Bu müharibənin taleyinin həll olunmasında Azərbaycan alimlərinin əvəzolunmaz xidmətləri olmuşdur. Yeri gəlmişkən, bu gün respublikamızın ermənilərin açıq hərbi təcavüzünə məruz qalmasına baxmayaraq, alimlərimizin bu müharibədə iştirak etməsi hiss olunmur. Bu, günümüzün acı reallığıdır.).

Respublikamız müstəqilliyini elan etdikdən sonra elmin yenidən təşkili dövlət tərəfindən ən vacib məsələ kimi qarşıya qoyulmuş və bu məqsədlə də Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi (DETK) yaradılmışdır. Vahid dövlət elm-texnika siyasətini formalaşdırmaq və onun icrasına nəzarət etmək DETK qarşısında qoyulmuş ən mühüm məsələ olmuşdur. DETK-nın qarşısında qoyulmuş bu məsələni uğurla həll edə bilməsi üçün, ən əvvəl, respublika MEA-nın, dövlətin bütün nazirlik və idarələrinin, müəssisə və təşkilatlarının birgə əməkdaşlığını təşkil etmək tələb olunurdu. Bu əməkdaşlıq elm müəssisələri ilə istehsal müəssisələri arasında mövcud olan, köhnə sistemin çatışmazlıqlarından irəli gələn təcridliyin aradan götürülməsinin başlanğıcı ola bilər və onların bir-birində maraqlı olmaları qanun səviyyəsində müəyyənləşdirilərsə, bu yaxınlaşmanın işdə öz yerini tapması sürətlənərdi. Bu yolla elm adamları ilə istehsal adamları arasında, xarici ölkələrdə olduğu kimi bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, təbii əməkdaşlıq mexanizmi formalaşar, məsuliyyətini hiss edən təşəbbüskarlığa yol açılmış olardı. İstehsal müəssisələri perspektiv elmi-texniki istiqamətləri çevik mənimsəyən aktiv bir təsərrüfat sahəsinə çevrilərdi. Elm ictimaiyyətinin istehsal problemlərinin həllinə, başqa sözlə, elmi fəaliyyətə, yuxarıda qeyd olunduğu kimi, dövlətin elm siyasətinin əsasını təşkil edən elmin üstün istiqamətləri müəyyən olunandan sonra inamla cəlb oluna bilər. Unutmayaq ki, elmin

üstün istiqamətlərinin düzgün proqnozlaşdırılması çox mühüm məsələdir, çünki gələcək bütün fəaliyyətlərin nəticəsi ondan çox asılıdır. Odur ki, qısaca olaraq, elmin üstün istiqamətlərinin müəyyənləşməsi mexanizminə diqqət yetirək.

İnkişaf etmiş ölkələrin iş üsullarından bəhrələnərək, biz belə hesab edirik ki, dövlət ETS-ni (elmin bütün istiqamətlərini) əks etdirən dövlət elm-texnika proqramlarını tərtib etmək üçün, əvvəlcə respublikanın hər sahə üzrə iqtisadi vəziyyəti öyrənilib, analiz olunmalıdır. Bundan sonra, yaxın gələcəkdə iqtisadiyyatımızın hansı sahələrinin (ilk öncə müharibənin gündəlik tələblərinə uyğun olan sahələrin) inkişaf etdirməsinin zəruri olduğunu aşkarlayıb, elan etmək lazımdır. Sonra isə yaxın və uzaq gələcəkdə iqtisadi inkişafın mərhələlərlə aparılmasını nəzərdə tutan planlar işlənib hazırlanmalıdır. İstər ilkin, istərsə də gələcək planlar, respublikamızda və dünyada əldə olunan ən yeni texnika və texnologiyalara əsaslanmalıdır. Bu nəticə etibarı ilə əvvəlcə respublika iqtisadiyyatında yaranmış geriləmə dayandırılmalı, sonra isə onu əsaslı olaraq irəliyə çıxarmalıdır. Bu iqtisadi proqnozların (planların) əsasında dövlətin elm-texnika proqramları tərtib olunmalıdır. Bu yolla elmin və iqtisadiyyatın bir-birinə söykənməsi və bir-birini inkişaf etdirməsi baş verər. İqtisadiyyatla elmin inkişafının paralelliyinin təmin olunması dövlətin ən əsas funksiyalarından biridir. Qeyd etmək lazımdır ki, belə bir təminat iqtisadiyyatın və elmin çevikliyini şərtləndirmiş olacaqdır.

İqtisadiyyatımızın intensiv inkişaf etdirilməsinə yönəlmiş elm-texnika proqramları, ilk illər, ən çox xarici ölkələrin ən müasir texnologiyaları bazasında tərtib olunsa da, elm və texnika üzrə öz kadrlarımızın fəallığının artırılmasına söykənməlidir. (Mümkün olduqca Azərbaycandan kənarda yaşayan soydaşlarımızın Respublika iqtisadiyyatının və elminin dirçəldilməsində bilavasitə iştirak etmələrinə şərait yaradılmalıdır). Gələcək iqtisadi planlar isə, əsasən, öz alim və mütəxəssislərimizin elmi nailiyyətləri əsasında tərtib olunmalıdır.

Dövlət elm-texnika proqramları gələcək (qarşı dövrdə) elmi fəaliyyətin əsasını təşkil etməklə, elm müəssisələrinin və onlarda

işləyəcək elm kadrlarının formalaşdırılmasına, istiqamətləndirilməsinə və idarə olunmasına xidmət edir. Bundan sonra proqramlara uyğun elm müəssisələrinin yaradılması və kadrların səfərbərliyə alınması və yeni kadrların hazırlanması, onların işlərinin təşkili növbəti məsələ kimi qarşıda durur. Siyasətin bu mərhələləri onun uğurlu olmasında daha böyük əhəmiyyət kəsb edir. Belə ki, elm müəssisələrinin quruluşu elmi-tədqiqat işlərinin keyfiyyətinə güclü təsir göstərir. Bu gün ABŞ-da, Yaponiyada, AFR-də geniş yayılmış (deməli özünü doğrultmuş) elm-istehsal kompleksləri (EİK) bu qaydada tərtib olunmuş elm və texnika üzrə proqramlarının yerinə yetirilməsinə xidmət edirlər. Bu mənada, bu qanunlar elm və texnika tərəqqisinin tələbləri ilə formalaşan elm-texnika siyasətinin məhsulu kimi ortaya çıxmışdır. Bu ölkələrdə elm-texnika tərəqqisinin yeni mərhələsinə uyğun dövlətin yeni elm siyasəti formalaşır, təkamül tapır və bununla bağlı elm müəssisələrinin yenidən qurulması prosesi baş verir. Belə ki, 60-cı illərə qədər ABŞ-da ETK-ların quruluşunda dəyişikliklər edilməsi lazım bilinmirdi. Texnoloji cəhətdən digər dövlətlər onu ötməyə başlayandan sonra (SSRİ-də kosmosla bağlı tədqiqatlar sahəsində, Yaponiyada ETT-nin yeni mərhələyə qədəm qoymasından sonra) bu zərurət oldu. Bundan sonra elm müəssisələrinin quruluşunun çevik olmasının bir zərurət olduğu aydınlaşmışdır.

İnkişaf etmiş ölkələrdə Elmi-Tədqiqat Texnoloji Konstruktor İşləmələrinin (ETTKİ) təşkili və aparılmasının istehsal sahələrindən də çox monopollaşdırılması xarakterik cəhətdir. Bunun o üstünlüyü var ki, elmi-tədqiqat və konstruktor işləmələrinin bütün mərhələlərində alimlərlə istehsalçılar arasında (xüsusilə Yaponiyada), elm mərkəzləri ilə istehsal müəssisələri arasında sıx əlaqələr mövcuddur. Bu isə ETTKİ-nin tez və effektiv başa çatdırılmasına və sürətlə istehsalata tətbiq olunmasına imkan verir, aralarında rəqabətin olmasına baxmayaraq, iş xüsusiyyəti EİK-ni bir-biri ilə əlaqədə işləməyə məcbur edir. Məlumdur ki, elm öz-özlüyündə gəlir vermir, o, ancaq istehsalata tətbiq olunandan sonra gəlir verə bilər. Odur ki, elə mexanizm yaradılmalıdır ki, onun fəaliyyəti elmi tədqiqatların

inkişafına və onların nəticələrinin istehsalata tətbiq olunmasına nəzarət etməyə imkan versin. 60-70-ci illərdə yaradılan komplekslər bu suallara cavab verə bildi. Elə bu dövrdə ABŞ-da çox da böyük olmayan elmi laboratoriyaların, korporasiyaların konstruktor bürolarına, konsernlərin iri elm mərkəzlərinə çevrilməsi baş vermişdi.

Biz xarici dövlətlərin təcrübəsini öyrənməklə, əlbəttə ki, onları dərhal özümüzdə tətbiq edə bilmərik. Ən əvvəl ona görə ki, xarici ölkələrdə elm siyasəti dövlət və xüsusi mülkiyyətin birgə fəaliyyətinə əsaslanır. Bizdə isə bazar iqtisadiyyatına keçid elan olunsa da, hələ də özəl sektorda elm müəssisələri yaradılmamışdır. Fikir verilməlidir ki, biz bu təcrübələrin hansından və necə istifadə edə bilərik. Bunun üçün bugünkü imkanlarımızı düzgün qiymətləndirə bilməliyik.

Respublikamızda dövlət ETS tam formalaşdırılmadığından indiki dövrdə elmi-tədqiqatların təşkilinə və elmi nəticələrin istehsalata tətbiqində dövlətin rolu barədə çox müxtəlif fikirlər söylənilir. Bəziləri bazar iqtisadiyyatına keçdiyimizi, guya planlı təsərrüfat sistemindən uzaqlaşdığımızı əsas tuturlar. Bununla əlaqədar olaraq qeyd etmək yerinə düşər ki, bazar iqtisadiyyatının hökm sürdüyü inkişaf etmiş ölkələrdə elmi tədqiqatlar və təcrübə konstruktor işləmələrinin yerinə yetirilməsi ancaq dövlətin hərtərəfli köməkliyi ilə həyata keçirilir. Onun adminstrativ, təşkilat, maliyyə, sahibkarlıq və s. iştirakı olmasa, bu proses pozulur, getmir. Planlaşdırmadan heç bir iş görülmür (bu ölkələrdə ancaq sərt planlaşdırma yoxdur).

1976-cı ildə ABŞ-da ilk dəfə milli ETS-in üstün istiqamətləri və təşkilat prinsipləri haqda qərar qəbul olunmuşdur. Qanunda göstərilir ki, siyasətin əsas prinsipi elmin inkişafının zəruri olaraq planlaşdırılmasıdır. Bundan sonra ABŞ-da beş illik proqramların qəbul olunmasına başlanılmışdır. 1980-ci ildə isə ABŞ Konqresinin baxdığı növbəti beş illik perspektiv planda Amerika elminin 6 əsas inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

İnkişaf etmiş ölkələrdə ETS-in reallaşdırılmasında iki ənənə mövcuddur. Birinci ənənə, ETS-in idarələrarası mexanizminin formalaşmasına əsaslanır ki, bu da, mərkəzləşdirilmiş quruluşa aparıb

çıxarır. İkinci ənənə, ETS-in müstəqil mexanizminə əsaslanır. Bu halda hər bir nazirlik, idarə, maliyyə monopoliya qruplarının hər biri ayrılıqda, başqaları ilə əlaqəli olmayan mərkəzləşdirilmiş siyasətini də yeridir. Qərbi Avropa, ABŞ, Yaponiya və s. ölkələrdə siyasətin hər iki tipi həyata keçirilsə də, bütövlükdə siyasət komplekslər arası rəqabətin daima mövcud olmasını əsas tutur.

ETT hər bir istehsal sahəsinin inkişaf konsepsiyasının işlənib hazırlanmasını tələb edir. Konsepsiya, bu dövlət istehsal qurumunun (Komitənin) mahiyyətini, quruluşunu, fəaliyyətini və inkişafının qanunauyğunluğu məsələlərini özündə əks etdirməlidir. Konsepsiyada müəyyən olunan bütün istiqamətlər üzrə elmi, texniki kadrların hazırlanması yolları müəyyənləşdirilməlidir. Elm, təhsil və istehsal müəssisələri arasında əlaqələrin yenidən qurulması, ancaq istehsal sahələrinin üstün istiqamətləri müəyyən olunandan sonra aparıla bilər. Hər bir halda bu yenidənqurma işləri elə görülməlidir ki, elm və təcrübə-konstruktor işlərinin nəticələrini çox qısa zamanda istehsalata tətbiq etmək mümkün olsun. Bu isə istehsal qurumları daxilində istehsal sahələrinin, elm və təhsil müəssisələrinin birlikdə və bir-biri ilə qarşılıqlı əlaqədə təşkil olunmalarını tələb edir. Bu çeviklik həm də imkan verməlidir ki, əsas məhsulların istehsalının azalması və ya istehsaldan çıxarılması halında, konversiya (əvvəlcədən nəzərdə tutulmuş qaydada) həyata keçirilə bilsin. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Qərb dövlətlərində istehsal müəssisələri layihələşdiriləndə bu konversiya imkanları da nəzərdə tutulur.

SSRİ dağılandan sonra ittifaq tabeli müəssisələrin fəaliyyəti üçün zəruri olan iqtisadi əlaqələr qırıldığından, iqtisadi siyasətin də əsaslı dəyişməsindən bu müəssisələr bir sıra süni və obyektiv çətinliklər qarşısında qalmışlar. Bu, ilk növbədə, SSRİ-nin bütün müəssisələrində müşahidə olunan haldır və o dövrdə olan elm siyasətinin nəticəsidir – müəssisələr texnoloji yarımçıqlığı ilə xarakterizə olunublar. Bu hal respublikamızda bütün müəssisələrin tam texnoloji proseslərə sahib olmaları üçün təxirə salınmadan tədbirlər planı işlənib hazırlanmasını bir saylı məsələ kimi qarşıya qoymuşdu. Bu

iş, istehsal müəssisələrinin xüsusiyyətləri nəzərə alınaraq həyata keçirilməli idi. İkinci dərəcəli sayılan tələbat mallarının digər uyğun sahələrdə istehsal olunmasına nail olmalı idik. Kənardan gətirilən malların (məhsulların) bir çoxunun respublikada istehsalını təşkil etmək üçün respublika elm potensialını (ilk növbədə) bu problemlərin həllinə və eləcə də onların keyfiyyətinin yaxşılaşdırılmasına, yeni məhsulların istehsal texnologiyasını işləyib hazırlamağa yönəltmək lazım idi.

Bu günün ETT-nin əsası ikinci dünya müharibəsi dövründə qoyulmuşdur. Müharibənin tələblərini ödəmək üçün müharibə aparan dövlətlərin elmi-tədqiqatlara necə geniş imkanlar yaratdıqlarını aşağıdakı rəqəmlərdən görmək mümkündür. 1940-cı ildə ABŞ-da elmin inkişafına cəmi 50 mln. dollar xərclənmişdir. Bu xərc 5 il sonra 600 mln. dollara çatdırılmışdı və 1963-cü ildə artıq 13 milyard dollara bərabər olmuşdu. 1980-ci ildə 40 milyardı ötmüşdü. Bütün bunlar sonda ABŞ-da EİK-lərin yaranması ilə nəticələnmişdir. Bu ölkələrin iqtisadiyyatlarının əsasını təşkil edən dövlət-monopoliya komplekslərinin tərkibində "sıravi" kompleks olan elm-istehsalat kompleksləri 70-ci illərdən başlayaraq birinci plana keçirlər və indi dövlət-monopoliya komplekslərinin bütövlükdə quruluşunun keyfiyyətini müəyyənləşdirən əsas faktora çevrilmişlər. Bu komplekslər "Yüksək texnoloji komplekslərin" (kosmik, atom, elektron-informasiya) yaranmasında bazaya çevrilmişlər və bunların tədqiqi bu komplekslərin əsas məsələsi olmuşdur.

Elm-istehsal komplekslərinin bütün dünyada özünü doğrultduğunu nəzərə alaraq, biz də yubatmadan səylərimizi dövlətin və istehsal sahələrinin güclərini birləşdirərək, dövlət-istehsal qurumları tabeliyində iri elm-istehsal komplekslərimizi yaratmağa yönəltməliyik. Bu, mövcud intellektuallarımızın, elm müəssisələrimizin tez bir zamanda bir yerə toplanmasına və onların imkanlarından səmərəli istifadə etməyə imkan verər. Elm-istehsalat komplekslərinin uzun müddətli dövlət proqramlarını yerinə yetirmək üçün yaradıldığını da nəzərə almalıyıq. Bu proqramlar rəqabətin güclənməsinə, iri özəl elm müəssisələrinin respublikamızda da ortaya çıxmasına səbəb ola bilər.

EİK, elm siyasətinin elm-texnika tərəqqisinin tələblərinə uyğunlaşdırılmasının formalarından biridir. EİK-lərin yaranması və fəaliyyəti bu sferada işlərin intensivləşməsinə keçid deməkdir. Siyasətin məhsulu olan texnoloji parklar – ABŞ, Yaponiya, AFR kimi ölkələrdə elmi-tədqiqatların, konstruktor işləmələrinin və təcrübi istehsalın bir yerə toplanmasının son formasıdır.

Qərbi Avropa ölkələrinin, o cümlədən, ABŞ-ın təcrübəsində belə bir halı da nəzərə almaq lazımdır ki, əgər 60-cı illər müəssisələrin özəlləşdirilməsi ilə xarakterizə olunurdusa, 80-ci illərdə əks prosesə başlanılmışdır – elm-texnika tərəqqisinin tələblərinə cavab olaraq, müəssisələrin milliləşdirilməsi prosesi gedir. Bu da dövlət nəzarətinin güclənməsi deməkdir. Bu, bizdən müəssisələrimizin özəlləşdirilməsində ehtiyatlı olmağı tələb edir və Respublikamızın elm və texnika üzrə inkişaf səviyyəsinin tam aşkarlanmasından sonra bu işə başlamağın düzgün olacağını deyir.

İstehsal sahələrində kadr siyasəti. SSRİ dövləti dağılandan sonra Azərbaycana miras olaraq, müəyyən elm potensialı qalmışdır. Bu qüvvəyə söykənməklə dövlətimiz, keçən on beş illər ərzində düşmüş olduğu böhran vəziyyətindən nəinki çıxa bilər, hətta öz müstəqilliyini möhkəmləndirə və iqtisadi qüdrətini yüksəldə bilərdi. Bu gün bu potensialın gücünü respublikamızın zorən cəlb olunduğu müharibənin və iqtisadiyyatın perspektiv sahələrinin tələb və ehtiyaclarının ödənməsinə yönəltmək ən ümdə məsələdir. Əlbəttə ki, bu nə qədər vacibdirsə, bir o qədər də asan məsələ deyildir.

Dünya praktikasına əsaslanaraq demək lazımdır ki, elm üzrə hər bir qurum elm potensialının gücünə arxalanmalıdır. Bunun üçün uyğun güclü istehsal sahəsinə malik olan elmi-tədqiqat və tədris institutları (tədrislə də məşğul olan elmi-tədqiqat institutları) yaradılmalıdır. Yeri gəlmişkən, biz belə hesab edirik ki, bütün iri dövlət qurumlarının tərkibində olan istehsal müəssisələrinin imkanlarını toplayaraq, dövlətin iştirakı ilə bu formada uyğun mərkəzləşdirilmiş iri elmi-tədqiqat və tədris müəssisələrinin yaradılması məqsədə uyğun sayılmalıdır. Bu elm müəssisələri kadr təminatına və maliyyə imkanlarına görə son vaxtlar böyük sürətlə çoxalan özəl ali tədris

müəssisələrindən imkanlı və məqsədli olacaqdır; bu elm potensialından daha səmərəli istifadə etməyə imkan verməklə, həm də dövlətin maliyyə imkanları sərbəstləşər (və dövlət onu başqa istiqamətlərə yönəldər). Bu tədris institutlarında təhsilin bir qisminin ödənişli təşkil olunması da dövlət qurumlarının bu gün keçirdikləri maliyyə çətinliklərindən onları qismən azad edər. Bu elm mərkəzləri gələcəkdə Komitəyə problemlərini təxirə salmadan həll etməyə əlavə imkanlar yaradar.

Xarici ölkələrdə ETS-in formalaşmasında və həyata keçirilməsində ali məktəblərin böyük rolu vardır. ABŞ-da 2,0 min ümumdünya standartına uyğun (cəmi 3,1 min) ali məktəb fəaliyyət göstərir. Əsas tədqiqatlar 18 universitetdə aparılır (98 tədqiqat universitetində). Tədqiqat universitetlərində təhsillə yanaşı elmi-tədqiqatlar da aparılır. Onlar elmi nəticələrini istehsalata aktiv tətbiq edə bilirlər. Yaponiyada, AFR-də bu müəssisələrin analoqu yoxdur. Bu, ABŞ ali məktəb sektorunun üstünlüyüdür. ABŞ-da ali məktəblər fundamental tədqiqatların 63,3%-ni yerinə yetirir.

ABŞ-da son vaxtlar ali məktəblərin gücündən daha səmərəli istifadə edə bilmək üçün monopoliyalar institutlarla birgə aşağıdakı işləri həyata keçirməyə başlamışlar (bunlar da hələlik Avropada inkişaf tapmayıb):

- texnoloji park yaratmaq;
- birgə elm mərkəzlərinin yaradılması;
- elm-texnika xidməti yaratmaq; ali məktəblərin ETTKİ-nin nəticələrində potensial maraqlı olan konsernlərə məsləhət xidməti vermək.

Bu gün Azərbaycan Respublikası Hərbi Sənaye Nazirliyinin problemlərinin həllində tərkibində olan elm müəssisələri ilə yanaşı, Komitədən kənarda - EA-da, nazirliklərin və dövlət qurumlarının nəzdində fəaliyyət göstərən elm potensialından da səmərəli istifadə olunmalıdır. Respublika elm potensialının HSN-nin problemlərinin həllinə cəlb olunmasını iki mərhələyə bölmək lazım gəlir:

-birincisi, onların dövlətimizin aparmağa məcbur olduğu müharibənin təxirəsalınmaz bugünkü tələblərinə uyğun istiqamətlərdə fəaliyyətə cəlb olunması;

-ikincisi, dövlətimizin və hərbi müdafiə qüdrətinin yüksəldilməsinə xidmət edə biləcək perspektiv elm-texnika proqramlarının yerinə yetirilməsi sahəsində uzunmüddətli fəaliyyəti dövrü.

Göründüyü kimi, bu dövrlərdə görülməli işlər bir-birindən əsaslı şəkildə fərqlənirlər. Birinci mərhələdə elm potensialı əsas gücünü ölkənin bu gün idxal etdiyi məhsulların və avadanlıqların, maşın və mexanizmlərin Respublikamızda hazırlanması texnologiyalarını işləyib, istehsalata tətbiq etməyə yönəltməlidir, alim və mütəxəssislər istər hərbi nazirlikdə, istərsə də istehsal sahələrində texniki avadanlıqların istehsalında, təmirində və idarə olunmasında texniki personala yaxından kömək göstərməlidirlər.

İkinci mərhələdə isə elm potensialımız, əsasən müasir texnologiyaların işlənib hazırlanmasında, yeni maşın və mexanizmlərin və s. yaradılmasında iştirak etməli, onların daima təkmilləşdirilməsi işlərini yerinə yetirməlidir. Bu işlərdə hər bir nazirlik və komitənin, iri istehsal sahələrinin daxilində formalaşan elm potensialı əsas və istiqamətləndirici qüvvə kimi çıxış etməlidir.

Hər bir nazirlik respublika elm potensialından səmərəli istifadə edə bilmək üçün o, özünə məxsus cəhətlərini nəzərə alaraq, xüsusi əhəmiyyətli elm tutumlu məhsulların yaradılmasına dair dövlət sifarişlərinə olan tələblər nəzərə alınmaqla həyata keçirilməlidir. Bunu və eləcə də DETK-nın ümumdövlət elm-texnika siyasətini həyata keçirən orqan olduğunu nəzərə alaraq, bu gün DETK-nın bərpa olunması və bu işlərdə əlaqələndirici funksiyasında çıxış etməsi lazım gəlir.

Respublika elm potensialı ilə Hərbi Sənaye Kompleksinin əlaqəsi aşağıdakı istiqamətlərdə qurulmalıdır:

- HSK-nın qoymuş olduğu problemlərin həllində respublika elm potensialının iştirakının təşkili;
- respublika alim və mütəxəssislərinin müdafiə əhəmiyyətli ideya və elmi nəticələrinin maddiləşdirilməsinə HSK-nın cəlb olunması.

Bu işlərin hər ikisi DETK-nın vasitəçiliyi ilə həyata keçirilməlidir.

HSK-nın istər bugünkü, istərsə də perspektiv proqramlarını müvəffəqiyyətlə yerinə yetirmək məqsədilə Kompleksin tələblərinə

uyğun kadrların hazırlanması məsələsi həll olunmalıdır. Bunun üçün ali tədris müəssisələrində uyğun elmi-texniki kafedraların yaradılması, bu kafedralarda fundamental tədqiqatların aparılması, gələcəkdə Kompleksin özündə və güc nazirliklərində işləyəcək elmi kadrların hazırlanması məsələləri həllini tapmalıdır. Gələcəkdə bu kafedralar Kompleksin özündə yaradılacaq institutlarda da uyğun kafedraların yaradılması üçün baza ola bilər.

Müdafiə Nazirliyinin tədris müəssisələrinin genişləndirilməsi və onların elmi-tədqiqat laboratoriyaları bazasında elmi-tədqiqat işlərinin təşkili dövlət səviyyəsində həllini tapmalıdır. Bütün bu işlər HSK-in elmi-texniki problemlərinin həllinə xidmət edəcək şəbəkənin yaranmasına səbəb olmalıdır. Göründüyü kimi, geriliyimizi həll etmək üçün bir qisim sahələrdə maliyyə və avadanlıqlar, digər sahələrdə həm də kadr məsələsi həll olunmalıdır.

Bütün bu sayılan işləri HSK daxilində həll oluna biləcək işlərə və dövlət səviyyəsində həll olunmalı işlərə ayırmaq lazımdır. Təxirə salınmamalı işlərdən biri də ondan ibarətdir ki, respublika alim və mütəxəssisləri istehsal sahələrində işləməyə cəlb olunmalıdır. Sovet dövründə Azərbaycanda bu normal bir hala düşə bilmədiyindən elm-istehsal əlaqələri çox aşağı səviyyədə olmuşdur. Azərbaycanda ən böyük müəssisələrdən biri olmaq şansı olmuş "Azon" zavodu buna əyani misal gətirilə bilər. Bu zavod bu gün Azərbaycanın iqtisadiyyatında çox mühüm sahə olmalı ikən, respublikamızın müasir elektronikanın güclü element bazasına çevrilməli ikən, bu, acı bir həqiqətdir ki, bu gün bu müəssisənin özünün saxlanması belə çətinləşmişdir. Bu, ilk növbədə "Azon"un təşkil olunduğu müddətdə uyğun elmi kadrların oraya cəlb olunmaması ilə əlaqədar olmuşdur.

Bunun əksinə olaraq, birbaşa heç bir dövlət maliyyələşdirilməsi olmayan "Xəzər" elm mərkəzi, kadr məsələsini nisbətən düzgün həll edə bildiyindən çox qısa bir zamanda (10 ildə) böyüyüb, (respublikanın bir neçə bölgəsində filialları və yüksək əmək haqqı ilə təmin olunan minlərlə işçiləri olan) ittifaq miqyaslı elm-istehsalat birliyinə, sonra isə respublikanın dövlət əhəmiyyətli "Agentliyinə" çevrilə bilmişdir.

Bütün bu deyilənləri (o cümlədən, dövlətin vahid ETS-nin hələlik olmadığını) nəzərə almaqla, Respublika elm potensialının istehsalata cəlb olunmasını və inkişaf etdirilməsini təşkil etmək məqsədilə aşağıdakıların həyata keçirilməsini vacib hesab edirik:

1.Sərt mərkəzləşdirilmiş planlaşdırmadan dövlət-ictimai (sosial) tənzimləməsinə keçid həyata keçirilməlidir (o cümlədən, elmi fəaliyyət sahəsində).

2.Dövlət elm-texnika proqramları demokratik prinsiplər gözlənilməklə (konkurs yolu ilə), müəyyən olunmuş istiqamətlər və problemlər üzrə tərtib olunmalıdır.

3.Tədqiqatçıların və istehsalçıların maddi marağını artırmaq məqsədilə ETS-in bazar iqtisadiyyatının tələblərinə cavab verə biləcək hüquqi əsasları yaradılmalıdır.

4.Dövlətin iqtisadi siyasətinin, əsasən, elm siyasətinə, elm siyasətinin isə iqtisadi siyasətə söykənməsi (əks əlaqələri) təmin olunmalıdır.

5.Dövlətin, özəl sektorun, ali tədris müəssisələrinin, birliklərin, müstəqil tədqiqatçıların elmi-tədqiqat işlərini aparmaq və elmi nəticələrin istehsalata tətbiqi müddətini qısaltmaq imkanlarını artırmaq üçün bu müəssisələrin hamısının səylərini birləşdirməklə, möhkəm elmi-texniki bazası olan elmi-texniki mərkəzlər (komplekslər) yaradılmalıdır.

6.Dövlətin ETS-ni əks etdirən dövlət elmi-texniki proqramları dövlətin iqtisadiyyat sahəsindəki proqramlarının reallaşmasına və sürətlənməsinə xidmət etməlidir. Ona görə də bu proqramların əhatə etmiş olduqları problemlərdən, onların vaxtında və düzgün qoyulmasından, yerinə yetirilməsi mexanizmindən çox şey asılıdır. Elm siyasətinin yaxın gələcək üçün elmi-texniki proqramları dövlətin uzaq gələcək üçün iqtisadi və hərbi müdafiə proqramlarına əsaslanmalıdır. Dövlətin yaxın gələcək üçün iqtisadi planları isə elm siyasətinin yerinə yetirilmiş elmi-texniki proqramlarına əsaslanmalıdır.

7.Dövlətin iqtisadi və hərbi müdafiə proqramlarına uyğun Komitənin fəaliyyətinin əsas istiqamətləri müəyyən olunandan sonra dövlətin elm və texnika proqramları tərtib olunmalı, bu proqramlara uyğun elm müəssisələri formalaşdırılmalı və ya yenilərinin yaradılması məsələləri həllini tapmalıdır.

8.Komitənin xaricdən idxal etdiyi məhsulların patentlərinin lisenziyalarını əldə edib, onların istehsalını təşkil etməklə yanaşı, elm ictimaiyyəti onların daha da kamilləşdirilməsinə yönəldilməlidir. Bu isə DETK vasitəsilə yerinə yetirilməlidir.

Respublikanın əlaqəli dövlət və özəl elm müəssisələri bu istiqamətlərə uyğun fundamental elm və elmi-texniki problemlər haqda (onların həlli yolları göstərilməklə) təkliflərini müəyyən olunmuş qaydada DETK-ya təqdim edirlər. DETK bu təklifləri toplumlar şəklində elm müəssisələri arasında yaymaqla, onların geniş müzakirəsini təşkil edir; digər mütəxəssislərin alternativ həll yollarını (təkliflərini) öyrənib, DETK-nın uyğun Elmi Şuralarında onların hər birini dinləməklə icraçını (icraçıları) müəyyənləşdirir.

Hökumətin elan etmiş olduğu iqtisadi proqramın əhatə etdiyi istehsal sahələrinin dünya səviyyəsinə nisbətdə vəziyyəti, uyğun patentlərin lisenziyalarının satın alınması imkanları və özümüzdə elmi-tədqiqatın aparılmasına nəzərən faydalı olub-olmaması öyrənilməlidir. Satın alınmasının faydalı olmadığı müəyyən olunandan sonra bu işlər Elmi Şuralarda müzakirəyə buraxılır və maliyyələşdirilməsi məsələsi həll olunur.

3.4. Bazar iqtisadiyyatı dövlətin çevik elm-texnika siyasətinə söykənməlidir

Məlumdur ki, hər bir dövlətin yeri və əhəmiyyəti hər şeydən əvvəl onun elmi-texniki səviyyəsi ilə, onları özünün yaratmaq və effektiv çoxaltmaq, eləcə də xaricdən gətirilmiş elm tutumlu texnologiyalardan geniş istifadə etmək bacarığı ilə müəyyənləşir. İnkişaf etmiş ölkələrdə elmə müasir iqtisadiyyatın ən vacib tərkib hissəsi kimi baxılır, yeniliklərin tətbiqi iqtisadi artımın ən əsas mənbəyi sayılır, elm dövlətin digər təsir sahələrinə nəzərən üstün istiqamətə malikdir və bu səbəbdən elmə çəkilən xərcin dinamikası Ümumi Daxili Məhsulun artım sürətini üstələyir.

Artıq bu gün sənayecə inkişaf etmiş ölkələrin iqtisadi artımının 90%-i yeni biliklərin tətbiqi hesabına əldə olunur.

Elmi-texniki fəaliyyətin ölkə iqtisadiyyatının inkişafındakı bu əvəzolunmaz rolunu, dövlətin daxili və xarici siyasətlərinin ölkədə elmi-texniki tərəqqinin reallaşması səviyyəsindən kəskin şəkildə asılı olduğunu nəzərə alaraq, hər bir dövlət vahid elmi-texniki siyasətini formalaşdırıb həyata keçirir. Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan dövləti də iqtisadi münasibətlərin əsaslı dəyişdiyini özündə əks etdirən vahid elm siyasətini formalaşdırmağa və həyata keçirməyə başlayıb. Bu iş, əsasən, 02.93 il tarixdə yaradılmış Dövlət Elm və Texnika Komitəsinə (DETK) tapşırılmışdı.

İslahatların başlandığı 1985-ci ildən bu yana iqtisadiyyatımızda çox mürəkkəb, dövlət və özəl sektorları özündə əks etdirən qarışıq iqtisadiyyat formalaşmaqdadır. Diqqəti çəkən budur ki, dövlətin iqtisadi məsələlərdən aralanması tempi özəl sektorun dirçəlməsindən böyük sürətlə baş verib, elm sahəsində isə dövlət sektoru saxlanılsa da, ona diqqətin zəifləməsi nəticəsində respublikada elmi fəaliyyət, demək olar ki, xeyli zəifləmişdir. Özəl sektorda isə elmi fəaliyyət hələ ki, formalaşmaqdan uzaqdır. Bu gün Azərbaycan Respublikası, əsasən, təbii ehtiyatların hesabına yaşayan ölkə vəziyyətinə düşmüşdür. Elə bunun nəticəsidir ki, elmi fəaliyyət subyektlərinin böyük sürətlə sıradan çıxması müşahidə olunur.

Ölkəmiz özünün elmi-texniki potensialını tədricən itirməkdədir. Elmi işçilərin sayı azalır, elm müəssisələri ixtisar olunur, elmi-texniki baza köhnəlir, elmi işçilərin nüfuzu aşağı düşür, “ağılların axını” baş verir. Bu axında gənclərin çoxluq təşkil etməsi, respublika elminin kadr potensialının qocalmasına səbəb olur, elmi fəaliyyətin səmərəliliyinin aşağı düşməsi ilə nəticələnir, elmi-texniki informasiya axını kəskin azalır, elmin istehsalatla, onsuz da zəif olan əlaqəsi kəsilir, illər ərzində yaranmış elmi məktəblər dağılır.

Yeri gəlmişkən, ölkə daxilində “ağılların axınına” bənzər proses daha ağır nəticələr verə bilər.

Belə ki, xarici investorlar:

- işçilərə az miqdarda əmək haqqı verməklə, ölkəmizdə öz iqtisadiyyatlarının tələbini ödəyəcək müstəqil elm sahələri yaratmaqla, kadrlarımızı respublika xeyrinə fəaliyyətdən ayırırlar;

- ölkəmizdə respublika iqtisadiyyatı ilə bağlı sahələr yaratmaqla onlar elm adamlarımızın onsuz da ucuz qiymətləndirilən zəhmətlərinin nəticələrini mənimsəməklə yanaşı, respublikada uyğun elm və texnika sahələrinin inkişafını məhdudlaşdıra və ya dayandıra bilərlər. Bu yolla strateji əhəmiyyətli məlumatların heç bir maneəyə rast gəlmədən respublikanı tərk edə bilməsi təhlükəsi yaranır;

- müəssisə və elmi-tədqiqat idarələrimiz resursların çatışmadığı və elmi-tədqiqat texnoloji konstruktor işləmələrinin nəticələrinə ölkə daxilində tələbatın azaldığı şəraitdə xarici iqtisadi əlaqələri genişləndirməyə çalışırlar. Lakin bu, bir çox hallarda dövlət təsirinin və nəzarətinin zəifləməsi şəraitində baş verir. Belə bir şəraitdə adətən texnologiyaların, nou-hau və digər elmi-texniki nailiyyətlərin qeyri-mütəxəssis ticarəti özünə yer tapır. Sifarişçi, elmi-texniki işləmələr üzrə müqavilə bağlamaqla, bir qayda olaraq, onların nəticələrindən istifadəyə müstəsna hüquq əldə etməklə, onların kommersiya məqsədilə istifadəsindən çox böyük gəlir əldə edirlər.

Özü də bütün bunlar, elmi fəaliyyətdən ayrı təsəvvür edilməsi belə mümkün olmayan, bazar iqtisadiyyatına keçdiyimiz bir dövrdə baş verir. Bazar iqtisadiyyatına keçid həyatımızın hər bir sahəsində bu və ya digər səviyyədə hiss olunsa da, elmi fəaliyyətin necə təşkil olunması yolları hələ ki, müəyyən edilməyib. Bu isə bazar iqtisadiyyatına keçidin Azərbaycanda böyük çətinliklərə rastlaşacağından və keçid dövrünün uzanacağından xəbər verir.

Bütün bunlar bir daha göstərir ki, texnoloji təhlükəsizlik hansı yollarla olursa-olsun təmin olunmalıdır. İlkin olaraq, elm, dövlətin texnoloji təhlükəsizliyi tələbini və ümummilli iqtisadi maraqlarını nəzərə almaqla, keçid dövrü üçün dövlətin elm-texnika siyasəti konsepsiyasına söykənməlidir. Sonra isə xarici ölkə firmalarının respublikada yaratdıqları elmi-texniki müəssisələrin yerli dövlət və ya qeyri-dövlət təşkilat və müəssisələri ilə birgə fəaliyyətləri və eləcə də xarici firmaların – istehsal müəssisələrinin milli (və ya qarışıq) elm müəssisələrimizə sifarişlər verməleri daim diqqət mərkəzində olmalıdır.

Ümumiyyətlə müsbət haldır ki, son dövrlərdə, kütləvi mətbuat orqanlarında müxtəlif şəxslər tərəfindən dərc olunan məqalələrdə

Azərbaycanda elmi fəaliyyət sahəsində yaranmış ağır vəziyyətlə bağlı narazılıqlar bildirilir. Vəziyyətin bu hala düşməsinin səbəblərini araşdırmağa cəhdlər edilir və çıxış yolları haqda mülahizələr söylənilir. Əlbəttə, bir çoxunun ürək yanğısı ilə yazdıqlarını sezməmək mümkün deyildir. Bunlardan bəzilərinin isə professionallıqdan uzaq olduqlarını elə ilk andaca hiss etmək mümkündür. Əfsuslar olsun ki, bunların digər bir qismi qərəzli yazılardan ibarətdir. Yaranmış vəziyyətin obyektiv və subyektiv səbəblərini araşdırmadan, elmi fəaliyyət sahəsində dünya təcrübəsi nəzərə alınmadan, şəxsi təxəyyüllərinə söykənərək bu müəlliflər tərəfindən DETK ünvanına layiq olmadığı və vəziyyətin yaxşılaşmasına xidmət edə bilməyəcək fikirlər söylənilmişdir.

DETK-nin işinin başlanğıcı və əsası sayılan elmi-texniki proqramların maliyyələşməsi xüsusi yanaşmaları tələb edir. Bir də təşkilati məsələlərdə Sovet dövrü yanaşmalarından xilas olmaq lazımdır və respublikada elmi fəaliyyətin təşkili işi eksperimentlər meydanına çevrilməməlidir – dünya təcrübəsi mövcuddur. Bütün bunlarla yanaşı bir daha təkrar edirik ki, fakt faktlığında qalır: respublikada elmi-texniki fəaliyyət arzu və tələb olunan səviyyədə deyil və bu hal dövlətin taleyüklü məsələsi olduğundan bütün vasitələrdən istifadə etməklə həllini tapmalıdır.

Məlumdur ki, dövlətin hər bir siyasəti (o cümlədən, elm siyasəti) uyğun dövlət orqanlarının (DETK-nın) idarəçilik prinsiplərini müəyyən edir. İdarəçiliyin keyfiyyəti isə, əsasən, onu təşkil edən üzvlər arasında qarşılıqlı təsir və tənzimləmələrlə - əks əlaqə ilə müəyyən olunur. Siyasətin atributları və subyektləri arasında əks əlaqənin düzgün fəaliyyət göstərməsinin təmin olunması onun uğurunun əsasını təşkil edir, yaxud əksinə, hər hansı bir mərhələdə əks əlaqənin qırılmasına səbəb olan səhv, ümumi siyasətin uğursuzluğu ilə nəticələnir. Respublikada elm siyasətinin bütövlükdə formalaşa bilməməsi və ya tam fəaliyyət göstərməməsi imkan verir deyək ki, DETK, daxil olduğu sistemin – ölkənin elm və istehsalat müəssisələrini, eləcə də bir sıra dövlət qurumlarını özündə birləşdirən çox böyük bir sistemin üzvləri arasında əks əlaqəni təmin etmək iqtidarında olmayıb.

DETK-nə göstərilən biganəliklə əlaqədar qeyd etmək lazımdır ki, ABŞ, Yaponiya, Qərbi Avropanın inkişaf etmiş ölkələrinin hamısında elmi fəaliyyətin idarə olunması ilə bağlı olan dövlət qurumlarına çox böyük üstünlük verilir. Həmin ölkələrdə bu qurum, ən nüfuzlu dövlət idarələrindən biri sayılır. Elmə ayrılan bu diqqətin nəticəsidir ki, Yaponiya, eləcə də Qərbi Almaniya müharibə dövründə darmadağın edilsələr də qısa müddətdə öz iqtisadiyyatlarını bərpa edib, iqtisadi cəhətdən ən qüdrətli dövlətlərə çevrilmişlər. İkinci Dünya müharibəsində elm siyasətini düzgün quran dövlətlərin qələbəsinə də heç kəs şübhə ilə yanaşmamalıdır. Əbəs yerə deyilmir ki, elmi-texniki tərəqqi İkinci Dünya müharibəsinin məhsuludur. Bütün bunlar, ölkənin texnoloji təhlükəsizlik (bununla bağlı olaraq, iqtisadi təhlükəsizlik) problemini bütün kəskinliyi ilə ortaya qoyur – ölkədə texnologiyaların təhlükəsizliyi məsələsinin daim qorxu altında olduğundan xəbər verir. Bundan xilas olmaq üçün radikal praktik qərarların qəbul olunması tələb olunur. Məsələn, elmi-texniki komplekslərə kömək edilməsi və onlarda islahatlar aparılması, əsasən, öz gücümüzə söykənərək həyata keçirilməlidir. Unutmamalıyıq ki, respublikamızda kənardan gətirilən elmi kömək, ən yaxşı halda milli elmimizin gələcəyinə deyil, ancaq cari çətinlikləri aradan qaldırmağa imkan verə bilər.

Məlumdur ki, bütün sahələrdə olduğu kimi, DETK-nın da öz fəaliyyətini (dövlət elm proqramlarının tərtibi, koordinasiyası, icrasının təşkili, ona nəzarət işi və s.) günün tələbinə uyğun qura bilməsi üçün, ən vacib məsələ, bu işlərin maliyyələşməsi məsələsidir. Bu isə hələlik respublikada öz yerini tapa bilməmişdir. Daha doğrusu, dövlət tərəfindən elmə ayrılan vəsait, az da olsa (əsasən mövcud elm müəssisələri işçilərinin əmək haqqına kifayət edəcək miqdarda) DETK xətti ilə deyil, birbaşa ayrı-ayrı elm qurumlarına görüləcək elmi proqramlar müəyyənləşdirilmədən, ayrılmışdır.[1]

Nəticədə DETK-nın fəaliyyəti zəifləyir, elmi fəaliyyətə

---

[1]Məsələn, Maliyyə Nazirliyi DETK-da 1995-ci il üçün tərtib olunmuş elmi, elmi-texniki, tədqiqatların maliyyələşdirilməsindən qəti imtina etmişdir. Belə olduqda, dövlət (hökumət) DETK-nın fəaliyyətini nədə gördüyü aydın olmur.

ayrılan vəsaitlərin nə ilə nəticələndiyi dövlət nəzarətindən çıxır. Belə olan halda təbii ki, DETK-nın səmərəli tam fəaliyyətindən söhbət etmək, onu günahlandırmaq, ancaq məsuliyyətsizlikdən başqa bir şey ola bilməz. Aydındır ki, DETK-nın Respublikada elmi fəaliyyəti təşkil edə bilməsi üçün elmə ayrılan vəsait DETK-nın nəzarətində olmalıdır. Ancaq bundan sonra DETK fəaliyyətinin necəliyindən (mexanizmindən) danışmaq ədalətli və qərəzsiz olardı. DETK tərəfindən göstərilən problemlərlə bağlı bir sıra təkliflərin dəfələrlə verilməsinə baxmayaraq, həmin məsələlər bu günə kimi öz həllini tapmamışdır. Deyilənləri nəzərə alaraq, respublikada elmi-texniki siyasətin hansı qaydada formalaşması və həyata keçirilməsi haqda fikrimizi bir daha bildirməyi məqsədə uyğun hesab edirik:

1.Yaranmış vəziyyətdən çıxmaq üçün ölkə sənayesini yüksək texnologiyalar əsasında dirçəltməyə yönələn iqtisadi strategiya kursu götürülməlidir. Bu strategiyanın əsası olan elm tutumlu iqtisadiyyatın yaranmasında elmi-texniki komplekslər birinci dərəcəli əhəmiyyət kəsb etməlidir. Odur ki, mövcud elmi-texniki potensialın gücünə söykənərək, ölkə iqtisadiyyatının və eləcə də elminin quruluşunun yenidən qurulmasını elə etmək lazımdır ki, sonda onlar rəqabət qabiliyyətli olsunlar.

Dünya təcrübəsi göstərir ki, dövlət elm sahəsinə məqsədli və ardıcıl kömək edirsə, elmin inkişafı yüksək səviyyədə olur. Hələ ki, heç kim və heç bir yerdə dövlətin əsaslı yardımı və sonradan dəfələrlə artıq gəlir gətirəcək geniş büdcə xərcləri olmadan ciddi elm və qabaqcıl texnologiya yarada bilməmişdir. Deyilənlərə əyani sübut olaraq onu göstərə bilərik ki, dünya təcrübəsinə görə təbii ehtiyatları olmayan, lakin güclü elmi-texniki kompleks yaratmış ölkələr ən böyük nailiyyətlər əldə edirlər. Və əksinə, elm sektoru zəif ölkələrdə təbii ehtiyatlar bol olsa da, yoxsulluq və siyasi sabitsizlik yaradır. Odur ki, yenidən qurulan iqtisadiyyatın müasir məsələlərinə uyğun gələn dövlət elm və texnika strategiyasının hazırlanması aktual əhəmiyyət kəsb edir ki, bu işdə dövlətin vəzifəsi əvəzsizdir.

2.Elmi fəaliyyət bütövlükdə bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşdırılmalıdır. Bazar iqtisadiyyatına keçid dövlətin so-

sial-iqtisadi, valyuta-maliyyə və digər siyasətləri ilə yanaşı elmi-texniki siyasəti ilə də həyata keçirilməlidir. Dövlət bu məqsədlə inkişaf etmiş ölkələrin təcrübəsindən bəhrələnərək, elmi-texniki siyasətini həyata keçirərkən maddi ehtiyatlarla təmin olunan məqsədli proqramlardan, qanunvericilikdən, vergi və idxal-ixrac tarifləri, dövlət sifarişləri, kreditlər, subsidiyalar, mükafatlar, qarantiyalar və qiymətlər kimi vasitələrdən istifadə etməlidir. Müasir bazar iqtisadiyyatı istehsalın istehlaka (tələbata) uyğunlaşmasının çevik sistemidir deyiriksə, unutmamalıyıq ki, bu çevikliyi təmin edən elm siyasətidir.

Dünya təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçidin uğurlu olmasının ilkin şərti dövlətin güclü olmasını, yəni uyğun dövlət qanunlarının yaradılmasını və onların yerinə yetirilməsinə nəzarətin həyata keçirilə bilməsi imkanlarını tələb edir. Ancaq bundan sonra bazar iqtisadiyyatına keçid elmi-texniki nəticələri müntəzəm olaraq istehsalata tətbiq etməyə qadir ölkələrdə uğurla nəticələnmişdir. Bazar iqtisadiyyatına keçid, əgər elmi-texniki tərəqqiyə söykənmirsə, həmin ölkənin iqtisadiyyatı tam iflasa məhkumdur. Buna görə də ümumi islahatlar arasında elmi fəaliyyət sahəsindəki islahatlara xüsusi diqqət yetirilməlidir, o cümlədən, intellektual sahibkarlığın inkişaf etdirilməsinə üstünlük verilməlidir. Əsas tədbirlərdən biri kimi dövlətin kredit siyasətini elm müəssisələrinin (müəlliflərin) elmi nəticələrini özlərinin tətbiq etməsinə imkan verə biləcək, başqa sözlə, elm adamlarını sahibkarlara çevirə biləcək istiqamətə yönəltmək məqsədəuyğun sayılır. Yapon statistikasına görə ölkədə olan özəl firmaların on yeddi mini elmi fəaliyyətlə məşğul olur. Xüsusi sektorla yerinə yetirilən elmi-tədqiqat işlərinin üçdə ikisi onların payına düşür.

Təbii ki, elmin dövlət inhisarında olan sahələrində intellektual sahibkarlığın fəaliyyəti dövlətin qanunla müəyyən olunan nəzarəti altında aparılmalıdır. Dövlətin elm siyasəti ilə bağlı investisiya və innovasiya siyasəti, iqtisadi siyasəti əsas tutaraq müəyyənləşdirilir.

3.Elmin inkişafının əsas perspektivlərindən biri ölkə elminə milli sahibkarlar və bazar quruluşları tərəfdən tələbin olmasıdır.

Sahibkarlıq sektorunun elmin inkişafında marağının artması və xüsusi kapitalın elmi tədqiqatlara cəlb olunması dövlətin elmi-texniki siyasətinin ən vacib məsələsidir. Yaxşı olar ki, ancaq bundan sonra dövlət tərəfindən elmi fəaliyyətin maliyyələşdirilməsinin həcmi müəyyən olunsun. Bu işin uğurlu olması üçün dövlət ölkə elminin köməkliyi ilə müasirləşməni həyata keçirən və yüksək texnologiyaları tətbiq edən müəssisələrə üstünlüklər, güzəştlər və imtiyazlar verməlidir.

Ancaq xarici texnologiyalar gətirməklə istehsalın müasirləşməsinə və inkişafına ümid bağlamaq sadəlövhlük olardı. Rəqabət qanunları da bunu təsdiq edir.

4.Dövlətin elmi-texniki siyasəti, hökumətin indiki, yaxın və uzaq gələcək üçün elan etdiyi iqtisadi və hərbi müdafiə siyasətini əsas tutmaqla formalaşdırılır və həyata keçirilir. Elm siyasətinin yaxın gələcək üçün planları dövlətin uzaq gələcək üçün iqtisadi və hərbi müdafiə proqramlarına əsaslanmalıdır. Dövlətin yaxın gələcək üçün iqtisadi planları isə elm siyasətinin yerinə yetirilmiş elmi texniki proqramlarına söykənməlidir. Dövlətin elmi-texniki proqramlarına uyğun olaraq, elm müəssisələri formalaşdırılır və ya yeniləri yaradılır, elmi fəaliyyətin yenidən təşkili və idarə olunması, kadr hazırlığı həyata keçirilir. Dövlətin elmi-texniki siyasəti onun ümumi siyasətinin, müdafiə və iqtisadiyyat sahələrindəki proqramlarının reallaşmasına və sürətlənməsinə xidmət edir.

Elmi proqramların əhatə etdiyi problemlərin vaxtında və düzgün proqnozlaşdırılıb yerinə yetirilməsinin mexanizmindən çox şey asılıdır. Tədqiqatçı əvvəlcədən bilməlidir ki, onun əldə etmək istədiyi elmi nəticələr əgər xarici müəlliflər tərəfindən Respublikamızda qeydiyyata alınmışsa, intellektual mülkiyyətin qorunması haqda uyğun beynəlxalq müqavilələrə qoşulduğumuzdan, bu nəticələr respublikamızda da tətbiq oluna bilməyəcək. Göründüyü kimi, dövlətin elm və iqtisadi siyasətləri bir-birinə əsaslanmalı və onların paralel inkişafları təmin olunmalıdır. Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində elmi fəaliyyət istehsal fəaliyyətinin idarə olunmasının ən yüksək forması kimi çıxış edir.

Respublika hökumətinin iqtisadi siyasətinin bu gün tam formalaşmaması onun elmi-texniki siyasətini də çətin vəziyyətdə qoyub. İstehsalı daim artırmaq şərtilə, dünya bazarına rəqabətə davamlı elm tutumlu məhsul çıxarmaq, dövlətin iqtisadi və elm siyasətlərinin uğurluluğunu bildirən əlamətdir. Yeri gəlmişkən, bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, ən əvvəl, kənd təsərrüfatının bütün ənənəvi sahələrində əmək məhsuldarlığını yüksəltməklə, respublikanın zəruri kənd təsərrüfatı məhsullarına olan tələbatı ödənməli, eyni zamanda bunların həm də ixracatda iştirakı təmin olunmalıdır. (Təkrar da olsa belə bir çıxarış etməyə ehtiyac duyuruq: əgər ölkə iqtisadiyyatına aid olmayan bir sahədə yüksək elmi-texniki nəticələrimiz yoxdursa, bu böyük nöqsan deyil, yox əgər qonşu ölkədə, eyni torpaqdan məhsuldarlıq bizdəkindən 3-5 dəfə çoxdursa, bu nöqsan sayılmalıdır).

5.Elm, ixtiraları, yeni texnika və texnologiyaları öyrənib, onları yeni mərhələyə yönəltməlidir. Odur ki, istehsalın çevikliyinin təmin olunması üçün elm siyasətinin əsasında patent-lisenziya fəaliyyəti durmalıdır ki, elmi-texniki tədqiqatların start vəziyyəti həmişə dünya üzrə son patentlərin nəticələri ilə müəyyənləşdirilə bilsin.

Dövlət istehsal müəssisələrini özəlləşdirilərkən, qeyri-maddi aktivlər sırasında intellektual mülkiyyət obyektləri də qiymətləndirilməlidir.

6.Dövlətin elmi-texniki proqramlarının icraçıları müsabiqə yolu ilə müəyyənləşdirilməlidir. Bu məqsədlə proqramları tərtib edən elmi problem şuralarının demokratik əsaslarda təşkil olunub fəaliyyət göstərməsinə elm siyasətinin daha etibarlı proqnozlaşdırılmasının əsas meyarı kimi baxılmalıdır. Bir çox inkişaf etmiş ölkələrdə elm və texnoloji proqramların hazırlanmasına rəhbərliyi hökumət tərəfindən təsdiq olunmuş elm və texnologiya üzrə Şuralar yerinə yetirir. Elm və Texnologiya nazirliyi isə digərləri ilə birgə praktik işlərlə məşğul olur.

7.Elmi nəticələrin təcrübi nümunələrinin dünya standartlarına uyğun hazırlanması və istehsalata tətbiq olunması məqsədilə dövlətin, xüsusi sektorun, Elmlər Akademiyasının və ali tədris müəssisələrinin birgə səyi nəticəsində müasir avadanlıqlarla təmin olunan

elm-istehsalat mərkəzləri yaradılmalıdır. Beynəlxalq iqtisadi birlikləri və təşkilatları bu işlərə cəlb etmək olar. Eyni zamanda respublikada olan təcrübi zavodların (istehsal sahələrinin) iş planlarının DETK ilə razılaşdırılması dövlət səviyyəsində öz əksini tapmalıdır.

8.Elm və texnikanın yeniləşdirilməsi və tətbiqi ilə məşğul olanların maddi maraq məsələsi respublikanın ümumi iqtisadiyyatında yaranmış çətinliklərə baxmayaraq, birinci dərəcəli məsələ kimi həllini tapmalıdır. Şübhəsiz bu, Respublikanın iqtisadi və müdafiə qüdrətinin yüksəldilməsində bunun böyük əhəmiyyəti olardı.

Səylərimiz elmi əməyin ödənilməsi və təchizatı səviyyəsini dəyişməklə yanaşı, ictimai şüurun dəyişməsinə də istiqamətlənməlidir. Elmi kompleksə sosial sifarişlərin verilməsi vacibdir.

9.Elmin çevikliyini, dinamikliyini, iqtisadiyyata təsirini və dünya təcrübəsini nəzərə alaraq, elmi fəaliyyətin təşkilinə və idarə olunmasına nəzarət üçün, fikrimizcə Nazirlər Kabinetində müstəqil qurum (məs., DETK) formalaşdırılmalı və bu qurumun rəhbəri Baş Nazirin (müşaviri) müavini səviyyəsində olmalıdır.

10.Dövlət Elm və Texnika Komitəsinə diqqət artırılmalıdır. Onun işinin dövrün tələblərinə uyğun qurulması bu gün ən vacib məsələdir. Respublikada yaranmış iqtisadi çətinlikləri nəzərə alaraq, hesab edirik ki, sırf tətbiqi xarakterli işlərin bir qisminin, ilk növbədə, DETK-nın patent-lisenziya fəaliyyəti nəticəsində dövlət büdcəsinə daxil olan rüsumların hesabına maliyyələşdirilməsi məsələsi öz həllini tapmalıdır.

11.Elm idarələrinin elmi-texniki nəticələrinin istehsalata tətbiqini sürətləndirmək, respublikanın uyğun alim və mütəxəssislərini istehsalat müəssisələrinin ehtiyaclarının həllinə cəlb etmək, elmi fəaliyyət sahəsində tələb və təklif bazarının formalaşmasına nail olmaq məqsədilə, elm və istehsalat müəssisələrinin əlaqələndirilməsi üzrə DETK-da Dövlət Elm-İstehsalat Problemləri Şurasının yaradılması məqsədəuyğun olar. Şura üzvlərinin işinin səmərəliliyini artırmaq məqsədilə onların maddi maraqlandırılması məsələsi həllini tapmalı və bu Şuranın səlahiyyətləri Nazirlər Kabineti tərəfindən təsdiq olunmalıdır.

12.Respublikanın beynəlxalq əlaqələr konsepsiyasında elmi fəaliyyət sahəsində beynəlxalq əməkdaşlığa xüsusi yer ayrılmalıdır. Bu tələb, əsasən, elmin bəşəriliyi və qloballaşdırılması ilə bağlıdır. Özəl sektor da daxil olmaqla, respublikanın elmi fəaliyyət subyektlərinin bu istiqamətdə fəaliyyəti, DETK nəzarətində olmaqla, ölkənin daxilində və xaricində təmin olunmalıdır. Dövlətlərarası elmi-texniki əməkdaşlıq hər bir ölkədə elmin inkişafına təkan verməklə yanaşı, istehsal sahələrinin də durmadan yeniləşməsinə səbəb olar. Eyni zamanda mövcud elm potensialından istifadə etməyin və onu daha da inkişaf etdirməyin əsas yolu beynəlxalq aləmdə sülhü qorumağa xidmət edən elmi əməkdaşlığa qoşulmaqdır. Sonuncuya ehtiyac daha çoxdur.

İlkin olaraq, respublikada fəaliyyət göstərən xarici elm qurumları ilə birgə fəaliyyət təşkil olunmalı, Tasis, Soros və s. tipli beynəlxalq təşkilatların respublikadakı fəaliyyəti, qismən DETK xətti ilə həyata keçirilməlidir.

Nəhayət, nəinki yerli səviyyəli, eləcə də beynəlxalq səviyyəli elmi-texniki konfransların tətbiqi xarakterli təkliflərlə yekunlaşması və onların DETK-ya təqdim olunması öz yerini tapmalıdır.

Biz bu günədək istər respublika daxilində, istərsə də ondan kənarda yazıb-yaradan alimlərimizi lazımınca tanımadığımız kimi, tanıdıqlarımızı da dünyaya layiqincə təqdim edə bilməmişik. Respublikadan kənar mətbuat səhifələrində onların işləri haqda oxuyanda nə qədər seviniriksə, öz mətbuatımızda onların layiq olduqları səviyyədə işıqlandırılmamasına, xalqın ən böyük oğulları haqda xəbərsiz olmasına bir o qədər kədərlənirik. Bu baxımdan istər indiki, istərsə də keçmiş alimlərimizin elmə konkret olaraq gətirmiş olduqları yeniliklər mətbuatımızın diqqətindən yayınmamalıdır. Bu, bizim öz gücümüzə, qüvvəmizə inamımızı artırır.

Qeyd: Elm, ona sahib olan hər bir millətə Allahın yaratmış olduğu bütün nemətləri özü ilə gətirən bulaqdır. Məsələ, bu bulağın gözünü axtarıb tapmaqdan, ona sahib olmaqdan ibarətdir. Sonra isə fasiləsiz axması üçün daima çalışmaq gərəkdir.

3.5. Azərbaycan Respublikasında elmi-texniki fəaliyyətin təşkili və yerinə yetirilməsinin Konsepsiyası haqqında

Dövlət elmi-texniki proqramlarının hazırlanması qaydasını müəyyənləşdirmək məqsədilə «Azərbaycan Respublikasında elmi-texniki fəaliyyətin /Proqramların/ Konsepsiyası» sənədi, inkişaf etmiş ölkələrin, o cümlədən, Avropa Birliyi, NATO kimi iri regional təşkilatların, Asiya-Sakit okean regionunun, Şimali və Latın Amerikası ölkələrindəki təşkilatların təcrübəsi xüsusi olaraq öyrənilib, ümumiləşdirməklə işlənməlidir. Bu ona görə vacibdir ki, bu yolla biz Qərbi Avropa ölkələrinin uyğun təşkilatları ilə iş birliyi yarada bilmək, o cümlədən, onların maliyyə imkanlarına müraciət edə bilmək üçün hazırlıqlı olmuş olarıq. Proqram səviyyəsində elmi-texniki fəaliyyət dedikdə, əsasən, iqtisadi sahələr arası elmi fəaliyyətə aid olan dövlət proqramlarının yerinə yetirilməsinə yönəlmiş, həm respublika daxilində öz potensial imkanlarımızın gücü ilə, həm də respublikadan kənar – xarici dövlətlərin elm potensialları ilə birgə məqsədli elmi-texniki fəaliyyət /ETF/ başa düşülür. Eləcə də Konsepsiyada respublika elm potensialının müxtəlif ölkələrdə və istiqamətlərdə istifadə edilməsi nəzərdə tutulur /xəstələnmələrlə mübarizə, təhlükəsizliyin təminatı, ətraf mühitin qorunması, regionun inkişafının təminatı və s./. Bu halda ETF-in effektivliyini müəyyən edən ən əsas faktorlardan biri, məqsədlərin formalaşdırılması və onların əldə olunması kriteriyasına görə ETF-in dövlət daxili koordinasiyası üzrə dövlətlər arası fəaliyyətdir. Bundan başqa, elmi nəticənin alınması son məqsəd olmadığından, dövlət və dövlətlər arası qurumlarla koordinasiya olunan elmi-tədqiqat texnoloji konstruktor işlənmələrinin /ETTKİ/ nəticələrinin tətbiqi üzrə tədbirlər böyük əhəmiyyət kəsb edirlər və bu səbəbdən ETF-ə «problemləşdirmək – tədqiqatlar aparmaq – təcrübi nümunələr hazırlamaq – tətbiq etmək» kontekstindən baxılır.

Dövlətlər arası elmi-texniki əməkdaşlığı qabartmağın obyektiv səbəbi olaraq, onu göstərmək olar ki, son illərdə beynəlxalq kooperasiya zərurət olaraq ortaya çıxmış və bir ölkə daxilində ETF-ti bunsuz təsəvvür etmək düzgün deyildir. Bu baxımdan aşağıdakı

faktorları xüsusi olaraq qeyd etmək lazımdır:

–qlobal və region problemlərinin yaranması;

–iqtisadi aktivliyin artması;

–ETTKİ-nin dəyərinin durmadan artması;

–ETTKİ ilə innovasiya prosesləri və sosial-iqtisadi firavanlıq arasında qarşılıqlı əlaqənin hamılıqla qəbul olunması.

Təbii ki, Azərbaycan Respublikası elmi-texniki konsepsiya üçün üstün istiqamətləri seçərkən, ən əvvəl, ölkə üzrə müəyyən olunmuş üstün istiqamətlərdən çıxış edəcəkdir.

Azərbaycan Respublikası müəyyən elmi-texniki potensiala /əsasən, kadr cəhətdən/ malikdir. Bununla belə elmi-texniki kooperasiyanı inkişaf etdirdikdə nəzərə alınmalıdır ki,

–sosial-iqtisadi fəaliyyət sahəsində hər bir dövlətdə, tarixi xüsusiyyətləri ilə şərtlənən milli adətlər mövcuddur;

–Azərbaycan Respublikasının iqtisadi əlaqələrinin bugünkü vəziyyəti belədir ki, bir tərəfdən bu vaxta qədər formalaşmış iqtisadi /elmi/ əlaqələr getdikcə zəifləmiş və aradan çıxmaq üzrədir, yeniləri isə yaransa da, hələlik sıx əməkdaşlıq halına çata bilməmişdir;

–siyasi və iqtisadi cəhətdən güclü dövlətlərin /ABŞ, Rusiya, İran/ və beynəlxalq ittifaqların /məsələn, Avropa İttifaqının/ Azərbaycan Respublikasına təsiri hiss olunur.

Bundan başqa Azərbaycan Respublikasında elmi-texniki siyasətin yenidən qurulmasına başlanılmamışdır.

Qeyd olunan faktlar həm iqtisadi əməkdaşlıqda, həm də elmi-texniki əməkdaşlıqda başlanğıc mərhələnin xüsusi əhəmiyyət kəsb etdiyini müəyyən edirlər. Aşağıdakı üç problemlər bloku mövcuddur ki, Proqramlar formalaşdırılanda onlar nəzərə alınmalıdır.

1.Avropa, Asiya və Amerikanın iqtisadi koalisiyalarının xarakteri nəzərə alınmaqla, Azərbaycan Respublikasının və əməkdaşlığı nəzərdə tutulan ölkənin milli üstün istiqamətlərinin uyğunlaşdırılması; hədəf olaraq, məşğulluğun təmin olunmasını, həyatın və ətraf mühitin keyfiyyətinin yüksəldilməsini, təhsil və texnologiya da daxil olmaqla, məhsul bazarını genişləndirmək hesabına dünya iqtisadi sisteminə inteqrasiya olunmağı seçmək olar.

2.Müəyyən elmi-texniki layihələr, eləcə də onların həyata keçirilməsinin idarə olunması mexanizmi üçün əsas ola biləcək Azərbaycan Respublikasının uzun müddətli /5–10 ilə/ çərçivə proqramı formalaşdırılmalıdır.

3.Respublika daxilində və xaricdə elmi-texniki fəaliyyətin maliyyə təminatı mexanizmi formalaşdırılmalıdır.

Proqramların müddətləri onların məqsədləri ilə müəyyənləşdirilməlidir.

3.6. Beynəlxalq elmi əməkdaşlıqda özəl sektorun yeri

Məlumdur ki, hər bir dövlətin qarşısında duran əksər məsələlərin həlli onun iqtisadi gücünə söykənir və buna da ancaq bazar iqtisadiyyatı şəraitində ölkənin iqtisadiyyatı ilə bağlı elmi fəaliyyəti inkişaf etdirməklə nail olmaq olar. Hər bir ölkədə elmi fəaliyyəti inkişaf etdirməyin yollarından biri elmin bəşəriliyi ilə yanaşı, müasir dövrdə onun da qloballaşdırılması ilə bağlıdır, dövlətlərin elm adamları /qurumları/ arasında beynəlxalq əlaqələrin yaradılmasını tələb edir. Bu baxımdan hər bir ölkədə mövcud elm potensialından səmərəli istifadə etməyin və onu daha da inkişaf etdirməyin əsas yolu, beynəlxalq aləmdə sülhü qorumağa xidmət edən elmi əməkdaşlığa qoşulmaqdadır. Dövlətlər arası elmi-texniki əməkdaşlıq hər bir ölkədə elmin inkişafına təkan verməklə yanaşı, istehsal sahələrinin də durmadan yeniləşməsinə səbəb olur.

Beynəlxalq elmi əlaqələrdə, başqa fəaliyyət sahələrində olduğu kimi özəl sektorun da öhdəsinə böyük işlər düşür. Lakin bu gün Azərbaycanda elmi fəaliyyət sahəsində yaradılmış olan özəl müəssisələrin üzərinə düşən məsələlərin öhdəsindən gələ bilmirlər. Bu bir çox səbəblərlə bağlıdır, məsələn:

- respublikada onların səmərəli fəaliyyət göstərmələri üçün tələb olunan bazar iqtisadiyyatı şəraiti –azad rəqabət mühiti mövcud deyildir;

– bu müəssisələrin maliyyə və texniki imkanları çox məhduddur, dövlət krediti demək olar ki, yoxdur;

– elmi fəaliyyəti istiqamətləndirəcək dövlət iqtisadi inkişaf proqramı hələ ki yoxdur;

– istehsal sahəsində özəl sektorun da fəaliyyəti çox zəifdir və olanlar da milli elmi-texniki nailiyyətlərin tətbiqinə istiqamətlənmirlər və s.

Bununla belə Azərbaycan Respublikasında elmi fəaliyyətin özəl sektorda inkişaf etdirilməsi üçün tələb olunan ən əsas faktor – nisbətən güclü elm potensialı mövcuddur. Bu potensialı hərəkətə gətirməkdə beynəlxalq əlaqələrin böyük rolu ola bilər. Ən əvvəl, qonşu ölkələrdə bazar iqtisadiyyatına keçidin dövlət tərəfindən işdə dəstəkləndiyini nəzərə alaraq, ölkələrin özəl sektorunda çalışan iş və elm adamları ilə Azərbaycan Respublikasında formalaşmaqda olan özəl sektordakı elm adamları /qeyri dövlət qurumları/ arasında yarana biləcək işgüzar əlaqələrin hər iki tərəf üçün böyük fayda verə biləcəyini gözləmək olar. Şübhə yox ki, bu əməkdaşlıq, hər bir dövlətə, keçirdikləri iqtisadi və eləcə də siyasi böhrandan çıxmağa yardım edəcəkdir. Belə hesab edirik ki:

1.Bu əməkdaşlıq müntəzəm keçirilən beynəlxalq səviyyəli elmi-praktik seminarların /və ya başqa elmi yığıncaqların/ birgə təşkili ilə başlana bilər. Bu seminarlarda hər bir ölkənin iqtisadiyyatının inkişaf konsepsiyası işlənməlidir. Bu konsepsiyalarda hər ölkənin iqtisadi sahələrinin mütənasib inkişafı gözlənilməklə, iqtisadiyyatlarının üstün istiqamətləri və onların əlaqələndirilməsi öz əksini tapmalıdır.

2.Hər iki elm potensialını cəlb etməklə, elmi-texniki dövlət prqramları tərtib olunmalı və yerinə yetirilməsi üçün iş aparılmalıdır.

3.Hər iki dövlətdə bazar iqtisadiyyatının tələblərinə uyğun özəl sektorda elmi fəaliyyətin effektivliyini artırmaq üçün onun hüquqi əsasları daim təkmilləşdirilməlidir. Belə ki, özəl sektor maliyyə imkanlarını elmi fəaliyyətin maliyyələşdirilməsinə yönəltməkdə maraqlı olsun.

4.Dövlətin vergi və kredit siyasətləri iqtisadiyyatın bütün sahələrində çalışan sahibkarların /işgüzar adamların/ maraqlarını elmi-texniki nəticələrin tətbiqinə yönəltmələrinə xidmət etməlidir.

5.Dövlətin kredit siyasətində intellektualların təşəbbüskarlığının inkişaf etdirilməsinə və özlərinin sahibkarlara çevrilmələrinə

geniş imkanlar verilməlidir.

6.Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası xarici ölkə alim və mütəxəssislərinin iş birliyini möhkəmlətmək məqsədilə, bu ölkələrdə özəl sektorda fəaliyyət göstərən, birgə təhsil–elm–istehsal komplekslərinin, elmi-xidmət müəssisələrinin yaradılması mühüm addım olardı.

Qarşıya qoyulmuş bu məqsədlərə çatmaq üçün qismən, aşağıdakı işləri yerinə yetirməyi lazım bilirik:

–bu ölkələrin elm və istehsal müəssisələrinin tələb və təklif bazarını yaratmaq;

–kadr bankı yaratmaq;

–istehsalçı sahibkarların elmi-texniki nəticələrlə müntəzəm məlumatlandırılması;

–elmi fəaliyyəti genişləndirmək üçün iş adamlarının millət üçün ayırmalarına nail olmaq;

–respublikanın neft, kənd təsərrüfatı və s. kimi iri iqtisadi sahələrində iş adamlarının birgə şirkətlər yaratması və onların, ilk növbədə, respublika daxili beynəlxalq konsorsiumlarda iştirakının təmin olunması.

3.7. Avropa Şurası və elmi-texniki siyasətimiz

Dövlətlər arası əməkdaşlıq. Dövlətlər arası əməkdaşlığın hüquq sisteminin tarixi inkişafı, bu əməkdaşlığın qloballaşdırılması dövrün zəruri tələbidir.

Dövlətlər arası əməkdaşlığın nə qədər qədim tarixi kökləri olsa da, bu sahədə böyük irəliləyişlər ancaq BMT-nin yaradılmasından sonra baş vermişdir. Bu vaxta qədər dövlətlər arası əməkdaşlıq, əsasən, siyasi, hərbi mahiyyət daşıyırdısa, bu dövrdən başlayaraq, dövlətlərin bütün fəaliyyət sahələrini əhatə etməyə başlamışdır. Bu sonuncular arasında iqtisadi sahədə dövlətlər arası əməkdaşlıq xüsusi olaraq inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, əməkdaşlığın bu növünün özü də çox qədim zamanlardan XX əsrin ortalarına kimi, ancaq iki dövlət arası sırf ticarət formasında mövcud olmuşdur. La-

kin bu dövrdən başlayaraq, dövlətlər arası əməkdaşlıq birgə istehsalı da əhatə etməyə başlamışdır. Belə ki, II dünya müharibəsi dövrü və ondan sonra elmi fəaliyyətin bütün sahələrdə inqilabi sürətlə inkişaf etməsi və onun iqtisadiyyatın /və digər sahələrin/ inkişafındakı rolunun çox böyük sürətlə artması və bununla bağlı dövlətlər arasında bazarlar uğrunda mübarizənin qızışması dövlətlər arası əməkdaşlıqda daha yeni formaların axtarılıb tapılmasını tələb edirdi. Bu isə öz əksini bir neçə dövlətin birləşərək, çox tərəfli əməkdaşlıq etməsində tapa bilmişdir. Məsələn, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı /QDİƏT/, Avropa Şurası /AŞ/ və digər beynəlxalq təşkilatlarda. Bu tip təşkilatlarda əməkdaşlıq dövlətlər arası bağlanmış müqavilələrə uyğun qaydada beynəlxalq hüquq normaları ilə idarə olunur. Məlumdur ki, dövlətlər arası bağlanan müqavilələr dövlətlərin qarşılıqlı razılıq və güzəştlərinə əsasən bağlandığından, biri digərindən fərqlənə bilir və bu mənada subyektivlik özünü göstərir. Son onilliklərdə dünya iqtisadiyyatında baş verən inkişaf, qloballaşma prosesləri, insan cəmiyyətinin qarşılaşdığı problemlərin həll yolları dövlətlərin daha sıx əməkdaşlıq etmələrini zərurət olaraq, ortaya qoymuşdur. Əməkdaşlığın qloballaşdırılması dövrün zəruri tələbinə çevrilmişdir. Belə bir əməkdaşlığa misal olaraq, dövlətlərin birliklər şəklində əməkdaşlığını göstərmək olar. Məsələn, Avropa Şurasında dövlətlər birləşərək, daha qlobal-üzv dövlətlərin hamısının hərtərəfli inkişafı üçün zəruri olan problemlərini birgə həll etməyə çalışırlar. Əməkdaşlığın bu növü, əvvəlkilərdən, ən əvvəl, hüquqi xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, bu hüquq bizim indiyə kimi adət etdiyimiz milli və beynəlxalq hüquqdan bir-sıra fundamental prinsiplərinə görə fərqlənməklə yanaşı, müstəqil olub, mövcud hüquq sistemlərindən fərqli hüquq sistemi sayılır.

Bunu da nəzərə almalıyıq ki, milli /dövlət daxili/ və beynəlxalq hüquq sistemləri də bir-birindən fərqləndirilir. /bax Qanun, 4/77, səh. 42-44/. Milli hüquq sistemində müəyyən hakimiyyət orqanları və bu orqanlara tabelik münasibətlərində olan subyektlər vardır. Beynəlxalq hüquq sistemində isə tabeçilik münasibətləri yoxdur /müqavilə subyektlərinin qarşılıqlı güzəştləri mövcuddur/. Buna

görə də milli hüquq sistemindən fərqli olaraq, beynəlxalq hüquq sistemində ayrıca qanunverici orqan yoxdur, onun funksiyasını bu hüquq sisteminin subyektləri özləri bağladıqları və qarşılıqlı öhdəliklər yaradan saziş və müqavilələr əsasında yerinə yetirirlər. Milli hüquq sistemindən beynəlxalq sistemə keçdikdə yeni əsaslı hüquq elementləri yaranmır. Beynəlxalq hüquq sistemindən birlik hüquq sisteminə keçdikdə isə bunun əksi baş verir, sanki başqa bir səviyyədə milli hüquq sisteminə qayıdış olur. Beynəlxalq hüquq dövlətlərin suverenliyinin tam saxlanılmasına əsaslanan birgə yaşayış və əməkdaşlıq münasibətlərini tənzimləyir, əsas etibarı ilə əməkdaşlıq ideyası üzərində kök atdığı halda, birliyi təsis edən müqavilə vahid olduğundan dəyişməzdir və birlik hüququ inteqrasiya münasibətlərinə əsaslanır. Bu inteqrasiya isə öz növbəsində, birlik qurumlarına müəyyən suveren hüquqların verilməsinə və nəticə etibarı ilə bu suveren hüquqlar ilə üzv dövlətlərdə qalan hüquqlar arasında yeni növ münasibətlərin yaranmasına gətirib çıxarır. Nəticədə, beynəlxalq hüquqdan fərqli olaraq, bu hüquq əsas etibarı ilə birlik qurumları tərəfindən inkişaf etdirilir. Bu qurumların arasında nazirlər Şurası əsl normativ hakimiyyətə malikdir və onun sadə və ya ixtisaslaşmış səs çoxluğu ilə qəbul etdiyi aktlar tələb olunan sayda səs toplayıbsa, bütün bu dövlətlər üçün hətta aktın əleyhinə səs vermiş və ya səsvermədən yayınmış dövlət üçün də hüquqi qüvvəyə malikdir.

Birlik hüququ üzv dövlətlərin ərazisində birbaşa tətbiq olunmaq hüququna /milli hüquq qüvvəsinə/ malikdir. Birlik hüququnda öhdəliklər mütləq xarakter daşıyır və Avropa Birliyi Məhkəməsinin səlahiyyəti bütün üzv dövlətlər üçün məcburidir. Birlik hüququnun tətbiqi ilə bağlı dövlətlər arasında yaranan istənilən mübahisə məhkəmə qaydasında həll olunmalıdır. Birlik hüququ milli hüquqa inteqrasiya olunduğundan şübhəsiz ki, onun milli hüquqla sıx əməkdaşlığı var.

Birlik müqaviləsi üzv dövlətlərin məhkəmələrinə, vətəndaşlarına və özlərinə tətbiq olunan ayrıca Birlik hüququ sistemini təsis edir. Milli hüququn birlik hüququna təsir etmək səlahiyyəti yoxdur, ancaq təkliflərlə çıxış edə bilər.

Göründüyü kimi Birlik daxili əməkdaşlıq, beynəlxalq hüquqla tənzimlənən əməkdaşlıqdan köklü fərqlənir, sanki yeni milli hüquq sisteminə dönüş baş verir. Lakin bu dönüşdə hər bir dövlətin hüquqi idarəsi yeni səviyyədə baş verir, ölkə rəhbərliyi bu prosesdən ayrı Salınır. Birlik qurumlarında qəbul olunacaq qayda və qanunların yerli qayda və qanunlara təsiri onların fəaliyyətini dayandıra biləcək həddə qaldırılıb.

Belə bir hüquq sisteminə daxil olmağın olduqca çox böyük məsuliyyət olduğunu hər bir dövlət hiss etməli, özünün imkan və ehtiyaclarını, AŞ-da ona göstərilə biləcək münasibətləri götür-qoy etməlidir. Olunan tələb və vədlərin nə qədər real və nə qədər ölkənin imkanları daxilində olduğuna diqqət yetirilməlidir. Bunlardan az bir qisminin dadızdırılması da kimsəni çaşdırmamalıdır.

Bu deyilənlərlə bağlı olaraq, Avropa dövlətlərinin özündə və onların iştirakı ilə digər bölgələrdə baş verən hadisələrə əsaslanaraq, xatırlatmaq istəyirik ki, AŞ-na üzv ölkələrin bəziləri heç də özlərini təqdim etdikləri kimi «insan hüquqlarının qoruyucusu» olaraq görünmürlər, dünyada da sülhün tam qalib gəlməsində də maraqlı olmadıqlarından dövlətlər arası münasibətlərdə də qərəzçilikdən də uzaq deyillər. Bütün bunları nəzərə alaraq, qeyd etməyi lazım bilirik ki, bu ölkələrin də toplanmış olduğu AŞ heç də yuxarıda deyilən qədər də ədalətli ola bilməz. Təbii ki, ədalətin reallaşa bildiyi bir toplum haqda bu /yuxarıda/ deyilənlər sağlam düşüncə sahibləri üçün heç bir narahatlıq doğurmaz. Lakin ədalətin – qanunların subyektiv araşdırılmasında dövlətlərə münasibətdə ikili standartlara, qərəzçiliyə yol verildiyi halda isə narahatlıqlar olmaya bilməz. Avropa Birliyi beynəlxalq təşkilatında Türkiyə Respublikasına göstərilən münasibət buna əyani misaldır.

İqtisadiyyat deyib /əgər bu da olarsa/, siyasi hüquqlardan aralı salınmaq təhlükəsinə hər zaman məruz qalmağın mövcud olduğunu unutmamaq gərəkdir. Əgər unudularsa, «tamahkarı yalançı aldadar» atalar sözü yerini tapar. Belə bir təşkilata daxil olarkən, hər bir dövlət, ən əvvəl, «nə itirəcəyik və nə qazanacağıq» sualını cavablandırmalıdır.

Əfsuslar olsun ki, mətbuatda da buna az diqqət yetirildiyinin şahidiyik.

AŞ-da respublikamızın əməkdaşlıq konsepsiyası işlənib hazırlanmalıdır və bu, beynəlxalq aləmdə baş verən hadisələrə uyğun formalaşa bilən çeviklikdə olmalıdır.

Azərbaycan Respublikasının Avropa Şurasına üzvlüyü–onu gözləyən çətinliklər və uğurlar. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bəhrəsi olaraq son illərdə bir-çox beynəlxalq (b/x) təşkilatların üzvü ola bilmişdir. 25 yanvar 2001-ci ildə Azərbaycan Respublikası dünyanın ən böyük beynəlxalq təşkilatlarından biri olan Avropa Şurasının üzvləri sırasına daxil oldu. Bu gün artıq digər Avropa ölkələri kimi Azərbaycanın da bayrağı AŞ-nın binası qarşısında dalğalanır.

AŞ-na üzvlüyün Azərbaycan Respublikasının indiyə kimi qoşulmuş olduğu digər b/x təşkilatlara üzvlüyündən fərqi haqda, ilkin olaraq, onu deyə bilərik ki, adətən b/x təşkilatlara üzvlük dövlətlər arası bağlanmış müqavilələrin əhatə etdikləri konkret məsələlərlə /layihələrlə/ məhdudlaşır və bu məsələlərin yerinə yetirilməsinə xidmət edir. AŞ-na üzv olmağa gəldikdə isə, təşkilata üzvlük, demək olar ki, həyatın bütün sahələrini əhatə edir. AŞ-na üzvlük, Azərbaycan Respublikası üçün AŞ-nın təşkilatlarına üzv ölkələrin uyğun təşkilatları ilə iş birliyi yarada bilmək, o cümlədən, onların maliyyə imkanlarına müraciət etmək imkanlarını ortaya qoyur. Deməli AŞ-na üzv olmaq Azərbaycan Respublikası üçün çox geniş imkanlar deməkdir.

Azərbaycan Respublikası dövlətinin AŞ-na üzv olması, irili-xırdalı hər bir üzv dövlət kimi, respublikamızın da həyatında olduqca mühüm və keyfiyyətcə yeni bir mərhələ olaraq qəbul olunmalıdır. AŞ ilə bağlılıq Azərbaycan dövlətinin və xalqının gələcəyə yönəlmiş arzularının yerinə yetirilməsində bir-sıra böyük ümidlər yığımıdır.

Bununla belə AŞ-da fəaliyyət bir çox sərt şərtlərlə də bağlıdır. Məlumdur ki, adi b/x təşkilatlarla əməkdaşlıq zamanı dövlətlərdən heç biri digərinin daxili işlərinə qarışmaq səlahiyyətlərinə malik olmurlar. Səlahiyyətlər müqavilələrlə müəyyənləşir. Lakin AŞ-na

üzvlükdən sonra hər bir dövlət birliyin, onun qurumlarının təsiri və nəzarəti altında olur və bir-sıra məsələlərdə birliyin qərarlarını yerinə yetirmək tələbləri ilə üzləşir. Elə bunu qeyd etmək kifayətdir ki, AŞ-na gedən yolda Azərbaycan dövləti çoxlu sayda dövlət sənədləri qəbul etmiş, olan bir-çox sənədlərdə isə irili-xırdalı dəyişikliklər aparmışdır, kompleks tədbirlər həyata keçirilmişdir, öhdəliklər götürülmüşdür. Bu gün isə artıq bu öhdəliklərin yerinə yetirilməsini sürətləndirmək tələb olunur. Deməli, AŞ-na üzv olmaq imkanlarla yanaşı, həm də böyük taleyüklü məsuliyyət deməkdir.

Azərbaycan Respublikasının bu qədər ağır öhdəliklərin altına girməsi, hətta bəzi hallarda dövlətin hüquqlarının AŞ-nın uyğun qurumlarına güzəşt etməsi, yuxarıda qeyd olunan və olunmayan, AŞ-na bağlanan ümidlərlə bağlıdır. Bu ümidlərin doğrulması ehtimalı, təbii ki, ilkin olaraq, bizim özümüzdən – Şura daxilində bizə verilən hüquqi imkanlardan necə istifadə edə bilməyimizdən asılıdır. Lakin bu obyektiv səbəblərlə yanaşı, narahatlıq doğuran subyektiv səbəblər də yox deyildir. Bu da Avropa Şurasında aparıcı ölkələrin digər üzv ölkələrə eyni mövqedən yanaşıb-yanaşmayacaqları ilə bağlıdır. Bu narahatçılıqlara əsas verən hallardan biri olaraq, Ermənistanın Lissabon görüşündə, qismən də olsa, təcavüzkar ölkə kimi tanınmasına baxmayaraq, bu ölkələrin onu /işğalçı bir ölkəni/ Avropa Şurasına böyük səylə qəbul etmələrini göstərmək olar. Eləcə də yenə, Avropa Şurasında nüfuz sahibi olan bəzi Avropa dövlətlərinin ərköyün uşaq olaraq bəslədikləri və ərköyün uşaq kimi də bədbəxt etdikləri ermənilərin sonu görünməyən «soyqırım» məsələsini həyasızcasına uyduraraq, Türkiyə dövlətinə qarşı növbəti hücumlara başlamalarını diqqətimizdən yayındırmaq olmaz. Eləcə də Kipr məsələsində də onların ikili mövqeləri göz qabağındadır. Azərbaycan xalqının günü bu gün, görüntüdə ermənilər olmaqla, bu qüvvələr tərəfindən soyqırıma məruz qalmasına göz yummaları da Avropa Şurasında gələcək günlərimizin bir o qədər də xoş və asan olmayacağından xəbər verir. AŞ-dakı nümayəndələrimizin çox böyük çətinliklərlə üzləşməyi də elə bunlarla bağlıdır. DQ məsələsinin həllində AŞ-nın ədalətli mövqe tutacağına bəslənən ümidlər də şüb-

hə altına düşməkdədir. Bütün bunlar azmış, AŞ Parlament Assambleyasının üzvlərindən birinin qeyd etdiyi kimi, "AŞ-na üzvlük hələ oyunun sonu demək deyil". Təşkilatın hər bir üzvü götürdüyü öhdəlikləri yerinə yetirmədikdə birliyin hüquq qanunlarına uyğun olaraq, təşkilatın sıralarından çıxarıla bilər, başqa sözlə, hər bir arzu olunmayan üzv daima sonu olmayan yeni-yeni imtahanlar qarşısında olacaqdır. Azərbaycanın AŞ-na qəbul olunması münasibəti ilə H. Əliyevin AŞ qərargahında etdiyi nitqində «Vahid Avropada ikili standartlara yol verilməməlidir» ifadəsinin öz əksini tapması, özü-özlüyündə, bu narahatlığın əbəs olmadığını və hətta çox güclü olduğunu göstərir. «Qərbi Avropa ölkələri başqa yerlərdə demokratiyanın inkişafını ürəkdən istəyirlərmi?» sualı tez-tez səsləndirilir. Əgər istəyirsə, onda Yaxın Şərqdə /eləcə də Asiyada/ ilk dünyəvi demokratik dövlət olan Türkiyə Respublikasını niyə indiyə kimi sıxışdırırlar. Axı deyimi adət halına düşmüş «Şərqin Qapısı» Avropa üçün Türkiyədən keçir. Türkiyə timsalında demokratiyanın gücünü digər ölkələrə də əyani olaraq, göstərə bilərlər. Bəs niyə göstərmirlər? Ona görə göstərmirlər ki, demokratiyanın inkişafın mütləq əsası olduğunu bilirlər və Türkiyənin inkişaf etməsini /Yaxın Şərqin isə demokratikləşməsini, sonra isə inkişafını/ istəmədiklərindən bu və ya digər bəhanələrlə onu sıxışdırırlar.

Bütün bunlara baxmayaraq, biz, demokratiyanı xaricdən idxal etmədən, bir fərd olaraq, bir millət, bir xalq, bir dövlət olaraq demokratikləşməliyik, babalarımızın sahib olduqları demokratiyanı müasirləşdirib, ona sahib durmalıyıq. Bütün dünya xalqları kimi bizim də çıxış yolumuz demokratiyaya sahib olmaqdadır. Unutmayaq ki, demokratik olduğumuz zamanlarda dünyada ən böyük biz olmuşuq. Bununla belə biz, deyilənləri heç bir an unutmadan real həyatda yaşadığımızı və artıq AŞ-nın üzvü olduğumuzu nəzərə alıb, AŞ-na üzvlüyün bizə vermiş olduğu bütün imkanlardan davamlı olaraq səmərəli istifadə etməklə, yorulmaq bilmədən "erməni məsələsi"ndə obyektiv mövqe tutan Avropa dövlətləri ilə hərtərəfli əməkdaşlığı genişləndirmək istiqamətində səylərimizi, eləcə də tərəfdaşlarımızın sayını artırmalıyıq. Bu işdə dünya azərbaycanlılarının güclərini

birləşdirmək və bu birliyin sistemli fəaliyyətinə nail olmaq vacibdir. Bu fəaliyyəti, ilk növbədə, ermənilərin tarixi saxtalaşdırmaqla xalqımıza və dövlətimizə qarşı dünyada apardıqları təbliğatların yalan və iftira olduğunu dünya xalqlarının diqqətinə çatdırmağa yönəltmək və dəf olunmasına nail olmaq lazımdır. Əks halda, ermənilər Azərbaycan torpaqlarını zəbt etmək istəklərinə bu dəfə də nail olarlarsa, onların bu «modern» üsulu – başqa xalqların torpaqlarını zəbt etmək üsulu, erməniyə bənzər digər millətlərin də diqqətini cəlb edəcəyi halda, bunun ümum dünyada hansı nəticələrə gətirib çıxaracağına və buna görə də yolverilməz olduğuna diqqətləri cəlb etmək lazımdır.

Bu işlərin uğurla başa çatdırılması bizdən, ən əvvəl, mənəviyyatımızda köklü dəyişikliklər aparmağı tələb edir. Qanlarımız bahasına əldə etdiyimiz azadlığımızı, itirmiş olduğumuz və itirməkdə olduğumuz torpaqlarımızı qaytarmaq, qoruyub saxlamaq və inkişaf etdirmək, xalqı /özümüzü/ soyqırım təhlükələrindən /vətənsizləşmələrdən/ xilas etmək üçün bu anımıza buraxmış olduğumuz səhvləri, ilk növbədə biganəliyimizi, sadəlövhlüyümüzü, dostlarımızı və düşmənlərimizi /müvəqqəti və özünü bizə daimi düşmən elan etmiş erməni kimiləri /vaxtında ayıra bilməməyimizi aradan qaldırmaqla, bundan sonra AŞ-da üzv ölkələr səviyyəsində atacağımız hər bir addımımızı düzgün qiymətləndirməyi bacarmalıyıq. Elə edə bilməliyik ki, bu böyük hadisə, ilk növbədə, bizi iqtisadi baxımdan avropalaşdırsın. Yeri gəlmişkən, AŞ da üzvlərindən bunu tələb edir. Avropalaşmaq tələbi bir çoxlarımızda bir qədər qısqanclıq yaratsa da, biz bu yolu getmək zorundayıq.

Avropalaşmaq nədir? Bu sual qarşısında dərhal üç rəngli bayrağımız və onun avropalaşmaq – daima yeniləşmək /müasirləşmək/ tələbi /simvolu/ yada düşür. H.Əliyev Azərbaycanın AŞ-na qəbul olunması zamanı bayrağımızı göstərərək demişdir: «Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır». Biz də M.Ə.Rəsulzadənin başçılıq etdiyi ilk müsavatçıların tutduqları yolun yolçusu olduğumuzu daha gur səslə bütün dünyada səsləndirməliyik, qaldırdıqları bayrağı isə bizə düşmən olan qüvvələrin qarşısında daha inamla dalğalandırmalıyıq.

Etiraf etməliyik ki, biz həmişə, hətta bayrağımız AŞ iqamətgahı qarşısında qaldırılmasından əvvəllər də, avropalaşmaq – yeniləşmək desək də, bunun həyata keçirilməsi üsullarının müəyyənləşdirilməsi yolları üzrə əsaslı işlər görə bilməmişik. AŞ-na üzvlük bu məsələyə qayıdışa bir səbəb olmuşdur, sanki bayrağımızın tələbi istiqamətində mühüm bir imkandır. Belə ki, AŞ-na üzvlüyün özü artıq avropalaşmaq istiqamətində atılmış böyük bir addımdır. Növbəti adım AŞ-da necə fəaliyyət göstərməklə bağlıdır. Lakin necə, əvvəlcədən müəyyənləşdirilmiş /planlaşdırılmış/ əsaslı və ya cari addımlar?

Unutmayaq ki, AŞ tələbləri də çox sərtdir və ardıcıldır. Əlbəttə ki, AŞ-nın tələbləri bayrağımızın tələblərindən fərqlənə bilər. Odur ki, biz bu işdə bayrağımızın tələblərinə üstünlük verməliyik, başqa sözlə, ən öncə, milli xüsusiyyətlərimizi hər an nəzərə almalıyıq. Bu işdə dövlətlə birgə ictimai təşkilatlara, özəl sektor qurumlarının hər birinə, hətta hər bir şəxsimizin özünə aid işlər düşür, tələblər qoyulur.

Bayrağımızla bağlı avropalaşmaq dedikdə daha nələr nəzərdə tutulmuşdur?

Biz belə hesab edirik ki, bayrağı yaradanlar avropalaşmaq dedikdə, hər bir kəsdən aşağıdakılara əməl etməyi tələb etmişlər:

1.Dövləti və xalqı özü ilə birgə görməyi bacarmaq;

2.Hər bir fəaliyyətində daha da mədəniləşməyə çalışmaq. Mədəniyyətin insan şüuruna təsirinin çox güclü olduğunu nəzərə alıb, insanların onu həmişə izləməsinə çalışmaq;

3.Görülən hər bir işə məsuliyyətlə yanaşmaq, işin keyfiyyətli yerinə yetirilməsinə çalışmaq;

4.Ölkədə elmi fəaliyyətin inkişaf edib, iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilməsinə nail olmaq – istehsalın yeniləşməyə əvvəlcədən hazır olmasına nail olmaq və s.

Bu tələblərin böyük bir hissəsi əsasən özümüzdən asılıdır. Lakin elmi fəaliyyətlə bağlı və bu kimi bir çox məsələlərdə AŞ və onun üzvləri ilə əməkdaşlıq etmək zorundayıq.

Azərbaycan Respublikasının AŞ ilə elmi fəaliyyət sahəsində əməkdaşlıq maraqları. AŞ-na üzv ölkələrlə elm və texnika

sahəsində əməkdaşlıq etmək AŞ-na üzv olan hər bir ölkə kimi Azərbaycan Respublikasının bu dövlətlər birliyinə üzv olmaq məqsədinin tərkib hissəsi olub, ölkə iqtisadiyyatının inkişaf etdirilməsinə xidmət edir.

İnkişaf etmiş ölkələrin müasir iqtisadiyyatlarının səviyyəsi elədir ki, onun növbəti inkişafı bir-iki ölkənin birgə, istər maliyyə, istərsə də elmi-texniki potensialının imkanları xaricindədir, başqa sözlə, müasir iqtisadiyyat qloballıq və istiqamətlilik xüsusiyyətləri ilə xarakterizə olunur. Məlumdur ki, hər bir ölkədə iqtisadiyyatın inkişafı həmişə elmi fəaliyyətin nəticələrini istehsala tətbiq etmək yolu ilə baş vermişdir. Bu, bu gün də belədir. Lakin elmin özünün müasir səviyyədən irəli aparılması da artıq bir-iki ölkənin elm və texnika potensialının imkanı xaricindədir. Odur ki, bu səbəbdən, qloballaşmanın "müəllifi" olan elmi fəaliyyətin özünün maliyyələşməsinin qloballaşması və istiqamətlənməsi bir zərurət olaraq ortaya çıxır. İndiyə kimi olan təsəvvürlərin əksinə olaraq, elmi fəaliyyətin qloballaşması və tələbi /vasitə olaraq/ iqtisadiyyatı da qloballaşdırır /nəticə olaraq/, yəni iqtisadiyyatı inkişaf etdirmək /səbəb olaraq/ məqsədini həyata keçirir. Başqa sözlə, müasir iqtisadiyyatın inkişaf etdirilməsinə olan ehtiyac elmi fəaliyyətin qloballaşmasını ortaya çəkir, sonda iqtisadiyyatın qloballaşması nəticə olaraq baş verir.

Məlumdur ki, AŞ öz məqsədlərindən irəli gələn vəzifələrini üç istiqamətdə həyata keçirir. Bunlardan biri AŞ-na daxil olan ölkələrin öz aralarında elm, təhsil, səhiyyə, hüquq, sosial-mədəni və digər sahələrdə əməkdaşlıq etməsində tapır və bu əməkdaşlıqlar, Azərbaycan Respublikasına bənzər dövlətlərin AŞ-na olan əsas maraq dairəsini əhatə edirlər.

AŞ-da Azərbaycan Respublikasına qarşı münasibətlərin ziddiyyətli olduğunu və burada ehtimal olunan təhlükələri və bu təşkilatda hər hansı sahədə fəaliyyət üzrə təcrübəmizin kifayət qədər olmadığını nəzərə alaraq, əməkdaşlıq üzrə İşçi qruplarımız tərəfindən subyektivliyə yol verilməməsi məqsədilə, hesab edirik ki, AŞ-da göstərilən bütün fəaliyyətlər üzrə əməkdaşlıqların müvəqqəti olaraq,

mərkəzləşdirilmiş qaydada aparılması və mərkəzlərin işinin əlaqələndirilməsi məqsədə uyğun olar. AŞ-da /eləcə də digər beynəlxalq təşkilatlarda/ Azərbaycan Respublikası qurumları vahid siyasətlə çıxış etməlidirlər.

Elmi-texniki fəaliyyətin, yuxarıda qeyd olunanlarla yanaşı, digər sahələrlə, xüsusilə ölkə iqtisadiyyatı ilə çox bağlı olduğunu, onların hər birinin inkişafındakı spesifik, əvəzolunmaz rolunu nəzərə alaraq, hər bir ölkə elm və texnologiya sahələrində əməkdaşlığa xüsusi diqqət yetirir.

Azərbaycan Respublikasının da AŞ-na üzv ölkələrlə elm sahəsində əməkdaşlığına xüsusi diqqət yetirilməlidir. Özü də elmi əməkdaşlıq, təkcə texniki elmlər sahəsi ilə məhdudlaşmamalı, həm də humanitar – tarix, ədəbiyyat, fəlsəfə, mədəniyyət və incəsənət sahələrini əhatə etməlidir. Humanitar sahələrdə Avropa alimləri ilə birgə Azərbaycanın /eləcə də Qafqazın bütövlükdə/ keçmişinin, bu günü və gələcəyinin öyrənilməsi /bəzən də təzyiq edilməsi/ və nəticələrinin Avropada dərc olunması, Azərbaycan və digər ölkə alimlərinin bu istiqamətdəki müstəqil araşdırmalarının ingilis, fransız, alman və s dillərə tərcümə olunması və yayılması yolu ilə Azərbaycan həqiqətlərinin Avropa xalqlarına daha etibarlı və tərəfsiz mənbələrdən çatdırılması işi təmin olunar. Bununla pis xasiyyətli olan Avropa dövlətləri fakt qarşısında qoyulmuş olarlar. Bütün bunlar, öz növbəsində, AŞ-dakı nümayəndələrimizin fəaliyyətini xeyli yüngülləşdirər – süni yaradılan çətinliklərin bir hissəsi aradan qaldırılar.

Hesab edirik ki, AŞ-da Azərbaycan Respublikasının texniki elmlər üzrə əməkdaşlığına nəzarət rolunu dövlətin elmi-texniki siyasətini həyata keçirən Dövlət Elm və Texnika Komitəsi, humanitar elmlər üzrə əməkdaşlığına isə uyğun Dövlət Komitəsi mərkəzi dövlət orqanları olaraq Milli Elmlər Akademiyası ilə birgə yerinə yetirə bilərlər. AŞ-da aparacağımız elmi-texniki siyasət Azərbaycan Respublikasının ümumi elmi-texniki siyasətinin və xarici ölkələrlə əməkdaşlıq üzrə konsepsiyasına əsaslanmalıdır. AŞ-da bu istiqamətdəki səylərimiz, inkişaf etmiş ölkələrin elmi-texniki nəticələrinin əldə olunmasına, tətbiqinə və nəhayət, respublikamızda əldə

olunan elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması yollarının mənimsənilməsinə yönəldilməlidir. AŞ-da «Azərbaycanlıları sevənlərin» bizi bu yoldan sapdırmalarına və nəticədə iqtisadi inkişafımıza mane olmalarına bəhanə verməmək üçün biz insan hüquqları və bu kimi sahələrdə işlərimizi elə qurmalıyıq ki, onları bu fürsət və imkanlardan məhrum edə bilək. Heç zaman unutmamalıyıq ki, müstəqillik insan azadlığının başlanğıcı və zəruri şərtidir. Hər bir xalqın müstəqilliyinin davamlı olması demokratiyaya söykənir, onun köklü uğurları buradan başlayır. Hər bir təbii sərvət tükənəndir. Tükənməzlik ancaq torpaqla və intellektual əməklə bağlıdır.

AŞ və ona üzv olan ölkələrlə elmi-texniki əməkdaşlıq sahəsində uğurlu addımlar atıldığı halda məsələlərin mərhələlərlə həll olunması /planlaşdırılması/ məqsədə uyğun sayıla bilər:

– mövcud elm müəssisələrinin dünya standartlarına cavab verən səviyyədə fəaliyyətlərinin bərpası;

– elmi fəaliyyətinin genişlənərək ölkə iqtisadiyyatının bütün sahələrini əhatə etməsi;

– iqtisadiyyatımızla bağlı bütün sahələr üzrə elm müəssisələrinin yaradılması.

– İqtisadiyyatın davamlı inkişafını təmin etmək məqsədilə fundamental elmi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Elmi fəaliyyət sahəsində bu cür uğurlu əməkdaşlığa nail olarıqsa, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin sıçrayışla getdikləri yolu biz də təkrarlaya bilərik. Azərbaycanın elmi potensialının imkan və şəraiti buna cavab verə bilər. Bunun üçün, ən əvvəl, Cənub Qafqazda /ümumiyyətlə Qafqazda/ müharibələrə son qoyulması və bölgədə ədalətli və davamlı sülhün qərarlaşması da vacibdir. Belə olduqda bölgə daxili əməkdaşlıqla yanaşı, AŞ-na üzv ölkələr və eləcə də digər ölkələrlə əməkdaşlığa daha çox və real imkanlar yaranar. Təbii sərvətlərin, kənd təsərrüfatının oxşar olduğu ölkələrlə elmi fəaliyyət sahəsində əməkdaşlıq daha çox qarşılıqlı faydalı ola bilər.

AŞ-da elmi-texniki əməkdaşlığın məqsədlərindən irəli gələn vəzifələr, əsasən, hər mərhələyə uyğun elmi-texniki proqram və

layihələrin tərtibi ilə müəyyənləşir. Bu vəzifələri yerinə yetirmək üçün ayrılan qurum və strukturlar, elmi fəaliyyəti koordnasiya edən mərkəzi dövlət orqanı, EA, sahələr üzrə və eləcə də özəl sektora aid olan elm-tədqiqat institutları /müəssisələri/ öz işlərini bu istiqamətdə qurmaqla fəaliyyət göstərməlidirlər. Bu fəaliyyət, AŞ ölkələrinin investisiya imkanlarından istifadə edib, Azərbaycanın iqtisadi təsərrüfat sisteminin yeniləşməsinə xidmət edən elmi-texniki proqram və layihələrin investisiyalaşdırılması və yerinə yetirilməsini əhatə etməlidir. Xarici investorlardan başqa, Azərbaycan Respublikası dövlətinin özü, milli sahibkarların özləri daxili imkanlar hesabına çıxış yolları axtarıb tapmalıdırlar. İqtisadiyyatın çevikliyinin və davamlılığının təmin olunması üçün elmi fəaliyyətin kəsilməzliyinə mütləq nail olunmalıdır. Milli intellektual sahibkarlarla, elm adamları və xalqın qarşılıqlı təəssübkeşliyi reallaşmalıdır.

3.8. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının maraqları

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı /QDİƏT/ əvvəldə də qeyd olunduğu kimi Qara Dəniz regionu ölkələri üçün iqtisadiyyatın müxtəlif sahələrində geniş əməkdaşlıq etməyə imkan verən beynəlxalq qurumdur. Bu təşkilatda iştirak Azərbaycan üçün həm də başqa əhəmiyyətlər kəsb etməkdədir:

1.QDİƏT-də bütövlükdə, xüsusilə Elm və Texnologiya sahəsində əməkdaşlıq üzrə yaradılmış qurumlarda – Daimi Akademik Komissiyasının (DAk) İşçi Qrupunda, Qara Dənizi Öyrənən Mərkəzdə Azərbaycanın necə təmsil olunması, onun xarici siyasətinə və nüfuzuna təsir edə biləcək dövlət əhəmiyyətli məsələdir. Yeri gəlmişkən, müəyyən mənada, Ermənistanla müharibənin vəziyyəti (taleyi) təkcə Dağlıq Qarabağda deyil, elə QDİƏT daxili və bu kimi digər beynəlxalq təşkilatlarda vəziyyətimizin (mövqeyimizin) necəliyi ilə də müəyyən olunur.

2.QDİƏT DAK-da üzv dövlətlərdə elmin hərbi sahədə deyil, iqtisadiyyatla bağlı istiqamətlərdə inkişafı üzrə əməkdaşlığı nəzərdə

tutulduğundan, regionda stabilliyin əsaslarından olan mehribançılığın yüksəlməsinə səbəb olacağına ümid etməyə əsas verir. (Təki ümumi maraqda olan heç olmazsa bir elmi işimiz tez bir zamanda bu təşkilat daxilində öz yerini tapmış olsun. Buna xalqımızın, ən əvvəl, böyük mənəvi ehtiyacı var və digər tədqiqatçılarımızın da bu təşkilatda aktiv iştirak etmələrinə örnək ola biləcəkdir).

3.DAK-a təqdim olunacaq layihə və proqramlar, xüsusilə onların qəbul olunub-olunmaması, Azərbaycanın (eləcə də hər bir ölkənin) elminin səviyyəsini (rəqabət qabiliyyətliliyini) müəyyənləşdirəcək.

Bu səbəbdən, çalışmalıyıq ki, Azərbaycan elmini qonşularımıza olduğu kimi çatdıraq və ondan qarşılıqlı bəhrələnmək yollarını birgə axtarıb tapaq.

4.İqtisadi əlaqələrin etibarlığı və möhkəmliyi, davamlığı elmi əlaqələrlə başa çatdırılır. Bunu həm də bazar iqtisadiyyatı tələb edir.

Elmi fəaliyyətin qloballaşması ilə dövlətlər arası iqtisadi və elmi əlaqələrin bütövlüyü zərurəti ortaya çıxmışdır.

Elmin iqtisadiyyatla sıx bağlılığı ölkələri Alman, Yapon yüksəkliyinə qaldırar, qismən və birtərəfli bağlılığı isə Sovet təpəsi ilə kifayətləndirər, prinsipi əsas tutulmalıdır.

5.Yenidənqurmanın səhv addımlarının bəhrəsi olaraq, bu gün Azərbaycanın (eləcə də digər yeni dövlətlərin) elm müəssisələrinin bir çoxu maliyyə böhranı ilə üzləşib. Bu müəssisələri (kollektivi ilə birlikdə) QD regionu ölkələrinin və QDİƏT xətti ilə digər ölkələrin problemlərinin həllinə cəlb etməklə bu böhranı qismən aradan qaldırmaq elm potensialını qorumaq olar. Bu DAK-da (bütövlükdə QDİƏT-də) elm adamlarımızın necə aktiv iş birliyi yaratmalarından asılı olacaqdır.

6.QDİƏT DAK çərçivəsində əməkdaşlığa, ümumiyyətlə Azərbaycanın Qərblə Elm və Texnika sahəsində gələcək əməkdaşlığı yolunda körpü olaraq baxılmalıdır.

Azərbaycanın dünya elminə inteqrasiyasını reallaşdırmaq, digər dövlətlərin elm potensialından istifadə edərək, iqtisadiyyatımızın inkişafına təkan vermək üçün, QDİƏT-ə üzv lkələr ilə elm və

texnologiya sahəsində daha sıx əməkdaşlıq yaradılmalıdır və bu məqsədlə bu sahə üzrə müvafiq fəaliyyət planı işlənib hazırlanmalıdır. Bu plan, əsasən, aşağıdakıları əhatə etməlidir:

-XİN xətti ilə Azərbaycan Respublikasının QDİƏT-in bütün qurumları üzrə İşçi Qruplarında olan əlaqələndiricilərinin (onların vasitəsilə koordinator və mütəxəssislərin) birgə işinin təşkili:

- Azərbaycan Respublikasının Elm və Texnika sahəsində üstün istiqamətləri üzrə koordinator və ekspert nümayəndələrinin müəyyənləşdirilməsi və onların DAK-da birgə işinin təşkili;
- Azərbaycan Respublikasının QDİƏT DAK üzrə elm siyasətinin (konsepsiyasının) formalaşdırılması məqsədilə təkliflər hazırlanması, uyğun elmi-texniki layihə və proqramların müəyyənləşdirilməsi, əməkdaşlıq mexanizminin və metodologiyasının işlənməsi;
- Üzv ölkələrin təklif etdikləri layihə və proqramlarda iştirak mexanizminin müəyyənləşdirilməsi;
- Elm və Texnika sahəsində üstün istiqamətlər üzrə "Mərkəz" ola biləcək Azərbaycan elm müəssisələrinin (komplekslərinin) müəyyənləşdirilməsi;
- Texnologiyaların QDİƏT regionu ölkələri arasında bir-birinə verilməsi məqsədilə, elm, texnologiya, iqtisadiyyat, sənaye və işgüzarlıq üzrə informasiyalar bankı yaratmaq;
- İntellektual mülkiyyətin bazar iqtisadiyyatı şəraitində qorunması, QDİƏT ilə ÜİMT arasında əməkdaşlıq yaradılmasında iştirak etmək;
- Üzv ölkələrin iqtisadi proqramlarını öyrənmək, onlara əsaslanaraq, elm-tədqiqat proqramlarını tərtib etmək və icraçıları müəyyənləşdirmək (üzv ölkələrin sifarişi əsasında).

Biz QDİƏT DAK-da elm potensialımızı (imkanlarını) açıqlaya bilsək, bu müəssisələrimizi digər ölkələrin layihələrini yerinə yetirməyə cəlb edə bilərik, onları inandırarıq.

QDİƏT iqtisadi təşkilat olsa da, nəzərdən qaçırmaq olmaz ki, iqtisadiyyatı siyasətdən mütləq mənada ayırmaq mümkün deyil. Əgər müharibə ədalətlə qurtarsa, Azərbaycan Respublikası, öz növbəsində, QDİƏT DAK-ın bu gün rastlaşdığı maliyyə çətinliklərinin

aradan qaldırılmasında öz köməyini göstərə bilər, fikrini üzv ölkələrə çatdırmaq gərəkdir, o cümlədən də Türkiyə ilə Yunanıstan və digər ölkələr arası münasibətlərin istiləşməsi olmazsa, QDİƏT böyük çətinliklərlə üzləşər. Odur ki, bu ölkələrin alimlərinin öhdəsinə çox böyük və məsul işlər düşür.

Regionu sülh zonasına çevirməklə, hərbi sahələrə ayrılan xərcləri elmin inkişafına yönəltmək olar.

Elm və Texnologiya sahəsində əməkdaşlıq, başqalarından fərqli olaraq, daha geniş sahələri əhatə etməklə yanaşı uzun müddətli olur, izləri daha çox qalır. Bu əməkdaşlığa nail olan ölkələr arasında sülh, stabillik və inkişaf əsas faktora çevrilir.

Davamlı İnsan İnkişafı məsələləri ilə bağlı olaraq, QDİƏT-də elm, təhsil, geniş mənada mədəniyyət məsələləri həllini tapmalıdır.

QDİƏT DAK-da toplanan mə'lumat təcrübələri Xəzər Gölü ətrafı ölkələr arası İqtisadi Əməkdaşlıqda istifadə etmək imkanları öyrənilməlidir.

Region ölkələri ilə elm və texnologiya sahəsində əməkdaşlığı tam mənasında yaratmaq üçün bazar iqtisadiyyatına keçidi sürətləndirmək lazımdır. Bu, dövlət sektoruna zərər vermədən, elmi fəaliyyət sahəsində daha intensiv həyata keçirilməlidir, çünki bazar iqtisadiyyatının xarakterinə uyğun olaraq, iqtisadiyyatın çevikliyi, elmi fəaliyyətin çevikliyi ilə müəyyənləşir.

Region ölkələrinin ümumi marağında olan ən ümdə məsələ ekologiya məsələsidir. Ekologiyaya biganəlik, iqtisadiyyatı dibi deşik (yox) qaba çevirir – nə qədər su töksən dolmayacaq.

Biz hesab edirik ki, ətraf mühitin çirklənməsi sərhəd bilmədiyindən (əsasən, hava və su) və onun qlobal xarakterdə olduğunu nəzərə alaraq, QDİƏT-in Nizamnaməsinin tələblərindən də irəli gələn, regionun inkişafı məqsədilə:

1.Qara Dəniz regionu ölkələrinin ekoloji vəziyyəti:

- region ölkələrdə ətraf mühiti çirkləndirən təbii və süni obyektlərin siyahısının tərtibi və xarakteristikasının hazırlanması;
- region ölkələrdə ərazi və ehtiyac üzrə gözlənilən qlobal təhlükələr, davamlı insan inkişafının taleyi – perspektivi (uğurları

və uğursuzluqları);

- çirklənmiş sahələr və onların sağlamlaşdırılması yollarının araşdırılması (region ölkələrinin uyğun mütəxəssisləri ilə birgə) və sair haqda məruzələr hazırlanmalıdır.

2.Nəqliyyatın onsuz da geniş olmuş olduğu Qara Dənizin ekologiyasının gəmilərlə daşınan neft məhsulları ilə daha da böyük süratlə çirklənməsini əsaslı surətdə azaltmaq məqsədilə neft tankerlərinin Bosfor boğazından keçməsinə yol verilməməlidir. İstər Xəzər gölündən, istərsə də Rusiya, Qazaxıstan və Türkmənistan ərazisindən ixrac edilən neftin Qara Dənizdən gəmilərlə deyil, qurudan keçən neft boru kəməri xətti ilə Aralıq dənizi sahilinə (Ceyhana) axıdılması ilə Qara dənizi baş verə biləcək (böyük ehtimallı) fəlakətlərdən xilas etmiş olarıq. Xüsusilə nəzərə alınmalıdır: quruda (neft kəmərində) baş verə biləcək fəlakət, lokal xarakter daşıyır, suda baş verəcək uyğun fəlakət isə qlobal xarakter daşıyır.

Unutmaq olmaz ki, dünyanın ən gözəl guşələrindən biri olan Qara Dəniz regionu onsuz da seysmik xarakterlidir. Onu sü'ni qlobal fəlakətlərdən qorumağa mütləq borcluyuq.

3.Regionda fəaliyyət göstərən sənaye, o cümlədən atom elektrik stansiyalarının tullantılarının basdırılması işi açıq həyata keçirilməli və xəritəsi tərtib olunmalıdır. Çox güman ki, əgər bu deyilənlər, təklif olaraq, QDİƏT adından BMT uyğun qurumuna təqdim olunarssa, onun bütün dünyada reallaşması mümkün olar.

4.Zəlzələnin proqnozlaşdırılması üzrə elmi-tədqiqatların təşkili və nəticələrinin aradan qaldırılması üzrə mərkəzlər yaradılmalıdır.

5.Azərbaycanın və Rusiyanın imkanlarını nəzərə alaraq, nüvə silahlarının sınaqdan çıxarılmasına QDİƏT üzv ölkələrdə beynəlxalq nəzarət mərkəzlərinin yaradılması məqsədə uyğun olardı.

6.QDİƏT üzv ölkələrlə birgə:

- Yanacaq-enerji, kənd təsərrüfatı, ekologiya və s. üzrə tədqiqat mərkəzlərinin yaradılması;
- Texnoloji-biznes inkubatorunun, biznes mərkəzinin və s. yaradılması;
- Üzv ölkələrin Milli Elmi-tədqiqat mərkəzlərinin texniki

səviyyələrinin beynəlxalq standartlara uyğunlaşdırılması;

7.Bərpa olunan ekoloji təmiz enerji mənbələrinin aşkarlanması.

Azərbaycan dövlətinin siyasi maraqlarını nəzərə alaraq, hesab edirik ki, aşağıdakı işlərin QDİƏT çərçivəsində yerinə yetirilməsi məqsədə uyğun olardı:

1.Türkiyə Respublikası ilə Rusiya Federasiyası arası elmi əlaqələrin yaradılması və inkişafına kömək etmək işi Azərbaycan Respublikasının Elm və Texnologiya sahəsində əməkdaşlıq üzrə fəaliyyətində öz əksini tapmalıdır;

2.Orta Asiya dövlətlərinin QDİƏT təşkilatının Elm və Texnologiya sahəsində əməkdaşlıq üzrə İşçi Qrupuna dəvət olunması və onun işində məşvərətçi səslə iştirak etmələri;

MDB və QDİƏT beynəlxalq təşkilatlarının Elm və Texnologiya sahəsində əməkdaşlığı;

3.Müsəlman ölkələrinin Elm və Texnologiya sahələri üzrə təşkilatları (İSESKO) ilə iş birliyinin təşkili;

4.QDİƏT üzv dövlətlər arası iqtisadi əlaqələrə, ilk növbədə, Elm və Texnologiya sahəsində əməkdaşlığa söykənərək, bu dövlətlər arası siyasi münaqişələrin həllinə yardımçı olmaqla, qarşılıqlı inkişaf istiqamətində əməkdaşlıqları gücləndirmək.

3.9. Azərbaycan Respublikası Elmin Müdafiə Fondunun yaradılması haqqında

Hər bir dövlət /xüsusilə yeni yaranan dövlətlər/ ölkəsinin iqtisadiyyatını inkişaf etdirmək məqsədilə, ölkədə elm potensialını formalaşdırmağa çalışır. Burada aşağıdakı hallar müşahidə oluna bilər:

- ölkədə elm potensialı ümumiyyətlə yoxdur. Onda dövlət onu yaratmağı planlaşdırır ;
- ölkədə b/i tələblərinə uyğun elm potensialı formalaşmaqdadır, lakin elm-istehsalat əlaqələri zəifdir, onu inkişaf etdirmək lazımdır;
- ölkədə elm potensialı güclüdür, elm istehsalat əlaqələri əsasında, ölkə iqtisadiyyatı inkişaf edir. Dövlət, əsasən, elmin fundamental sahəsinin inkişafına maddi yardım göstərir.

Elmin inkişaf səviyyələri kimi baxıla biləcək bu hallardan Azərbaycan Respublikasında hansına rast gəlmək mümkündür?

Təbii olaraq, birinci halı buraxıb, ikinci hala diqqət yetirsək, "hə" və "yox" cavablarının hər ikisini ortaya qoymalı olacağıq. Beləki, Azərbaycan Respublikasında elm potensialının kifayət qədər inkişaf etmiş kadr və elm müəssisələri kimi qanadları vardır. Hətta bunların səviyyəsinə görə Azərbaycanda üçüncü halın varlığına üstünlük vermək olardı, əgər elm potensialının gücü qeyd olunan qanadların elm-istehsalat əlaqələri ilə müəyyənləşməsəydi. Azərbaycanda, demək olar ki, formalaşmış və hətta ənənə halını almış vərdişlərə görə, elm müəssisələri, əsasən, sırf elmin inkişaf etdirilməsinə yönəldilmişdir, iqtisadiyyatın inkişafında onun izləri kifayət edəcək qədər olmamışdır. Bu səbəbdən, bu gün bazar iqtisadiyyatının tələbləri qarşısında aciz qalmışdır. Azərbaycan elminin düşmüş olduğu bu hal, yuxarıdakı qanuna uyğun təbii hallarla anormallıq təşkil edir. Odur ki, elm, dövrün /açıq bazar iqtisadiyyatının/ tələblərinə uyğun, özünü doğrultması üçün düşmüş olduğu ətalət və yarımçıqlıq halından çıxarılıb, iqtisadiyyatla bağlı istiqamətlərdə və mütləq olaraq, çevik hərəkətə gətirilməlidir, yəni əsaslı islahatlara uğradılmalıdır: iqtisadiyyatın aparıcı sahələrinin inkişafı əsas tutulmaqla, elm potensialının fəaliyyəti yenidən qurulmalıdır, o cümlədən, özəl sektorda elmi fəaliyyətin / xüsusilə də intellektual sahibkarlığın/ formalaşmasına – yaranması və inkişafına xüsusi diqqət yetirilməlidir.

Keçmişin çətinliklərini qeyd edərkən, unutmamalıyıq ki, Azərbaycan elmi, bu gün, həm də daha güclü maliyyə çətinlikləri ilə üzləşib.

Bütün bunların nəticəsidir ki, bu gün, Azərbaycan elmini alışıb yanmaq üçün alışqana möhtac olan ocağa bənzətmək olar. Bu alışqan isə maliyyə vəsaitləridir. Elə bu tələbin özü Azərbaycan elminin düşmüş olduğu vəziyyəti yuxarıdakı hallardan fərqləndirir. Əgər normal halda maliyyə vəsaiti bilavasitə elmi fəaliyyətin inkişaf etdirilməsinə sərf olunursa, bizim halda, əvvəlcə, onun yenidən qurulmasına sərf olunmalıdır. İstər-istəməz bu izafi xərcləri çəkməyə məcburuq. Bu keçid dövrünü mümkün qədər azaltmaq üçün isə elmi fəaliyyətin düzgün yola qoyulması işləri – elm-istehsalat əlaqə-

lərinin formalaşdırılması, layihə və proqramların hazırlanması yenidən qurulmaya paralel görülməlidir.

İqtisadiyyatın pozulmuş olduğu və dövlətin maliyyə imkanlarının çox məhdud olduğu bir şəraitdə, elmi fəaliyyəti maliyyələşdirmək məqsədilə, ölkə daxilində maliyyə vəsaitlərinin toplanması yolları kimi aşağıdakıları təklif edirik:

1.DETK – dövlətin vahid elm siyasətini müəyyənləşdirən və həyata keçirən mərkəzi dövlət orqanı olaraq, öz kollegiyasında, respublikanın bütün iqtisadi sahələrinin yüksək səviyyədə təmsil olunduğunu nəzərə alaraq, İqtisadiyyat Nazirliyi ilə birlikdə, elmi fəaliyyətin yenidən qurulması yollarını müəyyənləşdirir. Bu səbəbdən, DETK tabeliyində və ya müstəqil olan "Azərbaycan Respublikası Elmin Müdafiə Fondu" (AEMF) təşkilatı yaradılması qərarlaşdırılır və yolları açıqlanır. Respublikada qeydə alınmış bütün istehsalçı müəssisələr Fondun üzvlüyünə qəbul olunmalıdırlar.

2.DETK öz fəaliyyəti əsasında qazandığı /hazırda patent- lisenziya fəaliyyətindən / maliyyə vəsaitini bütövlükdə "AEMF"-na köçürülür.

3.Sektorundan, fəaliyyət növündən, yerli və ya xarici ölkədən gəlməsindən asılı olmayaraq, hər bir sahibkarın /müəssisənin/ gəlirinin (1 – 3) faizini respublikada elmin inkişaf etdirilməsi məqsədilə ayırması və onu Fondun hesabına köçürməsi /gələcəkdə Fondun imkanlarından güzəştli istifadə etmək səlahiyyətləri olmaqla/ dövlət qanunu olaraq qəbul olunur.

Dövlətin vergi və rüsum siyasətləri dövlət və özəl sektorun hər ikisini EMF-də maraqlı etməlidir.

4.Hər bir elm müəssisəsi və istehsalçı sahibkar elmi-texniki nəticələrin tətbiqindən gələn gəlirinin 5 %-ni, bir il müddətinə, Fondun hesabına köçürür. O da yeni layihə və proqramların yerinə yetirilməsinə və ya xarici ölkə lisenziyalarının alınmasına sərf olunur.

5.Sektorundan, fəaliyyət növündən, yerli və ya xarici olmasından asılı olmayaraq, hər bir təşəbbüskar, dünya standartlarına cavab verən, respublika iqtisadiyyatı ilə bağlı layihələrini "EMF"–in vəsaitləri hesabına maliyyələşdirmək üçün təqdim edə bilərlər.

6."EMF" vəsaitlərini üzvlərinə kredit formasında, lakin faizsiz buraxır.

7."EMF" respublikada fəaliyyət göstərən milli və beynəlxalq bankları /fondları/ öz məqsədləri üzrə cəlb edir və s.

Elmə edilən yardım dövlətə edilən yardımdır, Dövlətə edilən yardım xalqa, millətə edilən yardımdır!

3.10. Təhsil sisteminin humanistləşdirilməsi və demokratikləşməsi haqqında

Azərbaycan Respublikasının prezidenti H.Əliyev cənablarının təhsil sistemi qarşısında qoymuş olduğu "Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir" tələbi Azərbaycan dövlətinin təhsilə verdiyi yüksək qiymətin təzahürüdür. Eləcə də təhsilin ölkəmizin inkişafında necə mühüm yer tutduğuna işarədir, inkişafın strategiyasını müəyyənləşdirir, təhsil işçilərinin dövlət və millət qarşısında məsuliyyətini daha da artırır.

İndi gəlin görək Azərbaycan Respublikasında fəaliyyətdə olan təhsil sistemimiz bu tələbi ödəyə bilirmi və ya planlaşdırılan islahatlar bu tələbi ödəyə biləcəkmi? Hansı islahatların həyata keçirilməsi ilə məqsədimizə çatmış olarıq?

Əvvəlcə islahat nəyə əsaslanmalı və nədən başlamalıdır sualına cavab tapmağa çalışaq. Biz hesab edirik ki, təşkilati quruluşun dəyişilməsindən irəli gələn təhsil üsullarının dəyişdirilməsi yox, təhsil üsulunun həyata keçirilməsi üçün tələb olunan təşkilati quruluş həyata keçirilməlidir.

Məlumdur ki, hər bir ölkənin intellektual potensialının güclənməsinə və yaradıcı şəxsiyyətlərin tərbiyə olunmasına yönəlmiş ümumi dövlət proqramının hazırlanıb həyata keçirilməsinə daima böyük ehtiyac olmuşdur və qeyd edildiyi kimi bu gün də vardır. Müstəqil dövlətimizin yaranması və onun götürdüyü kursun (bazar iqtisadiyyatına keçid) tələbləri (elm - istehsalat əlaqələrinin mütləqliyi) bu ehtiyacları qat-qat artırmış və onların ödənməsini mütləqləşdirmişdir.

Bununla yanaşı (qloballaşma da daxil olmaqla) yaranmış şərait bu ehtiyacların ödənməsi istiqamətində böyük imkanlar ortaya qoymuşdur. Odur ki, ümumilikdə dövlətin inkişafında təhsilin rolunu nəzərə alaraq, deyə bilərik ki, təhsilin dövrün tələbinə uyğun təşkil olunmasını nəzərdə tutan ümumdövlət proqramının tərtib olunması mühüm əhəmiyyət kəsb edir.

Bu (tələb) isə xüsusi istedadlı uşaqların və şagirdlərin aşkarlanması və inkişaf etdirilmələri ilə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, bu məsələlər hələ keçmiş Sovet dövlətinin son illərində yüksək dövlət səviyyələrində ortaya qoyulmuşdur, uşaqların və şagirdlərin yaradıcı imkanlarının inkişaf etdirilməsində diferensial təhsilin roluna xüsusi diqqət yetirilmişdir [17].

Müstəqillik dövrünə qədər Azərbaycan Respublikasında keçmiş SSRİ-nin bir tərkib hissəsi kimi təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində dəfələrlə cəhdlər göstərilib və bir çox yeniliklər həyata keçirilmişdir. Bu dəyişikliklərin mahiyyətinə, üsul və effektivliyinə gəldikdə bunu elə (1) sənədinin tələblərinə diqqət yetirməklə müəyyənləşdirə bilərik.

Əvvəlcədən deyək ki, Azərbaycan Respublikasında bu gün də bu sənədin təsiri hiss olunmaqdadır.

Sənədin giriş hissəsində deyilir ki, ölkədə istedadlı gənclərlə iş sahəsində xeyli təcrübə toplanmışdır. Uzun illərdir ki şagirdlərin istedadlığının ekspertizası olaraq müxtəlif növ olimpiadalar, turnirlər keçirilir, şagirdlərin elmi cəmiyyətləri, konfranslar, sərgilər, yay məktəbləri və düşərgələr təşkil olunur. Diferensial təhsil ixtisaslaşmış məktəblərdə və internat-məktəblərdə geniş istifadə olunur. Elm, elm-texnika və bədii yaradıcılıq üzrə regional mərkəzlər və ictimai laboratoriyalar yaradılır. Kütləvi informasiya vasitələrində tez-tez istedadlı (uşaqların) gənclərin inkişaf problemləri müzakirə olunur.

Bununla belə sənəddə qeyd olunur ki, müxtəlif idarə və ictimai təşkilatların istedadlı (uşaqların) gənclərin axtarılması və inkişafına yönəlmiş işləri tamamilə sistemsiz xarakterdədir. Xalq təhsili orqanları yaradıcı ittifaqların nümayəndələrini-yazıçıları, rəssamları, yaradıcı intelligensiyanı - istedadlı uşaqlarla işləməyə az cəlb edirlər. İxti-

saslaşmış məktəblərin məzunlarının taleyinə, demək olar ki, az diqqət yetirilir. Praktiki olaraq mərkəzlər istedadlı (uşaqların) gənclərin yaradıcı potensialını aşkarlayacaq və inkişafını təmin edəcək fundamental-psixoloji və sosioloji tədqiqatlara söykənməyən, empirik əsaslarda işləyirlər. Bu günə kimi elə bir uzunmüddətli elmi-praktiki tədqiqatlar aparılmayıb ki, onun əsasında istedadlı (uşaqların) gənclərin 10-20 ildən sonrakı inkişaf perspektivləri göstərilmiş olsun.

Bütün bu çatışmazlıqları nəzərə alaraq keçmiş SSRİ Təhsil nazirliyinin kollegiyası 17 bənddən ibarət qərar qəbul etmişdi. Bu qərarın üzərində dayanmadan belə düşünürük ki, yuxarıda qeyd olunanlardan göründüyü kimi qərarın bütün göstərişləri istedadlı uşaqlarla işin ikinci dərəcəli məsələlərini əhatə edirlər və bunlar dərsdənkənar təhsilə aid olunur. Əlbəttə bütün tədbirlər diqqətə layiq işlərdi. Şagirdlərin məktəbdə aldığı bilik səviyyəsinin aşkarlanması və inkişaf etdirilməsi üçün əyani üsullar kimi qiymətləndirilməlidir. Bütün bunlarla yanaşı, bu tədbirlər, əfsuslar olsun ki, heç də istedadlı uşaqların və şagirdlərin, təbii olaraq, aşkarlanması və inkişafına birbaşa xidmət etmir.

Biz hesab edirik ki, bu işlərin bünövrəsi və inkişafı bilavasitə dərs prosesində qoyulur, o cümlədən, verilən biliklərin şagirdlərin qavrama qabiliyyətinə uyğun olmasında və davamlı olaraq dərinləşdirilməsi ilə nəticələnən dərslərin necə təşkil olunmasında qoyulur. Biz bunu birinci dərəcəli məsələ kimi qiymətləndiririk və hesab edirik ki, bu iş kütləvi xarakter daşımalıdır, yəni bütün orta məktəbləri əhatə edə bilmək imkanında olmalıdır. Eyni zamanda müasir dövrün tələblərinə uyğun olaraq şagirdlərə nəyin və necə öyrədilməsinə xüsusi diqqət yetirilməlidir. Unutmayaq ki, təhsil milli və strateji problemdir.

Biz qoyulmuş tələbləri ödəyə biləcək təhsilin təşkil olunması barədə öz iş üsulumuzu təklif edirik. Bizim bu təklifimiz «Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi» adı altında 1994-cü ildə təhsil nazirliyində yüksək səviyyədə müzakirə olunmuşdur və eyni zamanda 20 avqust 1995-ci ildə "Maarifçi" qəzetində dərc etdirdiyimiz "Gənc istedadları necə tapaq" məqaləsində öz əksini tap-

mışdır [18]. 1996-cı ildə bu tədris üsulumuzu (bir məktəbdə bir fənn üzrə olmuş olsa da) tətbiq edə bilmək üçün maliyyə imkanı əldə etmək ümidi ilə Azərbaycan Açıq Cəmiyyət İnstitutuna (Soros fonduna) müraciət olunmuşdur. Layihə ilkin mərhələdə qəbul olunsa da, sonrakı mərhələdə - "daha geniş yazmaq" tələbindən sonra "hələlik elm üçün nəzərdə tutulan vəsaitin olmaması" səbəbindən qəbul olunmamışdır.

Bizim bu məsələyə yenidən qayıtmağımızın səbəbi Azərbaycan Respublikası Təhsil Naziri M. Mərdanovun 2001-ci ildə ABŞ-nın təhsil sistemi ilə tanış olmaq məqsədi ilə etdiyi səfərdən sonra "Respublika" qəzetinə verdiyi müsahibəsi olmuşdur. O, bu müsahibəsində ABŞ orta məktəblərində tədrisin təşkili haqqında müşahidələrini belə açıqlamışdır ki, orada sinif-dərs sistemindən, fənn-dərs sisteminə (bütün ölkə üzrə) keçilmişdir. Hər bir şagirdin meyl, maraq və qabiliyyətinə uyğun olaraq fərdi tədris planı tərtib olunur. Eyni dərs saatında konkret sinifdə müxtəlif səviyyəli proqramlar əsasında eyni bir fənn tədris olunur. Məsələn, 9-cu sinifdə 700 şagird (20-25) sinif otağında tarix fənnini, 10-cu sinifdə 700 şagird (20-25) sinif otağında riyaziyyat fənnini keçirlər. Öz hazırlıq səviyyəsinə uyğun olaraq şagirdlər ingilis dili dərsində bir qrup həmyaşıdları ilə, tarix fənnindən isə başqa qrup həmyaşıdları ilə təhsil alırlar. Qətiyyətlə demək olar ki, ABŞ-da olduğumuz orta məktəblərdə təhsilin diferensiallaşdırılması və fərdiləşdirilməsi prinsipləri böyük müvəffəqiyyətlə həyata keçirilir.

Əgər diqqət yetirilərsə müsahibədə söylənilən bu təəssüratların bizim 20 avqust 1995-ci il tarixdə "Maarifçi" qəzetində çap elətdirdiyimiz "Gənc istedadları necə tapaq" məqaləsində irəli sürdüyümüz təkliflərlə necə üst-üstə düşdüyünü görə bilərik. Bu məqalədə biz mövcud təhsil sistemimizə öz münasibətimizi bildirəndən sonra yazmışdıq ki, əgər hər bir fənn üzrə eyni bilik səviyyəsində olan şagirdlərin bir sinfə toplanmasına üstünlük verilərsə, onda mövcud olan bu xoşagəlməz hallar aradan qaldırılar. Yüksək səviyyəli siniflərdə müəllimlərin proqramdan əlavə məlumatlarla dərsi təşkil etməsi imkanları zərurəti də yaranar. Başqa sözlə bu gün artıq ABŞ - da həyata keçirilənlər bizdə də söylənilmişdir. Əfsuslar olsun

ki, biganəlik özünü bu işdə də göstərmişdir.

Biz hesab edirik ki, son on ildə təhsildə fərdi yanaşma adı altında baş alıb gedən çox saylı tədris üsullarının tətbiqinə aludə olmaqla təhsilimizdə ancaq çaşqınlıqlar yaradırıq.

Yeri gəlmişkən, təklif olunan tədris üsulu şagirdlərin qavrama qabiliyyətlərinin aktiv diferensiasiyasını və zamanca dəyişkənliyini də nəzərə alır.

Qeydlər: 1. Bizim hazırladığımız layihənin həyata keçirilməsi üçün orta məktəblərdə tələb olunan islahat (əgər belə demək olarsa), əsasən, bundan ibarətdir ki, məktəb üzrə 6-cı sinifdən 11-ci sinfə qədər) dərslərin və müəllimlərin iş saatlarının toqquşmamağı məqsədi ilə, dərs cədvəlləri aşağıdakı qaydaya uyğun olaraq tərtib olunmalıdır:

- 6-cı və 11-ci siniflərdən hər hansı birinin(məsələn, 11-ci siniflərin) həftəlik vahid dərs cədvəli ixtiyari formada tərtib olunur. Digər sinfin (məsələn, 10-cu sinfin) gündəlik dərs cədvəli 11-ci sinfin gündəlik dərs cədvəlinə nəzərən bir dərs sürüşdürülməklə tərtib olunur. Eləcə də 9-cu sinfin gündəlik dərs cədvəli 10-cu sinfin gündəlik dərs cədvəlinə nəzərən bir dərs sürüşdürülməklə hazırlanır və bu qayda ilə digər (8, 7, 6) siniflərin dərs cədvəlləri tərtib olunur.

Nəzərə alınmalıdır ki, bu yolla eyni saatda 11-ci siniflərin hamısında eyni fənn tədris olunmalıdır, o cümlədən, digər eyni (10, 9, 8, 7 və 6) siniflərin hamısında ayrı-ayrılıqda eyni saatda eyni fənn tədris olunmalıdır.

2. Ola bilər ki, hər hansı bir fəndən heç bir şagird birinci kateqoriyanın tələblərinə cavab verə bilməsin, bu halda həmin fənn üzrə 1-ci kateqoriyalı sinif olmayacaqdır. Bu hal isə məktəbin səviyyəsinin göstəricisi olacaqdır.

3. Siniflərin yeni üsulla formalaşmasına keçid sxemi:

Olan siniflər:



Kateqoriyalı yeni siniflər

4.Şagirdlərin biliklərinin subyektiv qiymətləndirilməsinə və son vaxtlar geniş yayılmış subyektiv təhsilə yol vermək olmaz.

IV BÖLÜM

ELMLƏ BAĞLI DÜŞÜNCƏLƏR VƏ DEYİMLƏR

4.1. Elm haqqında

1.Elm siyasəti əsaslandırmalıdır. /M.Ə.Rəsulzadə/.
2.Əməlsiz elm, elmsiz əməl bir heçdir /N. Tusi , X11 əsr/
3. Praktika nəzəriyyənin doğruluğunun təsdiqidir.
4. Hər kim ki, xalqını elmə sahib edəcəkdir,
Öz ölkəsində qan izini yox edəcəkdir.
/H.Cavidin uygun sualı haqda düşünərkən/

5.1870-ci ildə Yaponiya imperatorunun içdiyi and: "Yapon imperatorluğunun böyüklüyünə xidmət etmək məqsədi ilə, bizim səlahiyyətlərimizdə olan bütün imkanlarla bütün mənbələrdən bilikləri axtarmaq və əldə etmək zəruridir."

6. Pakistan fiziki Nobel mükafatı laureatı Abdus Salam 3-cü dünya ölkələrinə müraciət edərək demişdir: bizim 3-cü dünya hakimlərindən hansı biri 1870-ci ildə Yaponiya imperatorunun elmi inkişaf etdirməklə bağlı içdiyi andı təkrarlamışdır?

7.Elm, insanın, primitiv formada da olsa, öz əməyini yüngülləşdirmək üçün ağlını işlətdiyi dövrdən başlayır. Canlılar sistemində insan adlananlar /yaradılmışların alisi / digərlərindən özlərinin beyin quruluşunun imkanları ilə kəskin fərqlənmişlər. Bu fərqin nəticəsidir ki, insanların ətraf mühitə reaksiyası, əməyinin nəticəsini dərk edib, onu təkrar edə-edə təkmilləşdirməsi mümkün olmuşdur ki, bu da onların hərəkətlərini digər canlılarınkından əsaslı fərqləndirmişdir.

8.İnqilabı hazırlayanlar dahilər, İnqilabı edənlər fanatiklər, İnqilabın nəticəsindən bəhrələnənlər «siyasətçilər»dir.

9.Elm insanlar üçün həyatın tələbidir, həyat isə yaşamaq deməkdir.

10.Elmi fəaliyyətin və nəticələrinin kütləviləşməsi bəşəriyyətin xilasıdır.

4.2. Elmi fəaliyyətin təşkili haqqında

1.Elmin hər hansı bir ölkədəki tarixi elmin ümumi inkişaf tarixindən fərqlənir. Elmin ümumi tarixi, tarixən yaşamış və yaşayan bütün xalqların əqli zəhmətinin məhsuludur. Bir cəmiyyətin elm tarixi, birqiymətli olaraq, ümumiyyətlə cəmiyyətin elm tarixi ola bilməz, belə ki, bəzi tarixi hadisələr bu və ya digər cəmiyyətin geriyə getməsinə və ya uzun illər boyu durğunluğuna səbəb olublar ki, bu da öz növbəsində həmin ölkədə elmin inkişafını dayandırıb. Məsələn, elmin inkişaf tapmış olduğu hər hansı bir ölkənin, bu və ya digər səbəbdən, müstəmləkəyə çevrilməsi ilə bu ölkədə elmin inkişafı dayanıb, bəzən də məhv edilib. Lakin bu elmi fəaliyyətin bütövlükdə sıradan çıxması olmamışdır, elmi fəaliyyət daima, başqa ölkələrdə, vərəsəlik prinsipinə sadiq qalaraq, irəliyə doğru inkişaf etmişdir. Azərbaycan Respublikasında elmin tarixi bu baxımdan istisna təşkil etmir.

Azərbaycan Respublikasında elmi fəaliyyətin tarixini aşağıdakı dövrlərlə xarakterizə etmək olar:

1.1.Azərbaycanın parçalanmasına qədər olan dövr;

1.2.Quzey Azərbaycanın çar Rusiyasının tabeliyində olduğu dövr;

1.3.Azərbaycan Demokratik Cümhuriyyəti dövrü;

1.4. Sovet dövrü;

1.5.Müstəqil Azərbaycan Respublikası dövrü – Yaşadığımız dövr. Bu dövr iki mərhələdən ibarətdir:

1.5.1. 09.1991-:-08.1993 illər;

1.5.2. 08.1993 –cü il tarixdən bu günə kimi olan dövr.

Bu dövrlərdən 1.5. bəndinə aid olanlar haqqında:

-1992-ci ilin oktyabr ayında Prezident aparatı yanında Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası təsis olunmuşdur.

-1993-cü ilin yanvar ayında Xüsusi Maşınqayırma və Konversiya Komitəsi yaradıldı. Keçmişdə ittifaq tabeliyində olmuş bütün müəssisələr bu Komitəyə tabe edildi və onların fəaliyyəti mühari-

bənin tələblərini ödəməyə yönəldildi. Elmi layihələrin işlənməsi və maliyyələşməsinin təşkili məqsədi ilə Komitədə Dövlət Komissiyası yaradıldı.

-1993-cü ilin fevral ayında Azərbaycan Respublikasında elmi fəaliyyəti koordinasiya etmək məqsədilə Dövlət Elm və Texnika Komitəsi (DETK) və elmi fəaliyyətin çevikliyini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin yanında Elm üzrə Dövlət Müşaviri vəzifəsi yaradıldı. Komitə tərkibində Elmi Şuralar yaradıldı və onlar da elmi istiqamətləri müəyyənləşdirdilər. Şuralarda elmi layihələr hazırlanıb, maliyyələşmə məsələlərinin həll olunması üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Bundan sonra DETK mövcud olduğu 9 il ərzində heç bir əsaslı fəaliyyət göstərmədi, 27 dekabr 2001- ci ildə ləğv olundu, əsas səlahiyyətləri heç bir təşkilata həvalə olunmadı.

2. Elmi-tədqiqat işlərinin qiymətləndirilməsinin yeni–Avropa standartlarında göstəricilər sisteminə keçidi bazar iqtisadiyyatının tələbidir. Biz hələlik bu tələbi ödəyə bilməmişik. Bunsuz bazar iqtisadiyyatına keçən ölkələrdə elmi fəaliyyət mənasını da itirə bilər.

3.Bazar iqtisadiyyatı çox mürəkkəb və sərt bir sistemdir, ciddilik, həssaslıq, məsuliyyət tələb edir. Bununla belə o, bu gün, rəqabətə söykənən azad cəmiyyətin ən optimal inkişaf yoludur. Bazar iqtisadiyyatını belə səviyyəyə qaldıran onun, ən əvvəl və əsasən, elmə söykənməsidir. Elm kənara qoyulsa, bazar iqtisadiyyatı, demək olar ki, mənasını itirər. Bunu bazar iqtisadiyyatının digər elementləri haqda, bu tərzdə demək olmaz. Elmin iqtisadi inkişafa təsiri o qədər güclüdür ki, əgər Sovet dövlətində elmi fəaliyyət bütöv olaraq (elm-istehsal bağlılığı gözlənməklə) təşkil olunmuş olsaydı, çox güman ki, Sovet dövləti bu gün də fəaliyyət göstərərdi.

Bazar iqtisadiyyatı şəraitində elm daha effektlidir.

Bir də bazar iqtisadiyyatının özü də elmi fəaliyyətin məhsuludur– vəhdətdədirlər.

4.Elm başda olmaqla, ölkə ərazisinin əsas iqtisadi istiqamətləri ölkə iqtisadiyyatının üstün istiqamətləri olmalıdırlar /Bununla

belə unutmayaq ki, kənd təsərrüfatı və onun məhsullarının emalı hər inkişaf etmiş dövlətdə öndə durur/.

5.Elmin inkişaf etməsinin kriteriyaları arasında elm-istehsal əlaqəsi ən əsasdır.

6.Elmi fəaliyyət, ilk əvvəl, həyatda insanların rastlaşmış olduqları problemlərin səbəb və həlli yollarını kor–təbii /sistemsiz/ olaraq, öyrənmələri ilə başlamış, sonralar isə bu işlə daima məşğul olan /daha sonralar alimlər adlanan/ insanlar formalaşmış və onlar da insan həyatını qabaqlayan fəaliyyətlər göstərərək cəmiyyəti bu günə gətirib çıxarmışlar.

7. Fərabi, İbn Sina, Nəsirəddin Tusi .... kimi dahi alimlərin gördükdəri işlərlə tanış olan hər kəs, istər-istəməz, bir-sıra suallar çoxluğu içində çaşıb qalır. Məsələn, necə oldu ki, bu böyük dahiləri yetişdirən Yaxın Şərq ölkələri zaman keçdikcə nəinki bu dahi alimlərin məktəbini itirdi, hətta onların qoyub getdikləri elm də unuduldu. Onların işlərini mənimsəyən Avropa ölkələri elmi inkişafa doğru böyük sıçrayışlar etdilər, lakin öz vətənləri qoyub getdikləri günlərdən də geri qaldı.

Görünür elmi fəaliyyətin təşkilat mexanizmi sistemləşməmişdi. Nəzərə alaq ki, bu günün özündə elmi fəaliyyətin ardıcıllığı gözlənilməyən ölkələr, nəinki elmi, həm də iqtisadi cəhətdən kəskin geriləyirlər.

8.Bazar iqtisadiyyatına keçid dövrü müddətində elmi fəaliyyətin təşkili yolları:

-Respublika iqtisadiyyatının üstün istiqamətlərini əks etdirən Dövlət İqtisadi Proqramlarının /DİP/ tərtib olunmasında uyğun elm ictimaiyyətlərinin birgə iştirakının təşkili;

-DİP–lər əsasında respublikada elmin üstün istiqamətlərinin müəyyənləşdirilməsi; Bununla əlaqədar olaraq:

-Elm müəssisələrinin yenidən təşkili;

-Elm sahəsində uyğun kadrların hazırlanması;

-Elmi fəaliyət sahəsində xarici dövlətlərlə əməkdaşlıq;

-MDB ölkələri ilə elmi əlaqələrin bərpası;

-Yaxın qonşu ölkələrlə birgə elmi fəaliyyət;

-Qərbi Avropa və Asiya ölkələri ilə birgə elmi fəaliyyətin istiqamətləri;

-Azərbaycanda elmi fəaliyyət sahələrində özəl sektorun yaradılmasına yardım göstərilməsi;

-Alim və mütəxəssislərimizin, müstəqil olaraq, özəl sektorda və xarici ölkələrdə elmi fəaliyyət göstərmələri;

- Elmi-texniki layihələrin işlənməsi və nəticələrin tətbiqində özəl sektorun maraqlı olması üçün dövlət tədbirlərinin işlənməsi.

-Respublikanın problemlərinin elmi əsaslarda sistemləşdirilməsi və s. məsələlər həllini tapmalıdır.

9.Tədqiqatların nəticələri ancaq elmi əsərlər, hesabatlar ilə qurtarmamalı /köhnə düşüncə tərzinin əksinə olaraq/, özünü maddi nemətlərin istehsalında və s. tətbiq sahələrində tapmalıdır.

10.İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi tədbirləri elmin davamlı olaraq inkişafına əsaslanmalıdır /Dövlətçilik prinsipi tələb edir ki, yeraltı faydalı qazıntıların istismarı və emalı optimallaşdırılsın/.

11.Respublikanı keyfiyyətcə yeni inkişaf səviyyəsinə qaldırmaq üzrə dövlətin özəl sektoru da əhatə edən uzun müddətli milli elmi siyasət proqramı olmalıdır.

12.Respublikada əldə olunmuş, lakin istehsalatda mənimsənilməmiş, ilk növbədə, dünya praktikasında analoqu olmayan yeni avadanlıqlar, texnologiyalar material və məhsulların yaradılmasına imkan verən, iri elmi tədqiqatların təftişi aparılmalı və bunlar əsasında dövlət proqramı tərtib olunmalıdır.

13.Xüsusi təyinatlı elmi-texniki məhsulun yaradılmasına dövlət sifarişləri olmalıdır.

14.Elmi fəaliyyətin effektivliyi iki miqyasda müəyyən olunmalıdır:

1) bütövlükdə – müəssisə üzrə elmi fəaliyyətə çəkilən ümumi xərcə, sərf olunan zamana və yerinə yetirilən işlərin ümumi sayına görə;

2) ayrı-ayrı işlərə ayrılan vəsaitə və zamana görə.

Bu işlərdən gələn real gəlirlə çəkilən xərclərin müqayisəsindən, müntəzəm olaraq, ayrı-ayrı işlər daxil, elmi fəaliyyətin effektivliyi hesablanır.

15.Nicatımız budur: zülməti işıq qovduğu kimi, yalnız bilik və birliklə nadanlığı məhv edib, "mənəvi şikəstləri" öyrədə-öyrədə, özümüz də öyrənə-öyrənə, amma xalqa qəbahət və xəyanət etmədən / Bəhruz Dilbazi – deputatlığa namizəd, seçgidən sonra/ iqtisadi /eləcə də hərbi/ təhlükəsizliyimizi təmin edək.

16.Müasir elmi fəaliyyətin dövlət tərəfindən təşkili ilk dəfə keçmiş SSRİ–də həyata keçirilsə də, o, iqtisadiyyatdan əvvəl siyasətə tabe olunduğundan /sərt proqrama tabe etdirildiyindən/, inkişafını həyatın tələbinə uyğun tapa bilməmiş və ya yubanmışdır.

17.Bazar iqtisadiyyatının ortaya qoyduğu marketinqin elmi bölmələri - istehlakçının ehtiyaclarının aşkar olunması, münasib əmtəələrin hazırlanması və onlara uyğun qiymətlərin qoyulması, onların bölüşdürülməsi sisteminin təşkili və stimullaşdırılması. Əgər bu bölmələr üzərində yaxşı çalışılıbsa, belə mallar, əlbəttə ki, asanlıqla satılacaqdır.

18.Dövlətin elm üzrə koordinator təşkilatı respublikada elmi fəaliyyətə nəzarəti həyata keçirir, yerlərdə elmin inkişafı fondunun yaradılması və icrasına nəzarət edir. Layihə yerinə yetirilərkən, maliyyə pozuntuları və ya elmi problemin istehsalata çıxmayacağı aydınlaşdıqda, koordinator təşkilatın layihələrin maliyyələşməsini dayandırmaq hüququ olmalıdır.

19.DETK mərkəzi dövlət idarəsi, onun sədri isə Azərbaycan Respublikası Prezidentinin elm üzrə müşaviri səlahiyyətində olmalıdır.

20.Elm-istehsalat əlaqələrinin keyfiyyəti iqtisadi təhlükəsizliyi təmin edən əsas faktorlardan biridir. Məlumdur ki, təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərin istehsal potensialının azaldılması təhlükəsini yaradan və ya milli iqtisadi maraqların həyata keçirilməsinə mane olan şərtlər yığımı iqtisadi təhlükəsizliyi müəyyənləşdirir.

Elm tutumlu yüksək texnoloji istehsalın iqtisadi təhlükəsizliyi, ilk növbədə, qiymətləndirilməlidir. Bu ona görə lazımdır ki, bu istehsal sahələrinin potensialları ölkənin iqtisadi müstəqilliyi və təhlükəsizliyi üçün qarantdır. Görünür elə bu səbəbdəndir ki, elm tutumlu istehsalların iqtisadi təhlükəsizliyi daim qorxu altında olur. Bu da elm tutumlu istehsalların inkişafına əks təsir edən faktorları aşkar etmək üçün monitorinq keçirməyi tələb edir.

21.«Respublikanı keyfiyyətcə yeni inkişaf səviyyəsinə qaldırmaq üzrə əsas milli siyasət proqramı»nda elm siyasəti öz layiqli yerini tutmalıdır.

22.Dövlət sektoru strateji əhəmiyyətli işləri ilə öz fəaliyyətini davam etdirir, özəl sektor, dövlətin köməyi ilə formalaşır, inkişaf edir, sonra açıq rəqabətə girişir.

23."Respublika iqtisadiyyatının stabilləşdirilməsi /tənəzzülünün dayandırılması/ və inkişafı üzrə elmi-texniki siyasət" proqramının hazırlanması və həyata keçirilməsi bazar iqtisadiyyatının tələbidir.

24.İstehsal müəssisələrində elmi – texniki tədqiqatların nəticələrinin maddiləşməsindən əldə olunan gəlirin qanunla müəyyən olunan faizi müəyyən dövr ərzində tədqiqatçı müəssisəyə köçürülür. Elmi – texniki layihə tətbiqini tapmadıqda cavabdeh icraçı müəssisə qanunla məsuliyyət daşımalıdır.

Elm müəssisələri gəlirlə işləyən müəssisələrə çevrilməlidirlər, bir də ona görə ki, daxili imkanları hesabına "giriş" tədqiqatları aparmaları mümkün olsun.

25.Elm müəssisələri elə təşkil olunmalıdırlar ki, hər bir tədqiqatçının istehsalata yaxınlaşması maksimum mümkün olsun, mütəxəssislərin seçilməsi problemin həlli müddətinə aparılsın.

26.Elmlərin üfüqi müstəvi üzərində inkişaf etdirilməsindən əvvəl şaquli istiqamətdə inkişaf etdirilməsinə diqqət yetirilməlidir ki, elm xalq təsərrüfatının inkişaf etdirilməsində özünə layiq yer tutsun. Aydın məsələdir ki, yeni iqtisadi siyasət dövründə müstəqil Azərbaycan miqyasında köhnə qaydada elmi fəaliyyətin, əsasən, üfüqi müstəvi üzrə yayılmasına yol verilə bilməz və verilməməlidir.

27.Respublikada bu günə kimi elm siyasətinin formalaşmaması və ya tam fəaliyyət göstərə bilməməsi imkan verir deyək ki, DETK daxil olduğu sistemin-ölkənin elm və istehsalat müəssisələrini və eləcə də bir-sıra dövlət qurumlarını birləşdirən çox böyük bir sistemin üzvləri arasında qarşılıqlı əks əlaqənin yaradılmasını təmin edə bilməmişdir.

28.Özəl tədris və istehsal müəssisələrində, qanunların yaradılması və icrasına nəzarət səviyyəsində, elmi fəaliyyətin təşkili həm də dövlətin işidir. Bununla o, öz yükünü xeyli azaldacaq.

29.DETK-nın İqtisadi İnkişaf Nazirliyi və onun xətti ilə Hərbi Sənaye Nazirliyi arası əlaqənin mexanizmi digər mərkəzi dövlət qurumları ilə olan əlaqələrindən öz xüsusiliyi ilə fərqlənir. Odur ki, dövlətin uyğun iqtisadi proqramlarının tərtibində DETK-nın iştirakı qaydaları müəyyənləşdirilməlidir.

30.Respublikada kadrların hazırlanması dövlətin perspektiv iqtisadi və elm proqramlarına uyğun aparılmalıdır.

31.Əldə olunmuş elmi nəticələrin təcrübi nümunələrinin dünya standartlarına uyğun hazırlanması və istehsalata tətbiq olunması məqsədilə, dövlətin və özəl sektorun, ali təhsil müəssisələrinin və s. səylərini birləşdirməklə, müasir avadanlıqlarla təmin olunmuş elm – istehsalat müəssisələri yaradılmalıdır. Bu məqsədlə, dövlət və özəl sektorun əlaqə imkanlarından istifadə edib, tədqiqatçılarımızın Azərbaycan Respublikasının qoşulmuş olduğu beynəlxalq iqtisadi birliklərlə birgə işlərin aparılmasına cəlb olunmaları faydalı olar.

32.Respublikadakı istehsal müəssisələrinin təcrübə sahələrinin mövzulara uyğun olaraq, DETK ilə əlaqələndirilməsi və onun forması dövlət səviyyəsində həllini tapmalıdır.

33.Bazar iqtisadiyyatı şəraitində elm müəssisələrinin kateqoriyalara ayrılmasına ehtiyac qalmır.

34.Elmi-tədqiqat və ali təhsil müəssisələrinin və onlarda çalışan alimlərin işlərinin səmərəliliyini təmin etmək məqsədilə onların əlaqələrinin möhkəmləndirilməsi vacibdir:

-Ali təhsil müəssisələrinin güclü kadrları tədqiqat müəssisələrinin imkanlarından istifadə etmək imkanı əldə edərlər, avadanlıqlardan istifadənin səmərəliliyi artar;

-Elm tədqiqat müəssisələrinin kadrları da tədris prosesinə cəlb olunarlar ki, bu da tələbələrin təhsilinə təsir göstərər.

35.Sovet dövrü də daxil olmaqla istehsal müəssisələrimizdə tətbiq olunmuş elmi – texniki nailiyyətlərin /əsasən milli/ sayını müəyyən etsək, görərik ki, indiki dövrdə istehsal müəssisələrinin bir–birinin ardınca işini dayandırması ona görə baş verir ki, onlar elmi texniki nailiyyətləri, demək olar ki, tətbiq etməyiblər və bu gün də etmirlər.

36.İqtisadiyyatın bütün sahələrində yarımçıq texnologiyalardan yaxa qurtarmaq lazımdır, əsasən, kənd təsərrüfatında.

37.İqtisadiyyatın təşkili, idarə olunması və planlaşdırılması işi elmi fəaliyyətin təşkili, idarə olunması və planlaşdırılması işindən ayrı öyrənilə bilməz və əksinə. Elm istehsala etdiyi təklifləri ilə onu bazarın tələblərini qabaqlayan səviyyəyə çatdırmalıdır.

38.Elm indi elə bir inkişaf səviyyəsinə çatıb ki, ona iqtisadiyyatın müstəqil bir sahəsi kimi baxılmalıdır. İqtisadiyyatın bütün digər sahələrindən fərqli olaraq elm spesifik xüsusiyyətə malikdir. Bu da ondan ibarətdir ki, elm iqtisadiyyatın bütün sahələrinin inkişafına təsir göstərir.

39.İstehsalla elmi fəaliyyətin qarşılıqlı əlaqəsi uğurlu iqtisadiyyatın göstəricisidir.

40.Daima Respublikanın mövcud intellektual potensialının real imkanlarını müəyyənləşdirmək, ondan səmərəli istifadə etməyin yollarını aşkarlamaq lazımdır.

41.Köklü iqtisadi məsələlərin həllinə elmi-texniki tədqiqat işlərinin məqsədli yönəldilməsi vacibdir.

42."Bizim üçüncü dünyanın çox az hökuməti texnologiya sahəsində də milli təhlükəsizliyə can atırlar. Biz elmi-texniki bazaya lazımı diqqət yetirə bilməmişik. Artıq hamı tərəfindən qəbul olunmuş belə bir həqiqəti – əgər texnologiyada sıçrayış etmək istəyirsənsə, elmdə sıçrayış edilməlidir – elmi sıçrayış texnoloji sıçrayışla

əvəz edilməlidir. Odur ki, hökumətlərdən və ya sənaye maqnatlarından kimsə texnologiyada irəliyə sıçrayış adına cəsarətə çağırırsa, bu əsasən, layihələrin, maşınların, texniki personalın və hətta xammalın emalının importunu bildirir.

Abdus Salam

43.Vətən uğrunda vuruşan alimlər! Siz varsınızsa, millət, xalq var.

44.Respublikada elmi fəaliyyətin əlaqələndirilməsi /koordinasiyası/ bitərəf dövlət qurumu tərəfindən həyata keçirilməlidir. Bu işi EA-nın öhdəsinə buraxmaq qərəzli yanaşmalara meydan vermək deməkdir.

45.Daim Azərbaycan elminin strategiyası işlənməli və əsas hədəf olmalıdır.

46.Milli Məclisdə elm adamları az deyil. Bəs niyə elmi fəaliyyəti yada salmırlar. Salmırlarsa, demək narahat deyillər.

47.İqtisadiyyatla texniki elmlərin əlaqəsi əsasdır. Elmin müəyyən inkişaf mərhələsindən sonra bu həyati tələbata çevrilir və açıq görünür.

48.Elmi-texniki istiqamətdə iş planının uğurla başa çatdırılması dövlətin gələcək iqtisadi proqramının bir hissəsi olub, onu istiqamətləndirir.

49.Ölkə daxili elmi fəaliyyətdə rəqabət – dövlət sektoru ilə özəl sektor arası və respublikamızda olan xarici özəl sektor daxil, sektorlar arası rəqabətdir. Elmi fəaliyyət sahəsində uğurlu rəqabət sonda istehsal sahəsində rəqabətə çevrilir ki, bu da özünü daxili və xarici bazarlarda göstərir.

50.Bu gün bazar iqtisadiyyatı bunu tələb edir: elmi tədqiqatların aparılmasında vaxt itkisinə yol verməmək. Bunun üçün tərəflərdən biri əldə etdiyi nəticəni iş vaxtının sonunda görülmüş işi bu mərhələdən davam etdirməsi üçün ondan 8 saat geri qalan ölkədə bu işlə bağlı uyğun müəssisəyə /həmkarına/ ötürür. O da bu mərhələdən başlayaraq işi davam etdirir və işinin sonunda /8 saatdan sonra/ o da görülmüş işi birinci ölkədəki həmkarına ötürür. Beləliklə elmi-tədqiqat işinin aparılmasında zaman uduşu və riskin azalması

həllini tapır. Tərəflərdə avadanlıqların eyniliyi olmalı, yanaşmaların isə müstəqilliyi /müxtəlifliyi/ ola bilər.

51.Fundamental tədqiqatları fərqləndirən cəhət onun nəticələrinin qlobal xarakterli olmasıdır.

52.Elmi fəaliyyəti idarə etmənin /DETK tərəfindən/ məqsədi istehsalatla əlaqədar olan elm-tədqiqat işlərini sistemləşdirməklə, elm – istehsalat halqasının sürətlə və keyfiyyətlə qapanmasının yollarını axtarıb tapmaq, respublikanın tez bir zamanda elmi-texniki inqilaba /ETİ/ çatması üçün dövlətə təkliflər verməkdən ibarətdir.

53.DETK-nın vəzifələri – respublikada ETİ-yə nail olmaq üçün elm potensialının işini səmərəli təşkil etmək – istehsalat və elm müəssisələri arası qarşılıqlı inamı yaratmaqdan ibarətdir.

54.Elm-tədqiqat müəssisəsinin akademiya, universitet və ya istehsal müəssisəsinə tabeliyindən asılı olmayaraq, işini belə qurmalıdır: tədqiqat institutundan keçib istehsal müəssisəsinə çatmalıdır;

55.Dövlətin elm siyasətini formalaşdıran orqanlar əlaqəli işləməlidirlər.

56. ABŞ-da milli elm-texnika siyasətinin (ETS) formalaşdırılmasının mexanizmi və üsulları bu ölkədə elmi-tədqiqat və təcrübə konstruktor və tətbiq işlərinin birgə təşkili xüsusiyyətləri ilə bağlıdır. ABŞ-nın ETK-nin fəaliyyətində dövlətin rolu ondan ibarətdir ki, o kompleksin normal fəaliyyətini və effektivliyinin artırılmasını təmin edir; ikincisi, milli ETS-in formalaşması və həyata keçirilməsi üzrə fəaliyyəti təşkil edir. Öz orqanları vasitəsilə milli miqyasda elm və texnikanın üstün istiqamətlərinin müzakirəsini təşkil edir və müəyyənləşdirir; Dövlət büdcəsi vasitəsi ilə milli vəsaitləri toplayır və elm və texnikaya paylayır ki, bununla da, konkret sahələrdə görüləcək işlərin miqyasına təsir göstərir; nəhayət, differensiallaşdırılmış vergi siyasəti vasitəsilə dövlət xüsusi sektorun öz vəsaitini ETTKEİ üçün ayırmasına aktiv təsir göstərir.

57.ABŞ-da elmi-texniki siyasət aşağıdakılara əsaslanır:

-elmi-texniki nəticələrin uyğun səviyyəsinə çatmağın strategiyasını işləyib hazırlamaq;

-ölkənin möhkəm elmi-texniki bazasını dövlətin, özəl sektorun aktiv əməkdaşlığı və aktiv uyğunlaşması, universitetlərin, müəssisələrin, müstəqil tədqiqatçıların elmi-tədqiqat işlərini aparmaq üçün imkanlarını artırmaq yolu ilə, həm də innovasiyaya qarşı maneələri aradan götürməklə, elmdə, texnikada və digər prioritetlərdə dəyişikliklərə uyğun, elmi-texniki siyasətin hüquqi əsaslarının daima təkmilləşdirilməsi.

Amerika təlimi: 1.Elmi necə əldə etmək; 2.Tənqidi düşünmək; 3. Elmin nəticələrini insanların xidmətinə vermək /insanlaşdırma/.

58.İndiki dövrdə ABŞ-da təhsil sferası, iqtisadiyyatın sahələri və ayrı-ayrı dövlət orqanları ilə sıx əlaqədə /inteqrasiyada/ olan yüksək məhsuldarlığa malik geniş elm-texnika kompleksləri – xalq təsərrüfatının xüsusi sektoru mövcuddur.

59.Bu və ya digər səbəblər üzündən Güneyli-Quzeyli Azərbaycandan xarici ölkələrə getmiş alim və sahibkar soydaşlarımıza respublikanın böyük ehtiyacı vardır. Elə etmək lazımdır ki, iqtisadiyyatımızın dirçəldilməsi və yüksəldilməsinə xidmət edə biləcək elm və istehsal sahələrinin yaradılmasında, alimlərimizin inkişaf etmiş xarici ölkələrin elm adamları ilə birgə layihələr üzərində işləmələrinə, elmimizin Avropa elminə qovuşmasına yardımçı olsunlar. Yaxşı olardı ki, tezliklə və müntəzəm olaraq, bu insanlarımızın iştirakı ilə Ümum Azərbaycan elm və iqtisadiyyat konfransı keçirilsin və iqtisadiyyatımızın sabit inkişafı, elmi-texniki tərəqqiyə çatmağın imkanları, bu tale yüklü məsələlərimizin vaxtında həll olunmasında mühacirlərimizin görəcəkləri işlər müəyyənləşdirilsin. Bu, onların güclü lobbiyə çevrilmələrinə də öz təsirini göstərəcəkdir.

60.Elm üzrə beynəlxalq əməkdaşlıq müqavilələrinin dövlət qeydiyyatı aparılmalı və dövlət nəzarəti altında həyata keçirilməlidir.

61.Elmin inkişaf etməsinin kriteriyaları sırasında elmin iqtisadiyyatla bağlılığının səviyyəsi ən öndə durur.

62.Respublika iqtisadiyyatının yüksəldilməsində elm adamlarının işi elm tutumlu məhsulların istehsalını təşkil etməklə bitmir. Onlar həm də intellektlərinin satılması yolu ilə də iqtisadiyyatımızı

yüksəltmək istiqamətində çox fayda verə bilərlər. Ən əvvəl, intellektual mülkiyyətin satılmasına diqqət yetirilməlidir. Bundan başqa, alimlərimizin dünyanın bir çox tədris və elm müəssələrində dövlətlər arası müqavilələr əsasında işləmələrini təşkil etməli və onlarla birgə elmi-tədqiqatlar aparmaqla beynəlxalq əməkdaşlığı artırmalıyıq. Azərbaycan Respublikasının əvvəllərdən də bu sahədə təcrübəsi vardır. Bununla biz, eyni zamanda, respublikamızın informasiya blokadasından çıxmasına və lobbimizin yaradılmasına əsaslı kömək göstərmiş olarıq. Elm adamları vasitəsilə yaranan dövlətlər arası münasibətlər tez bir zamanda xalqlar arası dostluq əlaqələrinin daha möhkəm və etibarlı əsaslarda formalaşmasına, xalqlarımız arası ünsiyyətin keyfiyyətcə yeni mərhələyə çatmasına və durmadan inkişaf etməsinə aparar. Dövlətlər arası elmi əlaqələr, hər bir dövlətdə elmin inkişafına təkan verməklə istehsal sahələrinin daima yeniləşməsinə səbəb olar.

63. Heydər Əliyev Almaniyada olarkən kansler Kol dedi ki, "Siz hansı proqramı ortaya qoysaz, biz onu maliyyələşdirərik.

Görəsən Azərbaycanın hansı elmi proqramı var? Axı biz bu cür proqramları Avropa standartlarına uyğun heç qiymətləndirə də bilmirik.

64. "XX1 əsrdə elm – yeni öhdəliklər" elm üzrə Ümumdünya Konfransı, YUNESKO – nun ikinci doğuluşu və dünya elminin ondan irəli gələn vəzifələri. Azərbaycanda bu konfransa münasibət hələ də bildirilməyib.

65.Elmi fəaliyyət sahəsində dövlətlərin yaxınlaşması, digər sahələrə nəzərən, geoiqtisadi siyasət yolunda ən önəmlidir.

66.Maşının hissəsi təklikdə heç nəyə yaramadığı kimi, elmi nəticə də ancaq tətbiq olunandan sonra əhəmiyyət kəsb edir. Odur ki, maşın hissəsinin istifadəsindən danışıldığı kimi, elmi nəticələrin də istehsalatda istifadəsindən danışmaq yeganə düzgün yoldur.

4.3. Elmi fəaliyyətin maliyyələşməsi haqqında

1.Dövlət büdcəsinin yaradılmasında ən aktiv sahə olmalı olan elm müəssisələri, bu gün, demək olar ki, büdcənin ən aktiv israfçılarına çevrilmişlər. Bunu aradan qaldırmaq məqsədilə lazımdır ki, elm müəssisələrinin hesabatları, tədqiqatların nəticələrinin realizasiyasından əldə olunan vəsaitə uyğun dövlət büdcəsinə keçirilən məbləğlə – dövlətdən alınan və dövlətə qaytarılan vəsaitlərin müqayisəsi /kompensasiyası / ilə qiymətləndirilsin.

Sifarişçi dövlət təşkilatlarının uyğun hesabatlarında da bunlar öz əksini tapmalıdır.

2.Qloballaşma dövründə büdcəni yaradan müəssisələr sırasında texniki elm müəssisələrinin /bilavasitə və dolayı yolla/ ən öndə durması zəruridir. Əks təqdirdə, dövlətin özünü müdafiə edə bilmək qabiliyyəti daim azalacaq, millətin yaşamaq imkanı daim sual qarşısında qalacaqdır. Həyatda baş verən hadisələrin gedişatı göstərir ki, ancaq azad millət /dövlət / elmi-texniki tərəqqiyə çata bilər və əksinə, yəni elmi-texniki tərəqqiyə çatan millət azad yaşamaq hüququnu özündə saxlaya bilər.

3.Elm üzrə büdcə təşkilatları dedikdə dövlətin elm üzrə sifarişlərini yerinə yetirilməsində şanslı dövlət elm təşkilatları nəzərdə tutulur. Büdcə təşkilatları da dövlətin təsərrüfat hesablı elm müəssisələri kimi təsərrüfat hesablı fəaliyyət göstərə bilərlər. Dövlət təsərrüfat hesablı və özəl elm müəssisələri də dövlət sifarişlərinin müsabiqəsində iştirak edə bilərlər. Elm müəssisələrinin inkişafını sürətləndirmək məqsədilə, onlar, gəlir vergisindən azad olunurlar.

4.Elmi layihə və proqramların tərtibində görüləcək işlərin mərhələlərə və maliyyə vəsaitlərinin bu mərhələlərə görə bölünməsi nəzərə alınmalıdır. Sovet sisteminin səhvi bu olub ki, bu bölgüdə elmi-texniki nəticələrin tətbiqi mərhələsi elmə aid edilməyib. Əslində isə istehsal prosesinin öyrənilməsi də elmi mahiyyət daşıyır. İstehsalı öyrənməklə elmin qarşısında yeni məsələlər qoyulur. Bundan başqa, istehsal prosesinin işlənməsi elmi patentlərin etibarlığı məsə-

ləsini yüksəldər, patentlərin satış qiymətini qat-qat artırar. Digər tərəfdən, elmi – texniki nəticələrin tətbiqinə tələb olunacaq maliyyə vəsaiti, təxmini də olsa, əvvəlcədən qiymətləndirilməlidir ki, dövlətin onu ödəyə biləcəyi əvvəlcədən aydınlaşdırıla bilsin. Başqa sözlə, Azərbaycan Respublikasında bu işi yerinə yetirmək nə dərəcədə məqsədə və imkanlara uyğundur, sualını cavablandırmalıyıq.

5."Elmi idarə yaradılıbsa, onun təmin olunması haqda düşünmək də lazımdır. İnstitut problemə görə yaradılıb, təsərrüfat hesabı yaramaz. Elə isə İnstitut niyə yaradılır? ", /İ.M. – akademikin baxışı/. Bəli, iqtisadi və digər sahələrdə olan problemlərin həllini tapmaq və aradan qaldırmaq üçün uyğun elmi-tədqiqat institutları yaradılır. Lakin bu məqsədlə institutda tərtib olunmuş layihə və proqramların maliyyələşməsi dövlət /indiki dövrdə həm də özəl sektor/ tərəfindən həyata keçiriləndən sonra problemlərin çox az bir qismi belə həll olunmursa, onda növbəti maliyyələşmə məsələsinə qayıtmaq nə dərəcədə ədalətli olur? Bu haqda institut kollektivinin özü düşünməlidir. Ən əvvəl, bilməliyik ki, bazar iqtisadiyyatı şəraitində elmin maliyyələşdirilməsi üsulu sovet dövlətindəki üsulla aparıla bilməz – burada da rəqabət öz yerini tapmalıdır.

Başqa bir akademikin mülahizəsi: «Elm adamlarının əmək haqqını artırmaq üçün MEA-da güclü ixtisarlar aparmaq lazımdır». /Nə qədər böyük səhv. Yəqin ki, ixtisara salınanların da əsl elm adamları olmasını nəzərdə tutur/.

6.Dövlət və özəl sektorlara aid bütün istehsal müəssisələrinin /xaricilər də daxil/ xalis gəlirlərinin müəyyən olunan faizini elmi-texniki yeniləşməyə ayırmaları haqda dövlət qanununa nail olmaq bu müəssisələri elmə yaxınlaşmağa yönəldər..

7.Dövlət büdcəsi vəsaitləri cəlb olunmaqla yaradılmış İntellektual mülkiyyət obyektlərinin istifadə olunmalarının hesabatı sözlə (kağızla) deyil, faktlarla göstərilməlidir və ona sərt dövlət nəzarəti olmalıdır. Eləcə də özəl sektorda.

8.Dünya ölkələrinin sənaye mülkiyyətinin kommersiyalaşdırılmasına münasibətləri-satanlar, alanlar, öz daxili tələbatını ödəyənlər, istifadə etməyənlər ölkənin iqtisadi vəziyyətinin göstəricisidir.

9.Azərbaycan Respublikasında SM-nin kommersiyalaşdırılmasının vəziyyəti və perspektivləri bu günün tələbinə cavab vermir. Keçmiş Sovet dövründə Azərbaycan Respublikasında bu məsələyə olan münasibət bu gün də olduğu kimi qalmaqdadır.

10.Azərbaycan Respublikasında hazırlanan proqramlar AB və NATO elmi-texniki proqramlarına uyğun tərtib olunmalıdır ki, b/x maliyyə təşkilatlarını əməkdaşlığa cəlb etmək mümkün olsun.

11.Büdcədən elm üçün ayrılan vəsaitdə b/x əməkdaşlıq üçün vəsait ayrıca bəndlə nəzərdə tutulmalıdır. Bu məqsədlə büdcədə ehtiyat vəsait saxlanılmalıdır.

12.Elmi məhsulun realizasiyası yolları Azərbaycan Respublikası üçün nə qədər acı olsa da, hələlik qaranlıqdır.

13.Azərbaycanda da elmin inkişafına kömək göstərilməsi məqsədilə YUNESKO - ya müraciət olunmalıdır, o cümlədən:

1.İqtisadi İnkişafın /İİ/ əsaslarından sayılan "ağıl"ın kor-təbii axınının qarşısının alınması haqqında;

2.Tədris müəssisələrinin müasirləşdirilməsi haqqında;

3.Elmi-tədqiqat institutlarına sifarişlər vermək barədə;

4.Elmi-tədqiqat işçilərinin statusunun YUNESKO-nun tələbinə uyğun həyata keçirilməsi haqqında.

14.Elmin büdcədən maliyyələşməsi büdcədən maliyyələşən digər sahələrin- təhsilin, səhiyyənin, mədəniyyətin, sosial məsələlərin maliyyələşməsindən kəmiyyət və keyfiyyətcə fərqlənir, dinamikdir, büdcədən aldığından çox geri qaytarmaq imkanındadır.

15.Büdcə, əsasən, gəlirsiz müəssisələr arasında bölüşdürülür. Elm müəssisələri gələcəkdə strateji əhəmiyyətli və fundamental tədqiqatlar qalmaqla gəlirsiz müəssisələr sırasından çıxarılmalıdırlar.

16.Tətbiqi xarakterli işlərin bir qisminin patentlərin qeydiyyatı və verilməsindən əldə olunan gəlirlərin hesabına /bütövlükdə Elm Fondunda toplanan/ maliyyələşdirilməsi də həllini tapmalıdır.

17.İstehsal və xidmətlə bağlı nazirliklərdə elm və texnikanın vahid inkişaf fondu yaradılmalı və bir hissəsi Azərbaycan Respublikasının Elm Fondunda mərkəzləşdirilməlidir.

18.Elm müəssisələrində maddi həvəsləndirmə, sosial-mədəni tədbirlər, mənzil tikintisi, müəssisənin inkişaf fondları yaradılmalıdır.

19.Dövlət, elmi bir başa-layihəsiz maliyyələşdirməməlidir, elmə, ümumiyyətlə layihə və proqramlara edəcəyi sifarişlər üçün nəzərdə tutulan maliyyə vəsaitini ayırır və elmin digər maliyyələşmə mənbələrini təşkil edir. Hansı layihələrin maliyyələşdirilməsini hökumətin /DETK/ təqdimatı əsasında, müsabiqə yolu ilə Milli Elmi Şuralar həll edirlər. Layihələr dövlətin elan etmiş olduğu perspektiv iqtisadi və strateji proqramların yerinə yetirilməsinə yardımçı olmalıdırlar.

20.Dövlətin elmə ayrılan vəsaitlərinin xərclənməsi üsullarında köklü dəyişikliklər aparmaqla, bazar iqtisadiyyatına uyğunlaşdırılmalıdır.

21.Xərcləməyin özü də elmdir. Ona görə də texniki elmlərlə bağlı mövzuların maliyyələşdirilməsinə də elmi yanaşma olmalıdır. Bu da özünü elmi fəaliyyətin marketinqində tapır. Elmi fəaliyyətə /layihələrin tərtibi də daxil/ başlamazdan əvvəl, mütləq onun marketinqi aparılmalıdır /bazarı öyrənilməlidir /.

22.1994-cü ildə DETK-da 26 nazirlik və təşkilatlar tərəfindən təklif olunan 896 layihədən 559–u 1995 –ci il planına salınmışdı. Bunlardan 169 mövzu kənd təsərrüfatı üzrə olub və cəmi 860.946 min manat vəsaitin ayrılması nəzərdə tutulmuşdu. Bir işə tələb olunan vəsaitin məbləği 2.18 milyon manatdan 9.0 milyon manata kimi dəyişir. Göründüyü kimi düzgün yanaşma olmayıb, çünki bu məbləğlə heç bir işi yerinə yetirmək olmaz. Maliyyə vəsaitlərinin məhdudluğu şəraitində "biri olsun, nəticəli olsun" prinsipi əsas tutulmalıdır. Bir də bu cür mikro layihələr müəssisənin daxili imkanları hesabına maliyyələşdirilməlidir.

23.EA Nazirlər Kabineti tərəfindən maliyyələşdirilir, hesabatını isə EA özü-özünə verir. NK-nə verdiyi hesabat, demək olar ki, formal xarakter daşıyır.

24.Azərbaycan iqtisadiyyatının yubanmadan bərpa və inkişaf etdirilməsi ancaq güclü investisiya əsasında /məs., "Marşal" proqramı kimi/ baş verə bilər. Odur ki, iqtisadiyyatımızla bağlı, dünya

standartlarının tələblərinə uyğun layihələrimizin aramsız hazırlanması əsas məsələmiz olmalıdır. Maliyyə vəsaitimiz yoxdursa da, heç olmasa, layihələrimiz olsun. Eləcə də:

-Azərbaycan Respublikası iqtisadiyyatında milli və xarici olmaqla innovasiya proseslərinin öyrənilməsi üzrə müşahidələr sisteminin işlənməsi /1991–ci ildən başlayaraq sonrakı illər üzrə/, əsasən, DETK, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi /DSK/ tərəfindən aparılmalıdır.

-Azərbaycan Respublikası üzrə elmi-texniki tərəqqi göstəricilərinin iqtisadi-riyazi metodlarının işlənib hazırlanması, /DETK, DSK, EA, Təhsil Nazirliyi tərəfindən/.

-Azərbaycan Respublikasının iqtisadiyyatının elm, kadr və innovasiya potensialları üzrə monitorinq sisteminin (DETK, DSK tərəfindən) yaradılması elmi fəaliyyəti canlandırar.

25.Təhsil müəssisələrində /xüsusən ali məktəblərdə / baş alıb gedən rüşvət və təhsil alanlara fərqli münasibətlər təhsilin keyfiyyətini kəskin şəkildə aşağı salır, o cümlədən, xarici ölkələrdən Azərbaycana oxumağa gələnlərin sayının azalmasına səbəb olacaqdır, eyni zamanda xaricdən, əsasən, hazırlıqsız tələbələrin gəlməsinə səbəb olur. Gələnlər ölkələrinə qayıtdıqdan sonra, onların timsalında, təhsil müəssisələrimiz haqda bu olkələrdə pis rəyin formalaşmasına və nəticədə gələnlərin sayının daha da azalmasına aparıb çıxaracaqdır. Beləliklə, bu acınacaqlı hal təhsil müəssisələrinin gəlirini xeyli azaldacaqdır.

26.Hümanitar elm sahələri üzrə elmi layihələr Milli Məclis tərəfindən təsdiq olunduqdan sonra, dövlət tərəfindən maliyyələşdirilməlidir, azad və sərbəst inkişafı təmin olunmalıdır.

27.Elmi fəaliyyətin maliyyələşməsi ilə yanaşı, elm və texnikanın yeniləşməsi ilə məşğul olan elm və istehsalat adamlarının maddi maraq məsələsi respublika iqtisadiyyatında yarana biləcək çətinliklərə baxmayaraq, bütün dövrlərdə birinci dərəcəli məsələlər sırasında həllini tapmalıdır. Əks təqdirdə, intellektual potensialımız qısa bir zamanda öz gücünü itirər, iqtisadiyyatımızın dirçəldilməsi praktik olaraq mümkün olmaz. Qərbdə deyirlər: O millət bədbəxtdir

ki, onun paqonlusu biznesmenindən pis yaşayır. Bu müqayisəni eyni ilə elm adamları üçün qəbul etmək vacibdir, çünki vətən yolunda hər an canını əsirgəməyən əsgərlərin qələbəsini, əsasən, elm adamları təmin edirlər /bu hal bizdə də öz layiqli yerini tutmalıdır/. Elm adamları, intellektual sahibkarlar sülh dövründə vətənin döyüşən əsgərləridirlər /bizdə bu hal da öz layiqli yerini tutmalıdır/.

28.Alimlərini qiymətləndirməyən xalq məhvə məhkumdur.

29.Gələcəkdə dövlət büdcəsi hesabına, əsasən, fundamental və strateji əhəmiyyətli elmi tədqiqat layihələri maliyyələşdirilməlidir. Qalanları təsərrüfat hesablı sistemə keçməlidirlər. Dövlət bununla böyük bir yükdən azad olmuş olar.

30.Elm müəssisələrinin effektivliyi iki miqyasda müəyyənləşdirilməlidir:

-bütövlükdə elmi fəaliyyətə çəkilən ümumi xərcə, sərf olunan zamana və yerinə yetirilən işlərin ümumi sayına görə;

- ayrı-ayrı işlərə ayrılan vəsaitə və sərf olunan zamana görə.

31.Azərbaycan Respublikası Y. Məmmədəliyev adına Astrofizika Rəsədxanasının BMT-nin /və ya digər b/x təşkilatların/ xətti ilə maliyyələşdirilməsinə nail olmaq mümkündür.

32.Elmi fəaliyyətin dağıdıcı silahlar yaradılmasına qarşı yönəldilməsi artıq həyatın tələbidir. İnanclarından asılı olmayaraq insanlar bütövlükdə elmə düzgün yanaşmalıdırlar-ancaq birlikdə və qətiyyətlə bu yoldan dönməlidirlər.

33.Elmə sahib olan millətlər Allaha bir toplum olaraq yaxınlaşmaq imkanını qazanırlar.

Əski türklərdə Allah və Alimlər haqda düşüncələrdən: Tanrı dünyasını dəyişən Alimlərin ruhlarını özünə ən yaxın olan göy qurşağına aparır.

məklə, iqtisadiyyatın sabitləşməsi və eləcə də elmi-texniki tərəqqiyə nail olmaq yollarının birgə müəyyənləşdirilməsini təşkil edir.

9.MTEA-da və sahə elmi-tədqiqat institutlarında çalışanların, paralel olaraq, universitetlərdə, tədris işlərinə cəlb olunması və əksinə. Bu əlaqə tədrisi gücləndirməklə yanaşı, elmi kadrlardan elmi fəaliyyətdə istifadənin səmərəliliyini artırar.

10.Elmlər Akademiyasında sərbəst /daxili təsdiqləmə yolu ilə daxili maliyyə vəsaitləri hesabına/ fundamental və tətbiq xarakterli elmi-tədqiqat işləri aparılır.

EA respublikanın siyasi, sosial-iqtisadi, mühüm strateji problemləri üzrə ali elmi eksperti vəzifəsini yerinə yetirir /və ya ekspertizasında iştirak edir/.

11.MTEA üzvləri akademiyanın daimi işçisi olmurlar və akademiyadan, üzvlüyə görə, maaş da almırlar, əksinə üzvlük haqqı verirlər. Daimi işçilərin sayı çox az olur. EA-ları respublikanın aparıcı alimlərini işgüzar birliyə gətirən ali elmi dövlət orqanıdır.

12.Elm müəssisələrinin direktorları AMEA üzrə seçkilərdə və elmi şuralarda iştirak etmirlər. Onlar elmi şuraların qərarlarına uyğun işlərini qururlar. Elm adamlarının /əməyi ən yüksək qiymətləndirilən insanların/ vaxtlarını təsərrüfat məsələlərinə sərf etmələri yol verilməzdir.

13.Dövlət tərəfindən elm, təhsil, mədəniyyət və s. sahələrində tanınmış mütəxəssislərə müxtəlif fərqləndirici adların verilməsi, eləcə də, seçilmə yolu ilə də olsa, EA-na müxbir və həqiqi üzvlərin seçilməsi /özü də həmişəlik/, bir sıra xoşa gəlməz halların ortaya çıxmasına səbəb olur. Məsələn, bazar iqtisadiyyatının əsas tələblərindən biri, azad rəqabətin aradan qaldırılması təhlükəsi ilə üz-üzə qalır, belə ki, bu adları alan şəxslər, gələcək fəaliyyətlərinin necəliyindən asılı olmayaraq, həmişəlik böyük səlahiyyətlərə malik olurlar, bir çox hallarda inkişafa belə maneəyə çevrilirlər. Sovetlərdən miras qalan bu hallar aradan götürülməlidir.

14.İnkişaf etmiş kapitalist ölkələrində bu gün akademiya bu və ya digər ölkənin alimlərinin ictimai korporasiyasıdır və bu ölkənin uyğun fundamental elm sahəsində baş mərkəzidir. Onlar elm

məsələləri üzrə dövlətə təkliflər verirlər, layihələrin ekspertizasını aparırlar və s.

15.Fundamental elmi inkişaf etdirmək lazımdır, lakin bu ad altında hər işin gizlədilməsinə yol vermək olmaz; eləcə də onun nəticələrinə diqqətsizlik olmamalıdır, mütləq tətbiqə yönəlməlidir. Sovet dövründə belə deyirdilər: sovet alimləri öz çap elətdirdikləri yarımçıq məqalələri ilə yapon elm adamlarının işlərini xeyli irəli aparırlar, onları yönəldirlər.

16.Respublikanın ictimai təşkilatları, o cümlədən, EA-ları dünya ictimaiyyətinin, mütəxəssislərinin diqqətini Azərbaycana yönəltməyə xidmət etməlidirlər. Bu işdə dövlət istiqamətləndirici rol oynamalıdır.

17.Akademiyanın alimlərini keçmiş ittifaq tabeli iri müəssisələrə göndərməklə - oralarda elmi dərəcəsi olan alimlərin xüsusi çəkisini artırmaqla, elm-istehsalat əlaqələrinin sürətlənməsinə nail olmaq olar.

4.5. Elm və sahibkarlıq haqqında

1.Elmi-texniki yeniliklərin qavranılması bizim sahibkarlara da aiddir, lakin onlar hələ ki alimlərimizdən çox uzaqdırlar.

2.Texnologiyaların, sənaye innovasiyalarının, iri elmi-tədqiqat mərkəzlərinin resurslarının effektiv istifadə olunmasının, sənayenin texnoloji təzələnməsinin kommersiyalaşdırılması məsələləri də Azərbaycan Respublikasında həllini tapmalıdır.

3.Dövlət qurumlarının ehtiyaclarını öyrənmək və onların həllinə yardım üçün uyğun maraqlı özəl təşkilatları cəlb etmək – maraqlandırmaq yollarını axtarıb tapmaq həm də elmlə bağlı özəl qurumların işidir.

4.Dövrümüz elmi-texniki tərəqqi /e.t.t./ ilə xarakterizə olunur. Bu o deməkdir ki, e.t.t.-nin reallaşdığı ölkələrdə istehsalla bağlı texnika və texnologiyaların yeniləşməsi çox böyük sürətlə gedir. İri müəssisələrin bu sürətlə yeniləşməsi praktiki mümkün olmur. Ona

görə də son dövrlərdə istehsal sahələrinin bu tələbi ödəyə bilən formada yaradılması bir zərurət olaraq ortaya çıxmışdır ki, bu da kiçik müəssisələrdə öz əksini tapa bilmişdir. Çox böyük çevikliyə malik olan bu müəssisələr, müntəzəm olaraq, elmi-texniki nailiyyətləri vaxtlı-vaxtında tətbiq etməklə, dünya bazarlarında rəqabət etmək qabiliyyətləri əldə edirlər.

5.Kiçik müəssisələr, ilkin olaraq, iri elm-istehsalat komplekslərində tətbiqini tapmayan, yığılıb qalmış, ikinci dərəcəli elmi-texniki nəticələri reallaşdırmaq məqsədilə yaradılmışdır.

6.Elmi-texniki nailiyyətlərin vaxtlı-vaxtında tətbiqi sayəsində kiçik müəssisələr öz fəaliyyətlərini uğurlu təşkil edə bilirlər, məsələn, yüksək keyfiyyətə malik olmaqla bərabər, adam başına düşən məhsulun ümumi miqdarı /dəyəri/ çox yüksək ola bilir. Bunlar isə müəssisənin rentabelliyini müəyyənləşdirən əsas göstəricilərdən sayılırlar. Bu göstəricini artırmaq məqsədilə dövlət kiçik müəssisələrə verdiyi kreditlərdə güzəştlər nəzərdə tutur. Məsələn, rentabellik artdıqca tutulan verginin faizi azalır. Bu halda nəinki müəssisənin, eləcə də dövlətin gəliri artar.

7.Müəssisələrin keyfiyyət kriteriyasının təkcə işçilərin sayı ilə yox, həm də adam başına düşən ümumi məhsulun miqdarı ilə ölçülməsi daha düzgün olar. Bu müəssisələrin avtomatlaşdırılmasına meyli artırar, elmi-texniki tərəqqinin daha sürətlə həyata yol tapmasına sövq edər.

8.Kredit, dövlət sifarişlərinin əsasında istehsalla məşğul olan, idxal olunan məhsulları /ilk növbədə ərzaq/ istehsal edən – idxalı azaldan və ixracı artırmaq məqsədli kiçik müəssisələrə verilməlidir.

9.Kreditin səmərəli istifadəsinə ciddi nəzarət olmalıdır. Krediti götürən şəxslərin məsuliyyəti qanunla müəyyənləşir.

10.Elmi fəaliyyət, ilkin olaraq, bazar iqtisadiyyatının qanunlarına tabe etdirilməlidir. Alimlərin sahibkarlara çevrilməsi təmin olunmalıdır. Sahibkar alim vəsaitini elmi fəaliyyətin inkişafına məmnuniyyətlə sərf edər.

11.Vençur müəssisələri – iqtisadiyyatın elm tutumlu sahələrində fəaliyyət göstərən kiçik müəssisələrdirlər. Onlar elmi-tədqiqat sa-

həsində, mühəndis işlənmələri, yeniliklərin yaradılması və tətbiqi sahələrində ixtisaslaşırlar. Onların özəl elm qurumlarının təşkili və fəaliyyətində rolu ondan ibarətdir ki, sırf elmi fəaliyyətlə məşğul olan elm müəssisələrinə yardım edir – tədqiqatların etibarlığını artırır.

12.Elmə inam – sahibkarlığa doğru inamla getmək deməkdir.

13.Elmin inkişafı qarşısında duran olmamışdır. Odur ki, Xırda Tədqiqat Biznesinin yaranması elmin öz növbəti inkişaf yoludur və bunu hansısa böhranlarla /siyasi yanaşma ilə izah etmək /əlaqələndirmək düz olmaz.

14. Elmi fəaliyyət sahəsində marketinq elmi fəaliyyətin etibarlığını artırır..

15.«Texnoloji biznes inkubatoru»nun /TBİ/ elmi-texniki tərəqqinin sürətləndirilməsində böyük rolu vardır. Azərbaycan Respublikasında da belə inqubatotlar öz yerini tapmalıdır.

16.Kiçik və orta sahibkarlığın inkişafı, ilk növbədə, dövlət yardımına əsaslanır və bu bazar iqtisadiyyatının əsas tələblərindən biridir. Respublikamızda özəl sektorun maliyyə imkanlarının hələlik məhdud olduğunu nəzərə alaraq, TBİ-nin dövlət sektorunda yaradılması məqsədə uyğun olar. Bu qurumun uğurlu fəaliyyət göstərə bilməsi üçün, əsasən, dörd amilin olması vacibdir:

- rəqabət qabiliyyətli elmi-texniki layihələr;
- bu layihələri tələb olunan səviyyədə maliyyələşdirə bilən istehsal sahələri;
- layihələrin istehsal sahələrində tətbiqini reallaşdıran maliyyə vəsaiti;
- Bu işləri həyata keçirə bilən mütəxəssislər və müəssisələr.

TBİ-nin işini uğurlu təşkil edə bilməsi üçün DETK-nın və onun tərkibində fəaliyyət göstərən «Tətbiq» elm istehsalat birliyinin, Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin və onun «Sahibkarlığa Kömək Milli Fondunun» imkanlarının birləşdirilməsi həm elmin, həm də sahibkarlığın inkişafına zəmin yarada bilər.

17.Sahibkar işçilərin orta siyahı sayının və əmək haqqının artırılmasında, məhsul istehsalının artırılmasında, deməli müəssisəsinin böyüməsində maraqlı olmalıdır. Baxılan halda, Kiçik Sahib-

karlıq subyektlərinin orta sahibkarlığa göstərilən yardımdan istifadə etmək hüququ olmalıdır – yardım Kiçik sahibkarlığa ediləndən çox olmalıdır.

18.Sahibkarlığa yardımlar göstərilməsinin hər bir halında elmi-texniki layihələrin işlənməsində və tətbiqi üzrə layihələrə üstünlük verilməlidir. Sahibkarlığa Yardım Fondu etdiyi yardımlarında İntellektual Sahibkarlığın /İS/ inkişafına üstünlük verməlidir.

19.Özəl sektorun inkişafının sürətləndirilməsində vergi mexanizminin rolunun gücləndirilməsi üzrə:

1. Elmi-texniki yeniliklərin tətbiqi ilə bağlı istehsal və onun təşkili ilə bağlı olan KM-nin fəaliyyətinin ilk 5 ili müddətində vergi ödənişlərindən azad olunması;

2. 1-ci bənddən irəli gələn KM-lərə istehsalla və tədqiqatlarla bağlı avadanlıq, xammal və məhsul idxalı və ixracı prosesində gömrük rüsumları üzrə güzəştlərin müəyyənləşdirilməsi;

3. KM-yə edilən güzəştlərin müəyyənləşdirilməsində işçilərin əmək haqqı artımı və adam başına düşən məhsulun ümumi miqdarı da nəzərə alınmalıdır;

1-ci bənddən irəli gələn müəssisələrin fəaliyyətinə köməklik məqsədilə fəaliyyətə başlamasından 5 il keçəndən sonra tənzimləyici vergi siyasətinin formalaşdırılması.;

4.Güzəştlərin miqdarı müəyyən olunarkən, işçilərin sayı ilə yanaşı, müəssisənin gəlirindən dolayısı formalaşan işçilərin əmək haqqının da nəzərə alınması işçilərin sayını süni surətdə artırmağın qarşısını alar, işçilərin əmək haqqının artırılmasına səbəb olar.

20.KM-nin bina, ərazi və torpaqla təmin olunması, qanunla möhkəmləndirilməlidir.

Qəbul olunan bütün qərarlar subyektiv yanaşmaları aradan qaldırmalıdır.

21.Sahibkarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edən "TBİ" Kiçik Orta Sahibkarlığın /KOS/ inkişafında innovasiya mərkəzi funksiyasını yerinə yetirir. O, özəl sektorda elmi-texniki həllərin, yeniliklərin layihələndirilməsi və onların istehsalata tətbiqinin genişləndirilməsi istiqamətində mühüm mərhələ ola bilər.

22.Azərbaycan Respublikasında yaranmış iqtisadi durumu nəzərə alaraq, iqtisadi sahələr üzrə İntellektual Sahibkarlıq /İS/ sahəsində elm-istehsalat tipli, dövlət – özəl olmaqla, qarışıq strukturların yaradılması daha məqsədə uyğun sayılır.

23.İS sahəsində qarışıq strukturların inkişafını təmin etmək məqsədilə müstəqil "Texnika və texnologiyaların Tətbiqinə Yardım Fondu " yaradılmalıdır. "Fondun" fəaliyyətini təmin etmək üçün pay hesabı ilə aşağıdakı maliyyə mənbələri müəyyənləşdirilə bilər:

1.DETK-ya səlahiyyət verilir ki, fəaliyyəti nəticəsində əldə etdiyi maliyyə vəsaitlərini bütövlükdə öz hesabında saxlamaqla, onun 80% -ni "Fondun" hesabına köçürsün. Bununla DETK özü dövlət adından maliyyə vəsaitləri ayırmaqla, fondun fəaliyyətində iştirak edir – 1-ci mənbə.

2.Özəl sektorun istehsal və xidmətlə bağlı sahələrində elmi fəaliyyətin inkişafına ayırmalar qanunla müəyyənləşdirilir və bu ayırmalar bir başa fondun hesabına köçürülür – 2-ci mənbə.

3.İnnovasiya yönümlü layihələrin maliyyələşdirilməsi məqsədilə aidiyyatı özəl sektorun Fondun hesabına köçürmələri – 3-cü mənbə.

4.Xarici investorların maliyyə vəsaitləri –4-cü mənbə.

5. Respublikada fəaliyyət göstərən bankların /dövlət, özəl, qarışıq, xarici banklar daxil / Fondun fəaliyyətində iştiraklarının təminatı – 5-ci mənbə.

6. Fərdlər, ictimai təşkilatlar, yardımlar etməklə Fondun fəaliyyətində iştirak edirlər- 6-cı mənbə.

7. Layihələrin tətbiqindən alınan gəlir, Fondun özü də daxil payçılar arasında Fondun əsasnaməsinə uyğun paylanır /və ya payçıların razılığı ilə Fonddakı paylarına əlavə olunur/.

8.Fondun fəaliyyətinə rəhbərlik, beynəlxalq qaydalara uyğun olaraq, iştirakçılar tərəfindən birgə həyata keçirilir.

24.Azərbaycan elm adamları /təşkilatları/ sektorundan asılı olmayaraq, DETK xəttilə xarici ölkələrin təklif etdikləri layihələrdə iştirak etməlidir. Bu layihələrin əldə olunmasında Xarici İşlər Nazirliyi aktiv iştirakı vacibdir.

25.Praktika göstərir ki, Azərbaycan Respublikasının qoşulmuş olduğu beynəlxalq təşkilatların yığıncaqlarında, XİN mütəxəssislərindən başqa, baxılan məsələ ilə bağlı elm üzrə mütəxəssislər də iştirak etməlidirlər.

26. Tətbiq planı:

- respublika alimlərinin işləri əsasında;
- xarici müəlliflərin işləri əsasında tərtib olunmadır;
- milli lisenziyaların xarici ölkələrdə satılmasının təşkili də tətbiq planına aiddir.

29.Dövlət proqramına salınan layihələrin mühümlüyünü müəyyən edən kriteriyalar–təminatın olması, effektivliyin hesablanması, metodikalar yeni tələblərə uyğun tərtib olunmalıdırlar.

30.Təcrübə Konstruktor işləmələri, elmi- tədqiqat və tətbiq üzrə işlərdə icraçıların maddi təminatları /əmək haqqı/ fərqli olmalıdır. İşlər tətbiq olunub qurtarandan sonra icraçıların sifarişçilər tərəfindən mükafatlandırılması beynəlxalq aləmdə qəbul olunmuş qaydada həyata keçirilməlidir.

31.Beynəlxalq səviyyəli elmi yığıncaqların təşkili və keçirilməsi bu və ya digər formada dövlətin nəzarətində olmalıdır. Sektorundan asılı olmayaraq respublikanın alim və mütəxəssislərinin əldə etmiş olduqları nailiyyətlər xalqımızın milli sərvətidir və müəlliflər onlardan qanunla müəyyən olunmuş qaydada istifadə edə bilərlər /etmək ixtiyarındadırlar/. Bununla belə elmi-texniki sirlərin ötürülməsində cavabdehdirlər.

Respublika üzrə və beynəlxalq elmi yığıncaqlar respublika əhəmiyyətli dövlət proqramlarına daxil edilə biləcək təkliflər ilə yekunlaşmalıdır və araşdırılmaq üçün DETK-ya təqdim olunmalıdır.

32.Kompyüter texnologiyasından istifadə etməklə, məhsulun həyatiliyini qorumaq və aramsız mükəmməlləşdirmək daim diqqətdə saxlanılmalıdır.

Kompyuter texnologiyasından istifadə etmək dedikdə, texnoloji proseslərin, layihə işləri üzrə müəssisələrin, telekomunikasiya əsasında məlumatların ötürülməsi sistemlərinin avtomatlaşdırılmasının idarə etmə sistemləri bir yerdə birləşirlər.

33. Elmi-texniki tədqiqatların nəticəsində patentlər alınır:
- fərdlər tərəfindən – rüsumu fərdlər şəxsən ödəyirlər;
- təşkilat tərəfindən – rüsumu təşkilat ödəyir
- Respublikada saxta patentlərin alınmasının qarşısını almaq tətbiq qabiliyyətli işlərə milli patentlərin alınmasını reallaşdırmaq məqsədilə, ən əvvəl, aşağıdakı işlər yerinə yetirilməlidir:
- birinci halda, ancaq elmi dərəcə almaq üçün və əsərlər siyahısını artırmağa xidmət edən süni və yarımçıq patentlərin verilməsinin qarşısı alınmalıdır – tələblər sərtləşməlidir. Bu patentlər çox vaxtı saxta olurlar-bu səbəbdən elmi müdafiələr də saxtalaşır.
- İkinci halda, patentlərin alınmasına məsuliyyətlə yanaşmaq adətini formalaşdırmaq məqsədilə, müəssisə rəhbərliyi /və ya fərd/ onun tətbiqinə məsul olmalıdır - izafi xərc, yalan hesabatlara yol verilməməlidir;
- Üçüncü halda, təqdim olunan işlərin araşdırılmasının səthi deyil, dərindən aparılması işi təşkil olunmalıdır.

34.Özəlləşdirmənin mərhələlərinə uyğun DETK-nın və yaxud özəlləşdirən şəxsin müəssisə(lər) üzrə layihələri olmalıdır.

35.Bazar iqtisadiyyatı şəraitində İntellektual Mülkiyyətin /İM/ qorunması dedikdə, bu, hüquqi məsələ olmaqdan başqa, onun inkişaf etdirilməsini də nəzərdə tutmalıdır. İM – in inkişafı isə, bu mülkiyyətə sahib olanların onu daha da mükəmməlləşdirmələrini nəzərdə tutur. Əks təqdirdə, onun başqaları tərəfindən az bir zamanda üstələnməsi hallarının yaranması baş verə bilər. Bundan başqa, İM-in sayını artırmaqla yanaşı, onların tətbiqi məsələləri də əhatə olunmalıdır. Əks halda, elmi fəaliyyətin həll edici mərhələsi kənarda qalır, elmi fəaliyyət mənasını itirmiş olur. Odur ki, BMT-nin Baş Katibinin tələbinə uyğun olaraq Ümum Dünya İntellektual Mülkiyyət /ÜDİM/ təşkilatının ixtiraların tətbiqinin sürətləndirilmək üzrə yeni funksiyaları müəyyənləşdirilməlidir:
- Beynəlxalq investisiya fondlarını cəlb etməkdə yardımçı olmaq;
- Xırda Tədqiqat Biznesi /XTB/ strukturları yaradılmasına yardım göstərmək.

36.İstehsalın dərdlərini müalicə etmək üçün xarici ölkələrdən lisenziyaların alınması və ya uyğun elmi tədqiqatların dövlət /özəl/ sektorun proqramlarına salınması məsələlərindən hansına üstünlük verilməsi vaxtında həllini tapmalıdır.

37.DETK, dövlət /və eləcə də özəl/ elm və istehsal müəssisələrinin fəaliyyətləri və onlar arası iş birliyinin vəziyyəti haqda məsələ qaldırmaq səlahiyyətində olmalıdır.

38.Dövlət müəyyən sahələrdə /əsasən kənd təsərrüfatında/ özəl sektorun istehsal sahələrinin birinci alıcısıdır.

39.Özəl sektor dövlət elm müəssisələrinin fəaliyyətini maliyyələşdirməklə, onların yaratmış olduqları mülkiyyətə şərik olmaq imkanı əldə edirlər. Bu hal elmi tədqiqat işlərinin istehsalata yaxınlaşmasını /bağlanmasını / sürətləndirə bilər.

40.Elm tutumlu istehsalın iqtisadi təhlükəsizliyi qorunmalıdır, İM hüququnun pozulması ilə iqtisadi təhlükəsizlik qorxu altına düşür.

41.Elmi-texniki tərəqqinin sürətləndirilməsinə təkcə bir təsərrüfat məsələsi kimi yox, həm də siyasi bir vəzifə kimi baxılmalıdır.

42.Niyə dayanmadan gələcək nəsil texnologiyaları yaradılır və yaradılmalıdır? Buna bazar iqtisadiyyatının tələbi məcbur edir. /"Ölüm ya qalım", sualı Domokl qılıncı kimi, hər bir dövlətin, xalqın, müəssisənin başının üstündə fırlanmaqdadır. Elmin, istehsalatın rəqabət hiss etmədiyi açıq-aşkar bilindiyi halda da, elm, nəinki dayanmamalıdır, əksinə, daima inkişaf sürətini artırmalıdır. Sabah bazara kimin nə çıxaracağını bilmək olmaz. Qısa bir zamanda müflisləşməyə məruz qalmaq ehtimalı var. /Bu halın "çoban açınca gözün, qalar iki buynuzun " deyiminə necə də oxşarlığı var/.

43.Zaman hamıdan güclüdür deyirik, çünki zaman özü dəyişdikcə bütün varlıqları da dəyişilməyə məcbur edir.

44.Hər bir dövrdə cəmiyyətin həyat tərzi onun bilik səviyyəsinə uyğun olmuşdur.

45.Elm və istehsal müəssisələrinin şəbəkəsi elm-istehsalat halqasının qapanmasına /bütövləşməsinə/ xidmət etməlidir.

46.İndiki dövrdə elm ona sahib olanlar üçün çox yüksək maddi rifah yarada bilmişdir. Bununla belə, bu potensial heç vaxt bu qədər çox sayda dağıdıcı problemləri həlsiz qoymamışdır.

47.Elmin inkişaf istiqamətləri haqda düşünərkən, etik nəticə və düşüncə haqda da fikirləşmək vacibdir. Bütün bunlara baxmayaraq, sonda elm qalib gəlir. Yeniliyin qabağında durmaq çox çətindir.

48.Elmi tərəqqinin zərurəti qaçılmazdır. Bununla belə, elmi biliklərin ümumiyyətlə axtarılması ilə deyil, ilk növbədə, büdcə məhdudiyyətləri nəzərə alınmaqla, cəmiyyətimizin daha vacib tələblərinə və ehtiyaclarına cavab verən məsələlərin həlli yolları daha inadla axtarılmalıdır.

49.Müəssisələrin mütərəqqi üsullarla idarə oluna bilməsi bu müəssisələrin özəlləşdirilməsi tempindən deyil, özəlləşdirmənin keyfiyyətindən, müəssisənin müasir əsaslarla yenidən qurulmasına qabil sahibkarların effektiv imkan və real hərəkətlərindən asılıdır.

50.Dövlət-özəl birgə elmi-tədqiqat müəssisələri yaratmaqla əldə olunacaq elmi nəticələrin tətbiqi asanlaşar. Özəl istehsal (k/t daxil) müəssisələrində də elm qurumları olmalıdır.

Xarici dövlətlərlə iki tərəfli, üç tərəfli elmi əlaqələr yaradılarsa, bu razılaşmaların nəticələri bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq istifadə olunmalıdır.

51.Təhsil sistemində sahibkarlıq - özəl təhsil sistemi Avropada məhduddur. Türkiyədə bir dənə də olsun belə bir universitet yoxdur. Azərbaycanda isə dövlət qeydiyyatından keçməyənlər də fəaliyyət göstərirlər.

52.Ən əvvəl, respublikanın ixtisaslar nəzərə alınmaqla, kadrlara olan ehtiyacı müəyyənləşdirilməli və buna uyğun tələbə qəbulu həyata keçirilməlidir. Sabahın işsizləri /bir çox sahələrdə isə işçilərə ehtiyac/ dövlətin problemlərinə çevriləcək. İkincisi, dövlət universitetlərimizin təchizat cəhətdən təminatları son dövrlərdə pisləşsə də kadr və bina cəhətdən imkanları, özəl universitetlərə nəzərən çox yüksəkdir. Belə bir şəraitdə özəl sektorda keyfiyyətli tədrisdən danışmaq olmaz.

Özəl tədris müəssisələrinin /universitetlərin/ yaradılması ancaq uyğun binaların tikilməsi və tələb olunan laboratoriyaların təchizatı məsələləri dünya standartlarına uyğun başa çatdırılandan sonra qoyulmalıdır. Əks təqdirdə onların indiki üsullarla yaradılması və fəaliyyət göstərməsi ancaq kadr və tədris məsələlərində pozğunluq yaradar. Bu imkanı olan sahibkarlarımız olmadığına görə, pullu təhsilin dövlət universitetlərində toplanması daha məqsədli olar.

Ancaq dövlət mütəxəssislərin, elmi kadrların və elmi fəaliyyətin istiqamətlərinin inkişafını /özəl sektorun sifarişlərini də nəzərə almaqla/ müəyyənləşdirir və planlaşdırır.

53.Bu gün Azərbaycanda sahibkarlıq iqtisadiyyatın aparıcı sahələrinə yönəlməyib, yönəldiyi sahələr, əsasən, ticarət, inşaat, təhsil, ərzaq məhsulları istehsalıdır. Onlar isə Milli Sahibkarlar səviyyəsinə yüksələ bilməmişlər.

54.Ölkədə İntellektual Sahibkarlıq Patentlərini etibarlı tənzimləyən güclü qanun vericiliyin olması, göstərir ki, bu ölkənin dövləti beynəlxalq biznesdə iştiraka ciddi yanaşır və onunla bağlı olan hüquqi normaları gözləməyə ... və bu sahədə hüququn tətbiqini təmin etməyə qabil olan məhkəmə–hüquq sistemini qurmağa razıdır.

55.Elmsiz təkcə torpaqlarımızın deyil, bazarlarımızın (iqtisadiyyatımızın) da təhlükəsizliyini itirə bilərik /bəlkə də artıq itirmişik/, qaytarmaq isə çox çətin olacaqdır.

Biznesin məqsədi istehlakçını yaratmaqdır.

56.Əmək məhsuldarlığını artırmaq üçün stimullar keçmiş SSRİ-də az olmuşdur.

57. Diversifikasiya:

- Bir-biri ilə əlaqəsi olmayan çoxlu istehsal sahələrinin birgə inkişaf etdirilməsi, istehsal olunan məhsulların çeşidinin genişləndirilməsi deməkdir.

- Marketinqin strategiyasının növü olub, istehsalı firmanın əsas istehsalı ilə əlaqəsi olmayan yeni məhsullar bazarında firmanın fəaliyyət sahələrinin sayını artırmağa yönəlir.

58. Bu gün sovet dövründə çoxlu var-dövlət toplamış /sovet köynəyindən çıxmış/ adamlar tərəfindən də biznesdə birgə deyil, fərdi fəaliyyətə üstünlük verilir.

59. Sahibkarların və dövlətin qarşılıqlı məsuliyyəti və təəssübkeşliyi;

Sahibkar və işçilərin qarşılıqlı təəssübkeşliyi;

Sahibkar və xalqın qarşılıqlı milli təəssübkeşliyi; Bizim sahibkarlarımız milli təəssübkeş sahibkarlara çevrilə biliblərmi? Bəs insanlarımız milli sahibkarlarımızı özününkü olaraq qiymətləndirə bilirlərmi?

Özəl sahədə fəaliyyət də milli məsələdir. Odur ki, sahibkarlığı elə həyata keçirmək lazımdır ki, sahibkarlar milli təəssübkeşliyi ön plana qoymuş olsunlar.

Toplar susanda sahibkarların mübarizəsi davam edir.

Sahibkarlar dinc şəraitdə millətin vuruşan əsgərləridirlər. Bizimkilər də belədirlərmi, yoxsa, ..., hər halda olmalıdırlar. Bu onların özləri üçün də zəruridir – rəqabət bunu tələb edir.

Azərbaycan iqtisadiyyatının yüksəlişinə, tez bir zamanda, ilk növbədə, sahibkarlarla elm adamlarının birliyi nəticəsində, elmi-texniki tərəqqiyə çatmaqla nail olmaq olar.

60.Azərbaycan varlıları ölkədə kapital qoyuluşunda zəif iştirak edirlər. Xaricə daha çox meyl göstərirlər. Bu, bir tərəfdən daxildə şəraitin xaricdəkinə nisbətən əlverişsiz olması ilə izah olunursa, /bu fikrə üstünlük verirlər/, digər tərəfdən onların bu şəraiti yaratmaq uğrunda mübarizələrinin olmamasından irəli gəlir. Bu yoxluq isə ondan irəli gəlir ki, onlar var-dövlətlərini, əsasən, sovetlər dövrü də daxil olmaqla, çirkin yollarla qazanmışlar. İndiki iqtidar isə onları yaxşı tanıyır. Onlar ifşa olunmaq qorxusu qarşısında dillərini qısa etməyə məcburdurlar.

61.Kiçik sahibkarlığın öncül istiqamətləri, əsasən, dövlət sifarişində göstərilən malların adı və miqdarı ilə müəyyənləşdirilməlidir. Dövlət sifarişi respublikaya idxal olunan və eləcə də, çox istehsal olunan məhsul və malların respublikadan ixracını nəzərdə tutmaqla tərtib olunmalıdır. Bu siyahı daima uyğun dövlət orqanları tərəfindən tənzimlənməlidir.

62.Kredit və həvəsləndirmə vəsaitləri dövlət sifarişləri üzrə təşkil olunan /məhsul istehsalına yönələn/ kiçik sahibkarlığa əsaslanan müəssisələrə verilməlidir.

63.İş adamlarının millət üçün məktəblərə, xəstəxanalara, uşaq evlərinə, tələbələrə və s. yerlərə könüllü və müntəzəm olaraq məcburi ayırmaları bir qayda olaraq adət halına salınmalıdır.

64.İntellektual sahibkarlığın inkişaf etdirilməsi dövlətin həm daxili və həm də xarici siyasətinin tərkib hissəsi olmalıdır.

65. KS-ın inkubatorları və innovasiya mərkəzləri /İM/ haqqında:

KS İnkubatoru istənilən mülkiyyət formasında yaradılan təşkilatdır və müəyyən şərtlər daxilində, müəyyən müddətə, xüsusi təmin olunmuş ofislər və istehsalat sahələrini KS subyektlərinə verir. Bu onların öz işlərini tədricən yoluna qoymalarına və maliyyə sərbəstliyi əldə etmələrinə kömək məqsədilə edilir.

İM KS-ğın ixtisaslaşdırılmış inkubatoru olub, KS subyektlərinə yeni texnologiyalar və digər yeniliklərin sınağına imkan yaratmağa xidmət edir ki, gələcəkdə onlar öz şəxsi istehsalat sahələrini yarada bilsinlər. KS inkubatorları, hökumətin müəyyən etdiyi qaydada, dövlətin sahibkarlara maliyyə yardımı fondunun, sahibkarlığı himayə mərkəzlərinin, yerli idarəedici və sərəncam verici orqanlarının köməyi ilə yaradılır. KS inkubatorunun və İM-in əsas məqsədi, KS subyektlərinə, prinsipcə ümumi xarakterli xidmətlər göstərilməsindən ibarətdir.

66.Azərbaycanda sahibkarlığı inflyasiyadan qoruyan qanunlar yoxdur.

67.Azərbaycan sahibkarlığının standart sahibkarlıqdan fərqli xüsusiyyətlərindən biri bazarda rəqabətin zəif olmasıdır.

68.Dövlət sahibkarlarla müqavilə bağlayır, onun torpaq və ya digər istehsal sahələrini müasir elmin tələbləri səviyyəsində qurmağa yardım edir. Bunun üçün alim və mütəxəssisləri, konkret hallar üçün xarici firmaları da cəlb etməklə, tətbiqinə imkanı olmayan müəlliflərin patentlərinin tətbiqi və hüquqi müdafiəsini öz öhdəsinə götürür.

69.Milli Məclisdə elm adamları /deputatlar/ da bazar iqtisadiyyatına keçid layihəsinə, elmi fəaliyyəti önə çəkmədən, indiki formada səs vermişlər.

70. Elmi fəaliyyətin tənəzzülü mütləq dayandırılmalı, elm inkişaf etdirilməlidir. Əks təqdirdə elmə çəkilən xərclər indiki kimi gələcəkdə də izafi xərclər olaraq qalacaqdır. Bir müddətdən sonra indi tələb olunandan dəfələrlə çox vəsait tələb olunacaq ki, elm potensialının kadr toplananı bugünkü mövqeyinə çatdırılsın.

71.1989-cu il idi. Dövlət Tikinti Nazirliyinə tikinti işlərində istifadə oluna biləcək bir təklifimizi rəyləndirmək üçün getmişdim. Əlaqədar mütəxəssislərlə təklifimizi müzakirə edərkən, kənarda durmuş lakin oranın bir işçisi rus dilində söhbətimizə müdaxilə etdi və bildirdi ki, bizim təklif etdiyimiz cihaz Pribaltika ölkələrində istehsal olunur, onu Bakıda istehsal etməyə ehtiyac yoxdur. Mən ona bildirdim ki, onda gəlin bizim bütün istehsal müəssisələrini bağlayaq, çünki onların hər birinin istehsal etdikləri məhsullar da dünyanın müxtəlif ölkələrində də istehsal olunur, o cümlədən Yerevanda (onun erməni olduğunu duymuşdum). Düşünürəm ki, Azərbaycanın aqrar ölkəyə çevrilməsi sizləri razı salar /sabahısı gün onu orada görmədim, dedilər ki, gedibdir/.

4.7. Elmlə bağlı ümumi deyimlər

1.Təbiət /dünya bütövlükdə/ sistemləşmiş qanuna uyğunluqlar yığımıdır. Elmin vəzifəsi bu qanunların ayrı-ayrılıqda və birgə fəaliyyətlərini aşkar etmək, insanların onlardan bəhrələnməsinin yollarını aşkarlamaq və həyata keçirilməsini təşkil etməkdən ibarətdir. Deməli elm təbiət qanunlarını aşkarlamaq vasitəsidir. Elmin məqsədi, aşkar edilən qanuna uyğunluqları, insan həyatının bütün sahələrində, insanların yaşayışını yaxşılaşdırmağa, zənginləşdirməyə xidmət etməkdir. Başqa sözlə, elmin məqsədi təbiət qanunlarını insanların həyatına gətirmək, ona yeni nəfəs vermək, canlandırmaqdır. Elm vəzifəsi və məqsədi ilə bütövdür. Yarımçıq elm gərəksizdir, izafi zəhmətdir.

2.Elm və düşüncə. Düşüncə hər bir insanın özündən ayrılmaz, özünə məxsus fəaliyyətidir. Düşüncənin olması o deməkdir ki, insan öz hərəkətlərini, danışığını müəyyənləşdirir, yəni ən münasibini, optimalını tapmağa çalışır. Bu isə artıq elmi fəaliyyətdir. Düşüncə elmi fəaliyyətin başlanğıcıdır. İnsanlar düşüncəsiz ola bilmədikləri kimi elmsiz də ola bilməzlər.

3.Elm bugünkü mərhələsinə özünün kor-təbii yaranmış deltasından süzülərək gəlib çatmışdır.

4.Sosializmə keçid elmin məhsuldar qüvvəyə çevrilməsi ilə başlayır. Bu tələbə etinasız yanaşılaraq yaradılan sovet sosializmi sonradan buna çata bilmədi, yəni elmi məhsuldar qüvvəyə çatdıra bilmədi.

5.Elmi fəaliyyət istehsal fəaliyyətinin idarə olunmasının ən yüksək formasıdır.

6.Bizim texniki və humanitar elm sahələrində çalışan çox böyük alimlərimiz olub və var. Lakin onlar fərdi qaydada-əlaqəsiz işlədiklərindən zəhmətlərinin effekti tələb olunandan az olub. Odur ki, alimlərin işləri sistemləşdirilməlidir. Onda əsərlərin milli dəyərləri qat-qat artar, müəlliflərin ölməzliyi reallaşar.

7.Şah Abbasın əmrilə Ordubad Cümə məscidinin giriş qapısının üst tərəfində yazılmışdır: "Ordubad əhli Xoca Nəsrəddin Tusiyə görə vergidən azad olunsun".

Yusif Məmmədəliyevin elm fəaliyyəti sayəsində sovet ordusu İkinci Dünya müharibəsindən qalib çıxdı. Əvəzində Sovet dövlətindən gördüyümüz bu oldu ki, Gürcüstandan və Şimali Qafqazdan qardaşlarımız üç günün içində Orta Asiyaya sürgün edildilər. Azərbaycanın yerli əhalisinin isə sürgün edilməsi gündəliyə çıxarılmışdı.

Budur müstəqillik, budur əsarət.

8.İstehsalın effektivliyi və ölkə tələbatının ödənilməsinin dərəcəsi idarə etmənin necə rasional təşkil olunmasından, idarə etmənin səmərəliliyi elm-istehsalat arası əks əlaqənin necə fəaliyyət göstərməsindən asılıdır.

9.Elmin əsas məqsədlərindən biri də ixracatı idxala nəzərən daim artırmaqla yanaşı, onun səviyyəsini artan idxaldan yüksəkdə saxlamaqdan ibarətdir.

10. Niyə bizim alimlərimiz /ali savadlı mütəxəssislərimiz/ xalq Hərəkatından uzaq durdular? Nəticədə, necə deyərlər, araba atlardan qabağa düşdü....

Axı Milli Azadlıq uğrunda mübarizədə xalqın sıra adamları deyil, alimi, ziyalısı öndə gedər və hətta lazım gələrsə, zindanlara düşməkdən çəkinməzlər. Azərbaycan bu mərhələyə çata bilibmi?

11.Sadələşdirilə bilinməyən sistemlər heç də həmişə həddindən artıq mürəkkəb sistemlər olmurlar. Sadələşdirilə bilmirsə, deməli, elm hələlik bunu həll edə biləcək səviyyəyə çatmayıb.

12.Müharibə, müharibələrin səbəbi-az zəhmət çəkməklə başqa xalqların milli məhsullarına sahib olmaq istəyindən irəli gəlir. Bəs məhsul bolluğunu necə yaratmaq olar? Elmlə. Elmə sahib olmaqla, müharibələrə də son qoymaq mümkün olacaqdır. Bəs elmə necə nail olaq? Biz müasir elmə sahib ola biləcəyikmi?

13.Ali Attestasiya Komissiyası sivilizasiyanın, müdafiə şuralarına inamın olmamasının əlamətidir. Bu inam etibar qazanmayınca bu komissiya da qalacaqdır.

14.Kovalent tipli əlaqə – ədalətli əlaqədir, bərabər hüquqlu əlaqədir.

15.Bazar iqtisadiyyatı istehsalı /deməli elmi fəaliyyəti/ sonu olmayan estafetə çevirir.

16.Elmin inkişaf indeksi: elmin göstəriciləri və bu sırada Ümum Dünya Məhsulunun elmlə bağlı həcmi, işçilərin sayı, elmin xüsusi çəkisi. ÜDM – ÜDM /elmin müdaxiləsi olmayan hissəsi/ = ÜDM /elmlə bağlı olan hissəsi/ dünyada iqtisadi inkişafın əsasını təşkil etməlidir. Bu fərq ildən ilə artmalıdır.

Bütün ölkələr kimi bu indeksin Azərbaycandakı vəziyyəti – Azərbaycan Respublikasının iqtisadi potensialının yaradılmasında elm potensialının xüsusi çəkisi də müəyyənləşdirilməlidir. Budur dövlətin bu gününün və gələcəyinin uğurluluğunu müəyyən edən loğman.

17.Təfəkkürün yeni hüdudları adamlara gec çatır, mənəviyyatın yenidən qurulması ləngiyir. Tarixsiz-dünyasız /dinsiz/-mənəviyyatsız-elmisiz, yalnız çörəklə, pulla "yeni dünya" qurmaq olmaz.

18. "Əkinçi" qəzetinin 1877-ci ilin sentyabr ayının 1-də çıxmış 18-ci sayında /"Mətbuat" bölməsində/ xalqımızın gələcək bütün dövrlərinin ziyalısı səviyyəsinə yüksələ bilmiş Həsən bəy Zərdabi yazırdı: "Ay qardaşlar, "Əkinçi" qəzetinin fəryadını eşidib, elm təhsil etmək dalınca olun, necə ki, bir çırağın yağı qurtaranda onun işığı kəsiləndən irəli, ondan bir şəfəq çıxar və bu zaman onun üstünə təzə yağ tökülməzsə, bilmərrə tamam sönüb yox olur, habelə "Əkinçi" qəzeti sizin üçün bu axırda çıxan şəfəqdir. Haray, qardaşlar, yağ, yağ, yağ. Yoxsa "Əkinçi" sönüb bizi zülmətə qərq edər ki, bu zülmətdən bizim üçün xilas olmaq yoxdur".

Tarix təkrarlanır. Böyük vətəndaş Həsən bəy Zərdabinin bu sözlərini, demək olar ki, eynilə bu gün də təkrarlamağa böyük ehtiyac vardır. Bircə fərqlə –"yağ" sözü "elmlə" əvəz olunmalıdır. Daxil olduğumuz qloballaşma və keçdiyimiz bazar iqtisadiyyatının elmə olan tələbini, elmimizin zəifliyindən yoxsulluğun və ətraf mühitin çirklənməsinin baş alıb getdiyini, müstəqil dövlətimizin qorunub saxlanılmasının və işğal olunmuş torpaqların azad olunmasının zəruriliyini nəzərə alaraq, fəryad qoparmalıyıq. Elm, Elm, Elm!

19.Elmi-texniki inqilab /ETİ/ baş verən ölkədə iqtisadi böhranın baş verməsi /dərinləşməsi/ mümkün deyil, çünki bu və ya digər səbəbdən bir /hətta bir-neçə/ sahədə ortaya çıxan hər hansı çatışmamazlıq, digər sahələr tərəfindən aradan qaldırılır. Əgər ETİ tam başa çatmayıbsa, yəni inkişaf bir və ya az sayda istiqamətlərdədirsə, onda böhranın dərinləşməsi ehtimalı artar. Məs., əgər ABŞ-da elektrik enerjisi atom elektrik stansiyalarının dayanması hesabına azalarsa, bu, digər növ stansiyaların gücünü artırmaqla, həll oluna bilər. Kuveytdə bu, çox güman ki, mümkün olmaz.

20.Elmi ixtiraların sayını artırmaqdan əvvəl, olanların hər birinin talei ilə maraqlanmaq lazımdır.

21.Siyasətdə reaksionerlər, elmdə konservativ olurlar.

Elmdə inqilab, cəmiyyətdə təkamül olmalıdır.

Cəmiyyətdə inqilab, elmdə /həyatda/ geriləmə deməkdir.

22.Türk xalqlarının elm üzrə vahid terminlər sözlüyünü yaratmaq vacibdir.

23.Tədris müəssisələrində məlum elm-bilik öyrədilir, elm-tədqiqat institutlarında elmi fəaliyyət göstərilir, yəni təbiətin məlum olmayan qanuna uyğunluqları öyrənilir /aşkarlanır/, yeni elm aşkar edilir.

24.Sovet dövründə son 30 ildə Azərbaycanda yaranmış yeni istehsal sahələrinin hansıları alimlərimizin təklifləri əsasında və ya iştirakı ilə yaradılıb?

25. Elm bir bulaqdır, sahibi ilə yanaşı ətrafdakıları da yaşadır.

26.Müasir həyatın bir mənalı həqiqətidir: iti ağılları qiymətləndirməyən xalq ölümə məhkumdur.

27.Bu günün elmi sabahın iqtisadiyyatıdır.

28.Ümid edirik ki, II Dünya müharibəsinin taleyinin həll edilməsində öz həlledici sözünü demiş Azərbaycan elmi, artıq bu gün, öz vətən müharibəmizin də qələbə ilə başa çatdırılmasında və ölkəmizin iqtisadi inkişafında da qəti sözünü deyəcəkdir.

29.Allahın dərk olunması üçün insan cəmiyyəti onun yaratmış olduğu aləmin sirlərini öyrənməyə və onlardan insanların bəhrələnməsinə daim can atmalıdır. Bu isə elmi-texniki laboratoriyalarda öz həllini tapır.

Azərbaycan xalqını xilas edəcək bir yol varsa, o da elmə sahib olmaqla Allaha yaxınlaşmaqdan keçir.

30.Tanınmış alimləri iri müəssisələrin işində iştirak etmək üçün, heç olmasa məsləhətçi olaraq dəvət etmək rəqabətin uğurluluğunu təmin edər.

31.Dövlət Elm Texnika Komitəsi /Azərbaycan Respublikasında elmi fəaliyyətin koordinasiya edilməsi ilə məşğul olan mərkəzi dövlət orqanı/ iqtisadi sahələrin gələcək inkişafı üçün, elmi-texniki tərəqqi və istehsalın texnoloji səviyyəsinə görə, istehsal olunan məhsulların keyfiyyətinə görə və bütün iqtisadi sahələrin buraxdıqları məhsullar üzrə ölkənin və bazarın tələbatının yüksək səviyyədə

təmin olunmasına məsul olmalıdır. Təbii ki, bu məsuliyyətə uyğun DETK səlahiyyətlərə də malik olmalıdır.

32.YUNESKO-nun elm üzrə keçmiş /1945-ci il/ və indiki /1990-cı il/ öhdəlikləri; YUNESKO-nun II doğuluşu adlanan 1990-cu il Ümumdünya Konfransında müzakirə olunan elm üzrə yeniliklər haqqında nə bilirik və nə etmişik?

33.Elmi fəaliyyətin kütləviləşməsi üçün bütün telekanallarda alimlərlə müntəzəm görüşlərin təşkilinə daha böyük ehtiyac var /bəzi tele ulduzlarımız incisələr də/.

34.Təhsilimizin vəziyyəti, /N.Tusi məktəblilərinin klubu verilişinə baxarkən/: cəmi 4 suala – 4 xal qazanmaq olar. Yekun 2:1 qalibi müəyyənləşdirir. Hətta 1:0 –hesabla da /25 %-lə / qalib müəyyənləşir. Niyə? Belə çıxır ki, təki kimdənsə, irəlidə olmaq /hətta təsadüf nəticəsində/ qalib adını qazanmaq üçün kifayətdir. Belə düşüncə yeniyetmələrdə savadlı kəlməsini yanlış anlamalarına səbəb olur.

Eləcə də ali məktəblərə 200 bal toplayanlar qəbul olunurlar, hətta 50 bal toplayanlar da qəbul olunmuşlar. Axı heç bir savadı olmayanın test üsulunda 50 bal toplamasının ehtimalı sıfır deyildir, kifayət qədər yüksəkdir. Bu o deməkdir ki, ali məktəblərə qəbul üçün minimum /ən azı mümkün maksimumun yarısından çox/ bal müəyyənləşdirilməlidir. Kluba gəldikdə isə onu futbol oyununa bənzətməmək düz olar.

Tələbə qəbulunu planlaşdırılan sayı əsas tutub, qəbulu çox aşağı balla həyata keçirmək ancaq təhsilimizi düzgün qiymətləndirə bilməməyimizlə yanaşı, gələcək elmimizi də aşağılamış oluruq.

35.Uşağın tərbiyəsi ilə ana bətnində olduğu dövrdən başlamaq lazımdır, demişlər. Bu fikrin hamı tərəfindən qəbul olunduğu bir zamanda, necə olur ki, dövlət və ümumxalq əhəmiyyətli bu məsələ, demək olar ki, əsasən, valideynlərin öhdəsinə buraxılır. Əslində bu məsələdə dövlətin də, xalqın da gələcək yüksəlişinin bünövrəsi qoyulur.

36.Uzun müddətli perspektivdə artım, müasir texnologiyalardan istifadə etmədən, elm tutumlu və resurslara qənaət edən istehsalı inkişaf etdirmədən mümkün deyil.

37.Elm insan zəkasının günəşidir – həyat mənbəyidir. Bu günəşə sahib olan insan bu günəşin işığı vasitəsilə göydəki günəş də daxil olmaqla, bütün ətrafını öyrənib görmək, onu istiqamətləndirmək, ona uyğunlaşmaq imkanına malikdir.

38.Elmi fəaliyyət sahəsində dövlətlərin yaxınlaşması, digər sahələrə nəzərən, geoiqtisadi siyasət yolunda ən önəmlisidir.

39.Elm, istehsal və təhsil müəssisələrinin qarşılıqlı təsirini nəzərə almaqla, onların inkişaflarının proqnozlaşdırılması zərurətini ortaya qoyur.

40.DETK-nın məqsədi, istehsalın daima yeniləşməsinin təşkilinə Azərbaycan elminin hər an hazır olmasıdır – tez bir zamanda respublikamızı elmi-texniki tərəqqiyə çatdırmaqdan ibarətdir. Bu məqsədini yerinə yetirmək üçün DETK, elm işlərini sistemləşdirib, elm potensialının işini səmərəli təşkil etmək vəzifəsini həyata keçirir.

41.Azərbaycan elminin yaxın gələcək proqnozu hər bir dövrdə aparılmalıdır.

42.Bir adam başına düşən iqtisadi əlamətlərinə görə Azərbaycan hansı modelə /ölkəyə/ uyğun gəlir. Məs., elmə çəkilən xərc = 2 buruğun qazılmasına sərf olunan xərcə və elmdən gələn gəlir 2 buruqdan gələn gəlirdən çox-çox azdır.

43.İM yarım fabrikat kimi istehsal müəssisələrinin mətbəxlərinin intizarında olur.

44.Bu gün işimiz xaricilərə elm öyrətmək yox, onlardan öyrənməkdir.

45.Alim və mütəxəssislərin öz elmi-texniki nailiyyətləri əsasında intellektual sahibkara çevrilməsinə dövlət himayəsi olmalıdır.

46.Alim və mütəxəssislərin ictimaiyyət tərəfindən müdafiəsi vacibdir.

47.İstehsal olunan məhsul dünya bazarına çıxarsa, müəlliflər /fiziki və hüquqi şəxslər dövlət güzəştlərinə, mükafatlarına, qanunla müəyyən olunmuş qaydada, layiq görülürlər.

48.Respublikamızın iqtisadi sahələrinin pasportu olmalı olduğu kimi, elm sahələrimizin də pasportu /sifəti/ olmalıdır.

49.Azərbaycandan başqa ölkələrə şəxsi təşəbbüsləri və fərdi qaydada gedən mütəxəssislər, elm adamları bizim itirdiyimiz ən qiymətli kapitallarımızdırlar.

50.22.01.96. il tarixində NK yanında keçirilmiş iclasın 5 saylı protokolundan /çıxarış/: E.Əfəndiyevə tapşırılsın ki, bundan sonra da büdcədən maliyyələşməsini davam etdirmək üçün dövlət əhəmiyyətli fundamental elmi tədqiqatların istiqamətlərini müəyyən etsin.

Nə edilib, yerinə yetirilibmi?

Yazıçıya hansı tapşırıq verilir. Elə bu faktın özü bir milli faciə dramının əsasında dura bilər.

51.İqtisadiyyatın və səmərəli təkliflərin /ümumiyyətlə/ tətbiqinin statistik analizi aparılmalıdır.

52.Elmə fikir verməmək, bar verən ağacı kəsib qızınmaq üçün yandırmaq qədər pisdir - məsuliyyətsizlikdir.

53.Elm, həyatda nə edilirsə, odur.

Elmlərin cəmi siyasətdir.

54.Qeyri xətti sistemləri sürətli həyəcanlanmalarla optimallaşdırmaq olmaz, bir müddət sonra əvvəlki vəziyyətinə qayıdacaq. Məs., gəlirlərin artırılması. Ancaq zəif həyəcanlanmalarla evolyusiya mümkündür.

55.Ekonomiks – ev haqqında qanunlar elmi deməkdir. Eko-ev mənasını verir. Bu evdə necə yaşamaq, həyat üçün lazım olan enerji kimi də mənalandırılır.

56.Elm sahəsində beynəlxalq əməkdaşlıqda mühacir elm adamlarımızın yeri: Ölkə daxili və xarici elm-texniki cəmiyyətlərin yaradılması – onların iş birliyinin təşkili /əlaqələndirilməsi/ çox tərəfli faydalı olar.

57.Dövlətin iqtisadi, xarici və elm siyasətlərinin qarşılıqlı münasibətləri – onların qarşılıqlı əks əlaqələri ilə müəyyənləşir.

58..Elm yarımçıqlığı sevmir, bütövlüyü sevir.

59.Elm potensialımız klinikadır /Qərib Qaranlı/.

60.Hər bir ölkənin ümumi sərvəti ölkənin intellektual potensialının təbii sərvətlərinə münasibəti ilə müəyyənləşir. İntellektual potensialın aktivliyi yer sərvətlərindən istifadənin səmərəliliyini

müəyyənləşdirir. Əks halda, «qarğalar da mənim quşumdur, ancaq yumurtasını görmürəm» deyimini xatırladır.

61.Azərbaycan patentlərinin yayılması ilə heç kim məşğul olmur. Olarsa xeyri cərimələrindən çox olar, çünki patentlərimizə inam çox aşağıdır.

62. Prosesin istiqaməti – sistemin tendensiyası – sistemin entropiyası öyrənilə bilir. Bir sistem olaraq, cəmiyyətin istiqaməti - cəmiyyətin tendensiyası - cəmiyyətin entropiyası öyrənilə bilirmi? Obrazlı desək, DETK–entropiyadır–elmi fəaliyyətin istiqamətini müəyyənləşdirməlidir. Elmi fəaliyyətin vəziyyəti isə cəmiyyətin entropiyasıdır, onun inkişafını müəyyənləşdirir.

63.Keçmiş və müasir dövrlər elmi-texniki tərəqqilərin yarışı ilə xarakterizə olunub, olunur. Gələcək dövrlər də uyğun olaraq belə xarakterizə olunacaq.

64.Təhsil sisteminin müqəddəsliyinin gözlənilməsi onun sağlamlığıdır, bu isə cəmiyyətin sağlamlığı deməkdir.

65.Elmi fəaliyyət ardıcıl /kəsilməz/ və bütövlüyə malik olmalıdır. Elm sonu olmayan estafetdir, dayanmaq olmaz, dayanan geri qalır, istər fərd olsun, istər millət və ya dövlət olsun.

66.Elmi dünya görüşü qəbul edən dindar onu qəbul etməyən dindardan ALLAHA /dinə/ daha çox yaxındır /xidmət göstərir/.

67.Təlim, Təhsil və Elm - insanı digər canlılardan fərqləndirən üçlükdür.

68.Təlimin necə təşkil olunmasından və onun nəticəsindən asılı olaraq, gənc nəsildə əməyə, o cümlədən təhsilə münasibət formalaşır. Təhsilin keyfiyyətindən asılı olaraq, elmin inkişafı müəyyənləşir və gələcəkdə öz yerini tutur. Elmin istehsalatda özünü tapması dərəcəsi cəmiyyətin inkişaf səviyyəsini müəyyənləşdirir.

69.Bazar iqtisadiyyatı və demokratiya şəraiti elmi - texniki tərəqqinin əsasıdır:

Güclü dövlət /qanun və nəzarət/ + /elm + istehsal fəaliyyəti/ + demokratiya + bazar iqtisadiyyatı /T+M/= elmi - texniki tərəqqi;

T–təşəbbüs, M–məsuliyyətdir.

70.Elmi-texniki tərəqqi istehsalın bütün sahələrində elmi fəaliyyətin effektivliyinin yüksək dərəcədə artması deməkdir. Bu bazar iqtisadiyyatı şəraitində mümkün olduğundan sovet dövlətində buna nail olunmadı.

71. Xalq hərəkatını dağ selinə bənzətmək olar, o da qarşısında olan hər bir maneəni yuyub aparmaq gücünə malikdir. Lakin bu dağ selinin idarəçiliyini ziyalılar öhdələrinə götürdükdə o, məcrasından çıxmayır və ancaq faydalı olur- bir yerdə toplanıb zamanında istifadə olunur.

72.Elm qanunları təbiətdə nizam–intizamın varlığı deməkdir. Demokratiya, cəmiyyətdə nizam intizamın varlığı deməkdir.

73.Hər bir sistemin var olması üçün onun tərkib hissələri arasında qarşılıqlı təsirlər olmalıdır və sistem bu təsirlərin necəliyi ilə xarakterizə olunur. Ölkədə elmi fəaliyyət də sistem əmələ gətirməlidir, yəni sistemə daxil olan hissələr arasında qarşılıqlı təsirlər olmalıdır. Bu sistemin işinin səmərəliliyini, keyfiyyətini müəyyənləşdirir. Göstərilən qarşılıqlı təsirlərin formalaşdırılması və tənzimlənməsi dövlətin elmə münasibətinin necəliyini bildirir. Bir tərəfdən Prezident aparatı, Ali Sovet və Nazirlər Kabineti, digər tərəfdən ölkənin bütün elm və istehsalat müəssisələrini əlaqələndirən bu böyük sistemdə, elm üzrə dövlət qurumu, məs., DETK, sistemin üzvləri arasında əks əlaqənin fəaliyyətini təmin etməlidir. Bütün bunlar onu göstərir ki, DETK–nin üzərinə nə qədər böyük və məsuliyyətli vəzifələr düşür. Təbii ki, dövlətin normal fəaliyyət göstərməsi üçün DETK uyğun səlahiyyətlərə də malik olmalıdır. Elə bu səbəbdəndir ki, ABŞ, Yaponiya, Qərbi Avropa ölkələrində elmi fəaliyyəti koordinasiya edən dövlət qurumlarına çox böyük səlahiyyətlər verilir. Məs., Yaponiyada bu qurumlar DİN, XİN, MN, TN kimi dövlətin ən əsas strukturlarından sonra ən nüfuzlu dövlət idarəsi sayılır. Elə bunu demək kifayətdir ki, Yaponiya və Almaniya bu günkü iqtisadi qüdrətlərinə, əsasən, bu qurumların öz öhdələrinə düşən vəzifələrin öhdəsindən lazımınca gələ bildiklərinə görə çatdıqları bütün dünyada qəbul olunmuşdur. Respublikamızda elmi fəaliyyət sahəsində yaranmış vəziyyət bu sahənin idarəçiliyində əlaqənin çox zəif olduğunu

göstərir. Ona görə də, təcili olaraq, bu sistem yaradılmalı və sistemin qarşılıqlı əks əlaqə əsasında fəaliyyət göstərməsi üçün lazımi mexanizm işlənib hazırlanmalı və həyata keçirilməsi təmin olunmalıdır.

74."Loqo-Tri" bilik ağacını rəmzləşdirir. Bu ağac inkişafın faydalandığı biliyin rəmzidir.

75.İntellekt o kəsdir ki, müxtəlif şeylər arasında ümumi olanı görə bilir.

76.Dövlətlər arası istehsalla bağlı iqtisadi əlaqələrdə elmi fəaliyyət sahəsində əlaqələr də mütləq öz yerini tapmalıdır.

77.Ayrı-ayrı nazirliklər, şirkətlər istehsal və tədqiqat layihələrini /proqramlarını/ DETK-ya təqdim edirlər. Komitənin Elm və Ekspert Şuraları bunları analiz edib, dünya elmi-texniki nailiyyətləri səviyyəsində rəyləşdirirlər /qiymətləndirirlər/ və dövlətə öz fikirlərini /təkliflərini/ bildirirlər.

78.Elmi-tədqiqatların və onların nəticələrinin tətbiqinin risk ehtimallarının proqnozlaşdırılması elmi fəaliyyətin mühüm mərhələsidir.

79.Elmi-texniki ideya və problemlərin təklif və tələb bazarını yaratmaq elmin davamlı inkişafının qarantiyasıdır.

80.Düzgün tərtib olunmayan sənəd nə qədər ziyan verə bilər. Odur ki, hazırlanan sənədlər /layihələr/ beynəlxalq ekspertizadan keçirilməlidir.

81.Azərbaycan Respublikasının müstəqilliyi ilə yanaşı, ilk öncə Dağlıq Qarabağla bağlı düşmüş olduğu bugünkü ağır vəziyyətdə alim və mütəxəssislərimizin cansıxıcı yeri–günahı, qoy özləri müəyyənləşdirsinlər.

82.Elm elə bir lampadır ki, onu əldə edib silə bilən kəslər, hər şeyə qadir olan "cinin"–Elmin ağasına çevrilir, "lampanı" əldən verən şəxs /millət/ isə dünyanın burulğanlarında itib batır.

83.Elmi-texniki proqram iqtisadi yüksəlişi proqnozlaşdırmanın əsasını təşkil edir.

84.Kadr hər şeyi həll edir. Bu deyim elm kadrlarına daha çox aiddir. Ancaq burada onların işləmələri üçün yaradılan şərait də nəzərə alınmalıdır.

85.Elm-istehsalat əlaqələrinin gücləndirilməsi məqsədilə, istehsalat müəssisələrinin texniki şöbələrinin, elm-tədqiqat müəssisələrinin elmi katiblərinin, universitetlərin elm üzrə müavinlərinin DETK-da görüşlərini təşkil etmək, məsləhətləşmək.

86.Biliklər üzrə mühəndis–respublikaya hansı mütəxəssislərin lazım olduğunu müəyyənləşdirir, bu isə ölkə iqtisadiyyatının ayrı-ayrı sahlərinin tələbatına uyğunlaşdırılmalıdır.

87.İngilis mütəfəkkiri F.Bekon demişdir: "Elmlərin əsl və qanuni məqsədi ondan ibarətdir ki, o insanların həyatını yeniləşdirir.

88.Elm müəssisələri səmərəsiz və ailə müəssisələri olmaqdan xilas olmalıdırlar.

89.Hər bir dövlətin daimi fəaliyyətdə olan bir cəbhəsi olur, bu da iqtisadiyyatdır ki, o da elmi-texniki tərəqqidən keçir. II dünya müharibəsinin gedişinin öyrənilməsi də belə bir tarixi faktı təsdiqləyir ki, bu dövrdə elmdən daha səmərəli istifadə edən dövlət müharibədən qalib çıxmışdır.

90.Elmi fəaliyyət sosial məsələlərin həllində, məs., iş yerlərinin yaradılmasında əsasdır, bütün sahələrin inkişafına sıçrayış verir.

91.Sosial-iqtisadi inkişaf proqnozu bir tərəfdən elmi-texniki nailiyyətlərə əsaslanmalı, digər tərəfdən, elmi-texniki siyasəti istiqamətləndirməlidir. Elm və texnikanın vəziyyəti dövlətin ümumi siyasətini müəyyənləşdirir.

92.EA-da hər il 130-a yaxın problem, 500-dən yuxarı mövzu işlənir. Bəs neçə faizi tətbiqlə nəticələnir.

93.Alınan müəlliflik şəhadətnamələrinin /indi patentlərin/ neçə faizi istehsal müəssisələrini özünə məskən edib, neçə dənəsi xariçi ölkələrə satılıb?

94.YUNESKO-nun yaradılmasında məqsədlərdən biri də dünya nemətlərindən ədalətlə istifadə etmək olmuşdur?

95.Respublikanın elm potensialının güclənməsi, daxili iqtisadi bazarı qorumaqla yanaşı, onun özü də daxil, daha inamla dünya bazarına çıxmasına səbəb olacaqdır.

96.Bazar iqtisadiyyatı keyfiyyətsiz məhsulu bazardan rədd edir, elm isə bazara keyfiyyətli məhsul daxil edir.

97.Bu günün elmi sabahın iqtisadiyyatıdır.

98.Artileriya İkinci Dünya müharibəsində “Allahlıq” iddiasını özündə saxlasa da, hava müharibələri qələbənin taleyini həll edə biləcək səviyyəyə çatmışdı. Keçmiş Sovet xalqı /eləcə də dünya xalqları/ müharibənin taleyini həll edən /"sozunu" demiş/ azərbaycan xalqına borcludurlar.

Təbliğatımızın yoxluğundandır ki, bunun əvəzində, bir adət olaraq eşidirik ki, dünya xalqları bizi tanımırlar.

99.İnformasiya istiqamətləri: Keyfiyyətli məhsul təbliğatı; Keyfiyyətsiz məhsula qarsı təbliğat; Elmi-texniki nəticələrin təbliğinə münasibət; İstehsala sahibkarlıq münasibətinin, sahibkarın vətəndaşlıq məsuliyyəti ilə başa çatdırılmasının təbliği cəmiyyətin sağlamlaşmasına xidmət edər.

100."Iti ağlı qiymətləndirməyən xalq məhvə məhkumdur.... Biz bu gün hələ ki özümüzü qoruya bilirik, lakin sabah savadsızların /elmsizlərin – A.M./ verdikləri hökmə qarsı çıxa bilməyəcəyik – bu həyat şəraitində isbata ehtiyacı olmayan qaydadır" /A.H.Uayt/.

101.Elmi tərəqqi korifeylərdən asılıdır. Elmi fəaliyyət bürokratların deyil, alimlərin öz əllərində olmalıdır.

102.Elm, məhsul və hünərin yeganə əsasıdır.

103.Elm insanların yeganə etibarlı ümid yeridir.

104.Alimlər üzrə verilənlərin /məlumatların/ bankı. Elmin istiqamətləri üzrə prioritet, alimlər üzrə prioriteti müəyyənləşdirməlidir. Bu tələb bizdə ödənilirmi?

105.17 oktyabr-23 noyabr 1974-cü il tarixdə elmi işçilərin statusu YUNESKO səviyyəsində qəbul olunub. Azərbaycan Respublikası bu yubileyə hər il nə ilə gəlir.

106.Hansı elm adamımıza milli qəhrəman adı verilib?

107.Patent-lisenziya sahəsində patent müvəkkillərinin iş birliyi alimlərin patentlərinin qanunsuz istifadə edilməsinin aşkarlanmasında və qarşısını almaqda kömək edər.

108.Türk dilli xalqların vahid əlifbasının və eyni ləhcədə danışmalarının təşkili tez bir zamanda işdə özünü göstərməlidir.

109.Xarici dövlətlərlə elmi kadrların mübadiləsi elmdə yaranan yeniliklərlə vaxtında xəbər tutmaq deməkdir.

110.ABŞ kimi inkişaf etmiş bir ölkədə belə, bu gün, Marksın dediklərinə uyğun sosializm qurula bilərmi, qan tökmədən?

111.Bölgələrimizdə olan böyüklü-kiçikli hər növ təbii enerji mənbələri aşkarlanmalı və istifadə olunmalıdır.

112.Elm adamlarının özündə də çeviklik /universallıq/ olmalıdır, yəni hər bir fərd və ya kollektiv şəxsi qüvvəsini daha gərəkli sahəyə yönəltməyi hər an bacarmalıdır.

113.Elm ona laqeyd olanları bağışlamır.

114.Məktəblərdə istedadlı şagirdləri aşkarlamaqla iş bitmir, onlara fərdi qaydada aramsız və sistemli olaraq, ayrı-ayrı bilikləri qavrama qabiliyyətlərinə uyğun yanaşma olmalı, daha da inkişaf etmələrinə təkan verilməlidir. Bu məqsədlə məktəblərdə siniflər kateqoriyalara görə bölünməlidir.

115.Kənd təsərrüfatından əldə oluna biləcək gəlirlə neftdən gələcək gəlirin müqayisəsi. İstifadə olunduqca neft qurtaracaq, torpaq isə daha da varlanacaq.

116.Ölkə iqtisadiyyatını və müdafiə məsələlərini proqnozlaşdırmaq təcrid olunmuş ölkə üçün mümkün deyil, heç olmazsa, onun yaxın qonşuları və dünyanın böyük dövlətləri tərəfdən ona olan münasibət nəzərə alınmalıdır.

117.Bakı-Tbilisi-Ceyhan /BTC/ neft boru kəmərinin tikintisində, istismarında və qorunmasında Azərbaycanın elm potensialının yeri. Nəinki süni, həm də təbii qəza vəziyyətinə nəzarət yüksək ehtimalla onun təhlükəsizliyini təmin etməlidir.

118.Elm üzrə orta insan – çəmiyyətin inkişaf səviyyəsini göstərir.

119.Alternativ proqnozların olması ona görə lazımdır ki, bizim nəzərə almadığımız /proqnozlaşdırılmayan/ hadisələr baş verərsə, hadisələrə uyğun yeni proqnozların aparılması sürətləndirilə bilsin.

120.Varlı dövlətlər və savadsızlığın ən aşağı səviyyədə olduğu ölkələr elmə, təhsilə ən çox pul buraxırlar.

121.İnformasiyaların bolluğu şəraitində qəbul olunmalı informasiyaların müəyyənləşdirilməsi və sistemləşdirilməsi həyatın tələbidir.

122.Rəqəmlərlə işləmək, lakin hansı rəqəmlərlə /etibarlılıq mənasında/.

123.Təhsilin və elmin vəziyyəti, elmin istehsal yönümlüyü; elmin təhsili istiqamətləndirməsi; təhsilin istehsalata və elmə yönümlüyü; təhsildə mövcud /söylənilən/ narahatlıqlara məsul şəxslərin reaksiyası; bütün xalqın reaksiyası dövlət informasiya vasitələrində; qeyri-dövlət təşkilatlarının mətbuatında; təhsil işçilərinin özlərinin rəylərində; valideynlərin /şagirdlərin və tələbələrin/ rəylərində öz yerini tapmalıdır. Təhsilə və elmə biganəlik məhv olmaq deməkdir.

124.Pyotr Leonidoviç Kapitsa: düşünürəm ki, cəmiyyətin inkişafının vahid qanunlara tabe olduğunu insanların qəbul etmələrinin və belə bir əsasla özlərinin ən effektiv və ədalətli ictimai quruluş quracaqlarının zamanı çox da uzaqda deyildir.

125.Görəsən keçmiş sovet ideologiyasının baş bilən alimləri yazdıqları qalaq-qalaq məqalə və məruzələrinə, kitablarına baxaraq nə hisslər keçirirlər, hədər getmiş ömürlərinə heyfsilənmirlər ki? Heç olmasa bundan sonrakı ömürlərini xoşluqla, yaddaşlarda qalacaq bir tərzdə keçirə bilsinlər.

SON SÖZ ƏVƏZİ

"Qafqaz" Beynəlxalq İntellektual Sahibkarlar cəmiyyətinin dünya azərbaycanlılarının elm və işgüzar ictimaiyyətinə müraciəti.

Əziz həmvətənlər,

İndiki dövrdə Azərbaycanda baş verən siyasi, ictimai və iqtisadi hadisələr Respublikamızda müstəmləkə zəncirinin qırılması ilə yanaşı, dövlət müstəqilliyimizə düşmən kəsilən xarici və onlara söykənən daxili düşmən qüvvələrin respublikamızı bu yoldan döndərmək cəhdlərinin daha geniş miqyas aldığından xəbər verir. Azərbaycan Respublikasının cəlb olunduğu odlu müharibə, yeni müstəqil dövlətlərin hamısında müşahidə olunan təsərrüfat pozğunluqlarının Azərbaycanda daha da şiddətlənməsinə səbəb olmuşdur. Odur ki, azadlıq hərəkatımızın dönməzliyini təmin etmək günümüzün ən vacib məsələsinə çevrilmişdir. Biz bu işdə vətəndaşlarımızın demokratik dövlət quruculuğu məsələsi ətrafında daha aktiv və sıx birləşməsi ilə yanaşı, dünyaya səpələnmiş qardaşlarımızın da, əsasən, alim, intellektual sahibkarlarımızın və mütəxəssislərimizin bu istiqamətdə səylərini birləşdirilmələrini və vətəndə çalışan həmkarlarına qoşulmalarını vacib sayırıq. Eyni zamanda nəzərə alırıq ki, xalqımızın 200 ildən artıq müddətdə müstəmləkə şəraitində, aramsız olaraq məruz qaldığı genosid, əsasən, alim və mütəxəssislərimizə qarşı yönəldiyindən, bu insanların əksəriyyəti real həyatdan uzaq düşmüşlər. Bununla belə, unutmaq olmaz ki, keçmiş SSRİ-dən Azərbaycan Respublikasına ən qiymətli miras olaraq, nisbətən güclü elm potensialı qalmışdır.

Məlumdur ki, dövlətin qarşısında duran bütün məsələlərin həlli onun iqtisadi gücünə söykənir və bu, dünya təcrübəsinə əsaslanaraq deyə bilərik ki, bazar iqtisadiyyatına keçidin uğurlu başa çatdırılmasını tələb edir. Uğurlu bazar iqtisadiyyatına isə ancaq elmi texniki tərəqqiyə çatmaqla nail olmaq olar, belə ki intellektual zəhmətin məhsulu tükənməzdir. Bu baxımdan, biz, respublikamızda

mövcud olan elm potensialından səmərəli istifadə etməklə onu daha da inkişaf etdirməliyik. Bunun isə əsas yolunu dünyada sülhü qorumağa xidmət edən, ilk növbədə, Azərbaycan iqtisadiyyatı ilə bağlı beynəlxalq elmi əməkdaşlığa qoşulmaqda görürük. Hökumətlər və özəl sektorlar arası elmi, elmi-texniki əməkdaşlıq, hər bir dövlətdə elmi fəaliyyətin səmərəliliyinə təkan verməklə yanaşı, istehsal sahələrinin durmadan yüksəlməsinə səbəb olar. Ən əsası isə bu əməkdaşlıq xalqlar arasında ünsiyyətin möhkəmlənməsinə, uzun müddətli olmasına, xalqımızın salınmış olduğu informasiya blokadasının yarılmasına yardım edər. Xalqımızın haqlarını müdafiə edən dünya alimlərinin sayı qat-qat artar.

Biz hesab edirik ki, ayrı-ayrı xalqların azadlığı dünya xalqlarının ümumi azadlığı şəraitində mümkündür. Buna da, ilk növbədə, ölkələrin elm sahəsindəki mütəxəssislərinin sıx əməkdaşlığını təşkil etməklə nail olmaq olar. BİS cəmiyyəti bu yolla xalqların, o cümlədən, azərbaycan xalqının azad iqtisadi yüksəlişi uğrunda çalışmağı və bununla da YUNESKO-nun elm sahəsindəki tədbirlərinin həyata keçirilməsində aktiv iştirak etməyi qarşısına məqsəd qoymuşdur. Kütləvi qırğın silahlarının yaradılması və istehsalının dayandırılması, ləğvi və s. uğrunda dünyada aparılan mübarizələrə alim və mütəxəssislərimizin qoşulmalarının təşkili cəmiyyətimizin əsas fəaliyyət sahəsi kimi müəyyənləşdirilmişdir. Cəmiyyət dünyada, eləcə də Qafqazda sülhün qorunması məqsədi ilə Qafqazın silahsız zonaya çevrilməsi uğrunda mübarizəni vacib sayır. Alimlərimizin sosial müdafiəsi də cəmiyyətimizin işidir. Cəmiyyət respublikada özəl sektorda elmi fəaliyyətin güclənməsi, alim və mütəxəssislərimizin sahibkarlara çevrilməsi uğrunda mübarizə aparır.

Hörmətli soydaşlarımız,

Azərbaycanımızın şərəfli, lakin böyük çətinliklərlə qarşılaşdığı bugünkü həyatında vətəndən uzaqlarda olan Sizlərin də fəal iştirak etməyinizi vacib sayırıq və buna görə də Sizlərə müraciət edirik. Biz əminik ki, Sizlər yuxarıda sadalanan məsələlərin həllinə aktiv qoşulmaqla dövlətimizin möhkəmlənməsi, torpaqlarımızın bütövləşməsi, xalqımızın azadlığının dönməzliyi kimi vacib məsələlərdə

aktiv iştirakçı olmaq imkanları əldə etmiş olacaqsınız. Xalqımızın növbəti dəfə qazanmış olduğu müstəqilliyin imkanlarından səmərəli istifadə etmək bizim hər birimizin müqəddəs borcudur.

Oktyabr 1995-ci il
Müraciət Azərbaycan Beynəlxalq
İntellektual Sahibkarlar Cəmiyyətinin
1995-ci ildə keçirilmiş təsis yığıncağında
qəbul olunmuşdur

Kitaba son nöqtəni qoymazdan əvvəl N.Tusinin məlum "Əməlsiz elm, elmsiz əməl qədər bir heçdir" deyiminə qayıtmağa bir daha mənəvi ehtiyac hiss etdim. Belə ki, deyimin birinci hissəsindən – "Əməlsiz elm bir heçdir"-dən anlaşıldığı kimi, deyimdə məqsəd, diqqətləri, ancaq elm və istehsal adamlarının işi olan elmi fəaliyyətin nəticələrinin uyğun sahələrdə tətbiq olunmasının insanların həyatında qiymətləndirilməsi mümkün olmayan çox böyük yeri olduğuna yönəltmək olmuşdur. Deyimin ikinci – "Elmsiz əməl qədər bir heçdir" hissəsinə diqqət yetirdikdə görürük ki, bu deyimlə elm, insanları bütövlükdə əhatə etməklə yanaşı, onların bütün fəaliyyətlərinin və düşüncələrinin tərkib hissəsidir. Əməlində elmə (onun həyatda tətbiqini tapmış nəticələrinə) söykənən insanlar daim uğur qazanırlar. Elm əməllə yekunlaşdığı (təsdiqləndiyi) kimi, əməllər də elmə söykənirlər (təsdiqlənirlər), elm (onun nəticələri) bütün insanların düşüncə və əməllərini yönəldir. Elm əməldən, əməl elm-dən ayrılmamalıdır, əgər ayrılarlarsa bu bütövlükdə cəmiyyətin bütövlükdə fəlakəti olar.

Ədəbiyyat siyahısı

1.Azər Hüseynov, "Dövlət – xüsusi sektor əməkdaşlığı", Xalq qəzeti, 16 noyabr 2001.

2.Содружество Независимых Государств, Исполнительный Комитет, «Экономика СНГ: 10 лет реформирования и интеграционного развития» Москва-2001 г. стр. 324.;

3.Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı, AR DETK "Sənaye mülkiyyətinin kommersiyalaşdırılması və lisenziyalaşdırılması", Seminar, 29 aprel 1999 il, Bakı şəhəri.

4. М.Городисский, "Патентование должно быть выгодно всем", ЭЖ, № 3, январь 2000.

5."Комплекс проектов международных стандартов оценки имущества", Стандарт 1A "Оценка материальных активов". М/Н Комитет по стандартам оценки имущества].

6.Стандарт Российского Общества Оценщиков, "Оценка объектов интеллектуальной собственности", (общие положения), Москва,1996 г.; ."Об утверждении Положения по бухгалтерскому учету «Учет нематериальных активов» ПБУ 14/2000", Мин-ство финансов РФ, Приказ от 16 октября 2000 г. № 91н.;

7.Кудашов В.И., "Оценка интеллектуальной собственности".

8."Özəlləşdirilən dövlət mülkiyyətinin qiymətləndirilməsinə dair metodik göstərişlər", Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 mart tarixli 451 saylı Fərmanı;

9."Özəlləşdirilən müəssisə və obyektlərin qiymətləndirilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 avqust 1999-cu il tarixli 140 saylı qərarı.

10. Насибов Н.А., "Некоторые аспекты процесса приватизации в Азербайджане в 1966-1999 гг.: проблемы и перспективы". Azərbaycan neft təsərrüfatı, № 7-8, 2000-ci il.

11. «Внедрение изобретений в промышленности США» Изд., «Наука» М., 1984 г.].

12. Наука СССР в цифрах: 1990. Центр исследований и статистики науки, М., 12. 91г..

13.Saleh Məmmədov, «Роль государственных бюджетов союзных республик в распределении национального дохода», "Azərbaycan Xalq təsərrüfatı", №6,1981.

14.Интенсификация экономики Азербайджанской ССР на основе ускорения научно-технического прогресса на 1986-1990 г.г. и на период до 2000 года (научный потенциал и повышение его эффективности), Баку – 1986 г..

15."Sənaye mülkiyyətinin kommersiyalaşdırılması və lisenziyalaşdırılması" üzrə seminar, materialları, Bakı, DETK, 29-30 aprel, 1999.

16.Musayev A.M. 1."İqtisadi yüksəlişimizin soraqlarında", "İki sahil" qəzeti, 16; 19 aprel, 2 İyun 1994;

17.«О первоочередных мерах по выполнению особо одоренных учащихся», решения Коллегии Государственного Комитета СССР по народному образованию, № 11/1, 07.04.89.

18.A.M.Musayev, "Gənc istedadları necə tapaq", "Maarifçi" qəzeti, 20 avqust 1995 il.

19.Cəfər ibrahimov, "Özəlləşdirmədə qiymətləndirmə", "Aydın" fikir dərgisi, 2002–1.

20.A.M.Musayev, İqtisadi inkişaf sosial sahənin dirçəldilməsinin zəruri şərtidir, "Xalq qəzeti", 13.03.2002.

21.Musayev A.M. "Özəlləşdirmə zamanı intellektual mülkiyyətin qiymətləndirilməsi haqqında", "Müasir əmlak bazarı və qiymətləndirmə fəaliyyətinin qanunvericilik təminatı" II beynəlxalq elmi praktik konfransın materialları, Bakı, 2001, səh.62.

22.A.M.Musayev, "Bazar iqtisadiyyatı və elmi – texniki siyasət", Xalq qəzeti, 30 mart 2001 il ; 20 aprel 2001 il.

23.A.M.Musayev, "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Akademik komissiyası və Azərbaycan Respublikasının iqtisadi maraqları", Elm və texnika yenilikləri, № 1(5), 2001.

24. А.Мусаев «Интеллектуальное собственничество», газета «Günay», 6 июля 1995 г;

25. Abbas Musayev, «İntellektual sahibkarlıq», «Güyay» qəzeti, 6 iyul, 1995 il.

Əlavə ədəbiyyat siyahısı

26.Дж. Гелбрейт, «Новое индустриальное общество», М., «Прогресс», 1969.

27.Osamu Nariai, "Müasir Yaponiya iqtisadiyyatının tarixi", Bakı-Təfəkkür-2000.

28.М.С.Горбачев, «Перестройка и новое мышление для нашей страны и для всего мира»,

29.М.М.Богуславский, «Патентные вопросы международных отнощениях».

30.И.Д.Иванова, «патентная система современного капитализма».

31. «Не ограничивайтесь затратным подходом», ЭЖ. №3, январь, 2000, .

32. «Информационные потрошители атакуют!», ЭЖ. №3, январь, 2000.

33.Н.Астахов, «Брощенная на произвол судьбы», ЭЖ. №3, январь, 2000

34.R. Mustafayev, "Azərbaycan və yeni dünya", ADN, Bakı – 1993.

35.Əbülfəz Rəcəbov, "Dil, şüur, cəmiyyət, tarix", ADN, Bakı – 1993.

36.R. Seyidov, "Fəlsəfə nədir və onu necə öyrənməli", ADN, Bakı – 1967.

37. N.B. Abdullayev, L.M. Vəliyev, "Nizami Gəncəvinin elm dünyası", ADN, Bakı – 1991.

38.Q. Xəlilov, H. Hüseynov, "İslam amili və müasir ideoloji mübarizə", ADN, Bakı – 1990.

39.İzzət Rüstəmov, "XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti", Azərbaycan Dövlət Nəşriyyat–Poliqrafiya Birliyi, Bakı – 1992.

40.Məmməd Həsən Vəliyev (Baharlı), "Azərbaycan", Bakı 1993.

41.M.İ.Həkimov, "Xalqımızın deyimləri və duyumları", "Maarif" nəşriyyatı, Bakı–1998.

42.Основные направления экономического и социального развития СССР на 1986-1990 годы и на период до 2000 года, М, политиздат, 1986.

43 Н.А.Гордеева, «Взаимосвязи Академической науки и производства», М, «Наука», 1985.

44.Ф.де П. Ханика, «Новые идеи в области управления», Изд. «Прогресс», М. 1969.

45.С.В.Пирогов, «Управление наукой», М. «Мысль», 1983.

46.Г.М.Добров и др. «Организация науки», «Наукова думка», Киев-1970.

47.«Научно-технический прогресс и эффективность общественного производства», Изд-во «Наука», М.-1972. АН СССР Институт Экономики.

48.Добров, «Наука о науке», «Наукова думка», Киев-1970.

49.А.И.Анчишкин, «Наука, Техника, Экономика», М, «Экономика», 1989.

50.З.Новрузов, «Природа не прошает ошибок», М. «Мысль», 1988.

51.R.T.Nəsənov, "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları"

52.М.Л.Башин, «Эффективность фундаментальных исследований», Изд. «Мысль», М-1974.

53.Дональд Пельц, Френк Эндрюс, «Ученые в организациях», Изд. «Прогресс», 1973.

****

Çapa imzalanıb: 23.05.2009.
Format: 60x84 1/16. Qarnitur: Times.
Ofset kağızı: əla növ. Həcmi: 19.7 s.ç.v. Tiraj: 150.
Sifariş № 42. Qiyməti müqavilə ilə.

"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru